# MƏDƏNİYYƏT VƏ MƏDƏNİ-İDEOLOJİ HÜCUM

# BÖYÜK RƏHBƏR HƏZRƏT AYƏTULLAH XAMENEİNİN ÇIXIŞLARINDA

## Birinci fəsil: Mədəni hücum və mədəni mübadilə

### 1- Mədəni hücumun mənası

Mədəni hücum siyasi, yaxud iqtisadi bir qrupun öz maraqlarından irəli gələrək bir xalqı istismar etmək üçün onun mədəni təməllərinə hücum etməsidir. Bu hücumda o xalqın milli mədəniyyəti və inamları dəyişdirilir, yeni inamlar zorla ölkəyə daxil edilir.[1]

Mədəni iş kimi mədəni hücum da sakit və səssiz şəkildə həyata keçir.[2]

Mədəni hücum gənc nəsli inamsız etmək üçün edilir; həm dinə, həm inqilabi prinsiplərə, həm də bu gün hegemon gücləri təhlükəyə və qorxuya salan azad düşüncəyə inamsız etmək üçün.[3]

Mədəni hücumda düşmən hücum etdiyi xalqa öz mədəniyyətindən istədiyi hissələri verir və ölkəsinə daxil edir. Düşmənin nə istədiyi də məlum məsələdir.[4]

Mənim dəfələrlə vurğuladığım, həqiqətən və ürəkdən həssas yanaşdığım mədəni hücum məsələsinin iki əsas və mühüm şaxəsi var. Bu iki şaxənin hər biri sizin üçün əhəmiyyətlidir. Onların biri yerli mədəniyyəti əcnəbi mədəniyyətlə əvəzləməkdən ibarətdir. Bu iş Pəhləvi dövründə azad və ucuz şəkildə görülürdü. İslam inqilabı qələbə çalanda buna son qoyuldu. Bunlar indi həmin vəziyyəti qaytarmaq üçün təzyiq göstərirlər. İkinci şaxə İslam Respublikasının və İran xalqının dəyərlərinə hücumdan ibarətdir. Bu iş bu gün bizim ölkəmizdə əcnəbilərin idarəçiliyi altında film və teatr hazırlamaqla, kitab və jurnallar çap etməklə görülür.[5]

**2- Mədəni hücumun mövcudluğuna inanmağın və ona qarşı tədbir görməyin zəruriliyi**

Biz bu gün düşmənlərimizin mədəni hücumuna məruz qaldığımıza inanmalıyıq.[6]

Biz dünyada hər tərəfdən əsas və mədəni düşmənlərimizin hücumuna məruz qalmışıq. Onlar bizim məqsədlərimizə mane olmaq üçün həm xalqın ümumi mədəniyyəti, düşüncəsi və mədəni işləri, həm də təhsil və kadr hazırlığı sahəsində bu işi görürlər.[7]

Məncə, hərtərəfli bir hücum planlaşdırılmışdır. İnqilabın əvvəldə din, iman, ruhani, təqva və bu kimi məsələlərlə maraqlanmayan ziyalı və sənətkarları cəlb edə bilməməsi təbii idi. Əlbəttə, bəziləri inqilaba cəlb olundular. Onların ayıq vicdanları olduğuna görə inqilab onları özünə çəkə bildi. Bəziləri də kənarda qaldılar və inqilab onları cəlb edə bilmədi. İnqilabın ilk illərində bunlar nəfəs almağa cürət etmirdilər. Mənim inqilabdan öncədən yaxından tanış olduğum, xarakter və xüsusiyyətlərini bildiyim bu qrup çətin, ağır və təhlükəli işlərə qoşulan deyil. Əvvəllərdə inqilab seli bunları evlərinə çəkilməyə və uzaqbaşı bağlı qapılar arxasında bir-biri ilə dərdləşməyə vadar etmişdi. Sonra tədricən jurnal buraxdılar, yazdılar, bir yerdə danışdılar, kimsə onların xeyrinə nəsə dedi, bir yerdə şeir oxudular və heç kim etiraz etmədi. Bunlar da gördülər ki, bu şəraitdə təşkilatlanmaq və işləmək olar.

Onlar inqilabın arxa cəbhəsini tamamilə öz əllərinə keçirmək istəyirlər. İnqilabın arxa cəbhəsi xalqdır. Ön xətdə məmurlar durur, sonra məmurlara möhkəm bağlı olanlar, sonra da ümumi xalq. Onlar düşündülər ki, məmurların arxasında duran ümumi xalqın boynuna kəmənd atsaq, ələ keçirə bilərik və hər şey bitər. Dorğudan da bunu bacarsalar, inqilaba güclü zərbə vurmuş olarlar. Əgər arxa cəbhədə olanların düşüncəsini, fikrini, qəlbini, meylini və bəzən əqli seçimini bir tərəfə yönəldə bilsələr, onları əllərinə keçirmiş olarlar. Bu doğrudur. Amma bunu bacararlarmı?! Məncə bu barədə qənaətləri sadəlövhcəsinədir. Onlar bacaracaqlarını güman edib başladılar. Məqsəd budur. Kinoteatrda, mətbuatda, hətta dövlətin tabeliyində olan radio və televiziyada, mədəni zallarda, festivallarda və müxtəlif mədəni mərkəzlərdə həmin qrupun bir üzvünün çalışdığı hiss olunur. Əvvəlcə sırf mədəni formada hərəkət etdilər, indi isə həm də siyasiləşmişlər; hökuməti və quruluşu tənqid edir, quruluşun keçmişini sual altına salırlar.

Bu baş vermişdir. Bu çox təhlükəli haldır. Təhlükəli dedikdə məqsəd bu deyil ki, çarəsi yoxdur, yaxud çətindir. Xeyr! Olduqca asandır. Bu şərtlə ki, xəstə və həkim xəstəliyin nə olduğunu bilsinlər. Bunu biləndən sonra müalicəsi çox asan olar. Təhlükəli olan bizim bunu dərk etməməyimizdir. Biz elm və mədəniyyət mənsubu olduğumuza görə belə şeyləri ayırd edirik. Elmi-mədəni çevrədə olan insanın bir şey anlaması üçün əl vurması, yaxud gözlə görməsi lazım deyil. Mən bu gün bunu tamamilə hiss edirəm. Bunu bizim həm jurnalistlərimiz, həm radio və televiziyamız, həm təbliğat qurumlarımız, məsələn Mədəniyyət nazirliyi, İslam Təbliğatı Komitəsi, Təhsil nazirliyi və digərləri bilsinlər. Bu gün problem budur. Qeyd etdim ki, təbiətləri zəifdir, bir pıqq eləsən, geri çəkilərlər. Sözləri gözəldir, amma iman və etiqada söykənmir. Maddi məsləkli qələm adamlarının və ziyalı təbəqəsinin xisləti belədir; danışanda yeri-göyü bir-birinə qatırlar, eşidən elə bilir ki, bu, ruhunun dərinliyindən danışan dərdli bir insandır. Yaxınlaşanda isə görürsən ki, yox, heç bir şey deyil, dildən bir qədər də o tərəfə keçmir. Bunların bir çoxu müstəmləkə, sionizm, zülm və bu kimi məsələlər haqda da yazmışdılar, amma xalqın atıldığı meydana qədəm qoymağa hazır olmadılar, hətta xalqa arxa da çevirdilər. Bunlar pul və nəfs əsiridirlər.[8]

Biz mədəni hücumu həqiqi və ciddi bir amil saymalıyıq. İslam təfəkkürünə və İslam quruluşuna qarşı mədəni mübarizənin çoxlu şaxələri var. Onları araşdırıb saysaq, çox geniş bir dairəni əhatə etdiyini görərsiniz. Misal üçün, mətbuatda, müxtəlif kitablarda, tərcümələrdə və hətta tarixi araşdırmalarda İslamın siyasi təfəkkürü sual altına salınır. Bu inqilab İslamın siyasi təfəkkürü üzərində dayanmışdır. İslamın siyasi təfəkkürü olmasaydı, onun əsasında inqilab baş verməz və quruluş yaranmazdı.

Hər halda, bu quruluş İslamın həmin siyasi təfəkkürü ilə formalaşmışdır və hərəkət etməyi planlaşdırır. Odur ki, müxalifsiz siyasi təfəkkür deyil, qarşısında digər siyasi düşüncə və fikirlər vardır. Biz indi şahid oluruq ki, İslam Respublikası quruluşuna hakim olan siyasi təfəkkür tərzini rədd etməyə köklənmiş çoxlu məqalə, kitab, bioqrafiya və tarixlər yazılır. Biri var ki, bir nəfər bir fikrə müxalif olsun və bu məqsədlə məqalə və ya kitab yazsın. Biz belə bir hala qarşı çıxmırıq, çünki gözlənilməz deyil və mühüm reaksiya tələb etmir. Kimsə tövhid əleyhinə də kitab yaza bilər - bunun eybi yoxdur. Onlar əleyhinə yazarlar, biz də xeyrinə yazarıq. Amma biri də var ki, insan bu işləri bir-birinin yanına qoyub kompleks şəkildə nəzər salanda onların təsadüfi olmadığını, arxalarında niyyət və iradə dayanan düşünülmüş bir planın tərkib hissələri

olduğunu anlayır. Bunlar İslamın siyasi təfəkkürünə qarşı görülən işlərdir. Uyğun təfəkkürə qarşı mübarizənin başqa bir forması kitablarda, dərs vəsaitlərində və mühazirələrdə görünür, bəzi qüvvələr İslamın təməl inanclarını hiyləgər şəkildə sual altına salır və rədd edirlər. Mədəni hücumun əsas hissələrindən biri  və bu mübarizənin daha mühüm forması gənc nəsli fəsada və pozğunluğa sövq etməkdir.

Təəssüf ki, mədəni hücumdan, onunla mübarizənin zəruriliyindən və pis işlərdən çəkindirməkdən danışanda nədənsə çox vaxt kiçik nümunələr üzərində dayanırlar. Bunun iki mənfi nəticəsi var: biri budur ki, sadə düşüncəli bir qrup məsələni belə nümunələrdə məhdudlaşdırır və bütün güclərini heç bir əhəmiyyəti olmayan bu kiçik hallara qarşı səfərbər edirlər; ikincisi budur ki, cəmiyyətin mütəfəkkir insanları məsələnin belə məhdud çərçivədə xülasə olunduğunu gördükdə problemin az əhəmiyyətli olduğunu düşünürlər. Bu isə nigaranlıq doğurur. Mədəni hücum küçədə bir neçə qadının üzündə və geyimində görünə və bunu heç kim mühüm hesab etməyə bilər. Lakin məsələ bununla bitmir. Həqiqət budur ki, düşmən İslam Respublikasına qarşı mədəni hücuma keçmək üçün özünün təsirli və təhlükəli vasitələri ilə, elm və texnologiyadan istifadə edərək geniş cəbhə açmışdır. Bu mübarizəyə qarşı tədbir görülməsə, heç şübhəsiz, qələbə də çalacaq. Məncə bu hücumun qarşısına ağıllı şəkildə və düzgün metodlarla çıxmasaq, çox təhlükəli və məhvedici olacaq. Bununla məşğul olmaq lazımdır. Bu sahədə hansısa mədəniyyət məmurunun üslubu meyar götürülməməlidir. Təhlükəni bütün əhəmiyyəti ilə görmək lazımdır.[9]

Bizim dəfələrlə təkidlə vurğuladığımız mədəni hücum məsələsi aydın bir məsələdir. Onu inkar etməklə hücumun özünü dəf edə bilmərik. Mədəni hücumu inkar etmək lazım deyil - bu var. Əmirəlmömininin (ə) sözü ilə desək, səngərdə səni yuxu aparmışsa, bu, qarşı səngərdəki düşmənin də yatması anlamına gəlmir;[10] səni yuxu tutub, çalış yuxudan oyan. Biz milli və İslam mədəniyyətimizin özü kimi, mədəni inqilabın da düşmənlərin təhdidi altında olduğunu anlamalıyıq.[11]

Biz aydın bir məsələni inkar etməməliyik: Universitetdə, universitet xaricində, hətta bizim kütləvi informasiya vasitələrimizdə, yazılan kitablarda, tərcümələrdə, şeirlərdə, dünyada zahirən bizimlə əlaqəsi olmayan və yəqin ki, mədəni işçilər kimi siz cənabların eşitdiyi mədəni proqramlarda - hər yerdə inqilab əleyhinə çox təhlükəli mədəni müharibə başlanmışdır. Bu, yüz il öncədən olan bir məsələ deyil. Bəli, yüz il öncə də İslam əleyhinə mədəni hücum vardı, amma insan yuxulu bir düşmən qarşısında olanda bir cür hərbi

vəziyyətdə olur, ayıq düşmən qarşısında olanda bir cür. O zaman İslam dünyası yuxulu, hətta kefli və məst halda idi. Bəzən düşmən ona zərbə endirirdi, damarına bir iynə vururdu və məsələ bitirdi. İndi isə İslam oyaqdır. Qərb dünyasının düşməni bu gün oyaq və pəhləvan kimi meydandadır. İmam kimi bir şəxsiyyətin dəyərli xatirəsi, bu qədər inqilabi resurs və bu qədər yaxşı gənc var. Bunlar zarafat deyil.[12]

Bu gün İslam əleyhinə böyük bir mədəni hücum həyata keçirilir. Bu hücum birbaş inqilabla əlaqədar olmasa da, ondan daha geniş hədəf olan İslam əleyhinə yönəlmişdir. İslam əleyhinə, hətta məsələn, Əlcəzairdə mövcud olan İslam əleyhinə çox genişmiqyaslı mədəni, ictimai və siyasi bir hücum həyata keçirilir. Burada yalnız bir istisna var, o da müstəmləkə rejimlərinə bağlı və Fəhd formasında olan İslamdır. Birbaş bu İslama bağlı yerlər uyğun hücumdan uzaq qalırlar. Bundan başqa hətta avam etiqadlara da hücum edilir, o ki qala əsl İslama, inqilab İslamına və öz sözləri ilə desək, İranın təfsir etdiyi İslama. Qəribə hücum mövcuddur. Sizin Fransada hicablı qızlara qarşı mübarizə haqda eşitdikləriniz kül altındakı oddan görünən qığılcımlardır və pərdə arxasındakı böyük işlərdən xəbər verir. Məsələ təkcə misal üçün, laik bir dövlətin hicabı istəməməsindən ibarət deyil. Xeyr! Bunlar ümumiyyətlə İslam sarıdan ciddi təhlükə hiss etmişlər. Əlbəttə, bu yeni məsələ deyil, əvvəllər Hindistanda da olmuşdur.

Mən öz kitabımda da bunu yazmışam; Hindistanın müstəqilliyindən, yəni 1947-ci ildən öncə, ingilislərin Hindistana yeni daxil olub hakimiyyəti ələ keçirdikləri zaman bu ölkədəki naibüssəltənələrdən biri demişdi ki, Hindistanda bizim problemimiz müsəlmanlarladır, ən böyük məqsədimiz onları məhv etmək olmalıdır. Bunu o zamanın naibüssəltənəsi demişdi. Bildiyiniz kimi, Qladston da demişdi ki, bu Quranı ortadan götürmək lazımdır. Onlar qədimdən İslamdan təhlükə duymuşlar. Bu da İslamdan gördükləri bəzi məsələlərdən irəli gəlir. Misal üçün, Tənbəki hadisəsini, Hindistanda, Əfqanıstanda, İranda və Misirdə baş verən müxtəlif hadisələri eşitmişdilər, lakin onların üstündən bir müddət ötdüyünə görə öz maraqlarına yönəlik bu təhlükəsini yaddan çıxarmışdılar, qlobal hegemonizm və müstəmləkəçilik daha İslama qarşı elə də həssaslıq göstərmirdi. Səbəbi bu idi ki, o zaman İslam özündən heç bir əksüləməl göstərmirdi. Buna görə də onlar bir qədər diqqətsizlik etmişdilər. Bir neçə onillikdən sonra İslam inqilabı qələbə çalanda müstəmləkəçiliyin uzun illər mütəfəkkir və casusları vasitəsi ilə İslama dair toplayıb arxivlərdə saxladığı bütün materiallar müasir tədqiqatlarla birgə yenidən gündəmə gəldi. Eşidirsiniz ki, İsraildə məsələn, İslama, yaxud İrandakı İslama, yaxud şiəliyə dair bir

seminar keçirilir. Bu işlər sözügedən məqsədlə görülür. Dünyanın bir çox yerlərində İslamı yenidən öyrənmək üçün seminarlar, elmi toplantılar keçirilir və dissertasiyalar yazılır. Kapitalist və hegemon Qərb dünyası bütün vücudu ilə qorunmaqdan ötrü düşünülmüş şəkildə öz idealı istiqamətində hərəkət edir və dünya hadisələrini yönəldir. Bilir ki, düşünməsə, əlində statistika olmasa və gələcəyə dair proqnoz yürütməsə, ziyan görəcək. Ən mütərəqqi və peşəkar beyin mərkəzləri hegemon güclərin ixtiyarında olub kapitalizmin uzunmüddətli problemləri üçün 15-20 il və bəlkə daha artıq öncədən oturub düşünür, fikir yürüdür, plan cızırlar. Bütün bu qurumlar birdən-birə hiss etdilər ki, İranda çox qüdrətlə baş qaldırmış bu İslam müstəmləkəçilərin bir zamanlar qorxduğu qədim İslamdır.

1958-ci ildə İraqda çevriliş baş verdi və padşah Feysəl Baş nazir Nuri Səidi devirdi. O zaman Böyük Britaniyanın Baş naziri İden xatirələrində yazırdı: "Mən həftəsonu bir adada istirahət edərkən İraqda çevriliş xəbərini aldım. Bu zaman beynimə çox böyük zərbə toxundu və birdən hiss etdim ki, dünya tərpənir" (Onun sözləri indi dəqiq yadımda deyil). İraq çevrilişi İngiltərə və müstəmləkəçilik üçün hədsiz dərəcədə əhəmiyyətli idi. Bu nigaranlıq çevrilişdən sonra nəşr olunan bütün yazı və xatirələrdə əks olunmuşdu və zərbənin böyüklüyünü göstərirdi. Sonradan bəzi müstəmləkəçi rejimlərin onda əlinin olduğu, bəzilərinin də sonradan ondan istifadə edib əllərində saxladıqları bəlli oldu. Siz təxminən 30 il ötdükdən sonra indi də o çevrilişin təsirlərini görürsünüz. Bir ölkədə adi bir çevriliş baş verdi. Yalnız İraqın İngiltərə müstəmləkəsi olduğuna və İngiltərənin İraqı zəbt və istismar etdiyinə görə onlar üçün bu qədər ağır idi. İndi siz o çevrilişi İslam inqilabı ilə müqayisə edin; ümumiyyətlə müqayisəolunmazdır.

İslam inqilabı qəfildən Qərbin və kapitalist dünyanın müstəmləkə sisteminin bütün varlığını və dəyərlərini şübhə altına saldı; yəni gələcəklərini bütünlüklə təhdid etdi. Bu inqilab İslama əsaslandığından, harada müsəlman varsa, orada bu inqilab potensial şəkildə mövcuddur. Sonra bunun nümunələrini bir-birinin ardınca Əfqanıstandan tutmuş İndoneziyaya, Malayziyaya, Misirə, Tunisə qədər hər yerdə və hətta dırnaqarası inqilabi quruluşlarda, məsələn, Əlcəzairdə və Liviyada da müşahidə etdilər; gördülər ki, həmin İslam oralarda da baş qaldırmışdır, meydan sulayır və xalqın gələcəyini müəyyənləşdirir. Onlar vahiməyə düşdülər, bütün kapitalist və hegemon dünya buna qarşı əlbir oldu. Düzdür, sosialist dünya başqa formada çalışdı, lakin onun qərblilər kimi lazımi düşüncə institutları və proqnoz imkanları yox idi. Statistika, arxiv və təxminlər sənaye sivilizasiyanın bir sahəsinə çevrilmişdir. Şərqlilər sənaye qədər bu

məsələlərdə də qərblilərdən geri qalırlar. Onlar bu qədər diqqətli deyillər. Bundan əlavə, onlar Qərbin bu inqilabdan ziyan çəkdiyini görüb inqilabla ortaq maraqlarının olduğunu düşünüb, onu özlərinə faydalı sayırdılar. İndi daha hamısı birdir, Şərq və Qərb yoxdur. Şərq və Qərb blokları da mənasızdır. SSRİ və Şərq bloku bitdi, marksist və sosialist arzu və ideallar da tükəndi.

Sözügedən təfəkkür əsl İslama, yaxud daha dəqiq desək, əsl dinə ziddir. Əsl din isə İslam inqilabından daha geniş bir məsələdir. Çünki yalnız inqilaba aid deyil, bütün İslama və hətta bir mənada prinsipiallıq duyduğu hər bir dinə aiddir. Bu baxımdan Latın Amerikasının məsihi kardinalları da Misirin, yaxud, Tunisin inqilabçı din alimləri qədər qəzəbə tuş gəlirlər. İndi bütün dünya belədir, lakin əsas mərkəz İrandır. Bunu da bilirlər.

Siyasət, sənaye, pul və müxtəlif imkanlarla təchiz olunmuş böyük bir mədəni cəbhə indi bir sel kimi üstümüzə gəlib bizimlə vuruşmaqdadır. Bu, hərbi vuruşma deyil. Onda ümumi səfərbərliyin heç bir təsiri yoxdur, xüsusiyyəti də belədir ki, biz özümüzə gəlincə gec olacaq; hiss olunmayan və səssiz kimyəvi bomba kimidir. Fərz edin, bir yerə kimyəvi raket atılır və heç kəs raketin düşdüyünü hiss eləmir, 7-8 saatdan sonra isə hamının üz və əllərinin suluqladığını görürlər. Düşmənin mədəni hücumu da belədir: siz birdən-birə məktəblərimizdə, küçələrimizdə, cəbhələrimizdə, hövzələrimizdə və universitetlərimizdə onun əlamətlərini görürsünüz. İndi də bir qədər görünür, amma sonra daha çox olacaq. Bir kitab çap olub, bir film istehsal edilib ölkəyə gəlir, hədəfi də bizik, İslam və inqilabdır. Şübhə yoxdur ki, bu hücuma qarşı tədbir görmək üçün pul, büdcə və digər dövlət dəstəkləri lazımdır. Dövlət bir düşüncənin yayılması üçün pul ayırmalıdır, bəs o düşüncə harada istehsal olunmalıdır?[13]

Bu gün düşmən özünün əsas səyini mədəni hücum üzərində toplamışdır. Mən bunu mədəniyyət və siyasət adam kimi deyirəm. Döyüş səhnəsinə baxdıqda bir tərəfdə İslamın və məzlumların xilasının tərəfdarı və dünya hegemonlarının düşməni olan siz İran xalqını, digər tərəfdə isə sizin düşmənlərinizin – yəni hegemon və antiislam cəbhə başçılarının, onların davamçılarının və bu arada şəxsi maraqlarına və nəfsi istəklərinə görə hegemonizm izdihamının arxasınca düşmüş rəzil adamların dayandığını görürük. İndi müharibə gedir, zarafat deyil. Hərbi müharibə bitdi. Üstəlik, düşmən – yəni qlobal hegemonizm bacarsa, yenə də hərbi müharibəyə başlayar, amma bu onun üçün asan deyil. İndi elmi, mədəni və siyasi bir müharibə gedir. Kim bu döyüş səhnəsini aydın görsə, xəbərləri anlasa, dəqiq məlumatı olsa,

səhnəyə bir nəzər salmaqla indi düşmənin ən çox mədəni yollarla təzyiq göstərdiyini bilər. Muzdur qələm sahibləri, dinini, qəlbini və vicdanını satmış elm və mədəniyyət mənsubları az deyil. Əksəri ölkə xaricində və tək-tük ölkə daxilində olan bu adamlar qoyun hegemonizmin fəsad dolu süfrəsində əyləşib onların məqsədləri üçün qələm işlətsinlər, şeir də yazsınlar, iş də görsünlər; elə görürlər də.[14]

İndi Amerikadan, Səddamdan pul alıb İslam Respublikası əleyhinə fəaliyyət göstərirlər. Bunun üçün lazım olan mədəni şəbihgərdanlığı da jurnal və roman kitabları edir; yəni mədəni bir iş formasında onlara yol açır. Buna sırf mədəni bir iş kimi baxanlar səhvdədirlər. Baxmayaraq ki, möminlər mədəni pozuculuqla məşğul olan sırf mədəni iş qarşısında da səfərbər olmalıdırlar. Bu isə yalnız mədəni deyil, mədəni-siyasi işdir. Müəyyən mənada iqtisadi iş də sayılır və arxasında bəlli kompaniyalar, hegemon və müstəmləkəçi düşərgə dayanır. İşlər oradan başlayıb önə çatana qədər bu formaya düşür. Xalqın qarşısına çıxan ön xəttin xüsusiyyəti belədir. Xalqın qarşısına topla, tankla, tüfənglə çıxmaq olmaz, kitab, jurnal və qələmlə çıxılar.[15]

Bu gün dünyada inqilabi təfsiri olan düzgün İslam, böyük imamımızın sözü ilə desək, əsl Məhəmməd (s) İslamı bütün bu zorakılıqların qarşısına çıxır və düşmənlər ondan qorxurlar. Xalqları hələ də özünə cəlb edən budur. Siz bu gün dünyanın hər hansı bir yerinə - müsəlman və ya qeyri-müsəlman ölkəsinə getsəniz, uzaqdan-uzağa eşitdikləri bu İslama ümid bəsləyən çoxlu insanlar və gənclər görərsiniz. Çünki hegemonizmin, şeytanın və şeytanlığın qarşısında qüdrətlə dayanmış yeganə səngər İslam səngəridir. Bunun nəticəsi olaraq bu gün İslamla, bu məktəbi təbliğ edən və bayrağını ucaldan quruluşla düşmənlik əvvəlkindən güclüdür. Bu da məsələnin digər tərəfidir. Yəni biz bu gün hegemonizmin çox dərin və mürəkkəb düşmənliyini gözləməliyik. Keçmiş təcrübələrə əsasən, bu düşmənliyin hərbi formada olma ehtimalı azdır. Böyük ehtimalla bu iş üçün digər yollar seçirlər. Bu yolların biri iqtisadi blokadanı gücləndirmək, siyasi təzyiqləri artırmaq və daxildə fəsad yuvaları açmaqla yeni problemlər yaratmaqdır. Biz dəfələrlə demişik, yenə də deyirik ki, mədəni təxribat hazırlanır və mən onu öz gözlərimlə müşahidə edirəm. Bu, şüarçılıq deyil, buna dair dəlillər var, mən bunu görürəm. Bu müqəddimə bu gün düşmənin daxildə çox zirək üsulla bizim əleyhimizə güclü mədəni bir müharibə aparmasına dair iddiamızın izahı idi.[16]

Mən ona görə mədəni hücum üzərində bu qədər təkid göstərirəm ki, mədəni hücum düşmənin tanınmaz səngəri və cəbhəsidir. Odur ki, onu tanımaq lazımdır. Düşmən cəbhəsini, düşmənlərin toplandığı yeri və hücum nöqtəsini öyrənməsək, necə müdafiə oluna bilərik?! Hər halda, bu şəraitdə cəmiyyət miqyasında lazım olan amil əvvəla istiqamətləri, ikincisi imanları qorumaq, üçüncüsü isə düşmənləri unutmamaqdır.[17]

Bəzən bir söz çox təkrar olunduğuna, lazımi diqqətdən kənarda qaldığına, ona dair bir işin görülmədiyinə və yanından ötəri şəkildə keçildiyinə görə tərk olunur və təkrarının yorucu olduğu duyulur. Bu baxımdan mədəni hücum sözünü təkrarlamamaq kimin üçünsə lazımsız görünə bilər. Halbuki məncə bu məsələ yanından asanlıqla ötəsi məsələlərdən deyil.

Mənim vaxtım az olsa da, əksərən jurnalları vərəqləyir, çap olunan kitablara, xüsusən də ədəbi və mədəni əsərlərə, yaxşı məqalələrə baxıram. Mən onlarda mədəni mübarizəyə az diqqət ayrıldığını görürəm. Halbuki mütəşəkkil və sistemli şəkildə bizə hücum edən bir cəbhə var. Bu tərəfdə çoxlu işlər görülsə də, müdafiə üçün mütəşəkkil və müntəzəm hərəkət yoxdur. Bu baxımdan insan təhlükə duyur. Hər halda, bu məsələlərlə həqiqətən ciddi məşğul olmaq gözləntisi var.[18]

Bu gün düşmən İslam Respublikasına hərtərəfli mədəni yürüş etmək üçün güclü və təhlükəli vasitələrdən, həmçinin elm və texnologiyadan istifadə edərək geniş bir cəbhə açmışdır. Çox təhlükəli və dağıdıcı olan bu hücuma qarşı tədbir görmək üçün sayıqlıq, düşmənin üsullarına bənzər, yaxud əvəzedici üsullardan istifadə etmək lazımdır.[19]

Mədəni hücuma özü kimi qarşılıq vermək lazımdır, ona tüfənglə cavab vermək olmaz. Bu döyüşün silahı qələmdir.[20]

Mən yazıçılara, düşüncə adamlarına, qələm və tribuna sahiblərinə tövsiyə edirəm ki, müxalif sözdən təşvişə düşməsinlər. Biz nə üçün təşvişə düşməliyik?! Bizim məntiqimiz və əsaslandırmamız var. Bizim sözümüz təkcə öz xalqımız üçün yox, hətta dünyanın yüz milyonlarla müsəlman və qeyri-müsəlman insanı üçün məqbuldur. Bizim məntiqli sözümüz olduğu halda nə üçün kiminsə danışmasından təşvişə düşməli və iztirab keçirməliyik?! Bəli, heç bir səhv sözü cavabsız qoymaq olmaz; səhvdirsə, cavab vermək lazımdır, lakin əxlaq normalarından kənara çıxmamaq şərtilə.[21]

Mədəniyyət sahəsi qamçı və çomaq yeri deyil və müharibədən fərqli bir şeydir. Hər bir sahənin öz silahı var. Biz İslam Respublikasının müxaliflərinin zərif və mədəni üsullarla onun əleyhinə danışmalarından və müxalif fikirləri yaymalarından qorxmuruq. Mən bəzən bundan razı da qalıram. Çünki müxalif fikrin irəli sürülməsi və cəmiyyətdə fəallığın yaranması bizim üçün faydalı və yaxşı haldır. Bu baxımdan, bundan acığımız gəlmir, bunu yaxşı qarşılayırıq. Lakin ədib, ziyalı, yazıçı, şair, sənətkar, kinematoqraf, alim və müəllimlər arasında düşmənin mədəni hücumuna qarşı ümumi bir səfərbərlik başlamalıdır. Söhbət İran və İslamdan, bir xalqın ən əziz sərvətlərindən gedir. Düşmən bu sərvətlərlə oynamaq istəyir. Buna görə də mədəni cəbhə və səngərlər yaradılmalıdır. Bu gün iş günüdür, hamı işləməlidir. Bu gün istedadı olan hər bir kəs mədəni sahədə çalışmalıdır. Görüləsi işlər də çoxdur. Bu mənim bütün düşüncə, mədəniyyət, incəsənət, ədəbiyyat, elm və bilik adamlarına müraciətimdir. Mən bunu vacib iş sayıram.[22]

**3- Mədəni mübadilənin mədəni hücumla fərqləri**

Biz iranlı kimi axtarıb özümüzə aid olanları tapmalıyıq. Bu o demək deyil ki, digərlərinin yaxşı cəhətlərini öyrənməyək. İnsan yaxşı və gözəl olan hər bir şeyi digərlərindən öyrənir, amma yaxşı olar ki, onu öz mədəniyyəti ilə qarışdıraraq istifadə etsin. Mən bir dəfə mədəniyyət haqda danışarkən dedim ki, digərlərinin mədəniyyətini götürməyin eybi yoxdur. Lakin insanın bədəni xarici bir elementi iki formada götürə bildiyi kimi, digərlərinin mədəniyyətini də belə götürmək mümkündür. Biri var ki, insan müxtəlif vitaminləri olan bir qidanı qəbul edib mədəsinə göndərir. Mədə bədəninə münasib olan lazımlı maddələri götürür, artığını isə ifraz edir. Bu, sağlam götürmədir. Biri də var ki, bir nəfəri yerə uzadıb əl-qolunu bağlasınlar və özünün istəmədiyi bir iynəni ona vursunlar. Bu ayrı cür qəbuletmədir, qabaqkı ilə eyni deyil. Əgər iynəni vuran adam xeyirxah bir həkim olsa, deyərik ki, baş üstə. Bəs düşmən olsa necə olar?! Təəssüf ki, biz indi əncəbi mədəniyyətindən belə istifadə edirik. Yəni damarımıza bir maddə köçürürlər, biz də heç bir reaksiya vermirik. "Mədəni hücum" deyəndə də müəyyən bir qrup sözü özünə götürür. Mədəni hücum Qərbdən və düşmən tərəfindəndir və bizim ayıq olmamızı tələb edir. Düşmənə demək olmaz ki, düşmənlik etmə. Düşmənin xisləti budur. Biz ayıq olmalı və onun düşmənliyinə imkan verməməliyik. Bəli, biz Qərbdə yaxşı bir şey tapsaq, oturub bir qidanı qəbul edən, bədəni yaxşısını götürən, pisini isə dəf edən sağlam bir insan kimi götürməliyik. Yəni canlı bir varlığın xarici amillə rəftar

etdiyi kimi etməliyik, ölü, cansız, yuxulu, yaxud huşsuz bir varlıq kimi yox. Bizim özümüz yaxşı olanı seçə bildiyimiz halda nə üçün əcnəbi mədəniyyətini bizə belə ötürməlidirlər?! Bu gün onlar istədiklərini ötürürlər, lakin iynə ilə deyil, radio, televiziya, moda kataloqu, jurnal və təbliğatla.[23]

Cəmiyyət məlumatlı olsa, onun düşmən qarşısında müqaviməti çox olar. Cəmiyyət elmə həssas yanaşsa, digər ölkə və xalqlarla əlaqə quranda birinci onların elmini öyrənməyə çalışar. Müstəmləkəçi qüvvələr illər öncədən İranda işləyirdilər. Bizim ölkəmizlə digər ölkələr arasında mübadilə məsələsi meydana çıxanda biz öz məlumatımızı və zəngin mədəniyyətimizi təqdim etmək, öyrətmək və əcnəbilərin elmini öyrənmək yerinə, sərgilərindən asmaq üçün əl işlərimizi, zavodlarını işlətmək üçün neftimizi verdik, özümüzsə oturub onların fəsad dolu mədəniyyətlərini gözlədik. İranın Qərblə mədəni əlaqəsinin tərəfdarları demədilər ki, hər bir iranlı bacardığı qədər Qərbin elmini öyrənsin. Bunu desəydilər, yaxşı olardı, biz bunu müsbət qarşılayırıq. Biz indi də deyirik ki, dünya elmdə inkişaf etmişdir. Bizi 200-300 il geridə saxladılar. Biz özümüzü çatdırmalı, onların biliklərinə yiyələnməliyik. Lakin onlar bunu demədilər, dedilər ki, İran zahiri, daxili, forma, geyim və üz baxımından qərbli kimi olmalı, onların əxlaqını, geyimini və qeyri-sağlam əlaqələrini öyrənməlidir. Nəticəni isə mənfur şah rejiminin sonlarında gördünüz. Həmin dövrün mənfi təsirləri hələ də qalır. Elm və təhsil mühüm məsələdir. Biz hər kəsdən öyrənməliyik. O zaman İslam bizə dedi ki, elm öyrənmək üçün lazım olsa, hətta Çinə belə gedin. O məsafəyə əsasən, biz bu gün yolun uzunluğunu göstərmək və elm öyrənməyin əhəmiyyətinə dair misal çəkmək üçün dünyanın heç bir nöqtəsini tapa bilmərik. Elm hətta Çində olsa da, gedin, öyrənin. Peyğəmbər (s) o zaman insanlara belə öyrədirdi. Bu gün bizim də fikrimiz budur. Biz hamıdan öyrənməliyik; lakin elmi öyrənməliyik, əxlaqsızlığı, çirkinlikləri, narkomaniyanı, təhlükəli xəstəlikləri, Amerika taunu olan AIDS-i və digər fəsadları yox. Cəmiyyətdə öyrənmək və öyrətmək ab-havası hakim olmalıdır. Təbii ki, təhsilin kənarında tərbiyə və əxlaq da olmalıdır. Və biz təhsil işini düzgün aparsaq, onda mənəvi saflıq da olar.[24]

Elm bizim düşmənimizdə ola bilər; yanına gedib diz üstə oturar və ondan elm öyrənərik. Bunun eybi yoxdur. Elmin dəyəri o qədər böyükdür ki, insan düşmənliyə görə ondan imtina edə bilməz. Lakin elmdən başqa məsələlərdə - siyasətdə, mədəniyyətdə və digər sahələrdə düşmənin təsiri altına düşmək olmaz. Onların üçüncü dünya üçün istədikləri və planlaşdırdıqları isə mədəni və

siyasi asılılıqdır. Onlar elm və texnologiya mübadiləsinin baş tutmaması üçün işlər də görmüşlər. On illərdir indiki geriqalmış dünya üçün beyinlərin qaçışından ibarət böyük problem bu planın bir hissəsidir. Onlar bizim yaxşı və seçilmiş insanlarımızı oğurlayıb aparır, hətta bu ölkələrin özündə təhsil almış istedadlıların da öz ölkələrinə çalışmasına imkan vermirlər.[25]

Mədəni hücum mədəni mübadilədən fərqlənir. Mədəni mübadilə lazımdır. Heç bir xalq hər hansı bir sahədə, o cümlədən mədəni məsələlərdə başqa xalqlardan ehtiyacsız deyil. Tarixdə həmişə belə olub. Xalqlar get-gəl nəticəsində yaşayış tərzini, əxlaqı, elmi, geyimi, davranış qaydalarını, dili və dini bir-birindən öyrənmişlər. Dini mübadilə xalqların bir-biri ilə ən mühüm mübadiləsi kimi hətta iqtisadi mübadilələrdən də əhəmiyyətli olmuşdur. Bu mədəni mübadilələr çox zaman bir ölkənin dininin dəyişilməsi ilə nəticələnmişdir. Məsələn, İslamı Şərqi Asiya ölkələrinə, İndoneziyaya, Malayziyaya və Hindistan yarımadasının mühüm hissələrinə aparan ən böyük amil təbliğatçıların təbliğatı yox, İran xalqının get-gəli olub. İranlı tacir və səyyahların get-gəli nəticəsində bu gün Asiyanın bəlkə də ən böyük müsəlman xalqı olan indoneziyalılar İslamı qəbul etmişlər.

İslamı ilk dəfə oraya nə din təbliğatçıları apardı, nə də qılınc və döyüş. İslamı bu get-gəllər apardı. Bizim xalqımız da tarix boyu digər xalqlardan çox şey öyrənmişdir. Bu, bütün dünyada mədəni təlimlərin və mədəni həyatın yeni qalması üçün zəruri bir prosesdir. Bu, mədəni mübadilədir və yaxşıdır.[26]

Mədəni mübadilədə məqsəd milli mədəniyyəti təkmilləşdirmək, mədəni hücumda isə milli mədəniyyəti məhv etmək, kökünü kəsməkdir. Mədəni mübadilədə başqa xalqlardan bir şey götürmək istəyən xalq sevdiyi gözəl elementləri axtarır, məsələn, onlardan elm öyrənir. Fərz edin İran xalqı Avropaya gedir və görür ki, onlar çalışqan və təhlükədən qorxmaz xalqlardır. Əgər onlardan bunları öyrənsə, çox yaxşıdır. Uzaq Şərqə gedir, görür ki, oradakılar işdə vicdanlı və həvəskar, vaxtlarının qədrini bilən, nizam-intizamlı, mehriban və nəzakətli insanlardır. Əgər bunları öyrənsə və götürsə, çox yaxşıdır. Mədəni mübadilədə öyrənən xalq axtarıb öz mədəniyyətini təkmilləşdirəcək düzgün elementləri tapır və öyrənir; eynilə zəifləyib münasib qida axtaran insan kimi. O, münasib qida və dərman istifadə edir ki, sağlam olsun və bədəninin nöqsanı aradan qalxsın.

Mədəni hücuma məruz qalan xalqa verilən elementlər isə yaxşı deyil, pis elementlərdir. Avropalılar bizim ölkəyə mədəni hücuma keçdikdə, xalqımız

arasında vaxtın qədrini bilməyi, cəsarəti, təhlükəli məsələlərdən qorxmazlığı, elmi diqqət və incəliyi yaymağa başlamadılar, təbliğat və tədqiqatla İran xalqının işdə və elmdə düzgün olmasına çalışmadılar. Onlar bizim ölkəmizə yalnız cinsi özbaşınalığı gətirdilər.[27]

Əgər mədəni mübadilədə başqa mədəniyyətdən bir şey öyrənən xalqı bazarda münasib qida və dərman axtaran bir adama bənzətsək, mədəni hücuma məruz qalan xalqı da acınacaqlı vəziyyətə düşmüş və əlindən bir şey gəlməyən xəstəyə oxşatmalıyıq. Bu zaman düşmən ona bir iynə vurur. Düşmənin vurduğu iynənin aqibəti də bəllidir. Bu onun özünün tapdığı, öz iradə və seçimi ilə qəbul etdiyi dərman kimi ola bilməz. Deməli, mədəni mübadilə bizim seçimimizlədir, mədəni hücum isə düşmənin seçimi ilə və bizim yerli mədəniyyətmizi məhv etmək üçün. Mədəni mübadilə yaxşıdır, mədəni hücum isə pisdir. Mədəni mübadilə bir xalqın qüdrətli dövründə baş verir, mədəni hücum isə zəif çağında.[28]

Digərlərinin mədəniyyətindən istifadə etmək insanı kamilləşdirir. Lakin insanın məlumatlı və ayıq şəkildə yüz növ dərman və qida arasından gücləndirici bir dərmanı, qidanı seçməsi ilə ziyanına olan bir dərmanın və ya qidanın məcburən ona verilməsi arasında fərq var. Fərz edin sizə C vitamini lazımdır. Siz gedib bu vitamini alır və lazım olan qədər qəbul edirsiniz. Çox yaxşıdır və burada pis bir şey yoxdur. Bu da əcnəbilərin istehsalı olsa da, sizin ona ehtiyacınız var. Lakin biri də var seçim imkanı olmasın. Biz huşsuz vəziyyətdə bir tərəfə düşmüşük, biri gəlib bizə nə olduğunu bilmədiyimiz bir iynə vurur. Bu bizə lazımdır, yoxsa yox? Qədərincədir, yoxsa az və ya çox? Zərərli, uyuşdurucu və zəhərlidirmi? Bunlara diqqət yetirmək lazımdır. Keçmişdə bizə ötürülən hər şey belə idi. Pəhləvi rejiminin sonuna qədər əcnəbi mədəniyyətini bu xalqa belə ötürdülər. O zaman əcnəbi mədəniyyətini təkmilləşmək üçün deyil, təsirlənmək üçün götürürdülər və bunun dəyəri yoxdur. İnsan öz ixtiyarı ilə seçsə, düzgündür. İndi Qərb mədəniyyətində bizim üçün həyati əhəmiyyət daşıyan və öyrənməli olduğumuz yaxşı elementlər var. Bu yaxşı elementlər olmasaydı, Qərb bu inkişaflara nail olmazdı, bütün bu fəsadlar onu kökündən məhv edər və tüstü kimi havaya sovurardı. Onların havaya sovrulmamasının səbəbi işlərində həqiqətən mühüm amillərin olmasıdır. Onlar nizam-intizamlı, işgüzar və yorulmaz insanlardır. Onların mədəniyyətinin belə müsbət və ideal cəhətlərini götürüb istifadə etmək lazımdır.[29]

Uzun illər ölkənin qapılarını əcnəbi mədəniyyətinin üzünə açanlar ümumiyyətlə idxal olunan mədəniyyəti tanımır və anlamırdılar. Yəni onlar bu mədəniyyəti qəbul edərək İrana daxil etmədilər, əcnəbipərəst, yadlara vurğun olduqlarına və özününkülərə nifrət etdiklərinə görə ölkənin qapılarını onun üzünə açdılar. Sanki nadan bir uşaq atasının üstün cəhətlərini görmür, sonra isə bilmədən və nadanlıqdan öz atasından aşağı səviyyədə olan başqa birinə rəğbət bəsləyir.[30]

Elm və texnologiya ilə mədəniyyət arasında fərq var. Bunlar ayrı-ayrı məsələlərdir. Elmin özü də mədəniyyətin şaxələrindən olsa da, bir xalq üçün xüsusi mənada olan mədəniyyət düşüncə, iman, inam, adət və ənənələrdən ibarətdir. Biz bu cəhətdən elm və texnologiyada inkişaf etmiş dünyadan nəinki geridə deyilik, hətta bir çox cəhətlərdən öndəyik də. Bunu şişirtmək və mütləqləşdirmək fikrim yoxdur. Təbii ki, xaricilər və əsasən avropalılar mədəniyyətin bəzi şaxələrində bizdən öndədirlər.[31]

### 4- İslam İranının tarixi keçmişi və elmi-mədəni kökləri

Biz böyük xalqıq. Biz kimdən qorxuruq?! Biz çox güclüyük. Bizim xalqımızın istedadı, maddi sərvətləri, tarixi keçmişi, elmi-mədəni kökləri və ən başlıcası budur ki, İslam inancı və Allaha təvəkkülü var.

Bizim xalqımız müstəqil xalqdır və özünə arxalanmalıdır. Məmurlar da xalqa və xalqın istedadlarına güvənməli və düşmənə əl açmamalıdırlar. Düşmən Quran və İslam tərəfdarı olan xalqın zəiflik və acizlik bildirməsini gözləyir. Biz düşmənə bu fürsəti verməməliyik. Bizim xalqımız arasında istedadlı gənclər və elmi kadrlar var. Bizim xalqımızın yaradıcılıq ruhu böyükdür və bu xalq öz ayağı üstə dura bilər. Düşmən möminlərə və İslama heç bir kömək etməyəcək. Bunlar İslamla düşməndirlər. Müxtəlif sahələrdə çalışan bütün məmurlar bu məqama diqqət yetirsinlər. Biz özümüzə - öz sərvətlərimizə, öz elmimizə, öz istedadımıza, öz maddi potensialımıza, öz yeraltı ehtiyatlarımıza güvənməliyik. Bu, alış-veriş yolunu bağlamaq demək deyil. Bu o deməkdir ki, düşmənin gücünə təslim və məğlub olmayaq.[32]

Bizim xalqımızın elm, mədəniyyət və sivilizasiyada parlaq keçmişi olmuşdur. Bu tarixin bir hissəsi - yəni son 1300 il həqiqətən uğur və nailiyyətlərlə doludur. Ondan qabaqkı dövr haqda çox məlumatımız yoxdur, amma ümumi şəkildə anlamaq olar ki, bu xüsusiyyətə malik olan böyük bir xalqın prinsipcə, üstün mədəniyyəti olmuşdur. Bəzi dövrləri çıxmaq şərti ilə

onun xırdalıqlarından xəbərimiz yoxdur, dövrümüzdə baş verənləri isə bilirik. İran xalqı İslamın sayəsində həqiqətən dahilik göstərib yalnız İslam dünyasına yox, hətta bütün dünyaya böyük töhfələr verdi. Bunlar dünya tarixinin hər sətrində qeyd olunmuşdur. Bizim özümüz bundan xəbərsiziksə, onların tarixinə müraciət edə bilərik.[33]

Biz İslamı ərəblərdən öyrəndik, amma dost və düşmənin, hətta antiirançılıq və güclü təəssübkeşlik səbəbindən İranın adını çəkmək istəməyən, amma uyğun sahənin mütəxəssisi olduqları üçün buna məcbur olanların da etirafına görə, İslam elminə və mədəniyyətinə heç bir xalq iranlılar qədər xidmət göstərməmişdir. İbn Rüşdü və başqa bir-iki nəfəri çıxmaq şərti ilə ərəblərdən kimsə yüksək səviyyəli alim olmamışdır. Üstəlik, İbn Rüşd də ərəb deyil, Andalusdandır. Fəlsəfə və ərəb ədəbiyyatı İrana məxsusdur, Zəməxşəri, Təftazani kimi böyük ərəb ədiblərinin hamısı iranlıdırlar. Ərəb ədəbiyyatına dair ən böyük və ən dəyərli kitabları iranlılar yazmışlar. Ərəb dilinin ən böyük izahlı lüğəti olan Qamus kitabını iranlı alim Firuzabadi yazmışdır. Fiqh, üsul və hədis sahələrində də iranlılar yüksək səviyyəli alimlər olmuşlar. Təbii ki, burada məqsədim yalnız şiələr deyil.[34]

**a) Elm və dinin və onların bir-birindən ayrılmasının tarixçəsi**

Bizim ölkəmizdə elm və din min il bir-birinin yanında olub. Bizim tariximizin böyük alimləri, həkimləri, astronomları, riyaziyyatçıları, adları və kəşfləri bu gün də dünyada məşhur olan şəxslər ilahi alimlər və dini mütəfəkkirlər olmuşlar. Tibb kitabı hələ də dünyada canlı elm kitabı sayılan, özü müxtəlif sahələrdə bəşər tarixinin parlaq siması hesab olunan, bu min ildə dünyanın bütün elmi arenalarında tanınan və indi də tanınmaqda olan, elm tarixinin bəzi nailiyyətlərinə imza atan İbn Sina həm də bir din alimi olmuşdur. Lakin iki mühüm amil İslam cəmiyyətinin dünya yeniliklərindən xəbərsiz və geri qalmasına səbəb oldu. Biri budur ki, din alimləri din düşmənləri və kafirlər tərəfindən öyrədilən elmə bədbin yanaşır və onu rədd edirdilər. İkinci səbəb isə bu idi ki, həmin düşmənlər və kafirlər elmi onlara öyrətmək istəmir, öz elmlərinin dinin mərkəzi olan elm hövzələrinə daxil edilməsinə yol vermirdilər. Hər ikisi bir-birindən qaçır, bir-birinə düşmən olmuşdular. Əsas səbəb də bu idi ki, bütün dünyada, o cümlədən İslam ölkələrində elm antidin qüvvələrin əlində bir alət idi. Qərb dünyasında elmi araşdırmaların zirvəsi sayılan 19-cu əsr dindən ayrılmaq və dinin həyatdan çıxarılması əsridir. Bu təfəkkür bizim ölkəmizdə də təsirini buraxdı və bizim universitetlərimiz qeyri-dini təməllər

əsasında yaradıldı. Din alimləri universitetdən üz çevirdilər, universitet də din alimlərindən və elm hövzələrindən. Bu kədərli məsələ həm elm hövzələrinə pis təsir qoydu; çünki din alimlərinin fəaliyyətini yalnız və yalnız dinə aid zehni məsələlərdə məhdudlaşdırdı və onları xarici dünyadan xəbərsiz etdi. Elmi inkişaflar onlar üçün məchul qaldı, hövzələrdə yeniliyə təmayül ruhu, İslam fiqhində və dini hökmlərin araşdırılmasında yeniliyin zərurəti yaddan çıxdı. Dinin və İslam fiqhinin tədqiqində bu yenilik həmişə mövcud olmuşdu; çünki fiqh cəmiyyətin ehtiyacını təmin etmək üçün Qurana və sünnəyə əsaslanan sahədir. Hövzələr həyat reallığından, dünyada baş verən hadisələrdən və həyata keçən nəhəng dəyişikliklərdən xəbərsiz qaldı və bir sıra fiqhi mövzularla, əksər hallarda cüzi məsələlərlə məhdudlaşdı. Fiqhin əsas məsələləri, o cümlədən cihad, hakimiyyət, İslam cəmiyyətlərinin iqtisadiyyatı, xülasə, siyasi fiqh təcrid oldu, yaddan çıxdı, tərk edildi, cüzi, çox cüzi və əksər hallarda həyatın mühüm məsələlərindən uzaq məqamlara daha artıq diqqət yetirildi. Bu, elm hövzələrinə vurulan zərbə idi. Siyasi qüvvələr də bundan istifadə etdi, təbliğatla, şeytan üsulları ilə hövzələri bacardıqları qədər həyat yeniliklərindən uzaq saxladılar. Özülü əvvəldən elm hövzəsindən və dindən uzaq qoyulmuş universitet isə dindən, dini və siyasi əxlaqdan və nizam-intizamdan tamamilə uzaq şəxslərin əlinə düşdü.[35]

Biz cəmiyyətin bütün təbəqələrində elmsevərlik hissi yaratmalıyıq. Bu olduqca mühüm amildir. Bəzi adamlar səhvən düşünürlər ki, elmsevərlik dindarlıqla uyğun gəlmir. Mən görmüşəm. Son bir neçə ildə bəzilərinin xüsusi siyasi məqsədi olan, (bəlkə də xalq bu şəxslərin məqsədindən xəbərsizdir, lakin biz onları çoxdan yaxşı tanıdığımıza görə bizim üçün təxmin vurmaq imkanı daha tez yaranır) bəzilərinin isə olmayan qüvvələr bu gün cəmiyyətimizdə mövcud olan dindarlığın elmlə ziddiyyət təşkil etdiyini və elmlə xalqın dindarlığına zərbə vurmağın mümkün olduğunu təlqin etməyə çalışırlar. Bunlar səhvə yol verirlər. Bu iki məsələnin bir-biri ilə heç bir ziddiyyəti yoxdur. Din bu gün bizim iman gətirdiyimiz İslam dinidirsə, bu, inqilab edən, meydanlar üçün əsgər hazırlayan və elmə dəvət edən bir dindir. Ümumiyyətlə müsəlmanların dünyada bir neçə əsr elmin bayraqdarı olmaları İslam dinindən irəli gəlmişdir. Müsəlmanları elmin zirvəsinə çatdıran əsas amil İslam dini idi. Farabidən Xacə Nəsirə qədər təxminən üç əsr bu bayraqdarlıq davam etmişdir; özü də yüksək səviyyədə, aşağı səviyyədə yox. Bu gün Xarəzminin riyazi, yaxud İbn Sinanın tibbi nəzəriyyələri qüvvədən düşmüş nəzəriyyələr deyil. Onların əsasında yeni nəzəriyyələr yaranmışdır, lakin qüvvədən düşməmiş, sıradan çıxmamışlar,

düzgün fikirlərdir və sözsüz ki, təkmil olunmuşlar. Siz bilirsiniz ki, Farabidən Xacə Nəsirə qədər davam edən 3 əsrdə Avropada dinlə ziddiyyət vardı, lakin o zaman Avropada elmin ilk bayraqdarları dindar şəxslər olmuşlar. Bu məşhur Roje Bikenin (1214-1294) özü Fransisk təriqətinin keşişidir. Onlar özlərini məşhur San-Fransiskin ardıcılları sayan çox zahid keşiş qrupudurlar. San-Fransisk məşhur Müqəddəs San-Fransiskdir. Amerikanın San-Fransisko şəhəri onun adınadır. Bunlar müqəddəs adları şəhərlərə qoyurdular. Ozamankı papa rejimi bu şəxsin onların israfçı həyat tərzlərinə qarşı ifşalarından sonra onun qanlı düşməninə çevrildi. O, papa rejiminin cah-calalına, sərvət və o var-dövlət toplamasına qarşı çıxırdı, zahidliyin tərəfdarı idi. İslam firqələri arasında Roje Bikenin oxşarını tapmaq istəsək, onu, işləri dərvişçilik və dilənçilik olan Xaksar sufilərinə bənzədə bilərik. O, güman ki, 13-cü əsrdə Avropada elmin ilk bayraqdarlarından olmuşdur. Yəni Avropada elmi yeniliklərlə nəticələnən ilk işlər aydın dindarlar tərəfindən görülmüşdür.

Bizim İbn Sinamız da belə olmuşdur. İbn Sina bir din alimidir. Bildiyiniz və İşarat kitabından göründüyü kimi, o, müəyyən mənada bir arif olmuşdur. Biruni də din alimidir. O, "Hindistan həqiqətləri" kitabını yazmışdır. Bilirsiniz ki, bu kitabın adı bir şeirdən götürülmüşdür. O öz dövründə riyaziyyat, astronomiya və müxtəlif elmlər üzrə mütəxəssis olmuşdur. Tam bir ruhani olan Şeyx Bəhai də belə idi. Şeyx Bəhainin dövründə dini fənlər yalnız ruhani təbəqəsinə məxsus olmuşdu. Ondan öncə isə belə deyildi, bir ruhani bütün elmlərə yiyələnirdi. Misal üçün, İbn Sinanın özünün fəlsəfə şagirdi də olmuşdur, tibb şagirdi də. Lakin Şeyx Bəhai ruhaniliyin təbəqə formasına çevrildiyi bir dövrdə elmli və peşəkar bir minbər axundu olmuşdur. Deməli, dinin elmlə heç bir ziddiyyəti yoxdur, hətta din elmin köməkçisi və ona dayaqdır. Siz cəmiyyətdə elm, elmsevərlik, bu böyük dünyanın bütün hissələrində qanun və qaydaların olması fikrini yaymalısınız. Biz də din tərəfindən bu qanunları kəşf və nəticədə kainatı idarə etməyə əmr olunmuşuq. İnsan torpağa, təbiətə, yer üzünə və yerin altına hakim olmaq üçün gəlib, tabe olmaq üçün yox. Bəşər yaranışının fəlsəfəsi və əsas vəzifəsi olan yer üzünə hakimiyyət yalnız o zaman həyata keçər ki, siz yerin – yəni suyun, havanın və küləyin qanunlarını öyrənəsiniz. Bu qanunları öyrənmədən hakim olmaq imkansızdır. Və bu qanunları elmlə öyrənmək olar. Buna əsasən, elmsevərlik hissi mühüm bir məqsəddir.[36]

### b) Elmi ikişafın İran İslam İnqilabının əsas məqsədi olması

Hansı amil bu istedadlı xalqın uzun illər, bəlkə də bir-iki əsr, yaxud daha uzun müddət elm və bilik karvanından bu qədər geri qalmasına bais oldu? Şübhəsiz ki, xəyanətkar qüvvələrin bu xalqa hökmranlığı. Bu illər ərzində zalım, müstəbid və yaxıngörən şahlar bu ölkənin başına bu bəlaları gətirdilər. Bir ölkədə İslam qanunları icra olunsa və İslam hökuməti qurulsa, xalqın qarşısındakı maneələr götürülər. İranda İslam inqilabı bu böyük hünəri və bu möcüzəni göstərməlidir.[37]

Elm və tədqiqatın gücləndirilməsi, elmi inkişaf, istedadların çiçəkləndirilməsi, ayıqlığın və ümumi məlumatın artırılması inqilabın əsas cəhətlərindən başqa birisidir. İdeal İslam cəmiyyəti elə cəmiyyətdir ki, onda hər bir cəmiyyətin ən qiymətli milli sərvəti olan bəşəri düşüncə və beyin xəzinələri çıxarılıb işlədilsin, savadsızlığa son qoyulsun, məktəblər bütün uşaqları qoynuna alsın, universitetlər və elm hözvələri rövnəqlənsin, tədqiqat mərkəzləri fəallaşsın, kitab hər yerə yayılsın, mətbuat zəngin informasiya çatdırsın, alim və müəllimlər həvəsli, yaradıcı və yenilikçi adamlar, yazıçı və sənətkarlar ümidli və səmərəli olsunlar.

Bizim ideal və məqbul İslamla məsafəmiz çox, lakin qət ediləsidir. İslam İranı bu gün də elmi dahilər yetişdirən mərkəz olduğunu sübut etməlidir. Diktatura və müstəmləkənin ikiəsrlik istismarı bu xalqın mahiyyətini dəyişdirə bilməmişdir. Əgər ötən iki əsrdə müstəmləkə və diktatura hökmranlığı istedadların çiçəklənməsinə mane olmuşdusa, bu gün xalqın azadlığı və oyanışı dövründə İslam inqilabı sayəsində geriliklər düzəldilməlidir.[38]

Bildiyiniz kimi, elm prosesi maksimum sürətli bir prosesdir. Sanki bir nəfər piyada yol gedir, amma başqa birisi velosiped əldə edərək sürətini artırır və tez bir zamanda avtomobilə çatır. Avtomobilə minəndə sürəti dəfələrlə artır və nəhayət, təyyarənin dayandığı yerə çatır. Təyyarəyə minəndə sürəti yüz qat artıq olur. Amma piyada olan gəlir ki, nə vaxtsa velosipedə çatsın. Bizimlə xarici ölkələr arasındakı məsafə bu şəkildə get-gedə çoxalır. İndi biz nə etməliyik? Məsafəni necə qət etməliyik? Biz qısa yol tapmalı, bu ölkənin bütün istedadlarından istifadə etməliyik. Bu ölkədə düşmənlər və müstəmləkəçi qüvvələr qarşısında hərəkət və mübarizə səmimiliyi oturuşmalıdır. Bu, inqilab olmadan mümkün deyildi və gələcəkdə də mümkün olmayacaq. Bu, ölkənin gələcəyi üçün zəruri məsələdir. Bu işləri görsəniz, Allah-Taala sizə həqiqətən böyük əvəz verər. Həqiqətən düşünürəm ki, bu quruluşun işçiləri olub belə şərt

və qaydalarla işləyən siz əziz qardaşların mükafatını saymaq imkansızdır. Bu mükafat Allah yanında olduqca böyükdür.[39]

**5- Ölkənin elm və sənaye inkişafında gənc nəslin böyük məsuliyyəti**

İran İslam Respublikası bu gün malik olduqlarını öz övladlarının səyi ilə əldə etmişdir. Bizim dünyada heç kəsin minnəti altında deyilik. Düzdür, dünyanın modern imkanlarından istifadə etmişik, lakin başucalığı ilə; bundan sonra da başucalığı ilə istifadə edəcəyik. Eyni zamanda bizim ən çox ümid və etimadımız əziz İslam İranının fitri və daxili qüvvələrinədir. Bizi inkişaf etdirməli olan bizim gənclərimiz, mütəfəkkir beyinlərimiz, mahir əllərimiz, özümüzün böyük, qurucu və yaradıcı ruhlarımızdır. Mən bu gün bu torpağın sizin kimi şücaətli övladlarına deyirəm: özünüzə güvənin. Biz qapını və yolu bağlamırıq ki, dünyanın imkanlarından və mühüm texnologiyadan istifadə etməyək. Elm və texnologiya bütün bəşəriyyətə məxsusdur, heç kəs onu yalnız özünə aid edib kiməsə minnət qoya bilməz. Bugünkü sivilizasiyanın formalaşmasında bütün bəşəriyyətin rolu olmuşdur. Biz yolu üzümüzə bağlamır və bunu öz haqqımız bilirik.[40]

Biz digər ölkə və xalqların elm və təcrübəsindən istifadə etməyə qarşı çıxmırıq. Bizim sözümüz budur ki, bu ölkəni iranlı və özümüzünkü qurmalıdır. Əcnəbi sizin evinizə ürək yandırmaz, özünüz ürək yandırmalısınız. İradəli iranlılar, gənclər, alimlər, mütəxəssislər, peşəkar beyinlər, dəyərli insanlar, adi xalq və işgüzar qüvvələr İranı qurmağa çalışmalıdırlar. Sözsüz ki, digərlərinin təcrübə, elm və ixtisasından istifadə etmək lazımdır. Biz öyrənmək yolunu bağlamırıq. Dünyanın şərqində və qərbində harada elm və təcrübə varsa, gedib öyrənərik. Bu, İslamın tapşırığıdır, ona qarşı heç bir müxaliflik yoxdur, lakin bu gün bizim sözümüz budur ki, məsuliyyət sizin üzərinizə düşür.[41]

Siz elm adamları kimi, İranın elm tarixinin necə fəxrli bir tarix olduğunu bəlkə bizdən də yaxşı bilirsiniz. Bəzən nəyisə aşağılamaq üçün onun Orta əsrlərə aid olduğunu deyirlər, amma bilmirlər ki, Orta əsrlər Avropa üçün xəcalət dövrü, bizim üçün isə nur dövrüdür. Siz hicrətin dördüncü əsrinə baxın. Adam Mitsin "Dördüncü hicri əsrində İslam mədəniyyəti" kitabı göstərir ki, bütün İslam məmləkətləri dünyanın elm bazarı və onun əsas mərkəzi də İran olmuşdur; yəni İsfahan, Rey, Fars, Xorasan, Hərat, Mərv və s. Bu şəhərlər dünya elminin mərkəzi və zirvəsi olmuşdur. Təəssüf ki, bugünkü nəsil bunları bilmir. Əlbəttə, dediyim bu sözləri yüz dəfə eşidiblər, hamı kitabında yazıb, hər

yerdə danışılıb, amma buna inam yoxdur. Dillə deyilməsə də, bugünkü və bundan qabaqkı nəsildə İranın keçmişinə dair inamsızlıq haləti var. Səbəbi də budur ki, Qərb sivilizasiyası və nəhəng texnologiya hər yeri o qədər bürüyüb ki, heç kim öz keçmişinə baxmağa cürət etmir.

Bu gün elm onların əlindədir - bunda heç bir şübhə yoxdur - lakin onlar xalqların elmi keçmişini də inkar etmək istəyirlər. Qərblilər və avropalılar bəzi yerlərdə, məsələn, Latın Amerikasının bəzi bölgələrində sivilizasiyaların olduğunu da inkar edirlər. Perunun keçənilki prezidenti mənə deyirdi ki, biz arxeoloji qazıntılar zamanı zəngin bir sivilizasiyanın qalıqlarını tapmışıq. Məsələn, 500 il öncə Perunun bir sivilizasiyası, qüdrətli hökuməti, elmi, sərvəti olmuşdur. Siz görün bu gün Peru dünyanın harasındadır - heç bir şeyi yoxdur. Elə bir iş görüblər ki, Peru xalqı öz keçmişindən heç nə bilmir. Qazıntı aparmaq lazım olmuşsa, özləri aparmışlar. İndi bunlar onun cüzi qalıqlarını "kəşf" edirlər. Bizdə bu qədər kitab, elmi əsər və şəffaf tarix olduğuna görə İran haqda bu işi görə bilməzdilər, amma təsirini beyinlərdən çıxardılar. Siz onu qaytarmalısınız. İndi elm dünyasının məşhurları bunu bir qədər təmin edirlər, amma həqiqətən işləmək lazımdır. Bu elmi keçmişi gənc nəslə xatırladın. Bunun bizim elmi inkişafımıza güclü təsiri var. Bu nəsil istedadlı və belə bir keçmişinin olduğunu bilsə, gələcəyə bir cür baxacaq, olan-qalan nə varsa, hər şeyin avropalıların əlində və həmişə Avropanın arxasınca düşməli olduğunu düşünməsi isə elmi inkişafa ayrı cür təsir göstərəcək.[42]

Bu gün müstəmləkəçiliyin, hegemonizmin, ABŞ-ın və dünyanı fəsada tutmuş sionistlərin çox həssaslıqla yanaşdıqları məsələlərdən biri, inqilabi quruluşa malik ölkələri elmi cəhətdən inkişaf etməyə qoymamaqdır. Onlar bu baxımdan bizim ölkəyə daha həssas yanaşırlar. Çünki onların İslama və İslam inqilabına qarşı həssas mövqeləri başqa heç bir inqilaba qarşı olmayıb, yoxdur və olmayacaq.

Bu gün bu ölkədə elmi inkişaf etdirmək iqtidarında olanlar daha artıq vəzifə duymalıdırlar. Düşmən bizi öz ayağımız üstə durmağa qoymur. Biz o zaman öz ayağımız üstündə dura bilərik ki, elmi özümüz istehsal edək və biz dilənçi kimi düşmənlərimizə əl açmayaq.[43]

# İkinci fəsil: İslam dünyası və mədəni hücum

## Birinci hissə: Hegemon güclərin İslam mədəniyyətinə qarşı mədəni mübarizəsinin tarixçəsi

### 1- Avropada elmsevərliyin ifrat inkişafı və dini mədəniyyətə qarşı mübarizənin başlanğıcı

Ən azı iki əsr öncədən dünyada sənaye sivilizasiyası adlı bir proses başlandı. Bu söz mədəniyyətə, inamlara, elmə - hər şeyə dair çoxlu mənaları ehtiva edir. Hazırlığı çox əvvəldən başlansa da, özü ən azı iki əsr öncədən başlayan, bu ad və xüsusiyyətlərə malik olan prosesin bir neçə səciyyəsi vardı: elm və sənayeyə, yeni həyat tərzlərinə və materialist əsaslara malik fəlsəfələrə təmayül. Yəni bu iki əsrdə meydana çıxan düşüncə və fəlsəfələrin əksəri mənəvi və dini təfəkkürün ziddinə olmuşdur. Ən çox şöhrət qazanmış marksizm onlardan biridir. 19 və 20-ci əsrlərdə geniş yayılmış digər fəlsəfi və ictimai cərəyanlar tamamilə, yaxud əsasən materialist, qeyri-dini və ya antidin istiqamətə malik olmuşdur. Bu qeyri-mənəvi və antimənəvi təmayül kiçik nöqtədən başlayıb anbaan artaraq genişlənən bir proses kimi xalqın həyatına, düşüncəsinə, ailəsinə və ictimai münasibətlərinə daxil oldu. Bu elmi prosesin kənarında siyasi qüvvələr də din və mənəviyyata qarşı paralel hərəkətə keçdilər. Bu siyasətlərin bəzisi zahirdə bu fəlsəfələrlə əlaqədar deyildi. Yəqin bilirsiniz ki, bəzi şəxslər hətta ən solçu materialist təfəkkülərin də filosofların deyil, siyasətçilərin düşüncəsinin məhsulu olduğuna inanırlar. Onlara görə bütün bu işlər tamamilə siyasi, həmçinin dünyada günbəgün artan sərvətin, kapitalın və kapitalizmin inkişafına xidmət göstərən iqtisadi işlər idi. Hər halda, siyasətçilər də mənəviyyatla zidd düşdülər və bu qarşıdurma günbəgün artmağa başladı. İslam dini kimi harada mənəviyyat çox idisə, daha çox hücuma məruz qaldı. Dünyanın hər bir yerində İslam düşüncələrinə hücuma keçdilər. Bu hücum İslam dünyasının şərqindən - yəni Hindistandan onun qərbinə - yəni Əlcəzairə qədər hər yerdə həyata keçdi. Fransalılar Əlcəzairə daxil olub İslama qarşı mübarizə apardılar. Hindistanda da ingilislər eyni işi gördülər. Müstəmləkə işində İngiltərə və Fransa rəqib olsalar da, rəqibləri və vurduqları nöqtə bir idi. Onlar dünyada din və mənəviyyatı günbəgün zəiflətdilər, insanları əxlaq və mənəviyyatdan uzaqlaşdırdılar.

Xristian dünyası da belə oldu, İslam dünyası da. Onlar imanı maddiyyatın ağır məngənəsi arasında əzdilər, zəiflətdilər. Ən azı iki əsrdə dünyada bu proses getdi. Bu kiçik məsələ deyil. Bu maddi proses beləcə sürət və sərtliklə zirvəyə

doğru hərəkətə başlayıb, son iki əsrdə günbəgün genişləndi. Cəmiyyətlərdə materialist təfəkkürün, siyasətin və rəftarın bu yüksəlişi ilə eyni zamanda uyğun siyasətləri aparan mərkəzlərin sərvəti, elmi, ixtirası və çeşidli inkişafları da hər gün artdı. Yəni elm sarıdan bugünkü Amerika əlli il öncəki Amerika ilə müqayisəolunmazdır. Avropa da belədir. Onlar pulları, elmləri, ixtiraları və müxtəlif imkanları ilə materializm prosesini gücləndirdilər. Bu yüksələn proses təsəvvürolunmaz həddə çatdıqda sonrakı addım dini, mənəviyyatı və əxlaqı tamamilə məhv etmək idi; yəni bunlara dair bir xatirə belə qalmasın. Bu mənim sözüm deyil. Dünya ədəbiyyatında və elmi-fantastik romanlarda adətən gələcək dünyanı, məsələn əlli ildən sonranı təsvir etməyə çalışırlar. Yazılanların hamısı artıq heç bir mənəvi hissin qalmadığı dünyanı göstərir. Mən bu romanların bəzisini özüm oxumuşam. Atom, kompüter və möhtəşəm kosmik inkişaflardan sonrakı addım nədir? Dünyanın mənəvi və dini düşüncələrdən, onların sözü ilə desək, mövhumatlardan tamamilə uzaqlaşması. Bundan başqa bir şey təsəvvür olunmur.

Bütün maddi proqnozlar bəşəriyyətin materializmə doğru getdiyini göstərərkən qəfildən İranda din və ruhani hərəkatı başladı. Bu hadisə əvvəldə dünyanın diqqətini çox da cəlb etmədi, lakin analitik və müşahidəçilərin gözlədiyinin əksinə olaraq, həcmi, məzmunu və əhatə dairəsi günbəgün genişləndi və gözlənilmədən partlayışla nəticələndi. O zaman qlobal güclər indiyədək bu fenomeni yanlış dəyərləndirdiklərini anladılar. Buna çarə qılmağa çalışdılar, amma bacarmadılar.[44]

Bildiyiniz və tarixdə oxuduğunuz kimi, uzun illər idi dünya mənəviyyatdan və dindən uzaqlaşmaqda idi. Bir neçə əsr öncə dünyada bu hərəkət başlamışdı. Əlbəttə ki, bunun səbəbləri var, naməlum bir şey deyil. Sənaye və elm inkişaflarının zirvəyə yüksəldiyi son 200 ildə - aydınlıq və humanizm dövrü adlanan 19 və 20-ci əsrlərdə dünya dinsizliyə və mənəviyyatdan uzaqlaşmağa sarı sürətlə hərəkət edirdi. Bu gedişin bir qədəri təbii və baş verənlərin nəticəsi idi. Bir qədəri isə düşünülmüş və proqramlı şəkildə həyata keçirilirdi. Dünyanın bütün hakim gücləri bu nəticəyə gəldilər ki, dünyada dini məhv etməlidirlər. Bütünlüklə dinin adını yox, zahiri qorunsa da, onun həqiqi və əsl mahiyyətini məhv etmək istəyirdilər. Həqiqi dini inanc yox edilməli idi. Nə qədər pul xərcləndi, nə qədər insan xaincəsinə deyil, inamla dini inancın məhvini bəşəriyyət üçün zəruri bildi. Onlar dünyada, o cümlədən İslam dünyasında mənəviyyatı məhv etmək üçün kitab yazdılar, sənət əsərləri yaratdılar, təbliğat apardılar, güc işlətdilər, pul xərclədilər. Mənəviyyat əleyhinə

bütün bu işlərin görüldüyü belə bir dünyanın həssas nöqtəsində isə mənəviyyat və İslam devizi ilə bir hökumət və quruluş meydana çıxdı. Belə bir hökumətin qurulması və on il duruş gətirməsi hələ möcüzənin hamısı deyil, başlanğıcı idi.[45]

**2- Məsihi missionerlərin və Qərb kompaniyalarının İslam cəmiyyətlərinə daxil olması**

Siz tarixdən bilirsiniz ki, müstəmləkəçilər Asiyaya, Afrikaya və Latın Amerikasına girmək istəyəndə həmin bölgələrə öz siyasətçilərindən, əsgər və kazaklarından öncə məsihi missionerlərini və müjdəçi qrupları göndərdilər. Onlar qırmızı və qaradərililəri əvvəlcə xristianlaşdırdılar, sonra müstəmləkə kəməndini boyunlarına atdılar, daha sonra isə ev və yuvalarından didərgin saldılar.[46]

Məsihi təbliğatçılar 2-3 əsr öncədən, ən azı 100 il qabaqdan Afrika və Amerikanın ucqar bölgələrinə gedib meşələrin dərinliyində yerləşən kəndlərdə, hətta adi adamların və tacirlərin getmədiyi yerlərdə təbliğata başladılar. Təəccüblüdür ki, onlar bəzən əhalisinin məsihiləşməsinə heç bir ümid olmayan yerlərə, məsələn, İrana da gəldilər. Bir söhbətdə dedim ki, məsihi təbliğatçılar dəfələrlə İrana gəlmişlər. Onların tarixçəsi mövcuddur. Onlar Nadir şahın dövründən və ondan öncədən məsihiliyi təbliğ etmək üçün öz ev və vətənlərini buraxıb o dövrün nəqliyyat vasitələri ilə İran kimi bir ölkəyə gəlib məsihiliyi təbliğ etmək məqsədi ilə uzun illər qalırdılar.[47]

Hegemonizmin təcrübəsi belədir ki, İslam harada ciddi olsa, onunla vuruşmağı lazım bilirlər. Qərblilər 17-ci əsrdən müstəmləkə məqsədi ilə müsəlman ölkələrinə daxil olub şirkət, kilsə və digər belə adlarla yavaş-yavaş özlərinə yer açdılar. Onlar o zamandan anladılar ki, İslam cəmiyyəti və İslam dini onları dünyanın bu tərəfinə göndərən müstəmləkəçi məqsədlərə qarşı çıxır, mübarizə aparır. O zamandan onlar üçün çoxlu faktlar qarşıya çıxdı. Hindistan uzun illər İngiltərənin vilayətlərindən biri sayılırdı; özü də indiki Hindistan yox, Hindistan, Pakistan və Banqladeşdən ibarət olan bütün Hindistan yarımadası. Onlar çox həyasızlıqla dünyanın o tərəfindəki bir qarış torpaqdan gəlib bir yarımadanı, çoxlu sərvət və mədənləri olan böyük bir ölkəni zəbt etdilər. Bunun özü çox acınacaqlı bir məsələdir. Onlar nəhayət, oranı rəsmən İngiltərə imperatorluğuna birləşdirdilər. Uzun illər Hindistana İngiltərə kralının naibüssəltənə kimi göndərdiyi şəxs başçılıq edirdi. Hindistan naibüssəltənələrindən biri 150 il öncə, hələ Hindistanda İngiltərə

müstəmləkəsinə qarşı mübarizələrin başlanmadığı bir dövrdə demişdi ki, burada bizim birinci məqsədimiz müsəlmanları məhv etməkdir. Çünki müsəlmanlar mahiyyətcə bizə düşməndirlər, hindular isə belə deyillər. Bu, müstəmləkənin təcrübəsidir.[48]

**3- Müstəmləkənin İslam cəmiyyətlərində mədəni siyasətləri**

Düşmənlər öncədən hazırladıqları planlarla dini müsəlman xalqların həyatından çıxardılar, İslam ölkələrində dinin siyasətdən ayrılığını təmin etdilər. Nəticədə Qərbin elmi inkişafı bu ölkələri birdəfəyə sənaye ölkələrinə tabe etdirə, onların siyasi və iqtisadi talelərini uzun müddət və islah olunmayacaq şəkildə qərbli soyğunçulara tapşıra bildi.

Bu gün əksər İslam ölkələri Qərbin şirkət və hökumətlərinin ciblərini öz sərvətləri ilə doldurduqları on illərdən sonra hələ də gerilik vadisində sərgərdan qalmışlar, Qərbin sənayesinə, elminə və məhsuluna möhtac, siyasət dünyasında hələ də onların tüfeylisi və zavallı ardıcılıdırlar. Bu ilk gündən İslamın fundamental prinsipinə - yəni İslam tövhidinə diqqətsizlik səbəbindən yaranmış və zaman ötdükcə artmış böyük zərərdir. Zaman irəlilədikcə, elm kamilləşdikcə, hökumətləri və ölkələri daha imkanlı etdikcə İslam ölkələri daha gücsüz, daha asılı, daha cürətsiz və daha təşəbbüssüz olmuşlar.[49]

Müstəmləkəçi qüvvələr bütün İslam dünyasında din alimlərini sıxışdırıb səhnədən çıxarmağa çalışdılar. Məqsədimiz son 100-200 ildir. Ondan qabaq digər amillər, yəni zalım şahların, daxili tamahkar diktatorların istibdadı bu işi görürdü. Lakin Avropa dövlətlərinin İrana, Hindistan yarımadasına, ərəb ölkələrinə, Afrikaya, böyük Osmanlı məmləkətinə və digər yerlərə daxil olduğu bu zamandan etibarən müstəmləkə dövrü başlandı. İlk illərdən müstəmləkəçilər düzgün olaraq anladılar və bu məqam üzərində dayandılar ki, din alimlərinin həqiqi simasını ləkələmək, onları zərərsizləşdirmək və mümkün olduğu təqdirdə məhv etmək lazımdır. Uzun illər bu məsələ üzərində işlədilər. Bəzi yerlərdə din alimlərini və ruhaniləri heç bir şəxsiyyəti və hörməti olmayan çox kiçik və zəif bir amilə çevirdilər. Yəni həyati işlər üçün yox, daha çox ölüm-itim məsələlərindən və formal işlərdən ötrü kiçik bir mərkəz formasına saldılar. Ən azı bəzi müsəlman ölkələrində hakim qüvvələr bu işi görə və uzun illər davam etdirə bildilər. Ruhani hətta din də öyrədə bilmirdi. Onlar bütün İslam ölkələrində bu işi gördülər. Əlbəttə, bizim tanıdığımız bəzi ölkələrdə dini elm çevrəsini tamamilə məhv etmək, yaxud təsirini sıfra endirəcək həddə zəiflətmək

mümkün deyildi. Buna görə də başqa yollara əl atdılar, onları zalım hökumətlərin fəsad dolu saraylarına bağlamağa çalışdılar.

Mübarizə dövründə və inqilabın qələbəsindən sonra əziz imamımızın nifrətlə yad etdiyi saray mollaları İslama və müsəlmanlara çox böyük xəyanət etdilər. Dördüncü imam həzrət Səccad (ə) öz dövrünün məşhur bir şəxsinə (Məhəmməd ibn Şahab Zöhriyə) buyurur ki, sən öz boynunu zalımların dəyirmanı üçün oxa çevirmisən. Onların zülm dəyirmanlarının daşları sənin boynunun ətrafında fırlanır. Onlar sənə arxalanıb öz dəyirmanlarını fırladır və zülm edirlər. Azğın rejimlərin zülmlərinə don geyindirən din alimi həmin rejimlərin özündən təhlükəlidir. Cəmiyyətdə hegemonizmin məqsədlərinə xidmət edən ruhani zalımların ən çirkin, ən mənfur qüvvəsi və haqq görkəmi ilə batil mahiyyəti təbliğ etdiyinə görə olduqca təhlükəlidir. Hegemonizm yüz ildən artıq sürən bu son dövrdə pulla tamahlandırmaqla və təzyiq göstərməklə müsəlman ölkələrində bu işi görməyə çalışmışdır. O buna tam müvəffəq olmadı. Çünki bütün İslam dünyasında, xüsusən də İranda islami və elmi çevrə, yəni İslam ruhaniliyi özünün haqlı və qətiyyətli mövqeyində dayandı, bu böyük inqilabla bu uca respublikanı və quruluşu ərsəyə gətirdi, dünyada İslam bayrağını yüksəltdi və İslama ucalıq bəxş etdi.[50]

Siz dünyada müsəlmanların və İslam ölkələrinin vəziyyətinə, aclıq, yoxsulluq, siyasi zəiflik, məlumatsızlıq, gerilik, siyasi və iqtisadi asılılıq içində olmalarına baxın və özünüzdən soruşun ki, nə üçün belədir. Müsəlmanların və İslam ölkələrinin nəyi çatmırdı?! Təbii qaynaqları az idi?! İnsan resursu çatmırdı?! Coğrafi mövqeyi yaxşı deyildi?! Bunların heç biri deyildi. Deyəcəksiniz ki, bəs nə üçün bu acınacaqlı vəziyyətə düşmüşdür? Cavab budur ki, düşmənlər 100-200 il boyu xalqın məlumatsızlığından və başçıların xəyanətindən sui-istifadə edib onlara mənəvi, mədəni və bunun kənarında iqtisadi və hərbi hücumlar etdi. İslam ölkələrini tədricən gördyünüz bu duruma saldı. Bu, İslam dünyasının təbii vəziyyəti deyil. İslam dünyası Şimali Afrikadan Uzaq Şərqə, İslam dünyasının qərbinin ən uzaq bölgələrinə və hal-hazırda Qərbi-Afrikadan Şərqi Asiyaya qədər əraziləri əhatə edir. Dünyanın ən həssas regionlarından biri də Fars körfəzidir.[51]

## İkinci hissə: Müstəmləkəçi qüvvələrin İslam dünyasına mədəni hücumunun səbəb və kökləri

### 1- İslamın müstəmləkəyə qarşı böyük bir maneə olması

İslamın olduğu yerlərdə beynəlxalq istismarçı sistem rədd olunur. İslam harada baş qaldırsa, bu, zülmə, təcavüzə, müstəmləkəyə, istismara, xalqın təhqir olunmasına və bugünkü dünyada istismarçı sistemin bütün əlamətlərinə qarşı düşmənlik deməkdir.[52]

İslam düşmənləri, böyük güclər və hegemon qüvvələr İslamı məhv etmək, adını sıradan çıxarmaq və dünyada İslamdan heç bir əsər-əlamətin qalmamasını istəyirdilər. Çünki İslam onların quldurluqlarına qarşı çıxırdı. Amerika İslamdan qorxurdu və qorxur. Dünyanın nüfuzlu oğru və quldurları, yəni qlobal güclər İslamdan qorxurlar və buna görə də onu məhv etmək qərarına gəlmişlər.[53]

Hegemon dünya dedikdə məqsədimiz qlobal siyasi güclər, yəni böyük güclərdən, kiçik və asılı avtoritar rejimlərdən ibarət birlikdir. Onların ən mühüm məqsədlərindən biri İslamı məhv etməkdir, çünki İslam onların hegemonluğuna qarşı çıxır.[54]

Qlobal Hegemonizm nə üçün İslamla bu qədər düşməndir? Çünki İslam onun tamahkarlığı qarşısında böyük bir maneə sayılır. İslam hegemon qüvvələrin soyğunçuluğuna və özbaşnalığına imkan vermir.[55]

İmanı olmayan insanın ümidi də olmaz. İmanı olmayan insan problemlər qarşısında tab gətirməz, yarıyolda qalar, yaxud qayıdar. Siz gördünüz ki, hakim qüvvələr tərəfindən dinsizliyə, materializmə, allahsızlığa və marksist təfəkkürlərə məcbur edilən ölkələr yarıyolda qaldılar, soyğunçu və müstəmləkəçi Qərb onlara qalib gəldi. İslam isə belə deyil. İslami hərəkət daimidir. İslamın insanın yaxşı, gözəl və ədalətli həyatı uğrunda mübarizəsi həmişəlik bir mübarizədir. Məhz buna görə İslamla düşməndirlər və hegemonizmin çantasından İslam və müsəlmanlara qarşı hər gün bir təxribat çıxır.

Dünyanın vəziyyətinə baxın. Bu gün ABŞ və şeytansifət hegemonizm çox qəzəb və şiddətlə İslam əleyhinə mübarizə aparır, əlindən gələn hər bir işi görür. Lakin buna baxmayaraq, Allaha şükür olsun ki, İslamın gücü, İslam

əhval-ruhiyyəsi və İslam imanı dünyada günbəgün artmaqdadır. Bu isə hegemonizmi vahiməyə salan amildir.[56]

Müstəmləkəçi qüvvələr özlərinin siyasi, iqtisadi, ictimai və mədəni işğal planlarını hazırlayarkən mühüm bir maneə ilə rastlaşdılar. O maneə xalqların dini inancı idi. Əlbəttə, dini inanclar hər yerdə istismarçıların təcavüzlərinə mane olmur. Təhrif olunmuş, hansısa qüvvələrin əlinin məhsulu olan din təbii olaraq böyük güclərə qarşı çıxmır. İslam müstəmləkəçi dövlətlərin İslam ölkələrinə hərtərəfli və təcavüzkarcasına hücumuna qarşı çıxan bir dinin ən bariz və gerçək nümunəsidir. Onlar öz araşdırmalarında bunu anladılar. Hindistanda, ərəb ölkələrində, İranda bunu sınaqdan keçirdilər. Harada xalqın dini vicdan duyğusu oyanmışdısa, müstəmləkə planları maneə ilə üzləşdi. İranda Tənbəki hadisəsi, İran Məşrutə hərəkatı, Hindistanda ingilislərə qarşı baş verən qanlı hadisələr, on doqquzuncu əsrin ortalarında müsəlman əfqanlarla ingilislər arasındakı toqquşmalar və Seyid Camalın Misirdə ingiltərəliləri qorxudan hərəkəti bu nümunələrdəndir.[57]

Azğın Qərb mədəniyyəti uzun illər heç bir maneə görmədən İslam ölkələrində pozuculuq və fəsad törətməklə məşğul olmuşdur. Təəssüf ki, fəsad içində olan asılı hökumətlər düşmənlərin mədəni və siyasi təxribatları qarşısında xeyirxah bir hökumətdən gözlənilən möhkəm səddi çəkmədilər. Odur ki, Qərb ölkələrinin başçıları siyasi istismar və iqtisadi soyğunçuluq məqsədi ilə İslam ölkələrində dəyərsiz və rəzalət dolu Qərb mədəniyyətini yaymağa başladılar, heç bir şey də onlara mane olmadı.[58]

**2- Müsəlman xalqların İslam oyanışının qarşısını almaq**

İranda İslam inqilabı qələbə çalanda proqnoz verirdilər ki, bu inqilab müsəlman və hətta bəzi qeyri-müsəlman xalqları İslama yönəldə bilər. Buna görə bütün müstəmləkəçilər işə girişib İslamın mənəvi nüfuzunun qarşısını almağa başladılar. Hegemonizmin İslamın nüfuzuna qarşı geniş və universal fəaliyyətinin yeganə səbəbi budur ki, İslamın və İslam təlimlərinin dünyanın hər hansı bir yerinə yayılması həmin yerdə onların istismarının sona çatması deməkdir. İslam inqilabı tövhidin, Allahdan qeyrisinə bəndəliyin inkarının və Allahdan başqa hər bir kəsin və hər bir şeyin önündə başucalığının düzgün mənasını praktik və real şəkildə hamıya göstərdi. Bu inqilabın qələbəsindən dərhal sonra dünyanın bir çox bölgələrində yaşayan müsəlmanlar şəxsiyyət və ucalıq hiss etdilər, hegemon və zalımlara qarşı çıxdılar, müsəlman xalqların

yeni mübarizə dövrü başlandı. Əfqanıstanda müsəlman xalqın möhtəşəm hərəkəti, Fələstində xalq mübarizəsinin başlanması, müsəlman və mübariz Fələstin xalqının sövdəgər təşkilatlara qarşı çıxması, Afrikanın, Asiyanın və hətta Avropanın müsəlman ölkələrində çoxlu İslam hərəkatlarının yaranması İslamın gözəlliyinə, onu xilaskar bildiklərinə görə və ilahi hökmlərin həyata keçməsinə həvəslə baş verdi. İslam Respublikasından öncə dünyanın müsəlman xalqlarını inandırmışdılar ki, İslam onlara ucalıq bəxş etməyə qadir deyil, onlar səadət üçün ya Qərb modelinə, Avropa və Amerika mədəniyyətinə üz tutmalı, ya da marksizmin puç və uydurma nəzəriyyələrinə müraciət etməlidirlər. İranda İslam inqilabının qələbəsi, İslam Respublikasının yaranması və İslamın İran xalqına ucalıq və əzəmət bəxş etməsi Qərb müstəmləkəçilərinin köhnə yalanlarının üstünü açdı, İslamın bir xalqı zəiflikdən, passivlikdən və məzlumluqdan xilas edib ucalığın, şücaətin və özünəinamın zirvəsinə çatdıra, dünyanın maddi gücləri ilə vuruşmağa qadir olan güclü bir quruluş bəxş edə, müstəmləkə və hegemonizmin zülmkar və təhqiredici istismarına son qoya bildiyini əməldə göstərdi.[59]

Böyük güclər İslamla, müsəlmanların oyanışı ilə düşməndirlər; İranla da İslamına görə düşməndirlər. Onların bütün səyi dünyada İslam hərəkatının dirçəlməsinə mane olmaqdır. Sözsüz ki, bu ədavətin başında zalım və təcavüzkar ABŞ dövləti, arxasında isə İslama qarşı qədim düşmənliyi, onunla maraq toqquşması olan və yaxud İslamdan qorxan bütün kiçik və böyük güclər durur. İslam İranı ilə düşmən olmalarının səbəbi budur ki, İslam oyanışı buradan başlandı. Bu gün dünyanın müsəlman xalqları dünyanın harasında olsalar da, ümidlərini bu hərəkətdən və bu qalib inqilabdan alır, addımlarını möhkəmlədir və irəliləyirlər. Əgər burada İslamı məğlub edə bilsələr (bundan Allaha sığınırıq), dünya miqyasında İslam dalğasına qarşı ən böyük qələbələrini əldə etmiş olacaqlar. Bu bir reallıqdır. Odur ki, düşməni tanımaqda səhvə yol vermək, onun İslam və müsəlmanlara qarşı düşmənliyindən əl çəkdiyini düşünmək olmaz.[60]

Bu gün İslam dünyada şeytani qüvvələrin həmişəkindən daha çox nifrət və ədavətinə tuş gəlmişdir. Keçmişdə də İslama qarşı pis münasibətdə olmuşlar. İslam heç zaman dünya hegemonlarının xoşuna gəlməmiş, onlar heç vaxt İslamı bəyənməmişlər. Lakin düşmənlik bu gün dəfələrlə artmışdır. Bu gün şeytani qüvvələr canlı İslamın onlara endirdiyi zərbələri dadmışlar. Qərbin şeytani qüvvələri - yəni ABŞ və onun quyruqları müsəlman bir xalqın Allahın adı ilə

ayağa qalxmasının nə demək olduğunu anlamışlar. Buna görə də İslamdan daha çox qorxur və ona daha çox ədavət bəsləyirlər.[61]

Qurani-kərim buyurmuşdur: "Sən yəhudi və xaçpərəstlərin dinlərinə tabe olmayınca onlar səndən razı qalmayacaqlar".[62] Bu söz həqiqətən Quranın möcüzələrindəndir. Yəni müsəlmanlar İslamdan əl çəkməyincə düşmənlər razı qalmayacaqlar. İslamda məqsəd onun diri hökmləri, ruhu və həyati qüvvəsidir. Sözsüz ki, müsəlmanlar İslamın uca əsaslarından xəbərsiz olduqda, onun bəzi zahiri qaydalarına əməl etsələr belə, onunla işləri olmaz və düşmənlik etməzlər. Amma bu daha Peyğəmbərin (s) gətirdiyi və Quranın "insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmət"[63] - deyə buyurduğu İslam olmayacaq.[64]

## Üçüncü hissə: İslam dünyasına mədəni hücum zamanı müstəmləkəçi qüvvələrin istifadə etdiyi üsul və vasitələr

### 1- İslam tarixini təhrif etmək

Orta əsrlərdən sonra Qərbdə və məsihi dünyasında əziz Peyğəmbərin (s) şəxsiyyətinə qarşı geniş təbliğat hücumu başlandı. İslamın qatı düşmənləri anladılar ki, İslamla mübarizə yollarından biri Peyğəmbərin (s) simasını ləkəməkdir. Bu sahədə çoxlu işlər görüldü. Düşmən bu günə qədər müxtəlif üsullarla Peyğəmbərin (s) şəxsiyyətini dünya azadlıqsevərlərinin beynindən çıxarmaq məqsədi ilə işlər görür. Dünyada çoxlu insanlar var ki, İslam peyğəmbərini (s) müsəlmanların tanıdığı qədər və hətta ondan da az tanısalar, İslama və İslam mənəviyyatına inanar və üz tutarlar.[65]

Siz gördünüz ki, qlobal hegemonizm İslam inqilabı sayəsində güclənən İslamın mənəvi inkişafı qarşısında öz muzdurunu əziz Peyğəmbərin (s) şəxsiyyətini təhqir etməyə, dünyanın qızıl və güc şeytanlarının əmri ilə şeytani kitab yazmağa məcbur etdi. O, dünya müsəlmanlarının və birinci növbədə Böyük İmam və əzəmətli rəhbərin qətiyyətli cavabı ilə üzləşdi. İmam o şeytansifətin edam hökmünü verdi.[66]

Müstəmləkəçilik Asiyaya və Afrikaya daxil olandan İslam ümmətinin keçmişini ləkələməyə və unutdurmağa çalışmışdır. On səkkizinci əsrin sonlarından etibarən müstəmkəçilərin birbaşa və ya dolayı məqsədləri olan İslam ölkələrinin maddi və insani resurslarına hakim olmaq və müsəlman xalqların taleyini ələ keçirmək təbii şəkildə müsəlman xalqların qürur və şəxsiyyət hissinin sınmasını, onların öz möhtəşəm keçmişlərindən tam xəbərsiz qalmasını tələb edirdi. Onlar bu yolla öz mədəniyyət və əxlaqlarını buraxıb Qərb mədəniyyətini və müstəmləkə təlimlərini qəbul edə bilərdilər. Azğın və avtoritar hökumətlərin İslam ölkələrində yaratdığı tamamilə əlverişli şəraitdə bu hiylə uğurlu alındı, qərbli düşmənlərin mədəniyyəti və müstəmləkəçiliyin öz siyasi və iqtisadi istismarını təmin etmək üçün müsəlman xalqlar arasında yayılmasını zəruri saydığı bütün təlimləri sel kimi axmağa başladı. Nəticədə 200 il ərzində bütün İslam ölkələri qərbli soyğunçular üçün açıq süfrəyə çevrildi, onlar birbaş hakimiyyətdən tutmuş yeraltı sərvətləri ələ keçirməyə, əlifbanı dəyişdirməyə, hətta Fələstin kimi bir müsəlman ölkəsini tamamilə zəbt etməyə və bu ölkələrdəki İslam müqəddəslərini təhqir etməyə qədər getdilər,

müsəlmanları siyasi, iqtisadi və mədəni müstəqilliyin bütün faydalarından, eləcə də elmi və mədəni inkişafdan məhrum etdilər.

Bu gün İslam ölkələri mədəni, ictimai, iqtisadi və hərbi cəhətdən çox acınacaqlı, psixoloji və maddi cəhətdən zəif durumdadırlar. Bu ölkələrin əksərinin siyasi quruluşları da bərbad haldadır. Hər şeyin həqarət və acizlik hissindən xəbər verdiyi bu durumun ən mühüm səbəblərindən biri bu ölkə və xalqların öz tarixi keçmişlərinə, əsrlərin arxasından hər bir zəif və ümidsiz insanı hərəkətə sövq edəcək möhtəşəm keçmişə biganəlik və diqqətsizlikdir. Bu tarixi möhtəşəmliyin əsası ilk müsəlmanların hərəkəti, Allah üçün qiyamı, ixlaslı cihadı, İslamın azadlıq və həyat bəxş edən hökmlərinə əməl etmələri sayəsində, Məkkənin qürbət və Mədinənin cihad dolu günlərində qoyuldu. İslam cəmiyyəti adlanan körpə cihad və mübarizə sayəsində qüvvətli və ağıllı bir gəncə çevrildi, sonra əsrlər boyu elm və bilik məşəlini, hakimiyyət və siyasət bayrağını bütün bəşəriyyətin başı üzərində dalğalandırdı. Bu əzəmət Məkkə və Mədinə mübarizəsindən qaynaqlanırdı.

Müsəlman xalqların bir neçə əsrlik tənəzzül, durğunluq və xarlıqdan sonra İslam dünyasının dörd bir tərəfində Allah üçün oyanışa və qiyama uz tutduğu, azadlıq, istiqlaliyyət, İslama və Qurana dönüş ətrinin bir çox müsəlman ölkələrində duyulduğu bugünkü gündə onların işıqlı və möcüzəvi keçmişlə, Allah üçün qiyam və erkən İslam çağının mübarizə dövrü ilə əlaqələrini möhkəmlətməyə həmişəkindən daha çox ehtiyacları var.

Deyilənlərdən keçmiş müstəmləkəçilərin və bugünkü beynəlxalq hegemonların müsəlmanların öz keçmişləri ilə əlaqəsindən qorxmalarının və ona qarşı vuruşmalarının səbəbini anlamaq olar. Bəli, bu günün və gələcəyin tarixini yazan amil keçmişlə bu əlaqədir.[67]

**2- Etik və ictimai fəsadları yaymaq**

İngiltərənin ozamankı siyasi lordları və yüksək rütbəli məmurları təxminən bütün dünyaya siyasi planlar cızırdılar. Əslində onlar bütün dünyada işləyirdilər - Avstraliyadan tutmuş Mərkəzi Asiyaya, Hindistan yarımadasına, İrana, Orta Şərqə, Şimali Afrikaya və Amerikaya qədər. Bu kiçik ada dünyanın bütün ölkələrinə hökmranlıq edirdi. Onlar bu nəticəyə gəldilər ki, nefti, qazı və ozamankı dünyanın gələcək enerjisini təmin etmək qüdrəti olan, təyyarələrin və indiki sürətli nəqliyyat vasitələrinin olmadığı dövrdə Şərqlə Qərb arasında strateji baxımdan həyati nöqtə hesab olunan bu həssas bölgədə mövqelərini möhkəmlətmək istəyirlərsə, İslam haqda düşünməyə və ona çarə qılmağa məcburdurlar. Xalqın dini və İslam inancının güclü olduğu təqdirdə onların

planlarının həyata keçməsi imkansız idi. Onların bu qənaəti dəqiq idi, düz anlamışdılar. Onlar üçün əsas maneə İslamdan ibarət idi. Biz ingilisləri dedik, amma Avropanın digər ölkələri də təqsirsiz deyildilər, Fransa, İtaliya, Portuqaliya, Belçika da vardı. Lakin o zaman dünyanın müxtəlif bölgələrində görülən işlərin hamısında əsas mərkəz İngiltərə idi. Siyasətdə və cəmiyyətlərin həyatında hər xalqın öz növbəsi var. Onda onların növbəsi idi, çapıb-talayır və amansızlıqla qarət edirdilər.

Növbə İslam ölkələrinə çatdıqda bu fikrə düşdülər ki, bu ölkələrin inkişaf etməkdə olan nəsillərini dindən ayırmalıdırlar. Bu iş üçün iki iş görülməli idi. Onların biri cinsi məsələlərin yayılması və ehtiras yollarının açılması idi. İslam dini digər dinlərdən daha dəqiq olsa da, təkcə o yox, bütün dünya dinləri insanların cinsi özbaşınalığına qarşı çıxır. Dinlər bunun üçün qayda və hədd müəyyənləşdirib. Cinsi istəkləri məhdudlaşdırmadan insan ruhunun yetkinləşməsi mümkün deyil. İnsanın ehtirası heç bir sərhəd tanımasa, heyvan kimi olub insani tərəqqidən uzaq düşər. Deməli, hər bir cəmiyyətdə dinlərə qarşı sadə və asan mübarizə yolu cinsi özbaşınalığa rəvac verməkdir. İranda bu işə başladılar. Bu sahədə görülən ən mühüm işlərdən biri hicab qadağası idi. Digər işlər kimi spirtli içkiləri yaymağı və qadınla kişi arasında əlaqə məhdudiyyətini aradan qaldırmağı göstərmək olar. Onlar bu işləri də gördülər. Yeni elmi cihazların kəşfi və sivilizasiyanın inkişafı, məsələn, kinoteatrlar, radio, televiziya və sair vasitələr də onlara bu işləri asanlıqla görmək imkanı yaradırdı. Bu sadalananlar hələ elmə və düşüncəyə aid olmayan işlərdir. Bəziləri səhvən elə düşünürlər ki, cinsi özbaşınalığa səbəb olan amil elm və bilikdir. Halbuki belə deyil; elm və bilik ikinci amil idi.

Birinci amil sırf mədəni məsələlər – düşüncə və elm fəsadına, ehtiraslı əməllərə və pozğunluğa yol açan işlər idi. Birinci iş bu idi və bunu etdilər. Buna görə də İranda, eləcə də digər ölkələrdə qərblilərin bu hücumu ilə yoldan çıxan ilk şəxslər savadlılar deyildi, əksəri savadsızlar və cəmiyyətin orta təbəqəsi idi. Bəli, rifah, dəbdəbə və israfçılıq onların istədiyi və planlaşdırdığı fəsada kömək göstərirdi. Bu bir amil idi.

Başqa bir amil elm və düşüncə məsələsi idi. Təbii ki, Avropanın əldə etdiyi elmi tərəqqilər cəlbedici idi. Bu yeni elmi düşüncələr İslam ölkələrinə daxil olarkən onlar bunu xalqı dindən uzaqlaşdırmağa, ürəklərdə olan iman işığını söndürməyə və dini inancı ortadan götürməyə vasitə etdilər.[68]

Mədəni hücumun yollarından biri mömin gəncləri sivilizasiyanın keşikçisi olan imana təəssübkeş bağlılıqdan daşındırmaqdır; ötən əsrlərdə

Andalusda gördükləri iş kimi. Orada gəncləri fəsada, ehtiraslara və spirli içkilərə aludə etdilər. Hal-hazırda bu işlər görülməkdədir.[69]

Bu gün dünyanın çoxlu xalqlarının, o cümlədən çoxlu müsəlmanların zorla ibadət və itaətinə vadar edildiyi büt - Amerika bütüdür. Bu büt müsəlmanların bütün mədəni, siyasi və iqtisadi işlərini ələ keçirmişdir və onları zorla öz maraqlarına tabe etməyə çalışır.

İbadət qeyd-şərtsiz itaət etməkdir. Bu gün xalqlar hegemonların və birinci növbədə Amerikanın istəkləri qarşısında müxtəlif yollarla bu ibadətə məcbur edilirlər. Müstəmləkəçi qüvvələr xalqlar arasında fəsad və pozğunluq yayır, hegemon düşərgənin beyni və ürəyi olan Qərb kompaniyalarının daha artıq qazanc götürməsi üçün xalqlarımızın yaşayışını günbəgün daha çox bataqlığa batıran israfçılıq mədəniyyətinə rəvac verirlər. Hegemon Qərbin siyasi hökmranlığı özlərinə bağlı və xalqa qarşı olan hökumətlər vasitəsi ilə təmin olunur. Bütün bunlar, hər hansı bir bəhanə ilə daha açıq forma alan hərbi müdaxilələr və digər amillər İslamın müsəlmanlar üçün nəzərdə tutduğu tövhid quruluşu və tövhid həyatı ilə tam ziddiyyət təşkil edən həmin şirk və bütpərəstliyin təzahürləridir.[70]

**3- Dünyanın mütərəqqi təbliğat vasitələrindən istifadə etmək**

İslam düşmənləri, supergüclər, hegemonlar, dünyagir və vəhşi qüvvələr uzun illər İslam və müsəlmanların canına düşdülər. Onlar İslamı vurmaq üçün bütün vasitələrdən istifadə etdilər: çoxlu pullar xərclədilər, planlar cızdılar, müstəmləkə illəri ərzində müsəlman xalqlara böyük ziyanlar vurdular.

Belə bir qürbət çağında bizim möhtəşəm inqilabımız başladı, böyük rəhbərimiz və xalqımız ayağa qalxdı.[71]

İslamın düşmənləri bu gün daha imkanlıdırlar. Bu gün İslam düşmənlərinin əlində olan imkanlar tarix boyu heç vaxt onlarda olmamışdır. Məsələn, İslamın erkən çağının bir dönəmində zalım və qəsbkar xəlifələr İslam cəmiyyəti daxilində İmam Əlinin (ə), əsl İslamın və düzgün Quran təfsirinin əleyhinə təbliğat aparıb xalqı istədikləri yola çəkmək istəyəndə bunu necə, hansı müddətə və hansı vasitələrlə edirdilər? Kimlərisə İslam dünyasının ucqar bölgələrinə göndərməli, onlar bir kütlə tapıb danışmalı və zalım hakimlərin istədiklərini xalqın beyninə yeritməli idilər. Bu iş çətin idi. Düzdür, bu işi görürdülər, amma təbii ki, çox da uğurlu olmurdu.

Dünyanın təbliğat vasitələrinin möhtəşəm inkişaf etdiyi bu dövrdə və son əlli ildə antiislam güclərin İslam əleyhinə təbliğat aparması isə çətin deyil. Çünki keçmişdə məhdud bir bölgədə bir neçə il ərzində görülən bir iş bu gün dünyanın geniş bir miqyasında bir neçə saat ərzində görülür. İslam əleyhinə bir film hazırlayıb beynəlxalq televiziya kanallarında yayımlayırlar. Bu filmə tamaşa edən hər hansı bir adamın İslamdan xəbəri olmasa, ona qarşı pis fikrə düşər. Onların radioları, qəzetləri və xəbər agentlikləri dünyada daim İslam və İslam dəyərləri əleyhinə çalışırlar. Bu, İslam düşmənlərinin imkanlarının inkişafına dair bir nümunədir.

İslam düşmənlərinin müsəlmanlara və İslam tərəfdarlarına təzyiq göstərmək üçün güc, təchizat və imkanları bu gün keçmişlə çox fərqlənmişdir. Bu şəraitdə bir xalq İslamı müdafiə etmək, onu ucaltmaq, gücləndirmək üçün mübarizə aparsa, bu yolda heç kəsdən və heç nədən qorxmasa və şəhadətə qovuşsa, bu qiyam, bu mübarizə və şəhidlik keçmişdəkindən daha dəyərli olar.[72]

**4- İslamı ictimai-siyasi səhnələrdən və müsəlman xalqlar arasından təcrid etmək**

Öz heysiyyətini müdafiə edən milli bir mədəniyyətin mövcud olduğu cəmiyyətlərdə onların ilk işi həmin mədəniyyəti xalqdan almaqdır. Bir qrup əsgər güclü bir qalaya hücum edəndə əvvəlcə onun divarlarını uçururlar. Onlar qalanın divarlarını zəiflətmək üçün hər bir işi görərlər. Hətta birinci iş kimi qala əhalisini yatırmaları da mümkündür. Sədi Gülüstanda bir əhvalat danışır: deyir ki, oğrular yuxuda olan bir dəstə adama hücum etdilər, amma onlara hücum edən ilk düşmən yuxu idi. Yuxu onların gözlərini yumdu, sonra xarici düşmən gəlib qollarını bağladı, mallarını götürüb apardı. Dümən mədəni hücumda belə edir. Əvvəlcə xalqı yatırdır, sonra da hər şeyini aparır.[73]

İslam düşmənləri ayıqdırlar və İslama zərbə vurmaqdan məyus olmamışlar. Bu gün böyük beynəlxalq güclər İslamı və xalqlar üçün cəlbedici olan İslam şüarlarını sıradan çıxarmaq istəyirlər. Şeytanlar və böyük şeytan olan ABŞ İslama və müsəlmanlara zərbə vurmağa çalışırlar. İslam düşmənlərinin nüfuz etdiyi hər bir yerdə İslama təhlükə var.[74]

Bu gün beynəlxalq media ideoloji və etiqadi hərəkatlar, o cümlədən İslam hərəkatları dövrünün bitdiyini göstərmək istəyir. Onlar inandırmaq istəyirlər ki, daha İslam hərəkatı və dindən irəli gələn amallara nail olmaq uğrunda mübarizə dövrü bitmişdir. Onlar Kommunist blokunun dağılmasını da bununla izah

edirlər. Halbuki orada belə bir şey yox idi və dağılıb gedən təməlçilik deyil, başqa şeylər idi. Müxtəlif amillər əl-ələ verib bu nəticəyə səbəb oldu. Əksinə, bu gün dünyada İslama meyl güclənməkdədir. Müsəlmanların olduğu hər bir yerdə bir hərəkat yaranmışdır. Lakin bu hərəkat bəzən mədəni müstəvidə olur, bəzən mülayim siyasət müstəvisində, bəzən də təbii şəkildə yaranmış radikal formada.

Şərqə baxın, İndoneziyada, Malayziyada, Hindistan yarımadasında (Kəşmir məsələsi), dinə qarşı bu qədər mübarizə aparılmış Türkiyədə, həmçinin Afrikada, onun şimalında və müsəlman azlıqların yaşadığı bəzi Avropa ölkələrində İslam hərəkatı və İslama təmayül mövcuddur. Bu nədən irəli gəlir? Təbii ki, bunların dəqiq səbəbini söyləmək üçün geniş araşdırma aparmaq lazımdır. İslam oyanışı yalnız bizim dövrümüzə aid deyil, kökləri dərindir. Bu hərəkat 150 il öncədən başlanmışdır. Ondan öncə belə İslam yeniliyi və oyanışı şəklində olmamışdır. Bu, dünyada köklü bir tendensiyadır.[75]

Beynəlxalq istismarçıların siyasəti dini elm mərkəzlərini təcrid etməyə, ruhdan salmağa, təşəbbüssüz, özlərindən asılı etməyə, böyük amallardan uzaqlaşdırmağa yönəlmişdi və indi də belədir. Onları dinin siyasətdən ayrı olmasına inandırmaq və mühüm beynəlxalq hadisələrlə yanaşı addımlamasına məyus etmək istəyirlər.[76]

Düşmənlər öncədən hazırladıqları planlarla dini müsəlman xalqların həyatından çıxardılar, İslam ölkələrində dinin siyasətdən ayrılığını təmin etdilər. Nəticədə Qərbin elmi inkişafı bu ölkələri birdəfəyə sənaye ölkələrinə tabe etdirə, onların siyasi və iqtisadi talelərini uzun müddət və islah olunmayacaq şəkildə qərbli soyğunçulara tapşıra bildi. Bu gün əksər İslam ölkələri Qərbin şirkət və hökumətlərinin ciblərini öz sərvətləri ilə doldurduqları on illərdən sonra hələ də gerilik vadisində sərgərdan qalmışlar, Qərbin sənayesinə, elminə və məhsuluna möhtac, siyasət dünyasında hələ də onların tüfeylisi və zavallı ardıcılıdırlar. Bu ilk gündən İslamın fundamental prinsipinə - yəni İslam tövhidinə diqqətsizlik səbəbindən yaranmış və zaman ötdükcə artmış böyük zərərdir. Zaman irəlilədikcə, elm kamilləşdikcə, hökumətləri və ölkələri daha imkanlı etdikcə İslam ölkələri daha gücsüz, daha asılı, daha cürətsiz və daha təşəbbüssüz olmuşlar.

Çıxış yolu budur ki, müsəlmanlar tövhidin hər şeydən üstün tutulduğu və Allahdan qeyrisinə bəndəliyin inkar edildiyi əsl İslama qayıdıb öz qüdrət və

ucalıqlarını onda axtarsınlar. Antiislam strateqlərin daim qorxduğu və qarşısında ciddi maneələr törətdiyi amil də budur.[77]

Məlum məsələdir ki, dinin siyasətdən ayrılığına dair məşum nəğmə mənfur düşmənlərin planıdır. Onlar səhnədə olan canlı İslamdan zərbə görmüşlər, bu yolla dini insanların həyatından çıxarmaq, özləri xalqları idarə etmək və problemsiz şəkildə insanların taleyinə hakim olmaq istəyirlər. Acınacaqlı və təsirli olan budur ki, bəzi şəxslər din və din alimləri adı altında bu sözü təkrar edir və yayırlar. Xalqı siyasətdən, siyasi dərk, müzakirə və fəaliyyətdən uzaqlaşmağa çağıran amil Amerika İslamıdır. Əsl Məhəmməd (s) İslamı isə siyasəti dinin ayrılmaz bir hissəsi sayır, bütün müsəlmanları siyasi dərkə və fəaliyyətə çağırır.[78]

Hegemonizmin yeni xaç yürüşünün bir hissəsi olan antiislam media inandırmağa çalışır ki, İslam müsəlman xalqların siyasi və iqtisadi həyatını idarə etməyə qadir deyil və onların kapitalist Qərb dövlətləri kimi yaşamaqdan başqa çıxış yolları yoxdur. Bu, İslam ölkələrini hegemon Qərb düşərgəsinə calamaq, onların maddi sərvətlərini istismar etmək üçün planlaşdırılan və illərdir təbliğ olunan yalançı bir hiylədir.[79]

Hegemon qüvvələrin İslamla mübarizəsi İrana, onun xalqına və İslam Respublikası quruluşuna qarşı etdikləri ilə məhdud olmadı, daha geniş miqyasda həm siyasi və informasiya üsulları ilə, həm də mədəni üsullarla ciddi şəkildə davam etdirildi. İslam ölkələrində ABŞ-a bağlı rejimlər tərəfindən mübarizlərə, azadlıqsevərlərə, din alimlərinə və müsəlman ziyalılara, həmçinin qeyri-müsəlman ölkələrdə müsəlman azlıqlara göstərilən təzyiq və şiddət İslam əleyhinə siyasi mübarizəyə, İslama qarşı məqalə və kitablar yazmaq, təhqiramiz filmlər hazırlayıb müsəlman və qeyri-müsəlman cəmiyyətlərdə yaymaq da mədəni mübarizəyə dair bariz nümunələrdir. Bu gün ABŞ və İngiltərə kimi hegemon dövlətlər bu cinayət əməlləri üçün böyük pullar xərcləyirlər. Təəssüf ki, maddi maraqdan ötrü öz qələm, nitq və sənətlərini alverə qoyan, vicdanlarına qarşı çıxıb hakim qüvvələrin pis niyyətlərinə xidmət edən yazıçı və sənətkarlar da var.[80]

**5- İslam inqilabının simasını ləkələmək**

İslam inqilabının qələbəsindən, İranda İslam Respublikasının yaranmasından və İran xalqının İslam dəyərləri əsasında bir cəmiyyət qurub

İslam qanunlarını həyata keçirmək istədiyini bildirməsindən sonra Şərqə və Qərbə bağlı informasiya şəbəkələri İslam Respublikasına fundamentalist, mürtəce və digər adlar qoyub ona qarşı sərt hücuma keçdi, modernizm iddiası altında İslam ölkəsinin keçmiş ənənələrə sadiqliyini tənqid etdi. Halbuki dünyanın şərqində və qərbində azadlıq, demokratiya və insan hüquqları kimi yeni ideallardan əsər-əlamət olmayan mürtəce, avtoritar və çürük ənənələrə sadiq rejimlər az deyil və onlar heç zaman belə hücumlara məruz qalmırlar. Təəccüblüsü odur ki, siyasi modernizmin ən ibtidai şərtləri olmayan, parlament, azad seçki və müstəqil medianın utopiya sayıldığı rejimlərin radioları da İslamın hökmü ilə xalq hakimiyyətinin qurulduğu, xalqın seçdiyi deputatlardan ibarət parlamentdə İslam qanunlarının qəbul olunub xalqın seçdiyi hökumət vasitəsi ilə icra olunduğu və xalqın ən həssas məsələlərdə fəal iştirak etdiyi bir ölkəni mürtəce adlandırır, istehzalı imitasiyaları ilə ağıllı adamları özlərinə güldürürlər.

Bəli, hegemonizm, onun media qurumları və muzdurları köhnəpərəstliyin dərin qatlarında qalan, xalqı cahil ənənələrlə yaşayan, amma maddi xəzinələrinin qapılarını onlara açan, onların imperialist tələblərinə təslim olan, fəsad, pozğunluq, istehlakçılıq, şərabxorluq və şəhvətpərəstlik mədəniyyətini qəbul edən bir ölkədən çox razı qalırlar. Onlar xalqların şərəf və ucalığını xatırladan, cihad və şəhadətə yol açan, onlara ucalıq bəxş edən, istismarçıların mal və namus soyğunçuluğuna son qoyan, onlara "Allah heç vaxt kafirlərə möminlərin əleyhinə olan bir yol göstərməz!"[81] və "İzzət və ucalıq yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur"[82] ayələrini oxuyan, "Sizə nə olub ki, Allah yolunda, aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?"[83] - deyə müraciət edən və "Hökm ancaq Allaha məxsusdur"[84] fərmanı verən, xülasə, Allahı, dini və Quranı həyatda meyar seçib hegemon, avtoritar və istismarçı tağutların hakimiyyətinə son qoymağa çağıran amillərdən, belə bir keçmişə qayıdışdan, belə tarixlə əlaqədən narazı qalır, nigaran olur, qorxur və müxtəlif üsullarla ona mane olmaq istəyirlər.

Müsəlmanlar, xüsusən də azadlıq və Allah üçün qiyam ətrinin duyulduğu cəmiyyətlər, özəlliklə qabaqcıl din alimləri və ziyalılar bu təhlükədən ehtiyatlı olsunlar, "fundamentalist" sözündən qorxmasınlar, "mürtəce" və "köhnəpərəst" ittihamlarından nigaran olmasınlar, çirkin məqsədli düşmənləri razı salmaq üçün öz İslam prinsiplərindən, işıqlı İslam hökmlərindən, dini cəmiyyət və tövhid quruluşundan ibarət məqsədlərini açıq söyləməkdən vaz keçməsinlər və Allahın sözünə tabe olsunlar. Allah buyurur: "Sən yəhudi və xaçpərəstlərin dinlərinə tabe olmayınca onlar səndən razı qalmayacaqlar"[85]; "De: “Ey kitab əhli! Bizdən xoşunuzun gəlməməsi yalnız bizim Allaha, bizə nazil edilənə və

bizdən daha əvvəl nazil edilənlərə inanmağımıza və sizin əksəriyyətinizin fasiq olmasınamı görədir?!"[86]; "Müşriklərin: “Heç olmasa, (peyğəmbərliyinin doğruluğunu təsdiq etmək üçün) ona bir xəzinə endiriləydi və ya onunla birlikdə bir mələk gələydi!” – deməklərindən dolayı, bəlkə də, sənə gələn vəhyin bir hissəsini tərk etməli (bəzi ayələri dərhal təbliğ etməyib təxirə salmalı) olacaqsan və (bəzən) buna görə ürəyin sıxılacaq"[87]; "Onlardan (möminlərdən) yalnız yenilməz qüvvət sahibi, (hər cür) şükrə layiq olan Allaha iman gətirdiklərinə görə intiqam alırdılar"[88].[89]

Bu gün İslam dünyasında bütün müsəlmanları öz ətrafına çağıran uca bir bayraq və səs var. Bu, İslam Respublikasının səsidir. Bu gün dünyanın hər bir yerində müsəlmanlar təbii şəkildə şüarı İslam olan, ölkəsində İslam qanunlarını icra edən, konstitusiyası İslama zidd olan hər hansı bir qanunun əsassız olduğunu açıq söyləyən bir dövlətə və quruluşa rəğbət bəsləyirlər. Bu quruluş İran İslam Respublikasıdır. Bu gün belə qətiyyət və ciddiliklə İslam hökmlərini istəyən başqa bir yer yoxdur. Xalqlar arasında var; xalqlar hər yerdə müsəlmandırlar, İslamı sevir, ona əməl etmək istəyirlər, hökumətlər isə belə deyil. Onlar İslam adı ilə başlasalar da, güclü beynəlxalq təzyiqlər qarşısında qaldıqda geri çəkildilər. Bildiyiniz kimi, bu on ildə İslama görə bizə demədikləri söz qalmayıb: mövhumatçı, mürtəce, mədəniyyətsiz, fanatik və sair.

Mən Pakistana səfərə hazırlaşanda İmam Xomeyni buyurdu: "Pakistanın din alimlərinə deyin ki, ABŞ-ın, Qərbin, Şərqin, mürtəce dövlətlərin və digərlərinin bizə qarşı təzyiqləri bizim iranlı olduğumuza görə deyil, İslama görədir. Dünya bizim İslam məsələsində ciddi olmadığımızı, hegemon dünya bizim İslam üzərindən bazarlıq etməyə razı olduğumuzu, buna çox əhəmiyyət vermədiyimizi duyanda bu təzyiqlər də bitəcək". Mən həzrət imamın sözünü Pakistanın bütün yerlərindən gəlmiş müsəlman din alimlərinə olduğu kimi çatdırdım. Təzyiqlər İslama görədir. Biz bunu hiss edirik, müsəlmanlar da anlayırlar. Dünya müsəlmanları bilirlər ki, bura İslamın əsl vətəni və həqiqi mərkəzidir. Buna görə İslam Respublikasını sevirlər. Bunun özü bir vəhdət amilidir. Müstəmləkəçilik bu gün bu amili görüb müxtəlif yollarla münaqişə törətməyə çalışır; irqi səbəblərlə, şiə-sünni söhbətləri ilə, Əhli-sünnə və Şiə firqələrinin daxili şaxələri, eləcə də müxtəlif xalq və etnik qruplar arasında mübahisələri qabartmaqla. Biz müsəlmanıq, diqqətimizi toplamalı və bilməliyik ki, Amerikaya və Qərbə kölə kimi tanınan, müsəlman xalqlar arasında hegemonizmə bağlı olduğuna görə pislənən bir ölkənin neftinin pulu şiəliyə qarşı bir kitaba sərf olunursa, bu, Allahın razılığı və ya sünnilərə sevgi üzündən

deyil. Bunun arxasında çirkin niyyət durur. Məsələnin o biri tərəfi də doğrudur. Əgər müxtəlif qüvvələr qıcıq yaratmaq məqsədi ilə Şiə toplumlarını sünni müqəddəslərinə, yaxud sünnilərə qarşı təhrik edirlərsə, bu, ya anlamazlıq, bilməzlik üzündəndir, ya da mütləq onda düşmənin barmağı var. Anlamazlıq baş verəndə də düşmən maksimum istifadə edir.[90]

İslam inqilabının qatı düşmənləri olan supergüclər heç zaman öz əməllərinin səbəbini açıq söyləməmişlər və söyləməyəcəklər. ABŞ İranla düşmənliyinin İslama görə olduğunu etiraf etsə, dünyanın bir milyard müsəlmanı ona qarşı çıxar; bu düşmənlikdə məqsədinin İranın müstəqil, azad və Amerikanın müdaxiləsindən kənar yaşamaq istəməsi olduğunu etiraf etsə, dünyanın bütün azadlıqsevərləri ona qarşı çıxarlar; İranla çirkin düşmənliyinin, İranın mallarını saxlamasının və İslam Respublikasına qarşı daimi təxribatlarının səbəbinin İslam inqilabının öz zəngin sərvətlərinə sahib çıxıb düşmən istismarına son qoyması və xain Pəhləvi rejimi tərəfindən səxavətlə peşkəş olunmuş iqtisadi talanların qarşısını alması olduğunu etiraf etsə, dünyanın bütün məzlum xalqları və müstəmləkə soyğunçuluğundan zərərçəkənlər İran xalqının yanında olub Amerikaya qarşı mübarizəyə qoşularlar.

Buna əsasən, Amerikanın, hegemon cəbhənin digər dövlətlərinin və onların bütün muzdur media şəbəkələrinin bütün səylərini İran həqiqətlərinin təhrifinə yönəltməyə və dünyanın ictimai rəyini yayındırmağa məcbur olmaları çox təbiidir. Onlar gah insan hüquqları, gah azadlıqların pozulması ittihamı ilə, gah da "mürtəce" kimi söyüşlərlə İranın qorxmaz, ayıq və azadlıqsevər xalqını, mütərəqqi və inqilabçı İslam Respublikası quruluşunu və onun ləyaqətli məmurlarını günahlandırır, İran xalqının hegemon və xəbis istismarçılara, xüsusən də böyük şeytana ümumi nifrətinə qarşılıq verirlər.

İslam Respublikasının onbirillik təcrübəsi sübut etdi ki, hegemonizm, irtica və onların müttəfiqləri bu hiylədə də uğur qazanmamış, böyük xalqımızın təmiz adını və parlaq simasını dünyada, xüsusən də məzlum xalqlar arasında ləkələyə bilməmişlər. Muzdur qələm və nitqlər üçün xərclədikləri böyük pullar, İslam inqilabını təcrid, təsirsiz və ya bədnam etmək üçün açdıqları yüzlərlə mətbu orqanı, radio və televiziya kanalı iflasa uğramışdır. Onların dünyanın bir çox ölkələrində yürütdükləri siyasətin əksinə olaraq, indi dünyanın çoxlu bölgələrində xalqlar İran xalqının xilasedici hərəkətini örnək seçməklə şeytan istismarçılara qarşı xalq mübarizələrinə üz tutmuş, zalımların yuxusunu qaçırmışlar. Ayıq müsəlman təbəqələr hər yerdə başa düşmüşlər ki,

hegemonizmin, yəni Amerikanın və onun müttəfiqlərinin İran xalqına qarşı düşmənliyi məhz İslama görədir: "Onlardan (möminlərdən) yalnız yenilməz qüvvət sahibi, (hər cür) şükrə layiq olan Allaha iman gətirdiklərinə görə intiqam alırdılar"[91].[92]

## Dördüncü hissə: Müsəlmanların mədəni hücuma qarşı tədbirləri

### 1- Müsəlmanların İslam hakimiyyəti üçün ayağa qalxması

Bütün müsəlmanlara deyirəm ki, sizin bütün problem və uğursuzluqlarınızın həlli İslama, İslam quruluşunda və İslam hökmləri sayəsində həyata qayıdışdadır. Bu amil başucalığı, qüdrət, təhlükəsizlik və rifah kimi böyük nemətləri müsəlmanlara qaytarıb, onları hegemonizmin texnoloqlarının nəzərdə tutduğu acı və rəzalət dolu taledən uzaqlaşdıra bilər.

İslam müsəlmanları və bütün insanları xilas etməyə qadirdir; bu şərtlə ki, düzgün tanınsın və ona düzgün əməl olunsun. İranın İslam quruluşu Allahın lütfü ilə İslam iqtidarının timsalı və müsəlmanlar üçün canlı bir təcrübədir. Halbuki onun onüçillik ömrünün səkkiz ili Şərq və Qərb hegemonlarının ədavətli planları ilə yaradılan müharibədə keçdi, ondan öncə və sonra da bu günə qədər daim düşmən düşərgələrinin hücumlarına məruz qalmışdır.[93]

İslam xalqları Allaha arxalanıb İslamı dirçəltmək, yenidən İslam həyatına qayıtmaq, düşmənin nüfuzunu azaltmaq, öz xalqlarının müstəqilliyini təmin etmək, böyük İslam birliyi yaratmaq üçün ayağa qalxmalıdırlar. Bu gün xalqın, xüsusən də din alimlərinin, ziyalıların, natiqlərin, ayıq və istedadlı gənclərin və bu yolda rol oynaya bilən hər bir şəxsin üzərinə bu vəzifə düşür.[94]

İslam tövhid dinidir. Tövhid isə insanın Allahdan başqa hər bir şeyin və hər bir kəsin qarşısında bəndəlikdən, itaətdən və təslimçilikdən azadlığı deməkdir. Tövhid bəşəri quruluşların istismarına son qoymaq, şeytani və maddi güclərdən qorxu tilsimini qırmaq, Allahın insanın daxilində yaratdığı və işlətməsini tələb etdiyi tükənməz potensiala güvənmək, qiyam, mübarizə və müqavimət şərti ilə məzlumların zalım və hegemonlar üzərində qələbəsinə dair ilahi vədə inanmaq, Allahın mərhəmətinə bel bağlamaq, məğlubiyyət ehtimalından qorxmamaq, ilahi vədin həyata keçməsində insanı təhdid edən təhlükə və zəhmətlərə qatlanmaq, problemləri Allaha tapşırmaq, qəti və son qələbəyə ümidvar olmaq, mübarizədə cəmiyyətin hər növ zülm, ayrıseçkilik, cəhalət və şirkdən qurtuluşuna dair yüksək məqsədi diqqətdə saxlamaq, yarıyolda baş verən şəxsi uğursuzluqların əvəzini Allahdan istəmək - xülasə, özünü Allahın tükənməz qüdrət və hikmət okeanına bağlı bilmək, uca məqsədə sarı ümidlə və qorxmadan irəliləməkdir.

Müsəlmanlara vəd edilən bütün izzət və ucalıq tövhidə dair belə inamın, aydın və güclü dərkin nəticəsidir. Tövhidi düzgün dərk etmədən, etiqad və

əməldə ona sarılmadan Allahın müsəlmanlara dair heç bir vədi həyata keçməyəcək. Hegemonizmin istismarı dövründə əsl İslam tövhidinin və onun həyati anlamının unudulması müstəmləkə bütlərinə yol açdı, qızıl və güc sahiblərinə soyğunçuluq imkanı yaratdı.[95]

Kimsə supergüclərin İslamla barışdığını düşünməsin. Kimsə İslamın və İslam ümmətinin bu gün qlobal quldurlar qarşısında müqavimətə ehtiyaclı olmadığını düşünməsin. Onlar bizə qarşı nə etməyiblərsə, deməli, bacarmayıblar. Onlar İslam ümməti əleyhinə bacardıqları hər bir işi görürlər. Biz ayıq və hazırlıqlı olmalı, Quranın bizdən nə istədiyini unutmamalıyıq.[96]

Nə vaxt lazım olsa, canımızı və bizim üçün əziz olan hər bir şeyi İslam dəyərlərinə qurban verməli, ucalıq, şərəf və azadlıq amili olan İslam hakimiyyətini bütün vücudumuzla qorumalıyıq. Hegemonizmin və haqsızlığın dünyaya hakim olduğu bugünkü zalım dövrdə xalqları xilas edəcək yeganə qüvvə İslam və Qurandır. Qlobal hegemonlar məhz buna görə İslama qarşı mübarizə aparır, onun hakimiyyətinə maneçilik törədirlər.

İran İslam Respublikası İslamın qələbəsinin və hakimiyyətinin ilk uğurlu təcrübəsi olduğuna görə həmin istismarçıların qəzəbinə tuş gəlmişdir. Onlar bütün qüvvələri ilə ona qarşı açıq və gizli mübarizə aparırlar. İslamın erkən çağında olduğu kimi, bu gün də fədakarlıq etmədən İslamı qorumaq mümkün deyil. Əsl müsəlmanın lazım olduqda canı, malı, rahatlığı, elmi, hörməti - hər bir şeyi bu parlaq və müqəddəs həqiqəti müdafiə etməyə sərf olunmalıdır.[97]

Bu bəhanə heç kəsdən qəbul olunmur ki, düşmənin kobudluğundan və gücündən qorxub İslamı müdafiədən və İslam hakimiyyəti uğrunda çalışmaqdan əl çəksin. Allaha şükür olsun ki, xalqlar oyanmışlar və İslam yolunda addım atırlar. Canlı nümunə Şimali Afrika, xüsusən də Sudan və Əlcəzair xalqlarıdır. Bu xalqların müqaviməti və Allahın Quranda buyurduğu bəlaları qəbul etmələri qələbəni qətiləşdirəcək: "Biz sizi mütləq bir az qorxu, bir az aclıq, bir az da mal, can və məhsul qıtlığı ilə imtahan edərik. (Ey Rəsulum! Belə imtahanlarda) dözümlü olanlara müjdə ver"[98].[99]

Böyük arzu və ideallaın imkansız olduğunu düşünmək çox təhlükəli bir şeydir. Arzu və amalı olan bir insanın ən böyük düşməni məyusluqdur. Əgər "faydası yoxdur, biz bacarmayacağıq, əbəs yerə zəhmət çəkməyək" desək, bilin ki, o iş baş tutmayacaq. İslamda məyusluq mənfi hallardandır. Bəzi məyusluqlar

hətta böyük günahdır. İnsan Allahın mərhəmətindən, xüsusi diqqətindən məyus olsa, böyük günah etmişdir. Bizim məyus olmağa haqqımız yoxdur. Allahın rəhmətinə ümidsiz olmaq böyük günahlardandır. Qarşısında çoxlu maneələr görsə belə, heç kəsin Allahın rəhmətindən məyus olmağa haqqı çatmır. Bəzən də məyusluq böyük günah olmur, amma böyük maneə olur.[100]

Bizim böyük İslam inqilabımız böyük problemlərin həllinin xalqların öz əlində olduğunu göstərdi. İnsanların iradəsi Allaha güvəndiyi və ilahi vədə arxalandığı təqdirdə hakim qüvvələrin istəyinə və tədbirinə qalib gələr.[101]

İnqilab bir dəyərdir. İnqilabı və inqilabçılığı antidəyər kimi göstərməyə çalışanlar inqilabdan ən çox ziyan çəkənlərdir. İnqilab təlimlərinə şübhə ilə yanaşmaq antidəyərdir. Zülmkar, istismarçı və zalım güclərlə mübarizəyə şübhəli yanaşmaq antidəyərdir.

Xalqların xilası zalım güclərdən müstəqillikdədir. Zalım güclər həmişə xalqlara sübut etməyə çalışmışlar ki, əbəs və yanlış yerə çalışırlar, onların xilası bizim boyunduruğumuz altına girmələrində, maddi işlərdə və qanunsuz hökmranlıqda bizə yardımçı olmalarındadır.[102]

Düşmən ajiotaj yaradıb sizi İslam hakimiyyəti və İslam quruluşu adından çəkindirməyə çalışır. Bəlkə də bəzi sadəlövhlər düşünə bilərlər ki, ABŞ-da və Qərb dövlətlərində qıcıq doğurmamaqdan ötrü açıq çıxışlarda İslam hakimiyyəti sözünü işlətmək lazım deyil. Mənim tövsiyəm budur ki, bu yanlış fikirdən ciddi çəkinək. İslam quruluşu, Quran və İslam hakimiyyəti məqsədini heç bir şeydən çəkinmədən açıq şəkildə, təkrar-təkrar və bütün şəraitlərdə bəyan edin, müqəddəs İslam adından imtina etməklə düşməni tamahlandırmayın və məqsəddə çaşqınlıq yaratmayın.

İslam və İslam hərəkatları həmişə küfrdən çox nifaqdan ziyan çəkmişdir. Bu gün Amerika İslamının təhlükəsi, yəni İslamın adının tağutların, hegemon dövlətlərin məqsədlərinin xidmətində durması ABŞ-ın hərbi və siyasi təhlükəsindən az deyil, çoxdur. İstər din alimi, istərsə də siyasətçi görkəmində olan Amerika İslamının təmsilçilərindən uzaq durun, söz, işarə və məqsədləri baxımından onları ittiham edin və heç zaman onların yardımını cəlb etməyə çalışmayın. Digər ölkələrdəki İslam hərəkatlarının təcrübələrindən və indiki durumlarından xəbərsiz qalmayın, hegemonizmin yaratdığı maneələrə baxmayaraq, onlarla əlaqə qurun. Dinə sarılmaq və söz birliyinə əməl etmək tövsiyəsi olan "Hamılıqla Allahın ipinə möhkəm sarılın və (bir-birinizdən)

ayrılmayın!"[103] ayəsini həmişə yadda saxlayıb onun hər iki tövsiyəsini rəhbər tutun və bu sahədə düşmənin hiylələrindən ehtiyatlı olun.[104]

Küfr və hegemon cəbhəsi bilsin ki, gələcək İslama məxsusdur. Heç bir siyasət və heç bir qüvvə İslamın günbəgün artan qüdrətinin, şüar və dəyərlərinin müsəlman cəmiyyətlərində günbəgün genişlənməsinin qarşısını ala bilməyəcək.[105]

**2- İncəsənətdən istifadə edərək İslam həqiqətlərini açıqlamaq**

Bizim bütün dünya müsəlmanlarına tövsiyəmiz budur ki, Peyğəmbərin (s) şəxsiyyəti, həyatının müxtəlif cəhətləri, davranışı, əxlaqı və fikirləri üzərində çoxlu işlər görülsün. Orta əsrlərdən sonra Qərbdə və məsihi dünyasında əziz Peyğəmbərin (s) şəxsiyyətinə qarşı geniş təbliğat hücumu başlandı.[106]

Əziz Peyğəmbərin (s) həyatı və şəxsiyyətinin müxtəlif cəhətləri - əxlaqı, hakimiyyət üsulu, idarəçiliyi, ibadəti, siyasəti, cihadı və müxtəlif təlimləri üzərində işləyək. Məqsədim yalnız kitab yazmaq deyil, yeni üsullardan və dünyanın mövcud texnikalarından istifadə edib yalnız İslam Respublikasında deyil, bütün İslam dünyasında incəsənət və təbliğat işləri görməkdir.[107]

Dünyada çoxlu insanlar var ki, İslam peyğəmbərini (s) müsəlmanların tanıdığı qədər və hətta ondan da az tanısalar, İslama və İslam mənəviyyatına inanar və üz tutarlar. Biz bu mövzuda işləməliyik. İslam üçün bəlkə də ən böyük təbliğ İslam Peyğəmbərinin (s) simasını dünya üçün işıqlandırmamızdır. Çox yaxşı olar ki, düşmən və müxaliflər özlərinin mürəkkəb mədəni işləri və incəsənət üsulları ilə o həzrətin məlumatsız insanların gözündən salmazdan öncə dünya müsəlmanları, sənətkarlar, məlumatlı adamlar və müxtəlif təbliğat üsullarını bilənlər o böyük və hörmətli şəxsiyyətə dair elmi, mədəni, incəsənət və təbliğat işləri görsünlər. Bunlar lazımlı işlərdir.[108]

Şübhə yoxdur ki, yanlış düşüncə və marağı olanlar da incəsənətdən istifadə edəcəklər. İncəsənət elə bir şeydir ki, dünyanın bütün şüurluları ondan istifadə etmək istəyirlər. Ümumiyyətlə dünyada incəsənətdən istifadə etmək istəməyən ağıl sahibi yoxdur.

İstifadənin biri də budur ki, bir nəfər natəmiz bir düşüncəni bir incəsənət növü ilə beyinlərə yeridir. Buna əsasən, o şəxs də incəsənətdən istifadə etmək istəyir; necə ki, natəmiz düşüncə və əməl sahibləri pul və silahdan da istifadə

edirlər. Bunun qarşısını almaq olmaz. Görülməsi mümkün olan iş budur ki, natəmiz düşüncə sahibinin istifadə etmək istədiyi, yaxud etdiyi amildən müqəddəs, pak və ülvi düşüncə üçün istifadə edək. Çünki bu pak, müqəddəs və ülvi düşüncə ondan istifadə edə bilməsə, geri qalacaq. Əgər sapqın bir insan dünyanın bir yerində fəsad törətmək, məsələn, bir oğurluğa rəhbərlik etmək, yaxud insanları öldürmək üçün avtomobildən və ya təyyarədən istifadə edirsə, ona mane olub insanları xilas etmək üçün siz də mütləq təyyarədən istifadə etməli, ondan tez, ən azı onunla birgə və ya onun arxasınca özünüzü həmin yerə çatdırmalısınız. Bu zaman avtomobil, ya təyyarədən istifadə etməsəniz, geri qalacaqsınız. Sürətli təyyarə ilə özünüzü çatdırmasanız, geri qalmanız qaçılmazdır. Bunda şübhə yoxdur. [109]

Ümidvarıq müsəlmanların, xüsusən də din alimlərinin, mütəfəkkirlərin, ziyalıların, yazıçıların, şairlərin və incəsənət xadimlərinin müqaviməti, möhkəmliyi, ayıqlığı və üzərlərinə düşən vəzifənin böyüklüyünü dərk etmələri nəticəsində kafir və hegemonların İslam cəmiyyətlərindəki istismarına son qoyulsun, Allahın möminlər üçün istədiyi ucalıq və əzəmət müsəlman cəmiyyətlərə qayıtsın![110]

Müsəlmanlar dünyanın hər bir yerində düşmənlərin İslamı zəiflətmək və aşağılamaq məqsədi ilə atdıqları təxribatçı addımlara qarşı çox həssas və sayıq olsunlar. Antiislam kitab və filmlər kimi mədəni təxribatlara qarşı da xüsusi sayıqlıq lazımdır. Bu sahədə əsas qüvvələr ürəkləri İslam üçün döyünən, hegemon qurumların İslam və müsəlmanlara qarşı kin və nifrətindən xəbərdar olan yazıçı və sənətkarlardır. İslama, düşmən təbliğatlarının ifşasına və dünya müsəlmanlarının hüqunun müdafiəsinə dair məqalə və kitab yazmaq, sənət əsərləri yaratmaq onların ümumi və böyük vəzifəsidir.

İslam müqəddəslərinin təhqir edilməsi qarşısında ümumi vəzifə aydındır. Mərhum imamın Şeytan ayələri kitabının mürtəd və mənfur müəllifinin edam edilməsinə dair hökmü oxşar yerlərdə hamının vəzifəsini bəlli edir. Bu bədbəxt yazıçıya dair ümmət imamının verdiyi hökm öz qüvvəsində qalır və icrasını gözləyir.

Müsəlmanlar böyük toplantılardan, xüsusən də möhtəşəm həcc mərasimindən hegemonizmin İslam əleyhinə mədəni təxribatlarına qarşı etiraz, nifrət və qətiyyətli müqavimətlərini bildirmək üçün maksimum istifadə etməlidirlər. Əminəm ki, qeyrətli müsəlmanlar indiyədək olduğu kimi, bundan sonra da ümmət imamının çağırışına qətiyyətlə cavab verəcəklər.[111]

**3- Müsəlmanların birliyi**

Şərq və İslam ölkələrinə girəndən sonra müstəmləkəçilərin məqsədlərindən biri də müsəlmanları parçalamaq idi. İslam aləmində müsəlman qardaşlar arasında ayrılıq salmaq üçün millətçi hissləri qabartmaqdan tutmuş firqələr arasında konflikt yaratmağa və onları gücləndirməyə qədər müxtəlif yollardan istifadə etdilər. Heç şübhəsiz, bu işdə müstəmləkənin aləti olan azğın və muzdur hökumətlərin rolu misilsiz və çox böyük olmuşdur.

Biz bu gün bütün dünyada təxminən birmilyardlıq bir toplumu təşkil edirik. Bugünkü dünyanın ehtiyacı olan əsas sərvətlər bu strateji və həssas bölgələrdədir. Lakin eyni zamanda dünya müsəlmanları əksər ölkələrdə - istər azlıqda olduqları ölkələrdə, istərsə də xalqın böyük əksəriyyətini təşkil etdikləri ölkələrdə ictimai, siyasi və iqtisadi baxımdan xoşagəlməz durumda yaşayırlar. İslam və şərafətli Quran ayələri isə öz ardıcıllarını müxtəlif bəşəri keyfiyyətlərə - elmə, əxlaqi dəyərlərə, ictimai ədalətə, başucalığına, qüdrətə, birliyə və zor qarşısında təslim olmamağa çağırır. Bu təlimlərə əməl edən heç bir xalq bu vəziyyətdə ola bilməz. Açıqca anlamaq olar ki, müsəlmanların indiki durumu təbii, yaxud təsadüfi bir şey deyil, əslində onları düşünülmüş şəkildə bu vəziyyətə salmışlar. İranda bizim böyük və əzəmətli imamımızın rəhbərliyi ilə başlayan İslam hərəkatının ilk günündən onun ən əsas məqsədlərindən biri dünya müsəlmanlarının birliyi, zalım və təcavüzkar güclərin əllərinin müsəlmanlar ölkələrindən kəsilməsi olmuşdur. Bu, hələ də bizim inqilabımızın mesajıdır. Sionist media əleyhimizə ajiotaj yaradır, bizi fundamentalist adlandırır. Halbuki İslamın prinsip və təməllərinə qayıdış mənasında olarsa, biz fundamentalizmi özümüzə böyük fəxr sayırıq. Müsəlmanlar dünyanın heç bir yerində fundamentalist və təməlçi sözündən qorxuya düşməməlidirlər. Müqəddəs İslam qanunları insan xoşbəxtliyinin qarantıdır. Müstəmləkə amili bizim həyatımızda bu qanunların rolunu zəiflətmişdir. Biz İslam və Quran qanunlarına qayıtmaqla fəxr edirik.[112]

Dünyada möhtəşəm İslam amilinin günbəgün gücləndiyi duyulur, zaman islami və mənəvi dəyərlərin xeyrinə işləyir. Dünya müsəlmanları ayılmışlar və ayılmaqdadırlar; hegemon və quldurlar istəsələr də, istəməsələr də, ABŞ-ın xoşu gəlsə də, gəlməsə də, bu baş verir. Odur ki, bu mərhələnin təhlükələrindən ehtiyatlı olmaq lazımdır.

Əsrlərlə diktatorlar, müstəmləkəçilər və İslamın düşməni olan quldur hökumətlər müsəlmanları zəif və xar halda saxlamışlar. Müsəlmanların ucalığı

və oyanışı prosesinin getdiyi bugünkü gündə düşmənlərin təhlükəli pusquları mütləq olacaq. Onlardan ehtiyatlı olmaq lazımdır. Bu təhlükələrdən biri müsəlmanlar arasında, İslam tayfaları, məzhəbləri və müsəlman xalqlar arasında olan münaqişələrdir. İslam dünyasının harasında xain qüvvələr təfriqə və konflikt yaratmağa çalışmırlar?! İslam dünyasının harasında hegemon texnoloqların mənfur beyinləri sadəlövh və zəif insanları öz məqsədləri üçün işlətmirlər?!

Bizim yaxın məqsədimiz və böyük addımımız müsəlman firqə, məzhəb və qruplar arasında birlik yaratmaqdan ibarətdir. Bəzi qüvvələrin missiyası isə ucalıq gətirən İslam hərəkətinə zərbə vurmaq və təfriqə salmaqdır. Siz onları tanımalı, onlara qarşı ağıllı tədbir görməlisiniz. Müsəlmanlar sayıq olub özlərini İslamla başıuca və İslamın qüvvəsi ilə güclü saysalar, bu hərəkət mütləq öz məqsdələrinə çatacaq.[113]

İslam dəyərlərinin dünyada qəti dəyərlər olmasını, insanları cəlb etməsini və beləliklə müsəlmanların həyatında dəyişiklik yaranmasını istəyiriksə, bu, müsəlmanların birliyi olmadan mümkün olmayacaq. Bu birlik isə parçalanmaqla, düşmənliklə, firqə vuruşmaları ilə əldə edilə bilməz.

Biz İslam firqələrinə demirik ki, özünüzə xas etiqadlardan əl çəkib başqa bir firqənin etiqadlarını qəbul edin. Biz bütün müsəlmanlara deyirik ki, müsəlman firqələr arasındakı ortaq cəhətlər onların fərqli cəhətlərindən daha çox, daha mühüm və daha əsaslıdır. Bizim düşmənlərimiz fərqli cəhətlər üzərində dayanırlar. Biz də ortaq cəhətlər üzərində dayanmalıyıq və düşmən bəhanə tapıb İslam ümmətinə təzyiq göstərə bilməməlidir. Biz xoşbəxtlikdən, İranda bu məsələləri həll etmişik. İslam dünyasının müxtəlif yerlərində də bizim çoxlu qardaşlarımız bu məsələləri ya həll etmişlər, ya da həllinə yaxınlaşmışlar. Düşmən isə əl çəkmir. Müstəmləkənin İslam ölkələrinə daxil olduğu 150-200 il öncədən bu günə qədər müsəlman fiqələr arasındakı fərqli cəhətlər üzərində işləmişlər. Biz çox ehtiyatlı olmalıyıq. Şiə və sünnilər İslam firqələrini bir-birinə yaxınlaşdırmaq və qardaş münasibətini qorumaq öhdəliyi götürməli, bir-birinə dayaq olmalıdırlar.[114]

Müsəlmanların kompakt yaşadığı yer Şərq və Qərbin arasında, dünyanın ortasında yerləşən bu regiondur. Strateji, coğrafi və iqlim baxımından dünyanın ən həssas bölgəsi müsəlmanların əlindədir, ən qədim sivilizasiyalar, ən güclü mədəniyyətlər də onların yaşadığı bu yerə məxsusdur. Digər insanların vəhşi şəraitdə yaşadığı zaman bu xalqlar elm və bilikləri ilə dünyanı idarə edirdilər,

mtəşəkkil bir əhali, vardı, ölkələr bir-birinə yaxın, xalqlar mədəni baxımdan bir-birinə oxşar idilər. İndi də bu regionun dünyanın hər yerində müsəlman nümayəndələri var. Bizim sözümüz budur: Dünya müsəlmanları! Dünyanın harasında olsanız, bilin ki, bir-birinizə qarşı düşmənlik etməsəniz, bir-birinizin əleyhinə vuruşmasanız, dost və düşmənlərinizi tanısanız, vəziyyətiniz zəif və geriqalmış halda olduğunuz bugünkü günlə fərqlənəcək.

İslam ölkələri əksərən, yaxud hamılıqla yoxsul, asılı və əsirdirlər. İslam düşmənləri İslamı zorla müsəlman ölkələrdən qovub çıxarmaq istəyirlər. Müsəlman xalqların qəlbi İslamla və Allahladır, onlar İslamı sevirlər. Qlobal güclər muzdur hökumətlər vasitəsi ilə xalqları İslamdan uzaqlaşdırmağa çalışırlar. Siz bir olsanız, bir-birinizlə vuruşmasanız, böyük enerjilərinizdən din və dünyanızı yaxşılaşdırmaq üçün istifadə etsəniz və onları bir-biriniz əleyhinə işlətməsəniz, xarici supergüclər qarşısında sədd çəkmiş olarsınız. Bizim sözümüz budur. Biz demirik ki, dünyanın sünniləri şiə olsunlar, yaxud şiələr etiqadlarından əl çəksinlər. Təbii ki, bir sünni, yaxud hər hansı bir məzhəbin ardıcılı araşdırandan sonra hansı etiqadı qəbul etsə, həmin etiqadına və araşdırmasına uyğun əməl etməlidir. Vəhdət həftəsində bizim vəhdət mesajımız isə budur ki, müsəlmanlar bir-birinə qarşı düşmənlik etməsinlər və bir olsunlar. Bu pis söz deyil. Hər bir ağıllı, qərəzsiz və insaflı adam bunu qəbul edər. Meyar da Allahın kitabı, əziz Peyğəmbərin (s) sünnəsi və İslam şəriəti olsun. İnqilabdan illər öncə bu söz yumşaq formada deyiləndə qlobal hegemonizmə bağlı qüvvələr ona qarşı çıxırdılar. İslam inqilabı qələbə çalandan sonra isə dünya hegemonları müsəlmanların birliyinin baş tutacağı təqdirdə onların İslamın mərkəzi olan İrana yönələcəyini bilirlər. Hazırda münaqişə yaratmaq üçün hegemonizmə bağlı qüvvələr və mürtəce dövlətlər tərəfindən çoxlu pullar xərclənir, müxtəlif ərəb, urdu dilli ölkələrdə və hətta İslam ölkəsinin özündə inqilabın və İslamın mesajı olan bu birliyə mane olmağa çalışırlar.[115]

Böyük İslam ümməti hər gün bir-birinə yaxınlaşmalıdır. Düşmənlərin təfriqə və münaqişə planları müsəlman xalqların və böyük İslam ümmətinin bugünkü oyanışı şəraitində təsirsiz ötüşməli, müsəlmanlar coğrafi, dil və irq fərqlərinə baxmayaraq, həmrəy, həmfikir və əlbir olub böyük İslam məqsədlərinə doğru hərəkət etməlidirlər.[116]

Bu gün müsəlmanların birliyinə həmişəkindən artıq əhəmiyyətli yanaşmaq lazımdır. Nə üçün? Çünki düşmənlərin İslam cəmiyyətlərinə yol tapmaq üçün istifadə etdikləri vasitələrdən biri münaqişə törətməkdir. Bunun

üçün onların müxtəlif üsulları var. Bəzi üsullar uzunmüddətlidir; misal üçün, 100, 200, 500 il ərzində mömin və müsəlmanlar arasında konflikt yaratmaq və İslam ümmətinə tezliklə sağalmayacaq yaralar vurmaq üçün plan hazırlayırlar. Qurama din və məzhəblər belədir. Vəhhabilik də belə qurama məzhəblərdəndir və məqsədi müsəlmanlar arasında ixtilaf yaratmaqdır. Müstəmləkəçi qüvvələrin bu ixtilafdan yararlanmalarının tarixi yazılsa, bir kitab olar. İslam dünyasının hər bir yerində müxtəlif sui-istifadələr olmuşdur. Onlar yalnız bu günə məxsus deyil, 80, 90, 100 il öncədən belə məsələlər olmuşdur. Mənim bu haqda geniş məlumatım var. Bir əsr və bəlkə daha artıq öncə vəhhabilik silahı, yaxud ittihamı ilə ixtilaflar yaratmışlar. Biz çox ehtiyatlı olmalıyıq. Düşmən İslam cəmiyyətlərini bir-birinə vurmaq üçün müxtəlif üsullardan istifadə edir.

Odur ki, bu gün müsəlmanların birliyi, müsəlman qardaşların bir-birinə qarşı yaxşı münasibətdə olması İslam sözünün ucalması üçün əsas şərtdir. Kimsə İslamın ucalmasını istəmirsə, başqa məsələ. Amma hər hansı firqə və məzhəbdən olan Quran və İslam tərəfdarları doğru deyirlərsə, həqiqətən ürək yandırır, Quranın uca və əzəmətli qalmasını istəyirlərsə, bilməlidirlər ki, bu fəryadlar, bu muzdur nitq və qələmlər, bəzi ölkələrdə münaqişə yaratmaq üçün xərclənən bu çirkli pullar İslamın ucalmasına maneə törədir və bu, düşmənlik sayılır.[117]

Biz müsəlmanların birliyi məsələsində ciddiyik və bunun formulunu da açıqlamışıq. Müsəlmanların birliyi onların özlərinə xas kəlam və fiqh görüşlərindən imtina etməsi demək deyil. Müsəlmanların birliyinin iki başqa şərti var: Biri budur ki, İslam düşmənlərinə qarşı yekdil və həmrəy olsunlar. Müxtəlif İslam məzhəbləri, hər biri müxtəlif kəlam və fiqh şaxələrinə bölünən Sünni və Şiə firqələri İslam düşmənlərinə qarşı həqiqətən həmrəylik nümayiş etdirsinlər. İkinci məna budur ki, müxtəlif müsəlman firqələri özlərini bir-birinə yaxınlaşdırmağa çalışsınlar, anlaşsınlar, fiqh məzhəblərini bir-biri ilə müqayisə edib uyğunlaşdırsınlar. Fəqihlərin və din alimlərinin fətvaları elmi şəkildə araşdırılsa, azca dəyişikliklə iki məzhəbin fətvalarını bir-birinə çox yaxınlaşdırmaq olar.[118]

Bu dövrün mühüm məsələlərindən biri müsəlmanlar arasında firqə ixtilaflarıdır. Bu, əlbəttə ki, yeni məsələ deyil; kəlam, fiqh və firqə məsələləri üstündə ixtilaflar, çəkişmələr və bəzən vuruşmalar İslamın ilk əsrindən mövcud olmuşdur. Lakin bu sahədə yeni olan budur ki, İranda İslam inqilabının qələbəsindən və bu təfəkkürün bütün İslam dünyasına yayılmasından sonra

hegemonizmin bu ümumi İslam dalğasına qarşı mübarizə yollarıdır. Bu yolların biri budur ki, bir tərəfdən İran İslam İnqilabını ümumi İslam əməli yox, sırf Şiə hərəkəti kimi tanıtdırsınlar və digər tərəfdən Şiə və Sünni arasında nifaq və ədavət toxumu səpsinlər. Biz bu şeytani hiyləni əvvəldən duymuş, daim müsəlman firqələrinin birliyi üzərində təkid göstərmiş və bu fitnəni zərərsizləşdirməyə çalışmışıq. Allaha şükür olsun ki, bu sahədə çoxlu nailiyyətlər əldə olunmuşdur. Son nailiyyətlərdən biri Ümumdünya İslam Məzhəblərinin Yaxınlaşdırılması Assambleyasının təsis edilməsidir. İndi bütün İslam dünyasından və bütün İslam məzhəblərindən olan alimlər, ziyalılar, şairlər, yazıçılar və adi xalq çiyin-çiyinə, bir dillə və bir nəfəslə İslam inqilabını və İran İslam Respublikasını müdafiə edirlər. Lakin düşmən çoxlu pul, layihə, təbliğat və xəbisliklə silahlanmışdır və təəssüf ki, tamahlandırma və aldatmaqla dünyanın bəzi yerlərində bəzi şəxsləri ələ ala bilir. Buna görə bəzən bir ölkədə bir siyasətçidən, başqa bir ölkədə özünü alim, yaxud inqilabçı sayan bir adamdan şiələrə, yaxud ən böyük müasir inqilabı ərsəyə gətirib heyrətamiz şəkildə müdafiə etməyi bacaran İran xalqına qarşı təhqirlər eşidilir. Yaxud xalqı bizim üçün ən əziz xalqlar sırasında olan, İslamı və İran İslam Respublikasını müdafiə xəttində olmuş və indi də olan müsəlman Pakistan ölkəsində kimlərsə İslam və müsəlmanların birliyinə düşmən kəsilənlərin dollarları ilə iclaslar keçirir, Peyğəmbər əhli-beytinin şiələrinə və Şiə firqəsinə hücum etmək, müqəddəslərini aşağılamaq üçün kitab və məqalələr yazırlar. Biz bütün bunları Amerikanın, onun müttəfiq və muzdurlarının hesabına yazır, İslam xalqlarını və həqiqi din alimlərini bundan uzaq bilirik. Lakin bu, müsəlmanların sayıqlığı ilə həll olunası məsələlərdəndir. Bu məsələdə İslam düşmənlərinə imkan yaratmaq olmaz.[119]

Müsəlmanlar ayıq olub düşmənin hiyləsinə və yalan təbliğatına uymamalıdırlar. Bizim birliyimiz onların ilk hədəfidir. Firqə, məzhəb və milliyyətlərin konfliktə səbəb olmasına imkan verməməliyik. Hegemonizmin vəd dolu təzyiqlərinin iradələri zəiflətməsinə imkan vermək olmaz. İslamdan xəbərsizlərin və onun tipik düşmənlərinin Allahın halal və haramı, Allah ayələrinin təfsiri haqda cəfəngiyat söyləmələrinə, İslamı öz istəklərinə uyğun və Quranın missiyasının əksinə təhrif və izah etmələrinə imkan vermək olmaz. Bu tədbirlər görülsə - şübhəsiz ki, görüləcək - İslam dünyanın böyük bir hissəsində bəşəriyyətin qurtuluşunu təmin edəcək.[120]

Bu gün İslam üçün daha faydalı olan işlər İslam düşmənləri üçün daha xoşagəlməzdir. Bu gün İslamın daha da ucalmasına xidmət edən hər bir şey İslam düşmənlərinin daha sərt hücumuna məruz qalır. Bu, dəyişməz qaydadır.

Bu gün İslama xidmət sayılan hər bir iş İslam düşmənlərinin qəzəbinə tuş gəlir. Müsəlmanların birliyi bu ümumi qaydanın nümunələrindəndir. Əgər dünya müsəlmanlarının birləşməsi həqiqətən lazımdırsa və bu, İslam və müsəlmanların xeyrinədirsə, – İslam dünyasının ağıllı və xeyirxah insanlarına görə məhz belədir – onda əmin olmaq lazımdır ki, düşmənin bu birlik əleyhinə fəaliyyəti bu gün həmişəkindən artıqdır.[121]

Müsəlmanların birləşməməsi və qarşı-qarşıya durması üçün çoxlu işlər görülür. Bu fəaliyyətlər müsəlmanların birliyə daha ehtiyaclı olduğu zaman xüsusən güclənir. Bu işlərdə İslam düşmənlərinin məqsədi İslamın bu gün praktik nəticələrə yaxınlaşan ucalığı və hakimliyi arzusunun qarşısını almaqdır. Müsəlmanlar İslam dünyasında öz dinlərini hakim etmək istəsələr də, bu ixtilaflarla mümkün olmayacaq. İslamın hakimliyi və ucalığı yolunda ən böyük faciə isə İslam cəmiyyətləri daxilində - istər bir ölkədə, istər müxtəlif İslam ölkələrində müsəlmanların bir-birinin canına düşməsidir. Bu gün bir ölkənin mətbuatı bir İslam məzhəbinə hücum edəndə digər bir ölkənin mətbuatı da onun məzhəbinə hücuma keçir. Siyasi çəkişmələri məzhəb və dini düşüncə müstəvisinə çıxarmaq, dini düşüncə və təəssübkeşlik əsasında qrupları bir-birinin canına salmaq müsəlmanların İslam hakimiyyəti fikrini reallaşdırmalarına ən böyük maneədir.

Bu gün İslam məzhəblərini bir-birinə yaxınlaşdırmaq təcili və ilahi bir məqsəd, həyati bir fikirdir. Bunu reallaşdırmaq lazımdır. Biz dövrün bu boşluğunu həmişəkindən daha yaxşı doldurmalıyıq. Öz dövrlərinin boşluğunu dolduran, anın ehtiyacını anlayıb aradan qaldırmağa çalışanlar xoşbəxt insanlardır. Bəzi işlər özlərinə xas anda görüləndə faydalı olur, həmin anda görülməyəndə isə effektini itirir.[122]

Möhtərəm din alimləri! Bu gün belə qüdrətlə dünyanın siyasi arenasına çıxan İslamı müdafiə etmək istəyən hər bir qrupun üzərinə müəyyən rol və vəzifələr düşür. Biz ruhanilər özümüzdə olan məntiqli, əsaslı və həqiqi mənəviyyatla bu cəmiyyətin mənəviyyata doğru hərəkətini təmin etməliyik. Bizim bugünkü vəzifəmiz budur. Din təmsilçilərində mənəviyyatsızlığın duyulduğu heç bir şey olmamalıdır. Əks təqdirdə, mənəviyyata doğru gedən proses zəifləyəcək. Dünyaya və onun bəzəklərinə sevgi, xudpəsəndlik, qürur və

dünyəvi işlər üçün çəkişmə əlaməti görünən hər bir şey işə ziyan vuracaq. Elmi baxımdan xalqın din və İslam düşüncəsini gücləndirməmək də ziyanlıdır.

Avropa da dinə və mənəviyyata doğru hərəkət edir. Gördüyünüz kimi, dindən əsər-əlamət olmayan ölkələrdə 30, 40 və bəzi yerlərdə 50 ildən sonra kilsələr, keşişlər, dini adət-ənənələr bərpa olunur və xalqda maraq oyadır. Mənəvi ehtiyacı təmin etmək üçün məntiqi gözlənti isə İslam təfəkküründəndir. Biz bu sahədə bacardığımız qədər çalışmalıyıq. Bunun əsas şərti birlik və vəhdətdir. İslam dünyası miqyasında ərəb, türk, fars millətçiliklərini ortadan götürməli, məzhəb baxımından da Şiə, Sünni, müxtəlif Sünni və Şiə firqələri arasındakı ixtilafları kənara qoyub ortaq cəhətlər üzərində dayanmalıyıq. Çünki hər bir fərq və ayrılıq dava demək deyil. Biri bir fiqhə əməl edir, o birisi başqa bir fiqhə; biri bir kəlam məktəbinə tabe olur, o birisi başqa bir məktəbə. Bu gün elə bir zaman deyil ki, kəlam məktəbləri Abbasilərin xilafəti dövründəki Əşairə və Mötəzilə döyüşləri, yaxud Şiə-Sünni və müxtəlif kəlam məktəbləri kimi firqə döyüşlərinə başlayıb bir-birinin canına düşsünlər. Hamı bir olmalıdır.[123]

**4- İnqilabın ixracı - əsl İslam mədəniyyətinin ixracı**

İslam inqilabının qələbəsindən sonra müharibənin bitməsi, imamın vəfatı və müxtəlif hadisələrlə tükənməyəcək bir hərəkət başlandı. Bu hərəkət davam edir və biz hələ yolun ortasındayıq. Allah-Taala istəsə, biz müxtəlif mərhələlərdən keçəcək və gələcəkdə daha böyük hadisələrin şahidi olacağıq. Tarix dəyişməkdədir. Tarixin mühüm dönüşlərindən biri bizim zamanımızda baş verir. Tarixi dönüşlər uzun illər ərzində həyata keçir. Tarixdə bəzən bir nəslin, iki nəslin ömrü bir an kimi ötür. Biz həmin əsas dönüş nöqtələrinin birindəyik.

Bu gün Peyğəmbərimizin (s) dövrünə uzaqdan baxsanız, bu döngələri görmək olar. Hərəkət zamanı diqqətli insanlardan başqa heç kəs yaxından nə baş verdiyini anlamır. Lakin siz indi İslamın erkən çağında bəşəriyyətin hansı hərəkət halında olduğunu və nə baş verdiyini dərk edirsiniz. Təbii ki, əziz Peyğəmbərin (s) işıqlı dövrünü başqa bir dövrlə müqayisə etmək istəmirəm. Lakin bu gün biz, daha doğrusu, dünya o zaman da baş verən bir dəyişiklik halındadır. O zaman da heç kəs inanmırdı. Siz elə bilməyin ki, o zaman dünyaya hakim olan güclər bu gün hegemon ABŞ-dan az iqtidar hiss edirdilər. Xeyr! Onlar da belə idilər. Görün Peyğəmbərlə (s) necə danışırdılar və onların ziddinə danışanlara qarşı rəftarları necə təhqiramiz idi. Qurani-kərim Antakiya şəhərinə göndərilən üç peyğəmbər haqda buyurur: "(Ey Peyğəmbər!) Sən onlara o şəhər əhalisini (antakiyalıları) misal çək! O zaman ki, onlara elçilər gəlmişdi. O

zaman onlara iki elçi göndərmişdik, amma onlar ikisini də təkzib etmişdilər. Biz də (o iki elçini) üçüncüsü ilə qüvvətləndirmişdik. Onlar dedilər: "Həqiqətən, biz sizə göndərilmiş elçilərik!"[124] Peyğəmbərlər bir sivilizasiyanın başçılarına dedilər ki, bizim məqsədimiz və sözümüz var, sizinlə danışmağa gəlmişik. Söhbət dağlarda, mağaralarda yaşayanlardan getmir, cah-calallı və möhtəşəm Roma imperiyasından gedir. Onlar dedilər: "Biz sizə göndərilmiş elçilərik". Bu, Quranın ixtisarıdır. Bu üç nəfər bütün Antakiya əhalisini bir yerə toplayıb söyləmədilər ki, biz sizə göndərilmiş elçilərik. Bu on il boyu bizim əziz imamımız da dünyaya deyirdi ki, ey qafil insan, ey dünyanın bir neçə siyasətçi və biznesmen ailəsinə əsir olan insan, ey təhqir olunmuş xalqlar, biz sizi xilas etməyə, sizə həqiqəti söyləməyə, sizinlə danışmağa gəlmişik. On il imam bunu deyirdi: "Biz sizə göndərilmiş elçilərik". Bəlkə o peyğəmbərlər də bu sözü uzun müddət ərzində dedilər. Qarşı tərəfdən isə təkzib və təhqirlər başlandı ki, siz nə deyirsiniz və bəşəriyyətə hansı yeni sözü gətirmisiniz: "Siz də bizim kimi ancaq adi bir insansınız. Rəhman (sizə) heç bir şey (kitab, möcüzə) nazil etməmişdir. Siz sadəcə olaraq yalan danışırsınız!"[125] Dedilər ki, siz də ayrıları kimi bir insansınız, özünüzə xas dini gətirib öz sözlərinizi danışırsınız. Siz nə deyirsiniz? Onlar bugünkü dünyanın zalım və mənfur rəhbərlərinin və ya demokratiya iddiaçılarının sözünü deyirdilər. Peyğəmbərlər (s) onlara cavab olaraq dedilər: "Rəbbimiz bizim doğrudan da sizə göndərilmiş elçilər olduğumuzu bilir. Bizim vəzifəmiz yalnız (Allahın hökmlərini) açıq-aşkar təbliğ etməkdir"[126]. Müqəddəsləri şahid gətiririk ki, biz sizin xeyrinizə danışırıq. Biz sizin üçün göndərilmişik, bizim missiyamız və sizə sözümüz var. Vicdanınıza, dinlərinizə və varınızdırsa, qərəzsiz alimlərinizə müraciət edin. Biz sizə sözümüzü çatdırmaq, sizdə maraq oyatmaq istəyirik. Düşüncəni, inqilabı və mədəniyyəti ixrac etmək düşmənin ən çox qorxduğu məsələdir. Nə zaman aydın çatdırma məsələsi qarşıya çıxırsa, qarşı cəbhə daha da kobudlaşır.

"Dedilər: "Biz sizdə bir nəhslik gördük. Həqiqətən, əgər (Allahın elçiləri olmaq iddianızdan) əl çəkməsəniz, sizi mütləq daşqalaq edəcəyik və bizdən sizə mütləq şiddətli bir əzab toxunacaqdır".[127] Burada daha söhbət ondan getmir ki, təbliğat zamanı istehzalı təbəssümlə "yeni sözlə köhnə məsələləri təbliğ edirlər" desinlər. Burada artıq düşmən döyüşə hazırlaşıb deyir ki, siz bəşəriyyətə ziyanlısınız. O, təhdid edir ki, bu missiyadan və sözdən əl çəkməsəniz, sizi cəzalandıracağıq. Bu zaman isə Peyğəmbər (s) güclü bir qarşılıqlı zərbəyə əl atır: "Sizin nəhsliyiniz (uğursuzluğunuz) öz ucbatınızdandır. Məgər sizə öyüd-nəsihət verildikdə (onu uğursuzluğa, nəhsliyəmi yozursunuz)! Xeyr, siz (günah etməkdə) həddi aşan bir camaatsınız!"[128] Bu, daimi bir məsələdir - həmişə olub,

bu gün də var. O zaman da dünya adamları Peyğəmbərin (s) hərəkəti qarşısında soyuq, kobud və çox sərt rəftar edirdilər. Sonda geri çəkilən isə həmişə təkəbbürlü və hegemon cəbhə olmuş, bununla da tarix günbəgün kamilləşmişdir. Bu, tarixin ilahi təfsiri və təkamülüdür. Özlərinin səhv düşüncələrinin cəzasını çəkən zavallı marksistlər isə təkamülü mürəkkəblik kimi izah edib deyirdilər ki, kamil cəmiyyət mürəkkəb olandır. İctimai, iqtisadi və sonra da texnoloji məsələlər nə qədər mürəkkəb olsa, bir o qədər kamildir. Halbuki təkamül uca təlimləri daha yaxşı dərk etmək, uca əxlaqa daha çox yiyələnmək və düzgün inama doğru bir addım irəliləməkdir. Bəşəriyyət bu yolla irəliləyib nəhayət, sonuncu peyğəmbərin dövrünə çatdı. Həmin hərəkət bu gün də irəliyə doğru davam edir.

Məgər dünya bu cəhalətdə qala bilərmi?! Məgər bəşəriyyətin böyük əksəriyyətinin dövrün quldurlarına xidmət edən ən kəsərli silahlara və çirkin istəklərə əsir olması mümkündürmü?! Bu, dönüş nöqtəsidir və biz irəliləyəcəyik. Təbii ki, bunun şərti var. Əsas məsələ budur ki, bu qarşılaşmada haqq cinahının da möhkəmliyə, sayıqlığa, müqavimətə və imamın həmişə təkrarladığı mənəmlikdən çıxmağa ehtiyacı var.

Dinə əsaslanan inqilabçı bir cəmiyyət dünya bəzəklərinə dəyər verməyən isnanlardan ibarətdir. Bizdə belə toplum olsa, inkişaf qaçılmaz olar; təbii ki, ağrılara dözmək şərtilə. Bəşəriyyətin daha bir addım inkişafı üçün ağrılara dözmək dəyərlidir. Hüseyn ibn Əlinin (ə) şəhadətə qovuşduğu məqsəd də bu idi. Məgər İmam Hüseyn (ə) öz evində otura bilməzdi?![129]

İran İslam İnqilabı əsl Məhəmməd (s) İslamına və onun şəriətinə əsaslandığından xüsusi sərhəd və millət tanımır. Söhbət bundan getmir ki, İran xalqı, yaxud bu ölkənin məmurları inqilablarını dünyanın adi üsulları ilə ixrac etmək istəsinlər. Əslində bir İslam təfəkkürü, ilahi təfəkkür, yeni baxış və düzgün İslam dərki bir qrup müsəlmana təqdim olunanda bütün İslam dünyası təbii şəkildə və çıxarı qədərincə ondan istifadə edir. Hegemonizmin təbliğatçıları İslam inqilabı əlehinə təbliğat aparırlar. Sionizmin və hegemonizmin əlaltılarından bundan başqa gözlənti də yoxdur. Onların təbliğatı yalan və hiylə üzərində qurulmuşdur. Bu səbəbdən, düzgün bir fikir, azadlığa və oyanışa sövq edən bir təfəkkür İslama əsaslananda bütün İslam dünyasında özünə tərəfdar və müştəri tapır.

İmam Xomeyninin dəyərlərini söyləmək, yaxud inqilab təfəkkürünün xırdalıqlarını zorla və ya xoşluqla insanlara ötürmək üçün Avropa və Asiya ölkələrinə, yaxud Uzaq Şərqə İrandan kimsə getmişdirmi?! İmamın səmərəli

həyatı zamanı ona tərəfdar və vəfatından sonra əzadar olan bu möhtəşəm hərəkəti dünyada kimsə yaratmışdırmı?!

İslam dünyası İslam hökuməti ilə bir və həmrəydir. Hegemonlar bu birliyi xoşlamırlar, amma var.

Biz İslamdan, inqilabın prinsip və məqsədlərindən danışdıqda müraciətimiz bütün dünya müsəlmanlarına, qlobal hegemonizmə, dünyanın quldur və soyğunçularına qarşı mübrizədən danışdıqda isə dünyanın bütün məzlumlarınadır. İslam budur. Qlobal hegemonizm onu yaxşı tanıyır, bizimlə, bizim inqilabımız və imamımızla düşmənliyi də buna görədir. Lakin bu var və qaçılmazdır.[130]

İslam inqilabı cəmiyyət və ölkələrin həyatı üçün yeni bir örnək olmuşdur. Bu inqilab indi də yenidir və uzun illər yeni olacaq. Bəlkə də yaxşı əməl etsək, bu örnək əsrlərlə toplumlar üçün yeganə örnək olaraq qalacaq. Düşmən, yəni hegemonizm, transmilli neft şirkətləri və dünyanın istismarçı oliqarxları da bundan qorxurlar. Bu qüvvələr İslam adında olub onların mal-dövlətinə və maraqlarına ziyan vurmayan heç bir şeyə qarşı çıxmırlar. Şeytani qüvvələri, zülmü və ayrıseçkiliyi rədd etməyən İslamla heç kəsin işi yoxdur. Onlar insanları himayə edən, zülm, zorakılıq və quldurluqla mübarizə halında olan "La ilahə illəllah" İslamına müxalifdirlər.[131]

Dəyərlərin ixracı mənasında olan inqilab ixracı bizim borcumuzdur. Bunu etməsək, vəzifəmizdən boyun qaçırmış sayılarıq. Dünyanın zalım və diktatorlarını ifşa etmək mənasında olan inqilab ixracı bizim ilahi vəzifəmizdir. Bunu yerinə yetirməliyik. İslam Respublikası, İran xalqı və dünyanı öz əzəməti qarşısında kiçildən uca və möhtəşəm şəxsiyyət – bizim böyük imamımız göstərdilər ki, dünyanın bütün gücləri bütün xalqa məxsus olan belə böyük və möhkəm İslam iradəsi qarşısında acizdirlər. Bu bizim yolumuzdur.[132]

Biz digər xalqları təhrik etməyə çalışmırıq. Biz İslam şüarı verir və İslam bayrağı ucaldırıq. Bundan sonra kimin qəlbində İslam işığı olsa, təbii şəkildə bu bayrağın altına toplaşacaq. Biz nə zaman Bosniya və Herseqovinaya gedib İslam Respublikasını təbliğ etmişik?! Görün orada İslam Respublikasının bayrağı necə uca tutulur! Harada bir xalq İslam adı ilə ayağa qalxmış və səsini ucaltmışsa, əmin olun ki, orada İran xalqının adı əziz və möhtərəmdir.[133]

Bizim əziz və mərhum imamımız buyurdu ki, biz inqilabımızı bütün dünyaya ixrac edəcəyik. Beynəlxalq təbliğat imamın bu cümləsini çox vurdu. İnqilabın ixracı o demək deyildi ki, biz qalxıb o tərəf-bu tərəfə gedəcək, müharibə aparacaq, insanları qiyama və inqilaba vadar edəcəyik. İmamın məqsədi əsla bu deyildi. Bu nəinki bizim siyasət və prinsiplərimizdən deyil, hətta tərəfimizdən rədd olunur. Onlar isə bu cümləni belə izah edib əks-təbliğat aparmağa bağladılar.

İnqilabın ixracının mənası budur ki, dünya xalqları bir xalqın öz gücü ilə, öz iradəsinə və Allaha arxalanmaqla dayanıb təslim olmadığını görsün. Xalqlar bunu görəndə inanacaq və özlərini zülmdən xilas etməyə həvəslənəcəklər. Belə də oldu.

Bu gün ən açıq müsəlman hərəkatları müsəlmanların uzun illər təzyiq altında saxlandıqları yerlərdədir - Kəşmirdə və müsəlmanların ayağa qalxdığı digər ölkələrdə. Təbii ki, bu ölkələrin əhalisinə yenə təzyiq göstərəcək və zülm edəcəklər. Lakin təzyiq işin nəticəsini yox edə bilməz. Təzyiq nəinki Allaha arxalanan davamlı bir hərəkəti dayandırmağa qadir deyil, hətta bəzən o hərəkətin daha da genişlənməsinə bais olur.[134]

Dünya mediası İslam inqilabı mədəniyyətinin yayılmasına dair ajiotaj yaradıb onu səhv mənada inqilabın ixracı adlandırır və təbliğat hücumuna məruz qoyur. Bir neçə ildir dünyanın bütün media qurumları İslam Respublikasının inqilabı ixrac etmək istəməsi üzərində dayanırlar. Çirkin niyyətləri bundan bəlli olur ki, inqilab ixracını partlayıcı maddələrin ixracı və dünyanın müxtəlif yerlərində çaxnaşma yaratmaq kimi təqdim edirlər. Bu, Qərb dünyasının digər çirkin təbliğatları kimi rəzil bir hiylədir.

İnqilabın ixracı İslamın insan yetişdirən mədəniyyətinin, səmimiyyət və düzgünlüyün ixracı, insani dəyərlər üzərində təkid deməkdir. Biz bu işlə və bu vəzifəni yerinə yetirməklə fəxr edirik. Bu, peyğəmbərlərin yoludur və biz bu yolu davam etdirməliyik. Qərb dünyası və azğın Qərb mədəniyyətinin rəhbərləri bütün dünyaya fəsad, pozğunluq, narkomaniya və müxtəlif fəlakətlər ixrac etməkdən utanmırlar. Bu gün təəssüf ki, bütün dünyanı və daha çox yoxsul üçüncü dünyanı bürüyən bu pozğun mədəniyyət haradan gəlmişdir? Bu, Qərb mədəniyyətinin, müstəmləkə və hegemonizm sivilizasiyasının ixracatındandır. Bu gün bəşəriyyətə əzab verən müxtəlif fəsad və azğınlıqlar, çoxlu yoxsul və geriqalmış ölkələrdə gənclərin düçar olduğu təhlükəli narkomaniya haradan gəlmişdir? Üçüncü dünyanın bir çox müsəlman və qeyri-müsəlman ölkələrinə yanlış istehlak mədəniyyəti hakim edilmişdir. Bu haradandır? Öz regionumuzun

yoxsul neft və qeyri-neft ölkələrinin bazarları Qərbin faydasız məhsullarının reklamları ilə doludur. Bəşəriyyətin bunlara ehtiyacı varmı?! Allahın bəxş etdiyi, bütün xalqa məxsus olan və öz ölkələrinin abadlığına sərf etməli olduqları sərvəti verib qarşılığında fəsad və pozğunluqdan başqa heç bir faydası olmayan məhsulları alan neft ölkələri düzgün işmi görürlər?! Bunlar haradan gəlmişdir? Bunların hamısı Qərb mədəniyyətinin ixracatı, ABŞ-ın və Avropanın üçüncü dünya ölkələrinə ixrac etdiyi məhsullardır. Amerika, Avropa, Qərb ölkələri və Qərb sivilizasiyaları elm, sənaye və tədqiqat kimi yaxşı məhsullar arasında müxtəlif çirkinlikləri, fəsad və pozğunluqları da üçüncü dünya ölkələrinə idxal etdilər. Xalqı, gəncləri, hökumətləri bu fəsadlara yoluxdurdular, xalqları xar etdilər və bədbəxt günə qoydular. Onlar xəcalət çəkmir, utanmır, bu çirkin əməllərini açıq şəkildə Qərb mədəniyyətinin ixracatı adlandırır və bununla fəxr edirlər. Xüsusi bir qrupa deyil, bütün bəşəriyyətə məxsus olan elm, tədqiqat və digər yaxşı amillərin kənarında bu işləri görürlər.

Biz nə üçün tövhidi, peyğəmbərlər əxlaqını, fədaklarlıq və ixlas ruhunu, mənəvi saflığı digər ölkələrə ixrac etməyə xəcalət çəkməliyik?! Biz nahaq güclər qarşısında qeyrət və müqaviməti əməli bir dərs kimi digər xalqlara göstərməyə və öyrətməyə nə üçün utanmalıyıq?! Xalqlar hegemon qüvvələrin muzdurlarına qarşı mübarizənin mümkünlüyünə inanmırlar. Biz mübarizə apardıq və qalib də gəldik. Nə üçün bu əməlimizi xalqlara nümayiş etdirməyək?! İnqilabın ixracı budur. Bəli, biz bu inqilabı ixrac edirik. Biz bacarsaq, tövhidi, peyğəmbərlərin məktəbini, düzgün insani üsulları, paklığı, dözümlülüyü, müqaviməti və fədakarlığı digər ölkələrə ixrac etməkdən çəkinmərik.

Sionistlərin pulu, xəbis, zalım və azğın siyasətçilərin rəhbərliyi ilə çalışan Qərb mediası ajiotaj yaradıb bizi bu sözə, yəni inqilab mədəniyyətinin və inqilab məfhumlarının ixracına peşman etmək istəyir. Əgər məqsəd bizim partlayıcı maddələr ixrac etməyimizdirsə, bu, yalandır. Bunu çirkin və xəbis hegemon qurumların özləri edirlər. ABŞ-ın casus təşkilatı hökumətləri devirmək üçün işləyir, silah göndərir, partlayıcı maddələr və canlı qüvvə aparır, inqilabçı ölkələrdə əks-inqilabçılara kömək edir. Bu, onların işidir, bizim yox. Biz heç bir ölkəyə partlayıcı maddələr aparmırıq. Pozuculuq işləri bizə yaraşmaz və əsla yapışmaz. Bu yaramaz ittihamlar onları İslama və İslam Respublikasına aid edənlərə yaraşar.[135]

Sionist media və dünyanın müstəmləkə qurumları İslam Respublikasını inqilabı ixrac etməkdə günahlandırır. İnqilabı ixrac etməkdə məqsəd nədir?

Əgər inqilabın ixracında məqsəd partlayıcı maddələr ixrac etmək, digər xalqlar arasında iğtişaş törətməkdirsə, bu ittiham İslam Respublikasından tamamilə uzaqdır. Şər işlər ABŞ-a, hegemon dövlətlərin, o cümlədən ABŞ-ın casus qurumlarına aiddir, xalqın arasında narahatlıq, iğtişaş və çaxnaşma salan onlardır. Xalqların işinə, həyatına və daxili məsələlərinə haqsız müdaxilə edən onlardır. Onlar öz muzdurları vasitəsi ilə inqilabçı və xalqçı hökumətlər əleyhinə çalışır, onlara problem yaradırlar. Günahsızların canına hücum edənlər də onlardır. Xalqlar bu nümunələri dünyanın hər yerində görürlər. ABŞ rejiminin başçılarının əlləri qana bulaşmışdır. Lakin inqilabın ixracında məqsəd insan yetişdirən İslamın və Quran mədəniyyətinin təbliğidirsə, biz bununla fəxr edirik. Biz İslam dəyərlərini, xalqların, məzlum və məhrum insanların xilaskarı olan İslam hökmlərini və təlimlərini bacardığımız qədər təbliğ etməyi özümüzə borc bilirik. Bu bizim vəzifəmizdir. Biz düşünürük ki, bu vəzifəyə əməl etməsək, günahkar olarıq. Biz İslam dəyərlərini yaymağa çalışmasaq da, bu təlimlərin mahiyyəti elədir ki, bahar güllərinin ətri kimi öz-özünə hər yerə yol tapacaq. Düşmənlər istəsələr də, istəməsələr də, inqilab təlimlərinin və İslam maarifinin ətri bütün dünyaya yayılacaq.[136]

## Üçüncü fəsil: İslam inqilabı və mədəni hücum

### Birinci hissə: İranda mədəni hücumun tarixçəsi

#### 1- Mədəni hücum mənfur Pəhləvi dövründə və ondan öncə

Tarix çox da düzgün olmasa da, yazılanlara görə, hicrətin dördüncü və beşinci əsrlərinin əvvəllərində mədrəsələr olmuş və insanlar dərs oxumuşlar. Əlbəttə, Qəznəvi, Səlcuqi və digər bu kimi diktator sülalələr nəfəs almağa da macal vermirdilər. Nizamiyyə mədrəsələri açırdılarsa da, bu o demək deyildi ki, hamıya elm və təhsil imkanı yaranırdı. Hər halda, biz o zaman haqda mühakimə yürütmürük. Lakin siz tarixə baxın. Tarix mühüm sahədir və siz onu öyrənməlisiniz. Bu gün harada olduğunuzu, vəziyyət və mövqeyinizi bilməniz üçün, tarixi oxumalısınız. Tarixi yaxşı bilmək çox mühüm məsələdir. Siz monqolların hücumundan bu tərəfə baxsanız, görərsiniz ki, istedadlı və elmli bir insan üçün bu ölkədə heç zaman bugünkü qədər təhsil imkanı yaranmamışdır. Bir dövr cəhalət dövrü, bir dövr elmə etinasızlıq dövrü, bir dövr xalqa zərrəcə əhəmiyyət verməyən qaniçən diktatorlar dövrü olmuşdur.[137]

Biz bir ölkə kimi dünya elminin səviyyəsindən, dünyanın texnologiya və tərəqqilərindən çox geri qalmışıq. Bu bir-iki əsrdə şahlar bizə çox zülm etmişlər. Onlar bizi geridə saxlamış, elmin, bilgilərin və düzgün mədəniyyətin ölkəyə gəlməsinə imkan verməmişlər.

Nasirəddin şah Qacarın qanun sözündən acığı gəlirdi; kiminsə xaricə gedib-gəlməsindən, xarici məlumatların ölkəyə gətirilməsindən acığı gəlirdi. Həvəslənib üç-dörd gün bəzi işlər gördülər, sonra isə haçansa onlara zərər toxuna biləcəyini anlayıb bizi elmdən məhrum etdilər. Pəhləvi sülaləsi xalqı onlardan da pis və fərqli şəkildə ehtiraslara aludə etdi, Qərb mədəniyyətinin yaxşı və faydalı hissələrini deyil, pis və zərərli hissələrini ölkəyə gətirdi. Hər halda, biz Avropaya gedib onlardan elə elmlər öyrəndik ki, qayıdandan sonra ehtiraslı, vicdansız, iradəsiz, dinsiz bir insan olduq. Bu elm bizim xalqımıza hansı faydanı yetirəcəkdi?! Gördük ki, xaricdə elm öyrənib qayıdan şəxslər ölkələrinə faydalı olmadılar, bu məmləkət üçün bir iş görmədilər. Məmləkət beləcə qaldı. Bu onların - ən azı son iki əsdə heç bir şey anlamayan, başlarına öz maraqlarından başqa heç bir şey girməyən şahların günahıdır, Fətəli şahdan, Məhəmmədəli şahdan və Nasirəddin şahdan tutmuş Məhəmmədrzanın və atasının, yəni bu iki böyük cinayətkarın zamanına qədər hamısının. İstedadlı,

elmi və parlaq mədəni tarixi olan bir xalq beləcə baxımsız qaldı, rəqibləri, düşmənləri və başqa xalqlar isə bir-bir inkişaf pillələrini keçdilər.[138]

Siz Qacarlar dövrünün sonlarını mütaliə etsəniz, görərsiniz ki, xalqı məsihi etmək məqsədi ilə Avropadan buraya nə qədər keşiş gəlmişdir. Onlar naşı oğru kimi harada təbliğat apardıqlarını anlamadıqlarına görə uğursuz oldular. Təbii ki, qlobal oliqarxların, transmilli şirkət sahiblərinin və beynəlxalq soyğunçuların həzrət Məsihə etiqadlı olduqlarını söyləmək olmaz. Onlar məsihi haradan tanıyırlar?! Lakin öz heysiyyətini müdafiə edən milli bir mədəniyyətin mövcud olduğu cəmiyyətlərdə onların ilk işi həmin mədəniyyəti xalqdan almaqdır. Bir qrup əsgər güclü bir qalaya hücum edəndə əvvəlcə onun divarlarını uçururlar. Onlar qalanın divarlarını zəiflətmək üçün hər bir işi görərlər. Hətta birinci iş kimi qala əhalisini yatırmaları da mümkündür. Sədi Gülüstanda bir əhvalat danışır: deyir ki, oğrular yuxuda olan bir dəstə adama hücum etdilər, amma onlara hücum edən ilk düşmən yuxu idi. Yuxu onların gözlərini yumdu, sonra xarici düşmən gəlib qollarını bağladı, mallarını götürüb apardı. Dümən mədəni hücumda belə edir. Əvvəlcə xalqı yatırdır, sonra da hər şeyini aparır.[139]

Mənim fikrimcə, Qacarlar dövrü İran xalqının ən qaranlıq dövrlərindəndir. Mən dəfələrlə demişəm ki, Allah Qacar şahlarına lənət eləsin. Onlar inkişaf və elm dövründə, elm və mədəniyyətdən bəhrələnməyin tam zamanında lazım olan işi görmədilər və İranı bu günə saldılar. Mən onlara iynə ucu qədərincə də hörmət etmirəm. Amma burada bir məqam var. O da budur ki, onlar öz eyş-işrətləri haqda düşünən zəif, ləyaqətsiz, qarınqulu, dünyagir və şəhvətpərəst insanlar idilər, məsələlərin xeyir-şərini anlamırdılar. Nasirəddin şah sultanlıq etmək və kef çəkmək istəyirdi, xalqın vəziyyəti onu maraqlandırmırdı. Bir ölkə başçısı üçün ən böyük günahlardan olan zəiflik və etinasızlıq onun dəyişməz xarakteri idi. Pəhləvi ailəsi isə Qacarlardan dəfələrlə pis bir iş gördü. Onlar yerli mədəniyyətin təməllərini uçurub yerinə idxal olunmuş mədəniyyət gətirdilər və əksər sahələrdə hakim etdilər.[140]

Bizim xalqımız İslam dövrünün yüz illəri boyu cinsi məsələlərə, kişi-qadın münasibətlərinə riayət etmişdir. Əlbəttə, bu o demək deyil ki, heç kim yanlış iş görməmişdir. Yanlış iş görən hər bir dövrdə və hər bir sahədə olmuşdur, var və olacaq. Lakin yanlış bir işi görmək onun cəmiyyətin və xalqın ənənəsinə çevrilməsindən fərqli bir şeydir. Bizim xalqımız əyyaşlıqdan və kef

məclislərindən uzaq bir xalq idi. Bizdə bu işlər aristokratlara, padşahlara, şahzadələrə və kraliçalara məxsus idi. Onlar səhərə qədər oyaq qalıb əyyaşlıq edirdilər. Avropalıların barları həmişə bütün il və sutka boyu açıq olub. Bu, Avropanın tarixidir; kim istəyirsə, gedib oxusun və görsün. Onlar bu fəsadı bizim ölkəmizə daxil etmək istədilər və bacardıqları qədər daxil etdilər.[141]

Bizim xalqımız əleyhinə mədəni hücum konkret olaraq Rza xanın dövründən başlandı. Ondan öncə hücuma hazırlıq məqsədi ilə çoxlu işlər görmüş və ölkə daxilində asılı ziyalılar yetişdirmişdilər. Mən bilmirəm ki, inqilabın gənc nəsli son 150-200 ilin tarixini yaxşı oxuyub, yoxsa yox. Mənim qorxum budur ki, bugünkü inqilabçı gənc bizim hansı dövrü arxada qoyduqdan sonra belə böyük bir hərəkətə bağladığımızı bilməsin. İran xalqı son 150-200 ilin tarixini, yəni Qacarlar dövrünün ortalarından, İran və Rusiya müharibələrindən sonrakı tarixi oxuyub bu ölkədə hansı hadisələrin baş verdiyini bilməlidir. Bu hadisələrdən biri asılı ziyalılar yetişdirməkdir. Biz deyə bilmərik ki, İran tarixi boyu ziyalımız olmamışdır. Həmişə və bütün dövrlərdə zamandan öncə düşünən və hərəkət edən ziyalılar olmuşdur. Lakin elm və texnologiyaya yiyələnmiş Qərb İranda öz hökmranlığını bərkitmək istəyəndə ziyalılardan bəhrələndi, Mirzə Mülküm xan və Tağızadə kimi satqın ünsürlər vasitəsi ilə işə başladı.

Qacarlar dövründən sonra İranda ziyalı hərəkatı xəstə və asılı doğuldu. Təəssüf ki, bir neçə sağlam adam da onların arasında itib-batdı. Bu hərəkat əvvəldən asılı idi; onların bəzisi Mirzə Fətəli Axundzadə kimi Rusiyaya, bəzisi isə Mirzə Mülküm xan kimi Avropaya və Qərbə bağlı idilər. Bu işlər əvvəllər İranın daxilində görülmüşdü, amma elə də təsiri yox idi. O zaman Qərb mədəniyyətinin və əslində Qərb istismarının və İngiltərənin İranı müstəmləkəyə çevirməsinin xeyrinə ən böyük addımı atan Rza xan oldu. Siz görün bu gün bir padşahın birdəfəyə bir ölkənin milli geyimini dəyişdirməsi nə qədər rüsvayçılıq olar. Siz dünyanın ucqar bölgələrində, məsələn, Hindistanda xalqların öz milli geyimlərinin olduğunu, onunla fəxr etdiklərini və geyinməyə xəcalət çəkmədiklərini görürsünüz. Onlar isə gəlib bu xalqın milli geyimini birdəfəyə qadağan etdilər. Nə üçün? Dedilər ki, bu geyimlə alim olmaq mümkün deyil. Halbuki əsərləri hələ də Avropada tədris olunan ən böyük İran alimləri həmin mədəniyyətlə, geyimlə və həmin mühitdə yetişmişdilər. Məgər paltarın buna nə təsiri ola bilər?! Bu çox gülməli söz və məntiqdir. Onlar bir xalqın geyimini dəyişdirdilər. Qadınların başından çadranı götürüb dedilər ki, çadra ilə alim olmaq və ictimai fəaliyyətlərdə iştirak etmək mümkün deyil. Mən soruşuram ki,

ölkəmizdə çadranı götürəndən sonra qadınlar ictimai fəaliyyətlərdə nə qədər iştirak etdilər?! Məgər Rza xanın və oğlunun dövründə bizim qadınlarımızın ictimai fəaliyyət göstərməsinə imkan verildimi?! Onların dövründə nə kişilərə ictimai fəaliyyət imkanı verilirdi, nə də qadınlara. İran qadınları başlarına çadra atıb meydana çıxandan sonra ictimai fəaliyyətə qoşuldular, öz qüdrətli əlləri ilə ölkəni dəyişdirdilər, bu ölkənin kişilərini də öz arxalarınca mübarizəyə qoşdular. Çadra və paltarın qadının, yaxud kişinin fəaliyyətinə nə təsiri var?! Əsas budur ki, bu kişinin və ya qadının qəlbi necədir, necə düşünür, imanı nə qədərdir, ruhiyyəsi necədir, ictimai, yaxud elmi fəaliyyətə marağı var, yoxsa yox.

Quldur, nadan və savadsız adam olan Rza xan özünü düşmənin ixtiyarına buraxdı. Birdəfəyə bütün ölkənin geyimini, xalqın bir çox ənənələrini dəyişdirdi, dini qadağan etdi, hamınızın bildiyi quldur hərəkətlərə başladı və Qərbin sevimlisi oldu. Təbii ki, Qərbin xalqları tərəfindən deyil, istismarçı və siyasətçiləri tərəfindən sevildi.

İslam və İran xalqı əleyhinə mədəni hücum oradan başlandı və müxtəlif formalara düşdü. Bu hücum mənfur Pəhləvi sülaləsinin yeni dövründə, yəni hakimiyyətinin son 20-30 ilində daha təhlükəli oldu. İndi bu haqda danışmağa vaxt yoxdur. Nəhayət, İslam inqilabı qələbə çalıb möhkəm bir yumruq kimi düşmənin sinəsindən vurdu, onu geriyə itələdi və hücumu dayandırdı. Siz inqilabın əvvəllərində qısa müddət ərzində xalqımızın xarakterində əsaslı dəyişikliklərin baş verdiyini gördünüz. Xalqda fədakarlıq hissi çoxaldı, tamahkarlıq və hərislik azaldı, həmkarlıq hissi artdı, dinə meyl gücləndi, israf azaldı, qənaət çoxaldı, gənclərimiz iş və fəaliyyət haqda düşündülər, şəhərə adət etmiş çoxları kəndlərə qayıdıb işləməyə, istehsal etməyə başladılar, xalqın iqtisadi həyatında faydasız alaq kimi kök salmış bəzi hallar azaldı. Bu mədəni dəyişiklik inqilabın ilk bir neçə ilinə aiddir. O zaman ziyanlı mədəniyyət və xarakterlər toxumu səpən düşmənin fəaliyyəti dayanmışdı. Bu müddətdə İslama, İslam mədəniyyətinə, xalqımızın qəlbində olan İslam əxlaqına, adət-ənənələrinə və xarakterlərinə xüsusi bir təmayül yenidən dirçəldi. Əlbəttə, bu təmayül dərin deyildi. Bu təmayül o zaman dərinləşər ki, uyğun istiqamətdə bir neçə il iş aparılsın. Amma təəssüf ki, bu işə fürsət yaranmadı və həmin hücum tədricən yenidən başlandı.[142]

Təəssüf ki, keçmişdə bu ölkədə milli hakimiyyətə və müstəqilliyə ürək yandırmırdılar. Son tağut dövrünü, yəni Pəhləvi rejimini xatırlayanlar bilirlər ki, o zaman İran xalqı özünü unutmuş, mədəniyyətimizin yerli və milli

elementlərini tərk etmişdi. O zaman hər şeyi sərhədlər xaricindən burovuz alıb yerli məsələlərə o qədər etinasız və təhqiramiz yanaşdılar ki, yerli mədəniyyətə hətta meyl göstərməyə az adam cürət etdi. Təəssüf ki, Pəhləvi dövrünün xüsusiyyəti belə idi və həmin dövrün sonlarına yaxınlaşdıqca uyğun hərəkətin bayağılığı da çoxalırdı. Siz görün Pəhləvi dövrünün sonlarında cəmiyyətin incəsənəti hansı vəziyyətdə olmuşdur; məsələn, ölkənin musiqisini Qərb müsiqisi ilə qarışdırır və hətta onda əridirdilər. Milli adət-ənənələr sahəsində biz çox böyük keçmişi olan xalqıq, özümüzə görə salamlaşma və rəftar qaydalarımız, oturub-durma üsullarımız, yemək, geyim növlərimiz var. Nə üçün bizim salamlaşma qaydamız tərk olunub yerinə Qərbdə olan gəlməlidir?! Nə üçün bizim yeməklərimz tərk olunub yerinə Avropa yeməkləri gəlməlidir?! Nə üçün bizim yerli geyimimiz tərk olunmalı və yerinə Avropa geyimləri gəlmədir?![143]

Biz Pəhləvi və Qacarlar dövründə talandıq, bizim və ölkə başçılarımızın avamlığından istifadə olundu. Dünya renessansı səbəbindən həvəslənib fəallaşmış bir qrup yeni mədəniyyətlə və yeni qüvvə ilə canımıza düşdülər. Onlar bizim yuxuda olmağımızdan istifadə edib evimizə daxil oldular, onu dağıdıb-tökdülər, əsl qüvvələrimizi gizlətdilər və çoxlu şeyləri çirkləndirdilər. Sanki bir qrup nadan və naşı adam bir incəsənət muzeyinə daxil olub qapı və divarlarını uçurur, şəkilləri cırır, heykəlləri sındırır. Onlar belə bir iş gördülər və bizim olmayan yeni sistemlərini burada hakim etdilər.

Bilirik ki, qalib qrup bir ölkəyə daxil olanda orada öz qayda-qanunlarını tətbiq edir. Lakin məsələ burasındadır ki, onlar öz qanunlarını bizə ikinci dərəcəli vətəndaşlar kimi tətbiq edirlər, öz ölkələrində olduğu kimi yox. İranda bu baş verdi, avropalılar öz ənənələrini bu ölkəyə gətirdilər, onlardan öyrənmiş Mülküm xan kimi birinci nəsil ziyalılar və digərləri də onlara məftun, onlarla əlbir oldular. Onlar xalqın məlumatsızlığından, başçıların fəsad və azğınlığından istifadə edib bu ölkəyə girdilər, hər şeyi bir-birinə vurdular, İranı heç bir şeyi olmayan boş bir ölkə kimi keçmişindən küsdürdülər və tarixini unutdurdular. Onlar bu ikinci dərəcəli vətəndaşlar üçün öz qanun-qaydalarını icra etməyə başladılar. Sanki bir ağa qulunun evini öz evi kimi düzəldir. Bəllidir ki, o, qulunun rahatlığını deyil, öz rahatlığını nəzərə alır. Bu səbəbdən, həqiqətən acınacaqlı durum yarandı və davam etdi. Bu, Pəhləvilər dövründə, xüsusən də son 30-40 ildə Qacarlar dövrü qədər açıq olmasa da, ondan təhlükəli idi.[144]

Bir xalq üçün ən böyük bəla budur ki, mədəniyyət və sivilizasiyasının bəzi hissələri zaman ötdükcə yaddaşlardan silinsin və onu xatırlamasınlar. Bu çox böyük bir bəladır. Təəssüf ki, qərblilər bizə qarşı bu işi görüblər. Xarici dillərin danışıq və yazılış tərzini, feil formasını gətirib münasib olmayan köməkçi mənalarla dilimizə daxil etdilər. Halbuki bizim öz dilimiz var... Bunlar dilə, geyimə və daha çox dəyərli milli adət-ənənələrə qarşı görülmüş işlərdir. Bizim xalqımız böyüklərinə və qocalarına hörmət edən bir xalqdır. Bu bizim qədim ənənəmiz, həm də İslamın qaydalarındandır. Müsəlmanların evlərində bir şam kimi baba, yaxud nənə vardır, hamı pərvanə kimi onların ətrafına toplaşır. Qərblilər baba-nənələrə çox da əhəmiyyətli yanaşmır və onların sözü ilə desək, keçmişə baxan nəsli adam saymırlar. Zahirdə bir qədər hörmət edib nəzərə alsalar da, saymırlar, halbuki biz onların əksinə olaraq, böyükləri sayırıq.

Onlar öz mədəniyyətlərinin bəzi xüsusiyyətlərini yeni növ məcburiliklə bizə sırıdılar. Biri var, adamın başına tüfəng dirəyib desinlər ki, filan işi gör; biri də var, bütün cəmiyyətdə yayımlanan kütləvi informasiya vasitələri ilə bir sözü o qədər təkrarlasınlar ki, istər-istəməz insanların beyninə hopsun, dil və əməllərində əks olunsun. Yeni növ məcburilik deyəndə bunu nəzərdə tuturam. Əlli il ərzində bizə qarşı bu işi gördülər.

Birincinin - Rza xanın savadı və məlumatı yox idi; nə şeirin dəyərini bilirdi, nə satiranın, nə gözəl xəttin, nə də adət-ənənələrin. O, yalnız quldurluğu bacaran anlamaz bir əsgər idi. Quldurluğunu da düşmənə qarşı işlətmirdi, özününkülərə qarşı işlədirdi. Quranda deyilir ki, düşmənə qarşı sərt, özünüzünkülərlə isə mehriban olun. O isə özününkülərə qarşı sərt, düşmənlə mehriban idi. Mustafa Kamalla dost idi, onu öz müəllimi sayırdı. İranda olan şüurlu, mədəniyyətli, elmli və mütəfəkkir şəxsiyyətlərə əhəmiyyət vermirdi, ona isə hörmət edirdi. Keçmiş rejim ədəbiyyat və mədəniyyət xadimlərini kiçiltmişdi.[145]

Ruhanilər inqilabın qələbəsi ilə nəticələnən 15 illik mübarizələrdə əsas amil olmuşlar. Onlar həmçinin müqəddəs İslam quruluşunun yaradılmasında, dünyada İslam bayrağının ucaldılmasında, düşmənlərin müxtəlif hücumları qarşısında İran xalqının fədakar müqavimətində, bunlardan öncə və uzun əsrlər boyu İslam təlimlərini, İran xalqının İslamın həyatverici məktəbinə güclü və doğruçu imanını qoruyan və hər yerdə dini düşüncələri inkişaf etdirən əsas amil olmuşlar. Amerikanın muzduru olan rejimlə mübarizənin mərkəzində öhdəçi və mübariz ruhanilərin durması xalqın müxtəlif təbəqələrini mübarizəyə cəlb etdi və ümumxalq miqyasına çatdırdı. İran xalqının yekdilliklə iştirak etdiyi bütün

böyük hadisələrdə, məsələn, Məşrutə hərəkatında və Tənbəki qiyamında da din alimlərinin öndə getməsi bu ümumi iştirakın yeganə təminatçısı olmuşdur. İngiltərə müstəmləkəçiləri bu məsələni dərk edib ruhaniləri məhv etməyi İranda müstəmləkə siyasətlərini davam etdirmək üçün zəruri şərt saydılar və muzdurları Rza xanın vasitəsi ilə 1934-cü ildən etibarən uyğun plana başladılar. Həmin illərdə böyük din alimlərinə və elm hövzələrinə qarşı İran tarixində misli görünməmiş faciələr baş verdi. Təəssüf ki, quldur Rza xanın hakimiyyətinin son illərində baş verən bu faciələr, eləcə də din alimlərinin və hövzə tələbələrinin məzlum müqaviməti tam şəkildə yazılmamışdır. Allaha şükür olsun ki, sayları hələ də az olmayan canlı şahidlərin bildiklərinin aidiyyətli şəxs və qurumlar tərəfindən toplanması lazımdır.

Ruhanilərin və din alimlərinin azadlıqsevərliyi, daxili və qlobal güclərin təsirindən uzaq qalması səbəbindən quldur hökmdarlar bu ilahi təbəqəni heç zaman öz fəsad və xəyanətləri yolundan götürə bilmədilər. Muzdur ruhanilərdən və saray mollalarından ibarət bir qisim ruhanilər dəyərsiz dünya malından ötrü zalımların süfrəsində oturub söz və əməllə onları təsdiqləsələr də, din alimlərinin, ruhanilərin və gənc hövzə tələbələrinin əksəri gözütox, təqvalı və iffətli qalmış, sədaqətli və qüdrətli mübarizə gücünü və iradəsini qorumuş, xalqın qəlbində Şiə ruhanilərinə olan güclü etimada xələl gətirməmişlər. Məhz buna görə ruhani təbəqəsi həmişə müxtəlif düşmənlərin, müstəmləkəçilərin, əcnəbilərin və əcnəbipəsərtlərin zəhərli hücumlarına məruz qalmış və onların birinci düşməni sayılmışdır.

Əlli il boyu İranda Pəhləvi hökumətinin və əcnəbi güclərin tamamilə müstəmləkə mahiyyəti daşıyan və ruhani təbəqəsi əleyhinə yönəlmiş planlı və düşmən təbliğatı Rza xanın dövründə və Məhəmmədrzanın dövrünün birinci yarısında din alimləri üçün çətin sınağa çevrildi və Allaha şükür olsun ki, ruhanilər bu sınaqdan başıuca çıxdılar.

Onbeşillik mübarizə çağında da Qum Elm Hövzəsi, digər elm hövzələri və məşhur ruhanilər mübarizənin və onun ardınca düşmənin vəhşi hücumlarının əsas mərkəzlərinə çevrildilər. Lakin bu sərt reaksiyalar Allahın iradəsi ilə ruhanilərin qəti dini vəzifələri olan şərəfli yoldan geri çəkilmələrinə bais olmadı, əksinə, həmin dövrdə İslam düşüncəsi daha da çiçəkləndi, parladı, Quran fiqhi daha səmərəli oldu, mübariz ruhanilər daha püxtələşdilər və İslam hakimiyyətinə şərait yarandı.[146]

İnqilabdan qabaq universitet mənsubları həqiqətən ruhaniləri çoxdanışan, çox gözləntisi olan və heç bir şey bilməyən nadan adamlar sayırdılar. Mən

onların bir çoxu ilə rastlaşmışam. Məsələn, bir məclisdə bir hövzə tələbəsindən iki sanballı söz eşidəndə deyirdilər ki, ruhanilərin arasında həqiqətən sizin kimilər varmı? Halbuki həmin tələbə adi bir tələbə idi. Onlar ruhaniləri tanımırdılar, ölkənin elm mərkəzlərinin ruhanilər haqda təsəvvürü yanlış idi. Elm hövzəsi ümumiyyətlə elm və tədqiqat mərkəzi olmuşdur. Əgər ölkəmizdə elm üçün elmin, qarşılıqsız elmin nümunəsi varsa, elə elm hövzələridir. Müasir universitet adamları ruhani çevrələrdə və hövzə tələbələri arasında olan, Allahın lütfü ilə hələ də böyük həddə qalan zahidliyi və dünyaya etinasızlığı müftəxorluq sayırdılar. Bunu o qədər təbliğ etmişdilər ki, harada konkret işarə vurmadan "müftəxorlar" deyirdilərsə, ruhaniləri nəzərdə tuturdular. Belə təbliğat aparmışdılar. Bu təbliğatın əsl hədəfi isə ruhanilər deyildi, din idi.[147]

**2- Antidin istiqamətli universitetlərin təsis olunması və muzdur qüvvələrin yetişdirilməsi**

Qardaş və bacılar! Əziz xalq! Uzun illər bizim cəmiyyətimizi elmdən uzaqlaşdırmağa çalışmışlar. Bir zaman belə deyildi. Mən demirəm ki, uzaq keçmişdə xalqımızın hamısı alim olmuşdur. Düzdür, savadsızlıq çox, elm isə az idi, amma bilik adamları arasında elmə böyük həvəs vardı, elmi onun özü üçün istəyirdilər. Uzun illər bizim cəmiyyətimizdə bu mədəniyyəti dəyişməyə çalışdılar, elm və təhsil qarnı doldurmaq üçün bir vasitəyə çevrildi. Bu, elmin dəyərini azaldır.[148]

Universitetləri bünövrədən etiqadsız etdilər. İlk dövrlərdə təhsil üçün gedən gənclərin hər bir qrupu avropalıların antiislam təbliğatına məruz qaldılar. Qərb mədəniyyətinin ilk yetirmələrinin hamısını demirəm, amma əksəriyyəti dinə biganəlik və hətta ədavət hissi bəsləyən insanlar idilər. Əlbəttə, iradələrin zəifliyi, güclü və yeni dini təbliğatın olmaması da təsirli idi.

Universitetin, yəni günün elmi nailiyyətlərinə uyğun alimlər yetişdirən mərkəzin özülü dinsizlik və dinə düşmənlik üzərində quruldu. İllərlə bu məsələni ciddi şəkildə və diqqətlə davam etdirdilər. Universitetlərdə dini yalnız zəiflətmədilər, hətta onunla mübarizəyə qalxdılar. Dinə qarşı mübarizədə məqsəd isə din yox, İslam ölkələrini istismar etmək idi. Onlar gələcəkdə ölkənin idarə və quruculuğunu ələ keçirməkdən ötrü dinə etiqadı olmayan bir nəsil yetişdirməyə məcbur idilər. Təəssüf ki, böyük həddə məqsədlərinə çatdılar.[149]

Universitetin bünövrəsini pis qurdular. Əlbəttə, bizim xalqımız arasında İslam inancı və milli vicdan elə həddə idi ki, alimlərimizin və ali

təhsillilərimizin bir qrupu sağlam qala bildi. Odur ki, əsla bütün ali təhsilliləri dini və milli maraqlara biganə təsvir etmək olmaz. Onlar universitet mənsubları arasından hakimiyyət kürsülərində görmək istədiklərini asanlıqla vəzifəyə gətirdilər və əllərində saxladılar. Buna əsasən, bu universitetlərdə təhsil almış siyasi şəxsiyyətlər, yəni ölkə boyu mühüm postlarda çalışanlar bir nəsildə hamılıqla dinə yad oldular. Rza xanın dövründə, yeni elmlərin və Avropa mədəniyyətinin İrana yenicə yol açdığı zaman yetişmiş nəsil əksərən etiqadsız bir nəsil idi. Sonralar vəziyyət dəyişdi, çoxları din və məzhəb məsələləri ilə tanış oldular, ürəklərdə dini hisslər baş qaldırdı, düzgün düşüncələr peyda oldu, dindar ziyalılar meydana çıxdılar, Şəhid Müfəttih, Şəhid Mütəhhəri, Şəhid Behişti kimi nüfuzlu ruhanilər və digər dəyərli şəxsiyyətlər universitetlərə yol tapıb fəaliyyət göstərdilər. Bəzi universitet adamları din və məzhəb məsələləri ilə tanış oldular və onların istədiyinin əksi baş verdi. Əvvəldə isə bünövrəni elə qurmuşdular.[150]

Keçmişdə universitet İslama zidd mədəniyyətin daha çox göründüyü yer, yaxud yerlərdən idi. Keçmiş rejim bunu istəyir və universitetlərdə həyata keçirməyə çalışırdı. Bunun arxasında siyasi məqsədlər dururdu.[151]

Universitet açmaqda birinci məqsəd gəncləri savadlandırmaq deyildi, hakimiyyətin müstəmləkə və hegemon qütblərinə daha tez qoşulması və nökərlik etməsi üçün kadr yetişdirmək idi. Daha çox nökər olan daha əziz idi, azad fikirli, müstəqil düşüncəli və qurucu insan isə sevilmirdi. Çünki əcnəbilərdən asılılıq hökumətlərin əsas prinsipinə çevrilmişdi. Pəhləvi rejimini kim hakimiyyətə gətirmişdi? Rza xanı və Məhəmmədrza xanı kim hakimiyyətə gətirmişdi? Onlar şah olduqları bütün dövrdə özlərini hakimiyyətə gətirənlərin maraqlarına xidmət edirdilər. Bilirdilər ki, onlarla əlaqəni kəssələr, hakimiyyətdə qalmaları mümkün deyil. Görün bu gün Fars körfəzində vəziyyət necədir. Bu hökumətlər canlarının Amerikanın əlində olduğunu bilirlər; Səudiyyə hökuməti bir cür, Küveyt hökuməti bir cür, digərləri də bir cür. Pəhləvi rejimi də onlar kimi idi. Hakimiyyətin məqsədi və istiqaməti asılılıq və muzdurluqdan ibarət idi. Tələbəni də belə görmək istəyirdilər, alim də istəyəndə belə istəyirdilər.[152]

Aydın məsələdir ki, universitet əvvəldən dinsiz doğulmuşdur. Bunu planlı şəkildə belə etmişlər. Bu o demək deyil ki, hansısa universitetin təsisçisi dindar adam olmamışdır; ümumiyyətlə buna dəxli yoxdur. Universitetin özülü qeyri-

dini və hətta antidin təməllər üzərində qurulmuşdur; ölkəmizin əvvəldən dinsiz doğulmuş ziyalı çevrəsi kimi. Lakin dinin xüsusiyyəti belədir ki, müxtəlif çevrələrə nüfuz etmək üçün kimdənsə icazə gözləmir. Odur ki, İslam dini müxtəlif yerlər kimi, universitetə və ziyalı çevrələrinə də daxil oldu. Bünövrə isə yanlış idi. Buna əsasən, bünövrə dəyişməli və qabaqkı vəziyyətə qayıtmasına imkan verməməliyik. Lakin unutmaq lazım deyil ki, düşmən də bikar oturmur.[153]

## İkinci hissə: İslam inqilabına qarşı mədəni hücumun səbəb və kökləri

### 1- İranda və dünyada inqilabçı İslamın dirçəlməsi

Bu 1400 ildə İslam dini dünyada nə zaman öz həqiqi simasında meydana çıxmışdırsa, qarşısında güclü düşmənlər, dərin ədavətlər və qəribə xəyanətlər peyda olmuşdur. İslam nə zaman öz həqiqi formasından xaric olub gözəlliklərini, parlaqlığını, kəsərliliyini və böyük iddialarını gizlətmiş, göstərməmişdirsə, düşmənliklər azalmışdır. İslamın əvvəlindən bu günədək belə olmuşdur. Siz görün Peyğəmbər (s) Məkkədə hansı ədavət və xəyanətlərlə üzləşdi. Bütün heyvansifət və qaba adamlar o həzrətin və onun İslamının qarşısında cəbhə açdılar. Görün Mədinəyə gələndən sonra Peyğəmbərlə (s) düşmənliklər nə qədər qanlı və xaincəsinə olmuş, hansı pis və çirkin insanlar tərəfindən törədilmişdir. İslam dininə və onun uca rəhbərinə qarşı çıxan müxtəlif qrup və cinahlar arasında Qüreyş müşrikləri, Səqif müşrikləri, kitabdan uzaq düşmüş kitab əhli, yəhudilər, məsihilər və münafiqlər vardı. İslamı məhv etmək üçün hamı əlbir olmuşdu. İslam dini onların hamısının qarşısında bütün iddia və gözəllikləri ilə dayanmışdı. Əməvi və Abbasi sülalələrinin uzun hakimiyyəti dövründə həqiqi İslamdan danışanlar müxtəlif təzyiq, işgəncə, repressiya və təxribatlara məruz qaldılar. İmam Kazimin (ə), digər imamların, böyük din alimlərinin və hədisşünasların həyatına baxın, görün o zaman zalım xəlifələrin əlindən nələr çəkmişlər; döyülmüş, qamçılanmış, həbs olunmuş və öldürülmüşlər. Bunları tarixdə oxuyun. Əsl İslamın xüsusiyyəti belədir. Harada meydana çıxırsa, qarşısında şər qüvvələr peyda olur və var gücləri ilə ona qarşı mübarizə aparırlar.

Hakim qüvvələr öz əsas şüarlarından və ruhundan uzaqlaşan, zülmlə vuruşmayan, müxtəlif qisimli əxlaq fəsadları ilə barışan, bəzi şüarların olduğu və bir çox prinsiplərin olmadığı İslama qarşı mübarizə aparmır, şər qüvvələr ona qarşı çıxmırlar. Bu da tarixdə geniş bir bəhsdir. Siz kitablarda oxuya və bu vəziyyəti öz zamanımızda Pəhləvi şahlığının və ondan öncəki rejimlərin fəsad dolu dövründə görə bilərsiniz. Bu gün də dünyada belə bir İslam var. Zülm və hememoluqla vuruşan, fəsad və talançılığı rədd edən İslam böyük güclərin, ABŞ-ın, sionizmin, soyğunçu transmilli şirkətlərin və bugünkü fəsad törədən ölkə başçılarının düşmənliyini gözləməlidir.[154]

Dünyanın hakim güclərinin İslam inqilabı və İslam Respublikası quruluşuna qarşı vuruşmasının səbəbi qlobal hegemonizmin əlaltılarının təhriflərindən uzaq olan əsl İslamdır. Başqa sözlə desək, həm bizim üçün, həm

də düşmənlərimiz üçün əsas məsələ İslamdır. Bizim hegemonizmə qarşı mübarizəmiz də İslama görədir.

Qlobal hegemonizmin, birinci növbədə ABŞ-ın, ondan sonra hegemonizmin maraqlarına xidmət edən bütün şeytani qurumların müsəlman İrana qarşı mübarizəsində məqsəd yalnız İslamdır, başqa bir məqsəd yoxdur. Biz yalnız özümüz üçün yox, bütün bəşəriyyətin gözəl İslam həyatı üçün mübarizə aparırıq. Bu o demək deyil ki, biz qoşun yığıb hegemon qüvvələrin bəşər həyatını məhv etdikləri yerlərdə vuruşmaq istəyirik. Bu belə döyüş deyil.

Biz İslamın mərkəzində sübut etməyə çalışırıq ki, bəşəriyyət hegemonizmin güclü hökmranlığı altında əziyyət çəkir və günbəgün fəlakətə yaxınlaşır. İslam isə bəşəriyyəti xilas edə bilər. Biz bunu sübut etmişik və sübut edəcəyik ki, İslam dünyanın böyük gücləri ilə mübarizə apara, dünyanın zalım düzənini poza bilər. Hegemonizm də bu məsələ üzərində həssasdır. Odur ki, qızıl və güc sahiblərinin və beynəlxalq imperatorluğun hakimiyyətini rədd edən hər bir xalq, hökumət və quruluş onlar tərəfindən sevilmir. Bu gün biz dünyada bu istismarçı düzəni rədd edirik, hər yerdə xalqların və insanların bədbəxtliyində onu günahkar sayırıq.

Biz Qərbə bağlı təbliğat qurumlarının bizim inqilabımıza və xalqımıza qarşı ittihamlarından əl-ayağa düşməmişik və düşməyəcəyik. İnqilabın əvvəlindən dünyanın ən mürtəce qüvvələri dövrlərinin ən mütərəqqi hadisələrindən olan inqilabımızı və xalqımızı mürtəcelikdə ittiham edirlər və bu bizi qorxutmur.[155]

Qərbin hegemon gücləri bu gün hər yerdə özlərini İslamla qarşı-qarşıya görürlər. Onlar İslamdan təhlükə duyurlar. Onlar hər bir islamsevərlik əlamətini öz hakimiyyət və maraqları üçün ciddi təhlükə hesab edirlər. Cəmiyyətlərdə zülmə, fəsada və əxlaq pozğunluğuna dözməyən əsl Məhəmməd (s) İslamının zülm, fəsad və pozğunluq üzərində qurulan rejimlərə həqiqi təhlükə olması bəlli məsələdir. Məhz buna görə bu gün dünyanın bütün şeytani qüvvələri İslama qarşı ən qəddar üsullardan istifadə edir və indiyədək şüar seçdikləri ən aydın prinsipləri tapdayırlar.[156]

İslam inqilabının qatı düşmənləri olan böyük güclər özlərinin İslam Respublikasına qarşı düşmənliklərinin səbəbini heç zaman açıq söyləməmişlər və söyləməyəcəklər. Amerika özünün İranla düşmənliyinin səbəbinin İslam olduğunu etiraf etsə, dünyanın bir milyard müsəlmanını öz əleyhinə qaldırar.[157]

Həqiqi İslam meydana çıxanda xəbis və çirkin qüvvələr ona qarşı mübarizə aparsalar da, digər tərəfdən pak insanlar, təmiz qəlblər, saf ruhlar, çirkaba bulaşmamış fitrətlər var gücləri və bütün vücudları ilə onu müdafiə edirlər.[158]

İranda İslam inqilabı qələbə çalan zamandan bizim mömin və məsuliyyətli xalqımız İslama əməl etdi; yəni İslam bizim ölkəmizdə yalnız sözdə deyildi və deyil. Bizim xalqımız Quranın müsəlmanlar üçün istədiyi istiqamətlərdə çalışdı, şeytanlarla və zalım güclərlə mübarizə apardı. Bizim xalqımız Allah yolunda hər şeyindən keçdi, İslamın istədiyi kimi fədakarlıq etdi və qlobal güclər qarşısında öz şərəfini qorudu: "İzzət və ucalıq yalnız Allaha, Onun Peyğəmbərinə və möminlərə məxsusdur!"[159] İzzət söminə məxsusdur. Çünki mömin şeytanlıq, zülm və fəsad əlaməti olan hər bir şeyə qarşı bütün vücudu ilə mübarizə aparan və müqavimət göstərən yeganə şəxsdir. İran xalqı inqilabla Allahın dinini və İslamı ictimai bir quruluş formasında təcəssüm etdirməyi bacaranda hegemonların ürəyinə qorxu düşdü. Onlar hər bir mümkün yolla İslam əleyhinə mübarizə və fəaliyyətlərə başladılar. İslam Respublikasına qarşı mübarizə də İslama görədir. Çünki İslam Respublikası özünün İslamın etiqad və prinsiplərinə sadiqliyini sübut edəndə böyük bir təhlükə sayıldı, bütün hegemon qüvvələr onun əleyhinə hərəkətə keçdilər. Hələ İslam Respublikasının nə olduğunu, öz əsaslarına və sözlərinə hansı həddə sadiq qaldığını bilmədikləri ilk çağda çox da qıcıqlanmadılar. Deməli, qarşı-qarşıya dayanan iki cərəyan biz İran xalqı üçün mühüm, ibrət və dərslə doludur. Bir tərəfdən hegemonizmin və maddi güclərin İslamdan əlamət görünən hər bir yerdə göstərdikləri güclü təzyiqləridir. Siz hər gün buna dair xəbərləri eşidir və görürsünüz ki, hətta bir Avropa ölkəsində İslamdan kiçik bir əlamət ajiotaja səbəb olur, dövlət rəsmiləri və siyasi şəxslər ona qarşı mübarizəyə qalxırlar. Bu, məsələnin bir tərəfidir. Digər tərəfi budur ki, bu gün İslam və müsəlmanlara qarşı təzyiqlərə rəğmən, dünya xalqı, xüsusən də gənclər, ziyalılar və ayıq insanlar İslama yönəlir, cəlb olunurlar. Bu iki məsələ həqiqi İslamın inkişafını təmin edəcək amillərdir. İnsanların fitrətinə əsaslanan və bütün zalım qurumlara qarşı mübarizə halında olan İslam insanları özünə cəlb edib qala və dünyaya hakim ola biləcək.

Bu amil bizi və xalqımızı ölkəmiz daxilində İslam hökmlərini daha çox icra etməyə sövq edir. Çünki xalqımızı bütün boyunduruqlardan azad edəcək amil İslam quruluşu və İslam hökmləridir.[160]

Onlar İslam quruluşundan ibarət olan parlaq bir İslamla qatı düşmənlik edirlər, onu məhv etmək üçün müxtəlif yollardan istifadəyə hazırdırlar. Biz inqilabın əvvəlindən indiyədək vuruşmuşuq, indi də faktiki olaraq bütün iqtisadi, mədəni, siyasi sahələrdə vuruşuruq və hər sahədə özümüzü hazırlamalıyıq.[161]

Bu gün hegemon düşərgənin müsəlman İranla düşmənliyi İslama görədir. Onlar İslamla düşmən olduqlarına görə İran İslam Respublikasına təzyiq göstərirlər. Onlar Quranın dirçəlişi ilə düşmən olduqlarına görə İran xalqına qarşı düşmənlik edirlər. İslam yolunda hərəkətə və fədakarlığa can atan bütün müsəlman xalqlar özlərini İslam düşmənləri ilə mübarizəyə hazırlamalıdırlar. Biz İran xalqı Allaha və Qurana görə dünyanın hegemon və zalım qüvvələrinin kin və ədavəti ilə üzləşməyimizlə fəxr edirik.[162]

Qlobal hegemonizm, dünyanın siyasi quldurları və hər bir yerdə olan qızıl və güc imperatorluğu İslam və İslam quruluşu ilə düşməndirlər. Fəsad və pozğunluğa qərq olduqlarından, zülm, istibdad, zorakılıq və quldurluq əsasında hərəkət etdiklərindən, həmçinin İslamın onları ifşa və təhdid etdiyinə görə müsəlmanların oyanışı onlar üçün böyük təhlükədir. Məhz buna görə İslam və İslam quruluşuna sərt müxalifdirlər. Təbii ki, İslam quruluşunun və İslam Respublikasının əleyhinə bacardıqları hər bir işi görürlər.[163]

Allaha and olsun, ABŞ İran xalqının heç bir şeyindən onun müsəlman olması və əsl Məhəmməd (s) İslamına sadiqliyi qədər narahat deyil. O sizin bundan əl çəkmənizi istəyir. O sizin bu uca və dik boynunuzu görmək istəmir.[164]

Hegemon düşmənlər - yəni dünya quldurları, qızıl və güc sahibləri və asılı mürtəcelər bizim kəşf etdiyimiz sirri kəşf etmişlər. Onlar da anlamışlar ki, İran xalqının qüdrət və qələbəsinin əsas səbəbkarı imandır. Odur ki, düşmənlər var gücü ilə bu imanı məhv etməyə səfərbər olmuşlar. Əsas məsələ budur: İslamın erkən çağında və əziz Peyğəmbərin (s) dövründə olduğu kimi, düşmənliyin əsas amili imandır; çünki inkişafların əsas səbəbi budur.[165]

Bu gün hegemonizmi təhdid edən amil atom bombası deyil, düzgün bir sözə malik olmaqdır və ona malik olan bizik. Əgər biz düzgün işləsək, mömin kimi rəftar etsək, özümüzdə lazımi İslam cəsarətini qorusaq və İslamdan xərcləməsək, şübhəsiz ki, düşmən belə bir şeyin qarşısında zəif olacaq. ABŞ və

onun kimilər bizim bu İslamdan əl çəkdiyimiz zaman bizdən razı qalacaqlar. Kimsə İslamdan əl çəkməyə hazırdırmı?! Biz İslamdan əl çəkəsi olsaq, daha hakimiyyətdə olmağımıza nə lüzum var?! Başqa qüvvələr gəlib hökumət qursunlar. Xalq bizi nə üçün istəyir?! Xalq məni və sizi İslama görə istəyir, bilir ki, biz İslamın quluyuq və hərəkətimizin İslam üçün olduğunu elan etmişik: "Sən yəhudi və xaçpərəstlərin dinlərinə tabe olmayınca onlar səndən qətiyyən razı qalmayacaqlar"[166]. Bu, Quranın möcüzələrindən biridir. İndi də belədir. Biz keçmişdə elə bilirdik ki, bu o dövrə aiddir, bir zaman belə olub. Onlar müsəlmanlığın bütün mərhələlərinə müxalif, bəzi mərhələlərə isə sərt müxalifdirlər. Məsələn, Bosniya müsəlmanlarının müsəlmanlıq mərhələsi belədir, zəif bir mərhələdir. Hamımız gördük ki, elə zəif müsəlmanlara qarşı nə etdilər və ona da dözmədilər. Bosniya və Herseqovinadan sonra isə növbə Albaniyanındır. Onlar Avropa müsəlmanlarını məhv etmək istəyirlər.[167]

Düşmən İslama və inqilaba qarşı güclü kin bəsləyir, heç zaman onunla barışmayacaq. Allah-Taala da müsəlmanlara buyurur: "Sən yəhudi və xaçpərəstlərin dinlərinə tabe olmayınca onlar səndən qətiyyən razı qalmayacaqlar"[168].

Bir xalq hegemonizmə təslim olub öz din və prinsiplərindən əl çəkməyincə ondan razı qalmayacaqlar. Hegemon qüvvələrin ədavəti xalqın etiqadlarına, istiqlaliyyətinə, "nə şərqçi, nə qərbçi" şüarına və İslama sadiqliyinə görədir. Deməli, hegemonizmin ədavəti bitən deyil. Lakin bütün bunlara rəğmən, mən ümidvar və Allahın lütfü ilə arxayınam ki, bu xalq bütün iqtisadi, siyasi və mədəni sahələrdə ilahi məqsədlərinə nail olub düşməni məğlub etməyi bacaracaq.[169]

İnqilabın mesajı və çatdırmaq prinsipi İslamın qəti qaydalarındandır. Təbliğ – çatdırmaqdır; yəni maneələri qət edib haqq sözü lazım olan yerə çatdırmaq.

Bütün amillərin ümumi olaraq iman, din və özəlliklə İslam əleyhinə çıxdığı və bu müxalif amillərə rəğmən, xalqların mənəvi və ruhani sözü eşitməyə müştaq olduğu bir şəraitdə güclü və doğruçu bir fəryad ucaldı. Bu fəryadın doğruluğuna, onu ucaldanın səmimiliyinə, yalnız söz olmadığını göstərmiş əməli dayaqlarına, hegemonizmin, irticanın, oliqarxiyanın çirkin simalarının düşmənliyinə və bu qəbildən olan müxtəlif amillərə görə bu fəryad xalqların, xüsusən də müsəlmanların qəlbində özünə yer açdı, həqiqi və nisbətən dərin təsir buraxdı.[170]

Bu gün İslam dini bütün cəmiyyətlərin daxilinə yol tapmaqdadır. Dünya məsələlərindən xəbərdar olanlar bu işıqlı həqiqəti görür, buna heç bir şübhə etmirlər. Bu qrupa şeytani güclərin və tağut rejimlərinin zülmündən cana doyub yeni bir düşüncə və yol axtaran cəmiyyətlər, məsələn, Afrika və Asiya ölkələrinin əhalisi, eləcə də Avropa xalqları daxildir. Avropada da İslam bir şəkildə nüfuz halındadır. Təbii ki, bunun hansı İslam olması müzakirə mövzusu ola bilər. Çünki İslam adlı iki şey var; onların bəzi zahiri cəhətləri bir-birinə bənzəyir, ruh, məğz və istiqamətləri isə eyni deyil. Həqiqi İslam, Quran və əsl Məhəmməd İslamı öz ardıcıllarını yeni həyata səsləyən, Şərq və Qərb güclərinə xidmət etməyən İslamdır. Başqa bir İslamın da adı və zahiri cəhətləri İslamdır, amma asanlıqla ABŞ-ın, Qərbin və Şərqin xidmətində durur. Bəzi müsəlman ölkələrinə hakim olan quldurların İslamı belədir. Onlar da İslamdan dəm vururlar, amma İslam onlar üçün bir dükan və hakimiyyət vasitəsidir. İslam həqiqi Quran İslamı olsa, Amerikanın müsəlmanların taleyinə və yaxud neft xəzinələrinə hakim olmasını açıq şəkildə rədd edər. Necə ola bilər ki, bir adam həm müsəlman olsun, həm də Amerikaya müti; həm müsəlman olsun, həm də fəsadla, pozğunluqla, eyş-işrətlə və müxtəlif əxlaq fəsadları ilə məşğul olsun; həm müsəlman olsun, həm də zalım hakimiyyətin başında durub İslam düşmənlərinin istəyi ilə müsəlmanlara sıxıntı yaratsın və zülm etsin. Deməli, belə insan və iddiaçıların İslamına bizim mərhum və böyük imamımızın dəfələrlə dediyi "Amerika İslamı" ifadəsi uyğundur. Bu gün cəmiyyətlərə və insanların qəlbinə yol tapan İslam təslimçiliyi qəbul etməyən əsl İslamdır. Siz görürsünüz ki, bəzi ərəb və Afrika ölkələri kimi əhalisi müsəlman olan, məscidlərin olduğu və bir qrupun İslama tərəfdar kimi ayağa qalxdığı ölkələrdə asılı hökumətlər bu cəmiyyətlərə zülm edir, işgəncə verir, onları təxribatçı adlandırırlar. Bu nə deməkdir? Bunun mənası odur ki, həmin ölkələrdə geniş yayılmış din həqiqi İslamdan uzaq olduğuna görə, mömin, vicdanlı, ayıq və azad insanlar təslimçiliyi qəbul etməyən həqiqi İslamı hakim etmək istəyirlər və bu zaman hökumətlə toqquşma yaranır. Bu gün İslamın inkişaf halında olması bir həqiqətdir. Bu, İslamın və Quranın möcüzələrindən biridir. Xüsusən son on ildə İslam əleyhinə o qədər təbliğat aparılmış və pul xərclənmişdir ki, bəlkə də bu müddətdə heç bir düşüncə və etiqadın əleyhinə bu qədər işlər görülməmiş, düşmənlik edilməmişdir.[171]

Bu inqilabın birinci sözü bu idi ki, mənəvi dəyərlərin hakimiyyət dövrü başlanmışdır. O zaman bu sözü anlayan, ona inanan şəxslər az idi. Çünki

materialist dalğalar və materializmə əsaslanan qüvvələr dünyanı bürümüşdülər. Bu gün isə bu həqiqəti tam dərk edib anlayanlar çoxdur.

Bu gün dünyanın hər yerində mənəvi dəyərlər yenidən dirçəlmək üzrədir və onların çoxu dirçəlmişdir. Müxtəlif formalarda - istər marksist təfəkkürlər formasında, istər ondan təhlükəli formada olub, pulla, güclə və media imkanları ilə silahlanan, qlobal hegemonizmdə və hamısından çox ABŞ dövlətində görünən maddi hakimiyyət formasında olan materializm öz uğursuzluğunu və acizliyini göstərmişdir.

İnqilabın digər mesajı bu idi ki, materialist güclər mənəvi dəyərlərlə, insanların hərəkət və iradəsi ilə mübarizəyə acizdirlər. Bu gün dünyada bu həqiqəti anlamayan azdır.[172]

Bu gün İslam dünyası oyanmışdır, müsəlmanlar bütün dünyada şərəf və ucalıq hiss edirlər. Müsəlmanın dünyanın hər yerində öz dini mənsubiyyətindən xəcalət çəkdiyi dövr arxada qaldı. Bu gün onlar müsəlman olduqlarına görə fəxr edirlər. Bu, bizim böyük rəhbərimizin və əzəmətli imamımızın güclü qolları və böyük İran xalqının möhtəşəm fədakarlığı ilə dünyanın bu həssas bölgəsində qələbə çalan və dünyanı heyrətləndirən inqilabın qüdrətinə və əzəmətinə görədir. İslam Respublikası on ildir hegemon qüvvələrin müxtəlif təxribatları qarşısında mərdliklə duruş gətirib İslamı və İslam Respublikasını qüdrətlə müdafiə edə, düşmənin zərbələrini özünə qaytara bilmişdir. Hegemon dövlətlər elə bilirlər ki, səkkizillik müharibə, iqtisadi və informasiya blokadası və dünya miqyasında yaydıqları şayiə və böhtanlarla bizə zərbə vura biləcəklər. Onlar unudurlar ki, İslam və müsəlmanların oyanışı onların hakimiyyət taxtını lərzəyə gətirmişdir və İslam oyanışının bu fırtınasının ağır zərbələri hər gün ötdükcə dünya fironlarının hakimiyyətini daha çox titrədəcək.[173]

Biz bu gün dünyada xalqların oyanışını görürük. Bu da başqa bir reallıqdır və qəlblərdə işıqlı gələcəyə ümid yaradır. Yeni texnikaların, televiziya, radio, media, pul və sənaye imkanlarının inkişafına görə hegemon qüvvələrin xalqlar üzərində hökmranlığı günbəgün çoxalsa da, ilahi qaydalar xalqların oyanmasını göstərir. Görürsünüz ki, xalqlar günbəgün oyanmaqdadırlar və bu, onlarda gələcəyə dair yaranan ümidə görədir.

Ümid xalqları oyatmaqdadır. Şübhə etmək olmaz ki, son on ildə xalqlar üçün ən mühüm ümid amili İran İslam İnqilabının qələbəsi, "nə şərqçi, nə qərbçi" formatında xalq hakimiyyətinin qurulması və hegemon güclər qarşısında müqavimət siyasətinin uğuru olmuşdur. Bu, dünya xalqlarına, xüsusən də

müsəlmanlara ümid bəxş etdi, dünyanın hər yerində müsəlmanları yuxudan oyatdı. Bu, Allahın işi və qüdrəti idi.[174]

Son yarım əsrdə antiislam qüvvələrin davamlı təbliğatı nəticəsində özlərinə, öz qüvvələrinə və hətta İslamın gücünə ümidi tamamilə itirmiş bütün müsəlman xalqlar inqilabın hər bir hadisəsindən, inqilab imamının hər bir söz və işarəsindən və xalqın hər bir hərəkətindən ümid, həvəs və etimad dolu mesaj alır, öz qüvvələrinə inanır və hegemonizmin zəlifliyini dərk edirdilər. Dünya İranda İslam inqilabının qələbəsindən bu günə qədər müsəlman xalqların hər yerdə özlərinə güvəndiklərini, öz İslam kimliklərinə və mədəniyyətlərinə qayıdış istiqamətində addım atdıqlarını müşahidə edir. Bunun səbəbi odur ki, İran xalqının fədakar mübarizəsi Şərq və müsəlman xalqların Avropa və Amerika hegemonlarını məğlub etməyə qadir olmadığına dair hiyləni puç etmiş və həqiqi gücün ünvanını göstərmişdir. Həqiqi güc imanlı xalqdır. Belə bir xalqın qarşısında heç bir maddi güc, nə qədər böyük və imkanlı olsa da, öz iradəsini yeritməyə qadir ola bilməz.[175]

Bu güclərin təzyiqi altında olan hər bir xalq ürəyindən xəbər verən bu inqilabı sevir. Ölkələrində Amerikanın və hegemonizmin nüfuzuna, iqtisadi müdaxilələrə və əcnəbi mədəniyyətin təbliğinə qarşı nifrət bəsləyən çoxlu xalqlar var, amma nəfəs almağa cürətləri, addım atmağa qüdrətləri və ən önəmlisi, hərəkətə gətirməyə rəhbərləri yoxdur. Repressiya elə bir həddədir ki, onlara tərpənmək imkanı vermir. ABŞ-a bağlı olan mürtəce ölkələrin əksəri belədir. Bu xalqlar bir xalqın azad şəkildə, qüdrətlə və qorxmadan ABŞ-ın, Qərb mədəniyyətinin nüfuzuna, hegemon qüvvələrin zülmünə, əcnəbilərin hər bir iqtisadi və mədəni müdaxiləsinə qarşı şüar verdiyini, əməl etdiyini və möhkəm dayandığını gördükdə təbii olaraq ürəklərində həmin xalqa və inqilaba qarşı sevgi yaranır. Beynəlxalq uğur budur. Yəni bizim xalqımızın və inqilabımızın digər xalqlara mesajı var. O mesaj budur ki, xalq istəsə, güclü bir rəhbər və mərkəz ətrafında birləşsə, qeyri-mümkün işləri görməyi bacarar. Bunun bütün müsəlmanlara bir mesajı da budur ki, antiislam qüvvələr uzun illər İslamı məhv etməyə çalışsalar da, müsəlmanlar iradə etdikdə İslamı cəmiyyətə qaytarıb hakim edə bilərlər. Bunlar bizim xalqımızın və inqilabımızın mesajlarıdır. Siz elə bilməyin ki, digər xalqlar bu mesajları dərk etmir və eşitmirlər. Görürsünüz ki, həcc mərasimində sizin kənarınızda və sizinlə birgə Afrikadan, Asiyadan, Orta Şərqdən, ərəb, türk və digər millətlərdən insanlar dayanıb şüar verir, yürüş edirlər. Bu əslində onların sizin mesajlarınıza cavablarıdır.[176]

Əvvəllər dünyanın bir çox bölgələrində yaşayan çoxlu müsəlmanlar müsəlman olduqlarını deməyə və bildirməyə utanırdılar. Öz ölkəmizdə də belə idi. Bu gün isə Uzaq Şərqdən Qərbi Avropaya və dünyanın digər bölgələrinə qədər hər yerdə "biz müsəlmanıq" deməklə fəxr edirlər. Bu gün İslamın adı ucalmışdır. Allaha şükür ki, İslam cəmiyyəti quruldu, möhkəmləndi və kök saldı.[177]

Allaha şükür olsun ki, İran xalqının bu böyük hərəkatı qələbə çaldı, dini hakimiyyət quruldu, dindar və müsəlmanlar bir neçə əsr təhqirdən sonra ucalıq və mənlik hissi keçirdilər, dirildilər, İslam dünyasında İslam hissləri, İslam kimliyi və şüuru peyda oldu. Afrika ölkələrində islamçı qrupların hakimiyyət iddiasında olması, müsəlmanların zalım hökumətlərə qarşı mübarizə aparması və "Allahu Əkbər" şüarı verməsi yeni bir şeydir. İslama müxalif olan bəzi şəxslərin zahirdə İslamdan danışmaları da yeni bir şeydir, müsəlman xalqların tarixində İslam inqilabının qələbəsi və bu möhtəşəm hərəkətin meydana çıxması nəticəsində yaranan işıqlı sabahdan irəli gəlir. Bu vəziyyət böyük din alimlərinin, ən çox da güclü əli, iradəli, imanlı qəlbi, özünün Allaha sonsuz arxayınlığı, yaxınlığı və ixlası ilə bu hərəkata rəhbərlik edən və onu tarixdə misilsiz bir hadisəyə çevirən böyük insanın zəhmətlərinə borcludur. İslam hakimiyyətinin qurulması ilə İslam quruluşu ərsəyə gəldi. Biz günbəgün İslam hökmlərinə yaxınlaşırıq və yaxınlaşmalıyıq.

Müsəlman xalqlar ayıldılar və İslam inancının genişlənməsi prosesi başlandı. İslam, xüsusən də Şiə ruhanilərinin çoxlu üstünlükləri var. Onların elm sevgisi, ixlası, xalqa qayğıkeşliyi, dünyaya etinasızlığı, hakim və quldurlardan qorxmaması və hakim ərbablara bağlı olmaması böyük imtiyazlardır. Bizim sərvətimiz bunlardır.[178]

Bu gün bütün dünyada müsəlmanlara qarşı təzyiqin çoxaldığını hiss edirik. Bir ömür dindən uzaq və Allaha yad şəkildə yaşayan marksist ölkələrdə dinə qayıdış duyulur, həmin ölkələrdə və digər yerlərdə müsəlmanlara qarşı bir həssaslıq vardır. Kilsə zənglərinin əlli il səslənmədiyi ölkələrdə kilsələr rövnəqləndi, amma həmin ölkələrdə, Avropanın ürəyində, azadlıq və demokratiya iddiasında olan ölkələrdə, Hindistanda və dünyanın digər yerlərində xüsusən müsəlmanlara qarşı güclü bir basqı var. Səbəb nədir? Bunu təhlil edin; görün səbəb zalım qüvvələrin dünyanın hər yerində İslamın həyata qayıtmasını hiss etmələri deyil?! Görün səbəb müsəlman cəmiyyətlərdə yenidən

İslam kimliyinin canlanmasını görmələri deyil?! İşğal olunmuş Fələstində müsəlmanların güllələbaran edilməsinin səbəbi bu gün həmin yerlərdə İslamın ciddi qüvvəyə çevrilməsi deyil?! İşğal olunmuş Fələstinə qonşu olan və olmayan ərəb ölkələrində İslam hərəkatının və İslam baxışının kök saldığını, tərəfdar qazandığını, sağlam düşüncə, hiss və fitrət sahiblərinin mübariz İslama qoşulduğunu hiss etmələri deyil?! Heç şübhə yoxdur ki, səbəb bunlardır.[179]

İslam iqtidarı, müsəlman İran xalqının möhkəmliyi, əsrin bütqıranının uca fəryadları, daim o saleh bəndəyə və dostlarına olunan ilahi lütf və yardım inqilab düşüncəsinin düşmənin sədd çəkdiyi, yaxud zərbə vurmaq üçün nəzərdə tutduğu yollarla ixracına səbəb oldu. İran xalqının məzlumluğu və çətinliklərə dözümü bu böyük xalqın haqlılığının isbatına, bir çox ölkələrdə inqilabın əhatəsinin genişlənməsinə və dünya müsəlmanlarına daha möhkəm iradə, daha güclü İslam kimliyi hissi bəxş etməsinə bais oldu.

Bu gün qlobal hegemonizmin əlaltıları hər yerdə İslam qarşısında zəifdirlər, onların İslama qarşı mədəni, siyasi və hərbi üsullarla göstərdikləri ədavət artan İslam dalğası qarşısında zəif olduqlarını bildiklərinə və qorxduqlarına görədir.

Bu da Allahın mərhəmətindəndir ki, onların İslamı aşağılamaq, ona zərbə vurmaq məqsədi ilə atdıqları hər bir addımları müsəlmanların qəzəbinin artmasına və İslamı müdafiə iradələrinin möhkəmlənməsinə səbəb olur. Buna bariz nümunə ingiltərəli mürtəd yazıçının şeytani kitabıdır. Hegemon dövlətlər bununla İslamı zəiflətmək istəyirdilər, Allah-Taala isə əksinə, bunu onların rüsvayçlığına səbəb etdi: ümmət imamının edam fətvasından sonra müsəlmanların səsi daha ucaldı və birliyi gücləndi. Düşmənin İslam əleyhinə bütün işləri inşallah belə nəticələnəcək: "Şübhəsiz ki, Şeytanın hiyləsi zəifdir"[180].[181]

Görün bu gün Avropada, İslamı düşmən seçən və ona qarşı mübarizə aparan Qərb mədəniyyətinin mərkəzində İslam dəvəti necə həvəs və coşqu yaratmışdır. Gələcəkdə böyük peyğəmbərlərin və İslamın bizə vəd etdiyi mütləq baş verəcək: İslam özünün bütün düşmənlərinin məktəblərinə qalib gələcək.

Əgər bir zaman adi insanlara Avropanın ürəyində İslam təşkilatlarının yaranacağını desəydilər, çətin inanardılar; materialist və ateist imperiyanın dağılacağını desəydilər, çətin inanardılar; zahirdə İslam, əslində isə Qərbdən və antiislam qurumlardan asılı olan mürtəce ölkələrdə mütərəqqi İslam hərəkatlarının yaranacağını desəydilər, çətin inanardılar; İslam ölkələrinin ucqar

bölgələrində müsəlman xalqların öz iman hissləri ilə hərəkət və qiyam edəcəklərini, İslamın sözünü ucaltmaq üçün fədakarlıq göstərəcəklərini desəydilər, çətin inanardılar. Çünki qlobal hegemonizmin və şeytani istismarçılığın hakimiyyəti elə qurulmuşdu ki, mənəviyyat, din, xüsusən də İslam tamamilə səhnədən çıxmışdı. Lakin Allahın möcüzəsi baş verdi, İslam qayıtdı, öz müxaliflərini səhnədən çıxardı və çıxarmaqdadır. Bu gün dünyanın iki siyasi və iqtisadi blokundan biri olan Şərq bloku təxminən dağılmışdır və daha dünyada söhbət mövzusu deyil. Heç kim buna inanmazdı. Mən deyirəm ki, İslamın nüfuz dairəsi bundan çox-çox irəlilərə gedəcək və bəşəriyyət çox uzaq olmayan gələcəkdə Qərb hakimiyyətinin, istismarçı mədəniyyətin və bəşər həyatına hakim olan antidəyərlərin dağılmasına da şahid olacaq, bu gün Qərb bloku adı ilə dünyaya zülm və cəfa edən amil məhv olacaq. Bəşəriyyət yaxın gələcəkdə İslamın sayəsində işğalçı sionizm dövlətinin geri çəkilməyə məcbur olacağını və məzlum Fələstin xalqının öz hüquqlarını əldə edəcəyini görəcək. Bu, zamanın xüsusiyyəti və dünyada gedən proseslərin nəticəsidir. Mömin və etiqadlı müsəlmanlar özlərini hazırlayıb günümüzün İslamın inkişaf günü olduğunu, İslamın bəşəriyyətin beyninə və həyatına hakim olacağını bilməlidirlər.[182]

Bu gün İran xalqı İslamın adı ilə işləyir, çalışır, İslam üçün zəhmət çəkir, cihad edir. Allahın dini, ilahi məfhum və dəyərlər əsasında bir ictimai quruluşun formalaşması bizim dövrümüzdə baş verən möcüzədir. Maddi proqnozlara görə əsla belə bir şey gözlənilmirdi. Müsəlman xalqlar bu hərəkətə həqiqətən məftun olmuşlar. Bu, şişirtmə deyil, reallıqdır. İslam Respublikası əleyhinə aparılan bütün təbliğatlara rəğmən, biz müsəlman xalqların İslam inqilabına və İslam Respublikasına qarşı nikbin olduqlarını və həmin istiqamətdə hərəkət etdiklərini görürük. Bu gün dünyada bu hərəkətdən təsirlənməyən az müsəlman xalq tapmaq olar. Bu şövq və ümid xalqlarda o zamana qədər qalacaq ki, biz qeyd-şərtsiz imandan və Allahın dininə tam şəkildə boyun əyməkdən bir iynə ucu qədər uzaqlaşaq. Qlobal güclərlə münasibətdə də belədir, beynəlxalq məsələlərdə də, xarici siyasətdə də, ölkənin daxili məsələlərində də. Biz cəmiyyətin Allaha iman ətrafında birləşməkdən ibarət olan xoşbəxtlik sirrini öz ictimai həyatımızda və quruluşumuzda hər an gücləndirməli və qabartmalı, xalqı İslam tərbiyəsinə doğru daha çox sövq etməli, cəmiyyətin gənclərini İslama uyğun yetişdirməliyik. Bizim universitet və məktəblərimiz öz üzərlərində yalnız elmli yox, həm də müsəlman gənc və müsəlman mütəxəssis yetişdirmək vəzifəsini hiss etməlidir. Biz elə etməliyik ki, cəmiyyətdə İslam

dəyərləri mütləq dəyərlər sayılsın və onun qarşısında duran digər dəyərlər zəifləsin. Radio və televiziya proqramları bu istiqamətdə olamalıdır. Və nəhayət, dünya xalqlarının bizim xalqımızı və İslam Respublikası quruluşunu İslamın əsgəri, fədaisi tanıdıqları kimi əməl etməli və bunu sübuta yetirməliyik.[183]

Bu gün dünyanın bir çox ölkələrində sizin sözləriniz, etiqadlarınız, yolunuz, şüarlarınız, hətta inqilabi adət-ənənələriniz nümunə hesab olunur, digər xalqlar da eyni şüarları verir və eyni adətlərə əməl edirlər. Mən bir neçə il bundan öncə bizimlə böyük məsafəsi olan ucqar ölkələrdən birində zənnimcə, universitet tələbələri olan gənc qızların İranın inqilabçı qadınlarının geyiminə bənzər paltarlar geyindiklərini gördüm. Bu nəyin təsiridir? Biz oraya kimisə göndərməmişik ki, gedib qadınların bu formada geyinməli olduqlarını desin. Bu, inqilab mesajının təbii yayılmasıdır. Yəni həmin söz, şüar, etiqad və məqsədlər bu gün dünyanın bir çox ölkələrində, xüsusən də müsəlman ölkələrində mövcuddur, aktualdır, xüsusən gənclərin və həvəskar insanların diqqətini cəlb edir. Bu, hegemonizmin qorxduğu məsələdir.

Mən bu qısa söhbətdən iki nəticə çıxarıram: Əvvəla bizim xalqımızın və inqilabımızın digər xalqlarla mənəvi əlaqəsi hegemon qüvvələr üçün təhlükəli olduğuna görə onlar bu əlaqəni kəsməyə çalışırlar. Bəs bunu necə kəsmək olar? Bu bir neçə yolla mümkündür: Biri həmin xalqlara asılı və muzdur hökumətlər vasitəsi ilə təzyiq göstərməkdir. Bu təbii ki, uğurlu yol deyil. Çünki təzyiqi nə qədər artırsalar, onların İslam inqilabına və İslam quruluşuna sevgisi bir o qədər çoxalar. Başqa bir yol isə beynəlxalq media vasitəsi ilə xalqları İrandan soyutmaqdır. İnqilabın əvvəlindən indiyədək bu işi görürlər. Onlar bizi mürtəce və fundamentalist adlandırır, daim ölkəmizdə işgəncə və edamların statistikasını yayırlar. Gənclərin və insanların bəlasına çevrilmiş bir qaçaqçı cəzalandırılanda beynəlxalq media siyasi müxaliflərin öldürüldüyünü bildirir, dünya supergüclərinə bağlı olan dırnaqarası Beynəlxalq Amnistiya Təşkilatı əyləncə üçün olsa belə, arabir İranda edam, işgəncə, qətl və həbslərin sayına dair siyahi nəşr edir və düşmənlərimizin hazırladığı statistikaları yayır. Məqsəd odur ki, müsəlman və qeyri-müsəlman ölkələrin xalqları bu sözləri eşidib İran xalqına və İslam hökumətinə qarşı pis fikrə düşsünlər. Bu da inqilabın əvvəlindən indəyədək görülən işlərdəndir. Daha pis və təhlükəli bir yol da budur ki, digər xalqlarla əlaqə fikrini bizim öz beynimizdən çıxarsınlar və əlaqələrin bizim tərəfimizdən kəsilməsinə nail olsunlar. İran xalqına təlqin edirlər ki, siz özünüz haqda düşünün, digər xalqlarla, dünya ilə nə işiniz var, özünüzlə məşğul olun,

quruculuq işləri görün və problemlərinizi aradan qaldırın. Bu hamısından təhlükəlidir və bəzi sadəlövh insanlarda təsir buraxması mümkündür. Halbuki inqilabçı bir xalqın problemləri müxtəlif amillərlə aradan qalxır və onların biri də belə beynəlxalq dəstəklərdir. Bizim problemlərimizin bir çoxu düşmən tərəfindən yaradılmışdır. Düşmən problemləri iqtisadi blokada ilə, təzyiqlə, müharibə ilə və bir sıra belə işlərlə yaradır. İran xalqı problemlərini aradan qaldırmaq istəyirsə, yalnız sərhədlər daxilində öz ətrafına fırlanıb düyünləri bir-bir açmağı yetməz. Düşmənə qarşı mübarizə aparmaq üçün onun xaricdə və qlobal cəbhədəki təxribatlarını da zərərsizləşdirmək lazımdır. Bunun ən yaxşı yolu xalqların ictimai rəyindən ibarətdir. Odur ki, biz bu tərəfdən əlaqəni kəsməməliyik. Təbii ki, düşmən bunun üçün təbliğat aparır. Deyilənlərə əsasən, birinci məsələ budur ki, xalqımızın və inqilabımızın dünyanın digər xalqları ilə mənəvi əlaqəsi faydalı, lazımlı, zəruridir və düşmən bunun kəsilməsini istəyir.

Demək istədiyim ikinci məsələ isə budur ki, İran xalqı digər xalqlar tərəfindən həmişə sevilib qəbul olunmasını istəyirsə, daxildə özünün inqilabçı şəxsiyyətini, rəftarını və simasını qorumalıdır. Sizi xalqların gözündə böyüdən amil ilk növbədə birliyinizdir. Bu birliyi qoruyun. Bu çox dəyərli amildir. Bir olan xalq digər xalqlara örnək olur. İkinci amil isə sizin cəsarətiniz və düşmənlərdən qorxmamanızdır. Siz bunu müharibədə, inqilabda və müxtəlif hadisələrdə sübut etmisiniz. Bunu da qorumanız lazımdır; necə ki, Allahın lütfü ilə indiyədək qorumusunuz. Üçüncüsü isə xalqla məmurlar arasında sıx və güclü birlik və əlaqədir. Bu, dünya üçün çox cəlbedici bir amildir. Başqa ölkələrdə başçıların və məmurların öz xalqları arasında bu qədər sevilməsi nadir hallarda görünür.[184]

**2- İslam inqilabı - din, mənəviyyat və İmam Xomeyni əsrinin başlanğıcı**

1967-ci ildə İranda başlayan din və ruhani hərəkatı əvvəldə dünyanın diqqətini çox da cəlb etmədi, lakin analitik və müşahidəçilərin gözlədiyinin əksinə olaraq, onun həcmi, məzmunu və əhatə dairəsi günbəgün genişləndi, gözlənilmədən dünyanın bir nöqtəsində partlayışla nəticələndi. O zaman qlobal güclər indiyədək bu fenomeni yanlış dəyərləndirdiklərini anladılar, buna çarə qılmağa çalışdılar, amma bacarmadılar. Bu hadisə baş verəndə dünyada heç kim onun əhəmiyyətini dərk etmədi. Hətta 15 Xordad hadisəsi baş verəndə və məlum qırğınlar törədiləndə də dünyada əks-səda doğurmadı; nə kimisə çox ümidləndirdi, nə də kimisə qorxutdu; sonra bir qığılcım kimi söndüyünü düşündülər. Sanki bir talaşa, saman, çubuq və ya karton tez alışır, bir neçə

andan sonra da sönür. Hamı onun bitdiyini düşünür, lakin onun altında çox qalın və quru odunların olduğunu bilmir. Odunlar heç kim bilmədən alışır və hər an uzun müddət yanan alov istehsal edir. Bu alovlar 11 Fevral inqilabı və İslam Respublikasının yaranması ilə nəticələndi. Gözlənilmədən din və mənəviyyat əsasında analoqu olmayan bir quruluş meydana çıxdı. Yəni bu quruluş yarananda din və mənəviyyat düşmənləri üçün artıq gec idi. Onlar nə qədər zərbə vurdularsa, zülm etdilərsə, onun dünyadakı mənəvi nüfuzu və müsəlmanların ona diqqəti daha da artdı, müxtəlif yerlərdə alovlar baş qaldırmağa başladı. Onların bəzilərinin bəlkə heç özləri də haradan qaynaqlandığını bilmirlər. Afrikada və Şimali Afrikanın fransızdilli bölgələrində hansı hadisələrin baş verdiyini xəbərlərdə gördünüz və eşitdiniz. Təəssüf ki, avropalılar orada çoxlu mədəni işlər də görmüşlər. Mən oranın xalqının vəziyyətini və müsəlmanlığını yaxından görmüşəm. İslam dünyasının şərqində - Hindistanda, Kəşmirdə və Şərqi Türküstanda da müsəlmanların hisslərini görürsünüz. Daha iş-işdən keçmiş, sona çatmaqda olan proses dayanmışdır. Biz bu prosesin sonunu yaşadıq: "Sonra sizi yer üzünün varisləri təyin etdik"[185]. Biz düzgün hərəkət etsək, əməlimiz, qərarımız, qətiyyət və iradəmiz bu yolu təsvir, onun həmişəyaşarlığını və sağlamlığını təmin edə biləcək. Və bu zaman dünya dəyişəcək, mənəviyyat öz haqqını əldə edəcək.[186]

İranda İslam inqilabının qələbəsi, İslam quruluşunun yaranması və xalqımızın inqilabı və İslamı müdafiə etmək üçün öz əzəmətli rəhbərinin arxasında uzun mübarizələr aparması ilə dünyada fərqli xüsusiyyətlərə malik olan yeni bir dövr başlandı. Dünyanın maddi gücləri istəsələr də, istəməsələr də, Amerika istəsə də, istəməsə də, dünyada bu dövr başlanmışdır və davam edəcək. Bu yeni dövrün təsirləri həm zəif xalq və hökumətlər, həm də qüdrətli dövlətlər və böyük güclər üzərində hiss olunur. Bəşər tarixində yeni dövr başlayanda heç kəs özünü onun təsirlərindən kənara çəkə bilməz. Keçən dövrlər də belə olmuşdur. Heç kəsin özünü dünyada güclü ilahi və insani təməllərlə başlayan bir dövrün təsirlərindən uzaq saxlaması mümkün deyil. Biz bunu elan etmək istəyirik. Yer üzünün bir çox xalq və hökumətlərinin bu yeni dövrün təsiri altına düşməsinə və hətta dünyanın siyasi xəritəsinin dəyişməsinə baxmayaraq, biz dünyanın güclü siyasi analitiklərinin bu dövrün başlanmasını etiraf etmələrini gözləmirik. Onlar yeni dövrün başlanmasını etiraf etməzlər, lakin bu dövrün təsiri altına düşmüşlər və onu hiss edirlər. Bu yeni dövrü İmam Xomeyni dövrü adlandırmalıyıq.

Bu dövrün heç zaman ayrılmayacaq bir neçə xüsusiyyəti vardır. Bu xüsusiyyətlərdən biri dini etiqad və inancların yayılmasıdır. Beynəlxalq hegemon sistemin siyasəti bu idi ki, dini və mənəviyyatı bütünlüklə xalqların həyatından çıxarsın, bəşəriyyəti dinsiz, imansız və ilahi dəyərlərə etiqadsız bir varlıqa çevirsin. Bu yeni dövrdə isə həmin siyasətlərin tam əksi baş vermişdir. Xalqlar yalnız İranda və İslam ölkələrində dini inanclara qayıtmadılar, hətta dünya miqyasında və on illərlə dinin ziddinə yaşamış cəmiyyətlərdə də dinə etiqad və mənəvi təmayül artmışdır. Bu hərəkətin gələcəyi belə olacaq: harada mənəviyyat daha güclü, daha saf, daha sağlam və bəşər fitrətinə daha yaxın olsa, xalqlar tərəfindən daha çox seviləcək. Din və mənəviyyatın antidəyər sayıldığı, ələ salındığı dövr artıq bitmişdir.

Bu gün dinsizlik, imansızlıq və mənəvi etiqadsızlıq bir antidəyərdir. Dünyanın çoxlu yerlərində bu iş baş vermişdir, qalan yerlərdə də baş verəcək. Bu, yeni dövrün xüsusiyyətlərindəndir. Bu böyük insan (İmam Xomeyni) dünyada bu dövrün bayrağını ucaltdı, heç kəsin inanmadığı halda ona çağırış etdi və ürəklərə yol tapdı.

Bu yeni dövrün başqa bir xüsusiyyəti insanların dəyərinə, xalqların güclü roluna məna və məzmun verməkdir. Bizim imamımızın vasitəsi ilə başlayan və əhatə dairəsi İranla məhdud olmayan yeni dövrdə xalq hadisələri yönəldən əsas amil və qərar sahibidir. Keçmişdə xalqın iştirakı ilə baş verən, lakin sonra vəziyyətləri dəyişən çoxlu inqilablar olmuşdur. İkinci dünya müharibəsindən sonra on illərlə dünyaya hakim olan qüvvələr bütün dünya xalqlarını öz istəklərinə təslim olmağa, qlobal güclərin iradəsi qarşısında danışmamağa və fərqli iradə göstərməməyə vərdiş etdirmişdilər. Bu gün belə bir dünyada siz birdən-birə Şərqi Avropa ölkələrində milyonlarla insanın bizim müsəlman xalqımızın şah rejimi ilə mübarizəsində olduğu kimi meydana çıxdığını və eyni üsulla hərəkət etdiyini görürsünüz. Başqa sözlə desək, bu yeni dövrün və yeni əsrin insani səciyyəsi qanın xəncərə qələbəsindən ibarətdir. Bu yeni dövrdə İranda olduğu kimi, xalq silaha sarılmadan yalnız boş əllə meydana çıxır, işğalçı və zalım hökuməti pis vəziyyətə salır. Bu üsul bu gün dünyada tanınmış bir üsuldur. Silahsız kütlələrin gücü bu gün dünyaya bəlli olmuşdur. Bundan sonra bütün supergüclər bilsinlər ki, bizim xalqımız öz müqaviməti ilə bu iddiaların doğruluğunu təsdiqlədi. Bizim inqilabımızın özünəməxsus xüsusiyyətləri vardı və dəfələrlə bəyan olunmuş bu xüsusiyyətlər ilk dəfə bir inqilabda görünürdü: İslama arxalanmaq, məqsədlilik, İslam hakimiyyəti, mövcud siyasi anlayışlara, o cümlədən azadlıq, müstəqillik, ictimai ədalət anlayışlarına yenidən baxmaq, İslam dəyərlərinə söykənən bir dünya və cəmiyyət qurmağa çalışmaq. Onlar

bilsinlər ki, dünyanın heç bir yerində xalqın milyonluq izdihamının istəyi olmadan hakimiyyətdə qalmaq mümkün olmayacaq. Bu dalğa dünyaya nə qədər çox yayılsa, qanunsuz, zülmkar və antiinsani hökmranlıqların vəziyyəti bir o qədər ağırlaşacaq. Bu, bizim böyük imamımızın bu xalqın ayıqlığı və imanı sayəsində İranda gördüyü və dünyaya örnək göstərdiyi hərəkətdir...

Bizim xalqımız özünün böyük və müstəsna rəhbərinin arxasınca bu yeni yola qədəm qoyan və o dövrün təməllərini möhkəmlədən ilk xalq idi.[187]

İndi bəşər sivilizasiyası bir ölkənin fəqihin rəhbərliyi, yəni din və təqva hakimiyyəti ilə idarə olunduğunu görür. Bu, müxtəlif bəşəri quruluşları təcrübədən keçirib heç birində özünün əsaslı dərdlərinə dərman tapmayan bəşəriyyət üçün mühüm və həlledici bir sınaqdır. Bizim hamımız yadda saxlamalıyıq ki, bu müqəddəs quruluş insanların cismini və canını rahatlığa qovuşdura, yoxsulluğu, cəhaləti, imansızlığı, ayrıseçkiliyi və ədalətsizliyi aradan qaldıra və dünya miqyasında bəşərin belə xroniki dərdlərinə qarşı mübarizəyə qalxa bilsə, tarixə ən böyük xidməti etmiş, onlara yeni yol açmış olar. Bunun üçün rəhbərdən tutmuş adi məmurlara qədər hər bir şəxsin öz vəzifəsi qədərincə bir an da mübarizədən dayanmaması, heç bir təhdidi maneə saymaması və heç bir təhrikə təslim olmaması lazımdır.[188]

Bu dövr Quran dövrüdür. İntibah və çiçəklənmə əsrlərindəki uğursuz təcrübələrdən, bəşərin özünə elmin sürətli və heyrətamiz inkişafına uyğun təsəlliverici həyat sistemi qura bilməməsindən sonra yollar tədricən tövhid və din yoluna yönəlməyə başlamışdır. Get-gedə püxtələşən insan elmi çiçəklənmənin əvvəllərində yaranmış cahilanə qürur çağında unutduqlarını yenidən yada salır. Bu elə bir dövrdə baş verir ki, dünyanın bir nöqtəsində din hakimiyyətə gəlmiş, möhtəşəm və müstəsna bir inqilabla milyonlarla insanın idarəsini üzərinə götürmüşdür. Deməli, Quranın insanların düşüncə və əməlini istiqamətləndirməkdə öz qüdrətini və məharətini göstərməsi üçün bu gün tarixi və müstəsna bir fürsət yaranmışdır.[189]

Bu gün materialist analitiklərin xəstə beyinləri son on ildə baş verən İslama dair hadisələri dərk və təhlil etməyə aciz olsalar da, müstəmləkənin müsəlman ölkələrindəki 200 illik fəaliyyətindən, İslamı bu ölkələrin əhalisinin həyatından, hətta beynindən və qəlbindən çıxarmaq üçün minlərlə uğurlu üsulundan və ən önəmlisi, müstəbid güclərin və onların əlaltılarının əsrlərlə yanlış maarifləndirməsindən, saray ruhaniləri vasitəsi ilə dində əmələ gəlmiş

saysız-hesabsız təhriflərdən, onun təmizliyini və səmimiliyini sıradan çıxarandan, təsirsir bir dərmana, cansız bir bədənə çevirəndən sonra bu gün İslam müsəlman vətənin qəlbində yenidən qol-qanad açmış, öz mərhəmət kölgəsini bütün İslam dünyasına salmış, günəş kimi müsəlmanların qəlbinə işıq saçmış, onlara ruh, ümid və həvəs bəxş etmişdir. Materialist analitiklər bunun səbəbini anlaya bilmirlər.

Tədricən unudulmaqda olan, dərdli və taqətsiz insanların qəlbində heç bir ümid yaratmayan İslam necə oldu ki, müsəlman xalqların, xüsusən də gənclərin, ayıq və qayğıkeş insanların yeganə ümidinə çevrildi?!

Bəli, bu heyrətamiz hadisələrin düzgün dərki və təhlili İslamın həqiqətinə yad və onun tarixindən xəbərsiz beyinlərə imkansız olsa da, ayıq adamlar üçün cavab bir kəlmədədir: inqilabın möcüzəsi.

Dövrün böyük xilaskarı olan həzrət İmam Xomeyninin rəhbərlik etdiyi İran İslam hərəkatı böyük peyğəmbər, son elçi, aləm və adəmin yaranışının zirvəsi olan həzrət Məhəmməd Mustafanın (s) yolu ilə gedərək tam bir inqilab şəklində meydana çıxdı. İnqilabın xüsusiyyəti belədir ki, düzgün və məntiqli təməl üzərində ucalsa, vulkan olub mühitin bütün sütunlarında zəlzələ yaradacaq, hər şeyi, hər yeri və hər kəsi öz hərarəti və şüası ilə təsirləndirəcək. Ötən 150 ildə müxtəlif amillər səbəbindən qiyam etmiş, İslam dəvətini, dirçəlişini və təfəkkürünü bayraq etmiş mütəfəkkirlərin və müsəlman islahatçıların, məsələn, Seyid Cəmaləddinin, Məhəmməd İqbalın və digərlərinin bütün dəyərli xidmətlərinə baxmayaraq, işlərində böyük bir nöqsan olmuşdur. Onlar İslam inqilabı etmək yerinə İslam dəvəti ilə kifayətlənmiş və müsəlman cəmiyyətlərini inqilabla yox, maarifləndirici fəaliyyətlərlə, yalnız qələm və dillə islah etməyə çalışmışlar. Bu üsul əlbəttə ki, bəyənilən və savabdır, lakin ondan tarixin əsas dönüşlərinin qurucuları olan ululəzm peyğəmbərlərin əməlinin nəticəsini gözləmək olmaz. Onların işi siyasi və mənəvi eyiblərdən uzaq durub düzgün olduğu təqdirdə bir inqilabi hərəkətə yalnız şərait yarada bilər, vəssalam. Buna görə də bu ixlaslı qrupun yorulmaz fəaliyyətləri müsəlman xalqların əks istiqamətə və tənəzzülə doğru hərəkətini saxlaya, onların söz və arzuları ah çəkib, göz yaşı tökdükləri qüdrət və ucalığı müsəlmanlara qaytara, hətta müsəlman xalqlarda İslam etiqadını və inancını gücləndirə, onlardan uyğun məqsədlərlə istifadə edə və yaxud İslamın coğrafiyasını genişləndirə bilmədi. Bu, böyük İslam Peyğəmbərinin (s) üsulundan uzaqdır. Əzəmətli Peyğəmbərin (s) besət və hicrət tarixini bir qədər bilən hər bir kəs üçün bu məsələ aydındır.[190]

Hazırkı əsr böyük islahatçılar əsridir. Ötən əsrin ortalarından indiyədək nə qədər böyük islahatçı, inqilabçı və siyasətçi meydana çıxmış, dünyada, yaxud onun bir hissəsində böyük hərəkatlar yaranmışdır. Biz bu hərəkatları tanıyırıq. Onların heç biri bu böyük hərəkatla və qlobal mənəvi renessansla müqayisəedilləsi deyil.

On illərlə dinin rəsmən cinayət sayıldığı, qadağan olunduğu, qüvvədən və dəbdən düşmüş qədim və zərərli bir şey sayıldığı, kənara atıldığı və baxılmadığı ölkələrin parlamentlərində Allahın adı çəkildi və çıxışlar "Bismillah"la başlandı. Bu, kiçik məsələ deyil. Materialist dünyada mənəviyyat və İslam bayrağı ucalmışdır. Bunlar kiçik məsələlər deyil.[191]

Peyğəmbər və övliyaların bütün arzuları siz İran xalqının əli ilə həyata keçə bilər. İlahi peyğəmbərlərin bütün böyük amalları – bütün dünyada ədalətin bərqərar edilməsi, məzlumların xilası və beynəlxalq miqyasda zülmün sona çatması reallaşa bilər. Əlbəttə, Allahın vədi haqdır: beynəlxalq ədalət yalnız həzrət İmam Mehdi (ə) tərəfindən həyata keçəcək. Bunda şübhə yoxdur. Lakin mömin və mübariz bir xalq belə bir hökumətə şərait yarada bilər. Necə ki, İran xalqı indiyədək bunu bacarmış və çoxlu problemlərə üstün gəlmişdir.[192]

Dövrümüz böyük hadisələr dövrüdür. Həm dünyada, həm də öz ölkəmizdə çox böyük hadisələr baş verdi. Birincisi olduqca böyük hadisə olan bu inqilabın özü, digəri İslam Respublikasının, yəni əxlaqi dəyərlər, din və mənəviyyat əsasında bir quruluşun yaranmasıdır. Bütün dünyanın və bütün hegemon cəbhənin mənəvi və əxlaqi dəyərləri cəmiyyətdən təcrid edib tamamilə unutdurmağa çalışdığı bir şəraitdə mənəvi dəyərlərə əsaslanan bir quruluşun yaranması həqiqətən böyük hadisədir və möcüzəyə bənzəyir. Bu xalqın özünün zəif, təslimçi və zülmə göz yuman bir vəziyyətdən çıxıb möhkəm, şücaətli və etirazçı bir xalqa çevrilməsi və baş verən böyük dəyişiklik möhtəşəm bir şey idi. Öz dövrümüzdə və ölkəmizdə bu növ möhtəşəm hadisələrdən çox görürük.[193]

Bu inqilab bütün müsəlman xalqların arzusu idi. Əgər İslam tarixi boyu bütün islahatçıların, mütəfəkkirlərin və azadlıqsevər insanların İslam və müsəlmanlar üçün belə bir günü arzuladığını desək, mübaliğə etmiş olmarıq.

On illər boyu İslamın bəşər həyatından tamamilə çıxması üçün nə qədər pul xərcləndi, nə qədər düşünüldü, nə qədər cinayət törədildi və nə qədər yalan təbliğat aparıldı! Bizim inqilabımız isə İslam düşmənlərinin və şeytanların

planını pozdu. Bu gün İslam xalqları oyanmışlar. Bu gün dünyanın bir çox müsəlman ölkələrində İslam hərəkatları güclənmişdir. Bu gün İslam inqilabı və İslam hərəkatı böyük milli, ictimai və siyasi bir dəyər sayılır. Bu gün iş elə bir yerə çatıb ki, hətta İslamı sevməyənlər də dövrün tələbini nəzərə alıb İslamdan dəm vururlar. Bu gün İslam uca tutulur.[194]

Bugünkü dünya yalan dünyası, güc dünyası, ehtiras dünyası, maddi dəyərləri mənəvi dəyərlərdən üstün tutma dünyasıdır. Bu həm də bu günə məxsus deyil, əsrlərdir dünyada mənəviyyat tənəzzülə doğru gedir. Hakim qüvvələr mənəviyyatı məhv etməyə çalışmışlar. Dünyagir güc sahibləri və oliqarxlar dünayada elə bir maddi quruluş yaratmışlar ki, onun başında hamıdan yalançı, hiyləgər, insani dəyərlərə etinasız və insanlara rəhmsiz olan ABŞ kimi bir qüvvə dayanır. O, başda durur, dostları da növbəti yerlərdə. Dünyanın vəziyyəti belədir. İslam inqilabı İslamı yenidən diriltmək, "Allah yanında ən əziz olanınız ən təqvalı olanınızdır"[195] sözünü yaşatmaq deməkdir. Bu inqilab dünyanın bu yanlış düzənini pozub yenisini yazmağa gəldi.[196]

Dini və islami bir inqilabın qələbəsi, dinə dayanıqlı siyasi və ictimai bir quruluşun yaranması sayəsində beynəlxalq aləmdə möhtəşəm bir tendensiya baş qaldırdı: xalqlar dini məsələlərə - İslama və ya digər bir dinə yenidən baxmaq fikrinə düşdülər. Sonralar da inqilabımızın vasitəli təsiri nəticəsində materialist təfəkkürün təməlləri sarsılmağa başladı. Materializmi və ateizmi ictimai bir quruluş və məktəb formasına salmış, güclü şəkildə bütün dünyaya çoxlu söz və iddia təqdim etmiş və özünü cəmiyyəti idarə etməyi bacaran yeganə qüvvə kimi göstərmiş sistem çökdü. Bu təfəkkür və məktəb on illərlə hər bir mənəvi düşüncə, əməl və əxlaq qarşısında maneəyə çevrilmişdi.

Bu təfəkkür buz imarət kimi bütünlüklə əridi; Bəni-Üməyyə ilə Mənsur Abbasinin əhvalatında duz daşlardan düzəldilmiş bina kimi. Bu bina zahirdə daş görünürdü, əslində isə duz idi, su vuranda əriyib-töküldü. Bu səs-küylü fırtına yatandan sonra mənəviyyat özünü göstərməyə başladı. Bəlli oldu ki, mənəviyyatın və dini təfəkkürlərin, xüsusən də İslam təfəkkürlərinin inkişafı hətta o tozanaqda da dayanmamışdı. Onlar bu kimi məsələlərin kökünü kəsməyə, onlardan heç bir əsər-əlamət qoymamağa çalışdığı halda bu öz inkişafını davam etdirmiş, lakin fırtınalar, tozanaqlar və qalmaqallar həqiqətlərin aydın görünməsinə mane olmuşdu. İndi həmin dəlisov qalmaqallar yatandan sonra həqiqətlər özünü göstərir.[197]

### 3- İran İslam Respublikası - qlobal İslam hərəkatının mərkəzi

Bu gün İslam dünyasının mühüm məsələlərindən biri şeytan cəbhəsinin, xüsusən də böyük şeytanın İslamla, İslam anlayışları və etiqadları ilə kinli və dəlisov düşmənliyidir. İslamla planlı və hərtərəfli düşmənlik müstəmləkə ilə eyni vaxtda başlasa da, İslam ölkələrini qarət, istismar, qırğın və təcavüz obyektinə çevirdikləri son əsrlərdə müstəmləkəçilər İslama öz fitnələri qarşısında möhkəm sədd və maneə gözü ilə baxsalar da, onu güclü siyasi və mədəni hücumlara məruz qoysalar da, müsəlmanları Qurandan və İslamdan ayırmaq proqramını öz şeytani məkrləri ilə, o cümlədən fəsad və pozğunluğu yaymaqla icra etsələr də, İslam inqilabı vulkanının onların ümid xırmanlarına od vurduğu, müsəlmanların qəlbində ümid işığı yandırdığı və İslamın yeni həyatına müjdə verdiyi zamandan hegemon qüvvələr yaralanmış canavar kimi İslam əleyhinə hərtərəfli, tələsik və dəlisov hücuma keçdilər; təbii ki, bu gözlənilirdi də. Onların məğlubiyyət və rüsvayçılığına dair ilahi qanunlar inşallah mütləq həyata keçəcək. Quran buyurmuşdur: "Kafirlər Allahın vədi (Məkkənin fəthi) yerinə yetənədək etdikləri əmələ görə onlara bir bəla üz verməkdə davam edəcək".[198] Bu şərtlə ki, İslama iman bəsləyənlər bu təxribatlar qarşısında vəzifələrini bilsinlər və onlara əməl etsinlər.

Bəllidir ki, ötən on ildə İslam əleyhinə görülən bütün işlərin əsas hədəfi İslamın mərkəzi və qlobal İslam hərəkatının avanqardı olan İslam Respublikası sayılır. Bu on ildə İran xalqı əslində İslama və onun böyük inqilabi qüvvəsinə doğru tuşlanan müxtəlif zərbələrə hədəf olmuşdur. Səkkizillik müharibə, iqtisadi blokada və İslam Respublikası əleyhinə saysız-hesabsız siyasi, iqtisadi və informasiya hücumları əslində İslama təzyiq və düşmənlik məqsədi ilə baş verdi. Biz fəxr edirik ki, öz əziz gövhərimiz olan Allaha iman və İslama əməl səbəbindən illərlə qlobal güclərin dəlicəsinə qəzəbinə və yırtıcı intiqamına məruz qalmış və bəlaya sipər olmuşuq. Bəli, "Onlardan (möminlərdən) yalnız yenilməz qüvvət sahibi, (hər cür) şükrə layiq olan Allaha iman gətirdiklərinə görə intiqam alırdılar"[199].[200]

İslam və müsəlmanların bugünkü ümumi oyanışının böyük sirri bu idi ki, bu hərəkətin mərkəzində, yəni müsəlman İranda gözəl İslam ağacından növbəti səmərəli inqilab bitdi, onun məhsulu olan İslam Respublikası rəhbərin və xalqın İslam inancından ibarət möhkəm bünövrə üzərində düzgün yolda və istiqamətdə qaldı, şeytanların təhriki, qəzəb və ədavət xəncəri ona təsir etmədi, qüdrətli və başıuca məzlumluqla öz nurlu çöhrəsini bütün dünyaya göstərdi, yaşaması, müqaviməti və möhkəmliyi ilə İslamın təbliğatçısı oldu.

Əsl İslam gözəl xüsusiyyətləri ilə qərəzliliyə və kin-küdurətə bulaşmayan qəlbləri özünə cəlb edir. Bizim inqilabımız və imamımız bunu dünyada yenidən gündəmə gətirdi, ehtiyaclı və araşdırıcı insanlara təqdim etdi. Əsası imamımız tərəfindən qoyulan inqilab məktəbində Əbu Süfyan və Mərvan İslamına, məzmunsuz mərasimlər İslamına, qızıl və gücün xidmətində duran İslama, xülasə, böyük güclərin əlində alət və xalqların canına bəla olan İslama son qoyuldu, Quran və Məhəmməd (s) İslamı, əqidə və cihad İslamı, zalıma düşmən və məzluma yardımçı olan İslam, firon və qarunlarla vuruşan İslam, xülasə, zalımları məhv edib məzlumların hakimiyyətini bərpa edən İslam meydana çıxdı.

İslam inqilabında kitab və sünnə İslamı xurafat və bidət İslamını əvəz etdi; cihad və şəhadət İslamı sükut, əsarət və zillət İslamını əvəz etdi; bəndəlik və məntiq İslamı eklektik və cahil İslamı əvəz etdi; dünya və axirət İslamı dünyagirlik və tərki-dünyalıq İslamını əvəz etdi; elm və bilgi İslamı fanatizm və qəflət İslamını əvəz etdi; dindarlıq və siyasət İslamı laqeydlik və biganəlik İslamını əvəz etdi; qiyam və əməl İslamı halsızlıq və passivlik İslamını əvəz etdi; fərd və cəmiyyət İslamı formal və təsirsiz İslamı əvəz etdi; məhrumların xilaskarı olan İslam supergüclərin əlində oyuncaq olan İslamı əvəz etdi; xülasə, əsl Məhəmməd (s) İslamı Amerika İslamını əvəz etdi. İslamın bu formada, bu reallıq və ciddiliklə ortaya qoyulması İranda və bütün müsəlman ölkələrində İslamın məhvinə çalışan, yaxud ondan təkcə məzmunsuz adın qalmasını, insanları axmaq və qafil saxlamaq üçün bir vasitə olmasını istəyən şəxslərin iztirab dolu dəlisov qəzəbinə səbəb olmuşdur. Onlar bu səbəbdən inqilabın qələbəsindən bu günədək İslam Respublikasına və qlobal İslam hərəkatının mərkəzinə - yəni İrana qarşı hücuma keçmək, zərbə vurmaq, təxribat aparmaq və bədxahlq etmək üçün heç bir fürsəti əldən verməyiblər.[201]

Din insanların qəlbində möhkəmdir, yetər ki, ona istiqamət verib üzərindən tozları təmizləsinlər, yanlış fikirləri xatırlatsınlar. Düşmənlər bundan qorxurlar. Onlar bu amilin ABŞ-ın, onun quyruq və əlaltılarının bugünkü fəsadlı həyatına, mütləq hakimiyyətinə və tağut hökmranlığına güclü zərbə vurduğunu bildiklərinə görə bundan qorxurlar. Onlar bu hərəkətin mərkəzinin İran olduğunu anlamış və hiss etmişlər. Bilin ki, bu gün özlərinin bütün qüvvələrini İslam Respublikasını məğlub etməyə səfərbər etmişlər. Bu məqsədlə görə bilib görmədikləri heç bir iş yoxdur. Bu işlərin mərkəzi də ABŞ-dır. Onun İrana zərbə vurmaq üçün yollar axtararkən gərginliyi və çaşqınlığı insanda təəccüb,

həmçinin hadisələri düzgün izləyən və əllərinin bir yerə çatmadığını görən şəxsdə sevinc doğurur.[202]

Qlobal hegemonizm və onun ən çirkin nümayəndəsi olan zalım ABŞ hökumətinin problemi yalnız İran bazarını, yaxud ölkəmizin sərvətlərini itirməsi deyil. Sözsüz ki, bu da var; çünki dünyanın kapitalist quruluşları üçün pul, sərvət və maddi maraq hər şeydir, amma məsələ bununla bitmir. Bu, məsələnin bir hissəsidir. Əsas məsələ budur: hegemonizm görür, gələcəyə baxır, anlayır və bilir ki, xalqın iman və duyğularına arxalanan bu güclü və mömin İslam hərəkatı bu şəkildə inkişaf etsə, Amerikanın, onun müttəfiq və muzdurlarının hegemonizm gücünün davam etməsi müşkül və hətta qeyri-mümkün olacaq. Onlar haqlıdırlar. Biz də bunu gizlətmirik. Əlbəttə, dünyada İslam hərəkatının formalaşmasında və başlanmasında bizim təşkilatçılıq etmək və proqram hazırlamaq kimi birbaşa və ya dolayı rolumuz olmayıb və yoxdur. Burada işi görən İslamdır. İran xalqı gözəl həyat bəxş edən mübarizə İslamının – tağut və Amerika İslamının yox, Allahın düşmənlərinə təslim olmayan İslamın, əziz imamımızın dediyi kimi, əsl Məhəmməd (s) İslamının bayrağını ucaldıb möhkəm saxlamasının və qorxmamasının özü dünyanın müsəlman xalqlarında ümid yaradır. Burada bizim üzərimizə böyük vəzifə düşür. İndiyədək dediklərim dünyanın vəziyyəti və dövrün həssaslığı haqda idi. Bu həssaslığı biləndən sonra bizim və hamıdan çox siz gənclərin vəzifəsi ağırlaşır.[203]

Məsələ yalnız bundan ibarət deyil ki, bir ölkədə xalq zalım, asılı, kölə və azğın bir rejimə qarşı qiyam etmiş, onu devirmiş və istədiyi yaxşı bir quruluş yaratmışdır. Məsələ bunlardan çox üstündür. Mən iddia etmirəm ki, İran xalqı bu mübarizəyə başladığı ilk gündən bu gün qarşısında olan uca məqsədi və üzərinə düşən böyük vəzifəni dəqiqliklə bilirdi. Qəti olan budur ki, xalq zalım, azğın, asılı və kölə xislətli Pəhləvi rejimindən və bu səbəbdən ölkədə yaranmış problemlərdən cana gəlmişdi, İslama eşq və İslam dəvətinə sevgi onu meydana çıxardı, o da həmin azğın və antiislam rejimi bütün quyruqları ilə birgə ölkədən qovdu, xalqın böyük imamının və rəhbərinin təklif etdiyi İslam quruluşunu bərqərar etdi. Xalq bunu anlayıb uğrunda can verdi, qan verdi, mübarizə apardı. Bu qədəri qətidir. İslam Respublikası yaranandan sonra məsələ beynəlxalq miqyasda olduqca genişləndi, dünya xalqları, xüsusən də müsəlmanlar birdən-birə İran xalqı və birmilyardlıq müsəlman toplumu ilə ortaq dərdlərinin olduğunu hiss etdilər. O dərd öz köklərindən uzaq düşmələri, həyatlarının bütün

sahələrinə təsir göstərən, həyatlarını məhv edən hegemon bütlərin əlində qalmaları idi.

Böyük İslam ümməti İranda İslam inqilabının qələbəsindən sonra bu ayıqlığı geniş şəkildə əldə etdi. Bunun nəticəsində İslamla və konkret olaraq İslam Respublikası ilə düşmənlik ozamankı hegemon qüvvələrin - yəni Şərq və Qərb supergüclərinin əsaslı proqramlarından birini təşkil etdi. Onlar İslam quruluşunun xalqlara təsirini sıfra endirmək qərarına gəldilər və bu onlara problem yaratdığına görə bəlli düşmənliklər başlandı.[204]

Siz tarixdə heç bir haqq dəvət tapa bilməzsiniz ki, onun sahibi şeytan və tağutlarla mübarizə aparmamış, tağut, şeytan və hegemonlar da ona qarşı ədavət, qəzəb və nifrət göstərməmiş olsunlar. Bu gün dünyada qlobal hegemonizmin bütün səyləri beynəlxalq istismarçı sistem əleyhinə ucalan hər bir səsi anında boğmaq üzərində mərkəzləşmişdir. İslam inqilabı qələbə çalanda İslamın səsi bu zalım sistem əleyhinə ucalan ən güclü və ən etimadlı səs oldu. Odur ki, bu gün düşmən və tağutların ən böyük məqsədi İslamın səsini boğmaqdır.

İnqilabın qələbəsindən ötən bu 10-11 ildə qlobal hegemonizmin siyasi, hərbi, iqtisadi, mədəni və media qurumları İslam dəvətinin, xüsusən də onun inqilabçı yönünün mərkəzi olan İran əleyhinə fəaliyyət göstərdiyi qədər heç bir qüvvə əleyhinə fəaliyyət göstərməmişlər.[205]

Bu gün bəşəriyyətin düşmənlərinin, yəni başında şeytan ABŞ dövlətinin və sonra digər şeytan güclərin durduğu hegemonizmin insani dəyərlərə nələr etdiyini görürsünüz. Bilirsiniz ki, bəşəriyyəti pozğunluğa çəkir və bütün mənəvi dəyərləri ələ salırlar.

Bu gün İslam Respublikası quruluşu mənəviyyat bayrağını ucaltdığından, İslam yolu ilə getdiyindən, İslam və İslam dəyərləri üçün çalışdığından onların qəzəb və nifrətinə tuş gəlir. Bəzən insan onların İslam və mənəviyyatla nə üçün bu qədər düşmən olduqlarına təəccüb edir. Özlərinin zəhərli, yalançı və böhtan dolu təbliğatları ilə İslam Respublikasını dünya xalqlarının gözündə pis göstərməkdən ötrü nə üçün bu qədər pullar xərcləyirlər? Nə üçün İslam Respublikası əleyhinə təbliğata bu qədər ehtiyac duyurlar? Çünki onların əks-təbliğatı olmasa, İslam Respublikası quruluşu bütün xalqlar tərəfindən sevilər; hətta bu təbliğatlarla yanaşı bu qədər sevilir. Hegemonizm, xüsusən də ABŞ bütün İslam dünyasında İslam oyanışının günbəgün gücləndiyini gördüyünə

görə qəzəblənir. Onlar ümid bəsləyirdilər ki, zaman ötdükcə dünyada İslam Respublikasının şüarları köhnəlib qüvvədən düşəcək, lakin köhnəlmədi.[206]

Bu inqilab Allahın adı ilə baş verdiyindən həmişə şeytanlarla mübarizədə, məzlumları müdafiə etdiyinə görə quldur və hegemonlarla daim əlbəyaxadır. Siz insani dəyərlər üçün hərəkət etdiyinizə görə insani dəyərlərə müxalif olanlar həmişə sizdən narazı qalacaqlar. Siz ruhən və qəlbən möhkəm olmalısınız. Bu xalqın əlində böyük bayraq var. Sizin ucaltdığınız bu bayraq dünyanı oyatmışdır. Görün bu gün Fələstində, Şimali Afrikada nə baş verir! Görün müsəlman cəmiyyətlərdə İslam öz haqqını necə əldə edir! Bu işləri siz gördünüz. O zaman İslam küfr və hegemon mədəniyyətin qarşısından qaçmaqda idi. Əlbəttə, İslam heç zaman qaçmır, lakin müsəlmanları küfr və hegemonizm mədəniyyətinə qarşı zəif yetişdirmişdilər və onlar acizlik duyurdular. Bu gün hökumətlərində milyonlarla müsəlmanın hüququnun tanındığı yerlərdə İslam inqilabından öncəyə qədər heç kim İslamdan danışmağa cürət etmirdi. Bu gün cümə və camaat imamlarının təşkilatlar yaratdığı, məscidləri rövnəqləndirdiyi və mərkəzə çevirdiyi müsəlman ölkələrində dünənə qədər məscidlər əldən düşmüş bir qrup qocaya məxsus idi. Bu gün o məscidlər gənclərin və hərəkatların mərkəzinə çevrilmişdir. Bunu siz etdiniz. Bunu sizin hərəkətiniz və ilahi insan olan əzəmətli rəhbəriniz etdi. İslam düşmənləri buna görə sizə qəzəblənmişlər.

“Sən yəhudi və xaçpərəstlərin dinlərinə tabe olmayınca onlar səndən razı qalmayacaqlar”.[207] İslamdan əl çəkməyincə İslam düşmənləri sizə müxalif olacaqlar. Lakin məsələ burasındadır ki, düşmən müxalif olduğu tərəfin məhvə məhkum olduğunu göstərmək istəyir. Zəif xalqları buna inandırmışdılar. İndi əksi sübuta yetir və məlum olur ki, kim İslama qarşı çıxsa, məhv olmalıdır. İslam dünyada özünə yer açmışdır və daha çox açacaqdır.[208]

**4- İslam inqilabının dünyaya hakim olan istismarçı sistemə qarşı çıxması**

İlahi mənəviyyatın İrandan ibarət mərkəzi dünyada bütün zülm, təcavüz və çirkinlikləri rədd etməyə çağırır. Buna görə qlobal güclər bu mərkəzi fiziki cəhətdən məhv etmək, bacarmadıqları təqdirdə isə mahiyyətini dəyişdirmək qərarına gəlmişlər.[209]

Bu gün bizim dünya ilə davamız bunun üstündədir: biz mahiyyətcə müstəqil bir xaql olub dünyanın bugünkü quldur qüvvələrinin ardınca düşmək

istəmirik. Onlar qədimdə məhəllələrin başında durub hər kəsdən bac alan lotu və quldurlara bənzəyirlər. Heç kimin onlarla işi olmasaydı da, onların hamı ilə işləri vardı və mütləq ona bac verməli idilər. Kiminsə əlində yaxşı bir şey olsaydı, həmin quldur və lotu ondan əl çəkməzdi. Bu gün dünyada belədir. Təbii ki, yalnız bu günə aid deyil, müstəmləkə amilinin yarandığı dövrdən belə olmuşdur. Dünya sənayesinə lazım olan nefti, uranı və təbii mədənləri olan ölkələrin vay halına! Belə ölkələr onların boyunduruğu altına girməlidirlər. Burada söhbət ədalətli bir mübadilədən getmir ki, neftə ehtiyacı olanların bir müştəri kimi neftimizi almalı olduqlarını düşünək. Belə olsa, problem də olmaz; bütün neft ölkələri neftlərini satmaq istəyirlər. Söhbət alış-verişdən getmir. Söhbət bundan gedir ki, bu gün dünyaya hakim olan qlobal avtoritorizm buna razı deyil, sizdə olan hər bir yaxşı şeyi özünə aid bilir və özü istifadə etməyə çalışır. Buna görə müdaxilə etmək və nüfuzlarını genişləndirmək istəyirlər. Onlara görə bu məqsədə mane olan hər bir iş pisdir. Bu gün İslam buna mane olur. Təkcə bu gün yox, müstəmləkənin başlandığı zamandan İslamın bu məqsədə böyük bir maneə olduğunu anlamışlar. Onlar buna görə İslamla qatı düşməndirlər və ona nifrət bəsləyirlər. Bizim problemimiz budur. Onlar elm və texnologiyada inkişaf etdiklərinə görə modern vasitələrdən yararlanırlar, səsləri beynəlxalq tribunalar arxasından hamıya çatır, onlara qarşı deyilən hər bir söz isə itib-batır.[210]

İslam Respublikası dünyanın indiki istismarçı sisteminə müxalifdir. Bizim dünyanın mövcud komplimentlərinə etirazımız yoxdur. Hər bir yerin bir davranış qaydası var. Biz dünyanın müxtəlif xalqlarının adi qaydalarını qəbul edirik, həyat və siyasət sahələrində bir neçə böyük və sərvətli ölkənin digər ölkələrin taleyinə hakim olmasını isə qəbul etmirik. Biz fəsadın, pozğunluğun Avropa və Amerika cəmiyyətlərindən hər birinin özlərinə xas mədəniyyətləri olan digər cəmiyyətlərə yayılmasını qəbul etmirik. Biz qəbul etmirik ki, bütün xalqlar öz mədəniyyətlərində xoşagəlməz olsa da, avropalının yaxşı bildiyi hər bir şeyi yaxşı və öz mədəniyyətlərində pis olmasa da, avropalının pis bildiyi hər bir şeyi pis bilməli olsunlar. Bu gün dünyada vəziyyət belədir.[211]

Avropalıların nəzərində hakim mədəniyyət öz mədəniyyətləridir və hər yerdə qəbul olunmalıdır. Onlar nəyi yaxşı sayırlarsa, dünya xalqları da yaxşı saymalıdırlar. Biz buna qarşı mübarizə apardıq, aparırıq və harada İslam varsa, bu istismarçılığa qarşı mübarizə aparır. Onlar buna görə İslama müxalifdirlər.[212]

Qlobal hegemonizmin istismarçı xisləti ona bac vermək istəməyən hər bir xalq və quruluşla vuruşmalarını tələb edir. Onlar qədimdə yollarda dayanan oğrulara bənzəyirlər. O zaman insanlardan yol haqqı alıb buraxır, bac vermək istəməyəndə isə əziyyət verirdilər. Məsələ bundan ibarətdir. Deməli, qlobal hegemonizmin bizim quruluşumuzla düşmənliyi qaçılmaz bir şeydir. Əlbəttə, mən dəfələrlə təkrarladığım və bizim inamlarımızdan olan bir məsələni də əlavə edim: bu düşmənlik onların məyus olacaqları vaxta qədər davam edəcək. Nə qədər ki, ümidləri var, qarşı çıxacaq və düşmənlik edəcəklər. Quruluşa zərbə vurmaqdan məyus olub onun möhkəmləndiyini, daha bir iş görməyin mümkün olmadığını hiss edəndə, quruluşun avans və bac verməsindən ümidləri üzüləndə isə təhlükə ya aradan qalxacaq, ya da azalacaq.[213]

İnqilabın qələbəsindən öncə Amerikaya və Qərbə bağlı zalım rejimlərin hakim olduğu uzun illər boyunca – istər mənfur Pəhləvi sülaləsi, istərsə də məlun Qacar şahları dövründə bu böyük və bərəkətli məmləkətdə xaricilər – bir gün ruslar, bir gün ingilislər, bir gün də amerikalılar hökmranlıq etdilər, sərvətləri taladılar, xalqı istismar, əşirətləri tar-mar etdilər, şəhərləri viran qoydular, uzun illər bu xalqın təbii sərvətlərinə qarşı əllərindən gələn pisliyi etdilər. Əcnəbilərin inhisarına yol açıq idi. Bir gün İngiltərə kompaniyaları, bir gün amerikalılar, onlardan qabaq da ruslar bu məmləkətdən istədikləri kimi istifadə və onu istismar edə bildilər. Bu məmləkətdə İslamın hakimiyyətə gəldiyi gündən isə əcnəbi və təcavüzkarların istismarına son qoyuldu. Bu gün daha xarici güclər bu xalqdan və onun sərvətlərindən sui-istifadə edə bilmirlər. Bu gün daha xarici siyasi qüvvələrin bu xalqa öz istədikləri şəkildə tale müəyyənləşdirməyə gücləri yetmir. Bu gün bu xalq, onun seçilmiş şəxsləri, yəni İslam Şurası Məclisi, xidmətkar hökumət, çox dəyərli prezident, xalqa xidmətlə məşğul olan digər məmurlar və millət vəkilləri özləri qərar verir və düşmənə məhəl qoymadan qüdrətlə icra edirlər. Bu, İslamın sayəsində əldə olundu. Harada İslam varsa, orada düşmənlərə və istismarçılara yer yoxdur. Onlar buna görə İslamla düşməndirlər.[214]

## Üçüncü hissə: Düşmənin İslam inqilabına qarşı mədəni hücumda istifadə etdiyi üsullar

### 1- Gənclər arasında fəsadı, pozğunluğu və yanlış mədəniyyəti yaymaq

Düşmən bu xalqın iman sayəsində birləşdiyini, iman sayəsində dünyanın heç bir böyük gücündən qorxmayan bir rəhbər qazandığını və bəlli uğurlara imza atdığını bildiyinə görə bizim imanımız və İslamımızla düşmən oldular, siyasi və media vasitələri ilə əleyhimizə çalışdılar, onlara görə söyüş, bizə görə isə tərif sayılan adlar qoydular. Onlar bizi fundamentalist adlandırırlar. Biz İslamın prinsip və təməllərinə qayıtmağımızla fəxr edirik. Bu bizim gücümüzün amilidir. Son bir neçə ildə qlobal hegemonizmin bütün təbliğatı xalqımızın İslam inancını aşağılamaq üzərində mərkəzləşmişdir. Bizim xalqımız hər hansı formada İslamı və imanı aşağılayanların günahından keçməyəcək. Çünki İslam bizim xalqımızın hər şeyidir. İslam və iman bizim başucalığımızın və qələbəmizin səbəbkarıdır. Bizim dünya və axirətimizi bu iman islah edəcək.[215]

Düşmən fəsad, pozğunluq və yanlış mədəniyyəti yaymaqla gənclərimizi əlimizdən almaq istəyir. Düşmənin mədəni baxımdan gördüyü iş yalnız mədəni hücum deyil, mədəni bir qırğın və qətliamdır. Bu gün düşmən bizə qarşı bu işi görür.[216]

Bir cəmiyyətin daxili zəifliyinin düşmən hücumuna şərait yaratması doğrudur, amma düşmən öz imkanları ilə sağlam bir cəmiyyəti məcburən həmin zəifliyə sürükləyir. Odur ki, səhvə yol vermək olmaz.[217]

İran xalqının düşmənləri xain və muzdur qüvvələr vasitəsi ilə ictimai rəyi yayındırmağa və İslam inancını gənclərdən almağa çalışırlar.[218]

Bu gün İslam ümməti, o cümlədən bizim xalqımız əleyhinə böyük təxribat planları hazırlayırlar. İqtisadi blokada təxribatdır, apardıqları təbliğat təxribatdır, cəmiyyətimizdə yaradıb gənclərimizi sövq etməyə çalışdıqları fəsad və pozğunluq təxribatdır, yaydıqları yalanların hamısı təxribatdır. Onlar bu quruluşu kökündən məhv etmək, onun möhkəm təməllərini uçurmaq üçün təxribatlar aparırlar.[219]

Mədəni hücumlardan biri mömin gəncləri sivilizasiyanın keşikçisi olan imana təəssübkeş bağlılıqdan daşındırmağa çalışmalarıdır. Ötən əsrlərdə Andalusda bu işi gördülər, gəncləri fəsad və ehtiras dünyasına qərq etdilər, spirtli içkilərə alışdırdılar. Hal-hazırda bu işlər görülür. İndi bəzi adamlar küçədə hicabı dəqiq olmayan bir neçə qadını görür və ürəkləri qan olur. Düzdür, bu da pis işdir, amma əsas pis iş bu deyil. Siz əsas pis işi küçələrdə görmürsünüz. Bir (oğrudan) soruşdular ki, nə edirsən? Cavab verdi ki, nağara çalıram. Dedilər ki, bəs səsi nə üçün çıxmır? Dedi ki, səsi sabah çıxacaq. Əgər siz xalq və mədəniyyət işçiləri Allah eləməmiş, ayıq olmasanız, düşmənin məxfi və peşəkar hücumu nəticəsində mənəvi dəyərlərin dağılmasının səsini elə bir vaxt eşidəcəksiniz ki, daha çarə qılmaq mümkün olmayacaq.

Əgər bizim müharibədə iştirak etmiş bir gəncimizi mühasirəyə alıb, əvvəlcə ona bir video, sonra pozğun filmlərin tamaşa cihazını versələr, ehtirasını təhrik etsələr və sonra da bir neçə məclisə aparsalar, o zaman biz nə etməliyik? Kiminsə enerjinin zirvəsində duran gənci fəsada çəkməsi çətin deyil; xüsusən də fəsad törədənlərin təşkilatı olsa. İndi düşmən bu işi görür. Mənim ölkənin müxtəlif şəhərlərindən xəbərim var. Bu xəbərlər bizə çatır. Elə bir gün yoxdur ki, biz belə xəbərlərdən eşitməyək. Düşməndən başqa kim bu işləri görür?! Gənc şəhvətbazlığa düçar olub öz imanını əldən verir. Əvvəldə bu gənc hətta ağlayır da, lakin tədricən onu yoldan çıxarırlar. Düşmənlər bizim məktəb uşaqlarımızı - 10-12, hətta 7-9-cu sinif uşaqlarını belə fəsada çəkir. Bir nəfər tapırlar. O, narkotik maddələri və pozğun şəkilləri məktəbə aparıb uşaqlar arasında yayır.[220]

Hal-hazırda cəmiyyətin gənc nəslini pozğunluğa, əxlaqsızlığa sövq etmək üçün genişmiqyaslı işlər görülür. Bu, mədəni hücumun əsas hissələrindən biridir.[221]

Mən bilmirəm bu necə mədəniyyətdir?! Qərblilər tərəfindən dünyanın başına gətirilən bu necə bədbəxtlikdir?! Onlar bu mədəniyyəti, ictimai əxlaqa, bəşərin xeyir və zərərinə dair təsəvvürlərini bütün dünyaya ixrac etmək və Qərb mədəniyyətini hamıya qəbul etdirmək istəyirlər. Bu gün baş verən ən böyük cinayətlərdən biri budur.[222]

Bu gün dünyada xüsusi məsələlər üzərində həssaslıq var. Bu gün qadının əri tərəfindən döyülməsinə həssas yanaşılmır. Avropa və Amerikada, ümumi olmasa da, kişilər çox asanlıqla qadınları vururlar. Ailədə kişinin qadına zülm

etməsinə dünyada həssas yanaşan yoxdur. Statistika göstərir ki, Amerika və Avropa ailələrində atalar və ərlər çox asanlıqla övladlarını və həyat yoldaşlarını incidirlər. Dünyada bu məsələ üzərində ciddi dayanan yoxdur. Amma eyni zamanda qadının geyimi üzərində həssaslıq var. Əgər bir insan, şəxsiyyət, filosof, bir sistem və siyasət qadının çılpaqlığına qarşı çıxsa, bunu dünya səviyyəsində böyük ajiotaja çevirirlər, çoxlu fəsadlara, çirkin adət və üsullara isə həssas yanaşmırlar. Bir ölkə öz siyasəti olaraq spirtli içkiləri qadağan etdikdə, bu, bütün dünyada rezonans doğurur, onu mürtəce adlandırıb istehzalı təbəssümlə qarşılayırlar.

Bu haranın mədəniyyətidir? Qadının çılpaqlığı və spirtli içkilərin bir ənənə kimi geniş yayılması haraya aiddir? Bu, Avropaya məxsusdur və bu ölkələrin qədim mədəniyyətindən qaynaqlanır. Amma bu gün bu adət-ənənələr dünyanın başqa yerlərində də meyar götürülür və buna qarşı çıxanlar böyük günah etmiş sayılırlar.[223]

**2- İnformasiya yolları ilə ruhaniləri zəiflətmək**

Bu gün İslam dini dünyada şeytanların ən sərt hücumlarının hədəfi, eyni zamanda məhrum xalq səviyyəsində ən çox və ən dərin sevgilərin də yönəldiyi amildir. Dünya quldurları heç bir şeylə İslam qədər düşmən deyillər və ruhanilik də İslamın təmsilçisidir.

İnqilabın əvvəlindən hegemonizm və sionizm şəbəkəsinin kütləvi informasiya vasitələri həmişə müxtəlif şəkillərdə ruhanilik əleyhinə danışır, ələ salır, yalan deyir, böhtan atır, özlərinin, nökərlərinin və əlaltılarının layiq olduğu sözləri böyük alimlərə, dini mütəfəkkirlərə aid edirlər. Bizim üçün əhəmiyyəti də yoxdur. Bunlar bizi əsla narahat etmir. Biz ruhanilərin zərbəsinin tutarlı olduğunu anlayıb buna sevinirik də.[224]

İnqilabdan indiyədək ruhanilər, xüsusən də birbaşa İslam Respublikası quruluşunun xidmətində duran dəyərli kadrlar daim düşmənin zəhərli hücumlarına hədəf olmuşlar; istər media sahəsində, istərsə də düşmənin xain terrorçuluq əməllərində. Ruhani təbəqəsi həm məcburi müharibə cəhbəsində, həm də özünün cihad fəaliyyətləri zamanı dəyərli şəhidlər vermiş, cümə namazı mehrabını, elm, siyasət və din təbliğatı mərkəzlərini öz pak qanlarına boyamışlar.

Bizim əziz xalqımız bilir ki, din alimlərinə qarşı bu irimiqyaslı hücumlarda düşmənin məqsədi yalnız ruhanilərin təyinedici və əvəzsiz rolunun

olmasıdır və onlar inqilabı zəiflədib məhv etmək məqsədi ilə ruhaniləri hədəf seçirlər.

Bu gün düşmənə satılmış muzdur qələm sahibləri inqilabın bu mənəvi dayağını xalqın gözündən salmağa çalışırlar. İnqilabın düşməni ruhani təbəqəsinə o zaman dözər ki, onlar siyasi məsələlərə müdaxilə etməyib inqilab işlərindən kənara çəkilsinlər, keçmişdəki və indiki bəzi xəbərsiz və qapalı ruhanilər kimi mədrəsə və məscidlərin bir küncündə oturub ölkəni və xalqı onlara tapşırsınlar. Mühüm məsələlərdən biri budur ki, mübarizə dövründə və qələbədən sonrakı illərdə ölkə hadisələrindən xəbərsiz və siyasi məsələlərdən uzaq olan qapalı din alimləri heç zaman düşmənlərin hücumuna məruz qalmadılar, hətta bəzən tərif də olundular. Fiziki və media hücumları, hətta əcnəbilərə qulluq edən ziyalınümalar tərəfindən ortaya atılan mürtəcelik ittihamı yalnız siyasi düşüncə, elm və əməl sahəsində parlayan öncül, mütərəqqi və ayıq bir təbəqə kimi tanınan din alimlərinə və ruhanilərə yönəldi.[225]

Biz siyasi arenada və universitetlərdə ruhanilərin hörmət və dəyərini sıradan çıxarmaq məqsədi ilə bir sıra işlərin görüldüyünü görürük. Bu, sadə bir iş və yalnız qrup məsələsi deyil. Bəllidir ki, elm hövzələrinin təhsil və tədris sistemi əvvəldən dəqiq araşdırma, tədqiqat, yenilik, yaradıcılıq və elmi əsasları tənqid üzərində qurulmuşdur. Bəzi qüvvələrin elm hövzələrini təqlidçi kimi göstərməsi, onun Mütəhhəri, Behişti kimi şagirdlərini müstəsna nümunələr sayması düzgün deyil. Təbii ki, hövzəni düzgün tanımayan, onun nə olduğunu bilməyən adam belə səhvə yol verə bilər. Böyük ehtimalla və bəlkə də əminliklə demək olar ki, bunlar qərəzsiz şəkildə deyilir. Yəni burada pis niyyət yoxdur, amma həqiqətə ziddir və müxtəlif fəsadlara səbəb ola bilər. Bu, dinin təmsilçi və nümayəndələri olan ruhanilərin elmi və mənəvi dəyərinin universitet və tələbələr arasında gözdən düşməsinə gətirib çıxarır. Buna bənzər iş inqilabdan öncə daha naşı üsullarla görülür və təsirsiz ötüşmürdü.

Biz ruhanilərin, fiqhin heysiyyətini, fiqhin elmi səviyyəsini və bir ölkənin ümumi hərəkətinə təsirini inkar etsək, yaxud sual altına salsaq, əslində xalqın, böyük və təsirli bir təbəqənin dini təmayülünə zərbə vurmuş olarıq. Düşmənlər bunu istəyirlər və bu, düşmən dəyirmanına su tökməkdir.[226]

### 3- İnqilab ədəbiyyatını, incəsənətini və mədəniyyətini təhqir və təcrid etmək

Müharibə dövründə informasiya vasitələrində işıqlandırılan səhv və yanlış fikirlərlə - bunda xalqın özünün yanlış elmi-psixoloji qalıqları da təsirli

idi - mədəni hücum davam etdi. Lakin müharibənin həyəcanı bu hücumun qarşısında bir növ maneə idi. Müharibə bitəndən sonra isə bu yeni cəbhə daha ciddi şəkildə hərəkətə keçdi.[227]

Müharibədən sonra mədəni hücuma əlverişli şərait vardı. Çünki o zaman müharibənin hərarət və həyəcanı gənci özünə cəlb edir və o, düşmənin sözlərini dinləmək istəmirdi. Müharibədən sonra isə düşmənə şərait yarandı. Onlar geniş şəkildə işə başlayıb hərtərəfli mədəni hücum məqsədi ilə müxtəlif vasitələrə əl atdılar.

Mən düşmənin istifadə etdiyi vasitələrin genişliyinə baxanda məsələnin onlar üçün nə qədər əhəmiyyətli olduğunu anlayıram. Onların işlərindən biri ölkədə inqilab ədəbiyyatını, incəsənətini və mədəniyyətini təhqir və təcrid etməkdir. İnqilabın mühüm işlərindən biri bir qrup mədəniyyət və incəsənət xadimi yetişdirməkdir. Bizdə belələri var və Allaha şükür olsun ki, az deyil. Bizdə çoxlu şair və yazıçılar yetişdi, farsca yazan güclü və dəqiq qələm sahibləri meydana çıxdı. İnqilabın qələbəsindən yalnız 13 il ötmüşdür. Siz görün bizim mədəni və tarixi ömrümüzün hansı 13 ilində birinci dərəcəli şəxsiyyətlər yetişmişdir?! Düzdür, bunların birinci dərəcəli şəxsiyyət olmasına hələ var. Lakin inqilabın ərsəyə gətirdiyi bu qrupda birinci dərəcəli şəxsiyyətlər çox olacaq.

Bizim vətən anamız şah dövrünün sonlarındakı diktatura zamanı sonsuz olmuşdu. Həqiqətən böyük adamlar, yazıçılar, xüsusən incəsənətin bəzi sahələrində böyük sənətkarlar yetişmirdi. Lakin bu gün görürük ki, bizim gənc uşaqlarımız arasında yaxşı kinematoqraf, aktyor, rejissor, şair və yazıçılar çoxdur. Bu mömin qüvvələri inqilab meydana çıxardı. Onların əleyhinə görülən işlərdən biri onları təcrid etməkdir. Bizim gəncimiz də təcrübəsizdir. Ölkənin rəsmi mədəniyyət qurumunda kiminsə ona etinasız yanaşdığını, yaxud onu aşağıladığını görən kimi işinə təsir edir, onu zəiflədir; yaxud ölkənin ədəbiyyat və incəsənət jurnallarında bu üsula və xəttə müxalif simaların böyüdülüb tərif olunduğunu görəndə ruhdan düşür; yaxud dindar və gənc bir rejissor işinin qazanc gətirməsi və onu davam etdirə bilməsi üçün öz filmini aidiyyətli mərkəzlərə aparır, amma etinasızlıqla ona deyirlər ki, biz bu filmi qəbul etmirik. Halbuki incəsənət baxımından onun işindən zəif olan, lakin İslam rəngi olmayan müxtəlif işlərin qəbul olunduğunu bilir. Belə olan halda bu gənc öz-özünə təcrid olunur və ümidsizliyə qapılır. Mən bu mömin, inqilabçı və qayğıkeş gəncləri görəndə dəfələrlə ürəkdən kədərlənmişəm. Belə yaxşı gənclər incəsənət xadimi kimi tanınan adamlardan zəif olmadıqları və hətta bir çox

cəhətlərdən çox üstün olduqları halda nə üçün etinasızlıqla üzləşirlər? Məsələyə düzgün diqqət yetirəndə bu etinasızlığın köklərinin məsul şəxslərin də diqqət yetirmədiyi bir nöqtədə çirkin bir iradəyə bağlı olduğu görünür.

Bizim mədəni məmurlarımız yaxşı adamlardır, lakin orta səviyyələrdə görülən işlərə diqqət yetirmirlər. Mömin qüvvələri təcrid etmək üçün işlədilən üsullardan biri də - məncə bu, səssiz dərdlərdəndir və bunları bütün xalqın bilməsi lazımdır - budur ki, İranın inqilabi duyğuları tərənnüm edən filmi, yaxud hər hansı sənət əsəri beynəlxalq təşkilatlara təqdim olunanda etinasızlıqla üzləşir. Bu beynəlxalq təşkilatlar zahirən qeyri-siyasidirlər, əslində isə ayrı cürdür. Siz beynəlxalq təşkilatların, Təhlükəsizlik Şurasının, BMT-nin Bösniya və Herseqovinaya qarşı nə etdiklərini, sərnişin təyyarəmizin ABŞ tərəfindən vurulduğu zaman ICAO təşkilatının hansı mövqeyi seçdiyini gördünüz...

Bunlar bitərəfdirlər?! Bunlar qeyri-siyasidirlər?! Beynəlxalq təşkilatlar eyni işi bizim filmlərimizə, teatrlarımıza və uşaq işlərimizə qarşı da görürlər. İnsan necə gözlərini yumub onların qeyri-siyasi olduqlarını deyə bilər?! Nə üçün onların mükafat verdiyi əsərlər arasında bir inqilabi əsər yoxdur?! Bizim inqilabi filmimiz yoxdur?! Bizim inqilabi şeirimiz yoxdur?! Onların incəsənət baxımından dəyəri yoxdur?! Mən güman edirəm ki, bu təşkilatlar belə dırnaqarası mədəni, antiislam və antiinqilab qüvvələri dünyada böyütmək və inqilabçı qüvvələri təcrid etmək üçün onlara hətta Nobel mükafatı da verəcəklər. Bəs bu, mədəni hücum deyil?![228]

**4- İslam quruluşunu azadlığı boğmaqda ittiham etmək**

İslam quruluşunu azadlığı boğmaqda ittiham edirlər. Necə yəni biz azadlıq vermirik?! Siz hansı ölkədə istədiyini yazan bu qədər jurnal və qəzet tapa bilərsiniz?! Ölkənin rəsmi qəzetləri açıq-aşkar hökumətin siyasətlərini sual altına salıq və tənqid edirlər. Hökumət də çox nəzakətlə qulaq asır və cavab verir. İndi İranda elə jurnallar çap olunur ki, ölkənin keçmiş mədəniyyət işçiləri ilə qısa tanışlığı olan, şah dövrünün incəsənət xadimlərini tanıyan, düşməndən qorxanların və Amerikanın dostlarının kimliyini bilən adam bu jurnalların pulunun haradan gəldiyini anlayar. Bunu təxmin etmək olar, biz də xəbərsiz deyilik. Hökumət orqanları da bundan xəbərdardır. Amma bunlar çap olunur, bizim onlarla işimiz yoxdur. Biz hansısa jurnalın 3-4 kəlmə sözündən qorxmuruq. Biz də yazırıq. İranda mövcud olan mətbuat azadlığı başqa ölkələrdə yoxdur. İran dövləti mətbuat azadlığı sahəsində məzlumdur. Dəlili də budur ki, bir jurnala və qəzetə azadlıq verir, o da dövlət əleyhinə tənqidlərə başlayıb tez-tez nəqarət kimi təkararlayır: “Bizə azadlıq vermirlər!” Əgər

azadlıq yoxdursa, bunları necə yazırsınız?! Bu ölkədə yazısına görə kimi cəzalandırıblar?! Bəli, kimsə mətbuat cinayəti törətsə, kimliyindən asılı olmayaraq cinayətkardır. Qanunun cinayət kimi müəyyən etdiyi əməli törədən şəxs mütləq cəzalandırılacaq. Qanunda nəzərdə tutulan cəzalardan biri də cinayətin baş verdiyi qəzeti bağlamaqdır. Bu başqa məsələdir. Danışmaq isə azaddır. Düşmənlər hökumətin yazılanlara həssas yanaşıb cavab verməsini azadlığı boğmaq sayırlar. Düşmənin istəyi budur ki, hegemonizmə bağlı olan mədəni cinahın qələm sahibləri istədiklərini yazsınlar, amma İslam quruluşunun və İslam cinahının tərəfdarları onlara cavab verməsinlər. Cavab verəndə deyirlər ki, azadlıq yoxdur, bizi qorxudurlar. Baxın, düşmən qəsdən belə bir şərait yaradır, bir qrup sadəlövh də asanlıqla aldanır. Düzdür, nə dediklərini və nə etdiklərini anlamadan bu sırada yer tutan qərəzsiz adamlar da ola bilər.[229]

Öz faydasız ömürlərini əxlaqi və siyasi fəsadlarla, müxtəlif çirkin əməllərlə keçirən bəzi yazıçı və natiqlər bu fəsadların qarşısını aldığına və onların xarici ərbablarını qovduğuna görə İslam hökumətinə müxalifdirlər. Onlar İslama, milli müstəqilliyə, azadlığa və əxlaqa qarşı bu müxalifət və ədavəti siyasi və iqtisadi durumu tənqid kimi qələmə verir, istədiklərini dedikləri halda həyasızlıqla azadlıq tələb edirlər. Onların əsl istəyi Amerikanı buraya qaytarmaq, ölkəni düşmənlərə satmaqdır. Bizim xalqımız isə Amerikaya köləlik dövrünə qayıdış həsrətini onların ürəyində qoyacaq və özünün böyük nailiyyətlərini - yəni İslam quruluşunu, insanların iradə və imanının hakimiyyətini var gücü ilə qoruyacaq.

İslam quruluşu bayraqdarı İslam və Quran olan azadlığı heç zaman Qərbin yalançı azadlıq iddiaçılarından öyrənmək istəməyib.

Biz Qərbin rəhbər tutduğu və əsiri olduğu fəsad və pozğunluq, yalan və kələk, zülm, istismar və xalqlara təcavüz azadlığını açıq şəkildə və qətiyyətlə rədd edirik.

Biz əxlaqsız mürtəd Salman Rüşdiyə bir milyard insanın müqəddəslərini təhqir etmək icazəsi verən, amma İngiltərə müsəlmanlarına ondan şikayət etmək haqqı tanımayan azadlığı, ABŞ dövlətinə xalq hakimiyyətinə qarşı çıxan quldurları qızışdırmaq, onlara rəhbərlik etmək haqqı verən, lakin həmin xalq hakimiyyətinə bu quldurların qarşısını almaq haqqı verməyən azadlığı, soyğunçu oliqarxlara qanunsuz şəkildə zəif ölkələrə daxil olub xalqların var-yoxunu talamağa icazə verən, amma o xalqların mübarizə hüququnu qəbul etməyən azadlığı rədd edir, nifrətlə qarşılayır və bəşəriyyətə ar hesab edirik! Bizim məntiqimizdə azadlıq İslamın xalqlara verdiyi, onları zalım və təcavüzkar

istismarçılar qarşısında yenilməz dağa çevirən azadlıqdır; necə ki, İran xalqı belə oldu və bəlli möcüzə baş verdi. Bu azadlıq bizim ölkəmizdə həmişə olub, olacaq və insanlarımızın hər biri onu qorumalıdır.[230]

Bizim ölkəmizdə mətbuat üçün azadlıq var. Biz azadlığa əhəmiyyətli yanaşır, onu uca tuturuq. Odur ki, azadlıq olmalıdır. Lakin mətbuatın azad olması o demək deyil ki, ölkədə düşmən siyasətlərini icra edən mətbuat olmalıdır. Təəssüf ki, bəzi mətbu orqanları belədir.[231]

Mən sizdən sorşuram: tapşırılan 500, 600, 1000 yeniyetmənin pozulması qarşısında məsuliyyət hiss edən, düşmən əlində alətə çevrilib məktəbə heroin gətirən nadinc uşağın qulağını çəkən məktəb direktoruna biz nə deməliyik? Biz deməliyik ki, sən nə üçün azadlığı pozub bu işi gördün?! Bu söz düzgündür?! Məktəb direktoru deyər ki, 1000 gənci mənə tapşırıblar, mən sabah bunları heroinə aludə vəziyyətdə ata-analarına təhvil vermək istəmirəm. İndi ona: "Xeyr! Onların özlərinə seçim imkanı verməlisən. Biz heroini gətirib yayırıq, kim istəmirsə, çəkməsin. Sən isə yalnız onun zərərlərindən danışa bilərsən!" - demək düzgündür?! Bu rəftarın özü mədəni hücumun bir hissəsi deyil?![232]

## Dördüncü fəsil: Xalqın və məmurların mədəni hücuma qarşı vəzifələri

**Birinci hissə: Xalqın və məmurların mədəni hücuma qarşı ümumi vəzifələri**

**1- İman və mənəviyyatı qorumaq və gücləndirmək**

Allah dininin hakimiyyəti sayəsində insanın gözəl həyatı o zaman təmin olunar ki, insanlar öz qəlblərini Allahın xatirəsi ilə canlı saxlasınlar, Onun yardımı ilə bütün şər və fəsadlara qarşı mübarizə aparsınlar, bütün bütləri sındırsınlar, daxili və xarici şeytanların soyğunçuluğuna son qoysunlar.[233]

Bizim milli şərəfimiz və inkişafımız, bu möhtəşəm hərəkət, bu xalq həvəskarlığı, İran xalqının və hökumətlərimizin Allahın lütfü ilə bu günədək əldə etdikləri saysız-hesabsız nailiyyətlər şeytani güclərdən üz çevirməyə, onlara etinasız yanaşmağa və həmçinin Allaha yaxınlaşmağa görə əldə olundu. Bizim problemlərimizin açarı da budur. Bizim hamımız Allahı özümüzdən razı etməliyik. Heç kəs deməsin ki, əvvəlcə filankəs Allahı özündən razı etsin. Burada birinci və ikinci yoxdur, hamımız Allahın razılığını qazanmağa çalışmalıyıq. Allahın razılığı bizim təqvamızla hasil olur: günah etməmək, Allahdan qorxmaq, Allahın bəndələri ilə yaxşı davranmaq, Allahın düşmənlərinə düşmən və sərt olmaq, qardaşlar arasında kiçik ixtilaflara asanlıqla göz yummaq, düşmənlərdə isə hər bir zərrəni hesablamaqla. Möminlərin qarşısında təvazökar olun, özünüzü kiçildin. Təqva kəllə-kəlləyə gəlməklə uyğun deyil, məhəbbətlə, güzəştlə, yola getməklə uyğundur. Bilin ki, maliyyə məsələlərində, fərdi və iş məsələlərində, xüsusən də siyasi məsələlərdə təqva xalqın hərəkətinə elə təkan və rövnəq verər ki, bütün dünya məəttəl qalar. Biz harada təqva əlaməti gördüksə, onun təsirini də müşahidə etdik.[234]

Bizim hər birimiz çalışıb öz daxilimizdə paklıq və işıq yaratmalıyıq. Bu gün doğum gününü qeyd etdiyimiz əziz Peyğəmbərin (s) dərsi budur. Bu dərs olmadan İslam inqilabının ağır yükünü daşımaq olmaz. İnqilabı sağlam saxlamaq və inkişaf etdirmək həqiqətən ağır vəzifədir. Onu heç bir vəzifə ilə müqayisə etmək olmaz. Allaha şükür olsun ki, bu xalq bu ağır illərdə və müxəlif sınaqlarda bu vəzifənin öhdəsindən yaxşı gəlmişdir. Bizim inqilabımız digər inqilablar kimi və hökumətimiz digər hökumətlər kimi deyil. Allah-Taala öz Peyğəmbərinə buyurur: "Ey örtünüb bürünən! Gecəni – az bir hissəsi istisna

olmaqla – qalxıb (namaz qıl)! (Gecənin) yarısına qədər, yaxud bir qədər ondan az və ya bir qədər ondan çox! Həm də aramla (ağır-ağır) Quran oxu! Həqiqətən, Biz sənə (məsuliyyəti) ağır bir söz vəhy edəcəyik"[235]. Bu ağır sözü və ağır yükü götürmək üçün hətta Peyğəmbər (s) mənəvi tərbiyəyə, ruhi paklığa və davamlı nəzarətə ehtiyaclıdırsa, ilahi qüdrətin bu çağlar bulağı qarşısında biz zəif insanların yeri bəllidir. İnqilabın indiyədək inkişaf etməsinin səbəbi də budur.

Qlobal güclər İslam Respublikası ilə oxşar maddi gücü və imkanı olan digər ölkə və hökumətlər kimi rəftar etməyin, hədələməklə, tamahlandırmaqla və təzyiq göstərməklə sıradan çıxarmağın mümkünlüyünü düşünməkdə səhvə yol verdilər. Onların böyük səhvləri bu idi ki, bizim xalqımızda və inqilabımızda olan bu mənəviyyatı, Allaha və mənəviyyata diqqəti dərk etmirlər. Əgər təqva və Allaha diqqət olsa, bu dedi-qodular, kiçik, dayaz və az əhəmiyyətli münaqişələr olmayacaq. Mənim fikrimcə bunlar fikir vermək həddində deyil. Hər halda, hər bir cəhətdən birlik nə qədər çox olsa, düşmən üçün bir o qədər təhlükəli, dost üçün bir o qədər gözəl, möhtəşəm və ümidverici olar.[236]

Harada mənəviyyat, Allahla mənəvi əlaqə, Allahın mərhəmətinə inam, Allah qarşısında təslimçilik və təzim varsa, orada qorxu və zəiflik yoxdur: "Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər"[237]. Belə yerdə təəssüf də yoxdur. Biz Allah üçün çalışdıqda zahirən uğur qazandıqda da razıyıq, qazanmadıqda da. Çünki Allah üçün çalışmış və üzərimizə düşəni yerinə yetirmişik.[238]

Dəyişiklik yaratmaq Allahın işidir, biz isə öz daxilimizdə, həyatımızda və dünyada bu dəyişiklik üçün addım atmağa, iradə göstərməyə və çalışmağa borcluyuq. Dünyanın və həyatın bütün çirkinlikləri insanlardan törəyir. İnsanlar yaxşı olsalar, həyat gözəl və şirin olar. Nəfs və daxili şeytan insanın əməllərinə hakim olmasa, həyat Allahın razı qaldığı və bəyəndiyi şəkildə davam edər. Həyatı və dünyanı acı, şeytani, çirkin, dərdli, məşəqqətli və pərişan edən insanlardır.

Harada insanlar yaxşı olsalar, orada həyat da yaxşı olar; harada özlərində güclü dəyişiklik yaratsalar, onların həyatı da dərindən dəyişər. Əgər bu böyük dünyada ədalətsizlik, ayrıseçkilik, yoxsulluq, acılıq və şeytani xüsusiyyətlər görürüksə, bütün bunların izini insanların vücudunda və daxili şeytanlarında axtarmaq lazımdır.[239]

Bu gün İslam Respublikasının birinci növbədə biz məmurların və sonra xalqın öz vücudunda və qəlbində dəqiq və nizam-intizamlı şəkildə İslamın əxlaqi məqsədləri istiqamətində dəyişiklik yaratmasına ehtiyacı var. Düzdür, qəlblərdə dəyişiklik yaranmasaydı, inqilab da qələbə çalmazdı. İnqilabın qələbəsi göstərir ki, ümumilikdə qəlblərdə bir dəyişiklik baş verdi. Bu olmasaydı, inqilab qalib gəlməzdi. Odur ki, inqilabın, qələbələrin və bu xəttin davam etməsi və ən önəmlisi, bu xətdən yayınmamaq üçün hamımızın əxlaq və xarakterlərimizdə dəyişiklik yaratmağa ehtiyacımız var.[240]

Bizim düşmənlərimiz hələ də pusquda durub bu xalqın nə zaman İslamdan yorulacağını və imanını əldən verəcəyini gözləyirlər. O zaman hər tərəfdən ona hücum edəcəklər. İslam düşmənləri sakitləşməmişlər. Xalq və onun imamı dəfələrlə Amerikanın və dünyanın digər quldurlarının ağzından vursalar da, onlar ümidlərini kəsməmişlər. Onlar bu xalqı İslamdan, imandan, inqilabdan və imamdan ayırdıqlarını və şüarlarını aldıqlarını görəndə - lakin bu imkansızdır – bütün dünyaya səs salacaqlar ki, hökumət Qərbə yaxınlaşır və filan-filan yolları açır. Bu sözlər dünya xalqlarında ruh duşkünlüyü yaratmaq, dünyanın ucqar bölgələrinin gözlərini siz şücaətli və böyük xalqa tutan müsəlmanlarını məyus etmək üçündür. Yəni sonda "İran da belə getdi" deyib ümidlərini əldən versinlər. Lakin onlar səhv edirlər.[241]

Düşmən bizim xalqımız kimi ayağa qalxmış bir xalq qarşısında zəifdir. Düşmən maddi ölçülərdə güclü, mənəvi ölçülərdə isə çox zəifdir. Bizim xalqımız inqilabın əvvəlindən göstərdiyi mənəviyyat, iman, birlik və sayıqlıqla səhnədə qalmalıdır.[242]

Düşmənlərin, istismarçıların və müstəmləkəçilərin didişdiyini gördüyünüz bu dünyada bu güclü tufan qarşısında zəifləmək, təsirlənmək istəməyən, təsir göstərmək, məğlub etmək və tufanı yatırtmaq istəyən bir xalq polad kimi möhkəm olmalıdır və bu, mənəviyyat olmadan mümkün deyil.[243]

Bizim yolumuz uzun və çətindir. Hamımız özümüzdə mənəvi saflıq, paklıq və ilahi işıq yaratmalıyıq. Biz bu inqilabı İslam inqilabı kimi qorusaq, böyük güclərin düşmənliyi və onların bu quruluşu məhv etməyə dair qərarları heç zaman azalmayacaq, ABŞ və digər tağutlar İran İslam Respublikası ilə heç zaman barışmayacaqlar.[244]

Həqiqi imanla hərəkət edən xalq həm başıuca, həm maddi rifah içində olar, həm də onu nəyəsə məcbur edə bilməzlər. Biz bunlara nail olacaq, xalqımızın güclü imanı və Allahın lütfü sayəsində dünyanın bu parçasında elə gözəl, azad, rifah və asayiş dolu bir cəmiyyət quracağıq ki, bütün xalqlara dərs və inqilab düşüncəsinin ixracına səbəb olsun. Allah indiyədək lütfünü bizim xalqımızdan əsirgəməyib, bundan sonra da əsirgəməyəcək.[245]

Bu quruluşun uğurlu inkişafı yalnız təqva sayəsində mümkündür. İlahi quruluşun xisləti belədir. Haqq quruluş təqvasız inkişaf etmir. Onun qarşısında olan nahaq quruluş ayrı cürdür. Onun da inkişaf etməsi üçün bəzi prinsiplərə sadiqlik lazımdır, lakin mənəvi saflıq, paklıq, dəyərlərə, ideologiyaya və İslama əsaslanan bir cəmiyyətə lazım olan bütün dəyərlərə əməl etmək ona vacib deyil. Onlarda yanlış üsullardan çəkinmək kimi öhdəliyin olmadığına görə ancaq irəliləyirlər; bir şey əldən verir, bir şey də əldə edirlər. Haqq cəbhəsi isə belə deyil. Haqq cəbhəsi yalnız Allahla, təqvalı və mənən pak olduqda batil cəbhəsi önündə dayana və inkişaf edə bilər. Bunsuz mümkün deyil.

Quruluşu dini və dəyər quruluşu kimi saxlamaq lazımdır. Bu bir neçə ildə hegemonizm, onun əlaltı və təbliğatçıları daim bizi dəyər quruluşuna peşman etməyə çalışmışlar. Daim deyirlər ki, bunlar mürtəce, təəssübkeşdirlər. Onlar bəzi İslam hökmlərini ortaya atıb əks-təbliğatla məşğul olurlar, bizim, yaxud digər müsəlmanların şəxsi əməllərini İslamın adına yazıb təşvişə düşməmizi, cana doymamızı və "Xeyr! Biz dindar deyilik. Bizim quruluşumuz da digər dünyəvi quruluşlar kimidir" deməmizi istəyirlər. Onların məqsədi budur. Hətta dildə deməsəniz, amma əməliniz qeyri-dəyər və dünyəvi bir quruluşun əməlini göstərsə, onlar yenə öz məqsədlərinə çatmışlar və bu bizim məğlubiyyətimiz deməkdir. Onların məqsədi bu cəbhənin məğlub olmasıdır. Bu cəbhə yalnız təqva ilə inkişaf edə bilər. Bu quruluş yalnız təqvaya, mənəvi paklığa əməl etməklə və bizim hər birimizin özümüzü dəqiq və düzgün hesaba çəkməmizlə - "Özünüzü hesaba çəkin"[246] - inkişaf edə bilər. Digər hökumətlərin, dünyanın digər dövlət məmurlarının gördüyü işləri bizim də görə bilməli olduğumuzu düşünənlər səhv edirlər. Bizim özümüzə xas prinsip və üsullarımız var. Bunlar İslam prinsipləridir. Bu prinsiplər dünyaya hakim olmalıdır, cahil və hegemon dünyanın yanlış üsulları bizi özünə çəkməməlidir.

Allahı, ölümü, ilahi sorğu-sualı yaddan çıxarmayaq. Bizim işlərimiz zəif və məhdud məlumatlı bir müstəntiqin əlinə düşəndə, yaxud buna ehtimal verəndə diqqətimizi toplayırıq. Ora isə tam başqa bir səhnədir: "Bu necə bir

kitab imiş! O bizim heç bir kiçik və böyük günahımızı gözdən qaçırmadan hamısını sayıb yazmışdır ki![247]"[248]

Müqəddəs İslam quruluşu uca ilahi məqsədlər üzərində möhkəm dayanması, Peyğəmbər (s) və övliyaların düzgün yolunu ciddiliklə davam etdirməsi, məzlumları müdafiə etməsi, zalımlara qarşı vuruşması, İslam ədaləti uğrunda mübarizə aparması, bu yolda beynəlxalq istismarçı düzən tərəfindən edilən təhdid, təzyiq və zərbələrdən qorxmaması ilə dünyanın bütün məhrum və məzlumlarının qəlbində ümid yaratmış, onlara cəsarət və güc bəxş etmişdir. Hazırkı dövr İslam dövlətindən qabaqkı dövrlə aydın şəkildə fərqlənir. Dünya bir mərhələdən digərinə keçid halında olub həssas bir zamanı yaşayır. Şübhə yoxdur ki, İslam inancı və ona söykənən saleh əməl bu dəyişiklikdə böyük rol oynayıb bəşəriyyəti düzgünlük və kamillik yoluna sövq edə bilər. Buna əsasən, dünyanın gözü uca İslam bayrağını bu böyük və misilsiz xalqın güclü qolları, çoxlu fədakarlıqlar və saysız-hesabsız şəhidlərinin qanı vasitəsi ilə yüksəkdə saxlayıb imanın gücünü və dünyagir hakimlərin acizliyini hamıya göstərmiş İslam Respublikasına dikilmişdir.[249]

İran xalqının bugünkü əzəməti İslama imanın və Allaha etiqadın nəticəsidir. Bu xalqın düşmənləri də etiraf edirlər ki, İran xalqı qorxmaz, azad, güclü və zülmə boyun əyməyən bir xalqdır. Biz hər gün qəlblərimizdə bu imanı gücləndirməyə çalışmalıyıq. Xüsusən də xalqın müəllimləri və ilahi müjdənin daşıyıcıları olan möhtərəm din alimləri, ruhani, vaiz və natiqlər bu imanı gücləndirməyə çalışmalıdırlar.

Əziz qardaş və bacılar! Allah-Taala Quranda söz vermişdir ki, İslam inancı olunca bu xalqı və inqilabı heç bir təhlükə təhdid etməz, İslam Respublikasına və sizin möhtəşəm inqilabınıza heç bir güc ən az zərər belə vura bilməz.[250]

İslam quruluşu imanla, şüarları saxlamaqla, uca tutmaqla yaranır, qorunur və inkişaf edir.[251]

Bir quruluşa güc verən amil atom bombası deyil. ABŞ-ın, keçmiş SSRİ-nin və dünyanın irili-xırdalı digər güclərinin bu günədək bacarmadığı, bundan sonra da bacarmayacağı islami güc hizbullahçı qüvvələrin imanının gücüdür.[252]

Mənəviyyat, Allahla raz-niyaz, mənəvi əlaqə, Allahı məqsəd seçmək, zahiri məsələlərə aldanmamaq, dünyanın bərbəzəyinə və gözəlliklərinə məftun olmamaq - mömin bir toplum yetişdirən amillər bunlardır. Həm də: "O qədər olub ki, azsaylı bir dəstə Allahın izni ilə çoxsaylı bir dəstəyə qalib gəlib"[253]. Yəni sayınız az da olsa, həmin mənəvi cəhətə görə sayı çox olanları məğlub edərsiniz. Həmin mənəviyyat Bəsic üzvlərində elə şövq yaradır, gəncləri həvəslə cəbhəyə elə çəkirdi ki, gələndə qayıtmaq istəmirdilər.[254]

Din və imanın qurucu hərəkətlərə böyük təsiri var. Qərb dünyası və hegemon qüvvələr uzun illər təbliğat apararaq dini passivləşmək, mürgüləmək, kənara çəkilmək və dünyadan küsmək kimi təqdim etmişlər. İmam bunun tam əksini göstərdi. İmam əsl dindar idi. Görün dünya ilə necə rəftar edirdi, siyasi və quruculuq işlərini necə aparırdı. Bu, dinin təsiridir. Dini xalqların uyuşdurucusu adlandıranlar onu tanımamışdılar. Bəlkə də pis niyyətləri olmamışdır. Onlar dinlə tanış deyildilər. Qarşılarında din adlı mənasız bir şey vardı və onun uyuşdurucu olduğunu görüb ümumiyyətlə dinin belə olduğunu düşünürdülər. Xeyr! Din uyuşdurucu deyil. Onların gördüyü uyuşducu ola bilər, İslam dini isə oyadan və hərəkətə gətirəndir.[255]

Xalqı inqilaba, imama və İslam Respublikasına belə möhkəm bağlayan əsas amil, İran xalqını inqilabın bütün mərhələlərində, o cümlədən ümmət imamının vəfatından sonra dünyanın gözündə güclü bir okeana çevirən möhtəşəm qüvvə sizin imanınız, Allaha və İslama etiqadınızdır. Buna əhəmiyyətsiz yanaşmaq olmaz. Bizim xalqımızın İslama imanı olmasaydı, inqilab də qələbə çalmazdı. Əziz imamımız ölkə daxilində və bütün dünyada insanların qəlbinə onların Allaha və İslama imanı sayəsində yol tapdı, onun sözü, işarəsi və rəftarı xalqımıza və hətta digər müsəlman xalqlara da dərs oldu. Bu on ildə dünyada baş verən böyük dəyişikliklərdə İslama imanın rolu birinci dərəcəli olmuşdur. Biz Allah üçün çalışdığımıza görə Allah-Taala da bizə yardım edir. İran xalqının Allaha, İslama və Qurana imanı olduğuna görə dünyanın digər xalqları ona hörmət bəsləyirlər. İran xalqı Allaha imanlı olduğuna görə öz ilahi və mənəvi rəhbərinə elə hörmət ifadə edirdi. Həmin əziz rəhbərin qəlbi doğruçu, ixlaslı və işıqlı imanla dolu olduğuna görə xalq tərəfindən sevildi, insanların beynində və ruhunda güclü təsir buraxdı. Allah ona bu dövrdə ən böyük işləri görmək üçün qüvvə və qüdrət bəxş etdi.[256]

Hərəkatın zirvə çağında görülən işlər Allahın lütfü idi. Əziz imamımızın mübarək həyatının onillik parlaq dövrü də Allahın lütfü idi. Bu gün də işləri görən Allahdır və O bu xalqladır. Əgər xalqın ixlası olmasaydı, siz fədakarlıq göstərməsəydiniz, Allah sizi belə himayə etməzdi. Bu, imanın və saleh əməlin nəticəsidir. Harada iman və saleh əməl olsa, orada Allahın lütfü də olar: "Kim Allah üçün çalışsa, Allah da onun üçün çalışar"[257]. Bunlar yalan deyil, varlıq aləminin həqiqətləridir. Bir xalq özünü Allahın və ilahi məqsədlərin xidmətçisi etsə, Allah da təbiət aləminin bütün qüvvələrini o xalqın xidmətinə keçirər, lütfünü onlara şamil edər. Siz müharibəni yaxşı bitirdiniz, yaxşı idarə etdiniz, imamınızı yaxşı dəstəklədiniz, sözünə qulaq asdınız, qəlbini sevindirdiniz. İmam bu xalqdan razı halda dünyadan köçüb ilahi rəhmətə qovuşdu. Bu bir xalq üçün böyük əhəmiyyətə malikdir. Siz inqilabın həssas və mühüm olan ilk on ilində problemlərə yaxşı dözdünüz, yetkinlik və ayıqlıq göstərdiniz. İmamın vəfatından sonra da yaxşı fədakarlıq nümayiş etdirdiniz. İndi də öz polad yumruqlarınızla düşməni yaxşı dəf edirsiniz.

Bunlar bizim xalqımızın saleh əməlləri sayılır. Allah-Taala bunlara əvəz verəcək, yalnız unutmayaq ki, bunları qorumalıyıq. Yadımızdan çıxmamalıdır ki, ilahi məsələlər qayda-qanunsuz deyil, həmişə qalib gəlməmiz, dünyada başıuca və hörmətli bir xalq olmamız üçün Allahla olmalıyıq.

"Əgər möminsinizsə, siz daha ucasınız".[258] Allaha şükür olsun ki, siz beləsiniz və Allahın lütfü ilə həmişə belə olacaqsınız.[259]

İran xalqının səfərbərliyində əsas amil Allahla mənəvi əlaqədir. Hər hansı bir kişinin, qadının, qocanın və gəncin Bəsic üzvü olması Allahla mənəvi və səmimi əlaqəyə malik olması deməkdir. Əsas iş də budur. İnsanın yorulmamasına səbəb olan amil Allahı xatırlamaqdır. Bütün böyük güclər qarşısında insanı çox möhkəm saxlayan qüvvə Allaha güvənməkdir. Allaha təvəkkül, etimad və Allahla əlaqə olsa, xalqın və Bəsicin hərəkəti davamlı və qalıcı olar. Əgər belə olmasa, bir dövrdə həyəcan yarada bilər, amma qalmaz və məhv olar. Dünyada İran kimi bu qədər düşmən önündə müqavimət göstərən, onlara qalib gələn, önündən maneələri götürən və nəzərdə tutduğu məqsədlərə doğru hərəkət edən ikinci bir ölkə tapa bilməzsiniz. Əksər inqilablarda və ölkələrdə təzyiq və bazarlıqlara görə yayınmalar baş vermişdir. Lakin İranda indiyədək bu hərəkəti məqsədə doğru düzgün yönəldən amil sizin imanınız, Allahla əlaqəniz, Bəsic qüvvələrində mövcud olan duaya maraq, sizin həmişə oxumağa çalışdığınız Kumeyl duası, cümə namazlarınız və imamlara

təvəssüllərinizdir. Hər şeyi qoruyan amil bu mənəvi əlaqədir. Bu xüsusiyyət başqa yerlərdə yoxdur və siz bunu qorumalısınız.[260]

Bizim xalqımız İslama ən güclü iman bəsləyən xalqlardan biridir. Digər xalqları yaxından görənlər təsdiqləyirlər ki, İran xalqı ən imanlı müsəlman xalqlardandır. Xalqa aydın oldu ki, İslamın sayəsində azad şəkildə, mənəvi və maddi nemətlər içərisində yaşaya bilər. Odur ki, İslamı sevən bu imanlı xalq qiyam etdi, böyük inqilab baş verdi və xalq tərəfindən İslam təməlli bir hakimiyyət quruldu. Bu baxımdan, dünyanın harasında bir müsəlman varsa, bu hərəkəti sevir. Çünki bu yalnız bir xalqa məxsus olan vətən və millət çərçivələrində məhdud olmadı, çoxlu xalqlar arasında ortaq din olan İslam uğrunda bir hərəkət idi. Müsəlman xalqlar buna görə bu inqilabı və quruluşu sevirlər.[261]

Xalqlar imanlarını gücləndirsinlər və Allahla mənəvi əlaqə qursunlar. Allaha şükür olsun ki, böyük güclər və düşmənləriniz siz böyük, şücaətli və mübariz xalqdan hələ də qorxurlar və qorxmalıdırlar da. Siz Allaha iman sayəsində belə qüdrətlənmişsiniz. Bu imanı gücləndirin, birliyinizi artırın və nəyin bahasına olursa-olsun Allah düşməninin boyunduruğu altına girməyin.

İslam izzətli və izzət bəxş edəndir; kim İslamla tanışdırsa, izzət ona məxsusdur. Xar olanlar İslamdan uzaqlaşdıqlarına görə xar oldular. Özünüz İslamı qoruyun, imanınızı gücləndirin, İslam dəyərlərinin keşiyini çəkin, digər xalqları da İslamla barışmağa və İslama qayıtmağa vadar edin. Bu zaman bütün şeytansifət güclərin əli üzüləcək.[262]

Canlı bir xalq budur: zəif bir vasitəni öz qüdrət amilinə çevirən xalq. İmamın vəfatından sonra dünyanın sizə dair təsəvvürü daha tərifəlayiq oldu və bu xalqın güclü olduğunu anladılar.

Sizin gücünüz nədəndir? İmanınızdan, birliyinizdən. Bu birliyi qoruyun, imanınızı günbəgün gücləndirin. Bütün problemlərin həlli bundadır. Allaha, özünüzə, məmurlara, uğura və məqsədə inanmaq - bu inamları daim gücləndirin, birliyinizi qoruyun və düşmənin onu pozmasına imkan verməyin.[263]

Beynəlxalq imperializmin İslamla, İslam quruluşu və müsəlman İran xalqı ilə düşmənlikdən əl çəkdiyini düşünmək sadəlövhlük əlamətidir. Ölkənin müstəqilliyini və möhtəşəm İslam inqilabını qorumaq yalnız imanı qoruyub gücləndirməklə və dərin etiqadla mümkündür.[264]

Qurtuluş yolu, xeyir və uğur yolu, xəbis və hiyləgər düşmənlər üzərində qələbə yolu, Allahın razılığını qazanmaq və ilahi məqsədləri həyata keçirmək yolu əziz imamızın həmişə İran xalqına etdiyi tövsiyələrindədir: Allah-Taala ilə əlaqəni qorumaq, Ona arxalanmaq, Allahın düşmənlərindən qorxmamaq, bütün vücudu ilə İran İslam Respublikasını qorumaq və himayə etmək. İran xalqının yolu budur. Bütün xalq və məmurlar bütün vücudları ilə əziz imamımızın ən dəyərli irsi olan İran İslam Respublikasını qoruyub müdafiə etməli, düşmənlər önündə sayıq olmalı, Allahın onlara yardım etdiyini, düşmənin bütün hiylələrinə baxmayaraq, zəif olduğunu, İran xalqının səadət yolunun imamımızın tövsiyələri ilə tanıdığımız və hərəkət etdiyimiz yol olduğunu bilməlidirlər. Allaha şükür olsun ki, İran xalqı bu yolda çoxlu nailiyyətlər qazanmışdır və çoxlu uğurlar da onu gözləyir. Qarşıda çox parlaq gələcək var. Mən bu gün İran xalqının və İslam Respublikasının gələcəyini çox işıqlı və ümidli görürəm.[265]

İran xalqı yaxşı anlamışdır ki, onun müsbət cəhəti düşmənin var gücü ilə qaşrı çıxdığı cəhətdir - yəni Allaha təvəkkül etmək, inqilabın hamısı İslamın əsaslarından götürülən və inqilabın Böyük Rəhbərinin sözlərində təkid olunan əsas prinsiplərinə sarılmaq.

Düşmən medianın inqilabın əvvəlindən bu günə qədər ədavətlə səsləndirdiyi "fundamentalist" sözündə hiss olunan qəzəb onların bizim rəhbərimizin, xalqımızın və quruluşumuzun inqilabın əsas prinsiplərinə sadiqliyi qarşısında acizliyindən və narahatlığından irəli gəlir.[266]

Biz əziz imamımızın vəsiyyətnaməzində olan bir cümləni heç vaxt unutmamalıyıq. O buyurub ki, inqilabı qalib edən amillər onu yaşadacaq; yəni Allaha arxalanmaq, xalqın İslam inancı, ilahi vəzifəni yerinə yetirməyə qəti qərar və birlik.[267]

Bizim hərəkət etdiyimiz yol ümid yoludur; çünki Allahın və təbiətin qanunlarına uyğundur. İslam və din düşmənlərinin bəlkə iki əsrdən çoxdur dini sıradan çıxarmağa çalışmalarına baxmayaraq, bu gün o, dünyada aktualdır, bu həssas bölgədə dini hakimiyyət qurulmuşdur, 70-80 il dindən uzaq saxlanan ölkələr dini quruculuqla məşğul olurlar. Bunlar sözügedən təbii və ilahi qanunlardır. Dünyanı əxlaqsızlığa sövq edən, mənəviyyatı insanların həyatından tamamilə çıxarmağa çalışan sionistlər, siyasi ideoloqlar və dünyanın materialist

cinahları bunu istəyirdilər?! Dinin yenidən dirçəlməsini istəyirdilər?! Din və xüsusən də İslam şüarlarının dirçəlməsini istəyirdilər.

Bunlar sözügedən ilahi qanunlardır - Allahın, İslamın, dinin və mənəviyyatın düşmənlərinin istəyinin əksinə olaraq, öz işini görür və yolunu açır. Biz bu qanunlara uyğun hərəkət etdiyimizə görə nə üçün ümidvar olmamalıyıq?! Biz elə qanunlara uyğun hərəkət edirik ki, əziz Peyğəmbər (s) həyatının ən ağır dövründə o qanunlara güvənib ümidlənirdi. Məkkədə bütün qövmü tərəfindən mühasirəyə alındığı, hətta canının təhlükəyə düşdüyü, evində yaşamaq imkanını itirdiyi, bir gün Taifə, bir gün Əbu Talib dərəsinə getməyə məcbur olduğu gün deyirdi: "Mən iman gətirən tayfanı (pis əməlləri müqabilində Allahın əzabı ilə) ancaq qorxudan və (yaxşı əməlləri müqabilində cənnətlə) müjdələyənəm!"[268] O, "Mən dünyanı silkələtmək və qlobal bir inqilab etmək istəyirəm" - deyəndə nəyə güvənirdi? O, Allaha, ilahi qanunlara və qərar verdiyi mübarizəyə görə bunu deyirdi. Biz də həmin qanunlara güvənib hərəkət ediriksə, nə üçün ümidvar olmamalıyıq?! O bacardı, biz də bacaracağıq. O, tarixi dəyişdirib əsrlərlə dünyanı öz hökmlərinin və quruluşunun təsiri altına sala bildi, biz də bunu bacaracağıq, biz də həmin yolun yolçusuyuq. İran xalqı nə üçün ümidsiz olmalıdır?![269]

İslam quruluşunda qərarlar ilahi vəzifə və əqidə əsasında verilməlidir.[270]

Bu xalq hərəkatı, onbeşillik mübarizələrin sonunda baş verən bu bənzərsiz inqilab və bu quruluşun onbirillik ömründə görünən böyük qəhrəmanlıq, pak insanların şəhidliyi, mömin və mübariz xalqımızın tab gətirdiyi bütün bu çətinliklər, işgəncə və müsibətlər - bunların hamısı İslama görə idi. Bu böyük xalq və onun Böyük İmamı səadəti İslama həqiqətən tabe olmaqda gördü, İslam hakimiyyətini şeytan, tağut və zalımların istismarından qurtuluş amili bildi və Allahın razılığını İslam hakimiyyəti qurmaqda aradı. Müsəlman xalqlar, bütün İslam dünyasının xeyirxah və ixlaslı insanları da İslama görə bu inqilabı və quruluşu özününkü bilib dəstəklədilər, müdafiə etdilər və edirlər. Bu səbəbdən İslam Respublikasının ən böyük vəzifəsi İslamı xalqın həyatına daxil etmək və cəmiyyəti nümunəvi bir İslam cəmiyyətinə çevirməkdən ibarətdir.

Bu məqsədin həyata keçməsi üçün əsas və böyük addımlar qələbənin əvvəlindən imamın güclü nəzarəti altında bütün məsul şəxslər tərəfindən atılmışdır. Bunun üçün ölkənin üç hakimiyyət orqanı əlaqəli və müntəzəm şəkildə işləməli, elm hövzələri, İslam tədqiqat və mədəniyyət mərkəzləri geniş

fəaliyyət göstərməli, İslam təlimlərinin dərinləşdirilməsi və genişləndirilməsi üçün ayıq ictihadın və fiqhin tükənməz mənbəyindən istifadə ettməli, İslam Respublikası quruluşunun elmi və icraçı qurumları birlikdə, bir-birinin kənarında cəmiyyəti İslam məqsədlərinə daha da yaxınlaşdırmalıdırlar. İslamın nurlu hökmlərinin qorunması, cəmiyyətdə yayılması və güclənməsi üçün bütün müsəlmanların üzərinə böyük məsuliyyət düşür.[271]

Bu gün bir neçə məsələ bizim üçün çox əhəmiyyətlidir: Biri budur ki, bu hərəkatın, xalqın, eləcə də xalqın sayəsində digər müsəlman xalqların nəyi varsa, Allaha diqqətdən, arxalanmaqdan və Allahın yada salınmasındandır. Bunu bir an da unutmaq olmaz. Allaha diqqət və Onun sonsuz mərhəməti olmasaydı, bu inqilab və xalq çətin belə uğurlara nail olaydı. Gələcəkdə də belə olacaq.

İslam inqilabında əsas məsələ insan yetişdirməkdir. Bu da ilk növbədə qəlbi və ruhu islah etmək deməkdir. Dünyada maddi nemətlər olsa, amma insaniyyət, əxlaq və dindarlıq olmasa, dünya adamlarına da ləzzət verməz, bəşərə dinclik gətirməz. İnsanın dincliyi dini əxlaq və ruhiyyədən irəli gəlir, dindən yardım almalı və qaynaqlanmalıdır. Əxlaqın, mənəviyyatın və dinin olmadığı dünyada bugünkü kimi böyük güclər və təcavüzkar dövlətlər xalqların başına min oyun açarlar. Bizim hər birimiz harada olsaq, birinci işimiz nəfsi islah etmək, kamilləşdirmək, mənəviyyata və ilahi əxlaqa yiyələnmək olmalıdır.[272]

İslam cəmiyyətində mənəvi və maddi həyat yanaşıdır. Onda həm xalqın dini, əxlaqı, mədəniyyəti və etiqadları zəngin olur, həm də maddi həyatı, məişəti; yəni cəmiyyət iş, istehsal və ixtira ilə təmin olunur. Odur ki, belə bir hərəkəti məqsəd seçməliyik.[273]

### 2- Gözəl İslam həyatı və inqilab dəyərlərini qorumaq

Heç bir əhəmiyyəti yoxdur ki, biz Yaponiya kimi, yaxud ondan bir dərəcə aşağıda olan və adlarını çəkmək istəmədiyim digər ölkələrdən biri kimi olmaq istəyək. Yəni mənəviyyatsız olsa, Allah üçün və nümunəvi cəmiyyət qurmaq üçün olmasa, çalışmağın, zəhmət çəkməyin mənası yoxdur. Odur ki, Allah üçün hərəkət etmək və ilahi məqsədlər uğrunda çalışmaq lazımdır: "Qoy yarışanlar onun üçün yarışsınlar!"[274] İnsan zəhmət çəkib çalışmalıdır. Dünyada bu qədər inkişaf etmiş ölkə var. Lakin bizim istədiyimiz ilahi məqsəd və dəyərlərin həyata keçməsidir. Biz Allah üçün bu inqilabı edəndə onun məqsəd və

amallarını təmin etməyi nəzərdə tutmuşuq. Bizim inqilabda rəhbər tutduğumuz və işlərimizin səbəbkarı olan dəyərlərin iki təməli var: biri İslam məktəbi, biri isə xalq. Xalq olmadan məktəb ola bilməz, çünki bizim məktəbimiz xalqdan ayrı deyil. Ümumiyyətlə bu bir kələkdir ki, biz İslamı xalqın xeyrindən ayıraq, hamıya xalqın taleyinə göz yumub dindən, Allahdan və imandan yapışmasını deyək. Bu, təhrif olunmuş İslamdır. İmam mübarizəyə başlayandan bu fikrə qarşı çıxdı. Çoxlu yaxşı və alim insanlar imamın sözünü anladılar. Bəzi fanatlar və nadanlar isə sona qədər anlamadılar və bəziləri hələ də anlamırlar ki, İslam təfəkkürü xalq üçündür, xalqdan ayrı deyil. Bu baxımdan, xalqın xeyrindən uzaq olan hər hansı bir məsələnin İslamdan olmasını düşünsəniz, bilin ki, səhvə yol verirsiniz; ya o məsələnin özünü, ya da İslamı dərk etməkdə mütləq səhviniz var. Deməli, İslamın və inqilabımızın dəyərləri bu iki amilə əsaslanır.[275]

İslam həyatı odur ki, onda həm dünya xoşbəxtliyi olsun, həm axirət xoşbəxtliyi; həm maddi rifah olsun, həm mənəvi tərəqqi. Gözəl İslam həyatında hər şey var.[276]

Bir xalqın rifahı, xoşbəxtliyi, sülhü və təhlükəsizliyi yalnız Allaha iman və ilahi dəyərlərin hakimiyyəti sayəsində təmin oluna bilər.[277]

İslam quruluşu yaratmağın ən təcili səbəbi ictimai ədalətin, İslam ədalətinin bərqərar edilməsidir. Allah peyğəmbərlərinin gəlişi, kitabın və ilahi qanunların nazil olması bundan ötrü idi ki, xalq zülm, zor və ayrıseçkilikdən xilas olub ədalət içində yaşasın və ədalətli quruluş sayəsində insani təkamülə nail olsun. İctimai ədalət naminə ciddi qərar və müntəzəm fəaliyyət olmadan İslam quruluşuna dəvət yarımçıq və hətta yanlış və yalan dəvətdir. Proqramlarının başında ədalətin təmini, zəif və məhrum insanların xilası durmayan hər hansı bir quruluş, İslam görkəmində olsa belə, qeyri-islami və münafiq quruluşdur. Məhz buna görə, istər tarixdə, istər hazırkı zamanda müsəlmanlıq iddiasında olan, Quranın davamçısı olduğunu elan edən, lakin digər zalımların yolu ilə gedən, yoxsul və varlı arasında fərqi artıran, özləri sərvətlilər sırasında dayanıb yoxsulların və ayaqyalınların dərdindən xəbərsiz olan şah və hakimlərin iddiası Quran və İslam təlimləri ilə tanış olan ağıllı insanlar tərəfindən həmişə rədd edilmişdir.[278]

Qardaş və bacılar! Bizim məqsədlərimiz aydındır. Bizim məqsədlərimiz İslamda xülasə olunur. İslam yalnız bir etiqad deyil, həm də insanların ideal

həyat konsepsiyasıdır. İslam həyatından və İslam quruluşundan söhbət etdikdə bizim məqsədimiz insanın sevdiyi bütün xeyirlərin mövcud olduğu gözəl quruluş və həyatdır. Bu quruluşda mənəvi paklıq və maddi rifah var, ictimai və psixoloji təhlükəsizlik təmin olunur, elm, tədqiqat, bəndəlik, ixlas, ibadət və Allaha diqqət görünür. Gözəl İslam həyatı budur, biz bunu yaratmaq istəyirik, İslam bu nemətləri bizə verir. İslam ona etiqad bəsləyən və təlimləri əsasında yaşayan xalqı müdafiə edə bildiyini göstərmişdir. Dünya güclərinin bizimlə düşmənliyi İslama görədir: "Onlardan (möminlərdən) yalnız yenilməz qüvvət sahibi, (hər cür) şükrə layiq olan Allaha iman gətirdiklərinə görə intiqam alırdılar"[279]. Döyüş İslama görədir. Bizim möhkəm qalamız da İslamdır. Bizim öz heysiyyətimizi, şəxsiyyətimizi və kimliyimizi müdafiə edə və özümüz üçün gözəl həyat qura biləcəyimiz böyük səngər İslamdır. Bizim məqsədimiz və yolumuz budur və bu yolla getmək üçün heç bir çatışmazlığımız yoxdur. Bu məqsədə çatmaq üçün iman lazımdır və şükür olsun ki, Allah-Taala bizim qəlblərimizi Öz iman nuru ilə işıqlandırmışdır; hərəkət və əməl lazımdır, şükür olsun ki, Allah yardım etmiş, İran xalqı hərəkət edən, çalışan, məqsədləri yolunda maneələri görən olduğunu isbatlamış, çətinliklərə dözə-dözə bərkimiş, əməlisaleh olduğunu göstərmişdir. Həmçinin bundan ötrü əlverişli təbii və siyasi mövqe lazımdır. Allah-Taala bunu da bizə bəxş etmişdir. Düşmənlərimiz xoşu gəlsə də, gəlməsə də, bu gün yaşadığımız region dünyanın ən həssas regionlarından biridir. Burada hansı xalq yaşasa, bu üstünlüyə malik olar. Allah-Taala bu üstünlüyü bizə vermiş və böyük təbii imkanları ixtiyarımızda buraxmışdır. Biz bu iki amili, yəni indiyədək inkişafımıza səbəb olmuş güclü iman və qətiyyətli əməl amillərini qorumalıyıq. Hər bir fərd, qadın və kişi, ölkənin hər hansı yerində olan müxtəlif təbəqələr bunu yaddan çıxarmasınlar. Allaha şükür olsun ki, bizim xalqımızda iman, işə həvəs və birlik var. Bunu qorumalısınız. Xüsusən də xalq arasında sözü keçən, insanlara təsir göstərə bilən adamlar imanı gücləndirmək, əmələ həvəsləndirmək və ümumi birliyi qorumaq üçün daha çox məsuliyyət daşıyırlar. Mən dəfələrlə əziz xalqımıza, ürəkləri ümid və imanlı dolmuş şəxslərə demişəm ki, mən ölkənin gələcəyindən əsla nigaran deyiləm və qorxum yoxdur. Bilirəm ki, Allahın lütfü ilə xalqımız həm dünya və axirətin, həm maddiyyat və mənəviyyatın, həm elm və ibadətin, həm rifah və mənəviyyatın – bir sözlə, hər şeyin təmin olunduğu gözəl İslam həyatını qurmağı bacaracaq. Biz belə bir quruluş və cəmiyyət yarada bilsək, o zaman beynəlxalq düşmənlərimizi həqiqətən məğlub etmiş olacağıq.[280]

Ölkəmizdə dəyərli xüsusiyyətlər, həvəskar və qorxmaz xalq, abadlığa, gözəlliyə, xeyir-bərəkətə yararlı olan münbit torpaq, coğrafi baxımdan böyük bir regionun, hətta müəyyən mənada bütün dünyanın sabitliyinə təsirli mövqeyi, tamamilə yeni və modern dini təfəkkürə əsaslanan quruluşu var. Bu gün bizim dünyaya təklif etdiyimiz bu təfəkkür həm çox yenidir, həm də dini təməllərə əsaslanır. Dünya, onun materialist analitikləri modernizmi ilahi və mənəvi təfəkkürlərdən ayırmağa, onları bir-birinə qarşı qoymağa alışmışdılar. Hər bir dini və mənəvi amil keçmişə aid edilib, mürtəcelik sayılırdı. Yeni və modern olan hər bir şey isə mütləq dinə, mənəviyyata və məzhəbə qarşı olmalı idi. Bu, dinə dair yanlış təsəvvür idi. Bu gün bizim ortaya qoyduğumuz ictimai ədalət, İslamın bəyan etdiyi insan hüquqları modeli isə demokratik dünyanın təklif etdiyindən dəfələrlə mütərəqqidir. Bizdəki ictimai ədalət dırnaqarası sosialist dünyada iddia olunandan, bizdəki insan hüquqları və fərdi azadlıqlar da dırnaqarası demokratik dünyada iddia olunanlardan mütərəqqidir. Bunu dünya da qəbul edir. Siz pul alıb bir şey yazan və mürtəcelik kimi sözlər işlədən radio və jurnalların təbliğatına baxmayın. Bunlar əhəmiyyətsizdir.[281]

Bizim böyük imkanlarımız yüksək səviyyəli maddi və mənəvi həyatı təmin etməyə qadirdir. Biz həm azad, başıuca və hörmətli, həm mömin, təqvalı, iffətli ola, həm də maddi baxımdan yüksək səviyyədə və rifah içərisində yaşaya bilərik. Bu, İslam dininin öz ümmətinə, tərəfdarlarına istədiyi həyatdır və biz bunu həyata keçirə bilərik. Biz İran xalqı buna qadirik. Bu mümkündür, bunun üçün xalqımızın potensialı yüksəkdir. O zaman bu ölkə və xalq örnək olub digər xalqları qurtuluşa sövq edəcək və düz yola yönəldəcək.[282]

Şübhə yoxdur ki, Allah-Taala xalqlara əməllərinə görə əvəz verir. Bu ümumiyyətlə yaranış aləmində daimi bir mübadilədir. Yəni siz nə iş görsəniz, Allah-Taala o işin qarşısında yaxşı və pis əvəz hazırlamışdır. Allah-Taala heç bir işi əvəzsiz və təsirsiz buraxmır. Biz bəzən təsirlərini anlayırıq, bəzən isə anlamırıq. Quranın şərafətli ayələrinin hamısı göstərir ki, bir xalq saleh əməl etsə, xüsusən də bu əməl iman və təqva ilə yanaşı olsa, onun həyatı, dünyası, hörməti və müstəqilliyi təmin olunar. İmanlı və təqvalı olmasa, Allah-Taala yenə də əvəz verər. Yəni Allah dünya üçün işləyənlərə də qarşılıq verir: "Onların və bunların hər birinə Rəbbinin nemətindən verərik"[283]. Allah-Taala həqiqətən çalışdıqları təqdirdə həm dünya üçün çalışanlara əvəz verir, həm də axirət üçün çalışanlara. Siz görürsünüz ki, nə dini, nə təqvası olan bəzi xalqların zahirən gözəl maddi həyatları var. Bu onların əməllərinə görədir. Lakin din

olmasa, sonu və aqibəti yaxşı olmaz, fəsada uğrayar, fəsad onu dağıdıb məhv edər. Necə ki, biz dünyada maddi sivilizasiyanın sonunun əlamətlərini görməkdəyik. Sizin kimi mömin olan, əməl edən və çalışan bir xalqa isə, şübhəsiz, Allah-Taala mükafat verəcək. Bu mükafat yalnız axirət mükafatı deyil, həm də dünya mükafatıdır. Dünya mükafatı nədir? Dünya mükafatı odur ki, əməllərinə uyğun olaraq dünyada onları xoşbəxt, başıuca edər, xarlıqdan çıxarar, boyunduruq altına salmaz. Bu gün dünya xalqları arasında ümumilikdə heç bir xarici gücdən əmr almayan, heç kəsdən çəkinməyən, özü qərar qəbul edən, öz yolunu özü seçən xalq İran xalqıdır. Ölkə daxilində də işlər xalqın öz əlindədir.[284]

Biz ölkəmizi elə gözəlləşdirməli və qurmalıyıq ki, İslama hörmət və ucalıq gətirsin. Savadsız, səviyyəsiz, inkişafsız və birliyi olmayan bir İran İslam inqilabına və İslam hərəkatına nəinki fəxr sayılmır, hətta əksinə, üzqarasına da səbəb olur.[285]

Əgər ölkəni abadlaşdırmaq, böyük potensialı olan əkinçiliyi rövnəqləndirmək, ölkədə daxili mütəxəssislərin elminə, istedadına və təcrübəsinə söykənən müstəqil bir sənaye qurmaq, universitetlərdə və tədqiqat mərkəzlərində elm və araşdırmanı genişləndirmək, ölkə miqyasında ucqar kəndlərə qədər hər yerdə ümumi rifah yaratmaq, mənəviyyatı, əxlaqı, İslam və Quran hökmlərini bütün sahələrdə tam icra etmək və reallaşdırmaq istəyiriksə, bilməliyik ki, bütün bunları həyata keçirən amil siz xalq, sizin iştirakınız və imanınızdır. Və Allahın lütfü ilə bunların hamısı həyata keçməlidir.[286]

Mən insan iradəsinə, gücünə çox inanıram. Bu bizim ideoloji qaydalarımızdandır. Bu yalnız indiyə məxsus deyil, inqilab dövrü boyu İslam məsələlərini araşdırarkən gəldiyimiz nəticə, əməldə icra etdiyimiz, təsir və nəticələrini də gördüyümüz prinsiplərdəndir. İnsan imanı və iradəsi odur ki, möminlər istəsələr və güclü iradələrini işlətsələr, dünyada heç bir iş imkansız olmaz. İnsanın daxili qüvvələrindən irəli gələn iradə və onun kənarında etiqad, iman və arxayınlıqla Allahdan yardım alıb nəhəng dağları yerindən qoparmaq olar.[287]

İran xalqının xeyirxah məmurların köməyi və güclü qolları ilə bu ölkəni abad, azad, hər cəhətdən təminatlı, ictimai ədalətə və digər İslam dəyərlərinə malik və müqəddəs İslam şəriətinin çətri altında qurduğu gün bizim böyük və

möhtəşəm inqilabımız öz-özünə, heç kim çalışmadan bütün müsəlman ölkələrinə ixrac olunacaq. Müstəmləkəçi qüvvələr İranın bir gün örnək olacağını bilirlər və buna görə on ildir təzyiq göstərirlər.[288]

İslamın xalqın dünya və axirəti üçün proqramı və məqsədi var. Odur ki, ölkəni idarə edən məmurlar xalqın mənəvi iş və amallarına əhəmiyyət göstərdikləri qədər maddi işlərinə də əhəmiyyətli yanaşmağa borcludurlar. Əcnəbilər belə təbliğat aparırlar ki, bir cəmiyyət xalqın problemlərini həll etmək, ölkədə istehsalı artırmaq, mədən və sənayeni fəallaşdırmaq, əkinçiliyi rövnəqləndirmək, zavodları tam imkanları ilə işə salmaq istəyirsə, inqilabi amalları, mənəviyyatı və məqsədləri mütləq unutmalı, yaxud arxa plana keçirməlidir. Düşmən bunu xalqımızın beyninə salmaq istəyir. Bəzi dostların da bilmədən və sadəlövhcəzinə düşmənin bu sözünü təkrarlaması təəssüf doğrurur. Dünya və axirət birgədir. Amallar və rifah birgə və bir-birinin kənarında həyata keçə bilər. Amalçı bir cəmiyyətin maddi problemləri həll və maddi rifahı təmin edə bilməməsi dinlərin, müqəddəslərin, mənəviyyatın və amalların xalqın dünya həyatı haqda düşünmədiyinə inanmaq deməkdir. Halbuki bu, İslamın və bütün ilahi dinlərin aydın müddəalarının əksinədir. Cəmiyyətin məişət problemlərini həll etmək, xalqa firavanlıqdan, ucuzluqdan və digər imkanlardan istifadə etdiyi sağlam və yaxşı bir həyat şəraiti yaratmaq hamımızın, xüsusən də ölkənin siz məmurlarının üzərinə düşən dini vəzifədir. Bu şübhəsiz ki, İslam amallarındandır. Əziz imamımızın amallarından biri də bu idi. Bəli, haradasa maddiyyat və mənəviyyat bir-biri ilə ziddiyyət təşkil etsə, mömin, inqilabçı və canlı bir cəmiyyət öz müvəqqəti dünyasını daimi və nail olması həqiqətən çətin olan amallara qurban verər. Lakin uzunmüddətli iş kimi və ümumi proqramlarda İran xalqı inqilabi amalları, istiqamətləri və İslam mənəviyyatını inşallah maddi rifahla bərabər təmin edəcək. Biz tələsmir, məmurları da tələsdirmirik; səbirlə, hövsələ ilə və diqqətlə iqtisadi, mədəni, səhiyyə, sosial servis, istehsal, xüsusən də bəzi özəl sahələrdə, güclü təkana ehtiyacı olan əkinçilikdə və mədən işlərində proqram hazırlayıb hərəkət edəcəyik. Bu sizin vəzifəniz və xalq qarşısında borcunuzdur.[289]

Bir inqilabçı və İslam cəmiyyətində xalqın inqilab həvəskarlığı və İslam inancı həmişə canlı və təsirlidir. Bu mühüm qələbə amili özünə görə inqilab mübarizələrinin bir mərhələsi sayılan ölkə quruculuğunda nəzərə alınmalıdır.[290]

Bir məqsəddən qaynaqlanan və istiqamətləndirilən ölkələrdə quruculuq dövrü ağır dövr sayılır. Biz indi bu dövrü yaşayırıq. Biz bu gün müqəddəs məqsəd və amalları daha möhkəm qorumalı, düşmənlərin təxribatlarını və hegemonizmin İslamla tükənməz ədavətini yaddan çıxarmamalı, bunu xalqa da başa salmalıyıq. Bizim xalqımız düşmənliyin bitmədiyini dərk etməli, İslam Respublikasının hücumlara məruz qaldığını bilməli, bu hücumların hansı yollarla edildiyini anlamalıdır.[291]

Quruculuq bir mübarizə və Allah yolunda cihaddır. Kim bu işdə iştirak etsə, cihad etmiş, vacib əməl olan İslam cəmiyyətinin idarəsi və müdafiəsi üçün addım atmışdır. Bu çox böyük işdir. Lakin quruculuq bir şeydir, pulpərəstlik və dünyagirlik başqa şey. Quruculuq Əli ibn Əbu Talibin (ə) hətta səhv etməsəm, xilafət çağında da gördüyü işdir. İndi mən tərəddüd etdim, lakin şübhəsizdir ki, xilafətdən öncə öz əli ilə xurmalıq salır, əkinçilik edir, ağac əkir, suvarır, quyu qazırdı. Bu quruculuqdur. Dünyagirlik və dünyapərəstlik isə Übeydullah ibn Ziyadın və Yezidin gördüyü işdir. Onlar nə vaxt nəsə yaradıb qurdular?! Onlar məhv edirdilər, yeyirdilər, dağıdırdılar. Bu iki məsələni bir-birinə qarışdırmaq olmaz. Bu gün bəzi adamlar quruculuq adı ilə özlərini pula, dünyaya və dünyapərəstliyə qərq edirlər. Bu quruculuqdur?! Bizim cəmiyyətimizi fəsada uğradan amil ehtiraslarda qərq olmaq, təqvanı və fədakarlıq ruhunu əldən verməkdir.[292]

İnqilabın quruculuq mərhələsində əsas məqsəd ictimai ədalətlə, inqilabi amalla və İslamın əxlaq dəyərləri ilə birgə olan maddi rifahın təmin olunduğu nümunəvi ölkə qurmaqdan ibarətdir. Bu dörd əsas şərtdən hər hansı biri zəifləsə, yaxud yaddan çıxsa, inqilabın yaşaması və müxtəlif mərhələlərdən keçməsi mümkün olmayacaq.

Maddi rifah istehlakçılıq hissinin yayılması demək deyil. Bunun özü Qərb mədəniyyətinin acı nəticələrindən biridir. Maddi rifah odur ki, ölkə öz insan kapitalına arxalanaraq abadlıq, gözəllik, mədənlərdən və təbii qaynaqlardan istifadə, səhiyyə və sağlamlığın təmini, iqtisadi inkişaf, istehsal və ticarət baxımından məqbul həddə çatsın, elm, mədəniyyət, tədqiqat və təcrübə ümumiləşsin, yoxsulluq və gerilik əlamətləri sona çatsın.

İctimai ədalət odur ki, təbəqələr arasında dərin fərqlər, sui-istifadələr və məhrumluqlar ortadan götürülsün, həmişə inqilabın ən etimadlı və ən sadiq müdafiəçiləri olmuş yoxsul və məhrumlar maddi çatışmazlıqların aradan qaldırılmasına doğru ciddi bir hərəkətin başlandığını hiss və müşahidə etsinlər,

lazımi qanunlarla və hüquqi təhlükəsizliyi təmin etməklə ölkədə məzlumların haqqına təcavüz bitsin; hamı bilsin ki, zülm və təcavüz qarşısında etimadlı bir yerə müraciət edə, çalışıb-işləməklə özünə ideal həyat qura bilər. İnqilabi əhval-ruhiyyə və amal budur ki, rahat həyata və rifaha meyl cəmiyyətin və məmurların qlobal güclərin hegemonluğu qarşısında təslim olmasına, hegemonizmin təxribatlarının unudulmasına və inqilabın beynəlxalq mesajına etinasızlığa səbəb olmasın. İslam Respublikası Allah eləməmiş, rifah və abadlığı əsas məqsədi seçsə, bununla da inqilabi və beynəlxalq amallara göz yumsa və inqilabın beynəlxalq mesajını unutsa, bu bütün ümidlərin sonu demək olacaq. Allah heç zaman belə bir günü göstərməsin. Şübhəsiz ki, İran xalqı əziz İslamı və milli istiqlaliyyəti müdafiə etmək üçün hər şeyini qurban verməyə hazırdır. İslamın əxlaq dəyərlərinə malik olmaq budur ki, fəzilət, təqva, paklıq və səbirlilik ruhu, qadağan olunmuş ehtiraslardan uzaq durmaq, tamahkarlıqdan, dünyagirlikdən, haqsızlıqdan, insafsızlıqdan və hərislikdən çəkinmək, ixlasa, paklığa, zahidliyə və digər xarakterlərə üz tutmaq cəmiyyətdə yayılsın və əsas dəyərlər sayılsın. Bu dörd əsas şərtlə inkişafda olan İslam cəmiyyəti formalaşır, möhkəmlənir, istedadlar çiçəklənir, xeyirxahlıq artır və İslam cəmiyyəti bütün xalqlar üçün gözəl örnəyə çevrilir.[293]

Bu gün müharibə bitmiş, hökumət və parlament tərəfindən quruculuq proqramları hazırlanmış, ixlaslı qüvvələr işə girişmişlər. İndi ölkənin quruculuğunu çox ciddi sayıb maneələri ortadan götürmək hamıya vacibdir. Bu gün İslamın imici müsəlman İranın gözəl bir ölkəyə çevrilməsini, onda iş və yaradıcılığın genişlənməsini, xalqın məişət səviyyəsinin yaxşılaşmasını, yoxsulluğun və məhrumluğun kökünün kəsilməsini, daxili istehsalın xalqın ehtiyaclarına cavab verməsini, ölkənin sənaye və əkinçilik sahəsində özünü təmin etməsini, düşmənin xalqın məişət ehtiyacları vasitəsi ilə təzyiq göstərə bilməməsini və xülasə, dinin, mənəviyyatın kənarında xalqın maddi həyatının da yaxşılaşmasını tələb edir. Bəzi xarici media orqanları israrla inandırmağa çalışırlar ki, inqilabın prinsiplərinə sadiqlik - ümumi rifahdan uzaqlaşmağa, zəif və yoxsul təbəqələrin problemlərini həll etməməyə bərabərdir. Bu sözü elə adamlar danışırlar ki, öz cəmiyyətlərini on illərlə kommunizm təfəkkürü altında bədbəxtliyə sövq etmişlər. Halbuki həmin ölkələrin başçıları da kapitalist ölkələrdə olduğu kimi zadəgan həyatı yaşayır, cəmiyyətin aşağı təbəqələri isə müxtəlif maddi və mənəvi problemlər içində ömür sürürdülər. İslam quruluşunda yoxsulluğun aradan qaldırılması birinci dərəcəli məqsədlərdən biri,

yoxsul və məhrum insanların xilasına çalışmadan inqilabın prinsiplərinə sadiq qalmaq isə mənasız söz və puç iddiadır.

Hökumət və xalq ölkə quruculuğunu inqilabi vəzifə bilməli, qarşılıqlı əməkdaşlıqla, bütün qüvvələri, istedadları, beyinləri və qolları səfərbər etməklə İranı elə abadlaşdırmalı, inkişaf etdirməlidirlər ki, məzlum xalqların qəlbində ümid yaransın, onlar maddi rifah və mənəvi ucalıq yolunu tanısınlar.[294]

Quranın şərafətli ayələrində mühüm bir məsələyə toxunulmuşdur. Biz bunu daim diqqətdə saxlamalıyıq. Bu, gözəl ilahi həyat uğrunda çalışmaqdan ibarətdir: "Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə (imana, haqqa) dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin".[295] Gözəl həyat yalnız yemək, ləzzət almaq və kef çəkmək deyil. Allahın və Peyğəmbərin (s) insanları heyvani həyata dəvət etməməsi buna görədir ki, bütün heyvanlar yemək axtarır və ehtiraslarını təmin edirlər. Onlar qarınları və bir saat daha artıq yaşamaları üçün mübarizə aparırlar. Gözəl həyat Allah yolunda və uca məqsədlərə nail olmaq üçün yaşanan həyatdır. İnsanın uca məqsədi hansı yolla olursa-olsun qarnını doldurmaq deyil. Bu bir heyvanın özünə məqsəd seçə bildiyi ən kiçik məsələdir. İnsan üçün uca məqsəd isə haqqa qovuşmaqdan, Allah-Taalaya yaxınlaşmaqdan və ilahi əxlaqa yiyələnməkdən ibarətdir. Belə bir məqsədə çatmaq üçün insana maddi və mənəvi amillər lazımdır; yemək lazımdır, lakin məqsədə doğru hərəkət etmək üçün. İnsana rahat həyat lazım və zəruridir. İslam öz qanun-qaydaları ilə insanları rifaha və asayişə sövq edir, amma bu asayiş öz-özlüyündə məqsəd deyil. Məişət, qarın və maddiyyat problemi olmayan, lakin insaniyyətdən xəbərsiz olanlar var. Maddi sivilizasiyalar bəşəri belə həyata dəvət edir və təbii ki, həm də yalan deyirlər. Çünki mütərəqqi texnikalara və mənəviyyatsız elmə yiyələnmiş ölkə və quruluşlarda rifah xalqın hamısı üçün deyil, bir qrup üçündür.

Bu gün Amerikada və Avropanın inkişaf etmiş ölkələrində aclıq, yoxsulluq, qida maddələrinin çatışmazlığından yaranan ölümlər, sığınacaq və yaşayış yerinin olmaması, təhlükəsizlik və digər problemlər çoxdur. Bu ölkələrdə yeni texnologiya və elmdən istifadə edənlər xalqın xüsusi təbəqəsidir. Bir qarın çörəkdən ötrü şərəfini, namusunu və şəxsiyyətini satmağa məcbur olan, müxtəlif təhqirlərə dözənlər isə xalqın böyük hissəsini təşkil edir. Bu reallıqdır. Görünənlər gözəl və cazibədardır. Televiziya kameraları və xəbər agentlikləri dünyaya gözəl və gözəçarpan yerləri göstərirlər. Əgər Qərb sivilisasiyası bu qədər elmi inkişafla, kosmosa getməklə, özündə olan, yaxud üçüncü dünyadan, yoxsul ölkələrdən oğurladığı böyük maddi sərvətlərlə öz

ölkələrində yoxsulluğu aradan qaldırdığını iddia etsə, yalan deyir. Maddi sivilizasiya rifaha malik olan belə maddi həyatı da bütün insanlara yarada bilmir.

İslam quruluşunda bir insan yalnız qarnını doldurmaqla xoşbəxt olmur, maddi həyatın, rifahın və təhlükəsizliyin təmin olunmasından əlavə, qəlbində paklıq, səmimilik, digər insanlara qarşı qardaşlıq və fədakarlıq, Allah-Taalaya qarşı bəndəlik və ixlas hissi də olmalıdır. İslam və digər ilahi dinlər insanlar üçün bunu istəyirlər. Deməli, məqsəd maddiyyatdan üstündür, lakin İslam xalqın maddi ehtiyaclarını da təmin edir. Yəni İslam cəmiyyətində bütün insanlar rifaha, asayişə, təhlükəsizliyə və rahat həyata malik olmalıdırlar. Bu nə maddi Qərb sivilizasiyasında var və olacaq, nə də sosialist və kommunist sivilizasiyasında və quruluşunda. Siz onun hansı taleyə düçar olduğunu gördünüz. Belə bir cəmiyyət üçün örnək erkən İslam çağıdır. Bundan ötrü İslam hökmləri yetər.

Biz İslam hökmlərinə əməl etsək və cəmiyyətimiz İslam inancını ilahi qayda-qanunlara əməllə birgə rəhbər tutsa, bəşəriyyətin tarix boyu istədiyi baş verəcək: mənəvi təkamül və inkişafla yanaşı maddi rifah və asayiş. İnsan heyvan kimi deyil ki, qarşısına ot atsınlar və bu ona bəs etsin. İnsan səfalı və mənəviyyatlı yaşamaq, bunlardan və Allaha bəndəlikdən mənəvi həzz almaq istəyir. Siz ibadət etdikdə, mənəvi halda bir dua oxuduqda, diqqətlə namaz qıldıqda, bir yoxsula kömək etdikdə bunlardan həzz alırsınız. Bu həzzi yeməklə duymaq olmur.

Hər bir imanlı insan öz həyatında az-çox belə halları təcrübə etmişdir; bəziləri az, bəziləri çox. Allah bəndəliyinin bu ləzzətini dadmış insanlar Allaha diqqət, ibadət, münacat halında, Allah üçün və Allah qarşısında ağlamaqdan elə həzz alırlar ki, bundan ötrü bütün dünyanı verməyə razı olarlar. Ancaq maddi məsələlər insanı o haldan çıxarır. O hal bəzən yaranır. Mənəvi ləzzət həmin hallarda duyulur. Allahla və mənəvi məqsədlərlə tanış olmayanlar bu ləzzətin nə olduğunu bilmirlər. Bəzi insanlar maddi quruluşların uğursuz sayəsində bir ömür yaşayıblar, amma onlar üçün Allaha diqqət və mənəvi ləzzət halı bir an da yaranmayıb. Onlar mənim və sizin nə dediyimizi anlamırlar.

İslam insanları elə ucaltmaq, qəlbləri elə işıqlandırmaq, bizdən pislikləri elə qoparıb tullamaq istəyir ki, həmin mənəvi ləzzəti yalnız ibadət zamanı yox, həyatımızın bütün anlarında, hətta işdə, dərsdə, cəbhədə, təlim-tərbiyə və quruculuq işlərində də hiss edək. "Daim namaz halında olanların xoş halına!" Onlar iş-güc zamanı da Allahladırlar, yeyib-içərkən də Allahı xatırlayırlar. Belə bir insandan ətrafa nur saçılır. Dünya belə insanlar yetişdirə bilsə,

müharibələrin, zülmlərin, haqsızlıqların və çirkinliklərin kökü kəsilər. Gözəl həyat budur. Gözəl həyatın mənası bu deyil ki, bəzi şəxslər yalnız namaz qılsınlar, ibadət etsinlər, məişət və maddiyyat barədə isə əsla düşünməsinlər. Xeyr! Gözəl həyat dünya və axirətə malik olmaqdır. Gözəl həyat maddiyyat və mənəviyyatın hər ikisinə birgə yiyələnməkdir. Gözəl həyat odur ki, xalq çalışır, quruculuqla məşğul olur, sənayeni, ticarəti və əkinçiliyi rövnəqləndirir, elm və texnikaya yiyələnir, bütün cəhətlərdən müxtəlif inkişaflara nail olur. Amma bu halların hamısında onun qəlbi Allahladır, Onunla hər gün daha çox tanış olur. İslam quruluşunun məqsədi budur; Peyğəmbərlərin gətirdiyi, dünyanın islahatçı şəxslərinin dediyi, son 150-200 ildə İslamın görkəmli şəxsiyyətlərinin elan etdiyi məqsəd budur. İslam düşmənləri də İslamın çantasında nə olduğunu bilib ondan qorxurlar. Onlar İslamın geniş imkanlarla fərd və cəmiyyətləri yetişdirdiyini, maddi güc və sivilizasiyaların hənasının daha rəng tutmayacağını bildiklərinə görə İslama qarşı mübarizə aparırlar. Onlar İslam Respublikasının İslam və Quran bayrağını ucaltdığına görə ona qarşı vuruşurlar. İnqilab, imam və xalq əvvəldən elan etdilər ki, din düşmənlərinin dünya və axirətin həmişə bir-birindən ayrı olduğu haqda təbliğat aparmalarına rəğmən, biz dünya və axirəti bir-birindən ayırmırıq. Bu dünya axirətlə bir və ondan ayrılmazdır. Bu dünyanı abadlaşdırmaq da dini vəzifədir.

Dövrün supergücləri və birinci növbədə iki qüdrətli imperiya əvvəldən başa düşdülər ki, bu yeni düşüncə, quruluş və sivilizasiya qüdrətlənsə, onların bazarları bağlanacaq, quldurluqları, soyğunçuluqları və təcavüzləri üçün - dünya hələ də bu hegemonluqları görür - bir yer qalmayacaq. Buna görə ilk gündən bu yeni varlığın İslam Respublikasının dünya quldurları ilə barışmazlığı duyulan kimi düşmənlik başlandı. Düşmənlər bu günə qədər onun əleyhinə bacardıqları qədər mübarizə aparmış və əngəl törətmişlər.[296]

Allah-Taala maddi nemətlər kimi mənəvi nemətləri də kiməsə asan və ucuz vermir; versə də, ucuz qorumur. Bəşərin nailiyyətləri müntəzəm səydən asılı olduğu kimi, onları qorumaq da belə səyə və fədakarlığa ehtiyaclıdır. Bu gün elmi, texnoloji, siyasi, iqtisadi və digər inkişaflara nail olan sərvətli, qüdrətli xalqların nəyi varsa, çalışmaqdandır. Bu, İslam prinsiplərindən biridir: "Hər kəs fani dünyanı istəsə, orada istədiyimiz şəxsə istədiyimiz neməti tezliklə verərik".[297] Sonrakı ayə dəyərləri, axirəti və ilahi savabı istəyənlər haqdadır: "Mömin olub axirəti istəyən və onun uğrunda (can-başla) çalışanların zəhməti (Allah dərgahında) qəbul olunar. Onların və bunların hər birinə Rəbbinin nemətindən verərik".[298] Deməli, uğur qazanmaq üçün meyar çalışmaqdır və

həmin uğurları qorumaq üçün də çalışmaq lazımdır. Çalışmadan mümkün deyil. Bəşəriyyətin müəllimi olan Quran və tarix bizim önümüzdədir. Allah Quranın bir neçə yerində Bəni-İsrailə müraciətlə buyurur: "Sizi bütün aləmlərdən (insanlardan) üstün tutduğumu yadınıza salın"[299]. Amma həmin Bəni-İsrail öz əməllərinin nəticəsində elə səviyyəyə endi ki, Allah-Taala buyurdu: "Onlara zəlillik, miskinlik damğası vuruldu və Allahın qəzəbinə düçar oldular"[300]. Allahın heç kimlə qohumluğu yoxdur. Hər kəsin səyi öz taleyini müəyyən edir. Buna görə Cümə surəsində yenə Bəni-İsrail haqda buyurur: "Tövrata əməl etməyə əmr olunduqdan sonra ona əməl etməyənlər belində çoxlu kitab daşıyan (lakin onların içində nə yazıldığını bilməyən) ulağa bənzərlər"[301]. Yəni onlar Tövratı qəlblərinə, beyinləri və həyatlarına daxil etdilər, ondan bəhrələndilər, amma sonra onu tərk etdilər. Tövratın zahiri vardı, mahiyyəti isə yox idi. Deməli, mənəvi nemətləri çalışmaqla əldə etmək və bundan sonra çalışmaqla qorumaq lazımdır.[302]

Ölkədə bir-birinin kənarında olan iki şey günbəgün daha artıq həyata keçməlidir. Biri cəmiyyətin İslam görkəmini və atributlarını qorumaqdır. Bu çox mühüm məsələdir. Düşmənlər təbliğatlarında bizə hücumlar edirlər, siz bunlara əhəmiyyət verməyin; düşmən düşməndir. Cəmiyyətin İslam görkəmi qorunmalıdır. Bu cəmiyyət İslam cəmiyyətidir və İslam cəmiyyəti nümunədir. Qadınlar, kişilər ehtiyatlı olsunlar. Vəzifəli şəxslər daha ehtiyatlı olsunlar. İnqilab geyimində olan ruhanilər və inqilaba bağlı digər qüvvələr digərlərindən daha ehtiyatlı olsunlar. Cəmiyyətin üzvləri çalışıb onu əsl İslam cəmiyyətinə çevirsinlər. Mən burada cəmiyyətimizdə azan boşluğuna toxunmaq istəyirəm. Tehranda insanın qulağı azan səsi eşitmir. Nə üçün? Azan bir İslam şüarıdır. Biz gecəyə qədər mikrofon arxasında şeir, Quran, yaxud növhə oxuyub qonşuları narahat etməyə qarşıyıq, buna qarşı mübarizə də aparırıq. Amma günorta, axşam və sübh vaxtı, xüsusən mikrofonsuz azan verilməsi ilə tam razıyıq. Azan çox yaxşı bir şeydir. Nə üçün cəmiyyətdə azan yoxdur? Azan ürəklərə ümid verir, qəmli qəlbləri işıqlandırır. Əlbəttə, sübh azanı üçün səsgücləndiricidən istifadə etməsinlər, adi səslə eybi yoxdur; çünki səsgücləndirici zəhmətə səbəb ola bilər. Cəmiyyətin bütün zahiri işləri belə olsun. Məscidlər namaz vaxtı zikr, səcdə və rüku edən insanlarla dolsun.[303]

Mən Mövləvinin bir hekayəsini hər dəfə yadıma salanda vücudum titrəyir. Müsəlman şəhərlərin birində məsihilər yaşayan bir məhəllə vardı. Məsihi bir qız İslam dininə vurğun olmuşdu, kilsəyə getmir və dini

mərasimlərdə iştirak etmirdi. Ata-anası qızlarını fikrindən döndərə bilmirdilər. Qızın atası pis səsi olan bir azançı və ya qiraətçi tapdı, ona pul verib dedi ki, gəl bizim evimizin yaxınlığında azan ver. O da gedib orada azan verdi. Azançının xoşagəlməz səsi gələndə bütün məhəllə sakinləri narahat oldular. Qız dedi ki, bu nədir? Atası cavab verdi ki, mühüm bir şey deyil, müsəlmanlar azan verirlər. Qız dedi ki, müsəlmanlar belə imişlər?! Bununla da İslam sevgisi onun ürəyindən çıxdı. Mövləvi bunu Məsnəvi kitabında yazır. Bu kitab hikmətli kitabdır və bu da bir hikmətdir.

Bu həqiqətdir. İslama bizim baxışımızdan baxırlar, bizim vasitəmizlə İslam həqiqətlərini görürlər. Bizim səhvimiz İslamın adına yazılır. Müsəlmanların Allah eləməmiş, məğlubiyyəti də İslamın adına yazılar, deyərlər ki, İslam məğlub oldu. Deməyəklər ki, bir qrup adam İslamı düzgün anlamadı, düzgün əməl etmədi və məğlub oldu. Bu gün bizim xalqımızın ən kiçik uğursuzluğu İslam oyanışı hərəkatını 50 il, yaxud daha çox geriyə sala bilər. Afrikada, Asiyada, Orta Şərqdə və hətta Avropa şəhərlərində İslam adını ucaldan və İslam Respublikasının adı çəkiləndə həyəcanlanan gənclər İslamı, inkişafı, imamın nurlu simasını, nurlu sözlərini, ilahi idarəçiliyi, inqilabın sayəsində cəmiyyətin zirvəsindən saçıb bütün təbəqələri az-çox işıqlandıran təqva işığını gördülər. Əgər məğlubiyyət, uğursuzluq və pis çalışmaq olsa, hamısı dəyişəcək və düşmən cürətlənəcək.[304]

Bu xalqın insani, islami, inqilabi və mili-mədəni heysiyyətinin qorunmasının düşmən qarşısında mübarizəyə, müqavimətə, həmçinin düşmənin zəif nöqtələrinə hücuma ehtiyacı var. Bunu özümüzünkülər, doğmalar edə bilərlər. Mənim sözüm budur.[305]

Biz bu böyük və möhtəşəm ölkə ilə, səmərəli tarixlə İslama fəxr sayılan güclü bir xalq ola bilərik. Bu xalq bütün dünyada müsəlmanlara örnək ola bilər. Bunlar mümkündür və Allaha şükür olsun ki, indiyədək belə də olmuşdur.[306]

İslam quruluşu ilahi bir nemətdir. Allah-Taala zahirən imkansız görünən bu fenomeni tarixi ənənələrə və bəşər dünyasına hakim qayda-qanunlara uyğun olaraq həqiqətən Öz sonsuz qüdrətli ilə həyata keçirdi. Bu birinci növbədə İran xalqına, sonrakı mərhələdə bütün dünya müsəlmanlarına və hətta deyə bilərik ki, bütün dünya məzlumlarına Allahın bir hədiyyəsi idi. Bütün ilahi nemətlər kimi bu ilahi hədiyyənin, Allah-Taalanın bu böyük lütfünün də xalqda zəmanət sənədi yoxdur. Əgər bu neməti yaxşı saxlasaq, qalacaq, günbəgün artıb

çiçəklənəcək, daha çox fayda yetirəcək. Əgər Allah eləməmiş, tələf etsək, bu əmanəti qorumasaq, Allah-Taalanın bizə dərs olsun deyə Quranda adlarını dəfələrlə çəkdiyi insanlar kimi olacağıq: "Tövrata əməl etməyə əmr olunduqdan sonra ona əməl etməyənlər (Tövrata yükləndikdən sonra onu daşımayanlar) belində çoxlu kitab daşıyan (lakin onların içində nə yazıldığını bilməyən, onlardan faydalanmağı bacarmayan) ulağa bənzərlər"[307].[308]

Hegemon qüvvələrin İslamla düşmənliyinə və beynəlxalq zülmlərə qarşı mübarizə yolu elə yol deyil ki, İslam Respublikası nə zamansa ondan dönəcəyini söyləyə bilsin. Bu, İslamın ilk əmri və İslam Respublikasının varlığının fəlsəfəsidir.[309]

Siz bu gün zalım hakimlərin İslamdan qorxduqlarına və ziyan çəkdiklərinə görə ona qarşı mübarizə aparmağa qərar verdikləri bir dünya qarşısındasınız. Siz belə qüvvələr qarşısında İslamı başıuca yaşatmağa qərar vermisiniz. Bu çox mühüm məsələdir. Mən deyirəm ki, siz bu işin öhdəsindən gələcəksiniz və gözü götürməyənlərin acığına, siz İslamı ucaltmağa layiqsiniz.

Dünya güclüləri, qızıl və güc imperatorluqları elə bilməsinlər ki, Avropada və İslam ölkələrində müsəlmanlara qarşı göstərdikləri bu təzyiqlərlə İslamı səhnədən çıxara biləcəklər. İslam günəşinin doğuşu zamanı çatmışdır və İslam səhnədə qalasıdır. İslamı təcrid edə bildikləri dövr arxada qaldı. Uzun illər İslamı o qədər təcrid etmişdilər ki, daha ondan qorxmurdular, onlar üçün heç bir təhlükəsi yox idi. Onların İslamı fərari, gizlənmiş İslam idi və müsəlmanlar "Biz müsəlmanıq" deməyə utanırdılar.[310]

Bilin ki, düşmən ayıqdır. Qlobal hegemonizm bu inqilaba zərər yetirmək qərarında qalır. Ötən 11 ildə İslam Respublikasının, İslam quruluşunun Allahın yardımı ilə geri çəkilməməsi, qüvvə və qüdərtlə yolunu davam etdirməsi düşmənlərin bizə zərbə vurmaq istəmədiyinə görə deyil. Onlar zərbə vurmağa çalışdılar, lakin şeytanın hiyləsi zəifdir və düşmən Allahın əmrinə müti olan və birləşmiş mömin xalq qarşısında acizdir. Düşmənin zahiri nə qədər təmtəraqlı olsa da, mahiyyəti zəifdir. ABŞ zahiri baxımdan güclü, qüdrətlidir, amma onun gücü maddi gücdür və maddi insanlara təsir edir, ilahi və Allahı sevən mömin xalqa yox. Əgər böyük maddi güclərin qarşısında Allahı sevən mömin bir xalq olsa, həmin güclər nə qədər qüdrətli olsalar da, bir iş görə bilməzlər. Onlar indiyədək İran xalqına qarşı bir iş görə bilməmişlər, bundan sonra da görə bilməyəcəklər. Çünki bundan sonra da o, zəif, İran xalqı isə güclü olacaq. Bu şərtlə ki, imanımızı, birliyimizi və sayıqlığımızı qoruyaq. Bu zaman heç bir güc

İran xalqı, onun inqilabı və dini əleyhinə ciddi bir iş görməyə qadir olmayacaq. Bəli, məqsədləri təxirə salması və çətinlik yaratması mümkündür, amma bizim xalqımızı məğlub edə bilməyəcək. Çünki xalq güclü və qüdrətlidir.[311]

İran xalqı bilməlidir ki, inqilabı qorumaq, izzət və şərəf bayrağını yüksəkdə saxlamaq və bu şərəfli xalqın dünya xalqları, xüsusən də müsəlmanlar önündə açdığı fəxr dolu mübarizə yolunu davam etdirmək quldurların zülm və təzyiqinə üstün gəlməyin yeganə amilidir. Düşmənlərin İslam inqilabı və respublikası əleyhinə təxribatlarını zərərsizləşdirməyin yeganə yolu inqilabın təməl prinsiplərini və dəyərlərini qorumaqdır. Bu mübarizə yolu hegemonizmin beynəlxalq istismarına qarşı şüarı bütün aləmə yayan və qlobal istismarçı sistemin təməllərini titrədən uğurlu amildir. Bu yol İran xalqını bundan sonra da düşmənlərin bütün təxribatlarına qalib edəcək.[312]

Doğrudur, Allahın köməyi ilə biz güclüyük, düşmən bizim inqilabımıza, xalqımıza və ölkəmizə ən kiçik zərər belə yetirməyə qadir deyil, beynəlxalq təxribatlar bu xalqın imanı qarşısında zəif və acizdir, amma yenə də düşməni yaddan çıxarmaq olmaz. Bütün xalq öz inqilabını, bu qədər qan bahasına başa gəlmiş İslam Respublikası quruluşunu, İslamını və ölkədə İslam qanunlarının bərqərar olunmasını ehtiyatla qorumalıdır. Bu, xalqın bütün təbəqələrinin borcudur. Təqvanı, inqilabın təməllərin qorumağı, İslam qanunlarına əməl etməyi və günahdan çəkinməyi unutmayın, Allahı yada salmağı başlıca işiniz bilin. Heç kəs deməsin ki, mən işimi gördüm, indi istədiyimi edə bilərəm. Allah yolunda mübarizənin və yüksək dərəcəyə çatmağın müəyyən vaxtı yoxdur. İmam Xomeyni doxsana yaxın yaşlarında da işləyirdi, çalışırdı. Bizim imamımız ən ağır məsuliyyətləri ahıl çağında üzərinə götürdü. Bizim imamımızın və bütün böyüklərimizin rəhbərləri olan hidayətçi və məsum imamlar ömürlərinin son anlarına qədər Allah yolunda çalışmışlar. Vəzifə heç zaman qurtarmır.[313]

Bizim ata-babalarımız uzun illər zalım hakimiyyətlər dövründə yaşadılar; nə mübarizə vardı, nə böyük bir iş görülürdü, nə də Allah tərəfindən uğur onlara nəsib olurdu. İran xalqının indiki nəsli isə bu böyük səadətə nail oldu, Allah-Taala onu dünyada İslamı diriltməyə müvəffəq etdi. Bu xalq bütün dünyada müsəlmanların örnəyi, dünya xalqlarına nümunə oldu, İslam düşmənlərinin uzun illər İslam əleyhinə çəkdiyi zəhmətləri puç etdi, Qurana və dinə əsaslanan bir hakimiyyət qurdu, müsəlmanların qəlbində ümid yaratdı, dünyanın hər

yerində İslam hərəkatları baş qaldırdı və İslam hissləri canlandı. Allah-Taalanın bu dövrdə bizə və xalqımıza verdiyi bu uğuru qorumalıyıq. Bu çox böyük bir nemətdir. Övladlarınızın maddi məsələlərə cəlb olunmasına və adi dünya adamlarına məxsus işlərə könül vermələrinə qoymayın. Dünyəvi istəklər bütün insanlara və heyvanlara məxsusdur. Bu kimi məsələlərə hətta könül vermək və məftun olmaq da adi və orta səviyyəli bir insan həddinə enməklə nəticələnir. Bu dövrə, özü də bu qrupa məxsus insan dəyərlidir və dəyərli olmaq adi səviyyədən yüksəkdə durmaq deməkdir. Buna görə də yenidən süqut etməyə qoymamalıyıq. Əsas vəzifə budur.[314]

Biz inqilab şüarlarını, rəftarını və yolunu başqa heç bir şeydən üstün tutmur və bu maddi dünyada bundan da artıq yüksəlmənin mümkünlüyünü düşünürük. Bu dünyada düşüncəsi və ideyası olan udur. Biz böyük bir xalqıq və dünyanın mühüm nöqtəsində yerləşirik. Bizim dünya xalqlarına təsirimiz var. Biz taleyi, xeyir-şəri yalnız özünə bağlı olan bəzi xalqlar kimi kənara düşmüş bir xalq deyilik. Bu gün bizim varlığımız, sözümüz, şüarımız, yolumuz və qaldırdığımız bayraq öz sərhədlərimizdən xaricdə olan insanların böyük bir hissəsinə təsir göstərir.[315]

### 3- Mədəni hücuma qarşı mübarizədə gənclərin rolu

Ölkəmizin bütün əhalisi, xüsusən də məlumatlı və ayıq təbəqələr bilsinlər ki, mədəni müstəqillik olmadan bir xalqın müstəqilliyi tam təmin oluna bilməz. Bir xalq siyasi baxımdan böyük güclərin təsiri altında olmasa və iqtisadi baxımdan özünü tam təmin etsə də, həmin xalq arasında düşmənlərin, əcnəbilərin mədəniyyəti, əxlaqı, etiqad və inamları yayılıb inkişaf etdiyi təqdirdə müstəqil olduğunu iddia edə bilməz. Dünyada mədəni işlərin idarəsi bir qrupun əlində cəm olub. Onlar bütün dünyada günahsız və xəbərsiz insanlar üçün məişət tərzi, geyim, əxlaq və mədəniyyət formalaşdırır, örnək müəyyən edirlər. Bir xalq özünü əcnəbilərin hazırladığı və yaydığı zəhərli mədəni hücumdan qoruya bilsə, müstəqil xalq sayıla bilər; qoruya bilməsə, əcnəbilərin və düşmənlərin formalaşdırdığı yad mədəniyyətin təsiri altına düşsə, asılı və əsir bir xalq olar, iqtisadi və siyasi baxımdan özünü müstəqil bilsə də, mədəniyyəti idarə edənlərin təsiri altında olar. Bu gün bütün dünyada qlobal hegemonizmin mədəniyyətini və dünya supergüclərinin istədiyi ənənələri yaymaq məqsədi ilə yüzlərlə radio, gündəlik və həftəlik nəşr olunan yüzlərlə qəzet və jurnal fəaliyyət göstərir. Onlar bu mədəniyyətə etiraz edənlərə qarşı, öz siyasətlərinə tabe olmayan və siyasi qərarlarına qarşı çıxanlara nisbətən dəfələrlə sərt təpki

göstərirlər. Onlar mədəniyyətin təsirinin daha dərin və daha həlledici olduğunu bilirlər.

Soruşa bilərsiniz ki, məgər Qərb mədəniyyəti, Avropa və Amerika mədəniyyəti nədir ki, biz ondan qaçmalı və qarşısında beynimizi bağlamalıyıq. Bu mühüm sualdır. İnqilabdan sonra xalq müəyyən həddə bunun cavabını tapmışdır. Lakin yenə də bu barədə bir neçə cümlə demək istəyirəm. Qərb mədəniyyəti insanın fəsadına hesablanmış, bəşəri dəyərlərə düşmən, qızıl və güc sahiblərinin və qüdrət imperatorlarının əlində alət olmuş bir mədəniyyətdir. Bu mədəniyyətlə Adəm övladlarını bütün insani dəyərlərdən ayırmaq, insanları əxlaqsız, müti, təslimçi, Allahdan və mənəviyyatdan xəbərsiz məxluqlara çevirmək istəyirlər. Onların maraqları bu mədəniyyəti yaymaqla təmin olunur. Bu çılpaqlıq mədəniyyəti və qadınla kişinin qeyd-şərtsiz qarışması Qərb mədəniyyətinin əsaslarından biridir, ilk gündən insanların fəsadı və bəşəriyyətin insani dəyərlər çərçivəsindən ixrac edilməsi üçün düşünülüb. Onların bəşəriyyətə ürəkləri yanmır.

Ən böyük televiziya və radio kanalları ən böyük zavod və mədənlərin sahiblərinə və ən varlılara məxsusdur. Sionizm təşkilatı bəşər nəslini fəsada çəkmək üçün 100-150 il öncədən plan cızmış, fəsadı və pozğunluğu yaymağa başlamışdır. Onlar qadınları bəşər ismətindən uzaqlaşdırdılar. Müsəlman ölkələrinin və digər uzaq ölkələrin qadınları öz yerində, heç Avropa və Amerika qadınları da fəsada, pozğunluğa və insani dəyərlərdən uzaqlaşmağa son 50-60 ildəki qədər ifratçı şəkildə düçar olmamışdılar. Onlar kişiləri də fəsada, tənbəlliyə, eyş-işrətə və istehlakçılığa sürüklədilər, heyvani yaşayış tərzinə məcbur etdilər. Dünyanın müxtəlif ölkələrində supergüclərin istibdadı və müstəmləkəsi altında olan kişi və qadınların mənəvi paklığının qarşısını almaq üçün beyinləri korladılar.

Bu gün Afrikada və Latın Amerikasında müstəmləkəyə çevrilmiş ölkələrin əhalisinin əxlaq fəsadı son həddədir. Onlar öz-özlərinə belə olmamışlar. Müstəmləkə və hegemonizm onları fəsada sürükləmək, onlardan gələcək təhlükənin, mübarizə və oyanışın qarşısını almaq, özlərinin müstəmləkəçi və hegemon mərkəzlərinin şeytani imperatorluğunu qorumaq üçün proqramlar icra etmişlər. Mənfur Pəhləvi sülaləsinin hakimiyyətindən qabaq bizim xalqımıza qarşı uyğun proqramların icrasına başladılar, bu mənfur rejimin dövründə isə həmin prosesi gücləndirdilər. Müstəmləkəçilik və hegemonizm bu muzdur ailənin şahlığı dövründə cəmiyyətdə Qərb mədəniyyətinin genişləndirilməsinə çox çalışdı və təəssüf ki, məqsədinə nail oldu. Bu gün ölkə daxilindəki bəzi iranlı ailələrdə həmin adət-ənənələrə, geyim

və davranış tərzlərinə təmayül görünürsə, bu, Qərbdəki rəzil və xəyanətkar müəllimlərinin on illərlə bu ölkədə geniş yayılmış təlimlərinin nəticəsidir. İnqilab baş verib xalqın mədəniyyətində və fikirlərində möhtəşəm dəyişiklik yaratsa da, hələ də Qərb həyat tərzi üçün sino gedən bir çox şəxslər təəssüf ki, çirkin bataqlıq olan Qərb mədəniyyətinin fəsadlarından - qadın və kişinin şəxsiyyəti və ailə kimi prinsipial bəşəri təməllərin heç birinin sağlam qalmadığı fəsadlardan xəbərsizdirlər.

Baxın, bu gün ABŞ və İngiltərədə homoseksualizm rəsmiləşmiş, qanuniləşmişdir. Onlar bundan xəcalət çəkmirlər, bizim danışmağa utandığımız işləri görürlər. Allah şahiddir ki, mən onların oturub açıq-aşkar qəbul və elan etdikləri məsələni deməyə utanıram, amma xalqımız bilsin: iki həmcinsin – iki kişinin və ya iki qadının bir-biri ilə evlənməsinin qanunla mümkun olduğu bir ölkədə ailə təməli qalarmı?!

Bu gün hakimiyyətdə olanları və onların təbliğatçılarını çıxmaq şərti ilə, ABŞ və Avropa xalqları ailə təməlinin sarsılmasından narahatdırlar. Qadın və kişilər ailə institutunun məhv olunmasından eyni dərəcədə əziyyət çəkirlər. Bu hal günü-gündən artır və təbii ki, son zərbədir. Ailə insanın rahatlaşdığı ocaqdır. Rahat və dinc ailə olmadan heç bir insan həyatın əsl ləzzətini dada bilməz. Onlar bu təməlləri dağıdıb məhv edirlər. Qərb mədəniyyəti budur. Belə azadlığın, pozğunluğun, çılpaqlıq mədəniyyətinin və qadın-kişi qarışmasının nəticəsi məhz budur.[316]

Biz Avropa tərbiyəsinin təsiri altında olduğumuz illərdə çoxlu ziyanlar gördük. Onları aradan qaldırmaq üçün uzun müddət çalışmaq lazımdır.[317]

Həqiqət budur ki, insan həyatı müqəddəs məqsədə sərf olunduqda məna kəsb edir. Müqəddəs bir məqsədi izləməyən, qiymətli ömrünü və həyat adlı sərvətini eyş-işrətə sərf edən şəxs onu tələf etmişdir. Mən bir dəfə belə həyatı yemək üçün yaşayan insanın həyatına bənzətmişdim. Bu həyatın məqsədi yeməkdən başqa bir şey deyil. Yemək bir nümunə kimi deyilir, əslində digər maddi məqsədlər – məsələn, eyş-işrət, ağalıq, hökmranlıq, təkəbbürlülük etmək, əmr vermək, qadağa qoymaq və yuxarı başda oturmaq da belədir. Belə məsələlərə könül verməmək üçün Allaha sığınmalıyıq. Belə bir həyat sanki bir avtomobili yanacaqdoldurma məntəqəsinə aparıb bakını benzinlə doldurmağa, sonra sürməyə bənzəyir. Məqsəd də budur ki, növbəti yanacaqdoldurma məntəqəsinə çataq, yanacaq bakını yenidən benzinlə dolduraq, maşınımız hərəkət edə bilsin, yol qət etsin və yenidən başqa bir yanacaqdoldurma

məntəqəsinə çatsın. Yəni bu maşının həyatı bu yanacaqdoldurma məntəqəsindən o biri məntəqəyə gedib benzin doldurmaqla, yol getməklə və növbəti yanacaq yerinə çatmaqla keçir; başqa bir yolla getmədən, özümüzə məqsəd seçmədən, ondan ötrü təhlükəli səhradan keçmədən, kiməsə xidmət etmədən. Həyatda belə maddi işlərin, bir neçə gün daha rahat yaşayıb öz ömrünü xəyali ucalıqla keçirməyin məqsəd olması bir insan üçün nə qədər böyük ziyandır! Halbuki insan bu ucalığın xəyali olmasını, onun dünyada milyonlarla insanda məhv, puç, tələf və mənasız olmasından anlaya bilər.[318]

Mən siz əziz xalqa, xüsusən də gənclərə demək istəyirəm ki, dini məsələlərə əməl edin, vacib əməllərin qədrini bilin, İslama inancınızı ona əməllə tamamlayın, əxlaq fəsadına və etiqad yayınmasına qarşı çıxın, özünüzü fiziki, psixoloji baxımdan, düşüncə və iman cəhətindən günbəgün gücləndirin. İnşallah bu xalq özünün bütün düşmənlərinə qalib gələcəyi, onların bu ölkəni və bu xalqı istismar etmək tamahlarını bütünlüklə əldən verəcəkləri günü görəcək.[319]

Quran bizə deyir ki, ruhdan düşməyin və qəmgin olmayın, siz daha üstünsünüz. Bunun ardınca isə buyurur: "Əgər mömin olsanız".[320]

Dediyim bu sözlərin hamısı o zamana aiddir ki, bizim Allahla rabitəmiz yaxşı olsun. Bu, siz əziz gənclərin təqvalı olduğu zamana aiddir, siz qadın və kişinin dini qorumağa, günahın şirinliklərinə təslim olmamağa, şeytanın təhriki qarşısında müqavimət göstərməyə çalışdığınız zamana aiddir. Və siz bunları bacararsınız. Biz sizin bacardığınızı görmüşük. Şeytanın ən böyük vəsvəsəsi canı qorumaq haqdadır. Siz müharibə zamanı düşmənin başımıza yağdırdığı müntəzəm atəşləri altında nə qədər irəlilədiniz, qorxmadınız. Yoldaşınızın şəhid olduğunu, pak və müqəddəs cəsədinin yanınıza düşdüyünü gördünüz, amma eyni zamanda düşmənin üzərinə getdiniz. Orada şeytanın təhriki çox güclü olur, şeytan qorxudur. Lakin o sizi qorxuda, ələ ala bilmədi. Günah qarşısında da ələ ala bilməyəcək. Bilin ki, bu gün ölüm oxuduğunuz düşmənlərin silahlarından biri gənclərimizin qarşısında toxumlar səpməkdir; günah toxumu, günah gözəlliklərinin toxumu, fəsad cazibələrinin toxumu. Düşmən onları özünə sarı çəkmək istəyir. Güclü nəfs dayanmalı, bu gözəlliklərə təslim olmamalıdır. Ehtiyatlı olun. Bizim Bəsic üzvü olan gənclərimiz mömin, təmiz və pakdırlar. Lakin onların arasında güclü ruhu olmayan, düşmənin və şeytanın hiyləsinə təslim olanlar da ola bilər. Burada təqva işə yarayır. Təqva odur ki, daim özümüzdən ehtiyatlı olaq və səhvə düşməyimizə imkan verməyək. Bizim

silahlarımızdan biri duadır. Bizim dua silahımız, münacat silahımız, ağlamaq silahımız var. Biz qorxudan heç vaxt ağlamırıq. Dünyada heç kəsdən və heç bir qüvvədən qorxmuruq. Lakin mömin bir insan üçün ən böyük fəxr budur ki, öz Allahının əzəməti qarşısında göz yaşı töksün, öz halına ağlasın, günahlarına və günahda keçirdiyi ömrə görə təəssüflənsin. Allaha yalvarın və hər şeyi yalvarmaqla Allahdan istəyin. Bu güclü qol, bu güclü və polad iradə dua ilə təsirli olur. Əziz Peyğəmbər (s) və Əmirəlmöminin (ə) döyüşdə də dua edir, yalvarıb Allah-Taaladan istək diləyirdilər. Bizim əziz imamımız da müharibədə dua edirdi.[321]

Görürsünüz ki, bu gün dünya qarşılıqlı mübarizə halındadır. Bir tərəf müxtəlif qisimli yanlış işlər görür və xalqları zülmə məruz qoyur. Dünyanın zülmlə dolmasının əlamətləri görünür. Hakim qüvvələrin mənfur əlləri dünyanı zülmlə doldurmuşdur. Harada onların zülmündən əlamət yoxdur?! İmam Əlinin (ə) o zaman bir hərbçiyə buyurduğu sözü bu gün hegemon cəbhəyə aid etmək olar: "Zülm və sitəmlərinin daxil olmadığı, fəsad və pozğunluqlarının əhatə etmədiyi nə gildən düzəldilmiş bir ev, nə də yundan toxunmuş bir çadır (var)"[322]. Zülmləri bütün dünyanı bürümüşdür. Dünyanın hegemon və quldurlarının beynəlxalq zülmü bizim üzərimizə bir vəzifə qoyur. O vəzifə nədir? Zülmlə mübarizə. Bizim xalqımızın işi zülmlə, ədalətsizliklə, haqsızlıqla mübarizədir. Bu mübarizəni necə aparmaq olar? Bu mübarizəni bəlkə əliyalın və silahsız aparmaq olar, amma elmsiz, biliksiz, imansız aparmaq olmaz; Allah eləməmiş, yetkinləşməkdə olan nəslin bikarlığı və avaralığı ilə aparmaq olmaz. Bu mübarizəni tam sayıqlıqla, imanla, bütün təbəqələrin, xüsusən də gənc və yeniyetmələrin hərtərəfli fəaliyyəti ilə aparmaq lazımdır.[323]

Siz tələbələr, şagirdlər və gənclər gələcək nəsil və sonrakı dövr üçün inqilabın əsas təməllərisiniz. Bu gün də sizin inqilaba çoxlu təsiriniz var, çünki gəncsiniz. Siz bu gün də siyasi, hərbi, quruculuq və digər hər hansı sahədə iştirak etmək istəsəniz, inqilabın aktiv qüvvələri olarsınız, sabah isə onun əsas təməlləri olacaqsınız. Bu gün təsirli qüvvələrsiniz, lakin sabah əsas təməllər olacaqsınız. Çalışın inqilabı köklü surətdə, elmi və məntiqi əsasları ilə birgə düzgün tanıyın.

İndi həmin qanlı günlərdən on bir il ötür. İran xalqının gənc nəslinin özündən qabaqkı qara günləri unutmağa haqqı yoxdur. İran xalqının möhtəşəm hərəkətində gənc nəsil öncül olmalıdır. Gənc nəsil, xüsusən də gənc tələbə nəsli üçün laqeydlik və soyuqqanlılıq yolverilməzdir. Ölkənin taleyini düşünməyən,

dünyada ölkəsi əleyhinə planlaşdırılan hadisə və düşmənlikləri görməyən, onlara qarşı etiraz fəryadını ucaltmayan bir gənc özünə inqilabçı xalqın gənc vətəndaşı adını qoymağa layiq deyil. Gənclər çətin dönəmlərdə ölkə və xalqların dadına çatan, onları xilas edən aktiv qüvvələrdir. Bugünkü nəslin gənci Rza xanın və Məhəmmədrza şahın repressiv dövründə yaşamadığı üçün bəxtəvərdir. Ozamankı gənclərin çəkdiyi çətinliklər heç zaman bugünkü gənclərin yadından çıxmamalıdır. Əlbəttə, bu fədakarlıq təkcə bizim millətə məxsus deyil. Digər xalqların gənc və yeniyetmələri də ölkələrinin işğalı, yaxud xalqlarına hakim olan qapalı və qorxunc dövrdə fədakarlıq etmişlər. Bu gün siz gənclərin vəzifəsi budur ki, inqilabı bütün vücudunuza, ruhunuzun dərinliklərinə apara, inqilab anlayışını, onun ideoloji əsaslarını dərindən dərk edə, bu xalqın ehtiyacı olan vaxt üçün özünüzdə saxlayasınız. Bu ehtiyac iki cəbhədə özünü göstərir: Birinci cəbhə inqilabı iqtisadi, hərbi və ya siyasi baxımdan təhdid edən cəbhədir. Siz o ehtiyatı inqilabı və ölkəmizi zamanın tələblərinə uyğun şəkildə qorumaq üçün işlətməlisiniz. İkinci cəbhə quruculuq cəbhəsidir. Ən yaxşı qurucular inqilabçı qurucılardır. İnqilaba uyğun gözəl dünyanın ən yaxşı qurucuları inqilabdan çağlayan və ruhlarına inqilab hopmuş şəxslərdir. Siz gənclər özünüzü hər an bu iki cəbhəyə hazırlamalısınız.

Mən bütün qrupları tanıyan, pərdə arxasında cərəyan edən beynəlxalq proseslərdən, düşmən hiylələrindən xəbərdar olan və inqilabın əvvəlindən onlarla işləyən bir insan kimi deyirəm: Əziz gənclər! Düşmən sizin əleyhinizə böyük sərmayələr ayırmışdır. Diqqətinizi toplayın. Onlar bir qrupu laqeydliyə çağırır, bir qrupu ümidsiz və məyus edirlər. Ümidsizlik gəncin ən böyük bəlasıdır. Gənclər məyusluğun gənc ruhuna təəssüf ki, daha tez yol tapdığını bilsinlər. Ümid də belədir. Özünüzdə düşmənin gənclərə təlqin etmək və sırımaq istədiyi ümidsizlik qarşısında müqavimət yaradın. Düşmən paklıq və səmimilik tərənnümü olan gənci fəsada, müxtəlif natəmizliklərə və napaklıqlara çəkmək, eləcə də yanlış siyasi təfəkkürlər aşılamaqla onların bir qismini doğru yoldan yayındırmaq istəyir. İnqilabın əvvəllərində bu ölkədə bir qrup gənc əllərinə silah götürüb Şərqin və Qərbin mübarizə apardığı inqilabçı dövlətlə vuruşmağa başladılar. Düşmən bu yazıq uşaqların beyninə yanlış siyasi fikir yeritmişdi. 1979-1980-ci illərdə tələbələr Tehran Universitetində barrikada qurub, silah götürüb inqilabçı dövlətə və xalqa atəş açırdı. Bu iş hansı meyarla başadüşüləndir?! İnqilabın düşmənləri qarşısında sinəsini sipər etməli və həyatı bahasına olsa belə, inqilabı qorumalı olan bir tələbənin özü inqilabın bəlasına çevrildi. Bu əsla inanılası deyildi, lakin baş verdi.

İnqilab ona qarşı çıxmaq istəyən heç bir amilə dözməyən coşqun dalğadır. İnqilab onları və onlardan böyüyünü də yuyub apardı. Bəzi qüvvələr inqilabla razılaşıb birtəhər özlərini qurtara bildilər, bəzi qüvvələr isə bu təlatümlü okeanda batıb məhv oldular. Və heç şübhəsiz, mənəvi məhvləri fiziki məhvlərindən daha təhlükəlidir.

Bu gün gənci inqilabın məsul şəxslərindən, öncüllərindən və ölkənin rəhbərlərindən ayrı olduğunu duymağa sövq edən hər bir fikir düşünülmüş şəkildə təlqin edilən yanlış siyasi təfəkkürlərdəndir. Bu gün xalq və iqtidar əl-ələ verib bir-birinin yanında dayanmalı, bütün gücləri ilə müstəmləkəçiliyin və hegemonizmin bütün tilsimlərini qırmağa və məhv etməyə çalışmalıdırlar. Bu çox əhəmiyyətli və həssas bir məsələdir. Sizi hidayət edəcək və etməli olan təfəkkür İslam təfəkkürüdür. Siz universitetlərdə İslam təfəkkürünə çox əhəmiyyətli yanaşmalısınız.[324]

Nə qədər ki, əsl Məhəmməd (s) İslamı yolunda hərəkət var, pusqu qurmuş və nifrətini toplamış düşmən də olacaq, müqəddəs İslam quruluşuna qarşı təxribat, xəyanət və fəsad da. Və nə qədər ki, bu təhdidlər var, inqilabın fədailərinin, səmimi övladlarının və qüdrətli köməkçilərinin olması da həyati zərurət kəsb edir.[325]

**İslam cəmiyyətinin mənəvi yayınmasına dair sayıqlıq**

Aşura dərsdən əlavə bir ibrət səhnəsidir. İnsan ibrət almaq üçün bu səhnəyə baxmalıdır. İbrət almaq nə deməkdir? Yəni özünü vəziyyətlə ölçüb hansı halda olduğunu, nəyin təhdid etdiyini və nəyin lazım olduğunu bilsin. Buna ibrət deyillir. Məsələn, siz yolla gedəndə bir avtomobilin çevrildiyini, qəzaya uğradığını, əzildiyini, sərnişinlərinin öldüyünü görür, dayanıb baxırsınız. Nə üçün? İbrət almaq üçün. Yəni sizə məlum olsun ki, bu şəkildə sürücülük etmək nə ilə nəticələnir. Bu da başqa növ dərsdir, ibrət yolu ilə dərs almaqdır. İndi bunu bir qədər artıq açıqlamaq istəyirəm.

Aşuradan aldığımız ibrət budur ki, görək necə oldu Peyğəmbərin (s) vəfatından əlli il sonra İmam Hüseyn (ə) kimi bir şəxs İslam cəmiyyətini xilas etmək üçün belə fədakarlığa məcbur oldu. Bir zaman bu fədakarlıq İslamın erkən çağından min il sonra edilir, yaxud İslamla müxalif və düşmən olan ölkə və xalqlar arasında edilir. Bu başqa məsələdir. Lakin Hüseyn ibn Əli (ə) İslamın, Peyğəmbər (s) vəhyinin mərkəzi olan Mədinə və Məkkədə elə vəziyyətlə üzləşir ki, böyük bir qanlı fədakarlıqdan başqa çıxış yolu görmür. Bu, diqqətəlayiq məsələdir. Məgər vəziyyət necə idi ki, Hüseyn ibn Əli (ə) İslamın

yalnız onun fədakarlığı ilə yaşayacağını, əks təqdirdə, əldən çıxacağını düşündü? İbrət bundadır. Biz baxıb görməliyik ki, necə oldu İslam cəmiyyətinə Yezid kimi bir adam hakim oldu? Rəhbər və peyğəmbərləri Məkkə və Mədinədə müsəlmanların əlinə bayraq verir, onlar da Ərəbistan yarımadasının ucqar bölgələrinə və Şam sərhədlərinə gedib Roma imperiyasını təhdid edir, düşmən əsgərləri də onların önündən qaçır və müsəlmanlar qələbə ilə qayıdırdılar. Məscidlərində Quran səsi ucalan belə bir İslam cəmiyyəti, Peyğəmbər (s) kimi bir şəxsin öz səsi və nəfəsi ilə xalqa Quran ayələrini oxuduğu, nəsihət verdiyi, insanları hidayət yolunda sürətlə apardığı bir cəmiyyət və ölkə necə oldu ki, İslamdan bu qədər uzaq düşdü və Yezid kimi bir şəxs hakimiyyətə gəldi? Nə üçün vəziyyət elə bir həddə çatmalıdır ki, Hüseyn ibn Əli (ə) kimi bir adam tarixdə misli görünməyən böyük fədakarlıqdan başqa çıxış yolu tapmasın? Nə oldu ki, cəmiyyət bu vəziyyətə düşdü? Bu, ibrətdir. Bu gün biz buna diqqət yetirməliyik. Bu gün biz bir İslam cəmiyyəti kimi baxıb görməliyik ki, İslam cəmiyyətində hansı nöqsan yarandı və onun nəticəsində Yezid xəlifə oldu? Necə oldu ki, İmam Əlinin (ə) şəhidliyindən iyirmi il sonra xəlifəlik etdiyi bir şəhərdə onun övladlarının başlarını nizələrə taxıb küçələrdə gəzdirdilər. Əmirəlmömininin (ə) əlində qamçı Kufənin bazarlarında gəzir, insanları yaxşı işlərə dəvət edir, pis işlərdən çəkindirirdi. Onun məscidindən gecə-gündüz Quran səsi gəlirdi. İndi isə bu şəhərdə onun qızlarını və ailəsini əsir kimi bazarda gəzdirirlər. Necə oldu ki, iyirmi ildən sonra belə bir vəziyyət yarandı? Cavab budur ki, başında İslam Peyğəmbəri (s) və Əmirəlmömininin (ə) kimi bir şəxsin durduğu cəmiyyəti bir neçə onillikdən sonra bu vəziyyətə çatdıracaq bir xəstəlik var. Bu, təhlükəli xəstəlikdir və biz də bundan ehtiyatlı olmalıyıq. Bizim böyük imamımız özünü Peyğəmbərin (s) bir şagirdi saysaydı, fəxrin zirvəsində durardı. Onun fəxri Peyğəmbərin (s) təlimlərini dərk, onlara əməl və onları təbliğ etməsi idi. Bizim imamımız hara, Peyğəmbər (s) hara?! Peyğəmbərin (s) qurduğu bir cəmiyyət bir neçə ildən sonra o vəziyyətə düşdüsə, bizim cəmiyyətimiz çox ehtiyatlı olub bu xəstəliyə tutulmamalıdır. İbrət bundadır. Biz o xəstəliyi tanımalı, böyük bir təhlükə bilməli və ondan qorunmalıyıq. Mənim fikrimcə, bu gün Aşuranın bu mesajı bizim üçün digər dərs və mesajlarından daha vacibdir. Biz bilməliyik ki, o cəmiyyətin başına nə gəldi və nə üçün İslam dünyasının birinci şəxsi, müsəlmanların xəlifəsi olan Əli ibn Əbu Talibin (ə) oğlu Hüseyn ibn Əlinin (ə) başı atasının xilafət kürsüsündə oturduğu bir şəhərdə gəzdirildi və heç bir hadisə baş vermədi. Görək necə oldu ki, həmin şəhərdən gələn insanlar Kərbəlada onu və səhabələrini susuz şəhid etdilər və Əlinin (ə) ailəsini əsir apardılar? Bu barədə söz çoxdur. Mən bu suala

cavab olaraq bir Quran ayəsi söyləyəcəyəm. Quran bizim cavabımızı vermişdir. Quran dərdi və xəstəliyi müsəlmanlara göstərir. O ayə budur: "Onlardan sonra namazı tərk edib şəhvətə uyan bir nəsil gəldi. Onlar (cəhənnəmdəki) Fəyy dərəsinə düşəcəklər".[326] Bu ümumi azğınlığın əsl səbəbi iki amildir: Biri timsalı namazdan ibarət olan Allah zikrindən uzaqlaşmaq, Allahı və mənəviyyatı yaddan çıxarmaq, duanı, zikri, ibadəti, təvəssülü, Allah-Taaladan uğur istəməyi, Allaha arxalanmağı unutmaq və həyatda ilahi qaydaları kənara qoymaqdır. İkinci amil isə nəfsin, ehtirasların ardınca getmək, dünyagirlik, mal-dövlət toplamağa çalışmaq, dünya ehtiraslarına qurşanmaq, onları əsas saymaq və amalları unutmaqdır. Bu, mühüm və böyük dərddir. Bizim də bu dərdə düçar olmamız mümkündür. Əgər bizim İslam cəmiyyətimizdə amalçılıq hissi itsə, yaxud zəifləsə və hər kəs özü haqda düşünsə, dünya işlərində digərlərindən geri qalmamağa çalışsa, özünü və öz maraqlarını cəmiyyətin maraqlarından üstün tutsa, eyni vəziyyətin yaranacağı bəllidir. Məlumdur ki, şüarları zəiflətmək, İslam və inqilab prinsiplərinə etinasız yanaşmaq, hər şeyi maddi qaydalarla anlamaq və bəyan etmək cəmiyyəti belə vəziyyətə doğru aparır. Onlar bu səbəbdən həmin vəziyyətə düşdülər. Bir zaman müsəlmanlar üçün İslamın inkişafı, Allahın razılığı, din təlimi, İslam və Quran bilgiləri ilə tanışlıq önəmli idi, hökumət - ölkəni idarə edən komanda iman, təqva, dünya bəzəklərinə və şəxsi ehtiraslara etinasız idi. Bunun nəticəsində xalq Allaha doğru böyük hərəkət etdi. Belə bir vəziyyətdə Əli ibn Əbu Talib (ə) kimi bir şəxsiyyət xəlifə, Hüseyn ibn Əli (ə) kimi bir şəxsiyyət görkəmli şəxsiyyət olur. Meyarlar bunlarda hamıdan çoxdur. Meyar Allah, təqva, dünyaya etinasızlıq, Allah yolunda mücahidlik olduqda, bu meyarlara malik olan insanlar daha önə çıxır, cəmiyyəti idarə edirlər və cəmiyyət İslam cəmiyyəti olur. Lakin ilahi meyarlar dəyişildikdə kim daha dünyagir, daha şəhvətpərəst, şəxsi mənafeyi əldə etmək üçün daha bacarıqlı, həqiqətə və səmimiyyətə daha yaddırsa, iş başına gəlir. O zaman nəticədə Ömər ibn Səd, Şimr və Übeydullah ibn Ziyad kimilər başçı olurlar, Hüseyn ibn Əli (ə) kimilər qətlgaha aparılır, Kərbəlada şəhid olurlar. Bu, qəti bir qaydadır; ikini ikiyə vuranda dörd edir.[327]

İslam Peyğəmbərinin (s) vəfatı ilə onun ciyərparəsinin şəhadəti arasında əlli il fasilə düşdüsə, dövrümüzdə bu fasilənin çox az olması, dəyərlərin və dəyər sahiblərinin daha tez qətlgaha aparılması mümkündür. Belə bir halın yaranmasına qoymamalı, düşmənin bizi məcburən sürüklədiyi yayınma qarşısında möhkəm dayanmalıyıq. Aşuradan ibrət almaq budur.[328]

Əsas vəzifəni təyin etmək müsəlmanların həmişə zəif cəhətlərindən olmuşdur. Yəni xalq, İslam dünyasının qabaqcıl və görkəmli şəxsləri müəyyən bir dövrdə əsas vəzifəni səhv anlayıb, onun nə olduğunu bilmir, nəticədə yerinə yetirmir, lazım olduqda digər işləri ona qurban vermir və nəyin ikinci dərəcəli vəzifə olduğunu anlamırlar. Hər bir işə özü qədər əhəmiyyət vermək və uğrunda çalışmaq lazımdır.[329]

Bir xalqın oyanış əlamətlərindən biri budur ki, anları tanısın, zamanı başa düşsün və əhəmiyyətinin nə qədər olduğunu bilsin.[330]

Sayıqlıq bir xalq üçün çox dəyərli amildir: "Dövründən xəbərdar olan insana şübhələr hücum etməz"[331]. Dövrə və düşmənin təxribatına dair məlumatın və ayıqlığın xüsusiyyəti budur.[332]

Düşmən bizim indiki vəziyyətimiz qarşısında 100, 50 il öncəki hərbi jesti tutmur. Buna əsasən, düşmənin yeni üsullarını bilmək lazımdır. Təbii ki, bilib yatsaq da məhv olacağıq, "Kimsə yatmışdırsa, bu onun düşməninin də yatması anlamına gəlmir"[333] sözü bizə aid olacaq. Döyüş adamı oyaq olmalıdır. Sən yatmısansa, bu, qarşı səngərdəki düşmənin də yatması demək deyil; onun oyaq olması da mümkündür.[334]

Düşmən heç zaman düşmən görkəmində qarşıya çıxmır, nifaqla, ikiüzlülüklə, hiylə ilə, təbliğatla, şayiə yaymaqla, məyus etməklə, milli, tarixi, məzhəbi və digər maraqları qabartmaqla özünü göstərir. Odur ki, xalq sayıq olmasa, İmam Həsənin (ə) dövründə və digər dövrlərdə müsəlmanların başına gələnlər onun da başına gələcək. O zaman haqq xalqın ayıq olmadığına görə məğlub oldu. Deməli, əvvəlcə ayıqlıq olmalıdır. Bu olduqda birlik də olacaq.[335]

İlahi mənəviyyatın İrandan ibarət mərkəzi dünyanı bütün zülm, təcavüz və çirkinlikləri rədd etməyə çağırır. Buna görə qlobal güclər bu mərkəzi fiziki cəhətdən məhv etmək, bacarmadıqları təqdirdə isə mahiyyətini dəyişdirmək qərarına gəlmişlər. Belə bir şəraitdə bizim vəzifəmiz budur ki, bir tərəfdən mənəvi təhriflə mübarizəyə hazır olub inqilabımızı daxildən məhv etməyə qoymayaq, digər tərəfdən isə qüvvələrimizi fəal, güclü və hazır saxlayaq.[336]

Bu gün bizim əleyhimizə hərbi hücum yoxdur. Düşmənin açıq şəkildə bizə qarşı vuruşduğu səkkiz il ərzində də zahirdə bizə qarşı vuruşan İraq idi,

amma onun arxasında ABŞ, NATO və bütün mürtəce dövlətlər dayanmışdılar. Biz bunu müharibənin səkkiz ili boyu dəfələrlə dedik, amma çoxları inanmaq istəmədi. Bu gün isə İraqı bizim əleyhimizə silahlandıranların özləri bunu etiraf edirlər. Hərbi müharibə zamanı əslində bütün küfr və hegemon dünyası İslamla və İslam Respublikası ilə mübarizə aparırdı. Bu gün hərbi hücumdan başqa bütün hücumlar bənzərsiz şiddətlə davam edir. Odur ki, İslam cəmiyyəti bu hücumun qarşısında canlı, sayıq, güclü, ümidli, zərbə vurmağa hazırlıqlı olmalı və müqavimət göstərməlidir.[337]

Bir (oğrudan) soruşdular ki, nə edirsən? Cavab verdi ki, nağara çalıram. Dedilər ki, bəs səsi nə üçün çıxmır? Dedi ki, səsi sabah çıxacaq. Əgər siz xalq və mədəniyyət işçiləri Allah eləməmiş, ayıq olmasanız, düşmənin məxfi və peşəkar hücumu nəticəsində mənəvi dəyərlərin dağılmasının səsini elə bir vaxt eşidəcəksiniz ki, daha çarə qılmaq mümkün olmayacaq.[338]

Bəzi maddi ehtiyacların və kiçik məsələlərin ayıqlığın qarşısını almasına qoymayın, ayıqlığınızı qoruyun, düşməninizi tanıyın. Düşmənin müxtəlif hiylələri var və yalnız aldanmayan xalq uğur qazanacaq. Düşmən imanlı bir xalqın inqilabçı arzularını onların nəzərində kiçiltməyə, maddi və kiçik ehtiyacları böyük göstərməyə çalışır. Maddi ehtiyac da ehtiyacdır, amma hər halda candan üstün deyil. Allah yolunda canını qurban verməyə hazır olan bir xalq üçün düşmənlə mübarizədə digər ehtiyacların nə təsiri ola bilər?! Siz dünyanın bugünkü və dünənki siyasətlərinə baxın. Görün qlobal hegemonizm və avtoritorizmin nə zaman müqəddəs İslam quruluşu əleyhinə təxribat planları olmamışdır?! Onlar İslamın yayılmasından qorxurlar. Açıq şəkildə deyirlər ki, İslam ölkələrində islamçı-inqilabçı təmayüllər genişlənməkdədir. Bu həqiqətdir. Bizim özümüz də bunu görürük.

Bu gün İran xalqı təcrid olunmuş bir xalq deyil. Dünyada müxtəlif ölkələrə, misal üçün, Avropanın ürəyinə baxın. Oraya gedənlərdən soruşun, görün insaniyyət düşmənlərinin mühasirəsində qalmış Bosniya-Herseqovina xalqı kimi bir xalq siz iranlı gənclərin xeyrinə necə şüar verir, alınlarına lent bağlamaqla sizi necə yamsılayır! Görün yolun sizin getdiyiniz yol olduğunu və düşməni məğlub etmək üçün həmin yolu getməli olduğunu necə hiss etmişdir! Bu, günbəgün genişlənən İslam hissləridir. Bu hisslərin mərkəzi sizin müqqəddəs İslam ölkəniz olmuşdur və indi də belədir. Bu səbəbdən hegemonizm müntəzəm şəkildə proqram hazırlayır. Proqramları elədir ki, insan ayıq şəkildə baxsa, onları anlaya bilər.[339]

Bir cəmiyyətin daxili zəifliyinin düşmən hücumuna şərait yaratması doğrudur, amma düşmən öz imkanları ilə sağlam bir cəmiyyəti məcburən həmin zəifliyə sürükləyir. Odur ki, səhvə yol verməк olmaz. Bu gün İslam cəmiyyətinin istiqaməti təəssüf ki, bütün İslam dünyasına pəncə uzatmış qlobal hegemonizmə qarşı olmalıdır.[340]

Bir cəmiyyətin rəftarından onun öz kimliyini və heysiyyətini müdafiə etməyə qadir olub-olmadığını anlamaq olar. Xalqın ictimai və ölkə məsələlərindən çox fərdi məsələlərə əhəmiyyət verdiyi, gənclərin fəsada doğru getdiyi, aparıcı şəxsiyyətlərin inqilabın mənafeyinə laqeyd yanaşdığı, ölkənin maraqlarına etinasız olduğu, siyasi, dini, milli ixtilafların, qrup və sinif maraqlarının zirvəyə yüksəldiyi, kişi və qadınların eyş-işrətə, fəsad və rifaha can atdığı bir cəmiyyət özünü, öz maraqlarını, şərəfini və heysiyyətini müdafiə etməyə qadir ola bilməz. Siz bunu gördünüz, yaşlı adamlar gördülər, gənclər də eşitdilər ki, son 100-150 ildə müstəmləkə bizim ölkəmizin, gənclərimizin mədəniyyətinə, bizim məktəblərimizə necə nüfuz etdi, xalqı bikarlığa, fəsada, ixtilaflara və bu kimi işlərə sövq etdi. Bunların səbəbi o idi. Xalqın öz mənafeyini, şəxsiyyətini, xeyrini və gələcəyini müdafiə edə bilməməsini istəyirdilər. Düşmən bir cəmiyyətin özünü müdafiə edə bilmədiyini duysa, bilin ki, təhdid ciddi olacaq, düşmənin niyyəti həyata keçəcək və zərbəsini vuracaq. İnqilabdan sonrakı on ildə bütün problemlərlə yanaşı düşmənin müxtəlif hücumları qarşısında duruş gətirməyimizin və bizdən çox onların zərər çəkməsinin səbəbi bu idi ki, xalqımıza inqilabi əhval-ruhiyyə, dindarlıq və sözbirliyi hakim idi. Xalqımız dinin, inqilaba inamın, İslamın, sözü Quran və İslam məzmunu olan böyük şəxsiyyətin, Quran və İslam təlimlərinin sayəsində bu on ildə müqavimət göstərə bildi və düşmən bizə hücumdan xeyir götürmədi. Düşmən deyəndə yalnız İraq rejimini nəzərdə tutmuram. O, düşmənlərdən yalnız biri idi. Bu bir neçə ildə ABŞ bir xeyir götürmədi, Şərq və Qərb əl-ələ verib İslam Respublikasına təzyiq göstərəndə də xeyir götürmədi. Bizim bu uğurumuzun səbəbi siz gənclərin səhnədə olması, xalqın hazırlığı və inqilabi hissin qeyri-inqilabi hisslərə üstün gəlməsi idi. Belə olduqca düşmənin təhdidləri həyata keçməyəcək. Düzdür, təhdid var, düşmənin çirkin niyyəti var, təhlükə var, amma siz səhnədə olduqca ciddi problem yaranmayacaq.[341]

**5- Yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirməkdən ibarət olan mühüm vacib əməli dirçəltmək**

İslamın əsas hökmlərindən biri və bütün İslam vaciblərinin bərpa olunmasının zəmanətçisi olan "yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək" qaydası bizim cəmiyyətimizdə canlanmalıdır. Hər bir fərd yaxşılığın çoxaldılması, pisliyin, sapqınlığın və fəsadın məhv edilməsi üçün məsuliyyət hiss etməlidir. Biz hələ xalqın dünya və axirət xoşbəxtliyini tam şəkildə təmin edən, fəsadın, azğınlığın, zülmün və tənəzzülün kökünü qazan kamil bir İslam cəmiyyətinə çox uzağıq. Bu məsafə xalqın iradəsi və məmurların fəaliyyəti ilə qət olunmalıdır. Bu, yaxşı işlərə dəvətin və pis işlərdən çəkindirmənin ümumiləşməsi ilə asanlaşa bilər. Məscidlər mənəviyyat, paklıq və hidayət yerləri olaraq günbəgün daha canlı, daha rövnəqli olmalı, hər yerdə, o cümlədən dövlət qurumlarında, idarələrdə, universitetlərdə hamı imana, əmələ, İslam əxlaqına və Quranın nurlu təlimlərinə həvəsləndirilməlidir. Allahın kitabı xalqın işlərində həqiqətən rol oynamalı, onu öyrənmək, üzərində dərindən düşünmək hamı üçün, xüsusən də gənc və yeniyetmələr üçün adi bir işə çevrilməlidir. Bu sahədə din alimləri, məlumatlı insanlar, yazıçılar, natiqlər və informasiya vasitələri çox mühüm və böyük məsuliyyət daşıyırlar.[342]

Yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək məsələsi müsəlmanların daimi vəzifəsidir. İslam cəmiyyəti yaxşı işlərə dəvət etməklə və pis işlərdən çəkindirməklə canlı qalır, İslam hakimiyyəti bununla yaşayır. Əgər bu olmasa, "Allah pislərinizi yaxşılarınıza hakim edər, sonra yaxşılarınız dua etsə də, qəbul olunmaz"[343]. İslamın və yaxşıların hakimiyyətinin yaşaması cəmiyyətdə yaxşı işlərə dəvət etməkdən və pis işlərdən çəkindirməkdən asılıdır. Bu, boynumuzdan vəzifənin götürülməsi üçün yalnız iki kəlmə söz demək deyil; o da ən mühüm olması bəlli olmayan pis işlər qarşısında. Yaxşı işlərə dəvət etməyin və pis işlərdən çəkindirməyin cəmiyyətin bütün fərdlərinə vacib edilməsi nə deməkdir? Bir xalqın bütün fərdləri nə zaman yaxşı işlərə dəvət edə və pis işlərdən çəkindirə bilərlər? Hamısının ölkə məsələlərində həqiqətən iştirak etdiyi zaman. Hamı cəmiyyətin işlərində fəal iştirak etməli, onlara əhəmiyyətli yanaşmalıdır. Hamı ayıq olmalı, yaxşı və pis işləri tanımalıdır. Bu isə ictimai nəzarət, ümumi iştirak, əməkdaşlıq və hamıda yüksək ayıqlıq deməkdir. Yaxşı işlərə dəvət etməyin mənası budur. Biz bu vacib əməli məhdud bir dairəyə və müəyyən şəxslərə aid etsək, düşmən də təbliğat apararaq bundan sonra İranda hicabı düzgün olmayan qadınlara qarşı hansısa tədbirlərin görüləcəyini deyəcək və bu, yaxşı olmayacaq. Yaxşı işlərə dəvətin mənası budur ki, hər şeyin möhkəmlənməsinə səbəb olan bu böyük vacib əməli gətirib yalnız Tehranın küçələrinə, özü də misal üçün, hicabları düzgün olmayan bir

neçə xanıma aid etsinlər?! Mömin qüvvələrin cəmiyyətin müxtəlif sahələrində iştirak etməsinin mənası budur?! Məsələ bunlardan böyükdür. Günahlar bir ölçüdə, eyni və təkcə fərdi günahlar da deyil. Ən böyük günahlar quruluşun təməllərini zəiflədən günah və cinayətlərdir. Xalqı ümidsiz, ümidli qəlbləri məyus etmək, doğru yolu əyri göstərmək, mömin və ixlaslı insanları azdırmaq, İslam cəmyyətində müxtəlif vəziyyətlərdən sui-istifadə etmək, düşmənə kömək göstərmək, İslam hökmlərinin və İslam qanunlarının icrasına qarşı çıxmaq, mömin nəsli fəsada sürükləmək - bunların hamısı daha əhəmiyyətli olan pis işlərdəndir. Bu gün bəzi əllər fəsadı gənclərin arasında sizin küçədə görəcəyiniz, anlayacağınız formada yox, hissolunmaz şəkildə, qruplaşma formasında və düşmənin rəhbərliyi altında yaymağa çalışır, oğlanları fəsada və laqeydliyə sürükləyirlər. Bunlar pis işlərdir.

Pis işlər həm əxlaqi, həm siyasi, həm də iqtisadi ola bilər. Pis işlərdən çəkindirməyin yeri barədə xüsusi məhdudiyyət də yoxdur. Bir tələbə dərs oxuduğu yerdə, bir işçi öz idarəsində, bir tacir ticarət etdiyi yerdə, bir sənət adamı özünün sənət əsərləri ilə pis işlərdən çəkindirə bilər. Ruhanilər də müxtəlif yerlərdə yaxşı işlərə çağıran və pis işlərdən çəkindirən ən mühüm qüvvələrdən biridirlər. Allahın bu böyük vacib əməlini kiçik dairələrlə məhdud etmək olmaz. Bu, xüsusi bir qrupa məxsus deyil, hamının işidir və hər kəsin üzərinə bir vəzifə düşür. Mən yayılan təşəkkür müraciətində dedim ki, müxtəlif təbəqələr yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək məsələsində öz yerlərini tutmalıdırlar. Hər kəsin bir yeri var. Harada pis işlərdən çəkindirməli, hansı bəyənilməz işə qarşı çıxmalı olduğunuzu bilməniz mühüm məsələdir. İş xalqın işidir. Təbii ki, din alimləri pis işləri izah etməklə və onlardan çəkindirmə yollarını söyləməklə xalqa kömək etməlidirlər.

Hamımız təhlükələri tanımalı, İslam cəmiyyətinin təhdid olunduğu yerləri düzgün təyin etməliyik. Yaxşı işlərə dəvət etməkdə və pis işlərdən çəkindirməkdə ən mühüm məsələ budur ki, mömin və hizbullahçı qüvvələr, yaxşı işlərə dəvət edən, pis işlərdən çəkindirən və buna maraq göstərənlər İslam quruluşunda səhnədə olmalı və hər yerdə iştirak etməlidirlər.[344]

Bəsic üzvü səhnədə olmalıdır ki, inqilabın əsas dəyərləri yaşasın... Bu dəyərləri kim müdafiə edə bilər? Dünyaya, şəxsi maraqlarına könül verməyən mömin gənc dayanıb dəyərləri müdafiə edə bilər. Özü çirkab və problem içində olan şəxs dəyərləri müdafiə edə bilməz. İnqilabı, İslamı və İslam dəyərlərini müdafiə edə bilən qüvvə ixlaslı gənclərdir. Buna görə mən bir müddət öncə dedim ki, hamı yaxşı işlərə dəvət etməli və pis işlərdən çəkindirməlidir. İndi də

deyirəm ki, pis işlərdən çəkindirin. Bu, vacibdir. Bu gün yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək həm şəriət vəzifəsi, həm də sizin inqilabi və siyasi borcunuzdur. Yaxşı işlərə dəvət etmək namaz kimi vacib əməldir. Nəhcül-bəlağənin bir xütbəsində buyurulur ki, yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək ümumi və geniş mənasında hətta cihaddan da üstündür.[345] Çünki dinin təməlini bərkidir. Cihadın əsasını da yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək möhkəmləndirir. Məgər bizim məmurlarımız yaxşı işlərə dəvət edəni və pis işlərdən çəkindirəni nəinki digərlərindən aşağı, heç digərləri ilə bir tuta bilərlər?! Hizbullahçı gənc də sayıq olmalıdır. Gərək gözlərini açsın və kiminsə onun sıralarına qoşulub yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək adı altında fəsad törətməsinə və hizbullahçıların imicini ləkələməsinə qoymasın. Gərək ehtiyatlı olasınız. Bu sizin üzərinizə düşür. Mən əminəm, bu bir neçə ilin təcrübələri də göstərib ki, mömin və hizbullahçı qüvvələr bir iş görmək üçün meydana atılan kimi bir qrup yalançı və yad adam onların adı ilə bir tərəfdə fəsad törədir, məmurlarda mömin, hizbullahçı və xalqçı qüvvələrə qarşı pis fikir yaradırlar. Ehtiyatlı olun. Yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək məsələsini namaz kimi öyrənmək lazımdır. Gərək gedib öyrənəsiniz. Harada və necə yaxşı işlərə dəvət etməyin və pis işlərdən çəkindirməyin yolları var. Əlbəttə, mən deyirəm və öncə də demişəm ki, İslam cəmiyyətində ümumi xalqın vəzifəsi dillə yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirməkdir. Əgər toqquşmaya gəlib çatsa, bu daha məmurların vəzifəsidir; onlar işə qoşulmalıdırlar. Lakin dillə yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək daha mühümdür. Cəmiyyəti islah edən amil dillə pis işlərdən çəkindirməkdir. Pis, qanunsuz iş görən, pozğunluğu yayan, cəmiyyətdə günahı adiləşdirmək istəyən insana camaat - on nəfər, yüz nəfər, min nəfər deməli, ictimai rəy təzyiq göstərməlidir. Bu ən güclü amildir.[346]

Sözü təkrar-təkrar demək günahkara qarşı ən yaxşı üsuldur. Pis işlərdən çəkindirmək üçün iradə, qərar, qüvvə və cəsarət lazımdır. Xalq cəsarətlə və inamla cəmiyyətdə siyasi, iqtisadi, idari və mədəni pozuntuların qarşısını almalı, pis işlərdən çəkindirməklə heç kimə qeybət etməyə, yalan danışmağa, şayiə yaymağa, təxribat aparmağa, zəif işləməyə, narazı salmağa, xalqın malını oğurlamağa və digərlərini rüsvay etməyə imkan verməməlidirlər.[347]

İnqilabın xeyrini istəyənlər, İslam və inqilab təlimlərini sevən ziyalılar, döyüşçü gənclər, şəhid və veteran ailələri səhnədə olmalı, pis işlərdən çəkindirməkdən ibarət olan ilahi vacibə əməl etməklə və sayıqlıqla insanların

aşağılanmasına, rüsvay edilməsinə, xalqın malına və namusuna təcavüzə mane olmalıdırlar.[348]

Qayğıkeş insanlar cəmiyyətdə ilahi meyarların dəyişilməsinə qoymamalıdırlar. Əgər cəmiyyətdə təqva meyarı dəyişilsə, təbii ki, Hüseyn ibn Əli (ə) kimi təqvalı bir isnanın qanı töküləcək. Əgər dünya uğrunda zirəklik və çeviklik, İslam dəyərlərinə etinasızlıq və yalan meyar olsa, təbii ki, Yezid kimi birisi hakimiyyətə gələcək, Übeydullah kimi bir şəxs İraqın birinci adamı olacaq. İslamın bütün işi bu batil meyarları dəyişdirmək idi. Bizim inqilabımızın bütün işi də dünyanın batil və səhv maddi meyarlarına qarşı çıxmaq, onları dəyişdirmək idi. Əgər dünya maddiyyat üzərində dayansa, təbii ki, Məhəmmədrza kimi azğın, üzüqara və şəhvətpərəst adamlar iş başında, imam kimi dəyərli və nurlu bir insan isə həbsdə, yaxud sürgündə olacaq. Belə bir vəziyyətdə imamın yeri cəmiyyət deyil. Zor, fəsad, yalan və dəyərsizlik hakim olduqda dəyər sahibi, sədaqətli, işıqlı, irfan sahibi olan Allah adamının yeri zindanlar, qurbangahlar, qətlgah çalalarıdır. İmam kimi birisi hakimiyyətə gələndə isə vərəq çevrildi, şəhvətpərəstlik, dünyagirlik, asılılıq və fəsad təcrid olundu, təqva, zahidlik, paklıq, nuranilik, cihad, insanlara qayğıkeşlik, rəhm, mürüvvət, qardaşlıq və fədakarlıq baş qaldırdı. İmamın gəlməsi bu xislətlərin, bu fəzilətlərin gəlməsi, bu dəyərlərin ortaya qoyulması deməkdir. Əgər bu dəyərləri qorusanız, imamət sistemi də qalacaq. O zaman daha Hüseyn ibn Əli (ə) qətlgaha aparılmayacaq. Bəs bunları əldən versək necə? Bəsic ruhiyyəsini əldən versək necə? Vəzifə, məsuliyyət və ilahi amal yerinə öz şəxsi dəbdəbəmiz haqda düşünsək necə? Allah yolunda çalışmaq üçün meydandan başqa bir şey istəməyən Bəsic gəncini, mömin və ixlaslı gənci cəmiyyətdən təcrid etsək, üzlü, tamahkar, gözləntili, səfasız və mənəviyyatsız adamı qabağa çəksək necə? O zaman hər şey dəyişəcək... İnqilab ruhunun cəmiyyətdə təcrid olunmasına və inqilab övladının kənarda qalmasına yol verməyək.[349]

Siz gənclər həmişə səhnədə olmalı, İslam Respublikasının qüdrətli olduğunu daim göstərməlisiniz. Bütün ölkədə olan möminlər, Bəsic üzvləri və hizbullahçı qüvvələr elə etməlidirlər ki, ABŞ-ın, sionistlərin və digər düşmən qüvvələrin İslam Respublikasından ümidləri tamamilə kəsilsin.[350]

## İkinci hissə: Qadınların İslam mədəniyyətində mövqeyi və mədəni hücuma qarşı mübarizədə rolu

### 1- Qərbin qadına baxışı

Bugünkü Avropa mədəniyyətinin kökü qədim Roma mədəniyyətinə qayıdır. Yəni bu gün bütünlüklə Avropa və Qərb mədəniyyətinə və onun ardınca Amerika mədəniyyətinə hakim olan adətlər Roma imperiyasında mövcud olan qayda və prinsiplərdir. Bugünkü meyarlar onlardan ibarətdir. O zaman da qadınlara yuxarı başda yer verib hörmət edir, müxtəlif zinət əşyaları ilə bəzəyirdilər. Amma nə üçün? Kişidə mövcud olan ən aşağı və ən maddi bir hissi doyurmaq üçün. Bu, insana və qadına qarşı necə də böyük təhqirdir![351]

Avropalılar yeni sənaye yaratdıqlarında, yəni Qərb milyonçularının böyük zavodlar açdıqları 19-cu əsrin əvvəllərində ucuz, iddiasız və başağrısız işçi qüvvəsinə ehtiyacları oldu. Bu zaman onlar qadını ailədən çıxarıb zavodlarda ucuz fəhlə kimi işlətmək, öz ciblərini doldurmaq, qadını yüksək mövqeyindən endirmək üçün qadın azadlığı məsələsini qaldırdılar. Bu gün Qərbdə müzakirəyə çıxarılan qadın azadlığı həmin nağılın davamıdır. Qərb mədəniyyətində qadına olan zülm, Qərbin mədəni və ədəbi əsərlərində qadına yanlış yanaşma tərzi bütün tarixdə misilsizdir.

Keçmişdə hər yerdə qadına zülm olunub, amma belə ümumi və əhatəli zülm son dövrə aiddir və məhz Qərb mədəniyyətindən qaynaqlanır. Qadını kişilərin kef çəkməsi üçün alət edib, adını Qadın azadlığı qoydular. Ancaq bu, əslində qadınların yox, qadınla ehtirasını doyuran kişilərin azadlığı idi.

Qərblilər təkcə iş və sənayedə yox, ədəbiyyat və incəsənətdə də qadına zülm etdilər. Siz bu gün hekayələrə, romanlara, rəsm əsərlərinə və incəsənətin digər sahələrinə baxın, görün qadına hansı gözlə baxılır. Qadında olan müsbət cəhətlər və uca dəyərlər nəzərə alınırmı?! Allah-Taalanın qadının vücudunda əmanət qoyduğu analıq hissi, övlad tərbiyəsi, övladını qorumaq və bu kimi incə duyğular, mehriban və şəfqətli rəftar nəzərə alınır, yoxsa ehtiras cəhətləri?! Onlar çox yanlış olaraq bunun adını eşq qoyurlar. Bu eşq deyil, ehtiras və şəhvətdir. Onlar qadını belə yetişdirmək, buna alışdırmaq istədilər. Onlar qadını əli və ürəyiaçıq istehlakçı, iddiasız və ucuz işçi sayırlar, İslam isə bunları qadına dəyər bilmir.[352]

Avropada və Qərb ölkələrində bir müddət öncəyə qədər qadınların müstəqil əmlak hüququ yox idi. Mən bir dəfə buna dair dəqiq statistika çıxardım

və bir söhbətdə - deyəsən üç-dörd il bundan öncəki cümə namazında söylədim. Bu gün irəli sürülən bütün iddialara, Qərbdə günbəgün daha artıq müşahidə olunan maraqlı və qəribə hicab qadağasına, sonsuz və nəzarətsiz cinsi pozuntulara baxmayaraq, - onlar elə bilirlər ki, bu, qadına hörmət və dəyərdir - iyirminci əsrin əvvəllərinə qədər qərbli qadının özünə aid sərvətdən azad istifadə etmək haqqı olmamış, əri qarşısında öz şəxsi əmlakına sahib sayılmamışdır. Bir qadın ərə getdikdə onun sərvəti və bütün mülkü ərinin ixtiyarına keçirdi, ondan istifadə etməyə haqqı çatmırdı. Nəhayət, iyirminci əsrin əvvəllərində tədricən qadınlara mülkiyyət hüququ, iş hüququ verildi. Yəni o vaxta qədər qadın ən elementar insan haqlarından məhrum idi. Digər tərəfdən, İslamda da hörmət olunan sözügedən həqiqi dəyərlərin tam əksi üzərində daha çox təkid olundu. Bizim hicab barədə bu qədər təkidimizin səbəbi budur. Bizcə, qadın geyimi haqqında edilən söhbətlər də çox lazımlıdır.[353]

Qərbin qadına baxışının qaynağı Avropadır. Düzdür, sionistlər də qadınla rəftara və qadın hərəkatına dair bu yanlış mədəniyyəti təbliğ edirlər. Lakin onlar bu mədəniyyəti yaradanlar deyil, ondan istifadə edənlərdir.

Geriyə getdikcə, Avropanın daha qədim tarix, həmçinin mədəni-incəsənət kitablarında və Qərbin vəziyyətini göstərən romanlarda bu məsələ daha qabarıqdır, qadına qarşı rəftar İslamın rədd etdiyi şəkildədir. Avropada və Qərbdə kişi cinsi qadından hər bir formada ləzzət almağa haqlı sayılır və bu, qədim Roma mədəniyyətində müxtəlif formalarda mövcud olmuşdur. Qadın zadəgan olanda onunla bu rəftar bir səviyyədə olur, rəiyyət qadını, yoxsul və savadsız olanda başqa səviyyədə. Bəllidir ki, qadından belə sui-istifadə bəzən ona bir kompliment deməklə başlayır, lakin bu kompliment əsla həqiqi hörmət deyil, əslində təhqirdir. Bunun aydın nümunələri var. Mən misal çəkmək istəmirəm. Bunlar həqiqət olsa da, bir qədər ədəbdən kənar ola bilər. Mən xahiş edirəm xanımlar bu məsələ üzərində düşünsünlər və aydın misalları tapıb qadınlara başa salsınlar. Bəzən Qərb cəmiyyətində qadına hər hansı şəkildə hörmət olunursa, kino ulduzlarına, sənətkarlara və gözəllik müsabiqələrinin iştirakçılarına guya hörmət edirlərsə, bu, təhqir məqamında hörmət və hörmət formasında təhqirdir. İnsanların xüsusi həyatında buna aydın misallar var, onu tapmaq və nə demək olduğunu anlamaq olar. Hörmət formasında təhqir məsələnin problemlərindən biridir. Əgər qadın kişi ilə belə münasibətlərə qatılsa, zalım Pəhləvi rejimindəki kimi olar. O zaman qadın cəmiyyətdə çılpaqlığa, müxtəlif modlara, gözəlliyini nümayiş etdirməyə və normadan kənar dəbdəbəyə sövq edilirdi.[354]

Təəccüblü budur ki, Qərbdə qadın dəyəri haqda bütün iddialara, yalançı və zahiri işlərə rəğmən, ailədaxili münasibətlər təəssüfləndiricidir. Yaxud bizim çox geriqalmış və mürtəce ailələrimizdə olan ər-arvad münasibətləri, misal üçün, arvadı döymək, bədənini qaraltmaq, kiçik məsələlərdən ötrü öldürmək adəti təəssüf doğurur. Mən iki-üç il bundan öncə Amerika jurnallarının birində bir statistika gördüm. Belə məsələlərə görə ərlərindən şikayət edən qadınların sayı heyrətləndirici rəqəmi göstərirdi. Bu, yalançı Qərb dünyasında qadına qarşı mövcud reallıqlardan xəbər verir. Bu, tərəqqi və təkamülün maneələrindən biridir.[355]

Mənim bacılarım! Qərb dünyası qadını pozğunluğa sürüklədi. 60-70 il bundan öncəyə qədər bütün Avropa və Qərb ölkələrində qadın təkcə kişinin – ya öz kişisinin, ya zavod, tarla sahibi kimi başqa bir kişinin ixtiyarında ola bilərdi, sivil bir cəmiyyətdə olan əsas insan hüquqlarından heç birinə malik deyildi, səsvermə, mülkiyyət və alış-veriş haqqı yox idi. Sonra qadını ictimai fəaliyyətlərə çəkdilər, amma bu halda da onun azması üçün bütün vasitələri hazırladılar, onu cəmiyyətdə özbaşına və dayaqsız qoydular. Nəhəng oliqarxlar, xəbis və mənfur siyasətçilər və məxfi qurumların texnoloqları fikirləşdilər ki, siyasi və iqtisadi işlər üçün bu vəziyyətdən daha yaxşı istifadə edə, qadını pozğun işlərə sürükləyə bilərlər. Bəli, oralarda elm və siyasət də var. Qadınlar elm və siysətdə də inkişaf edirlər, amma nəyin hesabına?

İndinin özündə də Avropada, ABŞ-da və Qərb sivilizasiyasının digər qabaqcıl ölkələrində doktor, mütəxəssis, yazıçı, yaxud görkəmli şəxs olan azsaylı qadınları çıxmaq şərti ilə ümumi qadınlar ağır və acınacaqlı şəraitdə yaşayır, ictimailəşmək adı altında zülmə məruz qalır, ağır işlərə məcbur edilirlər, onlara düşünmək və qərar vermək imkanı yaradılmır.[356]

Bu əsrin ikinci onilliklərinə qədər Avropanın heç bir yerində, hətta demokratik cəmiyyətlərdə də heç bir qadın səsvermə hüququna, öz malından istifadə haqqına malik deyildi. İkinci onilliklərdən – 1916-1918-ci illərdən sonra Avropa ölkələrində yavaş-yavaş qərara gəldilər ki, qadına öz əmlakından istifadə hüququ və kişi ilə bərabər ictimai status versinlər. Düzdür, Avropa tarixində kraliça, yaxud aristokrat qadınlar olmuşdur. Lakin bir qadının, yaxud bir ailənin, bir tayfanın və bir təbəqənin qadınlarının vəziyyətinin ümumi qadınlara dəxli yoxdur. Bu ayrıseçkiliklər həmişə olmuşdur. Yüksək səviyyələrdə təmsil olunan, misal üçün, bir ölkənin kraliçası olan qadınlar da

olmuşdur. Bu imtiyaz onlara ailə və irs yolu ilə verilmişdir. Ümumilikdə isə qadınlar belə olmamış, cəmiyyətdə dinlərin də tanıdığı hüquqlardan məhrum edilmişlər.

Deməli, özünün qadına dair çox məzəmmətli geriliyini düzəltmək istəyən Qərb sivilizasiyası bu gün də məsələyə başqa formada yanaşır. Mənim fikrimcə, onlar qadına dair insani məsələlərə siyasi, iqtisadi və media məsələlərinin kölgəsi altında yanaşırlar. Avropada əvvəldən qadınlara verilən hüquq bu yanlış əsaslara dayanırdı.[357]

**2- Qadın İranın mənfur şah rejimində**

Sasani şahlarının hərəmxanaları haqda məlumatınız var. Hərəmxana nə deməkdir? Hərəmxana - qadının təhqiri deməkdir. Bir kişi imkanı çatdığına görə özünü min qadın saxlamağa haqlı bilir. Əgər həmin şahın bütün xalqı da belə imkana malik olsaydı, hər biri öz qədərincə min, beş yüz, dörd yüz, yaxud iki yüz qadın saxlamaq istəsəydilər, nə olardı?! Görün bu, qadına qarşı hansı baxışdan xəbər verir.[358]

Qadın satqın və mənfur şah rejimində həqiqətən və hər cəhətdən məzlum idi. Qadın elmlə məşğul olmaq istəsəydi, gərək dindən, təqvadan və iffətdən keçəydi. Məgər müsəlman bir qadın universitetlərdə, təhsil ocaqlarında, elm və mədəniyyət mərkəzlərində asanlıqla öz hicabını, mətanətini və vüqarını qoruya bilərdi?! Məgər bu mümkün idi?! Məgər mümkün idi ki, müsəlman bir qadın Tehranın və digər bəzi şəhərlərin küçələrində İslam mətanəti və vüqarı ilə, yaxud hətta yarımçıq hicabla asanlıqla yol yerisin, amma Qərbin sovqatı olan fəsad və pozğunluğa alışanların dil və hərəkətlərinin zərərindən qorunsun?! Elə etmişdilər ki, bu məmələkətdə əksər qadınların elm öyrənməsi mümkün deyildi; gərək hicabı açaydılar, təqvadan və İslam vüqarından imtina edəydilər. Siyasətdə və ictimai fəaliyyətlərdə də belə idi. Şah dövrünün İranında bir qadın ictimai və siyasi bir posta yiyələnmək istəsəydi, müsəlman qadının hicabından, iffətindən, vüqarından və mətanətindən keçəydi. Əlbəttə, bu, qadının özündən və istedadının necə olmasından asılı idi. Əgər çox zəif olsaydı, dərinliyinə qədər sürüşəcəkdi; özünü qoruyan olsaydı, müəyyən həddə özünü saxlayacaqdı, amma ictimai mühit tərəfindən günbəgün artan təzyiqlərlə daim üz-üzə qalacaqdı. İnqilab qələbə çalana və imam gələnə qədər bizim cəmiyyətimiz belə idi.[359]

Bizim cəmiyyətimizdə mənfur Pəhləvi sülaləsi zamanı qadınların hicabsızlığının və çılpaqlığının tarixini oxuyanlar və ya yaşlarına görə həmin

günləri görənlər bilirlər ki, ölkəmizdə xalqı necə zorla hicabsızlığa, qadın və kişinin bir-biri ilə məhdudiyyətsiz əlaqələrinə sürüklədilər. Bu, xalqın asanlıqla qəbul edəcəyi bir şey deyildi, onları buna məcbur elədilər.[360]

Keçmiş rejimdə qadınların çoxu savadsız idi, ictimai-siyasi məsələlərdən uzaq saxlanır, ölkənin taleyinə biganə yanaşırdılar. Ümumiyyətlə bilmirdilər ki, bu məsələdə onların da rolu ola bilər. Amma bütün bunlarla yanaşı, zahiri baxımdan avropalılar kimi, bəzən də qərbli və avropalı qadınlardan da qabaqda idilər. Kimsə onlara baxsaydı, elə bilərdi ki, bir Avropa ölkəsindən və Qərb cəmiyyətindən indi İrana daxil olublar. Bir-iki kəlmə danışandan sonra isə şəxsiyyət zəifliyi səbəbindən özlərinə yalançı şəxsiyyət düzəltməyə məcbur olan savadsız, yaxud az savadlı olduqları aşkara çıxırdı. Gözəlliklərini nümayiş etdirməklə diqqət çəkmək istəyirdilər. Bu, qadın üçün tənəzzül idi, inkişaf deyildi. Onun başını bəzənməklə, modla, gözəllik nümayiş etdirməklə, paltarla, qızıl və zinət əşyaları ilə qarışdırır, müxtəlif məqsədlərdə ondan bir alət kimi istifadə edir, siyasət, əxlaq və tərbiyə işlərinə qoşulmasına qoymurdular. Qadına qarşı bundan böyük cinayət ola bilərmi?! Bu, keçmiş rejim dövründə dəqiq və düşünülmüş şəkildə görülən işdir.[361]

### 3- İslamda və İslam inqilabında qadının mövqeyi

Biz düşünürük ki, qadınlar hər bir sağlam cəmiyyətdə elmi və ictimai inkişaflarda, quruculuqda və dünyanın idarəsində üzərlərinə bacardıqları qədər məsuliyyət götürməyə qadirdilər və götürməlidirlər. Bu baxımdan kişi və qadın arasında heç bir fərq yoxdur.

Hər bir insanın yaradılmasında məqsəd ümumbəşəri yaradılışda olan məqsəddir: yəni insani təkamülə və bir insanın çata biləcəyi ən üstün dəyərlərə ucalmaq. Bu baxımdan, qadınla kişi arasında heç bir fərq yoxdur. Bunun göstəricisi birinci növbədə Fatimeyi-Zəhra (ə) və sonra tarixin digər böyük qadınlarıdır. Fatimeyi-Zəhra (ə) bəşəriyyətin zirvəsində durur və bildiyimiz kimi, bu xanım bir müsəlman qadın olaraq özünu bu zirvəyə qaldırmaq imkanı əldə etdi. Deməli, qadınla kişi arasında fərq olmamalıdır. Bəlkə də məhz buna görədir ki, Allah-Talala Qurani-kərimdə yaxşı və pis insanlara misal çəkmək istəyəndə onların hər birinə qadın nümunələr göstərir, birinə fironun həyat yoldaşını, digərinə isə Nuh və Lutun həyat yoldaşlarını misal çəkir: "Allah iman gətirənlərə fironun zövcəsini misal çəkir". Pis, bədbəxt, yanlış yolda hərəkət edən insanlar uçun isə Nuhun və Lutun həyat yoldaşlarını misal göstərir. Burada

bir sual ortaya çıxır ki, nə üçün həm kişi, həm də qadınlardan nümunə göstərilmir?

Bütün Quranın "Allah iman gətirənlərə ... misal çəkir", yaxud "Allah kafirlərə ... misal çəkir" deyiləndə hər iki misal qadındandır. Bu onun üçün deyil ki, biz bəşər tarixi boyu qadına qarşı yanlış və təəssüf ki, davamlı düşüncələrə İslamın baxışı ilə cavab verək?!

İslam tarix boyu qadın haqqında mövcud olan bu yanlış təsəvvür və düşüncənin qarşısını almaq istəyir. Mən təəccüb edirəm ki, istisnaları çıxmaq şərtilə bəşəriyyət nə üçün qadın və kişi məsələsində həmişə yanlış düşünüb? Peyğəmbərlərin (ə) təlimlərini çıxmaq şərtilə, bəşərin bütün düşüncə və təhlillərində qadın və kişiyə səhv mövqe tanınmışdır. Hətta qədim Roma, yaxud İran mədəniyyətləri kimi çox yüksək mədəniyyətlərə də qadına dair yanlış təsəvvür hakim olmuşdur. Mən bunun xırdalıqlarını açmaq istəmirəm, yəqin ki, özünüz bilirsiniz və baxa da bilərsiniz. Bu gün də qadını və onun insani mövqeyini müdafiə iddialarına və səs-küylərinə rəğmən, təəssüf ki, sözügedən yanlış təsəvvür mövcuddur. Avropalılar yuxudan çox gec oyandıqlarına görə, sanki zaman baxımından geriliklərini yalançı qalmaqal və ajiotajla ört-basdır etmək istəyirlər. Çünki bu əsrin ikinci onilliklərinə qədər Avropanın heç bir yerində, hətta demokratik cəmiyyətlərdə də heç bir qadın səsvermə hüququna, öz malından istifadə haqqına malik olmamışdır. İkinci onilliklərdən – 1916-1918-ci illərdən sonra Avropa ölkələrində yavaş-yavaş qərara gəldilər ki, qadına öz əmlakından istifadə hüququ və kişi ilə bərabər ictimai status versinlər. Düzdür, Avropa tarixində kraliça, yaxud aristokrat qadınlar olmuşdur. Lakin bir qadının, yaxud bir ailənin, bir tayfanın və bir təbəqənin qadınlarının vəziyyətinin ümumi qadınlara dəxli yoxdur. Bu ayrıseçkiliklər həmişə olmuşdur. Yüksək səviyyələrdə təmsil olunan, misal üçün, bir ölkənin kraliçası olan qadınlar da olmuşdur. Bu imtiyaz onlara ailə və irs yolu ilə verilmişdir. Ümumilikdə isə qadınlar belə olmamış, cəmiyyətdə dinlərin də tanıdığı hüquqlardan məhrum edilmişlər.

Deməli, özünün qadına dair çox məzəmmətli geriliyini düzəltmək istəyən Qərb sivilizasiyası bu gün də məsələyə başqa formada yanaşır. Mənim fikrimcə, onlar qadına dair insani məsələlərə siyasi, iqtisadi və media məsələlərinin kölgəsi altında yanaşırlar. Avropada əvvəldən qadınlara verilən hüquq bu yanlış əsaslara dayanırdı. Mən dünyada mövcud olan müxtəlif təfəkkürlər arasında İslamın görüşünə nəzər salanda aydın şəkildə başa düşürəm ki, bəşəriyyət yalnız İslamın baxışlarını azaldıb-artırmadan, ifrat və təfritə varmadan dərk etdikdə qadın məsələsinə, qadın-kişi münasibətlərinə dair sağlam və ideal yolu tapacaq.

Qadın məsələlərinə dair bizim iddiamız budur. Biz bu gün maddi sivilizasiyalarda qadına qarşı mövcud olan fikirləri əsla qəbul etmirik, onları qadının və cəmiyyətin xeyrinə saymırıq.

İslam istəyir ki, qadınların elmi, ictimai, siyasi və düşüncə inkişafı, ilk növbədə dəyər və mənəviyyatı uca səviyyəyə çatsın, cəmiyyətin və bəşər ailəsinin bir üzvü kimi maksimum faydalı və səmərəli olsunlar. İslamın bütün təlimləri, o cümlədən hicab məsələsi bundan ötrüdür.[362]

İnqilabın böyük müəllimi həzrət İmam Xomeyni istər inqilabın baş verməsində, istərsə də davam etdirilməsində, həmçinin İslam cəmiyyətinin təkamülündə, xalqın İslam və inqilab yetkinliyində qadının rolunu çox böyük sayırdı. Doğrudan da belədir. İranlı və müsəlman qadın fəsad dolu Qərb mədəniyyətinin qurduğu tələlərdən qurtulmaq üçün möhkəm iradə ilə işini davam etdirməli, qadını özlərinin dağıdıcı və istismarçı siyasətlərinin icrasına alət etmək istəyənlərin hiylələrinə əsla uymamalıdır.

Qadının elmi, mədəni, ictimai, siyasi və incəsənət mövqeyi, şəxsiyyəti ilə onun siyasi və şəxsi məqsədlərə alət səviyyəsinə enməsi arasında fərq qoymaq üçün güclü zəriflik lazımdır. İslam ucalığı qadının qaçılmaz mövqeyi bilmiş, ona nail olmağı lazım saymış, dəyərləndirmələr, qayda və qanunlarla ona yol açmışdır. Qərb mədəniyyəti və onun təməl baxışı qadına bu məqamı versə də, - əlbbətə, maddi baxışda mənəvi baxış genişliyi yoxdur - dəyərsiz ləzzət, ehtiras və məşğuliyyətlərdən paklığı qadın şəxsiyyətindən ayırmaq iqtidarında deyil. O, digər cəmiyyət və etiqadlara dair mühakiməsində bunu prinsip və meyar seçir. Bu bir neçə ildə İranı qadın əleyhdarı kimi göstərməyə çalışan hegemon və sionist medianın yeganə bəhanəsi budur ki, İranda Qərbin muzdur rejiminin əli ilə düzəlmiş məcburi fəsad bu gün dayanmış, qadın və kişi arasındakı qeyri-sağlam münasibət və çılpaqlıq ənənəsi məhv edilmişdir. İranın bugünkü qadını elm, siyasət və incəsənət sahələrində, müxtəlif ictimai fəaliyyətlərdə keçmişdəkindən olduqca fəal iştirak edir. Lakin bunlar Qərb beyni və baxışı, eləcə də sionizmin və müstəmləkənin qayda və ənənələrinə görə ikinci dərəcəli sayılır. Onlar üçün birinci dərəcəli əhəmiyyət kəsb edən isə İranın qətiyyətlə rədd etdiyidir: qadın və kişi münasibətlərində məhdudiyyətsizlik, qadının hörmətinin tapdanması, onun ləzzət vasitəsinə və yaxud bəzəkli məhsulların istehlak amilinə çevrilməsi. İran xalqı bu gün inqilab sayəsində qadına və onun dəyərlərinə dair yeni nəzəriyyə irəli sürməyə, dəyərli və uca qadın haqda yeni örnək yaratmağa qadir olmuşdur. Bu böyük uğur, həmişəyaşar və öyrəniləsi bir

hərəkətdir. Qərbin təşkilatları və mətbuatı tərəfindən yaradılan ajiotajlara rəğmən, dünyada bu hərəkətin təsirini və nüfuzunu görmək olar. [363]

Qadınların inqilabdakı rolu sübut etdi ki, qadın iman və məlumat sayəsində və Qərb dünyasının onun üçün düzəltdiyi fəsad batlağından uzaq durmaqla tarixi və beynəlxalq hadisələrdə birinci dərəcəli rol ifa edə bilər; sübut etdi ki, qadının fəxri sionizmin çirkli əllərinin indiki azğın dünyada tədarük gördüklərində deyil. Qadın paklıq, iffət və məsuliyyət hissi sayəsində kişilərlə çiyin-çiyinə və bəzən onlardan da irəlidə addımlaya bilər.

İslam Respublikası quruluşunda qadınlar İslamın onlara verdiyi əzəmətin qədrini bilməlidirlər. Onlar gərək beynəlxalq soyğunçu oliqarxların dünyanın bugünkü qadınının ətrafına toxuduğu istehlakçılıq tələsindən çıxsınlar, Qərb mədəniyyətlərinin antidəyərlərinə – çılpaqlığa, kişilərlə bayağı münasibətlərə, inkişaf etmiş ölkələrdə və geriqalmış ölkələrin əksəriyyətində qadınların həyatına hakim olan müxtəlif fəsadlara bulaşmaya təhqir və niftər gözü ilə baxsınlar.[364]

Bu böyük inqilaba görə qadınlar çox inkişaf etdilər. İnqilabda və müharibədə qadınların rolu həlledici oldu, inşallah gələcəkdə də belə olacaq. Bu şərtlə ki, biz qadında olan bu dəyərli cəhətlərə riayət edək. Gələcəyi təmin edən amillər bunlardır. Allah sizə yardımçı olsun![365]

Hegemon və sionist media bizi qadınların elmi və mədəni inkişafına əhəmiyyətsiz yanaşmaqda ittiham edirlər. Özləri də bunun yalan olduğunu bilirlər, amma təkrarlayırlar. Biz qadın və kişi arasında fərq qoymuruq, düşünürük ki, onların hər biri təkamül imkanına malik insandır; nə qədər çalışsalar, nə qədər zəhmət çəksələr, Allaha doğru nə qədər irəliləsələr, bir o qədər inkişaf edəcək və kamilləşəcəklər. Elmi və siyasi fəaliyyət yolu onların hər ikisinə açıqdır. Biz inqilabda və müharibədə gördük ki, xanımların rolu kişilərdən böyük olmasa da, kiçik deyil. Qadınlar qəhrəmanlıq marşı bəstələməsəydilər və müharibəni evlərdə dəyər saymasaydılar, kişilər cəbhəyə getməyə iradə və maraq göstərməzdilər. Onlarla amil əl-ələ verib könüllülərdən ibarət izdihamı cəbhəyə yola salırdı. Bu amilin ən mühümlərindən biri anaların, xanımların, qadınların əhval-ruhiyyəsidir. Mən bəzən əziz və hörmətli şəhid ailələri ilə görüşürəm. Bəlkə də iddia edə bilərəm ki, indiyədək ruhdan düşmüş şəhid anası görməmişəm. Düzdür, ailələr eyni deyil, eyni düşünmürlər; bəziləri daha güclü, bəziləri isə zəifdirlər; bəziləri məsələni tam aydın dərk etməyiblər,

bəziləri isə çox yüksək səviyyədə dərk ediblər. Lakin biz görüşdüyümüz ailələrdə, ən azı onların əksərində qadının əhval-ruhiyyəsini kişidən yaxşı görmüşük.

Bizim cəmiyyətimizdə qadının vəziyyəti belədir, onlar isə təkcə qadını yox, hər iki cinsi fəsad bataqlığına sövq etdilər. Bizim xalqımız gözlərini və qulaqlarını açmalıdır. Bizim inqilabi və İslam cəmiyyətimizdə azğın və fəsad dolu Qərb mədəniyyətinə qayıdış qeyri-mümkün və yolverilməzdir. Belə bir şeyin baş tutması, bizim məmurlarımızın və xalqımızın cəmiyyətin yenidən azğın Qərb mədəniyyətinin bizi məcburən sürüklədiyi səmtə getməsinə icazə vermələri mümkün deyil. Bizim cəmiyyətimizdə mənfur Pəhləvi sülaləsi zamanı qadınların hicabsızlığının və çılpaqlığının tarixini oxuyanlar və ya yaşlarına görə həmin günləri görənlər bilirlər ki, ölkəmizdə xalqı necə zorla hicabsızlığa, qadın və kişinin bir-biri ilə məhdudiyyətsiz əlaqələrinə sürüklədilər. Bu, xalqın asanlıqla qəbul edəcəyi bir şey deyildi, onları buna məcbur elədilər.[366]

İnqilab qələbə çalanda ölkəmizin qadınlarının rəftarı və hərəkət istiqaməti 180 dərəcə dəyişdi, inqilabdan öncənin tam əksinə olaraq, işığa, inkişafa, elmə, əxlaqa, siyasi dərkə və həqiqətən cəmiyyətə fayda verəcək işlərə doğru apardı. Ehtiyatlı olun ki, bu yoldan dönməyəsiniz. Bizim ölkəmizin qadınları inqilabın bu mübarək yolunu itirməkdən ehtiyatlı olsunlar.

Bu gün iranlı və inqilabçı müsəlman qadın üçün bərbəzəyə aludə olmaq eyibdir; bu gün başı, sinəni və qolları qızıl-zinət əşyaları ilə doldurmaq, bəzənmək, mod və geyimi özünə büt seçmək iranlı və inqilabçı müsəlman qadına eyibdir. Belə məsələlərlə məşğul olan qadının dəyəri az olur. Qızıl qadına dəyər sayılmır, qızıla etinasızlıq dəyər sayılır. Mod qadına dəyər sayılmır, düşmənlərin pis niyyətlə yaratdığı modlara etinasızlıq dəyərdir. Öz şəxsiyyətini tapmış müsəlman qadın onu itirməkdən ehtiyatlı olmalıdır.[367]

Normal həddə olan dəbdəbəni İslam da rədd etməyib. Lakin qeyri-normal və yarış şəklində olan, qadında asılılıq yaradan rəqabət yanlış işlərdən və İslamın qadın üçün nəzərdə tutduğu məqsədin ziddinədir. Bizim inqilabımızda imam qadına dair bu baxış üzərində təkid göstərirdi. Hər halda, bu məsələ ciddi mübarizə tələb edən vacib işlərdən biridir. Biz bu məsələdə nəinki müdafiə olunmuruq, hətta hücuma da keçirik. Bir dəfə məndən soruşdular ki, filan məsələ haqda özünüzü necə mudafiə edə bilərsiniz? Dedim ki, mən nəinki müdafiə olunmuram, hətta hücuma keçir və Qərbdən tələb edirəm. Biz Qərbə

deməliyik ki, sən qadını təhqir edirsən. Siz yalan deyirsiniz ki, biz iki cinsi bərabər bilirik. Bu, bir hiylə və mədəni-siyasi gedişdir. Siz bu yolla qadına xəyanət edirsiniz. Biz deyirik ki, qadın düzgün geyimlə və düzgün hicabla öz dəyərini qoruyur, özünü hər zaman və hər yerdə mövcud olan veyl kişilərin istədiyi səviyyədən uca tutur. Quran buyurur ki, yad kişilərlə yumşaq və əzilə-əzilə danışmayın[368]. Qadının kişi ilə rəftarı təvazökar olmamalıdır.

Kişi və qadın arasındakı instinktiv məsələlərin öz yeri var və bunun eybi yoxdur. Lakin qadının kişi qarşısında əyilməsi bu gün Qərbdə mövcuddur. Birinci qadına yol vermələri, onu önə keçirmələri məsələnin zahiri tərəfidir. Həqiqət isə tam başqadır.[369]

Mən natiq və təbliğatçılara dəfələrlə demişəm ki, qadın məsələsi barədə öz mövqeyini müdafiə etməli olan biz deyilik, süquta uğramış Qərb mədəniyyəti özünü müdafiə etməlidir. Bizim qadın haqda ortaya qoyduğumuz məsələlərin qadının xeyrinə olmasını heç bir insaflı, düşüncəli insan inkar edə bilməz.

Biz qadını iffətə, ismətə, hicaba, kişilərlə qeyd-şərtsiz qarışmamağa, insani hörmətini qorumağa, yad kişinin ləzzət alması üçün onun qarşısında bəzənməməyə dəvət edirik. Məgər bu pisdir?! Bu, müsəlman qadına hörmətdir. Qadını bəzənib küçə-bazardakı kişilərin baxışlarını cəlb etməyə və ehtiraslarını doyurmağa çağıranlar cavab verməlidirlər ki, nə üçün onu bu qədər aşağılayıb xar edirlər. Hətta Qərbdə də uca və mütəfəkkir insanlar bizim mədəniyyətimizi bəyənir və ona uyğun rəftar edirlər. Qərbdə də iffətli, ağır, mətanətli və özünə qiymət verən qadınlar özlərini yadların və şorgözlərin ehtiraslarını doyurmağa vasitə etmək istəmirlər. Azğın Qərb mədəniyyətində belə hallar çoxdur.[370]

İnqilabın sayəsində iranlı qadın çox yaxşı yola çıxmışdır. Bu gün iranlı qadın elmi işlərə qoşulur, elmi dərəcələr alır, eyni zamanda müsəlman qadına layiq dinini, iffətini, təqvasını, vüqarını, mətanətini, şəxsiyyətini və hörmətini də qoruyur. İndi sizin aranızda çoxlu hövzə tələbəsi, müəllim və alim var.

Həmçinin qadın dini elmlə də məşğul ola bilər və önündə heç bir maneə olmaz. İndi sizin aranızda dini tələbə və ya müəllim olan çoxları İslam fiqhi və dini elmlər üzrə təhsil alırlar. Böyük imamımız da bu məsələyə çox əhəmiyyətli yanaşırdı. Bu gün ölkəmizdə qadın öz mətanətini, vüqarını və İslam hiabını qorumaqla siyasi-ictimai fəaliyyətlərdə, cihadda, xalqa və inqilaba köməkdə və müxtəlif sahələrdə istedadını göstərə bilər.

Bütün Qərb dünyası, onun mediası, xüsusən də dünyanın böyük sionist və oliqarxlarının muzduru olan qələm sahibləri birləşib İslam Respublikasını ələ salır, bizi yolumuzdan döndərmək üçün hicaba qarşı təbliğat hücumları təşkil edirlər. Onların təbliğatına rəğmən, müsəlman İran və müsəlman qadın özünün hicaba, müsəlman heysiyyətinə və İslamın qadın təlimlərinə sadiqliyini qüdrət və qətiyyətlə, özünəinam və etimad hissi ilə qorudu. Bu gün Qərb dünyası tədricən İslam hicabına yönəlir. Görürsünüz ki, müxtəlif ölkələrdə - istər hicabdan əsər-əlamət olmayan və Qərb təlimlərinə qərq olmuş müsəlman ölkələrində, istərsə də hətta Avropa ölkələrində müsəlman və qeyri-müsəlman qadınlar hicaba üz tuturlar. Təbii ki, əvvəlcə müsəlmanlar rəğbət göstərdilər. Biz inqilabın qələbəsindən sonra Qərb və Avropa mədəniyyətinin təsiri altında olan ucqar ölkələrin qadınlarının siz İran qadınları kimi hicab bağladıqlarını gördük. Bu, sizin uğurunuzdur. Bizim cəmiyyətimizin mömin qadınları müsəlman iranlı qadının qədrini və dəyərini bilməyə çalışsınlar.

İranın müsəlman qadını kişilərlə münasibətdə şəriət qaydalarına riayət edir, özünü kişinin ləzzət almasına vasitə bilmir, bundan üstün hesab edir, özünü çılpaq olmaqdan, üzü, saçı və bədəni ilə baxanların diqqətini cəlb etməkdən, həvəsini doyurmaqdan uca sayır, özünü bəşər tarixinin ən böyük qadını olan Fatimeyi-Zəhranın (ə) durduğu zirvənin yamacında bilir. Belə bir qadın Qərb sivilizasiyasının hazırladığı oyuncaqlardan və onun təxribatlı üsullarından üz çevirməli, onlara etinasız yanaşmalıdır.[371]

Hicab qadını təcrid etmək deyil. Kimsə belə düşünsə, çox yanlış düşünmüşdür. Hicab cəmiyyətdə qadın və kişinin bir-biri ilə qeyd-şərtsiz qarışmasının qarşısını almaq üçündür. Belə bir vəziyyət həm cəmiyyətə zərərlidir, həm də kişi və qadına. Bu, qadına daha çox zərərlidir. Hicab əsla siyasi, ictimai və elmi fəaliyyətlərə mane olmur. Bunun canlı sübutu sizlərsiniz. Bəlkə də bəziləri təəccüb edirdilər və hələ də təəccüb edirlər ki, hər bir fəndə özünü İslamın hökmləri, o cümlədən hicabla uyğunlaşdıran yüksək səviyyəli alim xanımlar ola bilər. Siz tibb sahəsində bu səviyyəyə yüksəlmisiniz. Bu bəziləri üçün inanılmaz idi, təsəvvür edə bilmirdilər. Tağut rejimi dövründə hicabı ələ salanların təlxək və veyil əməlləri ilə işimiz yoxdur. O zaman universitetlərdə hicabını qoruyan azsaylı xanım və qızlar məsxərə olunur, ələ salınırdı. Bu, qeyri-insani və yanlışdır ki, insan qəbul etmədiyi bir işi ələ salsın. Bu gün Qərb mediası eynilə bu işi görür. İndi belə ünsürlərdən danışmırıq. Lakin yelbeyin olmayan düşüncə və məntiq adamları, yerində danışan və yerində fikirləşən insanlar inanmırdılar ki, qadın İslam məsələlərinə, o

cümlədən hicaba etiqad bəsləsin və eyni zamanda elmi dərəcələr alsın, alim olsun. Belə bir qadının siyasi və ictimai xadim olmasına da inanmırdılar, fəal inqilabçı olmasına da. İnqilab isə bu batil düşüncələrin hamısını darmadağın etdi. İnqilabda qadınlar ön xəttin əsgərləri idilər. Bu, sözün həqiqi mənasında belə idi, mən şişirtmirəm. Biz inqilabın gedişində qadının inqilabın ön xəttinin əsgəri olduğunu gördük. Əgər qadınlar inqilaba razı olmasaydılar, onu qəbul etməsəydilər, əmin olun ki, qələbə çalmazdı. Mən belə düşünürəm. Əvvəla onlar olmasaydılar, inqilabçıların yarısı meydanda olmayacaqdı. İkincisi isə, evdə övladları, həyat yoldaşları, qardaşları və ev adamları üzərində böyük təsirlərini nəzərə alaraq deyə bilərik ki, bu baş tutmazdı. Düşmənin fəqərə sütununu sındıran və mübarizəni sözün həqiqi mənasında sona qədər davam etdirən onların iştirakı idi. Sonra biz siyasi təhlil qabiliyyəti, nitq bacarığı və İslam quruluşunda məsuliyyət qəbul etməyə hazırlığı olan qadınları gördük və görürük. Bu, əlbəttə ki, artmaqdadır.[372]

İslam, inqilab və imam qadını bu ölkənin siyasi fəaliyyətlərinin mərkəzinə apardı, inqilabın bayrağını qadınlara tapşırdı, eyni zamanda qadın da öz hicabını, vüqarını, İslam mətanətini, iffətini, dinini və təqvasını qoruya bildi. Odur ki, iranlı və müsəlman qadının boynunda heç kimin bundan böyük haqqı yoxdur.[373]

Bizim hicab üzərində bu qədər təkid göstərməyimiz ondan ötrüdür ki, hicabı qorumaq qadının öz uca mənəvi məqamına çatmasına və qarşısında yaradılmış çox təhlükəli uçurumlara yuvarlanmamasına kömək edir. Bu mədəniyyətin tam əksi bugünkü Avropaya hakim olan Roma mədəniyyətidir. O, iki-üç məsələdən başqa hər şeylə razılaşır. Onların biri və bəlkə də ən əhəmiyyətlisi qadın və kişi arasında qanun-qaydalı münasibətin qorunması, başqa sözlə desək, Qərbdə cinsi azadlıq adlandırılan məsələnin əksi olan dözümlülükdür. Onlar buna qarşı çox kəskin mövqe seçirlər, başqa məsələlər önəmli deyil. Onlara görə bu amil üzərində dayanan şəxs mürtəcedir, bir ölkədə müəyyən qaydalarla qadınla kişi arasında pərdənin olması mədəniyyətə ziddir! Doğru deyirlər. Onların Roma sivilizasiyasının xarabalıqları üzərində qurduqları mədəniyyət bundan başqa bir şey deyil; dəyər baxımından yanlış, əksi isə düzgündür. Odur ki, biz qədim zamanlardan indiyə qədər qadını bu qədər təhqirə məruz qoyan Qərb dünyasına qarşı tələbkarıq.[374]

İslam nəinki qadınların işləməsi ilə müvafiqdir, hətta onun əsas peşəsi olan övlad tərbiyəsi və ailəni qorumaqla ziddiyyət təşkil etməsə, lazım da bilir. Bir ölkə müxtəlif sahələrdə qadınların işçi qüvvəsindən ehtiyacsız ola bilməz. Amma bu iş qadının mənəvi və insani hörməti, dəyəri ilə ziddiyyətdə olmamalı, qadını aşağılamamalı, onu kiçilməyə vadar etməməlidir. Təkəbbürlülük hər bir halda qəbahət sayılır, qadınların naməhrəm kişi qarşısında təkəbbürlülüyü isə belə deyil. Qadın naməhrəm kişi qarşısında təkəbbürlü olmalıdır. "(Yad kişilərlə) yumşaq (əzilə-əzilə) danışmayın!"[375] Qadın başqa kişi ilə danışdığı zaman özünü kiçiltməməldir. Bu, qadının hörmətini qorumaq üçündür. İslam bunu istəyir və müsəlman qadın belə olmalıdır. Siz görün müsəlman qadın öz fitrətinə və əsl mahiyyətinə qayıtdıqda necə böyük möcüzə baş verir! Bu, Allahın lütfü ilə bizim İslam inqilabımızda və quruluşumuzda müşahidə olunub və bu gün də olunur.

Bu gün şəhid analarından gördüyümüz qüdrət və əzəməti biz harada qadınlardan görmüşdük?! Biz gənc qadınların müharibə dövründə gördüyümüz fədakarlığını harada görmüşdük?! Onlar sevimli həyat yoldaşlarını cəbhələrə göndərir və arxayınlıqla vuruşmaları üçün öz iffətlərini və onların əmanətlərini qoruyurdular.

İnqilab dövründə bizim inqilabçı qadınlarımızın simasında meydana çıxan və bu gün də Allahın lütfü ilə görünən bu amil İslamın əzəmətindəndir. Kimlərsə təbliğat aparmağa qalxmasınlar ki, qadınların hicab, iffət, evdarlıq və övlad tərbiyəsi ilə elm öyrənməsi mümkün deyil. Allaha şükür olsun ki, cəmiyyətimizdə müxtəlif sahələrdə alim qadınlarımız var. Çalışqan, istedadlı, dəyərli tələbələrimizin və müxtəlif fənlər üzrə yüksək səviyyəli məzunlarımızın böyük bir qismi qadınlardan ibarətdir.

Bu gün İslam Respublikasında qadınlarımız həm iffət və ismətlərini, qadın paklıqlarını qoruyurlar, həm hicaba tam riayət edirlər, həm İslamın dediyi formada övlad tərbiyə edirlər, həyat yoldaşlarına baxırlar, həm də elmi və siyasi sahələrdə fəaliyyət göstərirlər.[376]

### 4- Qərb mədəniyyətinə qarşı mübarizədə müsəlman qadınların rolu

Müsəlman qadın elm, mənəvi və əxlaqi özünüislah yolunda çalışsın, hər hansı növdən olan cihad və mübarizədə öncül olsun, dünyanın bərbəzəyinə və dəyərsiz dəbdəbəyə etinasız yanaşsın, iffəti, paklığı elə bir həddə olsun ki, yad və çirkin nəzərləri öz-özünə uzaqlaşdırsın, evdə həyat yoldaşının və övladlarının asayişinə, həyatın dincliyinə səbəb olsun, şəfqətli və mehriban ağuşunda, mənalı və məhəbbətli sözləri ilə psixoloji cəhətdən sağlam övladlar tərbiyə etsin,

kompleksiz, xoş əhval-ruhiyyəli, ruhi və sinir sarıdan sağlam insanlar yetişdirsin, cəmiyyətin kişilərini, qadınlarını və şəxsiyyətlərini ərsəyə gətirsin! Ana hər bir qurucudan əhəmiyyətli və dəyərlidir. Ən böyük bir alim çox mürəkkəb elektron cihaz ixtira edə, qitələrarası raket və kosmik gəmi düzəldə bilər, amma bunların heç biri böyük insan yetişdirmək qədər əhəmiyyətli deyil. Bunu yalnız ana bacarır. Müsəlman qadın örnəyi budur. Cəhalət dolu hegemon dünya yanlış olaraq qadının dəyər və qiymətini kişilər önündə bəzənməkdə, şorgözlərin baxıb ləzzət almasında və tərifləməsində olduğunu düşünür. Bu gün dünyada Qərbin əxlaqsız mədəniyyəti tərəfindən təbliğ olunan “qadın azadlığı” məsələsinin əsas məğzi kişilərin cinsi ləzzət almaları üçün qadınları səhnəyə çıxarmaqdan ibarətdir. Kişilər ondan ləzzət alsınlar və beləliklə qadın kişinin bu işinə alət olsun. Bu, qadın azadlığıdırmı? Cahil, qafil və azğın Qərb dünyasında insan hüquqlarından dəm vuranlar əslində qadına zülm edənlərdir. Qadının təkamülünün, hüquq və azadlığının bəlli olması üçün ona uca insan gözü ilə baxmaq lazımdır. Qadına uca insanlar yetişdirən və cəmiyyəti islah edən qüvvə kimi baxsanız, onun kim və azadlığının necə olduğunu bilərsiniz. Qadına ailənin əsas amili kimi baxın. Ailə kişi və qadınla qurulsa, bunda onların hər ikisi təsirli olsa da, ailə mühitinin asayişi, evdə olan dinclik və aramlıq qadına və onun təbiətinə görədir. Qadına bu gözlə baxın ki, onun necə təkamülə çatması və hüququnun nə olduğu məlum olsun.[377]

Siz elmdə yüksək səviyyədə olan, lakin insani məsələlərdə və ictimai münasibətlərdə iki cinsdən biri olaraq pozğunluğa düşmüş bir qadını təsəvvür edin. Elə bilirsiniz bunun dəyəri var?! Düzdür, alim qadın müəyyən mənada belə işlərə daha az düçar olur. Savadsızlığın zərərlərindən biri də budur: qadınları əxlaqsızlığa daha çox çəkir. Lakin əxlaqsızlığın müəyyən bir həddi yoxdur. Hətta yüksək elmi dərəcəyə malik bir xanımın da öz insani cəhətinin qədrini bilməməsi mümkündür. Bu cəhət kişidə də var. Qadın və kişi bunu canlandırmaq üçün elm və hikmət öyrənməyə çalışmalı, daim diqqətdə saxlamalıdırlar. Qadında və kişidə olan insani cəhət inkişaf etdirilməlidir. Bu bir dəyər məsələsidir. Bizim cəmiyyətimizdə İslam dəyərləri dirçəlməlidir. Misal üçün, hicab bir dəyərdir. Daha yüksək məsələlərə giriş olmasına baxmayaraq, hicab məsələsinin özü bir dəyərdir.[378]

Siz qadınların dünyaya sözünüz var. Bu sözü dəqiq şəkildə yazın və dünyaya təqdim edin. Bu söz təkcə dillə, şifahi və ya yazılı deyil, daha çox əməllə deyilən sözdür. İranın qadınları, xüsusən də İslam dini, İslam hökmləri

və başlıca olaraq, hicab qaydaları əsasında müxtəlif fənlər üzrə elmi fəaliyyət göstərənlər dünyanın qadınlarına, qızlarına və tələbə xanımlarına əməli surətdə başa salsınlar ki, elm əxlaqsızlıq demək deyil, elm öyrənmək üçün qadın və kişi münasibətlərində əxlaqi meyarlara qarşı laqeydliyə zərurət yoxdur. Bu meyarlara tam riayət etməklə də elm öyrənmək, yüksək alimlik dərəcələrinə çatmaq olar. Siz İslamın qlobal mesajına bir nümunə kimi göstərilə bilərsiniz.[379]

Universitetlər çox mühüm mərkəzlərdir. Universitetlərdə tələbə və müəllim xanımlar çalışıb İslam qaydalarını və mədəniyyətini yaysınlar. Allah eləməmiş, kimlərsə İslam hicabına, müsəlman qadınlara, tələbələrə hörmətsizlik etsələr, onlara öz azğın fikirlərini yaymağa imkan verməyin. Universitetdə İslam ab-havası hakim olmalıdır. Universitet İslam adamının, örnəyi Fatimə (ə) olan müsəlman qadının inkişaf etdiyi mərkəzə çevrilməlidir. Bu, ölkənin gələcəyi üçün olduqca əhəmiyyətlidir. Xüsusən inqilabi bir mərkəz sayılan Pedaqoji universitet kimi bəzi universitetlərdə bu məsələ daha böyük əhəmiyyət kəsb edir.[380]

Mən gənc və evdar müsəlman qadınlara deyirəm: Qərbin dünya əhalisinin, inkişaf etməkdə olan ölkələrin və o cümlədən bizim ölkəmizin canına xora kimi saldığı israfçılığa uymayın. İstehlak lazımi həddə olmalıdır, israf həddində yox. Həyat yoldaşları, yaxud özləri müxtəlif vəzifələrdə çalışan qadınlar israfdan çəkinməkdə digərlərinə nümunə olmalı, müsəlman qadının dəyərinin qızıl-gümüş və ləl-cəvahirat əsiri olmaqdan çox-çox uca olduğunu göstərməlidirlər. Demək istəmirəm ki, bunlar haramdır. Demək istəyirəm müsəlman qadınının məqamı o qədər ucadır ki, cəmiyyətimizin çoxlu insanlarının köməyə möhtac olduğu dövrdə pul verib qızıl-zinət əşyaları, növbənöv məişət avadanlıqları almamalı, müxtəlif sahələrdə israfçılıq etməməlidirlər. İsrafçılıq müsəlman qadına yaraşmaz. Bizim hegemon dünyaya qarşı ittihamlarımızdan biri də bu sahəyə aiddir.[381]

Dəbdəbəyə meyl uzun müddət bizim cəmiyyətimizdə azalmışdı. İnqilabın əvvəllərində qadınlar dəbdəbə və zinətlərə etinasız yanaşırdılar. Lakin deyilənlərə görə, təəssüf ki, bu məsələlər indi inkişaf etməkdədir. Cəmiyyətimizin düşüncəli, elmli qadınları bunu təhlükə bilməlidirlər. Qadınlar dəbdəbəyə sarı sövq olunmamalıdırlar. Əlbəttə, bu, kişilər üçün də təhlükəlidir, lakin uyğun potensial qadınlarda daha artıqdır. Kişilər çox zaman bu məsələlərdə qadınların təsiri altına düşürlər. Siz buna qarşı ciddi mübarizə

aparmalı və ehtiyatlı olmalısınız. İfratçı dəbdəbəyə meyl salmayın. Mən az, normal həddin əleyhinə deyiləm, amma ifrat şəkil alması çox pis haldır. Xanımlar növbənöv paltarlara, bəzənməyə və qızıl-zinət əşyalarına etinasız yanaşmağa, bu məsələlərdə ifratdan çəkinməyə əhəmiyyət göstərsinlər. Allahın lütfü ilə belə zahiri gözəlliklərə yox, həqiqi gözəlliklərə daha artıq diqqət yetirilsin.[382]

İranlı qadının geyimi bəlli olmalıdır. Sözsüz ki, məqsədim xarici geyim deyil, qadınlar arasında istifadə etdiyi çadraaltı geyimdir. Çadra və İslam geyimi isə başqa bir mövzudur, hələlik buna toxunmaq istəmirəm. Siz görürsünüz ki, hindli qadının sadə geyim forması var. Avropalı qadının da geyimi bəllidir. Bəs iranlı qadının müəyyən bir geyimi yoxdurmu? Varsa, nədir? Çünki bu gün Avropa fabriklərində tikilən, London və Parisdən gətirdiyimiz modlar iranlı qadının deyil. Təəssüflü olsa da, indi eşitdim ki, bəzi adamlar özlərinə paltar almaq üçün hər iki ildə bir-iki dəfə ya özləri xaricə gedir, ya da kimlərinsə vasitəsi ilə oradan paltar alıb gətirir və qadın məclislərində geyinib nümayiş etdirirlər. Bu, Qərb mədəniyyətini təbliğ etməkdir. Biz Amerikaya ölüm oxuduğumuz halda onun mədəniyyətini bu şəkildə təbliğ edirik. Halbuki qərblilər əsasən mədəniyyət üzərində dayanırlar. Siyasət də mədəniyyətə müqəddimədir. Onların mədəni məqsədləri təmin olunanda hər şeyləri təmin olunmuş sayılır. Bizim o mədəniyyəti paltar və digər formalarda buraya gətirməmiz təəssüf doğurur. İran mədəniyyətindəki geyim və zinətin nə eybi var ki, biz Qərb mədəniyyətindən istifadə etməliyik?! Həm də bunların hamısı nisbidir; yəni bu gün bir geyim moddur, beş ildən sonra moddan düşür və başqa bir geyim mod olur. Odur ki, bunlar həqiqi deyil, nisbi və müvəqqəti məsələlərdir. Gözəlliyi həqiqi olmadıqda isə hansı səbəbə görə onun xoşladığı və geyindiyi gözəl sayılmalıdır?! Biz iranlıyıq, gərək axtarıb özümüzə aid olanı tapaq.[383]

Diqqətli olmaq lazımdır ki, qadın geyiminə dair heç bir məsələ Qərbin təbliğat hücumundan təsirlənməsin. Ondan təsirlənsə, zərərli olacaq. Məsələn, deyək ki, hicab olsun, amma çadra olmasın. Bu, yanlış fikirdir. Mən hicablı qadın üçün çadranın yeganə geyim növü olduğunu demək istəmirəm. Xeyr! Mən deyirəm çadra hicabın ən yaxşı növüdür, bizim milli əlamətimizdir, heç bir eybi də yoxdur və qadının heç bir fəaliyyəti ilə ziddiyyət təşkil etmir. Əgər həqiqətən ictimai-siyasi işlər görmək və elmi fəaliyyətlər göstərmək istəsə, çadra qadının rəsmi geyimi ola bilər. Qeyd etdiyim kimi, çadra hicabın ən yaxşı

növüdür. Düzdür, çadrasız da hicablı olmaq mümkündür, lakin onun sərhədlərini mütləq müəyyənləşdirmək, tapmaq lazımdır. Bəziləri Qərbin əks-təbliğatından qurtulmaq üçün çadradan qaçırlar. Amma bu zaman həqiqi hicaba üz tutmurlar, çünki Qərb ona da hücum edir. Siz elə bilirsiniz biz çadranı kənara qoysaq, məsələn, Qurani-kərimdə də göstərilən[384] paltar və örpəklərdən istifadə etsək, bizdən əl çəkəcəklər?! Xeyr! Onlar bununla qane olmayacaqlar. Onlar öz çirkin mədəniyyətlərinin burada eynilə şah dövründə olduğu kimi hakim olmasını istəyirlər. O zaman qadının ümumiyyətlə hicabı yox idi. Hətta növbə belə yerlərə çatanda pozğunluq daha çox olur. Şah dövründə Tehranda və ölkəmizin başqa şəhərlərində olan pozğunluq Avropa şəhərlərindən çox idi. Avropada adi qadının paltarı və geyimi vardı, burada isə elə deyildi. Çox təəssüf ki, geriqalmış müsəlman və qeyri-müsəlman ölkələrinin çoxunda vəziyyət belə idi. Buna görə də, dəyər məsələlərinə çox diqqət və qətiyyətlə riayət etmək lazımdır.[385]

Çox mühüm işlərdən biri qadınları kitaboxuyan etməkdir. Yeni üsullar tapıb evlərdəki qadınları kitaboxuyan edin. Təəssüf ki, bizim qadınlarımızın kitab oxumağa çox da həvəsləri yoxdur. Bazara minlərlə kitab gəlib-gedir, amma bunlar xəbərsiz qalırlar. Bu kitablar beyinləri daha yaxşı anlamaq, daha yaxşı düşünmək, daha yaxşı yaratmaq, daha yaxşı və daha düzgün yerlərdə olmaq üçün hazırlayan bəşər bilgiləridir. Çox əhəmiyyətli məsələlərdən biri evdaxili işlərin, yəni həyat yoldaşı və övladlarla rəftarın düzgün üsullarını öyrənməkdir. Səbirli, dözümlü, fədakar və yaxşı əxlaqı olan, amma həyat yoldaşları və övladları ilə davranış qaydalarını bilməyən çox yaxşı qadınlar var. Bunlar elmi məsələlərdir; bəşərin təcrübəsi nəticəsində günbəgün inkişaf etmiş və yaxşı mərhələlərə çatmışdır. Bu sahədə məlumatı və təcrübəsi olanlar belə üsullar tapmalı və xanımlara yol göstərməlidirlər. Ümidvarıq ki, qeyd olunan maneələr bizim qadınlarımızın önündən götürülsün və onlar inkişaf edə bilsinlər. Allaha şükür olsun ki, inqilab bizim ölkəmizin qadın toplumuna böyük kömək etdi. Mən acı hadisələr qarşısında kişilərdən daha fədakar və dözümlü olan qadınlar görmüşəm və görürəm. Mənim şəhid ailələri ilə görüşlərim çox olur. Dəfələrlə demişəm ki, bu böyük hadisəyə dözməkdə əksər analar atalara nisbətən daha yaxşı əhval-ruhiyyəli və daha dözümlüdürlər. Düzdür, bunun əksi də baş verir, amma beləleri daha çoxdur.[386]

Ailə məsələsi çox əhəmiyyətlidir. Ən mühüm düyünlərdən biri ailədədir. Gedin görün ailələrdə vəziyyət necədir. Görün bu problemləri yaradan nədir,

onların köklərini tapın və aradan qaldırmaq üçün uzunmüddətli layihələr hazırlayın. Analıq, xanımlıq, ev və ailə məsələsi olduqca əsaslı və həyati məsələlərdəndir. Bizim bütün layihələrimizdə ailə əsas məsələ olmalıdır. Siz tibdə və ya hər hansı bir sahədə ən böyük mütəxəssiz olsanız, amma ev xanımı olmasanız, bu bir nöqsandır. Siz ev xanımı da ola bilərsiniz. Əsas məsələ budur. Bu barədə nöqsanlı bir bənzətmə kimi kraliça bal arısını misal çəkə bilərik. Ailə elə bir yerdir ki, orada duyğu və hisslər inkişaf etməli, uşaqlar məhəbbət və nəvaziş görməlidirlər. Ər kişi olduğundan, xüsusi bir sahədə qadına nisbətən xarakteri daha xam və zəif olur. Onun yarasının məlhəmi yalnız və yalnız həyat yoldaşının nəvazişidir. Həyat yoldaşı böyük bir kişi üçün, ananın öz kiçik uşağına gördüyü işi görür. Diqqətli xanımlar bunu bilirlər. Bu hiss və duyğuların evin əsas mərkəzinə, yəni xanımına ehtiyacı var. O olmasa, ailə mənasız bir şeyə çevrilər.

Sizin bayırda da işiniz var; xəstənizi görür, elmi işlə məşğul olur, layihə yazır və universitetdə dərs deyirsiniz. Bunların hamısı öz yerində, amma evdəki rolunuzu da unutmamalısınız.[387]

## Üçüncü hissə: İslam mədəniyyətinin təbliğində və mədəni hücuma qarşı mübarizədə elm hövzələrinin və din alimlərinin vəzifələri

### 1- İslamı müasir dünya üçün hərtərəfli izah etmək

Elm hövzəsi dini elm mərkəzi olaraq İslam qanunlarını, İslamın dəyər sistemini və ümumi əxlaqı istədiyimiz, heç bir problemsiz və şəriətin qəti məsələlərinə əsaslanmış şəkildə tənzimini hələ üzərinə götürməmiş və İslam həyatına dair örnək təqdim etməmişdir. Daim bizə deyirlər ki, nümunəvi İslam həyatını təsvir edin. Bu iş harada görülməlidir? Bu, hövzənin işidir. Hövzənin çoxlu tədqiqat mərkəzləri olmalı və bütün sahələrdə bir istehsal müəssisəsi kimi daim çalışıb məhsul verməlidir. Hökumətin qarşısına hər hansı məsələdə sual çıxsa, hövzədən şəriətə və qanuna əsasən tam cavab almalıdır. Məsələn, torpaq, musiqi, yaxud daha geniş olan iqtisadi sistem, xarici əlaqələr, digər xalqlarla münasibətlər, ölkənin valyuta məsələləri, hökumət məmurlarının dəyərləndirilməsi və həmişə hər bir orqanın əsas baxımından üzləşdiyi yüzlərlə belə məsələ haqda sual yaranır ki, biz nəyin əsasında qanun qəbul etməliyik? Biz idarə qaydalarını nəyə əsasən tənzim etməliyik? Biz hansı əsasla çalışmalıyıq ki, kim bir sualla üzləşsə, bu suala cavab verəcək bir mərkəzin olduğunu bilsin? Bu, ideoloji bir tədqiqat mərkəzi deməkdir - Qum Elm Hövzəsinin ideoloqlar mərkəzi. İdeal hövzə belə bir şeydir. Qeyd etdiyim kimi, indəyədək hövzə bu rolu birbaşa üzərinə götürməyib. Böyük imamımız bu ölkədə hər şeyin əsası rolunu oynadı və bu faydaların hamısında əsas səbəbkar oldu. Onun özü və digərləri hövzənin məzunları olsalar da, bu iş dolayısı ilə hövzəyə qayıdır. Hövzə bu məsələlərlə birbaşa məşğul olmalıdır.[388]

İnqilab dövrünün vəziyyəti və İslam ölkəsinin sərhədləri xaricində İslama günbəgün artan diqqət səbəbindən din alimləri din bilgilərinin tükənməz ehtiyatından istifadə edərək tamamilə yeni baxışla, canlı və dinamik ictihadla və klassik fiqh metodikası ilə İslam cəmiyyətinin inkişafına yol açmalıdırlar. Elm hövzələri əsaslı dəyişikliklə özlərini dünyanın bugünkü ehtiyacına uyğunlaşdırmalı, yeniliyi öz proqramlarına istiqamət seçməli, lazımi vaxt qoymaqla, fəqihliyin prinsip və əsaslarını qabartmaqla yanlış və eklektik fikirlərin yolunu bağlamalıdırlar.[389]

Dünyanın yeni siyasi vəziyyətinə əsasən, İslamı həyata keçirdiyinə iddialı bir yer və İslamın mərkəzi kimi, İslam Respublikasının daxildə və xaricdə yaranan bütün bu ehtiyac və suallar qarşısında təqdim etməyə nəyi var? Bütün

bu aclıqlar qarşısında hansı qidanı hazırlayıb? Sözsüz ki, bizim təqdim etməyə çox şeyimiz var. Biz bu xammalı, yataqlardan çıxan qızılı - yəni əlimizdə olan Quran ayələrini və hədisləri dünyaya versək, çox dəyərli olar. Bizdə bunlardan az deyil. Lakin söhbət bundan gedir ki, İslam fəqihlərinin minillik təcrübələrinə - fəqihlərin bəzi tədqiqatları zəriflik və dərinlik baxımından həqiqətən heyrətamizdir - və həmçinin İslam, xüsusən də Şiə fiqhinin zənginliyinə əsasən, bizdən hər bir məsələyə dair hansı cavabımızın olduğunu soruşsalar, heç birimiz cavab verə bilməyəcəyik. Yəni bu gün mövcud olan ehtiyac və suallara hazır cavabımız və bazarda xərcləməli xırda pulumuz yoxdur. Nə üçün?

Bizim ixtiyarımızda böyük, zəngin və əksərən qiymətli mədənlər var, amma bazarda xərcləməli, ona-buna verməli pulumuz yoxdur. Mənim sözüm budur. Kim bu işləri görmək istəyir?

Başqa bir sual budur ki, elm hövzələrinin mövcud vəziyyəti bu ehtiyaclara cavab vermək üçün kifayət edirmi? Cavab budur ki, kifayət etmir. Odur ki, bu suallara cavab hazırlamaq üçün elm hövzələrinin güclü fundamentindən, potensialından, böyük elmi və mənəvi imkanlarından vasitələr istehsal etmək və boşluqları aradan qaldıracaq insanlar yetişdmək lazımdır.[390]

Elm hövzəsi böyük bir istehsal qurumu və insani zavoddur, daim istehsal etməlidir: kitab, insan, alim, dindar, düşüncə və yeni söz istehsal etməlidir. Yeni söz bitməmişdir. Bizim böyüklərimiz deyirlər ki, nə zaman Qurana müraciət edir və üzərində fikirləşiriksə, əvvəllər dərk etmədiyimizi dərk edirik. Çox gözəl, bu, yeni sözdür. Bəziləri deməsinlər ki, nə qədər yeni söz varsa, hamısı dindədir, daha hansı yeni söz istəyirsiniz?! Bəli, biz həmin dini düzgün tanımamışıq. Biz dinin yeni sözlərini çıxarmalıyıq: "Yarın zülfü haqda bir ömür danışmaq olar". Belə deyil ki, dinin bütün sözləri mənim və sizin minbərlərdə, elmi kitablarda, təbliğatda və risaləmizdə dediyimiz üç-dörd kəlmə sözdür. Xeyr, bunlardan çoxdur. Siz irəliləyin, Allah sizə yeni söz anladacaq. Bu qədər yeni söz var. Elmi məsələlərdə də yolun bağlı olduğunu demirik. Bütün fəqihlərin əsrlərdir incələdiyi bir məsələdə müctəhid olan siz yeni bir söz tapırsınız; yəni buna ümidiniz var. Siz daha icma məsələlərini - bütün fəqihlərin qəbul etməsi mənasında olan icmanı nəzərdə tuturam, höccət və mötəbər icmanı yox - mütaliə etmirsiniz, deyirsiniz ki, bunları deyiblər. Xeyr, axtarın, bəlkə deyilənlərdən əlavə nəsə tapdınız. Siz hermenevtik mövzularda yeni söz tapmaq məqsədi ilə düşünür, araşdırırsınız, halbuki dinin ümumi mövzularında və geniş mənada olan fiqhdə də belə sözlər çoxdur. Bizim bilmədiyimiz çoxlu məsələlər var. Biz iqtisadi, hərbi məsələləri, xarici siyasətə dair məsələləri və əxlaq

münasibətlərimizi dindən öyrənməliyik. Burada komplimentə ehtiyac yoxdur, biz bir çox fərdi məsələlərimizə yenidən baxmalıyıq. [391]

Bizim çox güclü və əsaslı fiqh üslubumuz var. Bu üsluba fəqahət deyirik. Hökmləri əsaslandırmanın, ilahi hökm və təlimlərin tədqiqat metodunun, hökmləri kitab və sünnədən necə və hansı qaydalarla anlama yolunun adı fəqahətdir. Bu çox səlis bir metoddur. Bizim əlimizdə olan zəngin qaynaqlar - Quran, sünnə və keçmiş alimlərin elmi nailiyyətləri sözügedən metodla və bəlli qaydalarla yolunu azmış bəşəriyyətin bütün ehtiyaclarını təmin edəcək xammaldır. Bu gün bizim bu metoddan əlverişli istifadə etməyə çox ehtiyacımız var. Təbii ki, yüksək elmi bacarığı olanlar bu metodu təkmilləşdirməlidirlər. Təkmilləşməsi mümkün olmayan heç bir şey yoxdur. Bu dünyada hər şey təkamülə doğru gedir. Hətta müqəddəs məsumlar da günbəgün kamilləşirdilər. Bizim üçün təsəvvürolunmaz əzəmətə malik olan və böyüklük baxımından dərk edə bilməyəcəyimiz şəkildə bir günəşə bənzəyən müqəddəs məsumların bu günləri dünənlərindən daha kamil olur. Görürsünüz ki, bütün mərhələlərdə, hər şeydə və hər bir metodda təkamül var.

Hər halda, fəqahət metodunu təkmilləşdirək, sonra isə kitab və sünnəni açıb bu metodla onlardan istifadə edək.

Qardaşlar! Çoxlu görülməmiş işlər və cavabsız suallar var. Bu inqilabın qələbə çaldığı zamandan haraya getdiksə və kim buraya gəldisə, bizə "Siz nə deyirsiniz? Bu haqda sizin fikriniz nədir?" – dedilər.

Bu gün dünyada müxtəlif sahələrdə, zehni və ictimai məsələlərdə, tarix və iqtisadiyyatda müxtəlif düşüncə, fikir və fəlsəfələr var. Arabir dünyada bir nəfər meydana çıxıb bir kitab yazır, sonra da kitabını tərcümə və təbliğ edirlər. Biz nə etməliyik? Burada Feyziyyə mədrəsəsində, Qum hövzəsində, yaxud filan şəhərdə məscidimizdə oturub gözləməliyik ki, xaricdən hansı fikir gələcək, onun harasında dini məsələlərə dair bir işarə, yaxud təhrif olacaq və ondan sonra həmin təhrifi düzəltməyə çalışacağıq?! Bu düzgündür?! Yəni kimlərsə onu oxuyandan, başa salandan, biri də peyda olub tərcümə edəndən və uzun müddət ötəndən sonra o tərcümə mən ruhaninin əlinə çatsın, hələ indi bilim ki, bəli, 10, 20 və ya 40 il öncə Avropada bir alim, mütəfəkkir, filosof və ya fəlsəfəpərdaz mənim filan əqidəmə hücum edib və mən ona cavab verməliyəm?! Bu, düzgün üsuldur?! Hövzə dünyanın elmi hadisələrinin içində olmalıdır. Bu gün siz bilməlisiniz ki, misal üçün, sosiologiyada dünyada hansı nəzəriyyə və fikirlər var, hansı düşüncələr irəli sürülür. Bəzən bu fikirlərdə yaxşı məqamlar olur, onları götürün; xoşagəlməz nöqtələr də var, onlar

gəlməzdən öncə münasib müdafiəni hazırlayıb cəmiyyətin zehnini vaksinləyin. Gələndən, bir qrup oxuyandan və tərəfdarına çevriləndən sonra deməyək ki, bəli, filankəs filan məsələ barədə belə deyib və bu söz filan-filan dəlillərə görə düzgün deyil. Bu, mübarizə yolu deyil. Deməli, tədqiqat, araşdırma, dünya həqiqətlərindən, bilgilərindən və elmi vəziyyətindən xəbərdar olmaq elm hövzəsinə zəruri işlərdəndir. Elm hövzəsi dünyanın elmi hadisə və yeniliklərindən kənarda qalmamalı, onların içində olmalıdır. Əlbəttə, bu o demək deyil ki, sabah Qumdakı tələbələrin hər biri desin: "Çox gözəl. Biz dünyanın elmi hadisələrinin içində olmaq istəyirik, deməli, dərslərimizi kənara qoyaq, əvvəlcə bir qədər xarici dil öyrənək, sonra gələrik". Xeyr! Hövzə belə olmalıdır, tələbələrin hər biri yox. Ümumilikdə hövzə dünyanın elm və düşüncə cərəyanlarından ayrı düşmüş bir hovuz kimi olmamalıdır; bəzi axınların töküldüyü və bəzi axınların ayrıldığı əzəmətli bir dərya olmalıdır; bəzi düşüncələr ona daxil olmalı və bəzi düşüncələr ondan xaric olmalıdır. Siz dünyanı doyurmalısınız. Hövzə kənarda qala bilməz. Bunlar Qum Elm hövzəsi barədə bizi düşündürən məsələlərdir.[392]

Həyatın bütün sahələrində İslam qanunlarını həyata keçirməyə iddialı bir İslam quruluşu yaratmaq elm hövzələrinin üzərinə müstəsna və analoqsuz bir vəzifə qoyur. Bu vəzifə bütün fiqh mövzularını araşdırmaq, İslam quruluşunun hər bir idarəsinə lazım olan İslam qanunlarını yazmaqdır. İslam fiqhi bütün genişiliyinə, mürəkkəbliyinə və rəngarəngliyinə rəğmən, fərdin və cəmiyyətin idarəsini üzərinə götürəndə yeni mövzular və xüsusi forma kəsb edir. Bu, ehtiyaclı olduğu qanun və istiqamətlər baxımından İslam quruluşunu təmin etdiyi kimi, fiqh hövzəsinə də universallıq və zənginlik bəxş edir. Siyasi fiqhlə məşğul olmaq, bir hökumətin bütün sahələrinə dair ilahi hökmləri əldə etmək və bütün fiqh hökmlərinə siyasi baxışla nəzər salmaq - yəni nümunəvi cəmiyyət və gözəl İslam həyatı qurmaqda hər bir hökmü nəzərə almaq bu gün İslam fiqhi mərkəzində ən vacib işlərdən biridir. Hövzənin elmi səviyyəsi bunu təmin etməyə ümid verir.[393]

Hövzə tələbələri dövrlərinin bilgiləri ilə tanış olmalı və günün elmlərini öyrənməlidirlər. Əlbəttə, bu o demək deyil ki, onlar öz dərslərini buraxmalıdırlar. Əslində hövzə proqramları əhatəli olmalıdır. Sonuncu məqam budur ki, hövzə tələbələri təbliğat məsələsində həmişə quruluşun könüllüləri olmuşlar. Allaha şükür ki, quruluşa, məmurlara, hökumətə və bütün vücudu ilə

xidmət göstərən qüvvələrə kömək etmək hissi hövzə tələbələrində həmişə olmuşdur və indi də olmalıdır.[394]

**2- Dünyada baş verən hadisələrdən xəbərdar olmaq**

Elm hövzəsi keçmişdə olduğu kimi dünya hadisələrindən kənarda deyil. Bu gün elm hövzəsi bütün dünya ilə birbaşa və dolayısı ilə əlaqədə olan bir qurumdur. Buna əsasən, elm hövzəsi haqda danışmaq şübhəsiz, İslam dünyasının cari məsələləri ilə də əlaqədardır, ölkə məsələləri və beynəlxalq məsələlərlə də. İslam dünyası ilə əlaqəyə gəldikdə, bu, inqilab düşüncəsi və inqilab marağı ilə tanış olanlar üçün yeni və gözlənilməz bir şey deyil.[395]

İslam Respublikası və elm hövzəsi dünyanın İslamı tanıması və İslam maarifini öyrənməsi baxımından cavabdehlik daşımalıdır. Əgər Allah eləməmiş, hövzə baş verən hadisələri yanlış anlasa, haradasa düzgün mövqe seçməsə, ehtiyacı dərk etməsə, yaxud yanlış dərk etsə, yaxud dost və düşməni tanımasa və yanlış fikir əsasında qərar qəbul etsə, qarşısıalınmaz problemlər yaranar. Bu baxımdan, hövzənin siyasi dərk və idarəçiliyi çox yüksək səviyyədə olmalıdır.[396]

Düşmənlərin istəyi və İslama zidd olan kənara çəkilmək, siyasi fəaliyyətdən uzaqlaşmaq fikrini özlərinə və elm hövzələrinə əsla yaxın buraxmasınlar, həmişə, xüsusən də təhlükəli zamanlarda xalqın önündə ixlasla və yorulmadan çalışsınlar, elmi əməllə, fiqhi cihadla, etiqadı söz və əməl təbliğatı ilə yanaşı edib hər üç səngəri - məktəbi, məscidi və cəbhəni doldursunlar.[397]

Biz elə etməliyik ki, elm hövzəsinin hər bir kadrı siyasi və digər cari məsələlərə dair düzgün baxışı digərlərinə ötürməyə, xalqı hidayət etməyə və arxasınca aparmağa qadir olsun. Yanlış, sadə və dayaz anlamaq, zəif və bəsit dərk etmək, dünyanın və ölkənin cari məsələlərindən xəbərsiz qalmaq elm hövzələri üçün ən ziyanlı amillərdəndir.[398]

Ən savadlı alim olsanız belə, dövrünüzü tanımasanız, bugünkü İslam cəmiyyətinə faydalı ola bilməzsiniz. Əgər hegemonizmin nə iş gördüyünü, kimlərin düşmən olduğunu, hansı yollarla zərbə vurduğunu, düşmənlik etdiyini, cəmiyyətimizdə nə baş verdiyini, problemlərin nədən ibarət olduğunu və onları aradan qaldırmaq üçün nə etməli olduğumuzu, beynəlxalq cəbhələrin harasında

yerləşdiyimizi bilməsək, İslam cəmiyyətinə faydalı olmamız qeyri-mümkündür. Yumruq, təpik və qapaz həmişə iki tərəfin arasında qalanlara, məsələnin nədən ibarət olduğunu bilməyənlərə dəyir. Onlar hamıdan çox döyülür və təpiklənir, mövqelərdən istifadə edə bilmirlər. Hər hansı səviyyədə olan din aliminə dövrə dair məlumat və ayıqlıq lazımdır. Xalqa fətva vermək istəyən ən savadlı din alimindən tutmuş məhəllədə bir neçə nəfərə din hökmlərini öyrədən ruhaniyə qədər hamısına aiddir, lakin kimin mövqeyi daha yüksəkdirsə, bu ayıqlığa daha çox ehtiyaclıdır. Şiə tarixi boyu, xüsusən də dünyanın yeni formaya düşdüyü son 200 ildə biz çox ziyanlar gördük. Son 200 ildə müstəmləkə yarandı, siyasətlər dəyişdi, Avropa dövlətləri qlobal miqyasda siyasi işlərə girişdilər, İslam ölkələrinə soxuldular, işlədilər, məmləkətləri tutdular və bu məqsədlə çoxlu tədbirlər gördülər. Bu 200 ildə din alimlərinin dünyada cərəyan edən məsələləri bilməməsi bizə böyük problemlər yaratdı. Bizdə harada zirək, sayıq və diqqətli bir din alimi olmuşdursa, qorunmuşuq; nə zaman Mirzə Şirazi kimi bir şəxsimiz olmuşdursa, udmuşuq; nə zaman Şeyx Ənsari kimi dindar, təqvalı, zəkalı və sayıq bir insanımız olmuşdursa, udmuşuq. Digər tərəfdən, nə zaman işimizdə bir qədər diqqətsizlik olmuşdursa, aldanmış və ziyan görmüşük; özü də bir nəfərə, bir hövzəyə, bir topluma, bir şəhərə, bir ilə və iki ilə aid olmayan ziyanlar. Belə məlumatsızlqıdan törəyən ziyanın təsiri bəzən 50 il İslam cəmiyyətinə problem yaratmışdır. Bundan sonra buna imkan verməməli, məlumatsızlığa təslim olmamalı, ayıqlığımızı artırmalıyıq.[399]

Hövzələr dünya hadisələrindən kənarda qalmamalıdırlar. Hövzəyə rəhbərlik edənlər tələbələrin dünya məsələlərinin içində olmalarını təmin etsinlər. Bunlar dünya inkişaflarından, hadisələrindən, müxtəlif sahələrdə - istər təbii elmlərdə, istərsə xüsusən humanitar elmlərdə yeni kəşf, nəzəriyyə və elmi mövzulardan kənarda və xəbərsiz qalmamalıdırlar. Fətva vermək üçün mühüm bir şərt mövzunu tanımaqdır. Fəqih mövzunu tanımasa, şəriət dəlillərindən ilahi hökmü layiqincə əldə edə bilməz. Misal üçün, kürr suyun nə olduğunu bilməyən bir şəxs bu haqda fətva verə bilərmi?! Fərz edin suyu həmişə stəkanda görən, kürr suyun nədən ibarət olduğunu bilməyən bir adam kürr, yaxud axar su ilə murdarı paklamaq haqda necə fətva verə bilər?! Mövzusunu bilmədiyi hökmü necə əldə edə bilər?! Fəqih mövzunu bilməsə, İslam mənbələrindən hökmü düzgün əldə etməsi çox çətin olar. Bəzən natamam və qeyri-aydın fətvalar müşahidə olunur. Araşdıranda görürsən ki, mövzu fəqihə tam aydın olmamışdır. Biz bir çox fiqh mövzularında bununla rastlaşırıq. Məsələn əksər fəqihlərin bir məsələ haqda fətva verdiklərini görürük, lakin reallığa baxanda anlayırıq ki,

buna dair şəriət hökmü belə ola bilməz. Araşdırandan sonra bu nəticəyə gəlirik ki, mövzunun xırdalıqları tam aydın olmamışdır. Həmin alim və fəqih onlardan xəbərdar olmamış, yaxud onun dövründə ümumiyyətlə belə bir şey olmamış və sonradan yaranmışdır. Odur ki, bizim gənc ruhanimiz və hövzə tələbəmiz dünya məsələlərindən xəbərdar olsa, bu, ilahi və şəriət hökmlərini anlamaqda düzgün və həqiqətə yaxın fətvanı əldə etməkdə kömək edər. Hövzə tələbələri hadisələrdən kənarda qalmamalıdırlar. Qum hövzəsi və digər hövzələr tələbələrin baş verən hadisələrdən xəbərdar olması üçün proqramlar tərtib etməlidirlər. Bu istiqamətdə onların məlumatlarının genişlənməsinə kömək etmək, hövzədə günün bəzi məsələlərinin işıqlandırıldığı elmi-ixtisas jurnalları buraxmaq və ya günün məsələlərinə dair mütaliəsi olanlardan bəhrələnmək olar.[400]

Bu gün hövzə tələbələri və ruhanilər ölkənin hər yerinə gedirlər və xalq onlardan yanlız şəriət hökmünü izah etmələrini istəmir. Onu da istəyir, xalqın ona da ehtiyacı var, amma bu gün ruhaniyə regionda baş verən hadisələrə, müxtəlif xarici və daxili siyasətlərə aid suallar da verirlər. Sual verməsələr də, o bunları izah etməlidir.[401]

### 3- İslam və inqilab təfəkkürünün əsaslarının təsviri

Biz İslam təfəkkürünün, dünyagörüşünün və İslam quruluşunun əsaslarını izah etməliyik; İslam inqilabının əsas xətlərini, yəni bu dəyişikliyi izah etməli, sonra onda iqtisadiyyatı, siyasəti, fərdi və ictimai əlaqələri, əxlaqı, mədəniyyəti və elmin yerini açıqlamalıyıq. Bunların hamısı üçün işləmək lazımdır. Bu işlərin çoxunda boşluq var. Elm hövzələrində bu işlər görülməlidir.[402]

Hövzənin görməli olduğu işlərdən biri budur. Gərək onun bir mərkəzi olsun və dünyada inqilab haqda yazılan kitabları toplasın; istər birbaşa inqilab barəsində olanları, istər inqilabla əlaqədar olaraq şiəliyi və yaxud İslamı təhqir edənləri, istərsə də bizi tərifləyən və bəzən özümüzün diqqət yetirmədiyimiz üstün cəhətlərimizi xatırladan kitabları. Bu mərkəzdə çalışan hövzə tədqiqatçıları bu kitabların ölkə daxilindəki oxşarlarını da toplamalı və araşdırmalıdırlar. Tədqiqatçı deyəndə tez əldən düşmüş qoca kişilər yada düşməsin. Sizin özünüz kimi gənc tədqiqatçılar oturub bunları qisimlərə bölsünlər, inqilab təfəkkürünü, zehniyyətini, avropalı təbirlə desək, inqilab ideologiyasını - təəssüf ki, biz hələ bu sözün ekvivalentini tapmamışıq –

yazsınlar, onu bir cild kitabla və bir sözlə yox, (geniş şəkildə) bayıra ötürsünlər. Əgər bizdən "inqilabınız nədir?" deyə soruşsalar, deyək ki, budur.

Əgər inqilabın dəyərlərini siz müdafiə etməsəniz, onun ideoloji əsaslarını dünyaya açıqlamasanız, buna səlahiyyəti çatmayan digər şəxslər görəcəklər.[403]

Biz İran xalqı çox böyük inqilab etdik. Bu inqilab olduqca əzəmətlidir. Mən tam əminliklə sizə deyirəm ki, bizim əksərimiz çox şeyləri bilsək də, necə möhtəşəm hadisənin baş verdiyindən hələ də xəbərsizik. Bu inqilab qeyri-adi və möhtəşəm bir hadisədir. Bütün hegemon, zalım və cahil dünya bir tərəfə, bu inqilab bir tərəfə! Çox mühüm hadisə baş vermişdir və bu inqilab özündə dünyanın bütün zülm və küfr düşərgəsi ilə mübarizə gücünü hiss edir. Biz bu inqilabın içərisində olduğumuza görə onun nə qədər böyük və mühüm olduğunu anlamırıq. Bu qədər üstün cəhətləri və əməli təsirləri olan böyük bir inqilab öz düşüncə əsaslarını təqdimetmə baxımından dünyanın ən zəif və ən bacarıqsız inqilabları heç, hətta ən zəif dəyişikliklərindən biridir. Fərz edin bir müştərək bazar yaranır. Müştərək bazar nədir? Bir neçə ölkə birgə ticarət edən bir neçə iş adamı kimi bir yerdə oturub ticarət əlaqələri qururlar. Bu zaman iqtisadiyyatçılar, siyasətçilər, ümumi xalq, istehlakçı və istehsalçı tərəflər üçün bu işin düşüncə əsaslarına dair müxtəlif səviyyələrdə onlarla kitab və broşür yazılır, tədqiqat aparılır və film hazırlanır. Mən çox kiçik bir misal çəkmək istədim. Müştərək bazarın yaradılması dünya inqilabları ilə müqayisədə olduqca cansız və kiçik məsələdir.

İndi isə inqilablara nəzər salaq. Oktyabr inqilabı qələbə çalandan 10-15 il ərzində bu inqilabın ideoloji əsaslarına dair müxtəlif səviyyələrdə o qədər kitab, film, hekayə və broşür hazırlanır ki, adının duyulduğu ölkələrdə daha xalqın onların kitablarından istifadə etməsinə ehtiyac qalmır. Yəni ideoloji mühit o qədər təmin olunur ki, həmin ölkələrin öz ziyalıları oturub onların dəyər və düşüncə əsaslarına dair kitablar yazırlar. Hətta iranlılar son 30-40 ildə Sovet inqilabının ideoloji əsasları barədə fars dilində nə qədər kitablar yazıblar. Onlar o qədər yazdılar ki, hər hansı növ düşüncə baxımından onlarla əlaqədə olan bütün ziyalılar yetərincə təmin olundular. Sonra da bir qələm sahibi öz fikri və ziyası ilə yazmağa başladı. Onların tərcümə olunmuş əsərləri də öz yerində. Bəs biz nə etmişik? Bu sahədə bizim işimiz həqiqətən çox azdır. İnsanın ürəyi gəlmir ki, bunun sıfır həddində olduğunu desin, çünki bəzi adamlar həqiqətən ixlasla müəyyən işlər görmüşlər. Lakin bu emosional cəhətləri nəzərə almasaq, sıfır həddindən çox azca yuxarıda olduğunu deyə bilərik. Nə üçün? Təbii ki, buna dəlillər var. Bizim əsas ziyalı və mütəfəkkirlərimizin bəzisini əvvəldə

bizdən aldılar, bəzisi müxtəlif icra işləri ilə məşğul oldular. Amma hər halda, nəticə budur ki, biz istehsal etməmişik. İnqilabdan 10-11 il ötür, bu 10 ildə yaxşı olardı ki, biz İslamın əsaslarını yazan - çünki inqilab İslam inqilabıdır - yüzlərlə İslam yazıçısı yetişdirəydik, amma yetişdirməmişik. Bu, hövzənin işlərindən biridir. Demək istəmirəm ki, hövzələrdən bayırda oturanların üzərinə məsuliyyət düşmür, amma ən böyük məsuliyyəti elm hövzəsi və birinci növbədə Qum daşıyır. Qumun bu sahədə çoxlu məhsulu olmalı idi.[404]

**4- Tədqiqata və yeniliyə imkan yaratmaq**

Elm hövzəsi elmi üsulların, təcrübələrin və nailiyyətlərin qiymətli irsinə sahibdir. Bu ixtisaslı və elmi irsdən bəhrələnmək və onu artırmaq üçün yaradıcılıq qüvvəsindən istifadə etmək lazımdır. Necə ki, saleh sələflərimiz də öz yaradıcılıqları ilə dini elmləri indiki səviyyəyə çatdıra bildilər. Hövzə öz övladlarının elm və ixtisas yeniliklərinə yol açmalı, din elminin yeniliklərinə hörmətlə baxmalı, onların sahiblərini həvəsləndirməli, eyni zamanda ənənəvi təməllərə naşıcasına və özbaşına müdaxiləyə icazə verməməli, cahil və qərəzli nəzərlərin işlədilməsi üçün inkişaf və hərəkət imkanı yaratmamalıdır.[405]

Hövzə öz inkişafı üçün elm mərkəzlərində geniş yayılmış üsul və vasitələrdən istifadə etməli, özünü daha uğurlu təhsil imkanlarından məhrum etməməlidir. Alət və əsas yeniliklərinin tələbələrə bəşər zehninin ən yeni nailiyyətlərini asanlıqla öyrənmək imkanı yaradan bir dünyada din tələbəsinin nöqsanlı və eyibli üsullarda yenilikdən məhrum edilməsi rəva deyil.[406]

Elm hövzələri elm mərkəzi kimi qalmalıdır. Biz elmi bacardığımız qədər artıq məsələlərdən təmizləməliyik. Elm hövzələrinin dərs proqramlarını tərtib etmək vacib məsələdir. Bu olmasa, elm inkişaf etməz. Elm bir ağac kimidir; onun inkişaf etməsi üçün artıq hissələri kəsmək, budamaq lazımdır. Elm mərkəzində lazımsız budaqların və kol-kosun bitməsinə imkan vermək olmaz. Elmin inkişafı üçün həmin həddə əhəmiyyəti olan və böyük imamımızın dəfələrlə söylədiyi məsələ dünyaya etinasızlıqdır. Bu yolda bir çox maddi ləzzətlərə göz yummaq lazımdır. Allaha şükür edirik ki, bizim hörmətli ruhanilərimiz bu xüsusiyyəti qorumuşlar; baxmayaraq ki, dünyaya etinasızlıq geniş sahədir və bu sahədə çox inkişaf etmək olar.[407]

Hövzələrdə bütün sahələrdə yeni fikirlərə imkan yaratmaq lazımdır. Yeni söz və fikir irəli sürüləndə ona hörmət olunmalıdır. Təbii ki, məqsədimiz

qaydalardan xaric olan azdırıcı və eklektik fikirlər deyil, fəqahət əsaslarına söykənən yeni düşüncələrdir. Mən bir dəfə təklif etdim ki, Qum Elm Hövzəsində fiqh ixtisası üzrə bir jurnal nəşr olunsun, görkəmli, yaxud gənc alimlər özlərinin yeni fikirlərini və fiqhə dair yeni nəticələrini o jurnallarda yazsınlar. Belə şəxslər tanınmalıdırlar. Kim yeni bir nəticəyə gəlsə, bir kağız üzərinə yazıb hövzədə yaysın, hamı belə bir yeni nəticənin olduğunu bilsin. Qısası budur ki, gənclərə, yeniliklərə, yaradıcılıqlara və yeni fikirlərə əhəmiyyətli yanaşmaq lazımdır.[408]

Bu gün müəyyən mənada dünyanın ümid bəslədiyi, ölkənin bu gününün və gələcəyinin dayağı, ümidi olan elm hövzələri özlərini dövrün şəraitinə və inkişafına uyğunlaşdırmalıdırlar. Yəni həmin dərsi oxuyun, həmin elmi öyrənin, həmin əxlaqınız və dini əməlləriniz olsun, amma yeni texnikalardan istifadə edin. Bu düzgün deyil ki, dünyada kompüter olsun, sürət saatdan və dəqiqədən saniyəyə çatsın, zamanın və enerjinin hər bir zərrəsinə əhəmiyyət göstərilsin, dünyanın universitet və tədqiqat mərkəzləri tələbə və tədqiqatçılara araşdırma imkanları yaratsınlar, lakin biz keçmişdə böyük alimlərimizin imkansızlıq səbəbindən istifadə etdikləri qədim üsullardan istifadə edək. Məgər belə bir şey rəvadır?! Əsla yolverilməzdir. Bunlar inkişaf etməli məsələlərdir. Məgər mümkündür ki, siz bu gün Tehrana getmək üçün bir ulağa minib yavaş-yavaş buradan Kuşək Nüsrətə, Əliabada və digər yerlərə, 4-5 gündən sonra da Tehrana çatasınız?! Belə bir şey mümkün deyil. Siz bir maşına minib 1-2 saatdan sonra Tehrana çatırsınız. Bizim ixiyarımızda belə bir imkan var.

Biz həm fiqh oxuyuruq, həm də sürətli vasitələrdən istifadə edirik. Məgər bunda problem var?! Biz həm fiqh oxuyuruq, həm də fiqh üçün kompüterdən istifadə edirik. Biz həm fiqh oxuyuruq, həm də qeyri-təcrübi elmləri araşdırmaq üçün mövcud olan yeni tədqiqat metodlarından istifadə edirik. Fiqh təcrübi elmlərdən deyil və onun üçün qeyri-təcrübi elmlərə xas metodlardan yararlanmaq lazımdır. Biz həm fiqh oxuyuruq, həm də kollektiv iş amilindən istifadə edirik. Bizim işlərimiz kollektiv deyil. Biz bu baxımdan cənab Əbuzər kimiyik. Hədisdə deyilir ki, o, yalqız yaşayar və yalqız ölər. Bizim işlərimizin hamısı belədir: dərsi yalqız öyrənirik, yalqız mütaliə edirik, yalqız müzakirə edirik. Bizdə kollektiv elmi fəaliyyət yoxdur.[409]

**5- Əxlaqi və mənəvi dəyərlər qazanmaq**

Biz elm hövzələrini fəqahət, dindarlıq, təqva, əxlaqi və mənəvi paklıq, siyasi ayıqlıq əsasında yenidən qurmalı, gücləndirməli və genişləndirməliyik.[410]

Elm hövzələrinin mənəvi sərvəti təqva, İslam əxlaqı, tələbə görkəmi, dünya bəzəklərinə aldanmamaq, dünya adamlarını yamsılamamaq, qənaətçilik və qənaətə qiymət verməkdir. Bunlar hövzənin həqiqi və mənəvi sərvətləridir. Qum hövzəsində biz də Allah eləməmiş, dünya adamları kimi, maddiyyat, rəngli həyat, maşın və məişət avadanlıqları yarışına girməməliyik. Bu bizim işimizə və vəziyyətimizə uyğun deyil. Qum hövzəsində buna diqqət yetirilməli, mənəviyyatlı və təqvalı şəxslər gənclərə nəsihət verməlidirlər. Gənclər sözü və nəsihəti qəbul edirlər.[411]

Əziz qardaşlar! Dini tələbələr! Özünüzü gənclikdə islah edin. İrəlidə sizin mühüm və həssas dövrünüz olacaq. Bu ölkənin, bu quruluşun və dünya səviyyəsində əzəmətli İslam hərəkatının sizə ehtiyacı var. Özünüzü islah etməlisiniz. Mənəvi islahın yolu asandır; yəni planı asandır, qət etmək üçün isə təbii ki, iradə tələb olunur. Plan - təqvadır, təqva isə günahdan çəkinmək, haramları tərk etmək, işi ixlasla yerinə yetirmək, riyadan və hiylədən uzaq durmaq. Bu işlər gənclikdə daha asan olur. Güman edilənin əksinə olaraq, bizim yaşımıza çatanda məsələ çətinləşir. Bu da həmin dəyərlərdən biridir. Gecə namazı, nafilə namazı qılmaq, dua oxumaq, zikr demək, Allahı xatırlamaq, ziyarətə getmək, təvəssül etmək – bunların hamısı qurucudur və sizi polad kimi bərkidir.

Mümkün deyil ki, ideal hövzəmiz olsun, amma onun tələbələri bu xüsusiyyətlərə malik olmasınlar. Bu dəyərlərə riayət etmək lazımdır. [412]

Mənim fikrim budur ki, ölkənin elm hövzələrinin böyük və görkəmli alimləri hər bir tələbə və ruhaninin elmi, əxlaqi və düşüncə möhkəmliyi üçün maksimum çalışa bilərlər və çalışmalıdırlar. Bu mühüm məsələnin yanından asanlıqla keçməsinlər və ruhanilər arasındakı neqativ hallara qarşı bu şəkildə mübarizə aparsınlar.[413]

**6- Təbliğə əhəmiyyətli yanaşmaq**

Təbliğdə məqsəd xalqın dindarlığını sözlə, kitabla, dəyərli məlumatlarla inkişaf etdirmək və onların hidayəti üçün imkanlar yaratmaqdır.[414]

Əgər hər bir peşənin şərəfi onun məqsədinin şərəfinə görədirsə, deməliyik ki, ən şərəfli peşələrdən biri din təbliğatı, din və İslam maarifinin natiqliyi sənəti, bizdə moizə və minbər kimi məşhur olan məsələdir. Çünki təbliğat və

dini natiqlik peşəsinin məqsədi xalqı saflaşdırmaq üçün moizədən, xalqın dini məlumatını artırmaq üçün din təlimlərini bəyan etməkdən, həzrət Əbu Abdullahın (ə) müsibətlərini və mərsiyələrini deməkdən, yəni böyük məqsədlər uğrunda hərəkəti keyfiyyətli etmək üçün xalqa örnək təqdim etməkdən ibarətdir. Bunların hamısı şərəfli məqsədlərdəndir; həm paklamaq, həm xalqın məlumat və düşüncələrini artırmaq, həm Allah yolunda cihad və fəaliyyət üçün örnək göstərmək. Bu peşəni kiçik saymaq olmaz.

Din haqda danışmaq və minbər etmək ən şərəfli işlərdəndir. İnsanların ən şərəfliləri, onların İslam məsələləri ilə ən çox tanış və alim olanları, şəriət hökmlərinə ən çox əməl edənləri bu yola qədəm qoymalı və onu özlərinə fəxr bilməlidirlər. Keçmişdə belə olmuşdur. Böyük əxlaq alimi Şeyx Cəfər Şüştəri kimi şəxslərin özləri minbər adamı olmuşlar. Yaxud “Hədiyyə ən-nəmlə" kitabının sahibi olan mərhum Hacı ağa Rza Həmədani Vaizin özü bir moizəçi və dini natiq olmuşdur. O mərhumun alim oğlu mərhum ağa Mirzə Məhəmməd Həmədani də belə olmuşdur. Keçmişdə elmi şəxsiyyətlər, təqvada və dindarlıqda məşhur simalar bu xüsusiyyətə malik olmuş və bununla fəxr etmişlər.[415]

Ruhanilərin əsas vəzifəsi insanları Qurani-kərimin və peyğəmbərlərin təsvir etdiyi məqsədlərə yönəltməkdir. Bu iş qorxutmaqla həyata keçir: "Aləmləri (insanları Allahın əzabı ilə) qorxutmaq üçün (haqqı batildən ayıran) Quranı Öz bəndəsinə nazil edən Allah nə qədər uludur!"[416]; "Qövmünə şiddətli bir əzab gəlməzdən əvvəl onları (Allahın əzabı ilə) qorxut!"[417]; "Həsrət günü ilə qorxut!"[418] Biz din alimlərinin minillik dəyərli irsini qorumaq və xalqı hidayət etmək istəyən şəxslər kimi qəlbləri dəyişməyə, beyinləri işıqlandırmağa, yol və istiqamətləri düzəltməyə, əməlləri saflaşdırmağa və insanları həqiqi İslam əxlaqı ilə əsl möminə çevirməyə çalışmalıyıq. Bu bizim əsas vəzifəmizdir və bu böyük məqsəd qorxutmaqla həyata keçir. İnsanlar dəyişsə, dünya dəyişər. İnsanlar əsaslı dəyişsələr, bu hərəkət daim davam edər. İnsanlar İslam və Quran əxlaqına yiyələnsələr, Quranın bu xalq haqda bütün vədləri həyata keçər. Biz istəyirik ki, bu yol davam etsin, bu hərəkət mömin xalq vasitəsi ilə son məqsədlərə doğru irəliləsin. Deməli, bu iman və İslam əxlaqı xalqın ruhunun dərinliyinə çatmalı və dinin istədiyi həqiqi dəyişiklik baş verməlidir. İnsanları Allahın əzabından, Allah-Taalanın dünya və axirətdə pis əməl sahiblərinə söz verdiyi cəzalardan qorxutmağı unutmaq olmaz. Bizim peyğəmbərlərimiz, övliyalarımız və böyük alimlərimiz keçmişdə insanları mömin etmək və mömin saxlamaq üçün bu üsuldan istifadə etmişlər. Mənim fikrimcə, bu gün qorxutmaq

daha mümkündür. Allah-Taala Qurani-kərimdə peyğəmbərinə buyurur: "Onunla diri olanları (ağıl və bəsirət sahiblərini) qorxutsun"[419]. Diri insanları və diri qəlbləri qorxutmaq olar. Bu dirilik cəmiyyətdə inqilabla, hərəkətlə, cihadla yaranan haldır. Bəzi təfsirçilər "Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin"[420] ayəsinin təfsirində insanı dirildən amilin cihaddan ibarət olduğunu demişlər; bəlkə bu barədə hədis də var. Bu gün xalqın ümumi cihadı sayəsində bu diriliyin yarandığına və insanların Quranla ünsiyyətdə olduqlarına görə qorxutmaq daha mümkündür. Biz məscidlərdə, minbərlərdə, Quran məclislərində və insanların toplaşdığı bütün dini məclislərdə insanları qorxutmalıyıq. Allaha şükür olsun ki, inqilabdan qabaq xalqda siyasi və ictimai ayıqlıq və geniş siyasi baxış yaratmaq işi başlandı. Həmin iş bu gün də davam edir və davam edəcək. Bu ayıqlığın kənarında insanlarda mənəviyyat ruhunu da oyatmaq lazımdır.[421]

Din alimləri dini və İslam fiqhini qoruyub-saxladılar, ilahi hökmlərin təhrif olunmasına qoymadılar, xalqın qəlbində iman işığı yandırdılar, xalqın diqqətini Qurana və Əhli-beyt təlimlərinə yönəltdilər. Din alimləri tarix boyu zalımlarla mübarizə apardılar, məzlumlara, zəif, mömin və aciz xalqlara dayaq pənahı oldular, İslam təlimlərini inkişaf etdirib bütün İslam dünyasını İslam imanı və dinlə, bu regionu isə həm də Əhli-beyt sevgisi və onların həyatı ilə tanış etmək üçün yaranmış fürsətlərdən istifadə etdilər. Dini müxtəlif İslam ölkələrinə xəncər aparmadı. Xəncər qəlblərdə iman becərə bilməz. Qəlblərdə iman gülünü becərən amil moizə, din hökmlərini və ilahi təlimləri izah etmək, peyğəmbər və övliyalar kimi yaşamaqdır. Allaha şükür olsun ki, bu gün İslam təfəkkürü İslam dünyasının hər bir yerində yaşayır.

Son bir-iki əsrdə xalqlarda azadlıqsevərlik hisslərinin oyanmasının səbəbi müxtəlif ölkələrdə din alimlərinin uğurlu hərəkatların avanqardları olmasıdır. İslam ölkələrində ön xətdə din alimlərinin dayanmadığı digər hərəkatlar əksərən, yaxud ümumi olaraq nəticəsiz qalmışdır. İslam dünyasının şərqində - yəni Hindistan yarımadasında, onun qərbində - yəni Afrikada və bunların arasındakı ərazilərdə müstəmləkəyə son qoyan, İslam mədəniyyətini qoruyan, təcavüzkar və işğalçı mədəniyyət qarşısında dayanan amil alimlərin nüfuzu idi. Bizim öz İranımızda Tənbəki hərəkatı, xarici dövlətlərin müstəmləkəsinə qarşı mübarizə, xalqı oyatmaq, eləcə də Məşrutə hərəkatı, Rza xan istibdadına qarşı mübarizə, müqəddəs və əzəmətli İslam hərəkatının yaranmasına qədər bu mübarizəni davam etdirmək din alimlərinin rəhbərliyi və öncüllüyü ilə baş

verdi. Əks təqdirdə mümkün olmazdı. Bu bir keçmiş və tarixdir. Heç kim onu inkar edə bilməz. Yalnız qərəzli, yaxud cahil şəxslər danışıb həqiqəti gizlətməyə çalışarlar. Bu bizim xalqımızın və digər müsəlman xalqların tarixində qeyd olunmuşdur.[422]

Hər bir dövrdə İslam cəmiyyəti üçün bir hərəkət lazımdır. Hər dövrdə İslam dünyasını və müsəlmanları bir düşmən və bir cəbhə təhdid edir. Onu tanımaq lazımdır. Əgər düşməni, İslam və müsəlmanların zərbə aldığı, hücuma məruz qaldığı cəhəti tanımaqda səhvə yol versək, qarşısıalınmaz ziyanlar yaranacaq; diqqətsizlik etsək, böyük fürsətlər əldən çıxacaq. Biz bu gün İslam dünyasında və öz xalqımızda yüksək səviyyəli sayıqlıq, diqqət, düşməni və vəzifəni tanımaq imkanı yaratmağa borcluyuq. Bu gün İslam hökumətinin yarandığına və İslam bayrağının İslamın erkən çağından bu günə qədər misli görünməyən şəkildə ucaldığına görə müsəlmanların ixtiyarında belə imkanlar var. Biz daha düşməni tanımaqda diqqətsizliyə və hücumun istiqamətini ayırd etməkdə səhvə yol verə bilmərik.[423]

Dünyada kütlələr laqeyd və bitərəfdirlər; haqqı aydınlaşdırsaq, onlar bizim tərəfimizə keçərlər, aydınlaşdırmasaq, digər tərəfə. Hər halda, hegemon dünya dedikdə məqsədimiz qlobal siyasi güc, yəni imperializmə bağlı olan böyük və kiçik güclərdən ibarət hökumət və dövlətlərdir. Onların ən mühüm məqsədlərindən biri İslamı ortadan götürməkdir. Çünki İslam onların imperializminə qarşı çıxır. Siz görürsünüz ki, bu gün ərəb və dırnaqarası İslam ölkələrinin bəzisində hər bir partiyanın yaranmasına razılıq verirlər - dini partiyarlardan başqa. Onlar açıq şəkildə deyirlər ki, dini və islami partiyaların yaranmasına qoymarıq. Onlar hər növ adət-ənənələrlə razılaşırlar, İslam adət-ənənələri isə yox. Siz gördünüz ki, bizim qonşu ölkələrimizdən birində hicabla necə mübarizə apardılar. Təbii ki, onların istəyinə baxmayaraq, xalq günbəgün İslama sarı gedir. Sizin müdafiə və təbliğ ettədiyiniz İslam budur. Bunu unutmayın.[424]

Din təbliğatı üçün din həqiqətlərini bilmək və dünyanın vəziyyətindən xəbərdar olmaq bizim borcumuzdur. Bəzi adamlar Avropanın gözəl şəhərlərindən və rahat şəraitdən durub minlərlə kilometr uzağa – Latın Amerikasına, Afrikaya, Amazon və Keniya meşələrinə gedir, məsihiliyi təbliğ edir, illərlə orada qalırlar. Mən din elmi ilə məşğul olan cənablara dəfələrlə demişəm: Mən elə keşişlər tanıyıram ki, belə yerlərdə qalmış, müstəmləkə

dövründə müstəmləkəçilərin ayaqları dəyməyən yerlərə getmişlər. Özləri ilə bir xaç götürüb dövrümüzün xurafata qarışmış məsihi etiqadlarını zavallı yerli əhaliyə vermiş, bəzisi müsəlman, bəzisi isə qeyri-müsəlman olan əhalini məsihi etmişlər. Onlar batil yollarında belədirlər, biz nə üçün haqq yolumuzda belə olmayaq?! Bu sözləri sizə deməyimə baxmayın; mənim özüm gedib bir tərəfdə qalmağa, az qrupa belə təbliğ etməyə həmişə hazır olmuşam, lakin indi vəziyyətimə görə bu işləri görə bilmirəm. Yəni bunu yanlız sizdən gözləmirəm, bütün ruhanilərdən bu gözlənti var.[425]

Əziz qardaşlar! Ruhanilərin ixtiyarında böyük bir imkan var. Peyğəmbərin (s) dövründən bu günə qədər tarix boyu heç zaman din dəvətçilərinin ixtiyarında belə imkan olmamışdır. Din dəvətçiləri heç vaxt belə qızıl fürsət əldə etməmişlər. Bu, böyük və müstəsna fürsətdir. Biz bu gün din təbliğatçıları kimi təsirli və həmişəyaşar rol ifa etməliyik. Allah-Taala bizdən soruşacaq. Bu bizim vəzifəmizdir və özümüzü hazırlamalıyıq. Bu gün hətta qeyri-müsəlman xalqların da İslam hökmlərinə ehtiyacı var, o ki qala müsəlman xalqların. Bəzi xalqların böyük güclərin zülmü altında əzilməsi, əziyyət çəkməsi İslamdan uzaq olduqlarına görədir. İslam oyanışı xalqları xilas edəcək. Bu gün müxtəlif ölkələrdə ən sayıq insanların Quranın göstərdiyi yol olan İslam xəttinə üz tutmaları lazımdır. Bu, ucalıq və qurtuluş yoludur. Bu gün ruhanilər, din alimləri, natiqlər, vaizlər, dini tələbələr, məscid imamları və bu libasda olan hər bir kəs ifa edə biləcəyi rola diqqət yetirsin.

Bu gün İslam dünyası bütün vücudu ilə ehtiyac içindədir.[426]

Biz qlobal hegemonizmin bu hərtərəfli mədəni hücumu qarşısında nə etməliyik? Adət budur ki, ölkədə bir mədəni problem göründükdə, yaxud eşidildikdə - indi bu problem var – hamımız üzümüzü hökumətə çevirib deyək ki, siz nə üçün fəaliyyət göstərmirsiniz? Bunun adi misalı da hicabsızlıq, yaxud bəzi uzaq şəhər və bölgələrdə yayılan qədim saz, nağara və bu kimi şeylərdir. Bəzən bu haqda bizə yazırlar, məlumat çatır, bəzi qardaşların şikayətçi və narahat olduğunu bilirik. Təbii ki, bunlar pis hallardır; bunda şübhə yoxdur. Lakin mədəni təxribat bunlar deyil. Bunlar həmin təxribatın kiçik simptomlarıdır və əhəmiyyəti çox azdır.

Bu gün ölkə qadınları hicab və görkəm baxımından inqilabdan qabaqkı dövrdən olduqca çox fərqlənirlər. İnqilabdan qabaqkı dövrə nisbətən bizim bu qədər fərqləndiyimiz az sahə var. Siz görün cəmiyyətin müxtəlif sahələri arasında - istər dini, istər elmi, istərsə də siyasi, iqtisadi və digər məsələlərə aid

hansı sahədə indiki vəziyyətlə ozamankı vəziyyət arasında bu qədər fərq var?! O zaman qadından bir şey qalmamışdı. O zaman xüsusən böyük şəhərlərdə qadının hörmətinin, hicabının və paklığının qalmasına qoymurdular. Bugünkü vəziyyət isə o zamanla müqayisəolunası deyil. Bəli, şübhəsiz, bundan da yaxşı olmalıdır, amma bugünkü vəziyyət o zamanla müqayisəyə gəlmir. Bu bizim mədəni tənəzzül, cəmiyyətin məhvi, düşmən təhlükəsi və hücumu kimi baxmalı olduğumuz amil deyil. Bu başqa bir şeydir. Bəzən bu da onun əlamətlərindən ola bilər. Qısası budur ki, gənc nəsil düşmənin vasitəsi ilə tədricən tələf olmaqdadır. Biz buna imkan verməməliyik. Biz gənc nəsli qorumalıyıq ki, müharibə olsa, müdafiə etsin; daxildə bir hadisə baş versə, iştirak etsin; elm və tədqiqat növbəsi çatdıqda dərs oxusun və özünü hazırlasın; gələcəkdən söhbət düşdükdə ona hazır olsun. Etimad və ümid amili olan bu gənc nəsil üzərində müxtəlif forma və üslublarla tədricən işləyirlər. Bu fəaliyyətlər əsasən mədəni istiqamətdədir. Düzdür, gəncləri fəsada çəkən mərkəzlər var. Bu, qeyri-mədəni və praktik tərəfidir. Lakin hamısından təhlükəli olan gənclərin zehni və düşüncəsidir. Bununla məşğul olmaq lazımdır. Gəncin zehni üzərində ən çox təsir göstərən iki amil var: Biri düşmənin müxtəlif təbliğatıdır - gənci müqəddəs İslam həqiqətlərinə, inqilabda qəti məsələlər və əsas etiqadi təməllər kimi tanınan həqiqətlərə qarşı laqeyd və biganə edən təbliğat. İkinci amil isə düzgün nəsihətlər verməmək, bu həqiqət və prinsipləri düzgün izah etməməkdir. Mən düşünürəm ki, ikinci amilin təsiri birincidən az deyil. Çünki İslam Respublikası quruluşunda İslamın, İslamın prinsip, əsas və təlimlərinin əleyhinə açıq şəkildə az təbliğat aparılır, geniş təbliğata şərait yoxdur. Odur ki, düşmənin təbliğatı yalnız müəyyən səviyyəni əhatə edir, halbuki ikinci amil üçün heç bir məhdudiyyət yoxdur. Biz təbliğat aparmadıqda, həqiqətləri bəyan etmədikdə, İslam təlimlərini - tövhidin özünü, ilahi hakimiyyəti, insanın Allah qarşısında bəndəliyinin lazım olmasını, insanın əsas məsələlərdən olan Allah hökmləri qarşısında təslimçiliyinin lazım olmasını düzgün izah və müdafiə etmədikdə bundan doğan təsir xüsusi bir səviyyədə qalmır və hamıya şamil olur. Mən burada ruhani kimi öz vəzifəmiz haqda danışmaq istəyirəm. Mənim fikrimcə, vəzifə olduqca ağırdır.[427]

Təbliğat iki cürdür: daxildə və xaricdə təbliğat. Daxildəki təbliğatın mahiyyəti xaricdəki təbliğatın mahiyyətindən fərqlənir. Təbliğat məqsədi ilə xarici ölkələrə gedənlər mənim nə demək istədiyimi bilirlər. İndi dünyanın bir çox yerlərində təbliğatçı çatışmazlığımız var. Təəssüf ki, bizdə xarici ölkələrə təbliğat üçün göndərəsi adamlar azdır. Bu gün dünyada İslam və Şiə, eləcə də

inqilabın əsas və metodları əleyhinə bu qədər təbliğat aparılır. Təbii ki, xarici ölkələrin gənclərinin, universitet mənsublarının, ziyalılarının və adi xalqlarınnın sualları var. Bizdən onların düyünlərini açacaq, qəlblərini sakitləşdirəcək, suallarına cavab verəcək və onları sevindirəcək bir adam göndərməyimizi istəyirlər, amma bizim heç kimimiz yoxdur. Bizim xaricdə qalmaq üçün təbliğatçı göndərməkdə problemlərimiz var. Elə xarici ölkələr var ki, biz oralarda daimi olaraq on yaxşı təbliğatçı və ruhani yerləşdirə bilsək, böyük təsiri olar. Amma təəssüf ki, bizim hətta bir nəfərimiz də yoxdur. Bəzən çox zəhmətlə bir nəfər tapırıq ki, bir ölkəyə gedib üç ay, altı ay, yaxud bir il qalsın. Bu həqiqətən çatışmazlıq deyil?! Məsihi təbliğatçılar 2-3 əsr öncədən, ən azı 100 il qabaqdan Afrika və Amerikanın ucqar bölgələrinə gedib meşələrin dərinliyində yerləşən kəndlərdə, hətta adi adamların və tacirlərin getmədiyi yerlərdə təbliğata başladılar. Təəccüblüdür ki, onlar bəzən əhalisinin məsihiləşməsinə heç bir ümid olmayan yerlərə, məsələn, İrana da gəldilər. Bir söhbətdə dedim ki, məsihi təbliğatçılar dəfələrlə İrana gəlmişlər. Onların tarixçəsi mövcuddur. Onlar Nadir şahın dövründən və ondan öncədən məsihiliyi təbliğ etmək üçün öz ev və vətənlərini buraxıb o dövrün nəqliyyat vasitələri ilə İran kimi bir ölkəyə gəlib məsihiliyi təbliğ etmək məqsədi ilə uzun illər qalırdılar. Siz bu gün təyyarəyə minib 3, 4 və ya 5 saatdan sonra dünyanın istədiyiniz bölgəsinə çatırsınız, üstəlik geniş imkanlar, telefon və digər rabitə vasitələri var, amma eyni zamanda yenə də çatışmazlığımız var. İndi biz dəyərli ruhanilərdən və hazırlıqlı şəxsiyyətlərdən xahiş edirik ki, bir müddət xarici ölkələrdə qalıb təbliğat aparsınlar. Əslində isə bunun üçün hazır kadrlar olmalıdır. Bu işə uyğun dərs və kurslar görmüş, xarici ölkələrin psixologiyasını, dillərini bilən, xalqlarını tanıyan, onlarla danışa bilən adamlar olmalıdır, amma təəssüf ki, beləları yoxumuzdur. Bu boşluq kimin vasitəsi ilə aradan qalxmalıdır?! Biz oturub İslam elmlərinin elm hövzələrinə nisbətən aşağı səviyyədə tədris olunduğu bir institutun bizim üçün təbliğatçı yetişdirməsini gözləyə bilərikmi?! Təbliğatçının yetişdiyi yer Qum və elm hövzələridir. Qum hövzəsindən və ondan sonra digər elm hövzələrindən başqa bu işi harada görmək olar?![428]

**7- Təbliğatda yeni üsullardan istifadə**

Biz dini sözləri qatqılardan təmizləməsək, bunu bizdən öyrənən nəsil bizi bağışlamayacaq.

Bu gün dünya xalqın ehtiyacı olan ən aktual məsələ və elmlər üçün hər saat yeni üsullar tapır. Siz bu gün bir nəzəriyyə oxusanız, bir aydan sonra son nəzəriyyə kimi ona istinad edə bilməzsiniz. Çünki üsullar dəyişir və yeni sözlər

meydana çıxır. Elə isə biz bu gün öz haqq sözümüzü 50, yaxud 100 il bundan qabaqkı insanlara deyilən tərzdə və üsulla deyə bilərikmi?! Bu gün hətta inqilabdan öncəki dövrlə fərqlidir. İnqilabdan öncəki 1976, 77 və 78-ci illərdə faydalı və təsirli olan bir dini çıxış bu gün o qədər də faydalı olmaya bilər. Düzdür, bəzi məsələlər hansı dillə və hansı şəraitdə bəyan olunsa, insanları cəlb edir, amma bu ümumi deyil. Mənim minbər və minbər adamları barədə demək istədiyim əsas məsələ budur. Qısası budur ki, bu şərafətli peşəni həm məzmun, həm də forma və metod baxımından inkişaf etdirmək lazımdır.[429]

Təbliğ çatdırmaq deməkdir və bunun vasitələri şəraitə görə fərqlənir. Bir zaman siz bir şeyi yandakı otağa çatdırmaq istəyirsiniz. Bu zaman onu əlinizə götürüb aparır və çatdırırsınız. Bir zaman da bir fərsəng məsafə olur, yaxud dünyanın o başına getmək lazım gəlir. Bir zaman divar və maneələr ola bilər, dağlardan, meşələrdən keçməli olarsınız; bir zaman qarşı tərəf sözü rəğbətlə qəbul edir, bir zaman da çox diqqət və ehtiyatla ona ötürməlisiniz; bir zaman bir nəfər orada dayanıb və sizin aparmaq istədiyinizi buraxmır. Xülasə budur ki, bu çatdırmağın müxtəlif qisimləri var və hər bir şəraitdə müxtəlif formalarda ola bilər. Çatdırmağın vasitəsini və tərzini təyin edən amil sizin zövqünüz, üsulunuz, dərkiniz və çatdırma sürətinizdir. Suyu bir fərsəng o tərəfə çatdırmaq istəyəndə onu bir stəkana töküb yola düşsəniz, ağıllı adamlar baxanda təccüblənərlər ki, bu necə su çatdımaqdır. Belə vəziyyətdə bir kuzə, yaxud qumquma tapmalısınız. Çünki bir fərsəng yol gedəndə bir stəkan su tərpənib dağılar.

Demək olmaz ki, bir zaman belə təbliğ edirdik və çox təsirli idi. Bəli, bir zaman Şeyx Cəfər Şüştəri Tehranda minbərə çıxıb "Camaat! Bu qədər bilin ki, Allah var" – deyir və bununla da insanların qəlbində tufan qoparırdı. O zaman Allahın yardımı və dinləyicinin çıxarı belə təsir bağışlayırdı. Lakin bu gün mən və siz minbərə çıxıb eyni cümləni desək, camaat başlarını tərpədib təəccüblə baxar, qalxıb gedərlər.

Bir zaman mərhum Məclisi "Həqq əl-yəqin" və "Eyn əl-həyat" kitablarında dini etiqadları və əxlaq məsələlərini öz dili ilə bəyan edir və bir dünya adamı Şiə etiqadına yaxınlşadırırdı. Siz elə bilməyin ki, Məclisinin bu kitabları əbəs yazılmışdır. O zaman ölkəmizdə yeni olan Şiə məzhəbinin təməllərini bu kitablar möhkəmlətdi. Allah eləməmiş, bu kitablara həqarət gözü ilə baxmayın. Bir zaman bunların çox böyük təsiri olmuşdur. Məclisinin şəhərində ondan 50-100 il öncə insanları Şiə etiqadlarına vadar etmək üçün hətta qeyri-insani işlər də görmüşdülər. Məclisi və onun kimilər isə bu inancları

xalqın qəlbində bərkitdilər. O zaman bu kitablar faydalı idi, amma bu gün biz oxumaq üçün xalqa bunları təklif edə bilmərik. Biz onları tarix kimi şkafa qoymalı, bacardığımız təqdirdə isə həmin məzmunu bugünkü dillə yazmalıyıq. Mən bu gün "Həqq əl-yəqin" və "Eyn əl-həyat" kitablarını oxumağı tövsiyə etmirəm. Çünki hal-hazırda insanların işinə yaramır. Sizin çoxunuz bəlkə oxumamısınız, mənsə oxumuşam, faydalı mətləblərlə doludur, amma bugünkü gəncə və mərhum Məclisinin dövründən əsər-əlamət qalmayan bugünkü təfəkkürlərə uyğun deyil. Bu gün radiolarda, kitablarda, tərcümələrdə bu qədər yeni, düşündürücü və cəlbedici söz var. Biz bir yerdə bir sətir görən kimi tez yas tutub, haray-həşir salmamalıyıq ki, filan sözləri demiş, yaxud tərcümə etmişlər. Bu da bir fikirdir. Siz elə bilirsiniz İbn Kəmmunənin vaxtında kimsə kitabında onun şübhəsini yazan kimi müəllifi kafir elan edirdilər?! Məgər səbəb olmadan kimisə kafir elan etmək olar?! Kim yeni söz desə, biz deməliyik ki, sən müxalifsən, düşmənsən?! Axı deməməklə problemlər həll olmur.

Bu qədər əzəmətli Qurani-kərim ateist və materialistlərin fikirlərini özü söyləyir. Onların Peyğəmbərə (s) söyüşünü də deyir: "Deyirlər ki, o, dəlidir"[430]. Amma Quran özünə arxayındır: "Onda şübhə yoxdur"[431]. Buna görə, bizim hamımız, eləcə də inanclarımız şübhədən uzaq olmalı, fikirlərimizi möhkəm şəkildə və münasib dillə bəyan etməliyik. Belə olsa, möcüzəni görəcəksiniz. Mühüm olan budur ki, biz işıqlı əlimizi ciblərimizdən çıxarıb göstərək və əsanı ataq. Bunlar yaradıcılıq tələb edir.

Hər halda, təbliğatın və çatdırmağın müqəddimələri var. Məzmunu hazırlamaq və uyğun formanı seçmək lazımdır. Biz ruhanilər bu məzmunların arxasındakıları unutmamalıyıq. Uzun illər gözləyirdik ki, şəhərin bir küncündə, yaxud bir məscid və ya hüseyniyyədə dörd nəfər toplaşsın və biz bir kəlmə söz danışaq. Bir şəhərdə bir din alimi, bir məscid imamı və ruhani vardı, ondan başqa bir kəs yox idi, ya da çox deyildilər. O, qəm-qüssə, zəhmət çəkir, narahat olur, ona-buna ağız açır və etimad yaradırdı ki, bir qarış məscidi ondan almasınlar. Nə üçün? Çünki düşüncə mərkəzinin məsciddən ibarət olduğunu duşunürdü. Oranı bağlasaydılar, heç bir şey qalmazdı.

Bu gün siz bu şəhərdə təbliğat apararkən bilirisiniz ki, 130-dan artıq başqa şəhərdə də sizin kimilər təbliğat aparırlar. Radio və televiziyada da oxşar təbliğat aparılır. Bəli, bu, radio və televiziyanın bu üzüdür. İndi üç-dörd musiqi çalınanda, bir qadının saçının üç-dörd tükü bayırda qalanda hamının etirazı ucalır. Bunu görmürsünüz ki, radio səhərdən axşama qədər Quran, dini çıxış və İslam təlimləri yayımlayır, sözləri Bismillahla başlayır, Quran ayəsi ilə bitirir?! Bu gün yaxşı fürsəti olan sizlər bu imkanlardan istifadə etməlisiniz, yoxsa yox?!

Mütaliəsiz minbərə getməyimiz düzgün deyil. Mütaliəsiz minbər odur ki, xalqa demək istədiklərimizin fikir-zikri beynimizdə olmasın.

Əlbəttə, bu yalnız minbər deyil, həm də incəsənət üsullarından istifadədir. Minbər də iki cürdür: sənətkarcasına və qeyri-sənətkarcasına. Sizin gördüyünüz yaxşı minbərlərin bütün cəlbediciliyi məzmununa görə deyil, həm də nitqdə sənətkarlığa görədir. Keçmişdə bizim dövrümüzün bəzi minbər alimlərini əsl incəsənət xadimi sayırdılar. Odur ki, nitq sənətini öyrənmək, təbəqələri bir-birindən ayırmaq lazımdır. Gənc qızlar bir şey istəyirlər, gənc oğlanlar başqa bir şey; uşaqlar bir şey, yeni elmlərin mütəxəssisləri başqa bir şey; alimlər bir şey, adi camaat, həmçinin evdar qadınlar başqa bir şey.[432]

Bütün səviyyələr üçün kitablar lazımdır. Mən indi İslam maarifi və kitabları ilə tanış olan sizdən bir neçə yaxşı kitab adı çəkmənizi istəsəm, bəlkə də barmaqsayı qədər kitab adı çəkə bilməyənlər olacaq, bəlkə heç bu qədər lazımlı və yaxşı kitabımız yoxdur da. Bundan əlavə, bizim mövzu üzrə bəhslərə ehtiyacımız var. Məsələn, bir nəfər yalnız hicaba, ər-arvad hüquqlarına, yaxud dünyada bu qədər dartışılan insan haqlarına, yaxud İslamın xarici siyasətinə və ya fəhlə hüquqlarına dair İslamın fikrini sadə və qısa şəkildə bilmək istəyir. Bütün bu mövzularda bizim kitablarımız varmı?! Bir nəfər hansısa yazıçının bir kitabını tərcümə edə bilər, amma tərcümə kifayət etmir. Bu mövzular haqda kitab yazmaq və tədqiqat aparmaq lazımdır. Məşhur şəxsiyyətlərdən, Qumun böyük və dəyərli alimlərindən biri bir neçə il qabaq mənə deyirdi ki, İngiltərə kitabxanalarından birinə getmişdim; indi yadımdan çıxıb ki, İngiltərə idi, yoxsa başqa bir ölkə. Hər halda, deyir ki, kitabxananın bir hissəsi əxlaq kitablarına aid idi. Səhv etməsəm, son 10-20 ildə əxlaq haqda yazılan kitablar kitabxananın böyük bir hissəsini doldurmuşdu, bəlkə təxminən 10 min cild kitab vardı. Mən bu rəqəmi ehtiyatla deyirəm, ondan da artıq ola bilər. Siz görün bizim İslamın əvvəlindən indiyədək fars və ərəb dillərində əxlaq haqda yazdığımız bütün kitablar nə qədərdir. Hansısa bir kitabxanada olan əlyazmaları demirəm, tanınan və insanların əlində olan əxlaq kitabları yüzdən çoxdur?! Onlar son bir neçə ildə əxlaq haqda bu qədər kitab yazıblar. Mən demək istəmirəm ki, yazdıqlarının hamısı yaxşı və düzgündür. Mən deyirəm ki, əksərən materialist təmayülləri olsa və mənəviyyatdan çox uzaq qalsalar da, inkişaf etmiş ölkələrdə elmi fəallıq var. İnsafla desək, bizim əxlaq və digər mövzular haqda müxtəlif səviyyəli oxucular üçün kitab və yazılarımız azdır. İslamla yeni tanış olanların bu kitablara ehtiyacı var. Bizim keçənilki söhbətimiz zamanı Sovet İttifaqının tərkibində olan ölkələrdə bu gün milyonlarla müsəlman var. Onlar dünənə qədər

kommunizmin hakimiyyəti altında idilər, bu gün isə bizdən din təlimləri istəyirlər. Ötən il belə ölkələr yox idi, bu gün isə var.

Bu, beynəlxalq hadisələrin sürətini göstərir. Onlar deyirlər ki, biz 60-70 il kommunizmin hökmranlığı altında olmuşuq. Kommunizm bizə iqtisadiyyat, tarix, fəlsəfə və digər müxtəlif mövzularda kitab, broşür, film və teatr hazırlamışdı. İndi müsəlmanıq, İslama qayıtmışıq. Siz də dediyiniz kimi İslamın mərkəzisinizsə, bizə İslam kitabları verin. Sizin onlara cavabınız nədir? Siz onlar üçün nə tərcümə etmiş və ya yazmısınız? Biz müxtəlif şəraitlərə uyğun kitab istehsal etməliyik. Təbliğat məsələsi bunlara da şamil olur. İncəsənət, film və digər məsələlər öz yerində, amma təbliğat üçün biz hövzənin idarəsində yeni bir dönəm başlatmalıyıq. Düzdür, biz Qum Elm Hövzəsində fiqh üzərində dayanır və onu birinci bilirik, amma bu o demək deyil ki, təbliğat fənninə az əhəmiyyət verməliyik. Bəzən bir təbliğatçının gördüyü işi yüz fəqih görə bilmir. Mərhum Hacı ağa Rza Həmədani Vaiz həm din alimi idi, həm də vaiz və təbliğatçı. O, batil təriqətlərin birinin yayıldığı və tədricən hövzəyə də sirayət etdiyi zaman mərhum Mirzə Şirazinin dəvəti ilə minbərə çıxıb bu təriqətin əleyhinə çıxış etdi. Həmin çıxış indi də mövcud olan "Hədiyyə ən-nəmlə ila rəis əl-millə" adlı kitab oldu. Bəzən bir təbliğatçı elə böyük iş görür ki, Mirzə Şirazinin və ya onun kimilərin özləri istəsəydilər, belə bir iş görə bilməzdilər və yaxud çox çətinliklə görərdilər. Bu vaiz isə təbliğat peşəsinə yiyələnmişdi.[433]

Biz Əhli-beyt sözünü ucaltmaq üçün işlər görməliyik. Əvvəla Əhli-beytin özünü tanıtdırmalı, ikincisi isə onların fikirlərinin təbliğinə çalışmalıyıq. Bu gün İslam dünyasında Əhli-beyt haqqında bu dövrə uyğun olan və münasib dillə yazılmış kitablar var, yoxsa yox? Mənim böyük ehtimalım budur ki, yetərincə yoxumuzdur. Bəlkə də haradasa nələrsə var. Əgər varsa, biz bunları tələbələr, gənclər, ruhanilər, ümumi xalq və təbliğatın təsiri altına düşən digər şəxslər arasında yaymalı və onların ixtiyarında qoymalıyıq. Onların şəxsiyyəti haqda da kitablar yazılmalı, geniş mədəni işlər görülməli, həmçinin Əhli-beytin düşüncə və görüşləri bəyan olunmalıdır. İslam məsələlərində, yəni İslam prinsipləri, maarifi və ədəbiyyatında Əhli-beytdən çatan çox şeylərimiz var. Onlar bu gün dünyaya təqdim olunsa, həqiqətən dünyanı heyrətə salar. Məsələn, Nəhcül-bəlağə üzərində işləmək lazımdır. Bu kitabda və digər hədis kitablarında mövcud olan mühüm məqamlar çıxarılsın, izah olunsun və incələnsin.

Bizdə Əhli-beytin dilindən nəql olunan çoxlu sözlər, Əhli-beytin tanıtdırdığı İslamın təlimləri olan çoxlu dəyərli bilgilər var. Bu gün bəşər bunlara ehtiyaclıdır.[434]

## 8- Təbliğatda zamanı və məkanı tanımağın əhəmiyyəti

Təbliğat dünyanın ümumi və siyasi vəziyyətinə əsasən aparılmalıdır. Biz hətta dəstəmaz və qüsl məsələlərini izah edəndə də dinləyicimiz olan müsəlmanı elə İslamın təlimləri ilə tanış edirik ki, hansı cəmiyyət bu İslama sahib olsa, bütün dünyanın hücumları da ona təsir etməz. Bu, bugünkü ruhanini 100, 200 və 500 il öncəki ruhanidən fərqləndirən cəhətdir. Baxmayaraq ki, məncə 100-200 il qabaq da bizim bəzi din alimlərimiz bu məsələlərə diqqət yetirsəydilər, vəziyyət indikindən yaxşı olardı. Mən Fətəli şahın dövründə yaşayan iki din aliminə baxanda zehnimdə bir müqayisə yarandı. Bu iki nəfərin biri savadlı, güclü din alimi, böyük və məşhur bir fəqihdir. Onun elminə və təqvasına heç kimin şübhəsi yoxdur. Bu alim öz kitabını Fətəli şahı tərifləməklə başlayır, kitabın ortalarında müxtəlif məsələlərlə bağlı onun adını çəkir, Cihad bölməsinin bir yerində də Fətəli şahı vəkil edir. Sanki biz deyirik filankəs filan şəhərdə bizim tərəfimizdən nümayəndə olub şəriət ödənclərini alsın və filan işləri görsün. O da öz fiqh kitabında Fətəli şahı nümayəndəsi təyin edir, deyir ki, bu şərafətli sultan ruslarla vuruşduğuna görə mən onu öz tərəfimdən vəkil edirəm, ona itaət etmək hamıya vacibdir. İndi biz tarixə baxanda Fətəli şahın necə çirkin, şəhvətpərəst, daşürəkli və murdar bir insan, Qafqazın on yeddi şəhərini əldən verib rüsvayçı Türkmənçay müqaviləsini bağlayacaq qədər bacarıqsız olduğunu görürük. Fətəli şah belə insandır. Lakin elm və təqvasına heç kəsin şübhə etmədiyi, bizim böyük alimlərimizin hörmət etdiyi və kitabı son 150-200 ilin ən məşhur fiqh kitablarından olan bu böyük din alimi dövrünün vəziyyət və şəraitindən xəbərdar olmadığından görə - "Dövründən xəbərdar olan şəxsə şübhələr hücum etməz"[435] – Fətəli şahı özünə nümayəndə təyin edir. Həmin alimlə bir dövrdə yaşayan başqa bir böyük alimimiz də var. O, "Came əş-şətat" kitabının müəllifi olan Mühəqqiq Qumi, Mirzə Qumidir. Sözügedən kitabda ondan soruşulan bəzi suallar yer almışdır. Bu suallara baxan onların Fətəli şahın sarayından verildiyini bilər. Sual verilir ki, siz dövrün imamının naibi olduğunuza görə kiminsə sizin nümayəndəniz kimi bu müharibəni idarə etməsinə icazə verirsinizmi? Bu növ suallar ondan təkrar-təkrar soruşulur, dövrünü tanıyan, vəziyyət və şəraitdən xəbərdar olan bu sayıq insan isə zərrə qədər də aldanmır. Onun məharətli cavabları bir din aliminin, böyük bir fəqihin sayıqlığına dair gözəl nümunədir. Mirzə Quminin özü bu sualların birinə cavabda deyir ki, bu sualı hazırlayanın elm adamı olduğu nəzərə çarpır. Yəni Fətəli şahın ətrafındakı savadsız dövlət məmurlarının ağlı çatmaz ki, bu hiylədən istifadə edib Fətəli şah üçün Mirzə Qumidən vəkillik almaq istəsinlər.

Sonra deyir ki, bu zarafat da bizə borc olsun. Sonra isə cavab verməyə başlayır, vəkillik verməkdən boyun qaçırır və ayıq şəkildə şəriət hökmünü bəyan edir. Fətəli şahın Mirzə Quminin oğlunu özünə kürəkən etmək istəməsinin və Mirzənin məşhur duasının da geniş hekayəsi var. Mən deyirəm ki, bizim bütün və ya ən azı son 200 ildəki din alimlərimiz öz dövrlərində Mirzə Qumi kimi olsaydılar, indi bizim vəziyyətimiz daha yaxşı olardı. Hər halda, o dövrlər arxada qalıb və onların vəziyyəti ilə işimiz yoxdur. Biz bu gün öz vəziyyətimizlə maraqlanmalıyıq.

Buna əsasən, cənablar diqqətli olub zamanı tanısınlar, bu gün dünyada dinə dair düzgün təsəvvürü təbliğ etsinlər və İslamı bəşəriyyətin xilaskar məktəbi kimi başa salsınlar.

Həm də başa salın ki, bu gün imamların yolu ilə getmək üçün hamı İslamı və Əhli-beyt məktəbini yaşatmağa çalışmalıdır. Bunlar bir xalqı polad kimi möhkəmlədən və düşmənlərin nüfuzunun qarşısını alan amillərdir. İnsanları gücləndirin, zəkat və xums kimi şəriət əməllərini, ibadətləri onlara öyrədin. Bu bizim vəzifəmizdir və buna çalışmalıyıq.[436]

İslamı təbliğ etmək üçün imkanların mövcud olduğu, bizim özümüzün və səsimizin dünyanın ucqar yerlərinə çatdığı indiki şəraitdə birinci növbədə Qum hövzəsinin və onun ardınca digər elm hövzələrinin təbliğat proqramları keçmişlə fərqlənməlidir. Bizim təbliğat fəaliyyətimizin əhatəsi məsciddə 50, 100, maksimum 500 nəfərlik bir məclisi əhatə etdiyi, bir din aliminin məscid imamı və yaxud vaiz kimi danışdığı dövr bizim öz ölkəmizdə, cəmiyyətimizdə və dünyanın hər bir yerində çoxlu insanların təbliğat gözlədikləri bugünkü dövrdən fərqlənir. Bu gün nə qədər gənc dini öyrənməyə həvəslidir. Dünənə qədər dindən və dini biliklərdən ayrı saxlanmış nə qədər elmli və təhsilli insanları bu gün hökumət dini öyrənməyə və dini təmayülə həvəsləndirir. Bunlar dindən nəsə anlamaq istəyirlər. Bu gün kimsə sizə bütün İslam təlimlərini qısa, ixtisarla və yüngül elmi formada öyrənmək istədiyini desə və ona belə bir kitab adı şəkmənizi istəsə, hansı kitabın adını çəkərsiniz? Oxucunu İslamla tanış edən belə kitablar olsa da, sayları çox azdır. Digər tərəfdən, insanların səviyyə və zövq fərqləri var. Siz dini öyrənmək istəyən tələbə ilə bir cür, universitet müəllimi ilə başqa cür danışırsınız; humanitar elmlərin müəllimi ilə bir cür, təbii və ya riyazi elmlərin müəllimi ilə başqa cür danışırsınız; xarici mədəniyyəti görməyən adamla bir cür, görənlə isə başqa cür üzləşirsiniz; həmçinin orta təbəqələrlə bir cür, düşünmək üçün vaxt və hövsələsi olmayan avam təbəqələrlə başqa cür rəftar edirsiniz.[437]

Bu gün sizin xalqın müxtəlif təbəqələrini İslama inandıran, günahdan uzaqlaşdıran, savaba həvəsləndirən və Allahın qapısına aparan lazımi düşüncə qidanız olmalıdır.[438]

Qərbin materialist filosof, yazıçı və mütəfəkkirlərinin düşüncələri bu gün bizim universitetlərimizdə kitab və tərcümə formasında mövcuddur. Bunların qarşısına sədd çəkmək olmaz. Bu mümkün və məsələhət deyil. Düşüncələr gəlməli və bilinməlidir. Lakin belə düşüncələrə qarşı padzəhər düzəltmək lazımdır. Bu ölkənin gənclərini marksizmin cəlbedici düşüncələri qarşısında vaksinləmək və onlara padzəhər vermək lazımdır. Məgər marksistlər bu məmləkətdə az işləyir, az broşür yayır, az söhbət edirdilər?! İslam mütəfəkkürləri və ruhanilər bütün bu cəlbedici, şirin və populist çıxışlar qarşısında gənclərimizi qoruya bildilər. Bizim gənclərimiz arasında marksistlərlə elmi mübarizə aparanlar vardı. İndi heç bir düşüncənin cəlbediciliyi onlardan çox deyil. Biz kitablarda, müxtəlif borşürlərdə, hətta bəzən bilmədən universitetlərin dərs vəsaitlərində olan, hətta bəzən kütləvi informasiya vasitələrində yayımlanan və gənclərimiz arasında yayılan satqın fikirlərə, təhrif və səhvlərə cavablar hazırlamalıyıq. Elmli və düşüncəli bir qrup vaxt ayırıb bunları hazırlamalıdır. [439]

Mən düşünürəm ki, bu gün bizim minbər sahəsində yeni bir vəzifəmiz var. Bu sənətin yaşlılarının, bu sahənin peşəkarlarının, zamanın şəraitinə vaqif olan din alimlərinin və uzun illər bu yolda olub müxtəlif cəhətləri ölçən şəxslərin vasitəsi ilə bir idarə, bir qayda və qanun yazılması lazımdır. Ona görə ki, hər zəif söz deyilməsin, hər faydasız, yaxud az faydalı bilgi daha faydalının yerini tutmasın, dövrün tələbi və xalqın dini bilgilərə ehtiyacı diqqət mərkəzində saxlansın.[440]

KİV, radio, televiziya və qəzetlər İslama xidmət və İslamı təbliğ edirlər. Lakin bizim minbər ənənəmiz, yəni dinləyici ilə üzbəüz öturub danışmaq çox müstəsna, möhtəşəm, mühüm və dəyərli bir irsdir. Bunu əldən verməyin və minbərlərdə etdiyiniz çıxışlarda bir neçə məsələyə riayət edin:

Birinci məsələ xalqın ehtiyacıdır. Görün bu gün xalqın daha çox nəyə ehtiyacı var. Bu gün xalqın əxlaqa, dərin inqilabi təfəkkürə ehtiyacı var, bu inqilabın hansı təməl və əsaslara söykəndiyini bilmək istəyir. Xalqın bu ehtiyacı barədə düşünün. Ən yaxşı mənbə də imamın sözləri, bu 11 ildə Allahın lütfü ilə

böyüklərimizin bəyan etdiyi bəzi qiymətli yazı və sözlərdir. Təbii ki, tədqiqatçılar Qurana, İslam hakimiyyətinə, İslamın universallığına və həyat dini olmasına dair hədislərə müraciət etməlidirlər.

İkincisi budur ki, orta həddi qoruyun, heç bir istiqamətdə ifrata yol verməyin. Bəzi adamlar minbərdə əxlaqi və siyasi cəhətlərdən ifratçılığa yol verirlər. İfratçılıq pisdir. Əlbəttə, xalqın əxlaqi məsələlərə çox ehtiyacı var. Bizim insanların pis xaraketlərini məhv etmək, Quranın şərafətli ayələrində və hədislərdə göstərilən xüsusiyyətlərə malik olan gözəl əxlaqı dirçəltmək üçün əxlaq inqilabına ehtiyacımız var. Əxlaq çox vacib məsələdir. Amma əxlaq, yaxud hədis deyərkən günün hadisələrindən, inqilab və dünya məsələlərindən və bu 11 ilin macəra dolu tarixindən kənarda qalmamalıyıq.[441]

**9- Təbliğat üçün İslam təlimlərini və İslam tarixini bilməyin zəruriliyi**

Biz bu gün üzərimizə hansı vəzifənin düşdüyünü və hansı dünya ilə qarşı-qarşıya qaldığımızı bilməliyik. Deməyin ki, mən kiçik bir məscidi idarə edirəm. Bu gün yalnız bir dinləyicisi olan ruhani də İslam təlimlərini dünyanın vəziyyətinə və İslam məsələlərinə dair düzgün təsəvvürə əsasən bəyan etməlidir. Çünki həmin bir nəfər də bu inqilabçı və mübariz cəmiyyətin tərkib hissəsidir. Onun da aydın İslam düşüncəsi və düzgün siyasi ayıqlığı olmalı, dünyanın müasir düşüncələrini bilməli və milyonlara deməlidir. Belə olduqda üç-dörd nəfərlə qarşılaşan, yaxud kiçik bir şəhərin cümə imamı və ya bir məsciddə ruhani olan adamın bunları bilməsi lazım deyil?! Bu gün dindən danışan hər birimiz bir neçə məsələyə riayət etməliyik: Əvvəla əsaslı danışmalı, zəif sözlər deməməliyik. Bu gün bizim hər bir sözümüz düşmənlərin mikroskopu altındadır, dinləyicilərimiz düşüncə baxımından düşmənin hücumuna məruz qalırlar. Biz çox ehtiyatlı olmalı, hətta uşaqlarla danışanda da düzgün və əsaslı sözlər deməliyik. İnsanın sadə, yaxud səhv sözlər deməsi fərqli şeylərdir. Sadə danışmaq odur ki, zehni zəif və savadsız olan uşaqlara və avam adamlara münasib olsun. Sadə danışmaq bunlar üçün lazımdır, səhv danışmaq isə yox. Biz elə bilirik ki, belə adamlar üçün danışanda mötəbər bir kitabdan istifadə etməyə lüzum yoxdur, qeyri-mötəbər kitablardan da istifadə edə bilərik. Biz birinci sinif şagirdinə toplama öyrəndə də deyirik ki, ikinin üstünə iki gələndə dörd edir. Bunu ona öyrədirik. Çoxlu riyaziyyat kitablarını oxuduğu on ildən sonra, yaxud riyaziyyat ixtisası üzrə ali təhsil alanda da ikinin üstünə iki gələndə dörd edir. Yəni əvvəldə öyrətdiyimizlə axırda öyrəndiyi eynidir. Buna görə, kiməsə elə bir söz öyrətməyək ki, savadlanandan, məlumatı və düşüncə

səviyyəsi yüksələndən sonra bizim öyrətdiyimizin səhv olduğu anlaşılsın. Deməli, sözün əsaslı olması zəruri məsələdir. İkinci məqam isə məsələnin bütün tərəflərinə diqqət yetirməkdir. Biz bu gün elə bir İslamı təbliğ edirik ki, qlobal hegemonizmin maddi, elmi, texnoloji və hərbi gücü onunla üz-üzə dayanmışdır. Yəni dünyanın bu özbaşına qüvvələri İslamla düşməndirlər. Mən onların yalnız İslamla düşmən olduqlarını demirəm, sonra kimsə fikirləşməsin ki, guya hamı yalnız İslamla vuruşmağa çalışır. Onlar çox şeylə düşməndirlər, amma İslamla qatı düşməndirlər. Harada İslam varsa, onlar həmin yerlə düşməndirlər. Və bu yalnız bu günə məxsus deyil.[442]

Xalqa nəsihət vermək üçün birinci növbədə öz nəfsimizə nəsihət verməliyik. Din natiqliyi ilə məşğul olan şəxs üçün mənəvi paklıq zəruri şərtdir. Belə olduqda ürəkdən danışar, sözü təsirli olar, əməli sözünü gücləndirər və təsdiqləyər. Xalqın dini düşüncə səviyyəsini yüksəltmək istədiyinə görə təbliğatçının özünün geniş və rəngarəng dini məlumatı və baxışı olmalı, Quranla ünsiyyət qurmalı, hədislərin dərin mənasını bilməli, məzhəbə və dinə dair yeni fikirlərlə tanış olmalı, dini məsələ və düşüncələr üzərində araşdırma aparmalıdır; yalnız dini yox, həm də bəzi fəlsəfi fikirlər və ictimai baxışlar haqda da bir qədər məlumatı olmalıdır.[443]

**10- İslamı müasir dünyaya əməli surətdə təqdim etmək**

Bu gün İslam Respublikasında ruhanilərin vasitəsi ilə əldə olunan nailiyyətləri yalnız bizim dövrümüzün ruhanilərinin adına yazmaq, bu uğurları yalnız onlara aid etmək olmaz. Belə deyil. Bu dövrün ruhaniləri ruhaniliyin minillik hörmətindən yaxşı istifadə etdilər. Şiə ruhaniləri min il boyu tədricən möhtəşəm bir hörmət və etibar xəzinəsi toplamışdılar. Bizim dövrümüzdə əzəmətli insan və müstəsna şəxsiyyət olan Böyük İmam, həmçinin bu yolla hərəkət edən digər ruhanilər həmin xəzinədən səmərəli istifadə etdilər. Bu ehtiyat tükənməz deyil. Əvvəla onu qorumaq, ikincisi isə artırmaq lazımdır. Əgər Allah eləməmiş, diqqətsizlik, zamanı tanımamaq, vəzifənin nə olduğunu bilməmək və ruhaniliyin minillik xəttindən yayınmaq səbəbindən bu ehtiyat əldən çıxsa, əsrlərlə ixlaslı mübarizə sayəsində qazanılmış qiymətli almaz zədələnsə, yaxud sınsa, yenidən belə bir ehtiyat toplamaq üçün çoxlu zaman lazım olacaq. Deməli, bu dövrdə biz ruhanilərin və din alimlərinin birinci vəzifəsi sözügedən minillik hörməti və etibarı qorumaqdır. Allaha şükür olsun ki, inqilab dövründə bu hörmət artdı, fədakarlıq səbəbindən Şiə ruhaniliyinin siması daha da parladı.[444]

Bu gün İslam Respublikası quruluşunda biz din alimlərinin və ruhanilərin üzərinə düşən vəzifə həm tarixə nisbətən müstəsna vəzifədir, – Şiə ruhaniliyi və İslam fəqahəti tarixində fəqihlərin və din alimlərinin üzərinə heç bir dövrdə bugünkü qədər böyük və ağır vəzifə düşməmişdir - həm də dünyanın digər din alimlərinə nisbətən müstəsnadır. Çünki bizim ölkəmizdə İslam təfəkkürünə və İslam şəriətinə əsaslanan bir quruluş həm formalaşmışdır, həm idarə olunur, həm də bu quruluş İslam şəriətini və İslam məqsədlərini tam şəkildə həyata keçirməyə çalışacağını qəbul etmişdir.

Digər İslam ölkələrinin din alimlərinin məsuliyyəti bu baxımdan yüngüldür. Dini müdafiə vəzifəsi ümumidir və din alimlərinin zalım və antidin başçılar önündə, istər şərqli, istərsə də qərbli növdən olan hegemon siyasətlər qarşısında sükutu qəbuledilməz sayılır. Allah-Taala din alimlərinin, xalqın hidayətçilərinin və ümmətin müəllimlərinin üzərinə qoyduğu dini müdafiə vəzifəsini xüsusi bir zaman və məkanla məhdud etməmişdir. Bütün İslam bölglərində İslamı, Quranı və İslam şəriətini müdafiə məsuliyyəti birinci növbədə din alimlərinin üzərinə düşür və heç bir şərait müqəddəs dini müdafiə vəzifəsini onların üzərindən götürmür. Bu vəzifə hamının üzərinə düşür. Lakin bütün bunlarla yanaşı, digər ölkələrdə din alimlərinin işi daha asan, sadə, İslam quruluşundakı din alimlərinin işi qədər mürəkkəb deyil. Orada İslamın beynəlxalq imicini müdafiə etmək vəzifəsi onların üzərinə düşmür; hər bir cəhətdən İslam əsasında formalaşan bir quruluş və sistem qurmaq vəzifəsi onların üzərinə düşmür. Onların vəzifəsi fiqhin təyin etdiyi mərhələlərdə - yəni təsir imkanı olan və onlar üçün mümkün həddə yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirməkdir. Lakin bir quruluşun və xalqın idarəsi, insanlara İslama uyğun həyat imkanı yaratmaq olduqca mürəkkəb, dəqiq və çətin işdir. Bu iş bizim üzərimizə – İslam cəmiyyətinin din alimlərinin üzərinə düşür. Onlar üçün mübarizə və siyasi problemlər baxımından bəzi çətinliklər yarana bilər, amma onların işi bizim quruluşumuzda İslamın beynəlxalq imicini qorumağa dair vəzifələrdən dəfələrlə asan və yüngüldür.

Biz inanmalıyıq ki, İslam Respublikası bu gün pis və zəif işləsə, təkcə bu quruluşun heysiyyətinə zərbə toxunmayacaq, bütün İslamın heysiyyətinə zərbə toxunacaq. Beynəlxalq müşahidəçilərin nəzərində həqiqətən İslamın qübbəsi, bayrağı və simvolik İslam cəmiyyəti buradadır. Biz zəif və pis işləsək, İslam hökmlərini və ictimai ədaləti bərqərar edə bilməsək, istedadları işə salıb onlardan bəhrələnməsək, cəmiyyətdə İslam əxlaqını yayıb ictimai münasibətləri ideal formada tənzim edə bilməsək, dünya İslamın öz vədlərinə əməl edə

bilmədiyini söyləyəcək. Görürsünüz ki, bu məsuliyyət təkcə bizim üzərimizə düşür, müxtəlif quruluşlarda yaşayan digər ölkələrin din alimlərinin üzərinə yox. Bu bizə məxsusdur.

Mövləvi simvolik bir dastan söyləmişdir. Mən nə zaman onu xatırlayıramsa, qorxur və Allaha sığınıram. O deyir ki, həm müsəlmanların, həm məsihilərin yaşadığı bir şəhərdə müsəlmanların məhəlləsinə pis səsli bir azançı gəlib bir neçə dəfə azan verdi. Bir gün məsihi bir kişi öz məhəlləsindən müsəlmanların məhəlləsinə gəlib azançını axtardı. Onun yerini göstərdilər. Nəhayət, azançını tapıb ona çoxlu təşəkkür etməyə başladı. Azançı soruşdu ki, mənə nə üçün təşəkkür edirsən? Məsihi kişi cavab verdi ki, sənin bizim boynumuzda böyük haqqın var, heç kəsin belə haqqı yoxdur. Mənim gənc bir qızım var. O bir müddət idi İslama sevgi bəsləyirdi və müsəlmanlığa meyllənmişdi. Nə edirdimsə, kilsəyə gəlmir, bizim mərasimlərimizdə iştirak etmir, etiqadlarımıza etinasız yanaşırdı. Biz bu qızla bacara bilmirdik. İki-üç gün öncə sən azan deyəndə bu qız səsini eşitdi. Dedi ki, bu xoşagəlməz səs haradandır? Dedim ki, müsəlmanların azanıdır. Biz ondan sonra rahat olduq və İslam sevgisi bu qızın ürəyindən tamamilə çıxdı. İndi isə öz adi həyatını yaşayır, kilsəyə gedib mərasimlərə qatılır. Biz bunu sənə borcluyuq, qızımızı sən bizə qaytardın.

Mən dəfələrlə özümə və dostlarıma demişəm ki, bu pis səsli azançı kimi olub İslam sevgisini qəlblərdən çıxarmayaq, dünyada İslamı öyrənmək üçün mövcud olan böyük istəyə çirkin və xoşagəlməz halda cavab verməyək. Bu bizim borcumuzdur. Biz İslam üçün, Allah üçün başladıq. [445]

Əgər biz İslam məhkəməsini həqiqi şəkildə cəmiyyətdə icra edə bilməsək, məhkəmə orqanlarında və hökumətimizdə İslam ədalətini göstərə bilməsək, mal-dövlətin sərvətlilər arasında dövriyyə etməməsini İslamın təkid etdiyi düzgün iqtisadi sistemlə təcəssüm etdirə və həyata keçirə bilməsək, cəmiyyətdə İslam əxlaqını və İslam dəyərlərini yarada bilməsək və nəticədə İslam adlı və İslam bayraqlı, amma qeyri-islami və hətta cahil həqiqətli və məzmunlu bir İslam olsa, - qeyri-islami olan hər şey cəhalətdir: "Haqdan sonra zəlalətdən başqa nə qalır?!"[446] – o zaman biz həmin pis səsli azançı olacağıq, xoşagəlməz səsimiz İslama hörmət və ucalıq yerinə xəcalət gətirəcək. Yaxşı, indi kim bunun qarşısını almalıdır? İslamı izah etməli olan kimdir ki, ləyaqətli, mömin və İslamın sirləri ilə tanış olan kadrlar ehtiyac olanda işə girişsin, xalqı hidayət etsin, hökumətə nəsihət versin və öz mənəvi gücü ilə çətin yolları açsın? O kimdir? Ruhani təbəqəsi. Bu baxımdan, elm hövzələrinin rolu birinci dərəcəli

əhəmiyyətə malikdir. Bu haqda söz uzundur və mən geniş danışmaq istəmirəm.[447]

Vacib işi çox qısa şəkildə söyləmək istəsək, onun İslam fiqhinə əməl etməkdən ibarət olduğunu deməliyik. Biz cəmiyyətdə fiqhi icra etməliyik. İslam fiqhi yalnız murdar-təmiz və ibadət məsələlərindən ibarət deyil, insanın fərdi, ictimai, siyasi, ibadi, hərbi, iqtisadi və həyatının digər cəhətlərinə şamil olan məsələlərdir. Allahın böyük fiqhi budur; insanın həyatını idarə edir, beynini, qəlbini, ruhunu, həyat ənənələrini, ictimai əlaqələrini, siyasi münasibətlərini, məişət vəziyyətini və xarici əlaqələrini tənzim edir. Biz 13 il ərzində bu fiqhi öyrənmək istəsək, bacararıq? Halbuki əməl etmək öyrənməkdən də çətindir. Cəmiyyətdə günaha bir işarə ilə, yaxud zorla son qoymaq olmaz.[448]

İslam Respublikası quruluşu mahiyyətcə din alimlərinə və elm hövzələrinə bağlı quruluşdur; həm onların bu quruluşun yaranmasında mühüm rol oynadıqlarına, həm xalqın quruluşa aid məsələlərdə onlara müraciət etdiyinə, həm də quruluşda müxtəlif vəzifələrdə çalışdıqlarına görə. Onlar quruluşun vəziyyətini olduğu kimi bilməli, nöqsan və inkişaflardan xəbərdar olmalı, köməyə ehtiyaclı yerləri təyin etməli, düşmənin hədəf seçdiyi yerləri bilməli və quruluşun yaşamasında öz rollarını ifa etməlidirlər. Elm hövzələri, din alimləri və ruhanilər quruluşun vəziyyətindən xəbərsiz qala bilməzlər.[449]

**11- Ruhanilərin sadə yaşayış tərzi və təqvası**

Xalqın ruhanilərə inamı Şiə ruhanilərinin böyük keçmişindən, onların xalqın beyninə və imanına təsirindən irəli gəlir. Biz bu inamı qorumalıyıq. Bu gün ruhanilər öz ənənələrindən xaric olub kiməsə güc göstərsələr, imkanlarından sui-istifadə etsələr, xalqın etimad amili olan iman və təqvanın zəifliyindən xəbər verən bir iş görsələr, bunların vurduğu zərərləri düzəltmək mümkün olmayacaq. Bu baxımdan bu gün biz ruhanilərin vəziyyəti müstəsna və inqilabdan öncəki dövrdən fərqlidir. İnqilabdan qabaq da bir ruhani mənfi bir iş görsəydi, ziyanlı idi və bütün ruhanilərə aid olurdu. Amma bu gün quruluş İslam quruluşu olduğuna və ruhanilər İslamın təmsilçiləri sayıldıqlarına görə ziyan yalnız ruhanilərin bir qrupuna və hətta hamısına yönəlmir, bütün İslama yönəlir və onu asanlıqla düzəltmək mümkün deyil. Mən yalnız bunu demək istəyirəm.

Bizim böyük imamımızın bu barədə çox ibrətli tövsiyələri var. Ruhani ənənəsini, xalqla qədim və sadə əlaqəni, imandan, təqvadan və dinə bağlılıqdan

xəbər verən əməl və hərəkətləri qorumaq, bu qaydanı pozan hər bir işdən təkidlə çəkinmək və bunlara diqqət yetirmək lazımdır. Təbii ki, bu söz yalnız burada iştirak edənlərə deyil, ölkə ruhanilərinin hamısına aiddir. Bu gün bizim işimizdən yaranan təsəvvür, bizim hər bir hərəkət və sükutumuzun daşıdığı məna yükü həlledici bir şeydir.[450]

Ruhanilər təqvalarına və dünyaya etinasızlıqlarına görə sevildilər. Təqva olmadan və dünyanı kənara qoymadan mümkün deyil.[451]

Mənim də üzvü olduğum ruhani təbəqəsinin vəzifəsi budur ki, hövzə mənsublarının mənəvi dayağını elm, əməl, düşüncə və rəftar baxımından bacardıqları qədər artırsınlar. Çünki ruhanilərin hörməti İslamın, inqilabın, xüsusən də imamın hörmətidir. İmam ruhaniləri çox tərifləyir və himayə edirdi. Odur ki, ruhanilərdə parlaq, faydalı, İslama və müsəlmanlara səmərəli olan hər bir hərəkət imam üçün bir hörmət və şöhrət amilidir. Ruhanilər arasında xəcalətə səbəb olan, yaxud xalqda şübhə, insanların etiqad və düşüncələrində çaşqınlıq yaradan, yaxud onların ruhanilərə inamının sarsılmasına səbəb olan hər hansı hərəkət İslama və inqilaba, xüsusən də əziz imamımıza başıaşağılıq gətirir. Buna qarşı tədbir görmək lazımdır.[452]

**12- Cümə namazlarına əhəmiyyətli yanaşmaq**

Biz İslam Respublikası quruluşunda iman və duyğularımızla hərəkət edirik. Bu həqiqətdir. Təbii ki, bir ölkə və bir xalq kimi bizim potensial imkanlarımız olduqca çoxdur. Bizim bu qədər təbii qaynağımız, yüksək istedadlı insan kapitalımız var. Hələ ki, Allaha şükür, ölkə məmurlarının yüksək səviyyəli inqilabi idarəçilik təcrübəsi var. Lakin o qaynaqların çıxarılmasından, sənayemizin lazımi formaya düşməsindən və ölkənin düzgün inkişafından öncə bizim ixtiyarımızda olan, razılıq və dəstəkləri bütün mərhələlərdə ölkə məmurlarına arxa duran xalq var. Bu xalqın imanı çox yüksək olsa da, çatışmazlıqlara, nöqsanlara, düşmən, hətta bəzən dost tərəfindən beyinlərə salınan fikirlərə görə ruhiyyəsinin zəifləməsi mümkündür.

Bu qalanı qoruyan xalqın imanı və əhval-ruhiyyəsidir. Bəs xalqdakı bu amilləri kim qoruyur? Mənim fikrimcə, xalqda iman və ruhiyyəni qoruyan ən mühüm amillərdən biri cümə namazları, cümə xütbələri, xalqın cümə namazında mənəvi iştirakı, xalqın qəbul etdiyi etimadlı bir insanın hər cümə ölkənin vəziyyətini izah etməsi, insanlara nəsihət verməsi və istiqamətlərini düzəltməsidir. Mənim fikrimcə, bu bizim ictimai quruluşumuzu qoruyan

mühüm şərtlərdən biridir. Tarixdə də belə olmuşdur. Həm əziz İslam Peyğəmbərinin (s) və ədalət imamlarının özləri, həm də Əməvi və Abbasi dövrünün zalım xəlifələri və onların əyalətlərdəki əmirləri hakimiyyətlərini gücləndirmək üçün cümə namazından istifadə etmişlər. Təbii ki, zalım xəlifələrin cümə namazları həqiqi namaz deyildi, amma təqvasız əməlləri ilə insanları təqvaya çağırmaları da müəyyən təsir buraxırdı. Mən bəzən belə şah və əmirlərin xütbələrini mütaliə edir və sözlərinin çox təsirli olduğunu görürəm. Quruluşları zülmə, ayrıseçkiliyə və azğın əməllərə əsaslanan batil quruluş idi. Məsələn, Əməvilər dövründə İraqın valisi olan Həccac, yaxud Yusif ibn Ömər Səqəfi belə olmuşlar.

Bu tirbunanın əhəmiyyəti böyükdür. İndi haqq imaməti və vilayəti əsasında yaranmış, cümə imamlarının həqiqətən mömin, təqvalı, sədaqətli, tamahsız, iddiasız, bunu dünyəvi bir vəzifə bilməyən mənəvi və ruhani insanların olduğu bir haqq quruluşunda bu tirbunanın cəmiyyətin mənəviyyatını və təhlükəsizliyini qorumaq üçün təsirləri olduqca böyükdür. Bu olmasaydı, mən inqilabın və xalqın psixoloji vəziyyətinin necə olacağını təsəvvür etmirəm. Bu, inqilabın faydalarından biri idi və imam bu məqama əhəmiyyətli yanaşırdı. Mən özüm Tehranın cümə imamlığına təyin olunanda həzrət imamın yanına getdim və cümə imamlarının seminarının keçirilməsini təklif etdim. O zaman cümə imamlarının sayı bu qədər deyildi. Mən dedim ki, indi ölkə boyu cümə imamı olan bu qədər möhtərəm din alimimiz var və bu, cəmiyyətin mənəvi idarəsi, ölkənin iman qalasını qorumaq üçün bir ümumrespublika şəbəkəsidir. Əgər razı olsanız, bu şəbəkəni bir-birinə birləşdirib, cümə imamlarından ibarət bir şəbəkə yaradaq, insanları bir-birinə calayaq, sonra bu təşkilatla İslam dünyasının cümə imamları arasında konfranslar keçirək. İmamın çox xoşuna gəldi və müsbət qarşıladı. Biz Quma gedib Feyziyyə mədrəsəsinin kitabxanasında keçirilən ilk seminarı təşkil etdik, bu işin əsası qoyuldu və Allaha şükür ki, bu günədək davam edir. Cümə imamlarının təşkilatlanması və bu zümrəyə ölkənin və xalqın iman və mənəviyyat qalası kimi baxmaq olduqca əhəmiyyətlidir. Bu əsla diqqətdən kənarda qalmamalıdır. Lakin bu şəbəkənin həqiqətən tam bir qala kimi çalışması üçün onun toplantıları vaxtlı-vaxtında və daim keçirilməlidir.

Mən təkidlə tövsiyə edirəm ki, cümə imamlarının seminarları - istər vilayət seminarları, istər bəzən bir neçə vilayətin bir yerdə keçirdiyi seminarlar əsla dayanmasın və müntəzəm fəaliyyət göstərsin.

Mən katibliyin möhtərəm əməkdaşlarına da təkidlə tövsiyə edirəm ki, cümə imamlarının toplantısı həqiqi bir seminar kimi müntəzəm və daimi olaraq

keçirilsin, ciddi iş sayılsın və sadə bir toplantı kimi qəbul olunmasın. Seminarda hamının ortaq məsələlərdə vahid baxışa malik olub, vahid yol seçməsi üçün təşkilata aid məsələləri elmi və əsaslı şəkildə bəyan edirlər. Bəzən təcrübə və tədqiqatlardan da istifadə edirlər, mütəşəkkillik yaranır və səviyyə yüksəlir. Yaxşı bir seminarda bu iki xüsusiyyət olmalıdır: əvvəla təşkilat üzvlərinin səviyyələrini bir-birinə yaxınlaşdırmalı, ikincisi isə ümumi səviyyəni yüksəltməlidir. Yəni keçirilən hər bir seminardan sonra sizin şəhərinizdəki cümə tribunasının mənəvi təməlinin keçmişdəkindən gücləndiyinə şahid olmalıyıq və bu, tribuna üzərində birbaşa təsirini göstərməlidir. Sonra inşallah seminarları beynəlxalq konfransa çevirərik. Olduqca lazımlı və faydalı olan Cümə imamlarının beynəlxalq konfransı çoxdandır keçirilmir.[453]

Bir şəhərdə cümə xütbəsindən gözlənilən bu deyil ki, biz bir söhbət hazırlayıb minbərdə danışaq. Əslində gözlənti daha böyükdür. Gözlənti budur ki, siz xəstəliyi axtaran, tapan, çox zəhmətlə dərmanını hazırlayan, bu dərmanı yaranın üzərinə qoyan, yaxud xəstəyə içirən bir həkim kimi olmalısınız. Bizim vəzifəmiz bu deyil ki, deyək: "Biz dedik; kim əməl etmək istəyirsə, etsin". Hakimiyyətin müsəlmanların əlində olduğu, cəmiyyətin idarəsinin bizim üzərimizə düşdüyü, xüsusən də düşmənlərimizin İslam təlimlərini beyinlərdən çıxarmağa çalışdığı bir dövrdə vəzifəmiz yalnız bir söhbət hazırlamaq, sonrası ilə maraqlanmamaq deyil, biz sözü ürəklərə çatdırmalıyıq: "Peyğəmbərin öhdəsinə düşən isə yalnız çatdırmaqdır".  Çatdırmaq lazımdır və biz çatdırmalıyıq; havaya tullamamalıyıq ki, kim tutursa-tutsun. Mən bunu bir problem kimi görürəm. Düzdür, bilirəm ki, cənablar çalışır, zəhmət çəkirlər, bir şəhərdə cümə imamına çoxlu müraciətlər edilir, xalqın ondan gözləntisi böyükdür, xalqla işləyir, idari və siyasi işlər görür. Xalq bir çox problemlərin həllini ondan istəyir, hətta bəzi sadəlövhlər əmmaməli olduğuna görə problemlərdə onu günahlandırırlar. Mən bunları bilirəm, lakin bu çətinliklərə üstün gəlmək və əsas vəzifəni tapmaq lazımdır.[454]

Bu gün xalqın ümidi ruhanilərədir, xalqın mənəvi dayağı ruhanilərdir və ölkənin hər bir yerində onların ən böyük nümayəndələri cümə imamlarıdır. Düzdür, elm hövzələrində və digər elm mərkəzlərində böyük müctəhid və müəllimlər var, lakin onlar ölkənin bəzi yerlərinə məxsusdurlar. Ölkənin hər bir yerində olanlar isə cümə imamlarıdır. Onlar həm bütün ruhanilərin nümayəndələridir, həm də quruluşun İslam quruluşu olduğuna görə onun

nümayəndələri. Odur ki, həmin əhəmiyyətli mərkəzdə bu baxışla fəaliyyət göstərməli və çıxış hazırlamalısınız.

Cümə xütbələrini cəlbedici etmək, gəncləri ona cəlb etmək lazımdır. Sağlam təbiətin qaçdığı amillərdən uzaqlaşmaq, ruhanidən imanı alan məsələlərdən çəkinmək lazımdır. Ruhanilərin əsas vəzifələrindən biri onlara olan inamı qorumaqdır. Çünki ruhanilərə inam həmişə dinin özünə inamla yanaşı olmuşdur. Ruhaniləri qəbul etməyən və eyni zamanda dinin özünə düzgün etiqadı olanlar az olmuşlar. Bəzi adamlar iddia ediblər, lakin biz az görmüşük. İnsanlar dini bu yolla anlayırlar. Onların dinə inamları bu təbəqəyə inamla birgə olmalıdır.[455]

## Dördüncü hissə: Müsəlman yazıçıların, ziyalıların və incəsənət xadimlərinin mədəni hücuma qarşı vəzifələri

### 1- İncəsənətə əhəmiyyətli yanaşmaq

Bir incəsənət xadimi öz sənət əsəri ilə bir ölkənin, hətta bir dünyanın düşüncələrini dəyişdirə, insanları düz yola yönəldə, yaxud onlara mənəvi həzz yaşada bilər.[456]

Şübhə yoxdur ki, yanlış düşüncə və marağı olanlar da incəsənətdən istifadə edəcəklər. İncəsənət elə bir şeydir ki, dünyanın bütün şüurluları ondan istifadə etmək istəyirlər. Ümumiyyətlə dünyada incəsənətdən istifadə etmək istəməyən ağıl sahibi yoxdur. İstifadənin biri də budur ki, bir nəfər natəmiz bir düşüncəni bir incəsənət növü ilə beyinlərə yeridir. Buna əsasən, o şəxs də incəsənətdən istifadə etmək istəyir; necə ki, natəmiz düşüncə və əməl sahibləri pul və silahdan da istifadə edirlər. Bunun qarşısını almaq olmaz. Görülməsi mümkün olan iş budur ki, natəmiz düşüncə sahibinin istifadə etmək istədiyi, yaxud etdiyi amildən müqəddəs, pak və ülvi düşüncə üçün istifadə edək. Çünki bu pak, müqəddəs və ülvi düşüncə ondan istifadə edə bilməsə, geri qalacaq. Əgər sapqın bir insan dünyanın bir yerində fəsad törətmək, məsələn, bir oğurluğa rəhbərlik etmək, yaxud insanları öldürmək üçün avtomobildən və ya təyyarədən istifadə edirsə, ona mane olub insanları xilas etmək üçün siz də mütləq təyyarədən istifadə etməli, ondan tez, ən azı onunla birgə və ya onun arxasınca özünüzü həmin yerə çatdırmalısınız. Bu zaman avtomobil, ya təyyarədən istifadə etməsəniz, geri qalacaqsınız. Sürətli təyyarə ilə özünüzü çatdırmasanız, geri qalmanız qaçılmazdır. Bunda şübhə yoxdur.[457]

Əgər 1962-ci ildən başlayaraq həzrət imam tərəfindən min yolla - istər çıxışlarda, istər dərslərdə, istər fəlsəfi düşüncələrdə, istərsə də fiqhi nəzərlərdə ortaya qoyulan bu inqilabi düşüncə sənət formasında təqdim olunmasa, gələcək nəsillər üçün yad bir şey olacaq. Fərz edin bizim önümüzdə bir mənzərə var; məsələn, müxtəlif yaşları, elmi səviyyələri, ictimai vəziyyətləri, fikir və baxışları olan bir qrup kimi bir yerdə oturmuşuq. Siz bu məclisi burada olmayana necə təsvir edə bilərsiniz ki, buranın vəziyyətini məclisdə iştirak edənlər kimi, hətta bəzən onlardan da yaxşı və dəqiq təsəvvür edə bilsin? Belə bir şey mümkündür? Əgər mümkündürsə, necə? Bəli, sənət dili ilə mümkündür. Sənət dili nədir? Yəni şəkil, film, heykəl, şeir, roman.

Müstəmləkəçi qüvvələrin incəsənətdən inqilabın və sevmədikləri bütün dəyərlərin əleyhinə istifadə etmək üçün bu qədər sərmayə qoymalarının səbəbi incəsənətin təsiridir. Siz buradan bayıra çıxıb bu məclisdə olmayanlar üçün danışsanız ki, filan yerdə idik, bir nəfər şeir oxudu, bir nəfər belə dedi və sair. Bu həmin adamda olduğu kimi təsəvvür yarada bilməz, incəsənət isə yarada bilər. Fərz edin sənətkar bir fotoqraf və ya operator məclisin yaxşı yerlərindən şəkil, yaxud film çəkir. Sonra ona baxan adam xüsusi diqqət və zövq sahibi olsa, bəlkə də bizim diqqət yetirmədiyimiz şeylər görər: məsələn, bir neçə nəfər filan rəngdə paltar geyinib, yaxud hansı rənglər bir-birinin yanındadır və sair. Bunlar burada otursaq da, bizim özümüzün diqqət yetirmədiyimiz nəticələrdir. Sənətkar baxış onu cəld hiss edir və anlayır. Əgər belədirsə, bilin ki, biz bu amildən lazımi formada və düzgün istifadə etmirik.[458]

Əlbəttə, bizim ölkəmiz incəsənət ocağıdır. Dünya incəsənəti min il öncədən bu yana ümumi şəkildə fars dilinə və iranlı sənətkarlara borcludur, lakin biz bundan istifadə etməmişik. Səbəb də budur ki, sənət adamları özlərində lazımi cəsarəti toplaya bilmədilər. Çünki sənətkarlıq digər yaxşı xislətlərə də sahib olmaq demək deyil. Sənəti çox uca, amma özü əskik, dəyərsiz, pis, fasiq, azğın və xain insanların olması mümkündür. Keçmişdə bizdə beləlēri vardı, indi də var və çoxları gözlərimizin önündədir. Görürsünüz ki, bizim bütün sənətkarlarımız özlərini inqilabla uyğunlaşdıra bilmədilər. Düzdür, bəzi sənətkarlar uyğunlaşdırdılar, amma inqilab o zaman özünü sənət qəlibinə sala bilər ki, doğma sənətkarı olsun və onu özü yetişdirsin. Gənclərin bir qrupu çox yaxşı şəkildə bu işlərlə məşğul olurlar. Siz də harada və hansı formada olsanız, bu işi görün, bu silahın kəsərliliyinə diqqət yetirin, inqilab düşmənlərinin bu silahdan böyük istifadəsinə diqqət yetirin. Bilin ki, inqilab təlimləri müxtəlif sənət əsərləri formasında yaxşı təsvir oluna bilərlər. Və bunun bir dəyər olduğunu hiss edin. Peyğəmbərin (s) özü böyük bir sənətkar, Quran bəşər sənətinin fövqündə duran ilahi sənət əsəridir. İslam əvvəldən incəsənətlə başlayıb, yəni Quranda incəsənət dili olmasaydı, bəlkə də işin bir tərəfi axsayardı. Allah-Taala heç bir şeyi məsləhətsiz və hikmətsiz yaratmır. Hikmət tələb edirdi ki, bu güclü və təsirli incəsənət, ilahi təlimləri 1400 ildən sonra da insanlara təqdim etsin.[459]

Biz inanmalıyıq ki, inqilabın həm daxildə, həm də ölkə xaricində dərinləşməsi və genişlənməsi yalnız və yalnız incəsənətlə mümkündür, başqa bir yolla mümkün deyil.[460]

Mənəvi sözlər adi danışmaqla, rəsmi şəkildə söyləməklə bəyan olunan sözlərdən deyil. Onları yalnız incəsənət vasitəsi ilə bəyan etmək mümkündür. Siz görün bu gün dünya əhalisnin Almaniya yəhudilərinə dair fikri necədir? Yəhudilərlə arası yaxşı olmayan və bu məsələdə çox da marağı olmayan biz müsəlmanları çıxmaq şərti ilə, bütün dünya yəhudilərə nasizmin qurbanları kimi baxır. Baş verəni bir neçə dəfə artıq bəzəyib-düzəməyi incəsənətdən başqa hansı amil bacarar?! Onlar çoxlu filmlər istehsal edib bütün dünyaya yaydılar. Hətta bəzən İranda da filmləri yayımlanırdı. Bu mesajları incəsənətdən başqa bir yolla yaymaq mümkün deyil. Biz bu gün kino və teatr sahəsində geridəyik, yəni bunlar bizim cəmiyyətimizdə hələ oturuşmayıb.[461]

Mən öz gözlərimlə elə hadisələr görmüşəm ki, maddi göz o hadisənin dərinliyini dərk edə bilməyib. Sonra sizin kimi bir sənətkar onu yazmış, nümayiş etdirmiş və yaxud hekayə şəklində bəyan etmişdir. Bundan sonra o hadisəyə yenidən baxanda məndə maraq yaradıb və onu anlamağa başlamışam. Bu mənim özümün şahid olduğumdur. Buna əsasən, məncə müsəlman incənəsət xadiminin rolu fövqəladə dəyərə malikdir. Təəssüf ki, hələ incəsənət sahəsi sizin əlinizdə deyil, çünki sayınız azdır. İnqilabın möcüzələrindən biri onun tarixini təsvir edən incəsənət xadimləri yetişdirməkdir. Allaha şükür olsun ki, sizin müəyyən sayınız var. Lakin say və imkanlar baxımından sizdən üstün və öndə olanların geniş imkanları var. Onların bəziləri incəsənət baxımından da zəngindirlər, əcnəbilərə xidmət göstərən bir sərvət, düşmən əlində bir silah sayılırlar. Mən o sənətkarlıqda heç bir böyüklük hiss etmirəm. İnsan adətən özünü sənətkar qarşısında kiçik sayır. Mən beləyəm: incəsənət xadimlərini görəndə öz qarşımda onların uca məqamlarını duyuram. Lakin əcnəbilərə xidmət edən sənət adamının işi nə qədər yüksək və incəsənət baxımından dəyərli olsa da, onun sənətində dəyər hiss etmirəm, çünki hər hansı pul, sərvət, qol gücü, kəsərli dil və hər hansı incəsənət növü haqqın, insanların və dürüstlüyün xidmətində durmasa, dəyəri yoxdur. İndi elm atom silahlarının xidmətində və İsrailin əlindədir. Bu dəyərlidir?! Xeyr! Bunun heç bir dəyəri yoxdur. Belə şeylərin dəyəri nisbidir, mütləq deyil. Sözsüz ki, mütləq dəyərlər var. Ümumiyyətlə dinlərin məqsədi düzgün və doğru dəyərləri mütləqləşdirməkdir. Lakin elm, sənaye və texnologiya mütləq dəyərlərdən deyil; harada işlədilməsindən, kimin əlində olmasından və necə istifadə edilməsindən asılıdır. İncəsənət də belədir. Odur ki, sizin sayınız və

imkanlarınız elə adamlara nisbətən bəlkə də az olsa da, dəyəriniz onlardan dəfələrlə yüksək və çoxdur.[462]

İncəsənət təsirinə görə ölçülməlidir. Şeir və digər bəzi sənət növlərində birinci məsələ təsirdir. Deməli, sənətkarın beynində və düşüncəsində formalaşmış və onun öz yüksək dərki ilə anladığı məsələni incəsənət dili ilə hər yerdə yaxşı əks etdirəcək ötürmə qabiliyyəti incəsənətin yüksək səviyyəsidir, digər meyarlar isə hədd və ölçü üçündür. Bu işə instinktiv bacarığı olmayan adam ona nail olmaq istəsə, bilməlidir ki, rəssamlıqda hansı qaydalardan istifadə olunur, şeirdə, yaxud musiqidə hansı qaydalardan. Odur ki, mən təsir buraxdığını görəndə onun yüksək səviyyədə olduğunu anlayıram.[463]

**2- İslam inqilabı ədəbiyyatını və incəsənətini genişləndirmək və dərinləşdirmək**

Qayğıkeş və sədaqətli ziyalılar bilsinlər ki, bu gün böyük sınaq günüdür; tarix onların bugünkü rəftarları barədə dəqiq və ifşaçı mühakimə yürüdəcək. Ölkənin ziyalı təbəqəsinə bağlı olanlardan kimlərsə əcnəbilərin istismarı və satqınların hakimiyyəti dövründə ziyalılığın tələblərinə uyğun olaraq xalqın sırasında yer tutmayıb, Amerika və onun muzduru olan rejimlə mübarizə cəbhəsinə qoşulmayıbsa, xalq hakimiyyəti, islami və insani dəyərlərin hakimiyyəti, kinli və hiyləgər əcnəbilərlə mübarizə günü olan bugünkü gündə keçmiş səhvlərini düzəltməli, İran xalqının ABŞ, qlobal hegemonizm, pul və gücün mənfur imperatorluğu ilə mübarizə sıralarına öz mövqeləri və gücləri qədərincə kömək etməli, dillərini, qələmlərini və sənətlərini bu xalqın möhtəşəm İslam cihadına xidmətdə işlətməlidirlər. Elm, mədəniyyət və ilahi dəyərlər əsasında qurulmuş bir quruluşda yaşamaq hamıya fəxrdir. Bu quruluşun başında İmam Xomeyni kimi əzəmətli bir şəxs durur. Hətta düşmənləri də onu böyük və möhtəşəm sayır, əzəmətinə kin bəsləyirlər. Onun mənəvi ucalığını, zahidliyini, elmini, əqidəsini və böyük ruhunun paklığını heç kim inkar etmir, heç kəs onda xalqın düşmənləri qarşısında zəiflik və təslimçilikdən ən az əlamət belə görmür və ruhi böyüklükdə ondan üstün bir zirvənin olduğunu güman etmir.

Başında son yüz ilin şahları kimi azğın, günahkar və xəyanətkar insanların durduğu, Rza xan, Məhəmmədrza, Ələm, İqbal, Hüveyda, Zahidi, Mənsur, onların bədnam və cinayətkar ətrafları tərəfindən idarə olunan, Amerikanı və İngiltərəni özünə ağa, məmləkətə və xalqa ixtiyar sahibi hesab edən bir quruluşu sevənlər nə qədər kiçik, zəbun və dəyərsizdirlər. Bəzi

dırnaqarası ziyalılar İslam azadlığı sayəsində imkan tapıb ziyalılıq iddiası altında qovulmuş əcnəbilərin xoşuna gələn sözlərlə səhifələr doldurur və nəşr edirlər. Onların qəm-qüssələrinin elm, yaxud azadlıq üçün yox, əslində rüsvayçı günah və fəsad süfrəsinə və pozğun Qərb mədəniyyətinin təbliğatçılarının fəaliyyətinə son qoyulduğuna görə olduğunu, quruluşa düşmən olmalarının da onda olan eyib və nöqsana görə yox, əslində əcnəbilərin onlar üçün yaratdığı rüsvayçı dünyaya qayıtmaq məqsədi ilə olduğunu etiraf etmək cəsarəti varmı?! Qərbin müstəmləkəçi mədəniyyəti tərəfindən zombiləşənlərdən heç bir gözlənti yoxdur. Ümid və gözlənti öz xalqlarının, ölkələrinin yüksəlişini, ucalığını, mənəvi və maddi inkişafını istəyən və əcnəbi istismarının bütün formalarını rədd edən sədaqətli və xeyirxah ziyalılardandır. Yaxşı olar ki, bunlar İranın başucalığına və xalqın yenidən dirçəlişinə bais olan İslam quruluşunun qədrini bilib öz məsuliyyətlərini dərk etsinlər.[464]

Sənət adamları zəngin incəsənət dilini xalqın ən əziz sərvəti olan İslama və inqilaba xidmət üçün işlətsinlər, bu ilahi neməti xalqın düşüncəsini yüksəltməyə sərf etsinlər və incəsənəti əcnəbi mədəniyyətlərin ziyanlı təzahürlərinə bulaşmağa qoymasınlar. Onlar sənət əsələrini incəsənətin ucalığını qoruyaraq xalqa təqdim etsinlər və onu xüsusi bir qrupa xas dəbdəbə məhsulu formasından çıxarsınlar.[465]

Bir düşüncəni daşıyan bütün amillər kimi inqilabın incəsənət və ədəbiyyatının istiqaməti də çox dəqiq, aydın və düzgün olmalıdır. İstiqamətdə səhvə yol vermək olmaz. Siz sənət adamlarının yaymağa çalışdığınız düşüncənin təbliği üçün əvvəllər İslam Peyğəmbəri (s) bütün mümkün vasitələrdən istifadə etdi, bu yolda Quranda mövcud olan ən mütərəqqi və ən qiymətli sənət növündən bəhrələndi. Quranın bizim üçün təsəvvüredilməz dərəcədə möhtəşəm incəsənət gözəlliyi var. Siz Qurani-kərimə və əziz Peyğəmbərin (s) sözlərinə diqqət yetirsəniz, onlarda tövhidin, şirk, bütpərəstlik və çirkinliyin timsalı olan şeytanla düşmənliyin, iradənin, yorulmazlığın, xalqa sevginin, insana və insanlığa hörmətin, məzlum və məhrumlara dəstəyin aşıb-daşdığını görərsiniz. Bütün Quran və İslamın erkən çağının düzgün ədəbiyyatı, yəni pak imamlardan nəql olunan hədislər, Nəhcül-bəlağə və digər əsərlər incəsənətlə və insani prinsiplərlə doludur. Bunların heç birində istiqamətlərdə ziqzaq şəkilli hərəkət yoxdur. İncəsənət xadimi olmaq mövqesizliyə əsas vermir. Eşidirik, bəzən deyirlər ki, filankəs sənətkar olduğundan prinsiplərə qarşı digərlərindən fərqlənməlidir. Yəni sanki bəzi həyat prinsipləri bütün xalq

üçün prinsipdir, sənətkar üçün isə deyil və o, ruhunun lətifliyinə, düşüncə və təsəvvürünün zərifliyinə görə həyatın adi prinsiplərindən istisna olunur. Xeyr! Əsla belə bir şey yoxdur. Sənətkar zərifliyinə, lətifliyinə və həssaslığına görə həqiqəti daha yaxşı, daha tez anlayır, daha yaxşı bəyan edir və ona daha sadiq qalır. Belə deyil ki, həqiqəti digərlərindən tez, yaxud daha incə və zərif əldə etdiyinə görə daha asanlıqla da əldən versin. Məgər belə bir şey mümkündür?! Ümumiyyətlə, yanlış duyğulardan irəli gələn mövqesizlikləri sənətin adına bağlamaq ona təhqirdir. İndi elə bir dövrdə yaşayırıq ki, bəzi sənət adamlarının düçar olduğu belə problemlər azalmış, yaxud həyatın real meyarlarında sıradan çıxmışdır. İnqilabdan sonrakı meyarlara görə, bu işlər daha böyük eyib sayılır. Odur ki, sənətkar olmaq bəhanəsi ilə həmin problemləri digər eyiblərlə əvəzləməməliyik.

Qısası budur ki, düzgün inqilab xəttini, əsl İslamın və Quranın xəttindən ibarət olan imam xəttini azaldıb-artırmadan rəhbər tutmaq lazımdır. İmamın incəsənət kimliyi vəfatından sonra hamıya aydın oldu. Bəlkə də çoxları imamın şair olduğunu bilmirdilər; özü də belə irfani şeirlər yazan, irfani zərifliyi, aşiq və arif bir insana məxsus yanıqlı halı olan şair. Eyni zamanda bu irfani ruha sahib olan böyük şəxsin səsi qlobal hegemonizm əleyhinə ucalan ən güclü səs idi. Yəni ruhi zəriflik dövrümüzün ən böyük işlərini görən güclü iradə ilə yanaşı idi. İslam Respublikasını qurmaq yalnız yeni bir hökumət qurmaq və köhnə hökuməti devirmək deyildi, bundan olduqca çətin idi; özü də hər şeyin maddiyyata doğru getdiyi bir dünyada. İndi təxminən 200 ildir din, xüsusən də İslam dini əleyhinə proqramlı işlər görülür. Dünyanın ən həssas bölgələrinin birində bir İslam hökumətinin qurulması isə həqiqətən möcüzəyə bənzər bir şey idi. İmam özünün güclü iradəsi ilə xalqın bütün möhtəşəm qüvvəsini işlətdi və təbii ki, Allahın yardımı ilə bu möcüzəni həyata keçirdi. Həmin güclü iradəyə və möhkəmliyə malik olan lətif ruh bu uzun illər ərzində bütün problemlərə rəğmən, bu yolda bir iynə ucu qədər də sağa-sola əyilmədi. Bu çox əhəmiyyətli məsələdir. Məncə, o bizim hamımız üçün öhdəçi və mömin sənət adamı kimi və hər bir təbəqə üçün həmin sahənin böyük şəxsiyyəti kimi örnəkdir. Hər halda, ondan öyrənmək lazımdır.[466]

Kimlərinsə İslam incəsənətini anlamaq, yaxud onun üstünlüyünü etiraf etmək istəməməsi sizi üzməməlidir; imkansızlıq sizi üzməməlidir. Çalışmaq lazımdır ki, yaxşı işləyən bir qrupa lazımi imkanlar yaradılsın və bu problem də aradan qalxsın. Kimlərsə bizim sənətimizi və sənətkarlarımızı qəbul etmək istəmirlərsə, sizin dilinizdən deyirəm ki, bu əsla mühüm bir şey deyil; pis bir

şey də deyil. Məgər hamı xüsusi düşüncə və təfəkkürdən irəli gələn bir incəsənətlə müvafiq ola bilər?! Mütləq bəziləri müxalif olmalıdır. Eybi yoxdur, müxalif olsunlar. Yəqin ki, bəziləri məzmun və məqsədə qarşı çıxacaqlar. Bu məsələ insana çox böyük görünməməlidir. Heç kəsin müxalif ola bilməyəcəyi bir şey var və o, incəsənətin özü və sizin sənət qabiliyyətinizdir.

Əgər siz peşəkar bir yazı, şeir, musiqi, rəsm, yaxud hər hansı sənət əsəri təqdim etsəniz, heç kəs bunun pis olduğunu deyə və heç kəs ona qarşı çıxa bilməz. Çünki bu, Günəşlə düşmənlik etməyə bənzəyər. Sizin sənət əsərinizi tərifləyən adam əslində özünü tərifləyir. Sizin sənət əsərinizə qarşı hücuma keçən adam da əslində özünə hücum edir və özünü pisləyir. Məgər dəyərli bir sənət əsərini inkar etmək olar?! Əlbəttə, dəyərli dedikdə tarixin yetərli incəsənət gözəlliyinə malik olan müstəsna əsərlərini nəzərdə tuturam.[467]

Bizim dediyimiz İslam incəsənəti nə deməkdir? Yəni İslam məzmununa, məqsəd və amallarına malik bir incəsənət ərsəyə gəlsin, insanları, gəncləri azdıran, bəşəri qeyri-həqiqi və yalançı işlərlə məşğul edən, insanı amal və ideallarından çəkindirən, əməldə dünya zalımlarına kömək edən, dünya məzlumlarını heç zaman müdafiə etməyən, hegemonizmin zər və zorunun xidmətində duran bir sənətin qarşısında dayansın və o sənətin xalqın zehninə hakim olmasına imkan verməsin. Bizim də bundan başqa bir məqsədimiz yoxdur.[468]

Mənim fikrimcə, İslam təlimləri və dəyərləri düzgün tanınmalıdır ki, müxtəlif incəsənət istedadları öz-özünə çağlasın. Biz iranlıyıq və 1300 ildir iranlının hər şeyi İslamla qarışıb. İran öz inkişafının zirvəsini İslamdan əldə edib. Siz bizim tariximizə baxın. Bu yazılmışdır, gizli tarix deyil. Görün olanlar kimindir. İslam cəmiyyətlərində yetişənlər şeiri, elmi, tədqiqatı, müxtəlif mədəniyyət sahələrini İslamın sayəsində dünyaya və ölkəyə təqdim etdilər. Odur ki, incəsənət, ədəbiyyat və ümumi olaraq mədəniyyət işinə İslam təlimlərinin, düşüncəsinin, hiss və dəyərlərinin işığında baxılmalı, tədqiqatçı, sənətkar və yazıçı İslam əsasında düşünməlidir. Mənim fikrimcə, bunun üçün Quranı öz aranızda təbliğ etməniz lazımdır. Uyğun işlərlə məşğul olan qardaş və bacılar Quranla ünsiyyət qursunlar. Quran həqiqətən möhtəşəm bir şeydir. Təəssüf ki, insan sözlərlə öz hissini çatdıra bilmir. Odur ki, Quranı öz dili ilə anlamaq lazımdır. Quranın tərcüməsi Quran ola bilməz. Baxmayaraq ki, müəyyən məna ifadə edir, amma mənim fikrimcə, Quranla ünsiyyət qurmaq lazımdır. Fars dilinin söz və terminləri ərəb dili ilə qarışdığından insan Quranı

bir neçə dəfə diqqətlə oxusa, tədricən onu dərk edər. Böyük alimlərin təfsirlərinə müraciət etmək yaxşıdır. Quran və Nəhcül-bəlağə ilə ünsiyyət qurmağın böyük təsiri var. Nəhcül-bəlağə həqiqətən Quranın davamçısıdır. İnsan Nəhcül-bəlağə və ya Səhifeyi-Səccadiyyə ilə ünsiyyətdə olanda İslamın necə dəyərli əsərlərinin ixtiyarımızda olduğunu görür. Təxminən İslamın hər şeyi bunlardadır. Təbii ki, dayaz baxış işə yaramaz. Siz Quranın bir arif insanı özündən çıxaran ən yaxşı ayələrini ərəb dilini bilən dayaz baxışlı bir insanın qarşısına qoysanız, heç bir şey anlamaz. Hər bir dərin söz kimi Quran da düşünmək tələb edir. Məgər Sədinin sözü düşünmək tələb etmir?! Siz Sədinin şeirini, biri düşüncəli və Sədinin fikirləri ilə tanış olan, biri isə yoldan keçən adi bir adam olan iki nəfərə oxusanız, iki ayrı-ayrı nəticə çıxararlar. Məgər bu şeirləri bəsit şəkildə anlamaq olar?! Bəli, tərcümədə insan anlayır, amma hikməti tutmur. Ünsiyyət qurub düşündükdə bu baş verə bilər. Bu gün İslam ədəbiyyatını, incəsənətini, əvvəldən axıra qədər İslamdan ibarət olan və başqa bir şeyin olmadığı İran incəsənətini anlamaq istəyənlərə bunlar lazımdır. Bəzi adamlar nə qədər çalışsalar və hansı tərəfdən başlasalar da, yenə də İslama və Qurana çatırlar.[469]

Ruslar bu işdə həqiqətən böyük uğurlar əldə etmişlər. Mən görməmişəm və güman etmirəm ki, kimsə bu qədər çox və keyfiyyətli işləyə bilsin. Bunların işləri böyük bir sənət əsəridir. Yaxşı olar ki, biz onların nə iş gördüklərinə baxaq. Mən film və kino sahəsində olmadığım üçün rus filmlərinə baxmamışam, amma yazdıqları kitab və romanları oxumuşam. Təssüf ki, bizdə onlar kimisi yoxdur. Məsələn, "Sakit Don", yaxud ikinci kiçik Tolstoyun yazdığı "Əzab yolu" çox mühüm əsərlərdir. Mən bir kitab oxudum, sonra deyəsən onun əsasında kino çəkib bizim kanallarımızda da göstərdilər. Bu, müharibədə təyyarəsi yanan, yerə atılanda ayaqları sınan bir pilot haqda real əhvalatdır. O çox əziyyətlə özünü meşələrin arasından bir yerə çatdırır, ayağını kəsib yerinə protez ayaq qoyurlar və sonra həmin ayaqla yenidən uçur. Marksist meyarlara görə də, əsl insan çalışıb-vuruşan və nəhayət özünü birinci evə - yəni işə, fəaliyyətə və mübarizəyə qaytaran insandır. Hər halda, şirin və gözəl bir kitabdır, keçmiş SSRİ-də onu ucuz qiymətə çap edib göndərdilər. Kommunist təbliğatçılar müxtəlif məsələlər barədə kitab – yəni roman yazdılar, incəsənət işi gördülər, sənədli materialları çap etmədilər. Bu, işə yaramır. Bizim kimilər oturub onların veyil uşaqları küçələrdən yığıb evlərə gətirmələrinə dair rəsmi materialları oxuyuruq?! Yaxud oxuyanda inanırıq?! Lakin onlar yaşamaq üçün öyrənmək mövzusunda ikicildlik bir kitab yazırlar. Bu yaxınlarda gətirdilər,

mən oxudum. Kitab romandır, müəllifi Stalin dövrünün fanat kommunistlərindən biridir. Kitab veyil uşaqları küçələrdən toplayan 1 May adlı bir mərkəz haqdadır. Onlar belə oğru və avaraları marksizm nəzəriyyəsinə uyğun həqiqi insanlara çevrirlər. Bu təbii ki, yalan romandır, adam oxuyanda yalan olduğunu anlayır; yəni kiçik bir şeyi bəzəyib böyütməkdən başqa bir şey deyil. Təəssüf ki, biz bu işlərdən görmədik. Bu baxımdan, adamın İslam inqilabına ürəyi yanır. İslam inqilabı bəzi səbəblərə görə sayıq insanlarla əhatə olunmadığına görə ziyalıların hücumuna məruz qaldı, sənət adamı, yazıçı, proddüsser, şair və bu kimi insanlar İslam inqilabına qarşı çıxdılar. Təbiətləri ictimai dəyişikliyə uyğun olan çoxlu insanlar vardı, amma bu dəyişiklik din əsasında olanda adətən sənət adamını işdən saxlayır. Onlar belə bir şey istəmirdilər və buna görə ona qarşı çıxdılar.

Siz müxaliflərin jurnal və yazılarına baxın, hamısı inqilaba qarşı olan keçmiş incəsənət işləri ilə doludur. İnqilab qərib olub. Odur ki, gənclər səhnəyə çıxmalı, sürətlə bu boşluğu doldurmalı və istedadlarını hərəkətə gətirməlidirlər. Mən gəncliyin əvvəlində olan bir rejissora baxanda düşünürəm ki, kamilləşmək üçün onun hələ 20 il vaxtı var. Bu yaşlarda insanın təkamülü sona çatır. İmam Xomeyni kimi müstəsna adamlarda isə ömürlərinin sonuna qədər kamilləşir, hər günləri qabaqkı gündən daha kamil olur. İnsanın hərəkəti və inkişafı adətən 40-45 yaşa qədərdir və sonra dayanır. Bu işlərə yeni başlayan gənc qardaşlar o zamana qədər dəyərli incəsənət xadimləri ola bilərlər; bu şərtlə ki, bu istedad bu gündən işlədilsin və çiçəklənsin. Hər halda, doğru xətt heç zaman itmir. "Bizi doğru yola yönəlt" sözlərini gündə bu qədər təkrarlayırıq. İnsan sutka ərzində heç bir duanı bu qədər təkrarlamır. Hansı yol İslam inqilabı yolundan daha düzgündür. Bu təkrarlar ona görədir ki, yolun minlərlə şaxəsi, iki yolayrıcı, üç yolayrıcı, dörd yolayrıcı var. Doğru yolda qalmaq üçün insanın hər addımda və hər an ilahi hidayətə ehtiyacı var. İnkişaf və işlər inşallah davamlı olsun. Mən xahiş edirəm əsla qorxmayın. Düşündüyüm işin şərti qorxmamaqdır. Sizin istedadınız keçmişdə incəsənətlə məşğul olanların əksərindən yüksəkdir.[470]

İnqilabın əvvəlindən indiyədək onun tarixi haqda bizim hələ sanballı bir kitabımız, filmimiz yoxdur. İndi televiziyanın inqilab haqda gördüyü işlərin çox ibtidai, az və nöqsanlı olmasının səbəbi budur ki, ötən 13 ildə bu sahədə heç bir iş görülməmişdir. İnqilaba ürək yandıran bizlər bu işi görməmişik. Biz bir qrup sanballı adamı bir yerə toplayıb deyə bilməmişik ki, siz inqilab haqda bir film hazırlayın. Belə bir şey olmayıb. Əksərən nöqsanlı və yanlış fikirlərlə qarışmış

bir sıra çox kiçik işlər görülmüşdür. Rəsmi qurumlarda bəzən bunlardan görünür, amma çox azdır.[471]

İslam inqilabının qələbəsindən 14 il ötəndən sonra hələ də onun bir çox üstün cəhətləri tanınmaz qalmışdır. Bu baxımdan, bizim sənətkarlarımız inqilabın üstün cəhətlərinə dair qiymətli sənət əsərləri yaratmaqla bütün sahələrdə, xüsusən də kino sahəsində inqilaba borclarını yerinə yetirsinlər.[472]

Öhdəçi və inqilabçı incəsənətin inkişafı yaxşı olmuşdur. Mən əminəm ki, çalışsanız və imkanlar yaradılsa, bizim ölkəmizdə güclü potensialı olan həqiqi incəsənət inqilab təfəkkürünü və tövhid düşüncəsini yaxın gələcəkdə mütləq cəmiyyətə hakim edə, onu gücləndirə biləcək.[473]

Özünüzdə incəsənət istedadı gördükdə onu inkişaf etdirməyə və gücləndirməyə çalışın ki, İslam inqilabını, bu müqəddəs və məsum düşüncəni, yanlış düşüncələrin murdar dünyasında və indiki qaranlıq dövrdə özünə yer açmış bu pak ruhu hərəkətə gətirib dünya miqyasında genişləndirəsiniz.

Təbii ki, bu inqilabın sahibi və bu düşüncəni inkişaf etdirən Allahın özüdür. Bu, ilahi qanundur, biz də bu qanunun tətbiq olunduğu qruplardan biriyik. Biz düşünməməliyik ki, dünyada İslamı bu şəkildə ucaldan, onu hər yerdə - Afrika və Avropada qlobal hegemonizmə qarşı təhlükəli amilə çevirən bizik. Bizdə belə bir şübhə yaranmamalıdır ki, qlobal hegemonizmi qorxudan bizik. Xeyr! Bu, ilahi qanundur. Tarix İslam təfəkkürünün, pak ilahi düşüncənin bir zaman aşkara çıxmasını tələb edirdi və görünür onun zamanı çatmışdı. Bəli, əlamətlərindən biri bizik, biri Livandır, biri Afrika və digər İslam ölkələridir. Əlamətlərindən biri dünyanın mövcud ilahi və tövhid təfəkkürü qarşısında zəiflik duymasıdır. Bu səbəbdən, sizin kimi sənət adamları dəyərli incəsənət üslublarından istifadə edib bu möhtəşəm hərəkəti, dünyada mövcud olan bu pak və müqəddəs düşüncəni, şeytani düşüncəyə qarşı mübarizə aparan inqilab və tövhid düşüncəsini, ilahi təfəkkürü gücləndirməlisiniz. Şair, yazıçı və hər bir incəsənət xadimi öz istedadını bu müqəddəs hərəkəti gücləndirməyə sərf etməli və incəsənət üsullarından maksimum yararlanmalıdır.[474]

Biz inamsızlığı özümüzə yaxın buraxmamalıyıq. Mən özgələr qarşısında inamını itirən və bunun üçün bir bəhanə də gətirən adamlar görmüşəm; qədim bir yazıçı, məşhur bir şair, yaxud proddüser qarşısında özünəinamsızlıq hissi keçirirlər. Bəzən bunu etməməlidirlər və bu həqiqətən bacarıqsızlıqdandır.

Sizin hazırladığınız filmlər, bəzən nümayiş etdirdiyiniz səhnələr onlarla müqayisədə həqiqətən yüksək səviyyədədir. Mən bunu sizi tərifləmək üçün demirəm, qənaətim və işlərinizdən anladığım budur. Siz bu inamsızlığı onların beynindən çıxarmalısınız. Sizdə olan iman, ixlas və əqidə onlarda yoxdur. Bir qrup əqidəsiz, şəxsiyyətsiz və kimliksiz adam bəzi işlərlə məşğul və tutaq ki, hansısa sahədə peşəkar olurlar. Avam, nadan, bəzən asılı və muzdur bir şəxs insani şəxsiyyət baxımından çox kiçik, amma hansısa sahədə dəyərli bir adam olsa, çox yaxşı sənətkar olduğuna görə biz onun qarşısında kiçilməliyik?! Bunlar heçkimdirlər, mən bunların çoxunu yaxından görmüşəm, kiçik və dəyərsiz olduqlarını bilirəm. Onlar həmişə belə olmuşlar. Şəxsi məsələlərə və şöhrətə əsirdirlər. Şan-şöhrətə, bir nəfərin haradasa onları tərifləməsinə o qədər önəm verirlər ki, bunun özü onların kiçik olmasına dəlalət edir. Onlar qarşılarında kiçiləcək adamlar deyillər. Hər halda, onların qarşısında cəsarətli olmaq lazımdır.[475]

Sizi mürtəce və fanat adlandırmalarından əsla qorxmayın. Sizi mürtəce adlandıranlar kimin dilindən danışdıqlarına diqqət yetirmirlər. Bu, istismarçı Qərb mədəniyyətinin başçılarının sözüdür. Qərblilərə görə, kim onlara müxalif olsa, dözülməz və fanatdır. Biz isə Qərb mədəniyyətinə həddən artıq səbir və təvazökarlıqla dözürük. Öz mədəniyyətlərindən qeyrisinə dözməyə hazır olmayan onlardır. Bu böhtan və təhqirlərdən qorxmayın, siz ziyalı, aydın və xeyirxah insanlarsınız.

Allah sizin işinizə bərəkət verəcək və təsirini, mədəniyyət və etiqadlarını zülm və zorla insanlara sırıyanların işlərinin təsirindən çox edəcək.[476]

Bir dəfə bir arif bir söz dedi. Bu söz çox dəqiq olmasa da, mənə şirin gəlir. Dedi ki, bəzi kafirlər öləndən sonra qiyamətə çatmamış yolda bütün vücudları dağılacaq, Allah onların yaxşılıq zərrələrini möminlərin ruhlarına yönəldəcək. Təbii ki, isbatı mümkün olmayan bir nəzəriyyədir, mən də inanmadım, amma şirin sözdür. Siz də bu faydalı zərrələri mömin qüvvələrə yönəldin, qalanını da buraxın Allahın bərəhutunda itib-batsın.[477]

Mən düşünmürəm ki, özümüzü mədəniyyətdə çox geniş bir sahə olan tərcümədən məhrum etməliyik. Nə üçün məhrum edək?! Xarici yazılar arasında yaxşı əsərlər var, siz onlardan istifadə edə bilərsiniz. Heç bir xalq tərcüməyə ehtiyacsız deyil; xüsusən də bir çox sahələrdə, o cümlədən mədəni sahədə biz həqiqətən çox geridəyik. Son bir neçə onillikdə biz çox az işləmişik. Bizim

xalqımız, ziyalılarımız, elm və mədəniyyət xadimlərimiz həqiqətən lazım olan işi görməmişlər. Mənim yadımdadır, mərhum Ali-Əhməd 1968-ci ildə, bəlkə də vəfatından bir il öncə Məşhəddə bəzi qardaşlara deyirdi ki, yeni mədəniyyətin ölkəmizə gəldiyi bütün dövr boyu bizim ikidən artıq yaxşı tərcüməmiz olmayıb. Onun iddiası bu idi ki, ölkəmizdə həqiqətən yaxşı tərcümə yoxdur. İndi də mən görürəm ki, bəzən tərcümə olunan mədəni əsərlər, yaxud bəzi mədəni məhsullar arasında yaxşı tərcümələrimiz yoxdur. Əlbəttə, tərcümə olunan elmi işlər başqa məsələdir və onların bəzisi həqiqətən yaxşıdır.[478]

Siz öz qədrinizi bilsəniz, insanları tərpədib dəyişdirəcək bir mənəviyyata sahib olarsınız. Bizim dünyamızda, zaman və məkanımızda, bizim maddi meyarımızda bir anda bir hadisə baş verir və qurtarır. O hadisəni kim qalıcı edə bilər? Hansı amil hətta adi gözün də görmədiyi şəkildə onu insanın qəlbinə yönəldə bilər? Bu, incəsənətin funksiyasıdır. Onun bu təsiri var və bu işi görə bilər.[479]

Siz Quranın "Kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac... Rəbbinin izni ilə bəhrəsini hər vaxt (ilin bütün fəsillərində) verər"[480] - deyə buyurduğu gözəl ağac ola bilərsiniz. Bu, Allaha arxalanmaqla, Ondan yardım istəməklə, Allaha şükür ki, sizdə olan saf niyyətlə və özünüzü bacardıqca mənəviyyatlı etməklə mümkündür. Bizim həmişə mənəviyyata ehtiyacımız var və nəhayət, özümüzü işıqlandırmalıyıq. Tehranın bu tüstü dolu havasında insan hərdən əllərini yumalıdır. Bizim ruhlarımız da belədir. Xüsusən də digərlərini hidayət edən sizlər bəzi problemlərlə üzləşirsiniz. Mövləvi bir hekayə danışır. Qısası budur ki, çay və dənizlərdə olan sular bizim bütün çirkinliklərimizi təmizləyir, amma bu suların özü çirklənir və təmizlənməyə ehtiyacı olur. Bu təmizlənmə də göyə qalxmaqla, buxarlanmaqla baş verir. Buxarlanıb yağış olur, təmizlənir və qayıdır. Deməli, belə daimi hərəkət lazımdır və biz yüksəlib yuxarıya qalxmasaq, mümkün deyil. O, demək istəyir ki, insanların çətinlik zamanı müraciət etdiyi şəxslər və müəllimlər özlərinə bir yüksəliş - merac tədarük görməlidirlər. Meracsız mümkün deyil və biz çirklənərik. İnsanları hidayət edən sizlərin bu yüksəlişə çox ehtiyacınız var; çünki yazır, düşünür, cavab vermək üçün müxtəlif şübhələri beyninizə salır, xalis olmayanları təcəssüm etdirirsiniz. Sizin üzərinizə çoxlu zəhmət düşür. Bu baxımdan, meraca ehtiyacınız var, onu yaddan çıxarmayın. Bu merac namaz, zikr, Allahı yada salmaq, xüsusən də günahdan çəkinməkdir. Mənəviyyata səbəb olan ən yaxşı amil çəkinməkdir. Digər işlərin hamısı dərman, günahdan çəkinmək isə pəhriz kimidir. Güman ki,

pəhrizin təsiri bəzən dərmandan çox olur. Soyuqlayan bir insan pəhriz etməsə, nə qədər dərman qəbul etsə, təsiri olmaz.[481]

Mənim fikrim budur ki, inqilab incəsənəti hekayə, xatirə və bu kimi sahələrdə yeni araşdırmalara başlamalıdır. Yazıçılıq sənətinin inqilabı biz istəmədən, sərmayə qoymadan özünü göstərəndir. Bunlar özfəaliyyət işləridir. Ən səmimi fəaliyyətlər də istək və tələb olmadan özünü göstərəndir.

Ən azı mənim xəbərdar olduğum 50-60 ildə İranda dəyərli epik ədəbiyyatı olmamışdır. Dünyanın digər yerlərinə nisbətən İran epik ədəbiyyatının təxminən sıfır olduğunu söyləmək olar. Burada bu ədəbiyyatın yerini boş görəndə onun nə qədər dəyərli olduğunu anlayarsınız. Məsələn, müharibədə iştirak etmiş bir Bəsic üzvü heç bir yazıçılıq stajı olmadan qələm götürüb yazmağa başlayır. Bir də görürsünüz ki, gözəl, ürəkaçan və bəzən çox yaxşı bir əsər alındı.[482]

Məncə söz sənətinin müxtəlif növləri arasında roman müxtəlif cəhətlərdən daha əhatəlidir. Roman hətta kinodan da təsirlidir. Kino çox geniş yayılsa, bitməsə və insanlar daim hansısa filmə baxsalar da, eyni zamanda filmin yaratdığı təsəvvür romandan fərqlidir. Filmdə məhdudiyyətlər var və bəzi şeyləri bəyan etmək olmur.

Romanın xüsusiyyəti belədir. Roman şeirdən fərqli olaraq, həm də tərcümə oluna bilir. Hafizin şeirini tərcümə etmək imkansızdır. Şeirdə işlənmiş söz xüsusiyyətləri və bütün bu formalar incəsənətin məzmununa təsir edir. Şeirdən fərqli olaraq, siz romanı bütün dillərə tərcümə edə bilərsiniz. Dünyada 30 dilə tərcümə olunmuş romanlar var. Yəni romanın əhatəsi şeirdən genişdir, hər yerə gedir və bitmir. Bəzi romanlar 200 il qabaq yazılıb və biz indi onları oxuyuruq. Bu günə qədər ən yaxşı romanlar on doqquzuncu əsrin romanlarıdır. O zaman Fransada, Rusiyada, hətta İngiltərədə elə romanlar yazılıb ki, bu günə qədər onların misli görünməyib. Deməli, roman həm qalır, həm genişdir, güclü və dəqiq təsəvvür yaradır. Siz bu xüsusiyyətləri incəsənətin başqa hansı növündə tapa bilərsiniz?! Nə musiqidə var, nə kinoda, nə teatrda, nə şeirdə. Ümumiyyətlə roman kimisi yoxdur. Roman həm tərcümə olunur, həm hər yerə gedir, həm qalır və köhnəlmir.[483]

Təəssüf ki, biz epik ədəbiyyatda geri qalmışıq. Bunda heç bir şübhə yoxdur. Düzdür, biz incəsənətin bir çox növlərində geridəyik, lakin kino

sənətində geridə qaldığımızı görəndə deyirik ki, kino idxal olunmuş bir sənətdir, epik ədəbiyyat isə belə deyil.

Firdovsinin Şahnaməsi epik baxımdan həqiqətən çox misilsizdir. O, bir romanda olan sənətkar incəliklərinə riayət etməyi nəzərdə tutmasa və qəhrəmanlıq eposu yaratmağa çalışsa da, həqiqətən misilsiz bir əsərdir. Min il bundan öncə bizim Firdovsimiz olmuşdursa, indi necə olmalıyıq?! Prinsipcə Firdovsidən min qat üstün olmalıydıq, halbuki belə deyilik və uyğun sahədə çox geridəyik. Təəssüf ki, inqilabdan sonra da ölkədə bu iş yetərincə görülmədi.[484]

Bədii yaradıcılığın və nəsr ədəbiyyatının müxtəlif sahələrində son 1-2 əsrdə xaricilər və əsasən avropalılar böyük uğurlar əldə etdilər. Biz o həddə deyildik, bunu etiraf etməliyik. Lakin şeir sahəsində dünyanın çoxlu yerlərindən həqiqətən öndəyik. Bu sənətin kökü bizim vətənimizin, məmləkətimizin özündə var, kino kimi texnologiyaya bağlı olan və idxal edilmiş sənətlərdən deyil. Bizim ölkəmizdə şeir təxəyyülü çox yüksək, şairlərin qələmi çox mütərəqqi, müxtəlif ədəbi sahələr çox gözəldir. Məsələn, aktyorluq mahiranədir, dilin inkişafı çox yaxşı və yüksək həddədir. Bunlar bizim mədəni cəhətlərimizdir. Lakin ölkəmizin hər yeri bu baxımdan eyni deyil; bəzi şəhərlər mədəni tarix baxımından çox üstünlüklərə malikdir, bəziləri isə yox.[485]

Hekayə və roman sahələrində bizdə boşluq çoxdur, ölkəmizdə digər ölkələrdə görülmüş böyük işlərin oxşarı mövcud deyil. Bizdə nə fransızların, nə rusların, nə də digər bəzi xalqların yaratdığı romanlara tay əsərlər var. Bu çatışmazlıqlar aradan qaldırılmalıdır. Lakin aradan qaldırılana qədər yaxşı tərcümələrdən istifadə edə bilərik.[486]

Siz bizim qədim epik əsərlərimiz arasında Viktor Hüqonun "Səfillər", yaxud Lev Tostoyun "Hərb və sülh" romanları kimi bir əsər tapa bilməzsiniz. Bu əsərlər çox möhtəşəm saraylar kimidir: məsələn, Ali qapı sarayı kimi. "Səfillər", yaxud "Hərb və sülh" romanları belədir. Siz on doqquzuncu əsrin yazıçılarına baxın, görün Rusiyada, Fransada nə qədər yazıçı var. Həmin əsrdə, xüsusən də bir neçə onillikdə belə yazıçıların meydana çıxma səbəblərini araşdırmaq lazımdır. On doqquzuncu əsr bədii ədəbiyyat üçün möhtəşəm əsrdir. İyirminci əsrdə Sovet kommunistlərinin əsərlərinə baxın, görün məsələn, Şoloxovun "Sakit Don" romanı nə qədər güclüdür. Yaxud Aleksey Tolstoyun "Əzab yolu" adlı bir kitabı var. Bu, Oktyabr inqilabı haqda çox gözəl, səlis və ölməz əsərdir. Bizdə isə yalnız inqilabdan sonra yox, ümumiyyətlə belə bir şey

olmayıb. Təbii ki, din, iman və dini dəyərlər əsasında baş verən bir inqilab tağut rejimində yetişmiş yazıçıları qəbul edə bilməz. Bu qaçılmaz məsələdir. SSRİ-də də qədim yazıçılardan zidd bir şey yazan olmuşdur. Təsadüfən rusların işlərində beləsini də görmüşük. "İt ürəyi" adlı bir povest var. Bunu Sovet inqilabından bir neçə il sonra, təxminən 1921-1922-ci illərdə bir əksinqilabçı yazmışdır. Bu çox gözəl və qəşəng kitabdır. Hər halda, onların yazıçılıq səviyyəsi yüksəkdir. Biz isə öz romanlarımıza, son 60-70 ildə Hicazinin, Dəştinin və digərlərinin yazdıqlarına baxanda həqiqətən aşağı səviyyədə olduğunu görürük. Yəni nələrsə var, amma onlarla əsla müqayisəolunası deyil. Ali-Əhmədə və digərlərinə çatanda həqiqətlər, ürək yanğıları, məqsəd və iman vəziyyəti yaxşılaşdırır. Mənim bildiyim və başa düşdüyüm qədərincə Ali-Əhmədin romanı digər romanların hamısından yaxşı və üstündür. O birilər bir şey yazmayıblar.

Mən deyirəm ki, siz yeni başlamış bu işi davam etdirsəniz, bugünkü ehtiyacımız təmin olunar, İran romanı və bədii yaradıcılığı inkişaf edər.[487]

Biz bu dövrdə xalqımızın və tariximizin nə tələb etdiyinə baxmalıyıq. Bunun özü bir məsələdir. Həm də şairə demək olmaz ki, sən yalnız bunu de. Şair öz hisslərinə, ağlına, duyğularına və həyatda qarşısına çıxan məsələlərə tabedir. Amma onların kənarında şairə demək olar ki, bunu da yada sal. Görün həqiqətən bu gün sizdən hansı gözlənti var. Bunu nəzərə almaq pis bir şey deyil. Gözlənti bir xalqın gözləntisidir və şair xalqdan ayrı olduğunu söyləyib ona etinasız yanaşa bilməz. Özünü xalqdan ayıran adamın ümumiyyətlə dəyəri yoxdur. Tarixi miqyasda da xalqa və zamanın düzgün gözləntisinə arxa çevirən adamın hansısa hörməti olsa da, əslində dəyərsiz bir şeydir. Xalqın ictimai həyatının nə tələb etdiyinə baxmaq və onunla məşğul olmaq həqiqətən əhəmiyyətli məsələdir. Mən araşdıranda inqilabın və İslamın hər hansı qrupdan olan müxaliflərinin əsərlərinin bir neçə məsələ üzərində mərkəzləşdiyini görürəm. Bugünkü şair bir neçə məsələni tapıb onların üzərində dayanmalı və onlara dair indiki zaman qarşısında borcunu yerinə yetirməlidir. Mənim fikrimcə, mövcud boşluqlardan biri budur. Düzdür, çox yaxşı şeirlər var, lakin məncə daha ciddi yanaşmaq lazımdır. Mən bu sözü bəlkə də bəzi dostlara demişəm: inqilabın böyük coşqu və həyəcan dolu ilk illərindən keçmiş şairlərdən biri ilə söbhət etdim. Onun şeir təbi yaxşı idi, amma insani dəyərlər baxımından həqiqətən dəyərsiz adam idi və bu dəyərsizliyini sübut etdi. Onların çoxu insani, ictimai, mənəvi və tarixi dəyərlərdən uzaq idilər. Həm də bu yalnız inqilabın qələbəsindən sonraya aid deyil, mübarizə və hərəkat dövründə də belə idilər. Mən ona dedim ki, xalqın, inqilabın və ölkənin sizdən gözləntisi

həqiqətən budur. O, cavab verdi ki, bizcə şair güclü ilə deyil, güclünün əleyhinə olmalıdır. O bunu bir meyar sayırdı; yəni hakimiyyətin başında Peyğəmbər və İmam Əli (ə) dursa da, onları pisləmək lazımdır. Bu meyarın özü onun xəstəliyini göstərirdi. Mən ona dedim ki, çox gözəl, siz güclüyə qarşı olun. Bu gün İran xalqı əsrlərlə bizə zülm etmiş qlobal güclərlə vuruşur. Əslərdən sonra bu gün bu xalq baş qaldırıb fədakarlıqla və qorxmadan bir yol seçib, həmin yolla gedir, lakin onlar qoymur, əziyyət verir, təzyiq göstərir və əngəl törədirlər. Siz bu güclərə, onların müdaxiləsinə qarşı vuruşun. Təbii ki, onlar buna hazır deyillər və işləmək istəmirlər. Çünki heç vaxt xalqla həmrəy olmayıblar. Repressiya dövründə mədəni mübarizə iddiasında olan bu cənablar əksərən mübarizə adamı deyildilər. İddiaları yalan idi.

Burada mərhum İmam Xomeynini vəsf edən çox yaxşı şeirlər oxundu. Həqiqətən şeir öhdəliyi olanlar imamın şəxsiyyətinin dəyərli cəhətlərini əks etdirsinlər. Bu cəhətlər deyilməli, açığa çıxmalı, təkrarlanmalı və cəmiyyətin beyninə hopmalıdır.[488]

**3- Səkkizillik müqəddəs müdafiə qəhrəmanlığı - dəyərli incəsənət üçün zəngin mövzu**

Mən düşünürəm ki, müharibə mövzusu bitən deyil, yəni həqiqətən böyük bir ehtiyat və xəzinədir. Bu heç zaman bitməyəcək, həmişə ondan istifadə etmək olar. Müharibə haqda həqiqətən bir ömür danışmaq olar. Siz görün bir hadisə haqda dünyada nə qədər film çəkir, kitab və məqalə yazırlar. Biz səkkiz il müharibə aparmışıq. Məncə bu gün Bəsic uşaqlarının yazdığı və İncəsənət şöbəsinin çap etdiyi bu 100-120 səhifəlik kitabların hər biri qiymətli və böyük bir sənət əsəridir. Biz bunların nə qədər mühüm olduğunu hələ dərk etmirik, gələcəkdə daha çox bəlli olacaq. Biz indi hansı hadisənin baş verdiyini və verməkdə olduğunu anlamırıq. Əsirlikdən azad olanların yazdığı xatirələr də möhtəşəm yazılardır. Məqsəd budur ki, müharibə bitən deyil.[489]

Müharibə bizə çoxlu səmərələr vermiş dəyərli amildir. İndi gəlin İranda bədii ədəbiyyatı bərpa edək. Mən bu məsələ üzərində dayanmaq istəyirəm. Müharibə, xatirəsini yazmaq istəyən şəxsin bundan ötrü bir neçə dil öyrənməsinə səbəb oldu. Əgər müharibə mövzusu olmasaydı, bəlkə də o heç vaxt yazmaq haqda düşünməyəcəkdi. İndi istedadlar üzə çıxmışdırsa, biz ondan istifadə etməliyik. Döyüş səhnəsini necə gözəl təsvir etdiyini görürük. Mən bəzən bu yazıları oxuyanda çöl və yol mənzərəsinin çox gözəl təsvir və bir cümlə ilə çox yaxşı bəyan olunduğunu görüb həzz alıram. Bu, parlaq istedadı

göstərir. Biz indi bu istedadı cəmiyyətimizin epik ədəbiyyatına yönəldək. Ölkənin buna ehtiyacı var. Məgər epik ədəbiyyatsız bir cəmiyyət olar?! Siz müharibənin tarixini yazmasanız, başqa birisi gəlib yalan yazacaq; hekayəni də həmçinin.[490]

Məcburən qatıldığımız səkkizillik müharibə islamçı və inqilabçı əhval-ruhiyyəsinin və müsəlman xislətlərinin aşkara çıxması cəhətindən çox dəyərlidir. Bu baxımdan, elə bir zamana və mühitə görə şükür etmək, yoxluğundan həqiqətən təssüflənib kədərlənmək lazımdır. Öz-özlüyündə müharibədən heç kəsin xoşu gəlməsə də, məsələnin o biri tərəfi bizim üçün olduqca böyükdür. Hər halda, indi müharibə yoxdursa və öz əlimizlə müharibə yaratmaq istəmiriksə də, biz həqiqətən bu səkkizillik müharibədə mövcud olan ixlaslı müqavimət, fədakarlıq və digər xüsusiyyətlərdən bəhrələnməliyik.

Sizin yazılarınız ixlasdan irəli gələndə insanı mütəəssir edir. Siz ixlası göstərən nə təqdim etsəniz, çox əhəmiyyətlidir. Əks təqdirdə, hamı fədakarlıq edir; təəssübkeşlik və ya özünü göstərmək üçün də fədakarlıq edir və ölüm təhlükəsi ilə üzləşirlər. Məsələn bir manevrdə təyyarəsini xalqın gözü önündə beş dəfə fırladan bir pilotun əlli faiz aşmaq ehtimalı da var, amma o özünü göstərmək üçün bunu qəbul edir. Özlərini göstərmək üçün bundan artığını da edənlər var; məsələn bəziləri özlərinə od vururlar. Bunların dəyəri yoxdur. Lakin iş ixlaslı olduqda, yəni insan yalnız Allahdan ötrü və Allah qarşısında borcunu yerinə yetirmək üçün bir iş gördükdə belə gözəl olur. Bu cəhətləri göstərmək və bu əhval-ruhiyyəni tarix boyu qorumaq üçün çox çalışmaq, səkkizillik müharibədən də istifadə etmək lazımdır.

Aşura hadisəsi əvvəldən sona qədər bir baxımdan yarım gün, bir baxımdan iki sutka və bir baxımdan yeddi-səkkiz gün olmuşdur. Bundan artıq olmamışdır. Yəni İmam Hüseynin (ə) Kərbəlaya daxil olduğu gündən hadisə başlayır. Lakin bu hadisənin təsiri həm bizim inqilabımızda, həm müharibədə, həm də tariximizdə hiss olundu. Bu hadisə nəinki şiələr, hətta qeyri-şiələr tərəfindən zülm əleyhinə aparılan inqilablara mühüm təsir bağışlamış, hətta qeyri-müsəlman cəmiyyətlərə də təsirli olmuşdur. Qandidən və digərlərindən buna dair sözlər söyləyirlər və digər yerlərə də təsir etməsi mümkündür. Amma hər halda, bizim özümüzün 1300-1400 illik tariximizdə bu yarımgünlük hadisə təsirli olmuşdur. Bu baxımdan, bizim səkkizillik müharibəmizi İmam Hüseyn (ə) Aşurasının 8 və ya 9 saatı ilə müqayisə etməmiz və onu daha parlaq bilməmiz qəribə deyil, həqiqətən elədir. Mən tarixdə elə bir hadisə tanımıram ki, həmin yarım günün fədaklarlığı ilə müqayisəyə gəlsin. Bütün hadisələr

ondan kiçikdir. Bu səbəbdən biz nə üçün onun cəmiyyətimiz daxilində uzun illər təsirli ola bilməsini düşünməyək?![491]

Boş sahələrdən biri müharibə əlilləri mövzusudur. Mən bir neçə il qabaq dostların birinə dedim ki, özünüzü əlillər evində yaşayan müharibə əlilinin yerinə qoyun. Təbii ki, bu mümkün deyil, amma fərz edin onun həyatının bir qədərini müəyyən həddə dərk edə bilərsiniz. O digər insanlar kimi yol yeriyən, futbol oynayan, maşın sürən, kitab oxuyan və ailəli bir gənc olmuş, indi isə aciz bir varlığa çevrilib əlil evinə düşmüşdür. Onun hissləri, beyni və gözləntiləri yerində qalır. Bunlar həqiqətdir və onun imanı həyatı ona şirinlədəcək yeganə amildir. Əgər həqiqətən imanı olsa, ona ümid verər, həyat gözündə gözəlləşər, olmasa, həyat acı olar və cəhənnəmə çevrilər. Siz bu imanı necə qorumaq istəyirsiniz? Mühüm məsələ budur ki, o daim acı reallıqlarla üz-üzədir və biz onda bu imanın yaşamasına çalışmalıyıq. Bundan ötrü müharibə əlillərinə xas kitablar yazılmalıdır. Əlbəttə, bu o demək deyil ki, onu yalnız müharibə əlilləri oxumalıdır. Əslində biz də oxuyarıq, amma onun müraciət tərəfi müharibə əlili olar. Kitabın məqsədi onda ümid yaratmaq olsun. Mən sizin hansı sözləri seçəcəyinizi bilmirəm, amma məqsəd ona ümid, iman vermək, ətrafında olan acı reallıqlar qarşısında təskinlik vermək, onu inqilabı və bu yolu davam etdirmək üçün faydalı bir varlığa çevirmək olsun. Çünki müharibə əlili öz imtahanını vermişdir. Demək istəmirəm ki, bütün müharibə əlilləri belədir, onların arasında bir nəfər də təsadüfən əlil ola bilər. Onların əksəri canlarını vermək üçün döyüşə getmiş şəxslərdir, amma təsadüfən onurğalarını əldən verib qayıtmışlar. Buna əsasən, onlar imtahanlarını vermişlər. Onlar üçün kitab yazılmalıdır, bizim isə yoxumuzdur. Mən baxdım, bəlkə də dostlara da demişəm, ruslar "Həqiqi bir insanın əhvalatı" adlı bir kitab yazıb orada çap ediblər. Bu kitabı 1981, yaxud 82-ci ildə bir nəfər gətirdi və mən oxudum. Çox yaxşı kitabdır. Əhvalat belədir ki, bir pilotun təyyarəsi müharibədə vurulur. O, dizləri ilə çoxlu yol qət edir, böyük əziyyətdən sonra xilas olur, amma ayaqlarını kəsirlər. Pilotun işi ayağına bağlıdır; güclü bir dayağı və ayağı olmadan təyyarə sürə bilməz. Belə bir adam yatağa düşür, sonra tədricən məşq etməyə başlayır və ona protez ayaqlar qoyurlar. Sonda həmin pilot döyüş təyyarəsinə minir və uçur. Siz görün bu, ayağını itirmiş müharibə əlili üçün nə qədər ibrətamizdir. Lakin bu rus və Sovet mədəniyyəti ilə yazılmışdır, bizim deyil. Yəni onun çoxlu məsələləri bizə yaddır. Biz onu öz əlilimizə versək, onun işinə yaramaz, onu öz inqilabçı xəttində ümidli saxlaması bəlli deyil, bəlkə də bəzi başadüşülən səbəblərdən onu daha da ümidsiz edə bilər. Hər halda, bizdə

nə üçün belə bir kitab olmasın?! Mən bir neçə il öncə yazıçı qardaşların birinə dedim ki, mən sənə icazənamə verim, get əlil evlərinin birində 2-3 ay feldşer paltarı geyin; ailə-uşağı tərk et, elə bil müharibədir. Orada müharibə əlillərimizin yanında qal, onlar sənin kim olduğunu bilməsinlər, hamı səni bir feldşer sansın və sən bir əlil həyatının necə olduğunu anla. Sonra isə onun həyatını, əziyyətlərini, qəmini, dözümünü, gözləntilərini və çatışmazlıqlarını bayıra ötürüb dərdinə dərman və qəlbinin yaralarına məlhəm olan bir kitab yaz. Mən indi sizə deyirəm ki, hansınız bu işi görmək istəyirsinizsə, gedin müharibə əlillərinin arasında bir qədər qalın, çünki uzaqdan reallıqları görmək olmur.[492]

Müharibə əlilinin daxili dünyasını heç kəs həmişə dərk etməyə qadir deyil; necə ki, heç bir insan başqa bir insanın daxilini dərk edə bilmir. Ya onun özünün incəsənət istedadı olub bəyan etməlidir, ya da siz onun daxilində baş verənləri, hətta onun özünün və digərlərinin həvəslənməsinə səbəb olan ona aid məsələləri tapıb bəyan etməlisiniz. İkinci işi hər bir sənət adamı görə bilər. Mən bunun üzərində dayanıb dedim ki, siz gedin müharibə əlilləri ilə ünsiyyətdə olun, onları düzgün tanıyın, sözlərini eşidin, fikirləri ilə tanış olun. Müharibə əlili haqda deyiləsi sözləri incəsənət olmadan yetərincə demək mümkün deyil. Sənət dili olmadan bəzi məsələləri söyləmək imkansızdır.[493]

## Beşinci fəsil: Mədəni-incəsənət qurumlarının mədəni hücuma qarşı vəzifələri

### Birinci hissə: Universitetlərin və ali təhsil mərkəzlərinin vəzifələri

#### 1- İniqlabçı və İslamçı nəsil yetişdirmək

İnqilab dünyanın bir nöqtəsində baş verib möcüzəli təsirlər göstərən bir hadisədir. Bu hadisənin davamı və faydaları insanların tərbiyəsi ilə birbaşa əlaqədardır. Əgər inqilabın sözünü dərk edib onu qoyuran, ona əməl edən, o yolu və istiqaməti davam etdirən düzgün və elmli insanlar olsa, inqilab yaşayıb qalacaq, onun faydaları davamlı olacaq. Əgər Allah eləməmiş, inqilabın baş verdiyi bir mühitdə insanlar düzgün formada tərbiyə olunmasalar, tərbiyə prinsipləri məhv edilsə, İslam cəmiyyətində İslamın tərbiyə sisteminin xırdalıqlarına əməl olunmasa, xülasə, həm məlumatlı, həm qayğıkeş, həm məsuliyyətli, həm bacarıqlı, həm yüksək əhval-ruhiyyəli insanlar yetişdirilməsə, şübhəsiz, onun ilkin təməli də təhlükəyə uğrayacaq və tələf olacaq. Dünyanın bir zaman özünü göstərib çağlamış və sonradan zəifləyib məhv olmuş, yaxud istiqamətini dəyişmiş bütün bəşəri səyləri ayıqlığın, düşüncənin, iradənin, aydınlığın və ruhiyyənin çatışmazlığına görə bu taleyi yaşamışdır.[494]

Biz 10-15 ildən sonra İslam və inqilab cəmiyyətini qoruyacaq bir nəsil yetişdirmək istəyiriksə, bu gün onun üçün xüsusi öhdəlik və vəzifələr tanımalıyıq. Biz 15 ildən sonra inqilabın əvvəlindən daha 15 il uzaqlaşmış olacağıq. Əvvəldə daha güclü və qızğın olan hər bir şey kimi inqilab alovu, həvəsi də bir o qədər zəifləyəcək. Bu alov zəifləyəndə biz ona uzunömürlü və münasib odunlar hazırlamış olsaq, qələbədən 20-25 il sonra inqilabın istiliyindən cəmiyyətimizə nəsə çatacaq. Lakin bu alovdan istifadə etməsək, tez sönüb bitəcək. Belə olduqda bu gün işə başlayan bir gəncdən 10-15 ildən sonra təbii ki, cəmiyyətin inqilabi və islami istəklərinə cavab verməsini gözləyə bilmərik. Siz həmin nəsli yetişdirmək üçün bu gün nə etməlisiniz? Bu, dərs oxumaqdan və tədqiqat aparmaqdan fərqli və tamam başqa bir şeydir.[495]

İslam Respublikasının kadr yetişdirmə aparatı düzgün işləməli və İslam Respublikasının məqsədlərinə uyğun kadrlar hazırlamalıdır. Biz xalqın, xüsusən də müsəlmanların malik olduğu müqəddəs arzulardan uzaq bir alim yetişdirmək istəsək, yaxşısı budur ki, tələbələrimizi qrup-qrup elm mərkəzlərinin bizdən daha imkanlı, daha modern olduğu ölkələrə göndərək, gedib oralarda oxuyub

gəlsinlər. Halbuki məqsədimiz bu deyil. Məqsəd budur ki, ölkə elm və düşüncə baxımından layiqli insanlar tərəfindən idarə olunsun və öz məqsədlərinə doğru hərəkət etsin. Bu yalnız o zaman mümkün olar ki, insanlar həmin məqsədləri bilib qəbul etsinlər.[496]

Müsəlman iranlının öz ayağı üstə dayanması üçün iki-üç əsr boyu boynuna, əlinə və ayağına dolanmış əsarət kəndirlərini açmaq və “iranlı bir şey bacarmır” deyən yanlış müstəmləkə mədəniyyətini məhv etmək lazımdır. Bu məmləkətdə nefti milliləşdirmək istəyəndə Pəhləvi məmurlarından biri dedi: “İranlı palçıq aftaba düzəldə bilmir, neft sənayesini necə idarə edəcək?!” Bu, müstəmləkəçilərin müsəlmanlara, müstəmləkəyə çevirdikləri ölkələrin əhalisinə və bizim xalqımıza təlqin etdiyi mədəniyyətdir. Deyirdilər ki, sənayenizi biz qurmalı, əkinçiliyinizi biz yoluna qoymalı, məktəblərinizə biz proqram hazırlamalı və hökumətinizi biz idarə etməliyik. Pəhləvi və Qacar sülalələrinin bu ölkənin başına açdığı bəla və bu xalqı saldıqları rəzil durum bizi yüz il geriyə atdı. Bu rəzilliyə son qoymaq və parlaq iranlı istedadının İranın və İslamın maraqlarının xidmətində işlənməsi üçün bacarıqlı kadr yetişdirməkdən başqa bir yol yoxdur. Bunu kim yetişdirəcək? Qaralmış bu daşı, paslanmış bu metalı kim sürtüb parıldadacaq və iti bıçağa çevirib bütün işləri görəcək?[497]

**2- Universitetlərə İslam dəyərlərini hakim etmək**

Bizim universitetlərimiz bu gün elə olmalıdır ki, sabahkı məzunları inqilaba və İslama sadiq kadrlar olsunlar. Biz bu inqilabın dəyərləri, birinci növbədə milli istiqlaliyyət, ölkənin azadlığı, beynəlxalq istismarçıların boyunduruğundan qurtuluş dəyərləri, İslama öhdəçi və itaətkar bağlılıq üçün bir şey fikriləşməliyik. Bizim bugünkü tələbəmiz bu devizlərə dəyər tanımalıdır. Bu isə xüsusi vəzifələr tələb edir. Bu, universitet üçün xüsusi bir öhdəlikdir. Bundan ötrü nə etmək istəyirsiniz?[498]

Mühüm olan universitetə hakim üsuldur. Bu üsul və əlaqələr İslama tam uyğun olmalıdır. Demək olar ki, əsasən belədir də. Rektorlar universitetlərdə İslamı birinci bilməlidirlər. Universitet müsəlman və öhdəlikli mütəxəssislərin yetişdiyi yer olmasa, inqilabın istədiyi universitet olmayacaq. Bu da yalnız universitetlərdə bünövrənin, üsulun və sistemin İslam əsasında olması ilə mümkündür. Dərslər nə olur-olsun, müəllim kim olur-olsun, amma münasibətlər İslam münasibətləri olmalıdır; yəni rektor, tələbə və müəllimlər birinciliyi İslama verməli, İslam hökmlərinə əməl etməlidirlər. İslam dəyərləri

universitetdə müsabiqə formasını almalı, İslam qərib olmamalı, İslama uyğun əməl və öhdəliklər barmaqla göstərilməməlidir, namaz, əmanətdarlıq, doğru danışmaq, səmimiyyət, qardaşlıq, mücahidlik, həvəs və səmimiyyətlə dərs oxumaq, təhsildə bir-birinə kömək göstərmək, müxtəlif bilik və məlumatlara dərindən yiyələnmək hissləri geniş yayılmalıdır. Elm və bilik də İslamdandır.[499]

Bu gün universitetə girmək elm hövzəsinə girmək kimi olmalıdır. İnsan elm hövzəsində din, etiqad və dindarlıq öyrəndiyi kimi, hətta İslam və inqilab əsaslarından uzaq bir tələbə də universitetdə təhsil aldığı 4-5 il ərzində bu dəyərləri öyrənməli, İslam və inqilab əsasları ilə tanış olmalı, dindar insana çevrilməlidir. Bu baxımdan, universitetdə dini tərbiyəyə və gənclərin aktiv inqilabçı ruhuna çox əhəmiyyətli yanaşmaq lazımdır. Və bu yalnız sözlə baş tutmur.[500]

Dini dəyərlərə yad, inqilabın məqsəd və təlimlərinə qarşı biganə və soyuqqanlı olan, inqilabın nəbzi vurmayan, tələbə və müəllimlərinin İran xalqının inqilabçı hərəkətinə qarşı öncüllük vəzifəsi hiss etməyən, qısası, inqilab işində birinci dərəcəli rolu olmayan laqeyd universitet gələcəyə ümid yaradan, onu təmin edən və imamın nəzərdə tutduğu universitet deyil. Buna əsasən, universitet istiqamətli, dindar, inqilab və İslam dəyərlərinə çox meylli olmalıdır. Təbii ki, inqilab dəyərləri İslam dəyərlərindən əsla ayrılmazdır, onlar eynidirlər. Heç kəs deyə bilməz ki, mən müsəlmanam, amma inqilabı qəbul etmirəm. Bu necə müsəlmanlıqdır ki, İslam fəaliyyətinin zirvəsi olan İslam inqilabını qədul etməsin?! Yaxud kimsə deyə bilməz ki, mən inqilabçıyam, amma İslamı qəbul etmirəm. Hansı inqilabçılıqdan söhbət gedir?! Bu gün ən canlı inqilab budur. Müxtəlif inqilablarla dolu olan son bir neçə onillikdə xalqı ən çox səfərbər edən bu inqilabdır. Deməli, islamçı olmayan inqilabçı və inqilabçı olmayan islamçı yoxdur. İnqilab dəyərləri elə İslam dəyərləridir.[501]

Universitetdə dini tərbiyəyə və gənclərin aktiv inqilabçı ruhuna çox əhəmiyyətli yanaşmaq lazımdır. Və bu yalnız sözlə baş tutmur, bunun üçün bəzi işlər görülməlidir. Ən mühüm işlərdən biri budur ki, universtetlərdə təsirli kadrlar inqilabı həqiqətən ürəkdən qəbul edən insanlar olmalıdırlar. Biz demirik ki, universitetlərdə tədqiqat aparan, yaxud tədris edən hər bir müəllim və mütəxəssis birinci dərəcəli inqilabçı olmalıdır. Onda inqilaba qarşı düşmən hisslər olmamalıdır. Bu hiss olsa, onun elmi inqilaba xidmət göstərə bilməz. Deməli, həssas mərkəzlərdə çalışanlar, bütün universiteti, yaxud elm və tədris

işlərini idarə edənlər, məsul şəxslər və mühüm sahələrə nəzarət edənlər həqiqətən inqilabçı kadrlar olmalı, digərlərində də inqilaba qarşı düşmən hisslər olmamalıdır. Hansı səviyyədə olursa-olsun, inqilaba qarşı çıxan şəxsin universitetdə çalışması zərərlidir; hətta təhsil üçün də zərərlidir.[502]

Biz inqilabın başlanğıcından uzaqlaşdıqca, İslam inqilabının və İslam Repsublikasının yaşı artdıqca ölkənin müxtəlif sahələri, o cümlədən universitetlər prinsipcə inqilab təlimlərinə daha yaxınlaşmalı, ondan daha çox təsirlənməlidir. Bu təbii bir məsələdir.

Misal üçün, inqilabın ilk illərində İslam təfəkkürünün sözü və nəzəri olduğu bəzi humanitar elmlərdə kitablarımız az idisə, indi çoxalmalıdır; müəllimimiz az idisə, indi çox olmalıdır; bəzi elmlərin istiqaməti islami deyildisə, yaxud İslam yönümü az idisə, indi daha çox olmalıdır. Əgər universitetlər İslam təlimləri və İslam əməli ilə az uyğunlaşırdısa, indi çox uyğunlaşmalıdır. Yəni inqilab yolunda hərəkətin zəruri nəticəsi budur: biz inqilabın əvvəlindən uzaqlaşdıqca onun məqsədlərinə yaxınlaşmalıyıq. İnqilabın rəhbərliyi ilə hərəkət etdiyimizə görə, prinsip etibarilə inqilabın məqsədlərinə hər gün daha da yaxınlaşmalıyıq. Bu, universitetlərdə, dərs vəsaitlərində və müəllimlərdə özünü göstərməlidir. Bəzi humanitar elmlər yaxşı durumda deyil. Universitetlərin rəhbərləri bu məsələ ilə məşğul olsunlar. Universitetlərin bəzi humanitar sahələrindən bizə xoşagəlməz məlumatlar çatır. Məsələn, deyilir ki, bir fakültədə dini təməlli dərslər bəzi qüvvələr tərəfindən tədricən kənara qoyulur, Qərb təməlli dərslərə daha çox həvəsləndirilir və şərait yaradılır; yaxud fərz edin, humanitar elmlərə İslamın əsasları ilə yanaşan müəllimlər kənara qoyulur, belə dərsləri ləğv edir və ya etməyə çalışırlar; yaxud humanitar elmlərdə islamyönümlü dissertasiya mövzuları etinasızlıqla qarşılanır. Hər hansı fakültədə belə bir şey duyulsa, məncə buna həssas yanaşmaq lazımdır. Bu barədə verilən məlumatlar dəqiq olmaya da bilər, amma əhəmiyyətlidir və bunlarla maraqlanmaq lazımdır. İslam təfəkkürünə və İslam hidayətinə malik elmlərin təcrid olunmasına, kənarda qalmasına şəraitin yaranmasına imkan verməyin. Ümumilikdə humanitar elmlərdə lazımi işlər müşahidə olunmur. Mən kitab yazmağa dair fəaliyyətlərdən müəyyən həddə xəbərdaram, lakin biz inqilabın qələbəsindən 13-14 il ötəndən sonra bu sahədə əsaslı işlər görmüş olmalıyıq. Humanitar elmlər digər elmlərdən fərqlidir. Humanitar mövzuların dini yönümdən araşdırılması fərqli nəticələrə gətirib çıxarır. Müsəlman cəmiyyətində, İslam quruluşunda bir qurumun, təşkilatın, müəllimin və ya rektorun İslamın əksinə hərəkət etməsi, ona rəvac verməsi yolverilməzdir. Bu

məsələyə çox həssas yanaşmaq lazımdır. Mənim tövsiyəm budur. Həmçinin humanitar elmləri İslam əsasında, İslam dünyagörüşünə uyğun araşdırıb yazmaq lazımdır. Pul lazımdırsa, verilsin; kadr yetişdirmək lazımdırsa, bu işi görək. İnqilabdan indiyədək az zaman ötməmişdir. Prinsipcə bu müddətdə əsas işləri görməli idik. Bu nə qədər geciksə, bir o qədər pis olacaq. Odur ki, bundan sonra vaxt tələf etmək olmaz.[503]

Təəssüf ki, bəzi sahələrdə kitablar lazım olduğundan çox fərqlidir. Misal üçün, hüquq fənni belədir. Əslində çoxlu sahələr belədir, lakin biz bəzi elmlərdə geridəyik və lazımi təcrübəmiz yoxdur. Keçmişdə bizim psixologiyada, sosiologiyada tədqiqatçı və mütfəkkirlərimiz olmayıb. Odur ki, bu fakültələrdə öz kitablarımız olmasa, bəlkə də heç kim bizi qınamaz. Bəs hüquqda necə?! Cinayət hüququnda necə?! Bu gün bizim hüquq mütəxəssislərimiz burada iştirak edirlər. Müxtəlif hüquq sahələrində dəyərli fəqihlərimiz kimi elmli olan varmı?! Hüquqşünasların arasında hüquqi məsələlərdə bir müctəhid qədər güclü bir alim həqiqətən az tapılar. Mən Cəvahir kitabının müəllifini demirəm. O bütün bunların fövqündə durur. Bütün fiqhi işləmiş Cəvahir sahibi kimi birisini tapmaq çətindir.[504]

### 3- Qərb mədəniyyətinə qarşı mübarizədə tələbə və müəllimlərin rol və vəzifələri

Siz əziz tələbələr bilməlisiniz ki, inqilabın hərəkət və inkişafında tələbənin çox aktiv rolu var. Siz inqilabın bitdiyini düşünməyin, o davam edir. Əgər inqilab düşmənləri təhrik edən, məhrum və məzlum təbəqələrə qurtuluş, səadət müjdəsi verən əsaslı dəyişiklik deməkdirsə, bəllidir ki, bitməyib və hələ də davam edir. Bunun dəlili dünyada bizə qarşı olan düşmənlik və ədavətlər, eləcə də dünyanın məzlum xalqlarının bu inqilaba və onun rəhbərinə qarşı sevgi, səmimiyyət və dəstəkləridir. Siz bu günlərdə bunu aydın görürsünüz ki, əcnəbi bir ölkənin bizim dilimizi bilməyən, bəzisi hətta əlifbamızla tanış olmayan əhalisi rəhbərimizin vəfatına görə başına vurur, ürəkdən ağlayır, yürüş zamanı İslam Respublikasının bayrağını qaldırır, onunla fəxr edir və mehriban bir atanı əldən verdiklərini düşünürlər. Bu, inqilabın səciyyəsidir; düşmənliklər və dostluqlar qalır.[505]

Siz tələbələr öz rolunuzu unutmayın. Sizin təbəqənizə uyğun siyasi ayıqlıq və inqilabi gənclik coşqusu quruluşun məqsədlərinə xidmət göstərməlidir. Bəzi sadəlövh uşaqlar elə bilirlər ki, tələbənin inqilabda iştirak

etməsi məsul şəxslərin başlarına çığırmaqdır. Xeyr! Bu, inqilabçılıq deyil. Tələbələrin məsul şəxslərin başına çığırdıqları yerlərdə məsul şəxslər tələbələrlə eyni istiqamətdə hərəkət etmirlər. Onlar Amerikaya muzdur olduqlarına görə gənclər dözmür və etiraz səslərini ucaldırlar. Keçmiş rejimdə bizdə də elə idi. Tələbələr, xalq, sağlam və qorxmaz insanlar vəzifəli şəxslərin başlarına çığırırdılar. Hansısa bir qrup hiyləgərliklə və müxtəlif planlarla bir neçə sadəlövh gəncə tələbənin fəryad çəkməli olduğunu başa salmasın. Bəli, fəryad çəkilməlidir, lakin Amerikanın başına, quruluşun məsul şəxslərinə və onu idarə edənlərə maneçilik törədən qüvvələrin başına. Hansı universitetdə təhsil alsanız, düzgün xətdə tələbə iştirakını güclü şəkildə qoruyun.

Tələbə əzizlər! Yaxşı, səmimi və sağlam gənclər! Bacardığınız qədər birliyinizi qoruyun, müxtəlif adların müxtəlif istiqamətlər kimi başa düşülməsinə imkan verməyin. Düşmənə qarşı çevrilməli olan qüvvələrin bir-birinə qarşı dayanmasına qoymayın. Bu nazirliyin tələbəsi-o nazirliyin tələbəsi, bu universitetin tələbəsi-o universitetin tələbəsi, dövlət universitetinin tələbəsi-özəl universitetin tələbəsi, buranın İslam birliyi-oranın İslam birliyi kimi adlar divar yaratmamalı və sərhəd çəkməməlidir. Bundan ehtiyatlı olun.[506]

Tələbələr inqilab məsələlərində heç zaman soyuqluq hiss etməməlidirlər. Təbii ki, bunun yolları var, bunu fərman və sərəncamla qorumaq olmaz.[507]

Universitetlərinizdə İslamı yüksək səviyyədə qoruyun. Elə edin ki, özgələr, yəni inqilaba və İslama yad olanlar işləri öz əllərində hiss etməsinlər. Mühiti elə düzəldin ki, hizbullahçı orada inkişaf etsin. Bizim düşmənlərimiz dünya mediasında hizbullahçını pis simada göstərməyə çalışırlar. Hizbullahçını alçaq bir insan və bir quldur kimi təsvir edirlər. Halbuki belə deyil. Hizbullahçı - Allahın xidmətində olan, inqilabdan və ilahi iradədən başqa heç bir siyasi və təşkilat bağlılığı olmayandır. İnqilabın əvvəllərində liberallar bu adı bədnam etməyə çox çalışdılar. Mənim yadımdadır, o zaman təsadüfən Dövlət Şurasındakı bir həkim mənim gördüyüm ilk şəxs idi ki, fəxrlə belə dedi: "Bu qədər deyirlər hizbullahçı, mənim özüm bir hizbullahçıyam". O, yüksək vəzifəli bir həkim idi. Ölkənin hizbullahçı cinahının, özünü bu inqilabınkı bilən, inqilaba ürək yandıran, özünə bu ölkəyə və bu inqilaba xidmətdən başqa bir vəzifə tanımayanların özlərini doğma universitetlərdə hiss etmələrinə çalışın.[508]

Siz tələbə və şagirdlərin, oğlan və qızların üzərinə dərs oxumaqdan əlavə, ağır vəzifələr düşür; universitet və məktəbdə inqilabi və dini vəzifələr. Bu

mübarizə bir günün, iki günün, bir ilin və iki ilin mübarizəsi deyil, nəsillərin mübarizəsidir. İnqilabın başlanğıcından uzun müddət sonra meydana çıxmış nəsil İranı qurmaq, qüdrətləndirmək, ucaltmaq, digər xalqlar qarşısında canlı örnəyə çevirmək və hegemonizmin burnunu ovmaq istəyirsə, inqilabçı, islamçı və dindar bir nəsil olmalıdır. O nəsil sizlərsiniz. Bu gün tələbə və şagird olan sizlər sabah ölkəni idarə edəcəksiniz. Bu gün özünüzü yetişdirin, universitet və məktəbləri inqilabçı və islamçı edin. Görmürsünüz ki, düşmən bu mərkəzləri hədəf seçmişdir?! Bu nədən ötrüdür? Onlar bu yerlərdən qorxurlar. Universitetlərdə inqilabçı və müsəlman gənclər əlbir olub həmrəyliklə və bir düşüncə ilə hərəkət etməlidirlər. Bu düşüncə İslam və inqilab düşüncəsidir. Təhsil ocağınızı islamçı və inqilabçı edin, Allah və inqilab yolunda birliyə mane olan hər şeydən çəkinin. Beləliklə İranın sabahını təmin edib İslam Respublikasını düşmən və bədxahlar qarşısında qalib, İran xalqını dostları və dünyanın ümidliləri qarşısında üzüağ edəcək bir univeristet qura bilərsiniz.

Məktəblər də belə olmalıdır. Bizim müsəlman gənclərimiz və mömin uşaqlarımız bu inqilabda rol oynamışlar.[509]

Əziz və inqilabçı övladlarıma, qardaşlarıma, gənclərə, şagird və tələbələrə deyirəm: İstər indi, istər gələcəkdə inqilabın əsas yükü sizin çiyinlərinizə düşür. Əziz İslam, şəhidlərin valideynləri, Böyük İmam və xalqın saleh insanları sizə baxır, bel bağlayır və sizdən umur. Çalışın Böyük İslam İnqilabının kamilliyə və məqsədlərinə çatması üçün fürsətlərdən əlverişli istifadə edin, beyinlərinizdə və qəlblərinizdə dini inancı gücləndirin, mənəvi saflıqla və məsuliyyət hissini artırmaqla inqilabı, inqilabi dəyərləri, mədəniyyəti və əhval-ruhiyyəni qoruyun, cəmiyyətlə, müxtəlif təbəqələrlə, xüsusən də hörmətli ruhanilərlə əlaqələrinizi gücləndirin, xeyirxah və qayğıkeş görünən şeytan hiylələrindən və iblis təxribatlarından ehtiyatlı olun. İran xalqının şərəfli mübarizə yolunda gənclər həmişə öndə olmalıdırlar. Özünüzü düzgün xətdə öncüllüyə hazırlayın, sayıqlıqla doğru və düzgün xətti yanlış xətlərdən ayırın, ilahi rəngləri təbliğ edin və İslam şüarlarını uca tutun.[510]

Tələbə və şagirdlər elm öyrənməkdən ibarət olan vacib əməli peşə və təcrübə öyrənməklə yerinə yetirməli, inqilab hərəkətlərinin öncülü kimi İslamın uca məqsədləri istiqamətində, qlobal hegemonizmin, ABŞ, sionizm və mürtəcelik üçbucağının təxribatlarına qarşı ürəkdən mübarizə aparmalıdırlar.[511]

İnsanın elmi sevmədən, təhsilə əhəmiyyət vermədən, yalnız bir kağız parçası əldə etmək və onun sayəsində işləmək üçün yox, pul qazanmaq üçün işə düzəlmək məqsədi ilə universitetə girmək, xalqın imkanlarından və dövlət büdcəsindən istifadə etmək İslam işi deyil; tələbə belə dərs oxusa, İslamdan deyi; müəllim belə dərs desə, İslamdan deyil. Çünki bizim gənclərimiz, qız və oğlanlarımız Allaha şükür olsun ki, onsuz da müsəlmandırlar. Bizim universitetlərimizdə mühüm məsələlərdən başqa birisi gənc təbəqənin inqilaba qarşı məsuliyyət hiss etməsi, özünü bu məsələlərdən uzaq bilməməsi və inqilabın bu gün ondan hansı vəzifəni tələb etdiyinə baxmasıdır: o, inqilabın inkişafında hansı rolu ifa edə bilər və vəzifəsi nədir? Tələbə Allahın lütfü ilə həmişə inqilab işlərində hazır olan böyük xalqımızdan ayrılmamalı, xalqın inkişafına və ayıqlığına kömək etməli, savadlanmasına yardımçı olmalıdır. Universitetin qapısı xalqın üzünə açıq olmalı, tələbə universitetdə məhdud olmamalı, ölkə və cəmiyyət məsələlərində ailə üzvləri və dostları arasında maarifləndirmə aparmalıdır. Bizim gənclərimiz bilməlidirlər ki, ölkəmizin tarixində istedadlı və elmli gənc üçün ən azı son 7-10 əsrdə bugünkü kimi fürsət yaranmamışdır. [512]

Bizim universitetimiz İslam universitetidirsə, onun ən böyük səciyyələrindən biri müəllimlərə dünyada mövcud olandan artıq hörmət etmək olmalıdır; xüsusən şagirdlər tərəfindən. Müəllim pis də olsa, şagird qeyd-şərtsiz olaraq, ona hörmət göstərməlidir. Fərz edin, kafir bir müəllimi gətirib hizbullahçı bir sinfə qoydular. Bu hizbullahçılar o kafirə hörmət etməlidirlər, yoxsa hörmətsizlik? Ona hörmət etməli, onu uca tutmalı və özlərindən üstün bilməlidirlər. Çünki onların müəllimidir, başqa heç bir dəlil lazım deyil. Qeyd etdiyimiz kimi, həmin müəllim onlarla eyni etiqadları bölüşməyəndə də belə olmalıdır, mömin və müsəlman olanda isə daha heç. Hər halda, universitetlərdə və elm mərkəzlərində müəllimin hörməti çox qorunmalıdır.[513]

Universitetlərin rektor, müəllim və tələbələri birinciliyi İslama verməli və İslam hökmlərinə əməl etməlidirlər. İslam dəyərləri universitetdə yarış formasına düşməlidir.[514]

Dəyərli və qayğıkeş müəllimlər istedadlı qüvvələrin tərbiyəsi üçün əlverişli inqilabi şəraitdən istifadə etməli və tələbələr müəllimlərə hörmətlə yanaşı, - bu, İslam baxımından vacib əməldir – kiminsə bədxahlıqla elm və ixtisası müstəmləkə mədəniyyətinin təbliğinə vasitə etməsinə, əcnəbilərin istismarı dövründəki kimi universiteti özünə yad olan əcnəbipərəst beyinlərin tərbiyə mərkəzinə çevirməsinə icazə verməməlidirlər.[515]

Elm və tədqiqat mərkəzlərinin müəllim və rəhbərləri ölkə inkişafının əsas sütunu sayılan elm və tədqiqat səviyyəsinin yüksəldilməsinə dair yetərli diqqətlərinin yanında, təhsil mərkəzinin İslama uyğunlaşdırılmasına, idxal olunmuş mədəniyyətin pis təsirlərinin silinməsinə, ölkənin gələcəyinin ümidləri olan tələbə və şagirdlərin dini və siyasi bünövrəsinin gücləndirilməsinə də çalışmalı, kreativ, sürətli və güclü proqramlarla savadsızlığın kökünü kəsmək və cəmiyyəti savadlandırmaq işinə müqəddəs məqsəd kimi baxmalıdırlar.[516]

**4- Universitetlərin və ali təhsil müəssisələrinin rəhbərlərinin rol və vəzifələri**

İslam Respublikası quruluşu və onun gələcəyi üçün universtetin əhəmiyyəti və universitet mənsublarının rolu elə məsələlərdəndir ki, ölkə idarəçiləri, xüsusən də mədəni işlərdə çalışanlar onu bir an da unutmamalıdırlar. Bizim mərhum və əzəmətli imamımız onlarla yazılı sənəddə və şifahi tövsiyədə bu mühüm məsələni xatırlatmış, üzərində təkid göstərmişdir. Bizim universtetimiz İslama uyğunlaşsa, ölkənin istiqlaliyyətini, azadlığını və başucalığını məqsəd seçərək elmi işi və cəmiyyətin idarəsini üzərinə götürə, gələcəkdə elmi və siyasi inkişafa təməl ola bilər. Lakin İslama uyğunlaşmasa, keçmiş rejimin on illərlə hakimiyyəti dövründəki bəlaya düçar olar: elmi və əxlaqi süqut, məcburən qaldığı geriliyi və zəifliyi özünün inqilabi əzmkarlığı və imanı ilə düzəltməyə iradə göstərmiş xalqın ehtiyaclarını təmin etməkdə bacarıqsızlıq.[517]

Bizim fikrimiz budur ki, universitetlər ölkənin ümumi idarəsindən kənarda qala bilməzlər. Belə bir şey mümkün deyil.

Universitetdə müdiriyyət onun dövlətə bağlandığı yerdə mərkəzləşməlidir. Bu yer Ali təhsil və Tibbi təhsil nazirliyindən ibarətdir. Bizim prinsipimiz budur. Universitetlərin ölkənin ümumi inqilabi siyasətindən tam ayrı hərəkət etməsini nəinki qəbul etmirik, hətta ali təhsil sistemində fəsad sayırıq. Universitetlərə ölkənin bütün qurumları kimi İslam quruluşunun ümumi çərçivəsi daxilində baxmaq və onlara vahid siyasəti hakim etmək lazımdır. Düşmən bu ölkənin hər hansı bir sahəsinə müdaxilə imkanı əldə etməməlidir. Hətta universitetdə olmasa belə, azad ticarət zonasında bir sahədə də düşmən quruluşun məqsədləri əleyhinə hərəkət edə bilməməlidir. Biz düşmənə belə bir imkan verməməliyik. Universitetdə isə məsələ dəfələrlə ciddidir. Ölkənin islamçı və inqilabçı hərəkətinin düşmənlərinin universitetlərə sərmayə yatırıb onları İslam Respublikasının siyasətlərinin əksinə aparmaları yolverilməzdir.

Bizim inqilabçı quruluşumuz və müsəlman xalqımız üçün belə bir şey əsla məqbul deyil.[518]

Heç kim elə bilməsin ki, bu gün müəllimlərin, yaxud universitetin müxtəlif sahələrinə rəhbərlik edənlərin dindarlığı çox da vacib deyil, tələbələrin kəmiyyət və keyfiyyətini artırmağımız lazımdır. Fərz edək ki, siz bugünkündən iki dəfə artıq tələbə yetişdirdiniz və keyfiyyət də yüksəldi; hərçənd məncə inqilabi və islami öhdəliklər olmadan keyfiyyəti yüksəltmək çətin məsələdir, biz bunu sınaqdan keçirmişik. Lakin istənilən halda, universitet məzunları ölkəyə və böyük milli arzulara dəyər tanımasalar, ürək yandırmasalar, onlar üçün çalışmasalar, ölkə bir şey qazanmayacaq, sizin zəhmətləriniz də effektsiz olacaq. Odur ki, biz birinci növbədə universitetdə nə yetişdirmək istədiyimizi aydınlaşdırmalıyıq. Əgər inqilaba, onun əsaslarına inanan, inqilabın məqsədləri uğrunda çalışan mütəxəssis yetişdirmək istəyiriksə, - bizim fikrimizcə məhz belədir - universitetdə bu məqsədlə proqram hazırlamaq lazımdır.[519]

Mən bir neçə il bundan əvvəl bir söz dedim, bəziləri etiraz etdilər. Dedim ki, universitetlərin rəhbərliyi həm də elmi rəhbərlik olmalıdır. İndi də fikrim budur. Universitetin başında elə elmli adam durmalıdır ki, orada çalışanlar bu şəxsi başçı kimi qəbul etsinlər. Sözsüz ki, əməl və etiqadla yanaşı olan elmdən söhbət gedir. Bu quruluşun başının bədənindən ayrılmasını istəyən, ümumiyyətlə İslama etiqad bəsləməyən, yaxud İslamı və hizbullahçıları məsxərə edən, mömin tələbəni ələ salan etiqadsız bir şəxs işlərin başına keçməməlidir. Xeyr! Onun qolundan tutub kənara qoyun. Bizim siniflərimizdə dərs demək istəyirsə, eybi yoxdur. Hansı müəllim gəlib dərs desə, qəbul edərik. Biz hər kəsin elmindən bəhrələnərik; hətta bizi qəbul etməyənlərin belə. Elmini öyrətsin, biz çox təvazökarlıqla oturub ondan elm öyrənərik, quruluş onun elmindən istifadə edər. Lakin universitetin idarəsində həlledici olması əsla yolverilməzdir. Kimsə çadralı, yaxud hicablı qıza təhqir gözü ilə baxsa, onu təhqir edin, heç nəyi nəzərə almayın; kimsə saqqal saxlayan hizbullahçı gəncə təhqir gözü ilə baxsa, belə gəncləri süründürsə, onu təhqir edin. Bəzən bizə belə məlumatlar çatır. Bu məlumatlar doğrudursa, belələrini təhqir edin, doğru deyilsə, heç.

Dəyər Allaha itaətdə, imanda, ölkəyə və cəmiyyətə qayğıdadır, şıq geyinməkdə deyil. Ləzzətindən və yeyib-içməyindən keçməyən, ağır işlərə yaxın durmayan bir insan hansı haqla bu quruluşda mühüm şəxsiyyət olduğunu deyə bilər?! Elmi də onun şəxsi həyatına və qarnına qulluq edir, xalqdan ötrü

deyil və dəyəri yoxdur. Sizin nazirliyinizdə, universitetinizdə inqilabla eyni istiqamətdə hərəkət etməyənin elminin də dəyəri yoxdur. Bəli, elmini tələbələrimizə öyrətsə və tələbələrimiz ondan istifadə etsələr, sözümüz yoxdur; bu şərtlə ki, öyrətsin. Mən eşitmişəm ki, bəziləri hətta elmlərini də əsirgəyirlər. Mən bilmirəm, siz araşdırın, görün həqiqətən belədir, yoxsa yox. Deyilənə görə, sinifdə bir şey öyrətmir və tələbə yetişdirmirlər. Belə bir şəxs ümumiyyətlə işə yaramır. Elmini öyrətmək istəyən şəxsdən isə öyrənsinlər; universitetdə dərs desin, problem yoxdur. Amma bu quruluşa, bu təfəkkürə, İslam hərəkatına və inqilaba etiqadı olmayınca, ona geniş imkanlar verməməliyik. Bu meyarlara cavab verən bir müəllim, yaxud rektor təyin etdikdə isə hamı ona hörmət etməli və doğrudan da gözünün üstündə saxlamalıdır. Tələbə də belə şəxsə hörmət etməlidir.[520]

Mən xahiş edirəm universitetlərin rektorları və hər iki nazirliyin rəhbərləri bu məsələyə diqqət yetirsinlər: mümkün deyil ki, bizim bir tələbə oğlanımız dindar görkəminə və yaxud qızımız hicabına görə etinasızlıqla üzləşsin, Allah eləməmiş, aşağılansın. Qəti olmasa da, indiyədək mənə belə məlumatlar çatıb. Onların bir-ikisi bir müddət qabaq yəqinə yaxın həddə çatdı, mən də reaksiya verdim. Biz bir müddət öncə tələbələrə dedik ki, inqilabi məsələlərə çox da əhəmiyyətli yanaşmayan müəllimlərlə işiniz olmasın, qoyun gəlib dərs deyib getsinlər. Amma həmin müəllimin sinifdə, yaxud imtahan otağında müsəlman və inqilabçı tələbənin təhlükə hiss edəcəyi şəkildə rəftar etməsi əsla məqbul deyil. Cənablar buna diqqət yetirsinlər; əgər belə bir müəllim tapsanız, ona qarşı ciddi tədbir görün. Bu həddə inqilaba qarşı çıxmaq yolverilməzdir. Şagirdini öz övladı kimi sevməli olan bir müəllim çadrasına görə şagirdinə pis münasibət göstərirsə, bu, onun ürəyində dinə, İslama və inqilaba qarşı çox böyük ədavətin olduğunu göstərir. Və əgər belə bir ədavət varsa, sizin belə bir müəllimdən istifadə etmənizə nə zərurət var?![521]

Bu gün siz (Mədəniyyət və Ali təhsil nazirliyinin əməkdaşları) inqilabı öz işinizdə xülasə etməlisiniz. Hər halda, bir çörəkçi də arxa cəbhədə çörək bişirirsə, onun çörəyi pis olsa, az olsa, yaxşı bişməsə və ya geciksə, bu da öz qədərincə inqilabın taleyinə təsir göstərəcək. Bir çörəkçinin, yaxud adi bir tacirin əməli təsirlidirsə, görün mədəni və dini bir quruluşda ən yüksək fəalliyyətlərdən olan və belə bir nəsillə çalışan universitet işləri nə qədər əhəmiyyətlidir. İnqilab sizin üçün beynəlxalq siyasət və müharibə haqda düşünmək deyil, universitetləri inqilabın gözlədiyi şəkildə qurmanız və bunun

üçün oturub fikirləşmənizdir. Universitetlərin rektor və rəhbərləri iclas və seminarlar keçirib həqiqətən çıxış yolu haqda düşünsünlər.[522]

Tələbə yetişdirməkdə iki əsas amil var. Onların heç birinə əhəmiyyətsiz yanaşmaq olmaz; əhəmiyyətsiz yanaşsaq, ziyanını çəkəcəyik. Bu amillərin biri elm, tədqiqat, elmi işgüzarlıq, elmi istedadların çiçəklənməsi və bu tip məsələlərdən, biri də dindarlıqdan, düzgün hərəkətdən, tələbənin mənəvi və psixoloji sağlamlığından ibarətdir. Universitetlərdə bu iki amili bir-birindən ayırmamaq, ölkənin bütün imkanları daxilində onlara riayət etmək lazımdır .Birinci amildə səhlənkarlığın nəticəsi aydındır. Tələbəyə elm və tədqiqat öyrədə bilməyən, tələbəni bir alim, müəllim, yaradıcı və nəhayət, cəmiyyətin saysız-hesabsız sahələrindən biri üçün aktual müdir edə bilməyən bir mərkəzdən universitet çıxmaz. Bu sahədə müəllim, dərs vəsaiti, təhsil şəraiti, laboratoriya, elmi jurnallar və digər məsələlər var. Bunlar bizim diqqətimizdədir. Mədəni İnqilab Ali Şurasının üzvləri kimi, sizin təxminən hamınız universitet mənsubu olduğunuza görə, bu məsələləri çox yaxşı bilir və ölkənin imkanları həddində təmin edirsiniz. Bu məsələlərə daha çox diqqət ayırmaq lazımdır. Təbii ki, ikinci amil də yaddan çıxmayıb. Mən həm belə bir qrupun təbii şəkildə ikinci amildən xəbərsiz olmadığını bilirəm, həm də sizin təxminən hər birinizlə istər bu şurada, istər şura xaricində münasibətdə olduğuma görə. Lakin ümumi olaraq, ölkənin universitet aləmində ikinci amilə - yəni tələbənin dindarlıq və ayıqlıq məsələsinə, onun məqsədsiz bir elm adamı halından çıxıb məqsədli elmi kadra çevrilməsi amilinə yetərli diqqət mövcud deyil.

İnsan kompüter deyil. Kompüterə bir proqram yükləyirlər, o da məsələnin cavabını hesablayır. İnsan isə belə deyil. İnsan özü öz proqramını tənzim etməli, qərar verməli, istiqamət seçməlidir. Biz bu ikinci istiqaməti yaddan çıxarsaq, universitet imamın dəfələrlə xəbərdarlıq etdiyi universitet olacaq. Universitetin dindən ayrı və dinə yad olması böyük bir faciə deməkdir. Universitetdə çalışmış, onu bizdən yaxşı tanıyan, həm də dini hisslərə malik olan sizlər bunu yaxşı dərk edirsiniz. Bu faciəni aradan qaldırmaq olduqca çoxlu tələfatlara və böyük problemlərə səbəb ola bilər. Bu problemlərin aradan qalxıb-qalxmayacağı da bəlli deyil.

Universitetin məzunu nə inqilaba, nə dinə, nə ölkəyə, nə milli istiqlaliyyətə və böyük milli arzulara qarşı məsuliyyətli olacaqsa, bu universitet elmi baxımdan nə qədər yüksək olsa da, dəyəri olmaz, onun məhsulu və məzunu asanlıqla müxtəlif siyasi qüvvələrin ixtiyarına keçər. Biz universitetdə dini,

inqilabi ruhu və milli asılılığa nifrəti tələbələrin ruhuna və beyninə yeritməliyik. Asılılıq məsələsi xüsusi əhəmiyyətə malikdir. Təəssüf ki, bu gün dünyanın siyasi mövqe baxımından kiçik ölkələri, necə deyərlər, keçmiş üçüncü dünya və əsasən müsəlman ölkələri belə asılı vəziyyətdədirlər. Bu asılılığı elm öyrənməyə həvəslə səhv salmaq olmaz.[523]

Universitetdə tələbələrin inqilabi ruhuna çox diqqət yetirmək lazımdır. Çünki tələbə nəsli, tələbə təbəqəsi dünyanın hər yerində inqilabın əsas dayaqlarından sayılır. Bunu qorumaq lazımdır.

Tələbələr heç zaman inqilabi məsələlərdə soyuqluq hiss etməməlidirlər. Təbii ki, bunun üsulları var, bu ruhu fərman və sərəncamla qorumaq olmaz. Tələbələrə deyə bilmərik ki, siz inqilabın məqsədləri istiqamətində həvəslə hərəkət edin. Çünki həvəsi yaratmaq lazımdır, yalnız deməklə əmələ gəlmir. Hər halda, universitetdə tələbələrin inqilabi ruhuna xələl gəlməməlidir. Hətta elə etmək lazımdır ki, laqeyd olanlar da inqilabi istiqamətlərə və inqilabi həvəsə meyllənsinlər, Allah eləməmiş, əksinə, bu istiqamətdə olanlar da tədricən laqeyd olmasınlar. Bu da çox böyük təhlükədir.[524]

Məktəblərdə, xüsusən də universitetlərdə çox əhəmiyyətli bir məsələ islami və inqilabi düşüncə, inam və ruh məsələsidir. Gənclər həqiqətən cəmiyyətin mühərrikidirlər, cəmiyyətdə müsbət və ya mənfi olan böyük hərəkətlərə səbəb olurlar. Əgər univeristet adlı bir yerə toplaşmış bu gəncləri inqilaba və İslama yönəldə bilsək, ölkə və inqilab ən böyük faydanı görəcək.[525]

Universitet tələbəsi müstəsna bir varlıqdır. Hətta gənc hövzə tələbəsi də bəzi cəhətlərdən universitet tələbəsindən fərqlənir. Təhsil almaqda olan gənc universitet tələbəsi azad çevrələrlə tanış olur və çoxlu insanların toplaşdığı bir yerdə təhsil alır. Bu xüsusiyyətlər ümumilikdə özəl bir kompozisiya, hal və təsirlər yaradır. Bunu qəbul etmək lazımdır.

Biz tələbə təbəqəsinin icraçı qurumların bütün siyasətləri qəbul etməsini gözləyə bilmərik. Təbii ki, ölkə məmurlarının siyasətləri qarşısında hamı tabe olmalıdır. Şübhə yoxdur ki, ölkənin icraçı qurumlarının çıxardığı qərarlara əməl etmək lazımdır. Lakin tələbəyə bu hüququ vermək lazımdır ki, gəncliyindən, həvəs və aktivliyindən irəli gələrək sualı, etirazı və ya təklifi olsun. Buna dözmək, bunu qəbul etmək lazımdır. Bu, tələbə təbəqəsində həvəskarlığı və fəallığı qoruyub saxlayan amillərdəndir. Sözsüz ki, tələbə çevrələrinin peşəkar siyasətbazların at oynatdığı meydana çevrilməsindən ehtiyatlı olmaq lazımdır.

Bayırdan kiminsə universitetə girib siyasi qərəzi və qeyri-sağlam məqsədi üçün oranı bir-birinə vurması və bir qrup tələbənin beynini qarışdırması əsla məqbul deyil. Belə yerlərdə tələbələrin özləri bu insanları tanıyıb universitetdən çıxarmalıdırlar ki, tələbə çevrəsi tələbələrə xas və təmiz qalsın. Çünki siyasi ayıqlığa və baxışa malik olmaq bir məsələdir, siyasətbazların təhrikinə məruz qalmaq isə başqa bir məsələ. Hər halda, universitetdə bu məsələlər nəzərə alınsa, təbii ki, dini məsələlərə də öz-özlüyündə riayət olunacaq. Təəssüf ki, mənim eşitdiyim qədərincə, dövlət və özəl universitetlərin vəziyyəti bu baxımdan çox da xoşagələn deyil. Bu məsələ ilə hərtərəfli məşğul olmaq lazımdır.[526]

Tələbələr ölkənin gələcəyini quran qüvvələrdir. Tələbələr üçün hər cəhətdən - düşüncə, elm, dərs, maddiyyat və rifah cəhətlərindən sərmayə qoymaq lazımdır. Allaha şükür olsun ki, hökumət bu işlərlə məşğuldur, yaxşı proqramları var və ümidvaram bu proqramlar bəhrəsini versin.[527]

**5- İcraçı qurumların universitet ekspertlərindən istifadə etməsinin zəruriliyi**

Universitetdə müəllimin, tədqiqatın, laboratoriyanın və digər amillərin məqsədi tələbəyə xidmətdir. Universitetdə aparılan tədqiqat bundan ötrüdür ki, insan kapitalı inkişaf eləsin, alim və işgüzar kadrın öhdəsinə düşən işə səlahiyyət əldə edilsin. Ümumiyyətlə, universitetin fəlsəfəsi bundan ibarətdir. Universitet misal üçün, bir qrupun dolanışıq vasitəsi deyil. Bu, zəruri məsələ olsa da, məqsəd deyil. Məqsəd tələbənin lazımi səlahiyyətlər əldə etməsidir.[528]

Universitetlər haqda başqa bir məsələ də var. Mən cənab prezidentlə dəfələrlə bu haqda danışmış və ondan bununla məşğul olmasını istəmişəm. Güman ki, o da bununla məşğul olur. Siz də bu işi görməlisiniz. Bu iş dövlət qurumlarını universitetlərə birləşdirməkdir. Bizim universitetlərimizdə müxtəlif sahələrdə araşdırma və ekspert rəyi təqdim edəcək böyük potensial var. Universitetlərimizdə çalışan çoxlu kadrlar ölkənin iqtisadi siyasətlərinə, yaxud daha geniş miqyasda iqtisadi məsələlərə və ya hər hansı xüsusi bir iqtisadi mövzuya dair fikir bildirə, hökumətə faydalı məsləhətlər verə bilərlər. Təəssüf ki, bizim ekspert sahəmiz universitetlərdən kənardır. Mənim eşitdiyimə görə, dünyada belə deyil. Dünyanın inkişaf etmiş elm mərkəzlərində bəzi layihələri araşdırır və müxtəlif məsələlərdə dövlətlə işləyirlər. Fərz edin biz informatika sahəsində işləmək istəyirik. Hökumət icraçı bir qurumdur, proqram təyinetmə,

koordinasiya, təchizat və istifadə yolları sahələrində mütəxəssislər var. Onlar universitetlərdən bu məsələlər üzərində işləmələrini istəyirlər, onlar da işləyirlər; həm özləri inkişaf edirlər, həm də hökumət yalnız idarələrdə və ya Proqram komitəsində çalışan azsaylı ekspertlərlə məhdud olmur. Bizim buna ehtiyacımız var. Dünyanın digər yerlərində də belədir. Təəssüf ki, bizdə belə deyil. Mən universitetlərin icraçı qurumlara birləşdirilməsinin ciddi tərəfdarıyam; özü də icraçı qurumun zirvəsinə. Bu gün bizim etimadlı nazirliklərimizdən, parlamentimizdən, xalqdan ibarət ekspert qurumlarımız fəaliyyət göstərirlər. Lakin ideyanı nə qədər püxtələşdirsək və müxtəlif yerlərdən fikir soruşsaq, daha yaxşı və uğurlu olar. Mənim yadımdadır, bir zaman bəzi əkinçilik məmurları universitet işləri görür və ovaxtkı icraçıların diqqət yetirmədiyi çox yeni fikir və nəzərlər ortaya qoyurdular. Bu gün bizim sənaye qurumlarımız, mineralogiya və geologiya sahəmiz də belədir. Siz görün bizim universitetlərimizdə geologiya və mineralogiya üzrə ixtisaslaşmış nə qədər kadr var. Hər halda, biz belə müəllimlərdən, fəal, gənc və istedadlı tələbələrdən istifadə etsək, böyük fayda görərik. Məncə cənablar bunun üçün bir layihə hazırlamalıdırlar və icraçı orqan ondan istifadə etməlidir. Bu da fikrimcə, əhəmiyyətli məsələlərdən biridir.[529]

**6- Tədqiqat mərkəzlərini və tədqiqatçıları dəstəkləmək və gücləndirmək**

Biz inanmalıyıq ki, bu gün düşmənlərimizin mədəni hücumlarına məruz qalırıq; həm inqilab mədəniyyətimizi müəyyən amillərlə qarışdırır, həm də ölkəni idarə edəcək bacarıqlı və mütəxəssis insanlar yetişdirməyə mane olurlar. Düşmənin bütün bunlara dair proqram hazırladığı şübhəsizdir. Qlobal hegemonizm beyinləri və parlaq istedadları oğurlamaq sahəsində üçüncü dünyanın bütün ölkələrinə, İslam inqilabına və hegemonizmə dair təhlükələrinə görə özəlliklə bizim ölkəmizə qarşı proqram hazırlamış, güclü beyinlərin və parlaq istedadların inkişaf edib çiçəklənməsinə mane olmaq üçün çoxlu fəaliyyətlər nəzərdə tutmuşdur. Onların uşaqlıqdan, yeniyetməlikdən, gənclikdən parlaq istedadları təyin etmək və oğurlamaq üçün xüsusi idarələri var.[530]

Universitet özünün elm və tədqiqat fəaliyyətini inqilabi və dini həvəslə həyata keçirməlidir, əks təqdirdə, onların taleyi tağut dövrünün universitetlərindən yaxşı olmayacaq. O zaman əcnəbilər qarşısında özünə

inamsızlıq və öz dəyərlərini təhqir etmək istedadların qarşısını alır, beyinləri ölkədən qaçmağa həvəsləndirirdi.[531]

Biz düşmənin əməllərinə adekvat proqramlar hazırlamalıyıq. Ümumi mədəniyyət məsələsində müşahidə edirik ki, cəmiyyətimizdə, misal üçün, dövlət qurumlarında xalqın işləri rahatlıqla görülmür, süründürməçilik edilir, xalqın işlərinə qayğıkeş şəkildə baxılmır. Bunlar mədəni bir xəstəliyə və nöqsana görədir. Görürük ki, bizim bacarıqlı elmi şəxsiyyətlərimiz universitetlərdə, iş yerlərində və tədqiqat mərkəzlərində bir tədqiqatçı üçün qazancı və şöhrəti az, zəhməti isə çox olan yenilik və ixtiralara az girişir, daha asan işlərlə məşğul olurlar. Bu bir mədəni xəstəlikdir. Elm dünyasının böyük tədqiqatları kimlər tərəfindən görülmüşdür? Adətən tədqiqat dövründə məşhur olmayan, zəhmətlə, tədqiqata, elmə və işlərinə sevgi ilə işə başlayan və çətinliyə dözən şəxslər tərəfindən görülmüşdür. Bu işin nəticəsi bir xalq üçün möhtəşəm olmuşdur. Bizdə bunlar azdırsa, mədəni bir xəstəliyə görədir. Biz bunu müalicə etməliyik. Bunun məktəb, universitet və digər yerlərə aidiyyəti yoxdur. Bu başqa bir proqramlı mədəni fəaliyyət tələb edir və biz bu işi görməliyik.[532]

Tədqiqat mərkəzlərinin çatışmazlıqları və bizim tədqiqatçılarımızın elmi araşdırmalara lazımi həvəsi göstərməməsi mövcud problemlərdən biridir.[533]

Universitet və məktəb müəllimlərinin çoxlu problemləri var. İnsanı elmə sövq edən həvəs və maraq müxtəlif maddi və mənəvi amillərə bağlıdır. Ən mühüm amillərdən biri şagirdlərin müəllimlərə hörmət etməsidir. Bundan əlavə, kəmiyyət baxımından da universitet müəllimimiz azdır. Mənim gördüyüm statistikaya əsasən, universitetlərdə təxminən qırx faiz müəllim çatışmazlığı var. Məktəb və universitetlərin binaları da belədir.[534]

Araşdırmalar sübut edir ki, bizim gənclərimizin istedadı dünyaya nisbətən orta həddən yüksəkdir. Təbii ki, bizim müəllimlərimiz də belədirlər. Bu baxımdan, güclü təhsil və tədqiqata dəyər və əhəmiyyət verməliyik.[535]

Cəmiyyətin fəal, həvəskar və qabaqcıl təbəqəsi olan tələbələr onun gələcəyinin qorunmasında və ümumi hərəkətinin təsvirində digər sahələrə nisbətən daha böyük rol ifa etməlidirlər.

Mən tələbələrlə müxtəlif görüşlərimdə dəfələrlə demişəm, indi də sizə deyirəm ki, bu təsir bir-birinin yanında olan iki amillə həyata keçir: biri budur

ki, universitet və tələbə adının reallaşması, müəllim sözünün mənasını tapması və ölkənin gələcəyi üçün təsvir olunan ümidlərin puç olmaması üçün dərs, elm və təhsil amili olmalıdır. Gənclər yaxşı dərs oxumalı, müəllimlər onları yetişdirməli və yönəltməlidirlər ki, ölkənin elmi və praktik gələcəyi təmin olunsun. Təhsilin kənarında tədqiqatın rolu fövqəladə əhəmiyyət kəsb edir. Məsul şəxslər bununla məşğul olmalıdırlar. Buna əsasən, birinci amil dərs və elmdir. Onu kiçik saymaq, ona əhəmiyyətsiz yanaşmaq olmaz.

Əziz tələbələr yaddan çıxarmasınlar ki, heç bir şey onların elmi fəaliyyətlərinin bir an da dayanmasına səbəb olmamalıdır. Çünki düşmən bunu istəyir və siz buna qoymamalısınız. Düşmənin istəyinin əksinə olaraq, ölkədə elm çiçəklənməli və ümid bəxş etməlidir. İkinci amil isə əziz imamımızın vəsiyyətnaməsində tövsiyə olunan və onun çoxlu çıxışlarında toxunduğu mühüm məqamdır. Mən Dini Ekspertlər Məclisində oxuduğum vəsiyyətnamədə bəlkə dörd-beş və ya daha çox yerdə universitetin düşüncə, siyasi və inqilabi istiqaməti üzərində dayandım. Bu amil elmə can, ruh və istiqamət verir.[536]

Tələbələrin istedadlarının çiçəklənməsi üçün onları həvəs göstərdikləri fakültələrə sövq etmək lazımdır. Bəzən televiziyada bir tələbədən soruşurlar ki, siz bu fakültəni öz istəyinizləmi seçmisiniz? O da cavab verir ki, xeyr. Bizim qəbul imtahanlarımız belədir. Yaxşı olar ki, imkan olan həddə bu çatışmazlığı aradan qaldıraq. Baxın, cənablar! Əgər biz insanın istedadına diqqət yetirsək, onu istedadı və həvəsi olan sahəyə yönəltsək, bu gün də əbu əli sinaların, məhəmməd ibn zəkəriyya razilərin və onlar kimilərin peyda olması mümkündür.

Güman etmək olmaz ki, bu gün dünya elmdə bizdən çox inkişaf etdiyindən və biz geri qaldığımızdan, deməli, istedadların və dahilərin yetişməsi mümkün deyil. Xeyr, belə deyil. Dahilərin və istedadların yetişməsi o zaman da elmi inkişaf sayəsində baş verməmişdi. Elmi inkişaf orta səviyyəli bir tələbənin öyrənməsi üçün yaxşıdır, amma nümunə tələbənin istedad çeşməsini müxtəlif şəraitlər aça bilər. Axtarıb bu tələbələri tapmaq lazımdır. Bu yalnız o zaman mümkün olar ki, kim hansı sahəni sevirsə, hansı sahəyə istedadı varsa və hansı sahə üçün yaradılmışdırsa, həmin sahədə işləyib dühasını və istedadını göstərsin. Əgər meylinə, rəğbətinə və istedadına uyğun olmayan bir sahə ilə məşğul olsa, daxilində istedadı olsa da, aşkara çıxmayacaq. Onun yollarından biri yerli tələbə məsələsidir. Universitetlərin proqramını elə tənzim etməliyik ki, Bircənddə, Zahidanda, Məşhəddə, İsfahanda, Şirazda və digər yerlərdə yaşayanlar öz şəhərlərində - Allaha şükür ki, bu gün şəhərlərin çoxunda

universitet var – təhsil ala bilsinlər. Müstəsna vəziyyətdə olanlar isə başqa yerlərə köçürülsünlər və yerləri dəyişilsin. Bunun üçün də bir proqram lazımdır. İnşallah cənablar bu işlə də məşğul olsunlar.[537]

## İkinci hissə: Mədəniyyət və incəsənət orqanlarının vəzifələri

### 1- Mədəni işlərə əhəmiyyətli yanaşmaq

İslam dininin insanların dünya və axirəti üçün proqram və məqsədləri var. Odur ki, ölkənin məsul şəxsləri xalqın amallarına və mənəvi işlərinə əhəmiyyətli yanaşdıqları qədər onun maddi işlərinə də əhəmiyyətli yanaşmağa borcludurlar.[538]

Mənəvi və düşüncə məsələlərinə sərmayə qoymalı, bu sahədə düzgün proqramlar icra etməli, ən səmimi, ən qayğıkeş və ən bacarıqlı ekspertlər vasitəsi ilə məntiqli, yaxşı və güclü işlər görməliyik. Bu iş üçün qoyulan sərmayələr heç zaman hədər getmir və tamamilə faydalı olur. Düçüncə və mədəni işlərimizin faydası az olsa, gərək proqramlarımızın keyfiyyətinə şübhə ilə yanaşaq. Mədəni işin təsiri yüzfaizlidir. Heç bir düzgün mədəni iş təsirsiz qalmır. Mədəni işin gücünü dünya təbliğatçıları bilirlər. Bu qədər pullar xərcləyir və vaxt ayırırlarsa, mədəni işin təsir və nəticələrini bildiklərinə görədir. Onlar mədəni işin nə olduğunu, uyğun kapital qoyuluşunun təsirinin qəti və nəticəsinin yüzfaizli olduğunu bilirlər. Bizim mədəni işlərimizin təsiri az olsa, şərtlərinin çatışmadığını, lazımınca yerinə yetirilmədiyini və eyibləri tapıb düzəltməli olduğumuzu bilməliyik.[539]

İkinci beşilliyin proqramında mədəni məsələlərə daha çox diqqət ayırmaq lazımdır. İqtisadi məsələlər mühüm olsa, sənaye və əkinçilik işləri olduqca əhəmiyyət kəsb etsə də, mədəni məsələlərə diqqət ayrılmasa, bunların hamısı böyük ehtimalla uğursuz olacaq. Yəni biz ya mədəni məsələlərə diqqət ayıracağıq və bu zaman iş və proqramlarımız düzgün olacaq, ya da Allah eləməmiş, diqqət ayırmayacağıq və nəticədə iqtisadi işlərimiz, iqtisadi və sənaye quruculuğu üçün göstərilən fəaliyyətlər böyük ehtimalla ya əks-təsir bağışlayacaq, ya da ən azı lazımi təsiri bağışlamayacaq. Bu baxımdan, bu məsələlər qərar mərkəzlərində, hökumətin ikinci proqramında nəzərə alınsın və bütün aidiyyətli məmurlar ikinci beşilliyin proqramlarında mədəni məsələləri yüksək həcm və keyfiyyətlə nəzərə alsınlar.[540]

Mədəni məsələlərin əhəmiyyəti iqtisadi məsələlərdən dəfələrlə artıqdır. Çünki bu məsələlərin iqtisadi işlərə qəti təsiri var. Mədəniyyət keyfiyyətdə, inkişafda və hər bir şeydə özünü göstərir.[541]

Biz bu bir neçə ildə müharibə ilə, çatışmazlıqlarla, iqtisadi blokada ilə məşğul idik. Bu nöqsanlar düşmənin müxtəlif iqtisadi təzyiqlərindən irəli gəlir. Amma bütün problemlərə rəğmən, ölkənin mədəni qurumları çalışıb bir-bir bu nöqsanları aradan qaldırmalıdırlar. Mədəni işlərdə pul və büdcə əsas problem sayılmamalıdır. Yəni biz mədəni nöqsan və problemləri büdcə ehtiyacları sırasında listin axırında yazmamalıyıq; birinci olmasa da, birincilərdən olmalıdır. Yaxşı fikirləşsək, görərik ki, bu, ölkənin iqtisadiyyatına da xeyirdir. Biz daha çox büdcə və imkanları mədəni işlərə ayırmaqdan ziyan çəkmərik. Təhsil mədəniyyəti sahəsinə sərmayə yatırmaq ölkənin gələcəyi üçün imkanlar istehsal edir. Çünki bir ölkə üçün insan kapitalı hər şeydir. İnsan kapitalı olmasa, deməli, heç bir şeyimiz yoxdur. Biz bu gün beynəlxalq və yerli valyuta büdcəsini mədəni işlərə yönəltsək, qısa müddətdə ölkənin iqtisadi işlərinə xeyri toxunmasa da, şübhəsiz, gələcək üçün faydalı olacaq.[542]

**2- Mədəni hücumu yaxşı tanımaq və ona qarşı proqram hazırlamaq**

Ölkənin mədəni işlərində çalışanlar və hər hansı səviyyədə olan elm və mədəniyyət mənsubları bu gün bu döyüşdə əsgər olduqlarını anlamalı, necə müdafiə etməli və hansı işi görməli olduqlarını bilməlidirlər. Hərbi döyüşdə olduğu kimi, burada da gözləri açmaq və cəbhəni öyrənmək lazımdır. Hərbi döyüşdə hansı tərəf düşmənin vəziyyətini öyrənmədən, onu nəzarətdə saxlamadan, gözünü bağlayaraq və başını aşağı salaraq irəliləsə, məğlub olar. Mədəni döyüşdə də belədir. Əgər düşmənin çalışdığını bilməsəniz, yaxud bunu bilənə qulaq asmasanız, mədəni komandandan əmr almasanız, yaxud o sizin qüvvənizdən istifadə etməsə, manevri və koordinasiyanı düzgün aparmasa, bunun arxasınca məğlubiyyət gələcək.[543]

Düşmən İran İslam Respublikası əleyhinə mədəni hücumu proqramlı və mütəşəkkil formada aparır. Əgər bizim cavabımız da proqramlı və mütəşəkkil olmasa, düşmənin hücumu daha təhlükəli olar. Bu baxımdan, bu məsələ ilə ciddi məşğul olmaq lazımdır. Aidiyyətli orqanlar bu sahədə bir-birinə yardım edib düşmənin mədəni hücumunu dəf etmək üçün müxtəlif üsullar işlətməlidirlər.[544]

Hərbi məsələlərdə hər bir mümkün təhlükə ciddi sayılır. Fərz edin, indi Fars körfəzində bizim heç bir problemimiz yoxdur. Lakin bir hərbi gəmi gəlib bir yeri bombalaya bilərmi? Bu mütləq məruzədə qeyd olunur. Yəni xəbərdarlıq etməkdə və yuxarıya məlumat verməkdə meyar bir təhlükənin yalnız

mümkünlüyüdür. Məncə biz siyasi və mədəni cəbhədə də buna əməl etməliyik. Düzdür, bəzi prioritetlər bizim daha uzaq məsələlərlə məşğul olmağımıza mane olur.[545]

Hər halda, düşmənin haradan hücum etdiyini bilmək lazımdır. Yaxşı müdafiə üçün yaxşı bilgi olmalıdır. Elə yaxşı hücum üçün də yaxşı bilgi şərtdir.[546]

Video pozğunluğu yayan vasitələrdən biridir. Biz ona qarşı düzgün tədbir yolunu tapmalıyıq. Mənim fikrimcə, məsələni hərtərəfli və uzaqgörənliklə araşdırmalı və tədbir görməliyik. Düşmən peyk antenləri ilə bizim üstümüzə gəlir. İndi bu fikir çox yayılıb: deyirlər onların radio və televiziyaları bir müddətdən sonra bütün cəmiyyətimizi əhatə edəcək, gəlin biz geri qalmayaq, özümüz xalq üçün cəlbedici kinolar və televiziya filmləri hazırlayaq. Bu düz fikirdir?! Təəssüf ki, bəzi beyinlərdə belə bir fikir var. Problemə qarşı belə tədbir görmək olmaz. Biz təhlükənin ümumiləşdiyini, yaxud vüsət tapmaqda olduğunu hiss edəndə ona qarşı tədbir haqda düşünməliyik. Video məsələsində də əsaslı iş bu deyil ki, biz qarşısıalınmaz bir vasitə kimi onu özbaşına buraxaq. Ən əsaslı iş odur ki, biz görək xalqı videodan istifadədə düzgün yola yönəldən hansı cihazları hazırlamaq olar. Bu gün nümayiş etdirilən filmlər zərərli və fəsadlı filmlərdir. Bu filmlərin ən az zərəri davranışa təsir edən zərərlərdir. Güclü əxlaqi təsiri olmasa da, uşaqların və gənclərin rəftarına təsir göstərir. Bu ən kiçik zərərdir, bundan böyük zərərlər də var. Odur ki, cəmiyyətimizin bunlara məruz qalmasına imkan verməməliyik. İlk növbədə xalqın işinə yarayan faydalı filmlər istehsal etmək üçün mərkəzlər açmaq lazımdır. Hər halda, düşmənin bu mədəni hücumuna ciddi yanaşmalısınız.[547]

**3- Cəmiyyəti mədəniləşdirmək**

Cəmiyyəti mədəniləşdirmək çox düzgün fikirdir. Mən də bunu dəfələrlə xatırlatmışam. Lakin biz hələ işin əvvəlindəyik. Cəmiyyətimiz təbiətcə mədənidir, amma bu, aktuala çevrilməyib. Nə üçün deyirik ki, təbiətcə mədənidir. Çünki dindar bir cəmiyyətdir və dindar cəmiyyətin prinsipcə mədəni arzusu olur. Dünyəvi cəmiyyət yalnız həyat haqda düşünür. Belə cəmiyyətdə mədəniyyət ola da bilər, əsla olmaya da bilər. Bəli, sənaye və materialist cəmiyyətlərində musiqi və incəsənət var, amma yalnız şəxsi ehtiyacı təmin etmək üçündür; ürəyi darıxanda kinoteatra gedir, incəsənət zövqü olduğu üçün musiqi dinləyir. Belə deyil ki, mütləq mədəni bir arzusu olsun; bu ola da bilər,

olmaya da bilər. Dini cəmiyyət isə qeyd olunduğu kimi, təbiətcə mədəni bir arzuya malikdir. Çünki dinin məqsədləri mədəni, mənəvidir, ruh, düşüncə və qəlblə bağlı məqsədlərdir. Buna əsasən, dindar bir fərdin və toplumun mədəni arzu, amal və istəkləri olmaya bilməz. Bu baxımdan, dindar cəmiyyət təbiətcə mədənidir, lakin mədəniliyi potensialdır, aktual deyil, mədəni baxış, aydınlıq, ayıqlıq və fəaliyyətlər cəhətindən nöqsanlıdır. Bizim xalqımız əvvəla kitab oxuyan deyil və bu çox böyük nöqsandır. Xalqımızın bir qismi hətta qəzet də oxumur, çoxları yalnız manşetləri oxumaqla kifayətlənirlər. Radionu da yalnız əyləncə üçün dinləyirlər, öyrənmək, xəbərləri izləmək, həyati və mədəni məsələlərlə tanış olmaq üçün yox. Biz bu nöqsanı aradan qaldırmalıyıq və ölkədə mədəni bir qurum bununla məşğul olmalıdır. Həmin qurum da Mədəniyyət nazirliyidir.[548]

Ümumi mədəniyyət məsələləri mühüm məsələlərdir. Ümumi mədəniyyət cəmiyyətin mədəniyyətini təşkil edən hər bir şeydir. Baxın, biz 60 milyonluq böyük bir əhaliyik. Bu 60 milyonun bir qədəri tərbiyə halındadır, bir qədəri yetkinlik mərhələsini keçirib müstəqil həyata başlamışlar. Bunların hamısı daim düzgün fikrə, mədəniyyətə və əxlaqa ehtiyaclıdır. Əlbəttə, burada mədəniyyət deyəndə onun daha çox bəzi sahələrini, məsələn, əxlaqı nəzərdə tuturuq. Milli ənənələr də mədəniyyətdəndir, lakin indi biz onları nəzərdə tutmuruq. Milli, tarixi və coğrafi adət-ənənələrin olub-olmaması əsas işlərə çox da təsir etmir, üstəlik, lazım olan həddə var, din, iman və İslam dəyərləri ilə maraqlanmayan bəzi qüvvələr çox ciddiliklə bu işləri görürlər. Hələlik mədəniyyət deyəndə mənim məqsədim əxlaqdır: fərdi və ictimai əxlaq.[549]

Adət, düşüncə və əxlaqa aid məsələlərdə demək kifayət etmir. Bu, elm deyil. Elmi bir dəfə deyəndə başqası öyrənir, ikinci dəfə təkrar olur. Əmələ aid məsələlərdə isə bilmək kifayət etmir, müxtəlif formalarda demək və insanın beyninə hopdurmaq lazımdır. Nə üçün deyirlər ki, Quranı əvvəldən axıra qədər oxuyun, qurtarandan sonra yenə əvvəldən başlayıb axıra qədər oxuyun? Əgər ömrünüzdə yüz min dəfə oxusanız da, yenə oxuyun. İnsan kitabı bir dəfə, çox yaxşı olsa, iki dəfə oxuyur və kənara qoyur. Quran isə tərbiyə kitabıdır. Tərbiyə və əxlaq kitablarını dəfələrlə oxumaq lazımdır. Əxlaqı dəfələrlə və müxtəlif üsullarla söyləmək lazımdır ki, adətə çevrilsin. Adət və xarakterlər belə islah olur, mədəniyyət bununla düzgün formaya düşür. Dəfələrlə və müxtəlif üsullarla söyləmək lazımdır.[550]

Əgər xalqın adət-ənənələrini, əxlaqını və həyat üsullarını düzəltmək mənasında olan ümumi mədəniyyətlə - bunlar bir ölkənin mədəniyyətinin əsas hissələridir - məşğul olsaq, həm iqtisadi problemlərimiz həll olacaq, həm istehlakımız azalacaq, həm də istehsal və gəlirimiz artacaq.[551]

Siz görürsünüz ki, ölkənin bütün problemləri iqtisadi məsələlərdə xülasə olunur. Ölkənin problemlərindən danışanda tez iqtisadiyyata dair bir neçə misal yada düşür. İqtisadi məsələlər də iki mövzuda - gəlir və istehlakda birləşir. Əgər gəlirimiz çox, istehlakımız az olsaydı, bütün iqtisadi problemlər həll olunardı. Çox gəlir, az istehlak isə ümumi mədəniyyətlə birbaşa əlaqəli bir məsələdir. Siz ölkənin gəlirinin artmasını istəyirsinizsə, xalqda işçi vicdanını oyatmalı, dəqiq işləmə hissi yaratmalı, işin keyfiyyətini qaldırmalısınız. Bu gün ixracat üzərində çox dayanır, bu qədər danışırlar, inqilabın əvvəlindən də ümumi istiqamət belə olmuşdur, amma eyni zamanda hələ də hər yerdə olmasa da, çoxlu sahələrdə iranlı işinin keyfiyyəti xarici işlərdən aşağıdır. Nə üçün belə olmalıdır?! Hamısı onların cihazlarının daha müasir olduğuna görədir?! Xeyr! Həmişə belə deyil. Daha çox işçi vicdanının olmamasına görədir. İşçi vicdanı işə təsir edir. İşçi vicdanı odur ki, tikdiyimiz ayaqqabı xaricə gedəndə və bir nəfər onu alanda növbəti dəfə də ardınca gələcək, yoxsa bir də İran məhsullarına yaxın düşməyəcək?! Görün nə qədər təsirlidir. İşçi vicdanı, işdə dəqiqlik, müntəzəmlik və işi ibadət saymaq əhəmiyyətli məsələdir.[552]

Ölkənin mədəni inkişafı və insan kapitalının yetişdirlməsi üçün nəşriyyat məsələsinə diqqət ayırmaq, uyğun sahədə fəaliyyəti təmin etmək üçün elmi-mədəni qurumların kağıza olan ehtiyacını aradan qaldırmaq lazımdır.[553]

**4- Cəmiyyətin mədəni keyfiyyətini yüksəltmək**

Bizim cəmiyyətimiz İslam cəmiyyətidir, bir düşüncə əsasında tədricən qurulmalıdır. Hakimiyyət bir ideologiya və etiqada əsaslanır. Təbii ki, bu ideologiya indi xalqda var. Xalq yalnız adda müsəlman olmaq istəmir, daim bu məktəbdən yeni düşüncələr öyrənmək və onun qaranlıq nöqtələri haqda dəlillər eşitmək istəyir.[554]

Ölkədə mədəni amilləri inkişaf etdirmək üçün dayaz genişləndirmə deyil, onu dərinləşdirmək lazımdır. Fərz edin sizin kitab oxumanız, yaxşı kitaba sahib olmanız, mədəni tədqiqat üçün mövzular müəyyən etməniz, bütün mədəni sahələrdə cəmiyyətə yeni fikirlər təqdim etməniz lazımdır. Misal üçün,

hökumətin idman sahəsi hər bir insanın gündə on dəqiqə idman etməsinin lazım olduğunu söyləməklə kifayətlənmir, kimlərsə idman növlərində yüksək səviyyələrə nail olurlar. İdman sahələrində çempion yetişdirmək bir vasitədir və lazımdır. Biz hamının idman etməsini istəyiriksə, bunun üçün çempionumuz olmalıdır. Əks təqdirdə, hamı idman etməyəcək. Mədəniyyət sahəsində isə belə deyil; yəni bu sahədə qabaqcıl və xüsusi insanlar yetişdirmək mədəniyyətin genişlənməsinə müqəddimə deyil, hətta demək olar ki, əksinədir. Biz istəyirik ki, ümumi mədəniyyət genişlənsin, cəmiyyət mədəni baxımdan ən yüksək zirvəyə çatsın və rekordları yeniləsin.[555]

Bizim ölkəmizdə mədəniyyət məsələsi məzlum bir sahədir. Hər bir dəyər hərəkəti kimi bizim inqilabımız da inqilabi bir kimliyə və baxışa əsaslanır. Biz mədəni sahələrdə daha çox çalışmalıydıq. Məqsəd islami-mədəni sahədir; yəni İslam mədəniyyətini mədəniyyətin mənası qədər geniş formada, sapqınlıqdan, yanlışlıqdan, qapalılıqdan uzaq şəkildə, çəkinmədən və qorxmadan aydınlaşdırmaq, izah etmək.

Qərb mədəniyyəti özünü azadfikirli kimi tanıtdırmağa çalışsa da, mədəniyyət sahəsində çox təəssübkeşdir. Bəlkə də başqa sahələrdə də belədir, amma bunda olduqca təəssübkeş və tələbkardır. Avropa mədəniyyətindən başqa hər bir mədəniyyət güclü təhqir və təzyiqlərə məruz qalır. Loyallıq, azadfikirlilik, qapalılıq və fanatizmdən uzaq durmaq iddiası edən Avropa mədəniyyət sahəsində çox təəssübkeşdir və özündən başqa bütün mədəniyyətlərə faydasız, barbar, mürtəce və geriqalmış kimi müxtəlif adlar qoyur, onlara qarşı sərt hücuma keçir. Qədim Yunan düşüncəsinə görə başqa hər bir kəs barbar sayılırdı. Avropa və Qərb mədəniyyətində yaşayan avropalının qəlbinin dərinliyində indi də bu hiss var. Təbii ki, Avropanın mədəni peyklərində, yəni ABŞ və Avstraliyada da eynilə belədir və buna görə təhqir edirlər.

Misal üçün, hicaba qarşı sərt mübarizə aparırlar; həm də onun qadına məcburi bir şey olduğuna görə yox - onlar qadını müxtəlif məsələlərə məcbur edirlər, onlar üçün heç bir problem yoxdur. Orada qadınlar ağır işə, təhqirə məcbur edilirlər, təhqir olunurlar, iki cinsdən biri kimi hörmət və heysiyyəti əlindən alınır. Bunların hamısına dözürlər, hicaba isə dözmürlər. Hicab onların mədəniyyətinə zidd olduğuna görə ona qarşı mübarizə aparırlar. Son bir neçə ildə Avropada, Fransada, Almaniyada və digər bir neçə ölkədə hicabı qadağan etdilər, özləri başörtüyü ilə məktəbə getmək istəyən bir neçə nəfərə icazə vermədilər. Onlar hər yerdə beynəlxalq standartlardan danışırlar. Məsələn,

İslam Respublikasının filan işləri görməli olduğunu deyəndə ən çox belə əsaslandırırlar ki, özünü beynəlxalq standartlara uyğunlaşdırmalıdır. Standartlar isə Qərb mədəniyyətinə uyğun olanlardır. Deməli, qərblilər tərəfindən hələ də bu təzyiq və maneə var. Başqa bir mədəniyyət, xüsusən də hücumcu olan, özünə məqam tanıyan, aşağılıq və əskiklik hiss etməyən İslam mədəniyyəti özünü göstərəndə kəskin təzyiq və təhqirlərə məruz qalır. Bu məsələlərə və xüsusən son bir neçə onillikdə, hətta demək olar ki, son 100-200 ildə baş verənlərə əsasən, bizim ölkəmizdə Qərb mədəniyyətinə yol açıldı. Biz bu sahədə çox işləməli və İslam mədəniyyətini açıqlamalı idik. Təəssüf ki, bu işlər görülməyib. Kimlərsə haradasa bir iş görmək istəyəndə də müxtəlif təzyiq və ajiotajlarla mane olublar.[556]

Bizim xalqımız təbiətcə poetikdir. Nəsrabadi təzkirəsinin müəllifi deyir ki, təbiətcə poetik, yaxud poetik insandır; demək istəyir ki, şair təbiətlidir. Bizim xalqımız da belədir, onda incəsənət zövqü var, şeiri və bəzi sənət növlərini sevir. İran xalqı həqiqətən qapalı və zövqsüz deyil, lakin eyni zamanda biz həm bizim üçün yeni olmayan qədim incəsənət sahələrində, əsrlərdir cəmiyyətimizdə mövcud olmuş şeirdə, hekayədə və digər sənət növlərində, həm də yeni incəsənət sahələrində, məsələn, teatr və kinoda geridəyik. Şeirin istisnalarını söyləmək olar. Bəlkə demək olar ki, ən azı inqilabdan sonra kəmiyyət baxımından bir qədər canlanma olub və çoxları şeirə üz tutub. Siz görün indi nə qədər çatışmazlığımız var. Bizim ölkəmizdə dünyanın məşhur romanları ilə müqayisə olunacaq roman yoxdur. Varsa, adını deyin. Hansı ki, bu bizim üçün yeni bir sahə deyil. Biz əsrlər öncədən hekayə yazmışıq. Əmir Ərsəlan bir hekayədir; Min bir gecə hekayədir. Qədimdən belə hekayələrimiz olub, amma bu sahədə inkişaf etməmişik. Digər ölkələrdə isə güclü povestlər, romanlar var. Düzdür, bizdə bəzi yazıçılar buna çalışdılar, yazdılar, görkəmi və forması da pis deyil, amma bu gün dünya şöhrətli əsərlərlə müqayisəyə gəlməz. Onları Viktor Hüqonun "Səfillər"i, Lev Tolstoyun "Hərb və sülh"ü və ya Sovet inqilabı üçün yazılan povestlərlə müqayisə etmək olmaz, imitasiyadan başqa bir şey deyil. Fərz edin kimsə bir povest və ya roman yazmış olsun deyə bir əhvalat haqda bir neçə cild yazır. Baxanda görürsən ki, köçürülmüş bir rəsmdir, təbii şəkildə ərsəyə gəlməyib. Bu hekayələrin məzmun cəhətindən nə qədər problemli olması da bir yana qalsın. Son 10-15 ildə ürəklərində İslam təfəkkürünə müxalif olan bu adamlar yazıb-yaydılar, amma onların hekayələri yalan və həqiqətdən uzaqdır.

Siz məsələn, "Səfillər" romanını, yaxud digər əsərləri oxuyanda Rusiyanın, Fransanın və ya İngiltərənin ozamankı vəziyyətini öyrənirsiniz. İnsan bəzən tarixdə yazılmayanları bu kitablarda tapır. Bu cənablar isə romanlarında ümumiyyətlə olmayan şeyləri yazır və əsla mövcud olmayan bir kəndi təsvir edirlər.

Mən bu kitabların əksərini oxumuşam. Oxuyandan sonra arxalarında bir neçə kəlmə qeyd yazıram. Bir dəfə bir kitab oxudum, gördüm ki, ümumiyyətlə dünyada mövcud olmayan bir kənddə baş vermiş əhvalatdan söhbət gedir. Bu, bizim öz bölgəmiz haqdadır. Xorasanda biz təxminən həmin bölgələrdə yaşamışıq və o yerləri tanıyırıq. Orada ümumiyyətlə belə bir kənd yoxdur ki, fahişəxanası olsun, məscidi isə olmasın. İranın harasında belə bir kənd var?! Fransalı yazıçı isə Fransanın bir kəndini təsvir edəndə həqiqəti söyləyir. Siz onu oxuyanda məsələn, 19-cu əsrdə Fransa sivilizasiyasının çilçıraqları arxasında kəndlərdə, şəhərlərdə, Parisin müxtəlif məhəllələrində nələrin baş verdiyini anlayırsınız. Bizim uyğun zəifliyimiz ondan irəli gəlir ki, bu sahədə incəsənət ruhu əsla inkişaf etməyib. Nəyisə yazmaq istəyən bir nəfər bu işə lazımi bacarığı olmadığı halda digərlərini yamsılamağa, oradan-buradan nələrsə götürməyə başlayır. Bu, nöqsan deyil?![557]

**5- Cəmiyyətin mədəniyyətində İslam amili**

Hər bir cəmiyyət, hər bir insan və hər bir toplum incəsənəti özünün qəbul etdiyi dəyərlərə həsr etmək istəyir. Bu baxımdan, müsəlmanların incəsənətdən İslam dəyərləri üçün istifadə etməyə çalışmaları cinayət deyil. Dünyanın bütün ideologiya və cəmiyyətlərinin özlərinə görə fərqli dəyərləri var. Onlar incəsənəti, rəssamlığı, şeiri, musiqini - hər bir şeyi bu dəyərlərə xidmətə sərf edirlər. Odur ki, İslam cəmiyyətinin bu gözləntisi yersiz deyil.[558]

Bir müsəlman cəmiyyətində incəsənət İslam meyarlarına uyğun olmalıdır. İncəsənət məsələlərində hər hansı sapqınlıq məqbul deyil.[559]

Sizin (Mədəniyyət nazirliyinin) ümumi vəzifəniz ölkənin mədəniyyətini bütün sahələrdə İslama istiqamətləndirmək, mədəni işlərə İslam forması və məzmunu bəxş etməkdir. Burada İslam dedikdə məqsədimiz uca islami baxışdır. Özümüzü bir küncə sıxışdırmaq və geniş İslam baxışından, imamın sözü ilə desək, əsl İslamımızdan uzaq düşmək istəmirik. Məqsəd çox geniş və zəngin İslam baxışıdır. Deməli, bir məsələ mədəniyyəti İslama doğru istiqamətləndirməkdir.[560]

İnqilab ədəbiyyatı və incəsənəti üçün proqram hazırlamaq lazımdır: inkişaf, təlimat, istiqamətlər, çatışmazlıqları öyrənib aradan qaldırmaq - yəni bu gün bizim incəsənətin hansı sahələrində çatışmazlığımız var, ədəbiyyatımızın harasında nöqsan var, bu nöqsanları necə aradan qaldırmaq, hansı qurumdan kömək almaq olar, hansı idarə üsulları tətbiq olunmalıdır və sair. Bu proqramlarınız ölkədə dəqiq icra olunmasa da, siz öz işinizi görməlisiniz.

Orduların Üçüncü idarələrində həmişə onlarla əməliyyat planı olur. Üçüncü və Beşinci idarələr bu işlərdən ötrüdür. Fərz edin, bu gün ABŞ filan yerdən hücum edə bilər. Bu hücum heç zaman baş vemәsə də, bizim ona qarşı yazılı planlarımız olmalıdır. Bu idarənin filan şöbəyə verdiyi layihəyə dəqiq əməl olunmaması mümkündür, buna imkan olmaya da bilər, amma o öz işini görməlidir ki, icraya hazır olsun, yaxud mümkün həddə icra olunsun. Buna əsasən, ədəbiyyat və incəsənətə dair ümumi siyasətlər üzərində işləmək lazımdır. Bunun kənarında dönəm ehtiyaclarına diqqət yetirmək lazımdır ki, bir hadisə baş versə, ölkə ədəbiyyatı öz mövqeyini bildirsin.

Fərz edin, İmam Xomeyni Salman Rüşdi haqda fətva verdi. Məgər mümkündürmü imam fətva versin, inqilab ədəbiyyatı isə bu fətva qarşısında lal-dinməz qalsın?! Siz sakit dursanız, başqaları danışacaqlar. Necə ki, bu yaxınlarda gördük. Bir qrup adam amerikalılardan pul qoparmaq üçün imza toplamağa və bu kimi işlər görməyə başladılar. Bu, kiçik iş olsa da, bir dönəm məsələsidir, inqilab ədəbiyyatı və incəsənəti buna cavab verməlidir. Siz deyə bilərsiniz ki, cavab vermək onları böyüdür. Əgər məsləhət deyilsə, elə cavab verməyin, onların böyüməsinə səbəb olmayın, lakin bu və digər oxşar məsələlərə laqeyd qala bilməzsiniz.

Misal üçün, ABŞ-ın hərbi gəmisinin bizim təyyarəmizi vurduğu zaman etiraz olundu. Düzdür, bu, siyasi məsələdir, amma inqilabla əlaqədardır. Mən deyirəm ki, bu məsələ nə üçün yaddan çıxmalıdır?![561]

Bir qədər incəsənət istedadı olanların bəzisi biləraəkdən, bəzisi təqlidçilklə, bəziləri də bilmədən bu gün incəsənəti İslam məqsədlərinin əksinə sövq edirlər. Fərz edin, bizdə cinsi məsələyə dair qaydalar və din hökmləri var. Hicab və qanunsuz cinsi əlaqənin haram olması da din hökmlərindəndir. Burada qara çadradan və ya yaşmaqdan söhbət getmir. Bu, zamana və yerə görə ayrı-ayrı formalarda ola bilər. Lakin bu məsələnin - iki cins arasında pərdənin olmasının özü bizim İslam düşüncələrimizdəndir.

İslam qadının uca və qürurlu olmasını, kişinin baxması ilə öyünməməsini istəyir. Qadının bu qədər qüruru və ucalığı olmalıdır. Bəzən isə qadın geyimini, bəzənməsini, danışmasını və yol getməsini elə seçir ki, camaat ona baxsın. Bu hara, o hara?! İndi filmlərə mütləq azğın bir cinsi obraz yerləşdirməyə çalışırlar. Bu nə üçündür? Bu olmaya da bilərdi, indi də olmaya bilər. Bunun qarşısını almaq lazımdır. Siz bu məsələ üzərində çox ciddi düşünməlisiniz.

Filan filmdə aktyor qızın saçının bir qədər bayırda qaldığını, yaxud qaşının altını götürdüyünü deyəndə "siz müqəddəsbazlıq edirsiniz" söyləyirsiniz. Söhbət bundan getmir ki, biri üzünü göstərib, yaxud göstərməyib. Söhbət bundan gedir ki, biz çox əhəmiyyətli olan bir incəsənət növü vasitəsi ilə yavaş-yavaş bu məsələlərin əhəmiyyətini azaldırıq. Təkəbbürlülük hamıya haram və günahdır, qadından başqa. Qadının yad kişi qarşısında təkəbbür etməsi müstəhəbdir. Qadın belə rəftar etməlidir. Bəzən qadın başında qara çadra olmasa da, belə İslam qüruruna malik ola bilər. Bizcə çadra digər geyim növlərindən yaxşıdır. Bu mənim şəxsi fikrimdir; bir başqasının fərqli fikri ola bilər, bunun üstündə dava etmərik. Lakin demək istəyirəm ki, qadının kişi qarşısında qüruru və mətanəti çadra olmadan da mövcud ola bilər. Mən deyirəm ki, biz bunu sıradan çıxarır, qadınlarda Avropanın və Qərbin bizə aşılamaq və qadını bir oyuncaq kimi göstərmək istədiyi inamı gücləndiririk. Bu, Avropanın ikiminillik irsidir. Təbii ki, Avropada hamı çılpaq gəzmir və bütün qadınlar iffətsiz yaşamırlar. Xeyr! Belə deyil. Lakin qadının ümumi məhsula çevrilməsinin və istənilən şəxsin müəyyən formada ondan ləzzət almasının yolverilən olması qədim Romaya xas ikiminillik bir irsdir, o zamandan indiyədək qalmışdır. Bizim bunu onlardan qəbul etməmizə nə lüzum var?! Siz görürsünüz ki, onlar cinsi məsələlərə dair təbliğatlarında indiyədək nə etmişlər və nə etməkdədirlər. Bunlar sizə aydındır. Biz nə üçün onlar kimi olmalıyıq?! Biz nə üçün bu məsələdə təqlidçi insan rolunu ifa etməli və elə yaşaya bilməyəndə xəcalət çəkməliyik?! Əslində onlar xəcalət çəkməlidirlər. Bir dəfə bir məsələyə dair məndən soruşdular ki, siz bu barədə özünüzü necə müdafiə edə bilərsiniz? Mən cavab verdim ki, biz bu məsələdə müdafiə olunmuruq, hücum edirik, müdafiəçi mövqeyində deyil, hücumçu mövqeyindəyik. O mədəniyyət yanlışdır. İndi biz yanlış bir mədəniyyətin incəsənətimizə daxil olmasına icazə verməliyik?! Özü də bu qədər möhtəşəm olan kino sənətinə?!

İncəsənət barədə demək istədiyim başqa bir məsələ budur ki, inqilab cəmiyyətimizdə baş vermiş böyük bir hadisədir. Kimlərsə bəzi məsələlərə dair fikir bildirə, qarşı çıxa, qəbul etməyə bilərlər, amma bu inqilabın özü çox möhtəşəm hadisədir. Bu inqilabın üstün cəhətləri o qədər böyükdür ki, biz 14

ildir onları dərk edə bilməmişik. Bu baxımdan, nə üçün bizim cəmiyyətimizdə bir incəsənət sahəsi bu qədər böyük və aydın məsələdən kənarda qalmalıdır?! İnqilab haqda neçə kitab və roman yazılıb?! Bizim məşhur kinematoqraflarımız inqilab haqda neçə film hazırlayıblar?! Vəziyyəti elə bir həddə çatdırıblar ki, inqilaba sataşmayan bir film görəndə sevinir və Allaha şükür edirik. Bunun qarşısını almaq lazımdır. Mənim fikrimcə, heç bir tarix kitabı Sovet Oktyabr inqilabı haqda yazılan romanlar qədər təsirli ola bilməz. Siz o romanları oxumusunuzsa, mənim nə dediyimi bilirsiniz. Marksistlərin təbliğat məqsədli romanlarından olan "Sakit Don" əsəri roman olsa da, repressiv şah dövründə onu təbliğat kimi bir-birinə ötürürdülər. Məndə Tolstoyun Oktyabr inqilabı haqda yazdığı bir kitab da var. Onlar o qədər yaxşı yazıb və inqilabı təsvir ediblər ki, siz bu kitablarda bu böyük inqilabın üstün cəhətlərini görə bilərsiniz. Təbii ki, bu kitablada onun zəif cəhətlərini də görmək olar; baxmayaraq ki, müəllif onları zəif cəhət kimi yazmayıb. Bəs biz bu sahədə nə yazmışıq?! Nə üçün inqilab haqda bircə kitab yazılıb, o da inqilabdan qabaqkı qısa müddətə dair həqiqətə uyğun olmayan fikirlərdən ibarətdir. İnqilabın içində, Tehranın və digər yerlərin küçə və xiyabanlarında olsaq da, bizim özümüz bu kitabı oxuyanda yalan olduğunu və müəllifin subyektiv görüşlərinə uyğun yazıldığını görürük. Nə üçün inqilabda baş verən hadisələr haqda film hazırlanıb nümayiş etdirilmir?! Mən bir neçə il qabaq bəzi dostlara dedim ki, nə üçün müharibə əlilləri üçün rusiyalı əlil pilot üçün yazılan kitab kimi filmlər hazırlamırsınız?! Mən bu kitabı oxudum, sonra eşitdim ki, onun əsasında film çəkiblər, amma filmini görməmişəm. Bu kitabı özləri çap edib göndəriblər. Bu da təbliğat yönümlü kitablardandır. Onu rusların özləri çap ediblər, inqilabın əvvəllərində bizə çatıb. Kitabın adı real bir insanın əhvalatıdır. Ayağı kəsilən, gözü kor olan, yaxud əlini itirən hər hansı pilot və əsgər bu kitabı oxusa, rahatlıq və razılıq hissi keçirər. Bizdə bu qədər müharibə əlili ola-ola nə üçün belə bir kitabımız yoxdur? Nə üçün belə bir filmimiz yoxdur? Siz incəsənət sahəsində bacardığınız qədər işləməli və fəaliyyətinizi artırmalısınız.[562]

Bu gün İslam Respublikasında hicabsız qadın qəbul oluna bilməz. Buna görə, onlar nəzərdə tutduqları cinsi motivləri filmlərə daxil etməkdən ötrü həmin çadralı qadını elə nümayiş etdirirlər ki, məqsəd təmin olunsun. Hər halda, çadra altındakı qadın da qadındır. Qadını cinsi yönümdən təsvir etmək istəyən çadra altında da edə bilər, o ki qala çadrasız, başörtüyü ilə. Bu adam Avropada və Qərb incəsənətində daim mövcud olmuş qədim ənənəyə uyğun olaraq müqəddəs görkəmdə deyir ki, cinsi motiv filmlərdə dominant olmalıdır. Hətta

bir çox digər sənət əsərlərində də qadını hiyləgərliklə əsərə daxil edirlər. Zahirinə baxanda onun çadrasının, yaxud başörtüyünün olmadığını deyə bilməzsən, amma film üçün lazım olan naz və işvəni müəyyən formada daxil edib onu icazəli şəkildən çıxarırlar. Və bu iş icazəli geyimlə baş tutur. Əgər düşmən bu işi görsə və təsadüfən Mədəniyyət nazirliyi də diqqətsizlik etsə, belə filmlər bazara çıxsa, daha çox müştəri və gəlir qazansa, biz nə etməliyik?!

Düzgündürmü biz deyək: Bizim düşmənimizin yaramaz adamları olduğu üçün həmin hiylələrlə bu filmlərə çoxlu müştəri cəlb edir və gənclər kinoteatrların qarşısında növbəyə düzülürlər, belə olmayan filmlər isə rəğbətlə qarşılanmır?! Sizcə bu, məntiqli sözdür?! Demək olarmı ki, o, çox da göstərməyib, biz də nələrsə göstərək və filmimiz quru olmasın?! Bu düzgündürmü və bu yolla sizin istədiyiniz sərhədi qorumaq olarmı?! Prinsiplərə sadiqlikdə həqiqi bir mübarizə vacib şərtdir, əvvəldən sona qədər sadiq olmaq lazımdır.

İmam Xomeyni həqiqi bir həkim idi. Mən onda, onun fəlsəfi və ya dini əsərlərində bu hikmətin təcəssüm olunduğunu görmüşəm. Həkim insan bizim müəyyən hazırlıqlarla gəlməli olduğumuz son nəticəni əvvəldə çox qısa bir cümlədə bəyan edən və insana ümumi bir qayda öyrədən şəxsdir. O müxtəlif yerlərdə dəfələrlə dedi ki, biz vəzifəmizi yerinə yetirmək üçün işləyirik, hətta nəticə üçün də işləmirik. Görün bu söz nə qədər hikmətamizdir. Biz filmlərimizi qalmaqallı etmək, bu hiylə ilə müştəri qazanmaq və daha çox nəticə əldə etmək istədikdə cinsi məsələlərdən ibarət bir parçanı da hörmətlə oraya salmalıyıq ki, daha çox nəticə ilə tamamlansın?! Vəzifə budur?! Vəzifə bu deyil. Bizim vəzifəmiz budur ki, etiqad bəslədiyimiz və qanımızla imzaladığımız prinsipə sadiq qalaq.

Səkkiz il müharibə olub, zarafat deyil. Biz düşmən qarşısında bu qədər müqavimət göstərmişik. Biz nədən ötrü müqavimət göstəririk? Düşmən bizdən nə istəyir ki, vermirik və bu şəkildə bizə təzyiq göstərir? Bu artıq şübhəsizdir ki, biz Ələst günündə "bəli" sözünün altından imzamızı qoyduq, xalqımız minlərlə "bəli" hədiyyəsi ilə bunu imzaladı.[563]

Mən incəsənət məsələsinə çox əhəmiyyətli yanaşıram. Biz bu cəhətdən geridəyik. Dünya incəsənət vasitələrindən inqilab əleyhinə güclü istifadə edir. Bunu da deyim ki, mən incəsənətdən istifadəni qəbul etsəm və çox lazımlı saysam da, bəzi məsələlərə qarşı sərtliyi qəbul etmirəm. Bu baxımdan, çıxarmaq istədiyiniz hər bir qərarın müdafiəyə layiq elmi və məntiqi bir baxışdan qaynaqlanmasına çalışın.[564]

**6- Mədəniyyət və incəsənət sahələrində mömin qüvvələrdən istifadə**

Mədəni hücuma qarşı doğma mömin qüvvələr müqavimət göstərə bilərlər. Mənim sözüm budur ki, harada olsalar, mömin və doğma qüvvələri uca tutun. Mən ölkənin elmi-mədəni məmurlarına – Təlim və Tərbiyə Nazirliyinin, Mədəniyyət Nazirliyinin, İslam Təbliğatı Komitəsinin və ölkənin digər mədəni müəssisələrinin əməkdaşlarına deyirəm: Doğma qüvvələrə arxalanın. Məqsədim bu deyil ki, kimsə inqilabçı deyilsə, qolundan tutub bayıra atın. Xeyr! Heç kəs belə bir söz demir. İslamın və inqilabın məntiqi də bu deyil. Bu xalq üçün işləmək istəyən hər kəsə imkan yaradın. Biz deyirik ki, doğma qüvvələrin təcrid olunmasına imkan verməyin. Bir ölkəyə düşmən hücum edəndə kim gedib ona qarşı vuruşur? Torpağını və xalqını hamıdan çox sevənlər, dünyaya daha etinasız olanlar, daha çox məsuliyyət hiss edənlər gedib müdafiə edirlər. Siz müharibə zamanı kimlərin vuruşduğunu gördünüz. Bizim əsas cəbhələrimizi Bəsic qüvvələri doldurdu. Bəsic vətənin və ölkənin taleyinə həssas yanaşan inqilabçı, fədakar və mömin qüvvələrdir. Bunlar cəbhələrə gedib öz fədakarlıqları ilə düşməni diz çökürdülər. Mədəni sahədə də belədir. Şah rejiminə bağlı olan və o günlərin xatirəsi ilə yaşayan adam İslam quruluşunu, İslam mədəniyyətini qoruya bilməz və qorumaz. Biz nə üçün aldanmalıyıq?! İslam mədəniyyətini, bu xalqın heysiyyətini və varlığını ürəyi İslamla döyünən, İslamı və ölkəni sevən adam müdafiə edir, düşmənin hücumu qarşısında o, müqavimət göstərir. Dini olmayanlar vətənpərvər də deyillər və ölkəni sevmirlər. Amerikanın istismarını istəyən və buna həvəsləndirən adam vətənpərvər ola bilməz. Amerikalıların seçkilərə müdaxilə etməsinə icazə verməyə, Nikaraquada amerikalıların seçimi ilə hakimiyyətə gələn qadına İrandan və Tehrandan əl çalmağa nə ad vermək olar?! Bu adamlar amerikalılara təslim olan nikaraqualılara buradan afərin dedilər. Bunların ürəkləri Amerikada deyil?! Bu adam zəhərli qələmi ilə milli və dini mədəniyyəti düşməndən müdafiə edər?! Bəllidir ki, etməz. Bəllidir ki, o, düşmənin beşinci kolonundandır, düşmənə çalışır və amerikalıların qayıtmasını arzulayır. Məsul şəxslər kimi siz bunlardan ehtiyatlı olmalısınız. Təbliğat komitəsində, Mədəniyyət Nazirliyində, məktəblərdə, ali təhsil müəssisələrində və ya müxtəlif mədəni mərkəzlərdə çalışan sizlər bu cəhətdən ehtiyatlı olun. Təbii ki, hamı məsuliyyət daşıyır və burada məqsəd yalnız bu qurumların başçıları deyil. Bu xalqın həqiqi, insani, islami, inqilabi, mədəni və milli heysiyyətinin qorunması üçün mübarizəyə, düşmənin hücumu qarşısında müqavimətə və onun zəif nöqtələrinə hücuma ehtiyac var. Bunu doğmalar edə bilərlər. Mənim sözüm

yalnız budur. Mən deyirəm ki, bu ölkənin incəsənətinin inkişaf etməsini istəyirsinizsə, mömin və gənc sənətkarlardan istifadə edin. İslamı, inqilabı və ölkəni onlar müdafiə edə bilərlər. Film hazırlayarkən quruluşun etiqadi təməllərindən birini hədəf seçmək məqsədi ilə oraya hansısa səhnəni yerləşdirmək haqda düşünən rejissor və proddüserə etimad etmək olmaz. Belələri inqilaba kömək etməməklə kifayətlənmir, hətta onu vurmaq üçün film də hazırlayırlar. Filmi hazırlamağa, yaxud hekayəni yazmağa başlayandan məqsədi İslam quruluşunu bacarıqsız göstərməkdir. Məqaləni yazmağa və ya sənət əsərini hazırlamağa başlayandan məqsədi hökumətin bacarıqsızlığını və ölkəni idarə edə bilməməsini göstərməkdir. Belə bir adam bu ölkəyə xidmət edir, yoxsa xəyanət?! Buna etimad etmək olarmı?! Aydın məsələdir ki, olmaz. Sözsüz ki, biz indi xidmət etmədiyini, yaxud xəyanət etdiyini güman etdiyimiz hər kəsi bir-bir qanunla cəzalandırmaq fikrində deyilik.

Mədəni baxımdan bu ölkədə hələ çoxlu işlər görülməlidir. Mənim sözüm budur ki, mömin qüvvələrdən istifadə edin. Mədəni hücum qarşısında sədd çəkən bunlardır.[565]

Mənim şübhəm yoxdur ki, sənətkarlarımız arasında dindar gənclər var. Əgər dövrümüzdə yaxşı film tapılırsa, müsəlman uşaqların müharibəyə dair çəkdikləri və müharibədən aldıqları zərif insani duyğuları əks etdirdikləri filmlərdir.

Bunlar bu dövrün filmləri olduğuna görə yaxşıdır və bizim tarixmizdə qalacaq. Haçansa bizim kino tarixmizi yazanda kinomuzun bir mərhələsi kimi onun adını çəkəcəklər. İnsan görür ki, bunlarda yaradıcılıq, cəsarət var və incəsənət istedadını göstərə bilirlər. Siz bunları tapıb həvəsləndirin, yetişdirin. Mədəniyyət Nazirliyinin mühüm işlərindən biri də budur.[566]

Biz incəsənət baxımından geridəyik. Dünya incəsənətdən inqilabın əleyhinə güclü istifadə edir. Burada isə bir sənət adamına "İnqilaba xidmət və inqilabı müdafiə məqsədi ilə film hazırla" - deyəndə tez cavab verir ki, biz incəsənətdən siyasi məqsədlə istifadə edə bilmərik, sənət sənət üçündür. Sanki düşmən bizə deyir ki, biz bu silahla sizi vururuq, amma siz özünüzü müdafiə etmək üçün bundan istifadə etməyin. Siz sənəti ilə həqiqət və dəyərləri əks etdirən müsəlman sənətkar yetişdirin.[567]

### 7- Mədəni işlərdə gənc və yeniyetmələrə xüsusi diqqət

Mənim fikrimcə, bu gün bizim məktəblərimizdə ən lazımlı məsələ şagirdlərdə İslam etiqadını və İslam əməlini dirçəltməkdir. Əgər İslam əməlinə və etiqadına qarşı laqeyd bir ailədən, yaxud İslam fikirlərinə və əməlinə inamı və diqqəti az olmayan, lakin valideynləri savadsız, düşüncə və psixoloji cəhətdən qüsurlu olduğuna görə uşağa müsbət təsir göstərə bilməyən bir ailədən bir uşaq məktəbə getsə, həmin çatışmazlıqlar orada düzəldilməli, bu uşaq həm elm, həm əməl, həm etiqad baxımından dindar insana çevrilməlidir. Əlbəttə, biz hamımız bilirik ki, İslam adamı yalnız İslam etiqadına malik olan və İslam əməllərini yerinə yetirən deyil, İslam əxlaqı da mühüm bir şərtdir. İslam etiqadlarına malik olan, namaz, oruc və digər belə əməlləri yerinə yetirən, lakin paxıl, xəsis, bədxah, həvəssiz və iradəsiz olan insan müsəlman deyil. Müsəlman hər üç sahədə - həm tərbiyə, həm elm, həm əməl sahələrində işləməlidir. Sözsüz ki, müəyyən mənada bunların hər üçü əməldir. Yəni etiqad da bir növ əməldir. Odur ki, məktəblərdə uşaqlarımızın dini baxımdan – həm etiqadda, həm tərbiyə və əxlaqda, həm də əməli bəndəlikdə müsəlman yetişməsinə çalışmaq lazımdır. Bu bizim əsas işimizdir. Elmsevərlik də İslam tərbiyələrindəndir. Əgər biz İslam əxlaqını təbliğ etmək istəsək, onda bu da var. Elmi dərəcələrin inkişafı məsələsi də sizin əsas işlərinizdəndir. Buna diqqət ayırmaq lazımdır. Elmlərin bölgüsü, prioritetləri təyin etmək və bu gün, bu dövrdə, bu beş ildə, bu on ildə şagirdlərin daha çox hansı elmlərə yönəldilməsi sizin ixtisaslı işlərinizdəndir. Siz bunları daha yaxşı bilirsiniz. Qısası budur ki, uşaqlar İslama uyğun tərbiyə olunmalıdırlar.

Məlumdur ki, siz mədəni hücumun ön xəttindəsiniz. Mən bunu qəbul edirəm. Çünki mədəni hücum yeni nəsli həm dinə, həm inqilabi prinsiplərə, həm də bu gün hegemonizmi, hegemon gücləri təhlükəyə salan və qorxudan fəal təfəkkürə qarşı etiqadsız etmək məqsədi ilə aparılır.[568]

Onlar bir ölkədə - yəni İslam Respublikasında canlanmış bir İslamla ürəkdən düşmənlik edir, onu məhv etmək üçün müxtəlif yollara əl atırlar. Biz inqilabın əvvəlindən indiyədək bu ədavəti görmüşük, indi də iqtisadi, mədəni və siyasi sahələrdə görürük və hər yerdə özümüzü hazırlamalıyıq. Buna qarşı ən mühüm tədbirlərdən biri bu məmləkətin gənc, yeniyetmə və uşaqlarını islamçı yetişdirməkdir. Məncə Təlim və Tərbiyə Nazirliyinin dərs vəsaiti hazırlama, müəllim yetişdirmə, məktəblərə və müəllimlərə nəzarət proqramlarında əsas məsələ bu olmalıdır ki, İslam təfəkkürü ötürülür, yoxsa yox; məktəblərdə uşaqların müsəlman yetişdirilməsi baş verir, yoxsa yox. Biz çatışmazlıqları aradan qaldırmağa çalışmalıyıq. Bizim ölkəmizdə məktəblər, təlim-tərbiyə

qurumları qədim olsa da, əvvəldən düzgün qurulmayıb. Əksərən elmi-mədəni sahələr kimi məktəbləri də düzgün bünövrə üzərində qurmayıblar. Siz indi düzgün bünövrə qurmağa çalışırsınız. Bunun üçün qarşısınıza çoxlu problemlər çıxır. Siz bu problemlərə dözməli və bunu Allah yolunda cihad saymalısınız. Həm siz, həm də bütün qadın və kişi müəllimlər bunun həqiqətən Allah yolunda bir cihad olduğunu bilməli və qarşıya çıxan çətinliklərə dözməlidirlər. Hökumət də öz fəaliyyət və proqramlarında sizin problemlərinizi azaltmağa çalışmalıdır.[569]

İnsanda soruşmaq, araşdırmaq və haqqı axtarmaq hissi olmasa, heç bir hidayət və təkamül baş verməz. İnsan təbii və instinktiv olaraq həqiqəti olduğu kimi bilmək və ona sarı qanad çalmaq istəyir. Bu soruşma və araşdırma hissi haqqı axtarmağın, tapmağın və ona qovuşmağın müqəddiməsi, açarıdır. Bu hiss gəncdə hamıdan aktualdır. Gəncin təlatümlü ruhu, çox kəskin dönüş olan həddi-büluğa çatması və bu dövrə xas xüsusiyyətlər olduqca əhəmiyyətli amillərdir. Bu, gənci yekun qərarlara sövq edir. Gənclik zamanı olmasa da, sonra qərar verir. Bəzən qatar relsi kimi kiçik bir hərəkət böyük bir dönüş yaradır və məsələn, şərqə doğru gedən qatar yolunu dəyişib qərbə sarı hərəkət edir. Gənclik çağında da hadisələr, ictimai, ailəvi və tərbiyəvi amillər yolayıran kimi relsi elə dəyişir ki, yol tamamilə dəyişilir, şərqə doğru gedən qərbə sarı baş alır. Gəncliyin bu mərhələsi çox həssas çağdır. Bu çağ ona görə həssasdır ki, insan həddi-büluğ dövründən uzaqlaşdıqca, gəncliyin sonuna, 24-25 yaşlara yaxınlaşdıqca daha püxtələşir.

Uşaqlıq çağı başqa bir cəhətdən həssasdır. Mən bunu qəbul edirəm ki, bizim dinləyicilərimiz uşaqlar olsalar, çətinliyimiz olmaz. Lakin həddi-büluğ dövründə gəncin taleyini həll edən amil uşaqlıq çağıdır. Siz bəzən dindar bir ailədə və mühitdə böyümüş uşağın o dövrdə dinsiz olduğunu görürsünüzsə, bu, ailədən ibarət tərbiyə amilinin təsirsiz olduğunu və bizim xəbərsiz olduğumuz naməlum bir amilin mövcudluğunu göstərir. Bəzən gecə namazı qılan atanın, iffət və hicabını çox ciddiliklə qoruyan ananın bəzi xüsusiyyətləri onun rəftarına mənfi təsir buraxır. Yəni uşaq belə nəticə alır ki, atanın bu xarakterini qəbul etməməlidir və təbii olaraq qəbul etmir. Yaxud ailələr daxilində xəbərsiz olduğumuz başqa bir amil var. Mən elə ailələr tanıyıram ki, ataları çox yaxşı insanlar idilər, amma uşaqları çox pis adamlar oldular. Mən siyasi çevrədə buna dair bir neçə nümunə ilə rastlaşmışam. Bəzən atalar iş yerlərindən evlərinə gedib bəzi sözlər danışırlar, fikir vermirlər ki, təcrübəli, ağıllı və dünyagörmüş bir atanın danışdığı hadisəyə dair qənaəti xam və ibtidai bir uşağın qənaətindən

tam fərqli olur. Beləlbri bu məsələyə diqqət yetirmədən siyasi və ictimai çevrələrdə baş verənləri evdə danışırlar. Mən təəssübkeş, mübariz, dindar və antikommunist bir ata tanıyırdım, övladları kommunist oldular, bir neçəsi və bəlkə də hamısı müxtəlif hadisələrdə öldürüldülər. Onlar antidin, marksist və materialist fikirlərlə tanış idilər, təəssübkeş dindar olan ataları da dindar çevrədə baş verən hadisələri, uşaqlara uyğun olmayan acı söz və tənqidləri evdə danışırdı. Nəticəsi isə belə oldu. Belə nümunələr çoxdur. Hər halda, demək istəyirəm ki, çox həssas olan uşağın təsirlənməsi aqibətə təsir edir. Ona çox diqqətlə yanaşmaq lazımdır. Siz ailələrdəki boşluğu doldurun. Uşağa şəxsiyyət kimi və psixoloji baxımdan təsir göstərə bilməyən çox nöqsanlı və avam ailələr, şəxsiyyətsiz uşaqlar yetişdirən şəxsiyyətsiz ata-analar var. Siz bu boşluqları doldurmalı və uşaqda dözüm, səbir, hadisələr qarşısında möhkəmlik və güclü dindarlıq yaratmalısınız.[570]

Siz gəncin beynində ictimai, dini və ya elmi məsələlərə dair yaranan ziddiyyətləri aradan qaldırmaq istəyirsinizsə, onun beynində həmişə özünə münasib amilləri cəzb edəcək qüvvə yaratmalısınız. Bu zaman siz onun arxasınca düşmədən öz beyni avtomatik olaraq onları cəzb edəcək. Sizin beyninizdə bir düşüncə olduqda onunla məşğul olsanız da, olmasanız da, get-gedə püxtələşir, oxuduqlarınızdan, eşitdiklərinizdən və gördüklərinizdən özünə uyğun amil və elementləri götürür. Əsas budur ki, beyində mərkəzi nüvənin əsası qoyulsun və bu, uşaq verilişlərinin işidir.[571]

**8- Mömin və inqilabçı nəsil yetişdirməkdə müəllimlərin böyük rolu**

Ölkənin gələcəyi məktəb və müəllimlərdən asılıdır. İslama uyğun təlim və tərbiyə keçmək üçün ən yaxşı və ən hazırlıqlı nəsil sizin ixtiyarınızdadır.[572]

Dünyada bir dönəmdə özünü göstərib çağlamış, sonra isə zəifləyib məhv olmuş, yaxud istiqamətini dəyişmiş bütün bəşəri fəaliyyətlər düşüncə, iradə, aydınlıq və əhval-ruhiyyə çatışmazlığına görə bu aqibətə düçar olmuşlar. Bu xüsusiyyətlər tərbiyə olunmuş bir insanın əsas səciyyələridir. Biz belə insan yetişdirməli və hamıda bu xüsusiyyətləri yaratmalıyıq. Bu, siz müəllimlərin əlindədir, ilk təməli siz qoyursunuz; xüsusən də yeniyetiməlik çağında və gəncliyin əvvəlində.[573]

Siz müəllimlərin səngəri bəllidir. Sizin vəzifəniz olduqca böyükdür. Keçmişdəki fəsad törədən, azğın, zalım və çox çirkin rejimi, inqilabın

hazırlıqlarını, qürbət dövründə döyülməkləri görməyən, müharibənin məşəqqətlərini bütün vücudu ilə dərk etməyən bir nəsil siz müəllimlərin ixtiyarına keçir. Siz bu nəsildən inqilabı qoruyan insanlar yetişdirmək istəyirsiniz. Bu böyük və ağır işdir. Bu böyük işə əhəmiyyətli yanaşın və onun qədrini bilin. Xalq da müəllimlərin və məktəb işçilərinin qədrini bilsin. Məktəblərin rəhbərləri də çantalarında nəyin olduğunu və nə iş gördüklərini anlasınlar. Xalq həm maddi, həm də mənəvi cəhətdən təlim-tərbiyə qurumlarına kömək etsin.[574]

Mən siz əziz müəllimlərə əvvəla deyirəm ki, təlim və tərbiyə məsələsi bizim quruluşumuzda birinci məsələdir. Uzaq gələcək üçün ölkədə heç bir şey bu qədər əhəmiyyətli deyil. Bizim cəmiyyətimizdə müəllim və tərbiyəçinn rolu birinci dərəcəlidir. Qlobal küfr və hegemonizmə, dünyanın siyasi şeytanlarının zülm və quldurluğuna qarşı mübarizə səngəri məktəb, təlim-tərbiyə və elm ocaqlarıdır. Şagirdlər bu xalqın gələcəyi üçün ən əziz və ən zəngin sərvətlərdir. Təlim və tərbiyənin, bu mədəni səngərdə müəllimliyin qədrini bilin. Gənc və yeniyetmələr dərsi, təhsili və özünüislahı uca tutsunlar. Sabahı sizlər quracaq və qlobal hegemonizmi məyus edəcəksiniz. Bizim imamımızın və inqilabımızın dünyanın məzlum və məhrumlarının qəlbində yaratdığı ümid işığını sizlər sönməyə qoymayacaqsınız: bugünkü gənc və yeniyetmə nəsli, siz müəllim və tərbiyəçilər. Əziz imamımız bu məqam üzərində həmişə təkidlə dayanırdı. Mən müəllim və tərbiyəçi olan siz əziz qardaş və bacılara təkidlə tövsiyə edirəm ki, bu işə əhəmiyyətli yanaşın, onu uca tutun, qədrini bilin, çətinliklərinə dözün, cəmiyyətimizdə ən əsaslı və ən köklü işin bundan ibarət olduğunu anlayın. İnşallah ideal və yüksək səviyyəli orta və ali təhsil imkanı yaranacaq. Dövlətin, xalqın və ölkənin əsas xeyri də bundadır.[575]

### 9- Qərbin mədəni hücumuna qarşı mətbuatın və kütləvi informasiya vasitələrinin rolu

Kütləvi informasiya vasitələrinin, xüsusən də mətbuatın bugünkü dünyada rolu heç kəsə sirr deyil. Bundan əlavə, bizim islami-inqilabi quruluşumuzun mühüm inqilabi məsləhətləri olduğuna görə, burada mətubatın xüsusi yeri var. Bu bir neçə ildə bizim məsuliyyətli mətbuatımızın səhifələri həmişə dərdlə tanış olan öhdəçi qələmlərin hegemonizmin, zombiləşmiş və kimliksiz ünsürlərin əks-təbliğatlarına qarşı sayıq mübarizə meydanı olmuşdur.[576]

İslam quruluşunda mətbuatın ən mühüm vəzifəsi inqilabçı xalqın qəbul etdiyi dəyər və amalları tanıtdırmaq və müdafiə etmək, eləcə də xalqın məlumat və sayıqlığını artırmaqdır.

Hal-hazırda, xüsusən də marksizmin tam məğlubiyyətindən sonra Qərb hegemonizmi özünün siyasi-ateist istismarını inqilabçı xalqlara şamil etmək üçün əsasən mədəni üsullardan istifadə edir.

Qərbin mədəni hücumuna qarşı hərtərəfli layiqli mübarizə kütləvi informasiya vasitələrinin proqramlarının başında durmalıdır. Bəzən satqın daxili ünsürlərin qələmi ilə baş tutan bu mədəni hücum qarşısında laqeydlik və səhlənkarlıq böyük ziyanlara səbəb ola bilər.[577]

Hər bir media qurumunun əsas qazancı cəmiyyətin əksəriyyətinin, yəni dindar və inqilaba sadiq təbəqələrin dəyər və inanclarına diqqətdən, quruluşun ucalığını və hörmətini qorumaqdan və sözdə doğruluqdan irəli gələn ümumi etimaddır.[578]

Mətbu orqanlarının yazar və rəhbərləri ictima rəyi düzgün səmtə yönəltməyi və onun səviyyəsini qaldırmağı özlərinə böyük vəzifə bilsinlər, mühüm qlobal və lokal məsələləri gündəmə gətirməklə və beynəlxalq istismarçı sistemin hiylələrini ifşa etməklə cəmiyyəti başa salsınlar, qayğıkeş müəllimlik əmanətini və sədaqətini özlərinə qaçılmaz vəzifə saysınlar, təfriqə və ümidsizlik yaradan mövzulardan çəkinsinlər.[579]

Bizim ölkəmizdə mətbuat azadlığı var. Biz azadlığa əhəmiyyətli yanaşır və onu uca tuturuq. Bu azadlıq olmalıdır. Lakin mətbuatın azadlığı ölkədə düşmən siyasətlərini icra edən mətbu oraqlarının olması demək deyil. Bəzi mətbu orqanları belədir. Başqa bir məsələ bu orqanların çoxluğudur. Jurnal o qədər çoxdur ki, kağız və çap xərclərinə və uyğun çatışmazlıqlara əsasən, onların bir çoxunun həqiqətən zərərli və ya ən azı faydasız olduğunu söyləmək olar. Bizim sanballı qəzetlərimiz, mətbu orqanlarımız kağızsız qalmışlar. Belə bir halda elə jurnal çap edirlər ki, təxminən yüz səhifəlik bir nömrəsinin əksəri ya elandır, ya da faydasız materiallar.[580]

Bu gün bütün dünyada radio və televiziya kanalları onları idarə edənlərin məqsədlərinə xidmət edir. Əgər bir informasiya şəbəkəsini müstəmləkəçi bir qurum idarə edirsə, şübhəsiz, onun yayımladığı materiallar da müstəmləkəçi məqsədə xidmət göstərir. ABŞ-ın böyük şirkətləri və transmilli korporasiyalar

bəzi ölkələrdə qeyri-rəsmi şəkildə hökmranlıq edirlər. Onlar həmin ölkələrin çoxlu media qurumlarını ya idarə edir, ya maliyyələşdirir, ya da bu ölkələrdə özəl informasiya vasitələrinə malik olub məqsədlərini təmin edirlər. Bu məqsədlər isə maddi və qeyri-insani də ola bilər. Onlar pullarının biznes məqsədlərindən başqa bir yerdə xərclənməsinə razı olmayan bir biznesmen və investor kimidirlər. Radio və televiziya da belə böyük kapitaldır. Bu gün dünyanın əksər media şəbəkələri təxminən sionistlərin əlindədir. Əsas xəbər agentlikləri onlarındır. Amerika və Avropada böyük şəbəkələri onlar idarə edirlər. Onlar öz məqsədləri üçün çalışırlar, nəzarətlərində olan proqramlar onların məqsədlərinə dəqiqliklə uyğundur.

Onlar öz məqsədlərini tam təmin etmək üçün informasiya ekspertləri cəlb edirlər. Çünki insan istədiyi işi həmişə görə və nəzərdə tutduğunu həmişə ən gözəl şəkildə həyata keçirə bilmir. Bu, ixtisaslı bir işdir, bundan ötrü mütəxəssislər cəlb edirlər. Bu gün dünya güclərinin ümumi və ortaq məqsədlərindən biri islamçılıq dalğasına qarşı mübarizədir. Siz dünya informasiyalarından xəbərdarsınız, onların öz məqsədlərinə xidmət etməyən bir xəbərin yayılmasına imkan vermədiklərini bilirsiniz. İslam Respublikasında bizim öz məqsədlərimiz, dəyərlərimiz var. Bu quruluşun yaranması, yaşaması və qayda-qanunları müəyyən məqsədlərdən ötrüdür. Biz imkan verməməliyik ki, bu gün dünyada qərib və yalqız olan bu böyük media qurumu (İslam Respublikasının teleradiosu) bu məqsədlərdən hətta azca da yayınsın. Əlbəttə, bu o demək deyil ki, açıq şəkildə bizim əsaslarımızı təbliğ etməsi üçün daim dini çıxışlar verməliyik. Təbliğatın yolu bu deyil. Əslində geniş yayılmış dolayı üsullardan və bu gün böyük inkişaflara nail olmuş incəsənət növlərindən yaxşı istifadə edib inqilabın və İslamın məqsədlərinə tam şəkildə xidmət göstərməliyik.

Radio və televiziyanın idarəsində əsas məsələ bu məqsədlərdir. Biz xalqın dindar olmasını istəyirik. Bir məqsəd budur. Bir məqsəd xalqın quruluşla və onun əsas təməlləri ilə güclü əlaqəsini təmin etməkdir; bir məqsəd xalqın inqilabi ruhunu və həvəsini qorumaq, məyusluğun və başsızlığın qarşısını almaqdır; bir məqsəd iş başında olan, xalqın, parlamentin və rəhbərin qəbul etdiyi hər bir hökumətlə xalqın əlaqəsini yaratmaq, ona etimadını qorumaqdır. Təbii ki, xalqın hökumətə etimadını qorumaq ilk məqsəd deyil, ilk məqsədlərə xidmət göstərən ikinci məqsəddir. Xalqla hökumət arasındakı əlaqənin qırılmasına imkan verdiyimiz halda məmləkəti düzgün şəkildə qurmağımız imkansızdır. Bu etimad qırılsa, hansı amil məmləkəti idarə edə və nəzərdə tutulan məqsədlərə doğru apara bilər?! Bu işi hökumətdən başqa kim görə

bilər?! Bizim düşmənlərimizin gördüyü işlər və bəzən ölkə daxilində onun-bunun dilindən eşidilən fikirlər qeyd etdiyim məqsədlərin tam əksinədir. Onlar ya xalqın hökumətə etimadını sarsıtmaq, hökuməti aciz, naşı və uğursuz göstərmək, ya xalqın inqilabi həvəsini azaltmaq, ya xalqın dini ruhunu zəiflətmək, ya da onun quruluşa sevgisini azaltmaq, onunla quruluş arasında ayrılıq salmaq istəyirlər. Bunlardan çox ehtiyatlı olmalısınız.[581]

Kütləvi informasiya vasitələri dünyanın hər yerində ən həssas mərkəzlərdəndir, yalnız İrana məxsus deyil. Bunun səbəbi də aydındır. Çünki radio və televiziya kimi bir təbliğat və media qurumunun hər şeyi xalqın gözü önündədir. Görülən hər bir yaxşı və pis iş anında müşahidə olunur. Siz radio və televiziyada təsiri görünməyən bir iş tapa bilməzsiniz. Xeyr! Radio və televiziyanın gördüyü hər bir işin təsirləri çox tez müşahidə olunur. Düzgün, uzunmüddətli proqramlar da bacarıqlı kadr hazırlığı kimidir və nəticələri sonradan görünür. Lakin bu, təşkilatın gündəlik idarəsindən xaric məsələdir. Bu təşkilatın gündəlik idarəsi təbiətcə elədir ki, xalq arasında işıqlanması və xalqın ona dair təsəvvürü təxminən dərhal yaranır. Siz bu gün hazırladığınız proqramı maksimum bir həftə, iki həftə və yaxud bir ay sonra icra edəcəksiniz. Proqramının təsirinin belə sürətli və ümumi olduğu bir qurum çox həssas bir yerdir, ondan çoxlu gözləntilər var. Bu media qurumunun arxasında aydın yolu, xətti və məktəbi olan bir quruluş durmasaydı da, onun həssaslığı olduqca çox olardı. Odur ki, bu qurumun xalqın həyatına fövqəladə əhəmiyyəti, həssaslığı və həlledici təsiri var. Buna əsasən, bu qurumda yaxşı və ya pis iş, xidmət və ya Allah eləməmiş, xəyanət digər yerlərdən fərqli olaraq, tez və kütləvi təsir buraxır, onun səviyyəsi çox geniş və hissolunandır.[582]

Dünyada günbəgün mürəkkəbləşən texnologiya, üslub və yeniliklərə malik media qurumları var. Bizim görüşlərimizin tam ziddinə olan, proqramlarında dinləyicilərini İslamdan uzaqlaşdırmağa çalışan media qurumları az deyil. Bu sizin üçün inanılasıdır, yoxsa yox?

Biz haçansa fikirləşə bilərdik ki, Avropa dövlətlərinin, ABŞ-ın, yaxud ərəb ölkələrinin bizimlə nə işləri var, onların bir siyasətləri var və dinləyicilərinin başını qatmaq istəyirlər. Lakin bu gün belə düşünə bilmərik. Siz bu gün dünyada nə baş verdiyini, onların İslamın təsirindən, müsəlman yetişməsindən və fundamentalist adlandırdıqları amildən necə qorxduqlarını görürsünüz. Bu qorxuya görə plan qurmamaları mümkündürmü?! Belə bir şey fərz etmək olarmı?! Əsla mümkün deyil.

Bu gün şübhəsiz, Avropadan, Asiyadan, Uzaq Şərqdən olan tamaşaçılar, İslam cəmiyyətləri, İslam cəmiyyətləri ilə münasibətdə olanlar, məsələn, 120 milyonluq İndoneziya və 700 milyonluq Hindistan xalqları üçün televiziya proqramları hazırlanır. Onlar da düşünüb proqram hazırlayırlar. Malayziya, Pakistan və digər belə ölkələrin televiziya və radio proqramlarında mütləq nəzərə alınan məsələlərdən biri budur ki, onlar üçün böyük təhlükə sayılan İslama sarı tamayülün yaranmaması, gecikməsi, yaxud onun əksinin yaranması üçün nə deyək, nə hazırlayaq və nə nümayiş etdirək.

Buna əsasən, siz dünya boyda bir cəbhə qarşısındasınız. Şübhəsiz, həmin məsələ eynilə Misir və Əlcəzair televiziyalarına, İbn Əlinin, Şah Həsənin və digərlərinin televiziya kanallarına da aiddir. Onların hamısı televiziya proqramlarında mənim indi dediyim istiqamətin 180 dərəcə əksinə gedirlər. Dünyada bu sahədə böyük işlər görülür. Ziyalı, ədəbiyyatçı və sənətkar olan sizlər bu məsələlərlə tanışsınız, mən də az-çox tanışam. Ədəbiyyat, incəsənət, film, elmi və yarımelmi sözlər dünyasında onlar xalqı həqiqətdən uzaq saxlamaq üçün bizə aid olmayan on başqa amili də məqsədlərindən edə bilərlər, lakin bu amil də var və biz üzə düşməməliyik. Şübhəsiz ki, bizim ölkəmiz daxilində də bu təməlçi təmayülə zidd maraqları olanlar var. Siz onlardan çəkinməməlisiniz. Ədəbiyyat və incəsənət proqramı, uşaqlar üçün veriliş, yaxud film və serial hazırlayarkən heç vaxt fikirləşməyək ki, bunu nümayiş etdirsək, filan həftəlik jurnalın oxucusu olan bir qrup ziyalının xoşuna gəlməyəcək. Siz ümumiyyətlə onların xoşları gəlməyən işləri görməyə çalışın və onları nəzərə almayın.

Mən bugünkü fərqli istək və məqsədlərə etinasız yanaşan qapalı adam deyiləm. İslam bütün sözləri dinləyəcək qədər dözümlüdür. Lakin burada söhbət bundan getmir. Burada iki şəxs qarşı-qarşıya dayanmır. Burada söhbət təxribatlar məcmusu qarşısında qalan bir quruluşun nöqsanlı informasiya vasitəsindən gedir. Digərlərinin milyonları qarşısında mən gəlib bir qranımdan pis istifadə edim ki, birdən başqalarının acığı gələr, ya xoşları gəlməz?! Bu əsla məntiqli deyil.[583]

Bu gün dünyaya hakim siyasət çox təhlükəli bir məqsədə sarı irəliləməkdədir. Bu yalnız bizə qarşı deyil, amma bizə qarşı təzyiqlərin səbəbi bizim bu prosesdə müstəsna təsirimizə və rolumuza görədir. Siyasət, güc və kapital dünyasının bugünkü hərəkətinin hədəfi isə yalnız biz deyilik, bütün dünya və bütün Yer kürəsidir. Bir qrup supergüc dünyanı ələ keçirməyə çalışır. Onların başında ABŞ və onun ətrafındakı güclər durur. Keçmişdə iki güc

arasında bölünmüşdü, bu gün isə daha belə bölgü yoxdur. Şərq və Qərb əl-ələ verib öz meyarlarına uyğun bir dünya qurmaq istəyirlər. Bu dünyanın xüsusiyyəti belədir ki, onun əhalisi yemək-içməklə qane olub yuxarıdakıların istədikləri işi görmələrinə icazə versinlər; yəni dəyişiklikdən uzaq və onların dediyi kimi stabil dünya. Stabil quruluş dedikdə onların məqsədi budur ki, hakimiyyətdə olanlar kiminsə dəyişiklik yaratmaq istəməsindən nigaran olmasınlar. Məqsəd budur və bu məqsəd Buşa, Reyqana aid deyil, bütün oliqarxiyanın məqsədidir. Daha dərindən və bədbin yanaşsaq, deyə bilərik ki, dünyanın sionist şəbəkəsinə aiddir. Lakin isbatı çox da mümkün olmadığından indi bu haqda danışmaq istəmirəm. Ümumi olaraq dünyada oliqarxiya sisteminin məqsədi təbiət aləminə hakim olmaqdır. Dünya bəzi təbəqələrə bölünəcək: bir təbəqə birinci dərəcəli imkanlılar, böyük səhmdarlar, oliqarxlar, birinci siyasətçilər və hərbçilərdir, bir təbəqə də ikinci dərəcəli xalq və birinci təbəqənin mənsub olduğu ölkələrin əhalisi. Çünki hər halda ABŞ və Avropa xalqları nasionalizmi rədd etmirlər, qəbul edirlər. Yəni həqiqətən düşünürlər ki, əvvəlcə onların xalqları yaşamalıdır. Üçüncü təbəqə isə dünyanın digər xalqlarıdır. İkinci və üçüncü təbəqələrin ortaq cəhəti birinci təbəqənin maraqlarının təhdid olunmamasıdır. Onların son məqsədləri budur. Bütün əxlaqi və mədəni təlimlər, bu gün dünyada cərəyan edən siyasət və təbliğat bu məqsəddən və bu istəyin həyata keçməsindən ötrüdür. İndi isə bir inqilab qələbə çalmışdırsa, bu örnəklərin özünə müxalif sayılır.

Bu gün İslam Respublikasına qarşı beynəlxalq təzyiqlərdə bir söz çox təkrarlanır. Onlar deyirlər ki, İran beynəlxalq standartları qəbul etməlidir. Tək söz budur və təsadüfən bizim davamız da bu standartlara görədir. Biz bu standartları – insana, qadın məsələsinə, xalqlara, pul, kapital və kapitalizmə dair bu rəftarları əsla qəbul edə bilmərik. Biz bu örnəkləri necə qəbul edə bilərik?! Bu gün dünyanın insan hüquqları və digər bu kimi haqlı mövzulardan istifadə etməsi sizin kimi ayıq və məlumatlı insanlar üçün gülünc görünür. İnqilab bu pis, xəbis və çox təhlükəli məqsədə qarşı çıxan yeganə maneədir. Biz yalnız bir sıra ictimai şərtlərə malik bir rejimi başqa birisi ilə əvəzləməmişik, bizim mədəniyyətimiz və baxışımız onların istədiklərindən tam fərqlidir. Bizim dünya ilə ortaq cəhətlərimiz çoxdur, bütün məktəb və insanlar məhz bizim dediklərimizi qəbul edirlər. Biz həmin hakim güclərə sərt müxalifik, hər şeydə onlarla ziddiyyətimiz var. Bu baxımdan, siz bu böyük işi çox əhəmiyyətli saymalısınız.

Bu düzgün deyil ki, bir nəsil inqilab etmiş olsun, başqa bir nəsil isə onların nə etdiyini əsla bilməsin. Onlarda inqilabi təfəkkür, baxış, hərəkət,

vəzifə və ruh yaranmalı, inkişaf etməli, inqilabın tarixi və məqsədləri onlara ötürülməli, radio və televiziya proqramlarında inqilabla bağlı məsələlər nəzərə alınmalıdır.[584]

**10- İslam mədəniyyətinin təbliğində və mədəni hücuma qarşı mübairizədə radio və televiziyanın rolu**

Radio və televiziyanı inqilabçı İslamın prinsiplərini tədris edən bir universitet bilin. Bizim baxışımız belədir.

İmam radio və televiziyanı universitet adlandırdı. Universitetdə nə isə tədris olunur. Bəs burada nəyin tədris olunmasını istəyirsiniz? Məncə bu universitetdə həqiqi və inqilabçı İslamın mesaj, əsas, təlim və dərsləri tədris olunmalıdır. Biz radio və televiziya ilə buna nail olmaq istəyirik.[585]

Radio və televiziya həqiqətən inqilab və İslam təfəkkürünün xidmətində durmalı, bu təfəkkürü bütün şaxələri ilə birgə öz cəmiyyətimizin, həmçinin təbliğat dairəsində olan digər insanların beyninə, düşüncəsinə, ruhuna və əməlinə daxil etməli və bir inkişaf vasitəsinə çevrilməlidir. Çətin olsa da, radio və televiziyanın hər bir proqramından istifadə olunmalı, məzmunlar öyrədici olmalıdır. Məqsədim bir nəfərin sadə şəkildə dərs öyrətməsi deyil, dərin mənada öyrədici olmalı, dinləyici və tamaşaçının ruhunu və düşüncəsini tərbiyə etməli, keyfiyyətləndirməli, həyatına və fəlaliyyətinə istiqamət verməlidir. Bu yalnız o zaman mümkün olar ki, bu məsuliyyətin əhəmiyyətinə və böyüklüyünə uyğun olaraq formalar da lazımi keyfiyyətə malik olsun. Hər halda, radio və televiziya buna nail olmalıdır və bundan nə qədər aşağı olsa, azdır. Beləliklə, nəticə çıxarmaq olar ki, radio və televiziya hər gün öncəkindən yaxşı olmalıdır. "İki günü eyni olan şəxs ziyan etmişdir" hədisi radio və televiziyaya da aiddir. Əgər radio və televiziyanın bu günü dünəni kimi olsa, deməli, biz kamilliyə doğru hərəkət etmir və məsuliyyətdən uzaqlaşırıq.[586]

İslam Respublikasının çox əhəmiyyətli qurumu olan radio və televiziyasını böyük imamımız bütün ölkə və xalqdan da geniş əhatəyə malik bir universitet bilirdi. Mədəni, siyasi və düşüncə yardımı, İslamın təbliği və düşmənlərin media təxribatlarına qarşı mübarizə vəzifəsi bu qurumun üzərinə düşür. Onda mesaj, incəsənət, hər bir yanlış təlimdən uzaq münasib dil və mövzu seçimi dörd qayda kimi müdirlərin, işçilərin, prodüsser və aparıcıların daim diqqət mərkəzində olmalıdır. Mövzuların rəngarəng olması ilə yanaşı, bir əsas şərt də bütün proqramların İslamın və inqilabın məqsədlərinə xidmət

etməsidir. Radio və televiziya İran xalqının və İslam Respublikası quruluşunun düşüncə və əməl müstəqilliyini, "nə şərqçi, nə qərbçi" prinsipini yerli mədəniyyətlə, zəngin düşüncə və incəsənətlə təbliğ etməli, gücləndirməli və əcnəbi mədəniyyət, incəsənət və düşüncələr qarşısında hücumçu mövqeyi seçməlidir. Radio və televiziya ən yaxşı usullar və ən səlis dillərlə dərin İslam məfhumlarının və parlaq Quran həqiqətlərinin üzərindən qürbət tozunu silməli, dünyanın müsəlman xalqlarının İslam Respublikasından gözlədiklərini onlara ərməğan etməlidir.[587]

Radio və televiziya sağlam incəsənətdən istifadə etməklə ümumi təlim, mədəni və siyasi hidayət, İslamın əsaslarını izah etmək və düşmənin media təxribatlarına qarşı mübarizə məsuliyyətini daşıyır.[588]

Radio və televiziya düşmənin inqilaba qarşı təbliğatı qarşısında sinəsini sipər etməlidir. İndi dünyada ənənəvi təbliğat yolu ilə təxribat aparan çoxlu media qurumları var. Bu iş həm də çox mümkündür. Əgər bir quruluş həqiqətən öz ayağı üstə möhkəm dayanmasa, bir xarici radio ilə asanlıqla onu səhnədən çıxarıb məhv etmək olar. İndi böyük güclər müxtəlif inqilablara və ən çox bizim özümüzə qarşı bu işi görməkdədirlər. Lakin onlar bizim barəmizdə yanlış düşünürlər, çünki bizim quruluşumuzun əsası möhkəm, xalqın çiynində və qəlbindədir. Siz isə media qurumlarının bu düşmən hərəkəti qarşısında həqiqətən sinənizi sipər edin və media qurumları hansı nöqtə üzərində dayanırlarsa, siz öncədən padzəhərini vermiş olmasanız, sonradan verin. Bizim informasiya vasitələrimiz onların yalançı təbliğatı qarşısında çox güclü müqavimət göstərməlidirlər.[589]

Bu gün bizim quruluşumuz mütərəqqi məktəb və inqilabla və dünya üzrə çox yüksək siyasi idarəçiliklə idarə olunur. Bu quruluşun daxildəki və xaricdəki dinləyicilərinə deməli sözü var. Bu söz media qurumlarından deyilməlidir, başqa bir yerdən deyil.[590]

Bu mühüm informasiya şəbəkəsi üçün ideal olan budur ki, ən yüksək və ən gözəl inqilab təlimlərinin sənətkar formada təqdim olunduğu və sevildiyi bir universitet olsun. Cəlbediciliyi və təsiri haqda düşünülmədən nə isə deyilməsin. İncəsənət hərəkətə səbəb olmalı və müxtəlif təbəqələrin vəzifəsini bəlli etməlidir. Yəni müsəlman və inqilabçı qadın, müsəlman və inqilabçı gənc, kəndli və şəhərli, savadlı və savadsız, mütəxəssis və adi gənclərin hər biri radio

və televiziya önündə oturduqda sizin proqramlarınızdan öz vəzifələrini, nə etməli olduqlarını anlasınlar və yolları aydınlaşsın. Əsla faydasız, təsirsiz, məzmunsuz və mesajsız film yayımlamayın. Yalnız zamanı dolduran faydasız və məmzunsuz proqram yayımlamayın. Təəssüf ki, bəzi proqramlar belədir.[591]

Bizim radio və televiziyamız var gücü və sənət bacarığı ilə quruluşun əsas görüşlərini təqdim etməli, bütün mövzularda, yayımlanan, dinləyici və tamaşaçılara çatdırılan hər bir proqramda buna əməl olunmalıdır. Görün quruluşun əsas görüşləri hansılardır; onları tapın və işıqlandırın.

Həqiqətən İslam maarifi və İslam təlimləri yayımlansın, işıqlandırılsın. Bundan əlavə, radio və televiziya xalqın dindar olmasına çalışsın. Teleradio əməkdaşlarının mühüm vəzifələrindən biri dindar insan yetişdirməkdir. Yəni elə etsinlər ki, dinləyici onların söhbətləri ilə həqiqətən güclü dindar olsun. Əsas istiqamətlərdən başqa birisi hegemonizmin istismarına qarşı çıxmaqdır. Bu gün bəlkə də qabaqkı kimi Şərq və Qərb bölgülərinin mənası yoxdur. Lakin mövcud istismarçılara və İslam Respublikası quruluşunun düşmənlərinə qarşı çıxmaq radio və televiziyanın bütün proqramlarında hiss olunmalıdır. İslam dininin xüsusiyyətlərindən olan insana hörmət, onu uca tutmaq, insanın hidayəti, onu öz layiqli yerində işlətmək və potensialını uca məqsəd üçün hərəkətə gətirmək əsas istiqamətlərdəndir. Saymaq istəsək, bunlar çoxdur. Siyasi məsələlərdə hökuməti müdafiə etmək əsas istiqamətlərdəndir. Bu, xəbərlərdə, iqtisadi və siyasi proqramlarda hiss olunmalıdır. İmam səmərəli həyatı boyu hər bir hökuməti israrla müdafiə edirdi. Siz bilirsiniz ki, bu hökumətlərin bəzisi vəzifədən kənarlaşanda imam və ümmət onlardan çox narazı idi. Amma nə qədər ki, hakimiyyətdə idilər, imam onları müdafiə edirdi. Biz inqilabın əvvəllərində imamın bəzi prezident və baş nazirləri dəstəklədiklərini xatırlayırıq. Nə üçün? Çünki hökumət başçısı və məmur idilər. Xalqa və dövlətə məxsus olan, bu xalqın pulu ilə idarə olunan radio və televiziya xalqın ən böyük məsləhətini görməzdən gələ və qurban verə bilməz.[592]

Müsəlman xalqın yetişməsindən ötrü bizim televiziyada daim Quran oxumağımız, təfsir dərsi deməyimiz, yaxud şəriət hökmlərini izah etməyimiz lazım deyil. İslamın müsəlmana baxışına əsasən, bunun bəzi yolları var. Müsəlman yalnız İslamın hökmlərini bilən deyil, bunun çoxlu şərtləri var. İnsanın elmi, baxışı, aydınlığı, daxili qüvvəsi, psixologiyası, fiziki qüvvəsi, geniş məlumatları, həyatda üstünlük hissi onun müsəlman kimi formalaşmasında təsirlidir. Siz bunun üçün bir neçə yolu nəzərə alın və bu

məqsədə çatmaq üçün onları qət edin. Əsas odur ki, bu məqsəd unudulmasın və ondan yayınma baş verməsin. Əsas məsələ budur.[593]

Ədəbiyyatda dəyər məsələlərinə riayət edin. Çünki bizim radiolarımız, informasiya vasitələrimiz, danışmağımız və hər kəsin hər bir işi bu quruluşu kamilləşdirməkdən, bacardıqca yaxşı, daha islami, daha insani və uca məqsədlərə daha yaxın etməkdən ötrüdür. Bundan başqa bir məqsəd yoxdur. Bir xalq böyük bir hərəkət, böyük bir inqilab etmiş, belə möhtəşəm bir respublika yaratmışdırsa və bütün hücumlar qarşısında onu bu şəkildə müdafiə edirsə, deməli, bəzi məqsədləri var və o bu məqsədləri var gücü ilə təqib etməlidir. Bu məqsədləri haradasa məhv etməyə çalışa bilərlər, biz onları dirçəltməliyik. Ədəbiyyat və incəsənət elə sahələrdəndir ki, siz burada çox yaxşı işləyə bilərsiniz. Siz quruluşun dəyərlərini nəzərə almalı və bu dəyərlərlə toqquşan amilləri mütləq çıxarmalısınız. Xoşbəxtlikdən, bizim qədim ədəbiyyatımız bütünlüklə ilahi və islami dəyərlər istiqamətində olmuşdur.[594]

Baxın, görün İslam və inqilab dəyərləri hansılardır və bu dəyərləri əldə edin. Hətta zarafat, gülüş və əyləncə də bu istiqamətdə olmalıdır.[595]

Keçmişdə qadın barədə iki əsaslı eyib mövcud olmuşdur. Biri budur ki, hicabın dəyəri ortadan götürülmüşdü. Bundan böyüyü isə o idi ki, radio və televiziyada qadına alçaldıcı rollar verilirdi. Birinci eyibdə bir dəyər – yəni hicab sual altına salınıb tapdanırdı, ikinci eyibdə isə qadın üçün nəzərdə tutulan bütün bəşəri dəyərlər. Bir hekayə danışanda da aşiqanə hekayə olurdu və orada qadın sionizmin və hegemonizmin xoşladığı rolu ifa edirdi, çox zaman yaxşı bir ana, həyat yoldaşı və bacarıqlı bir insan simasında göstərilmirdi. Nadir hallarda belə də olurdu, amma əksərən belə təsvir olunmurdu. Bu iki eyib aradan qaldırılmalıdır.

Biz qadını həm hicablı, həm də İslamın və inqilabın nəzərdə tutduğu dəyərlərə malik göstərməliyik. Ən mühüm məsələ qadının nəcibliyi və iffətidir. Qadının ailənin və cəmiyyətin əsas üzvü və mühüm amili olması, cəmiyyətin, kişilərin inkişafında, keçmişdə baş verən hadisələrdə, o cümlədən inqilabda və müharibədə təsiri bütün veriliş, film, serial, şeir və musiqilərdə öz əksini tapmalıdır.[596]

Müharibə dövründə radio və televiziyaya hakim olan olduqca müsbət bir amil kimi, cihad ruhunun sönməsinə qoymayın. Bu cihad ruhu mənfi deyil,

müsbətdir. Əlbəttə, demirəm ki, müharibə marşı çalın; çünki müharibə yoxdur. Bu baxımdan, müharibə marşı və reportajı vermək olmaz. Amma səkkizillik müharibə də yalnız səkkiz il demək deyil. Bir xalqın səkkiz il müharibə aparması və qəhrəmanlığı bir tarixdir. Siz Fransa ədəbiyyatına baxanda onun bir hissəsinin müharibə dövrünün qəhrəmanlıqlarına aid olduğunu görürsünüz. Fransa xalqı dörd il müharibə edib. Onlar bu müddətin ağır və məğlub durumda olduğu iki və ya üç ilində müxtəlif qəhrəmanlıqlar göstəriblər; həm müharibədə, həm Paris daxilindəki sosial mübarizələrdə, həm də insani münasibətlərdə. Fransa ədəbiyyatında bunlar tez-tez təkrarlanır. Mən fransız dili və şeiri ilə tanış deyiləm, lakin tərcümə olunan bəzi romanları oxumuşam. Ən yaxşı romanlarda və ən dəyərli əsərlərdə o günlərin əlaməti görünür. Bunlar bitəsi şeylər deyil. Siz görün Rusiyanın inqilab dövrü haqda nə qədər kitab yazılıb, digərləri üçün qalmış nə qədər fəxrləri var. Bunlar qalmalıdır.[597]

İnqilabdan sonra inqilabi dəyərlər istiqamətində çox yaxşı mahnı və nəğmələr bəstələndi. Lakin son illərdə belə mahnıların inkişafı azalmışdır. Bu da heyfdir. Yaxşı musiqi və şeirlər ərsəyə gəlməli, onların hamısı inqilabi dəyərlərə xidmət etməli, radio və televiziyada daim işıqlandırılmalıdır. Belə olmasın ki, yayımlanan yaxşı bir musiqi hansısa məşhur müğənninin oxuduğu aşiqanə bir mahnı olsun, inqilabi əsərlərin isə mütləq harasındasa bir eyib və nöqsan görünsün. Xeyr! Dini və inqilabi mahnılar üçün ən yaxşı musiqiçi və müğənnilərdən istifadə olunmalıdır.[598]

İslam Respublikasında düzgün və faydalı mədəni, iqtisadi işlərlə və müxtəlif xidmət növləri ilə məşğul olan hər kəs Allah üçün işlədiyini, savab qazandığını, ömrünü faydasız keçirmədiyini bilsin. Sizin bir gün işləməyiniz xalqa bir gün fayda yetirmək və cəmiyyətin təkamül prosesinə bir gün yardım etmək deməkdir. Bunu İslam mədəniyyəti deyir. Təəssüf ki, bizim radio və televiziyamızın bəzi proqramlarında bir nəfərin otuz il işləyəndən sonra zəhmətinin hədər getdiyini, ömrünün tələf olduğunu düşündüyü əks etdirilir. Bu, İslam və Quran mədəniyyətinə uyğun deyil. Otuz il çalışmaq o deməkdir ki, siz bu cəmiyyəti otuz il inkişaf etdirdiniz və otuz il Allah yanında ehtiyat topladınız. Əgər güzgün işləmiş olsanız, özünüzü də otuz il inkişaf etdirimisiniz. İslam və Quran mədəniyyəti budur. Bizim incəsənətimizdə, film, teatr, kino və radiolarımızda bu təlimlər əks olunmalıdır. Mən bilmirəm ki, bizim dövlət teleradiomuz nə zaman dərin İslam təfəkkürü ilə tanış olmaq istəyir. Nə üçün yanlış yazır, yanlış nümayiş etdirir və danışırlar. İslam məntiqi

belə deyil. İslam deyir ki, yaxşı niyyət və vicdanla işləyən siz fəhlənin, məsuliyyət hissi ilə dərs deyən siz müəllimin, cəmiyyəti inkişaf etdirmək və problemləri aradan qaldırmaq üçün çalışan siz idarə işçisinin bir saat işi savab və Allah yanında ehtiyatdır. Sizin bir saat işiniz bu xalqı bir saat irəliyə aparır. Belə olduqda insan heç zaman işindən yorulmaz.

Ölkənin müəllimləri, zavod və tarlaların fəhlələri, sənətkarlar, tədqiqatçılar, icraçı qurumların əməkdaşları, ölkənin təhlükəsizliyini qoruyanlar və bu İslam ölkəsinin hər hansı nöqtəsində hər hansı işlə məşğul olan hər bir kəs ibadət halında olduğunu bilsin. Mühüm məqam budur ki, səfərdə olan bir yolçu bir mərhələni keçəndən sonra daha işinin bitdiyini düşünsə, yolda qalar. İslam cəmiyyəti də bir məqsədə doğru hərəkət etməkdədir. Bu məqsədin yolu mərhələ-mərhələdir. Bu cəmiyyət daxili amillərlə və hegemonizmlə mübarizədən ibarət olan iki mərhələni yaxşı və salamatlıqla arxada qoymuşdur.[599]

Məqsəd budur ki, biz radio və televiziyanı çox yüksək səviyyəyə çatdıraq, bütün proqramlar ən yaxşı keyfiyyətlə dinləyici və tamaşaçılarda əsl İslam düşüncəsini gücləndirmək istiqamətində olsun və onları təkamülə çatdırsın. Yəni radio və televiziya proqramlarının başlandığı saatdan gecəyə qədər hər bir veriliş bu xüsusiyyətlərə malik olmalıdır. Hətta verilişlərin loqosu, filmlərin və müxtəlif proqramların musiqisi, görünən aparıcı və qonaqların siması və səsi eşidilən aparıcıların danışıq tərzi bu çərçivələrdən xaric olmamalıdır. Bu iş böyük əhəmiyyətə malikdir.[600]

Ümumiyyətlə, radio və televiziya İslama və inqilaba uyğun insan yetişdirməkdən ötrüdür. Bu məqsədin içində başqa məqsədlər də olsa da, bundan üstün və böyük məqsəd yoxdur. Biz öz dinləyicilərimizə təsir göstərmək istəyirik. Siz dünyada yalnız vaxtı doldurmaqdan ötrü bir söz deyən radio və ya televiziya tapa bilməzsiniz. Düzdür, biznes kanalları ola bilər. Dünyada yalnız vaxt doldurmaqdan, müştəri və pul qazanmaqdan ötrü filmlər göstərən biznez kanalları var. Lakin dövlət teleradiosu prinsipcə öz proqramlarında müəyyən məqsədləri izləyir. Hətta vaxt tələf etmək üçün proqram nümayiş etdirəndə də bunda bir məqsəd olur.

İslam Respublikasında radio və televiziyanın məqsədsiz olması mümkün deyil. Bu respublikanın radio və televiziyasında məqsəd insanlarda təsir buraxmaq, onları İslamın və dini-inqilabi baxışın istədiyi bir ideala sövq etməkdir. Məgər bu qədər böyük, bu qədər təsir gücünə malik olan bir radio və

televiziyanın bu məqsəddən kənarda qalması mümkündür?! Mütləq bu məqsədi olmalıdır. Ümumiyyətlə, bu məqsədi təmin edən ən mühüm və ən təsirli media qurumu radio və televiziyadır.[601]

İslam inqilabının qələbəsinə qədər 2-3 nəsil Pəhləvi sülaləsinin uğursuz sayəsi altında yaşadığına görə bir qrup bu mədəniyyətlə dünyaya gəldi, onun pisliyini anlamadı və əsl İslam cəmiyyətində olan sağlamlığı və paklığı əldə etmədi. Bizim media qurumlarımız da Qərb mədəniyyətinin eyiblərini onlara başa sala bilmədilər. Belə olan halda İslam mədəniyyətinin bütün sahələrdə, xüsusən də qadın-kişi münasibətləri və qadının cəmiyyətdəki rolu haqda üstün cəhətlərini çatdırmaq vəzifəsi aydın görünür.

Radio və televiziyanın üzərinə böyük məsuliyyət düşür. Radio və televiziya bir əyləncə mərkəzi deyil, öyrədici bir qurumdur. Bu gün bütün dünya radio və televiziyadan öyrətmək üçün istifadə edir. Elm və siyasətlə bu qurumdan istifadə edənlər sionistlərdir. Onlar ildə milyardlarla dollar xərcləyib radio və televiziya kanalları açır və insanları təlimatlandırırlar. Lakin onlar nə öyrədirlər? Özləri istədiklərini. Onlar mürtəce ölkələrin ictimai şəraitinə uyğun olan, başında azğın və asılı hakimlərin durduğu fəsadı öyrədirlər. Radio və televiziya xalqa nə öyrədir? Laqeydliyi, ehtirası, əyyaşlığı, şərabxorluğu. Xalqa bunları öyrətməsələr və xalq öz yerli, islami və hər hansı bir dini mədəniyyəti ilə inkişaf etsə, supergüclər, müstəmləkəçilər və avtoritar hakimlər asanlıqla onlara hökmranlıq edə bilməzlər. Siz əcnəbi radioların hansını dinləsəniz, fəsadla dolu olduğunu görərsiniz. Onların xalqa verdiyi qafillik, biganəlik, həyata və cəmiyyətə qarşı laqeydlikdir. Bunların kənarında hansısa elmi məsələlərə dair iki kəlmə söz öyrətmələri də mümkündür, amma əsas məsələ budur. Xaricdən idarə olunan və məqsədləri İslam ölkələri, xüsusən də bizim ölkəmiz olan radio və televiziya kanalları da öyrətməkdədirlər. Bu media qurumları öyrətmək, izah etmək və insanları istədikləri səmtə sövq etmək üçün vasitədirlər.

İslam Respublikasında radio və televiziya xalqı İslam mədəniyyətinə sövq etməyə, xalqın islami və insani gözəlliklərlə tanış olmasına bir vasitə olmalıdır. Bundan ayrı cür olmağa haqqı yoxdur. Bunun əksinə və bundan fərqli olanlar yayımlanmamalıdır. Sənətkarlar, yazıçılar, natiqlər, aparıcılar, rejissorlar, aktyorlar - hamı əl-ələ verib bu dəyərli və parlaq İslam təlimlərini incəsənət proqramları ilə xalqa öyrətməlidirlər. Biz radio və televiziyanın öyrətməli olduğunu deyəndə tez çıxış etmək yada düşməsin. Öyrətmək yalnız çıxış etmək deyil, dəyirmi masa deyil, dərs keçmək deyil. Radio və

televiziyanın incəsənət proqramları, film, teatr və müxtəlif sənət növləri İslam təlimlərini başa salmaq və cəmiyyətə İslam dəyərlərini aydınlatmaq üçün vasitə olmalıdır. Belə olmasa, İslam radiosu və televiziyası ola bilməz.[602]

## Üçüncü hissə: Mədəni hücuma qarşı icra və məhkəmə orqanlarının vəzifələri

### İcra və məhkəmə orqanlarında İslamın hakim olmasının və mömin kadrlardan istifadənin zəruriliyi

Mühüm bir məsələ məhkəmə orqanına İslam hökmlərinin hakim olmasıdır. İslam dəyərləri və meyarları məhkəmələri idarə etmək üçün ən güclü meyarlardır. Biz müxaliflərin, düşmənlərin, İslam cəmiyyətində hər bir müsbət məqamı tənqid edənlərin yaratdığı ajiotajdan təsirlənməməliyik. Bəli, Qərb İslamın məhkəmə sistemini qəbul etmir. Biz də onların məhkəmə sistemini qəbul etmirik: "Siz mənim ibadət etdiyimə ibadət etməzsiniz! Mən də sizin ibadət etdiklərinizə ibadət edən deyiləm!"[603] Onlar İslam dəyərlərinə söykənən məhkəmə meyarlarını dərk etmək istəmirlər. Ümumiyyətlə, Qərb mədəniyyəti kiminsə məhkəmə meyarlarının - qan bahasının, andın, həddin, təzirin və İslam əxlaqı ilə mühakimənin dəyərini İslamda olduğu kimi anlamasına imkan vermir. İslamda məhkəmə hakiminin mühakimə məqamından başqa yerdə heç bir üstünlüyü yoxdur; digər müsəlmanlar kimi yerdə oturur və onlarla qardaş kimi rəftar edir. Onların isə hakim, məhkəmə və dünyəvi mühakimə üçün xüsusi qaydaları var. Biz dünyanın təsiri altına düşmürük. Biz İslamda mövcud olan güclü məhkəmə meyarları ilə fəxr edir və onların əsasında hərəkət edirik. Belə İslam məhkəməsi cəmiyyətdə ədaləti təmin edə bilər.[604]

Mədinə məscidində İmam Əli (ə) ilə beyət mərasimi bitəndən sonra o, beyətdən boyun qaçıranların bir-bir çağırılmasını söylədi. Buyurdu ki, siz nə üçün beyət etmədiniz? Biri dedi ki, mən gözləyirdim ayrıları beyət etsinlər, mən də edim. İmam buyurdu ki, get. Beləcə bir-bir gətirdilər. Beyət etməyənlər arasında Abdullah ibn Ömər də vardı, onu da məscidə gətirdilər. Əmirəlmöminin (ə) onun beyət etməməsinin səbəbini soruşdu. Bir qədər əllərini ovuşdurub nəsə dedi. Orada dayanmış Malik Əjdər dedi ki, ey möminlərin əmiri, icazə ver bunun boynunu vurum, digərləri də məsələnin ciddi olduğunu bilsinlər. İmam gülüb buyurdu ki, yox, buraxın getsin. Malik Əjdər Əmirəlmömininə (ə) demək istəyirdi ki, bunlar sənin də xəncərinin və qamçının olduğunu bilmirlər; qoy onu cəzalandırım ki, bunu bilsinlər.

Kiminsə İslam quruluşunun xəncər və qamçısının olmadığını, heç bir tədbir görmədiyini düşünməsi səhvdir. Əslində Allah üçün olduğundan heç bir şeydən çəkinmədən tədbir görür. Bu baxımdan, qarşı çıxanlara qarşı qətiyyətlə rəftar olunmalıdır. Qarşı çıxmayan, amma xidmət də göstərməyənlər isə

həqiqətən yenidən düşünməli və İslam quruluşunun qədrini bilməlidirlər. Uzun əsrlər boyu İslam nə zaman bugünkü kimi hakimiyyətin meyarına çevrilmiş və bu qədər ucalmışdır?! Onlar bundan istifadə etməlidirlər.[605]

Hizbullahçı qüvvələrin müxtəlif sahələrdə iştirakı çox olmalı, məhkəmə və icra orqanları öz məmur və əməkdaşlarında bu dəyəri əməli formada diqqətdə saxlamalıdırlar. Sağlam bir idarə o zaman daha çox çalışa bilər ki, yaxşı məmur, müdir və mütəxəssisləri olsun, mömin, ixlaslı və sözün əsl mənasında hizbullahçı qüvvələr onda mühüm rol oynasınlar. Düşmənlərin ötən illərdə mömin və mütəxəssis kadrlar arasında ortaya atdığı mübahisələr yenidən gündəmə gəlməməlidir. Mən o zaman kimlərin bu mövzunu təqib etdiklərini xatırlayıram. Deyirdilər ki, möminlər iş başında olsunlar, yoxsa mütəxəssislər? Sanki mömin və mütəxəssis arasında təbii bir təzad var. Bu, çaşdırıcı mövzudur. Allaha şükür ki, inqilabdan 13 il sonra bütün səviyyələrdə, cəmiyyətin yüksək qərar mərkəzlərində, korpusun, ordunun və Bəsicin hərbi məmurları arasında mömin qüvvələr çoxdur. Xalqın da imtahan vermiş mömin bir xalq olduğu bəllidir. Bizim xalqımız özü ilə İslam, din, Quran və Əhli-beyt arasında məsafə yaranmasını istəmir. Bizim xalqımız Qurana, İslam və Quran şüarına arxalanıb böyük bir siyasi quruluş yaradan, ABŞ-ı və hegemon dünyanı məğlub edən ilk xalqdır.[606]

Mənim fikrim budur ki, bu inqilab yalnız və yalnız inqilabçı qüvvələrin çiynində inkişaf edə bilər. İnqilab çoxlarından faydalanır, amma inqilabın arxalanıb inkişaf edəcəyi və inqilabı möhkəm bir qala kimi müdafiə edəcək şəxslər məhz mömin, doğruçu və ixlaslı qüvvələr, Allahın lütfü ilə cəmiyyətimizdə əksəriyyəti təşkil edən hizbullahçı mömin qruplardır. Məmləkətin inkişafı əsasən onlardan asılıdır. Bizim fikrimizcə, onlar inqilabı inkişaf etdirə və qoruya bilərlər. Onlar inqilabla olmasalar və Allah eləməmiş, məmurlardan küssələr, başqa kim məmurlarla olsa da, onları ayaqda saxlaya bilməz. Əgər bunlar olsalar, - Allaha şükür ki, vardırlar və olacaqlar - məmurlarla, quruluşla və hökumətlə kim düşmən olsa, heç bir iş görə bilməz.[607]

İslam Respublikası quruluşunda hizbullahçı bir müdir, müəllim, vəzifəli şəxs, komandir, sənətkar və yazıçı digərlərindən üstündür. Kimsə hizbullahçılığı düz-əməlli savadı olmayan bir gəncin mərəkə yaratması kimi başa düşməsin. Əsla belə deyil. Bizim mütəxəssislərimiz, görkəmli şəxsiyyətlərimiz, müdir,

alim və müəllimlərimiz arasında çoxlu hizbullahçı insanlar var. Biz hizbullahçılıq haqda yanlış düşünməməliyik.[608]

Hizbullahçı olmaq ilahi vəzifəni yerinə yetirməyə hazırlıq və inqilabi bir dəyərdir. İslam quruluşunda hizbullahçı ruha malik olanlar digərlərindən üstündürlər.[609]

Cəmiyyətdə Bəsic üzvünün dəyəri və hörməti var. O bununla fəxr etməli, əxlaqı və rəftarı ilə xalqın hörmətini və sevgisini qazanmalıdır. Əxlaq nümunəsi, təvazökar və mehriban insan olun, qayda-qanunlara əməl edin. Bu yanlış fikir bəzi beyinlərdən çıxmalıdır ki, Bəsic üzvü qanunlara riayət etməyən adamdır. Xeyr! Tam əksinə olaraq, qanunlara daha çox əməl edən daha yaxşı Bəsic üzvüdür. Nə üçün? Çünki Bəsic üzvü quruluşa ürək yandıran adamdır. Qayda-qanunlara əməl olunması da quruluşun idarəsinin qəti şərtidir. Odur ki, cəmiyyətdə əxlaqa, qanunlara və nizam-intizama mütləq diqqətlə əməl edin və bilin ki, siz inqilabın tükənməz ehtiyatlarısınız. Nə qədər ki, İslam inqilabı və İslam Respublikası quruluşu bu hisslərə, iman və ixlaslara söykənir, – inşallah həmişə söykənəcək – hər hansı səviyyədə olan heç bir düşmən inqilaba və quruluşa zərər yetirə bilməyəcək.[610]

İnqilabın doğruçu qüvvələrini və hizbullahçıları nəzərə alın. İnqilabı və ölkəni qoruyan, Amerikanın azğından vuran və təcavüzkarı yerində oturdan onlardır. İmam buyurdu ki, Bəsic və korpus olmasaydı, ölkə olmazdı. Bizim bu müharibədə qələbə çalmağımıza Bəsic səbəb oldu. Bəsic üzvü məmləkətdə bir hadisənin baş verdiyini, düşmənin hücum etdiyini anlayan kimi tarlasına, dükanına, işinə, imtahanına, konkursuna və universitet semestrinin gecikməsinə baxmayan, bütün bunlara göz yumub cəbhəyə gedəndir. Biz buna hizbullahçı deyirik. Bu gün də düşmənin hər hansı formada hücum etdiyini bilsə, onun gözünə yuxu getməz və rahat oturmaz. Necə və harada olsalar, bunları saxlayın, qoruyun. Əgər idarələrdədirlərsə, xüsusən onlarla yaxşı ünsiyyətdə olun ki, digərləri sizin onları qəbul etdiyinizi və sevdiyinizi bilsinlər. Bəzən problem yaransa da, yaxşı formada həll edin. Hizbullahçının əksi ölkənin və inqilabın səmimi qüvvələrini ələ salanlardır. Bəziləri də nə ələ salırlar, nə də hizbullahçıdırlar. Bu qüvvələri məsxərə edənlərlə sıx əlaqə qurmayın. Bunun birbaşa təsiri inqilabın əsl qüvvələrinin ümidsizliyə uğramasıdır. Bu hər şeydən önəmli və əsaslı bir məsələdir.

Əgər buna riayət etsəniz, inqilab üçün hər bir səyiniz yerində olacaq və hədər getməyəcək. Bacardığınız qədər mömin qüvvələri qoruyun. Mömin qüvvələrə qarşı çıxan və onları ələ salanlarla, müharibəni və Amerikaya ölüm şüarını heç zaman qəbul etməyənlərlə, indi quruluşla işləyirlərsə də, sabah bir başqasının gələcəyini ehtimal etdikdə onun yanına qaçacaq şəxslərlə sıx ünsiyyət qurmayın, yalnız bacarıqlarından istifadə edin. Biz ölkəyə xidmət edə bilən bütün qüvvələrdən istifadə etməli, amma belələrinə üz verməməliyik.[611]

**2- Yaxşı işlərə dəvət edənləri və pis işlərdən çəkindirənləri müdafiə etmək**

Hökumət, İslam Şurası Məclisi, məhkəmə və polis məmurları pis işlərdən çəkindirənləri müdafiə etməyə borcludurlar.[612]

Mənə məktub yazır, bəziləri də telefonla deyirlər ki, biz pis işlərdən çəkindiririk, lakin dövlət məmurları bizim tərəfimizi saxlamır, qarşı tərəfi müdafiə edirlər. Mən deyirəm ki, dövlət məmurlarının – istər polislərin, istər məhkəmə məmurlarının cinayətkarı müdafiə etməyə haqları yoxdur. Onlar yaxşı işlərə dəvət edib, pis işlərdən çəkindirəni müdafiə etməlidirlər. Bizim bütün dövlət orqanlarımız onları müdafiə etməlidir. Bu onların borcudur. Əgər bir nəfər namaz qılsa və başqa birisi namaz qılana hücum etsə, bizim qurumlarımız hansını müdafiə etməlidir?! Namaz qılanı, yoxsa onun altından canamazı çəkən şəxsi?! Yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək də belədir. Yaxşı işlərə dəvət etmək də namaz kimi vacibdir.[613]

Bizim vəzifəmiz, məmurların, qanunverici və icraçı orqanların vəzifəsi Allahın vacib əməli olan yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək işinin icrasına şərait yaratmaqdır.

Allaha şükür ki, bu gün İslam Şurası Məclisi, ölkə məmurları və məhkəmə əməkdaşları bu xalqın özündəndir. Polisdə, məhkəmədə kimlərsə yaxşı işlərə dəvət edənlərin və pis işlərdən çəkindirənlərin önünə sədd çəkməməlidir. Kimlərsə yaxşı işlərə dəvət edənləri və pis işlərdən çəkindirənləri müdafiə etməyib cinayətkarı dəstəkləməsinlər. Bu barədə ölkənin müxtəlif yerlərindən mənə müəyyən xəbərlər çatır. Yaxşı işlərə dəvət edənin və ya pis işlərdən çəkindirənin haradasa Allah eləməmiş, bir məmur tərəfindən hücuma məruz qaldığına dair dəqiq məlumat alsam, özüm məsələ ilə məşğul olacağam. Ölkənin müstəqilliyini və varlığını qoruyan amil budur. Bizim bu qədər düşmənimiz var. Nə üçün düşmən bu günədək bu xalqın başından bir tük əskik

edə və ölkəyə zərbə vura bilməyib?! Allaha şükür ki, müsəlman İran bütün düşmənləri qarşısında tam qüdrətlə dayanmışdır.[614]

---

[1] Böyük Rəhbərin Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[2] Yenə orada.
[3] Böyük Rəhbərin Təlim və tərbiyə naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[4] Böyük Rəhbərin Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[5] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvlərilə görüşündəki çıxışından: 1989.
[6] Yenə orada.
[7] Yenə orada.
[8] Böyük Rəhbərin İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışından: 1991.
[9] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvlərilə görüşündəki çıxışından: 1992.
[10] Nəhcül-bəlağə, məktub: 62.
[11] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvlərilə görüşündəki çıxışından: 1991.
[12] Yenə orada.
[13] Böyük Rəhbərin Qum Elm Hövzəsinin müəllim və tələbələri ilə görüşdəki çıxışından: 1989.
[14] Böyük Rəhbərin müəllimlərlə görüşdəki çıxışından: 1990.
[15] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin Ədəbiyyat və incəsənət şöbəsinin üzvləri ilə görüşdəki çıxışından: 1992.
[16] Böyük Rəhbərin cümə imamlarının ümumrespublika toplantısında çıxışından: 1991.
[17] Böyük Rəhbərin korpus komandirləri ilə görüşdəki çıxışından: 1992.
[18] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvlərilə görüşündəki çıxışından: 1992.
[19] Yenə orada.
[20] Böyük Rəhbərin müəllimlərlə görüşdəki çıxışından: 1990.
[21] Yenə orada.
[22] Böyük Rəhbərin Təbriz şəhərinin şair, ədib və incəsənət xadimlərinin toplantısında çıxışından: 1993.
[23] Böyük Rəhbərin Qadın cəmiyyətinin Mərkəzi Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1992.

[24] Böyük Rəhbərin Beynəlxalq Əmək və Müəllim günləri münasibəti ilə bir qrup adamla görüşdəki çıxışından: 1992.
[25] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1991.
[26] Böyük Rəhbərin Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[27] Yenə orada.
[28] Yenə orada.
[29] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin Ədəbiyyat və incəsənət şöbəsinin üzvləri ilə görüşdəki çıxışından: 1993.
[30] Böyük Rəhbərin Təbriz şəhərinin din alimləri və ruhaniləri ilə görüşdəki çıxışından: 1993.
[31] Yenə orada.
[32] Böyük Rəhbərin cümə və məscid imamları, ruhanilər və xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1992.
[33] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin Ədəbiyyat və incəsənət şöbəsinin üzvləri ilə görüşdəki çıxışından: 1993.
[34] Böyük Rəhbərin Təbriz şəhərinin şair, ədib və incəsənət xadimlərinin toplantısında çıxışından: 1993.
[35] Böyük Rəhbərin ruhanilər, universitet və hövzə tələbələri ilə görüşdəki çıxışından: 1989.
[36] Böyük Rəhbərin İran İslam Respublikası radiosunun Elm şöbəsinin üzvləri ilə görüşdəki çıxışından: 1992.
[37] Böyük Rəhbərin Quruculuq Cihadının əməkdaşları, şəhid ailələri, əşirətlər və zəlzələdən zərər çəkənlərlə görüşdəki çıxışından: 1991.
[38] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[39] Böyük Rəhbərin Çahar-Mahal və Bəxtiyari vilayətinin məsul şəxsləri ilə görüşdəki çıxışından: 1992.
[40] Böyük Rəhbərin ordunun Hərbi Hava Qüvvələrinin pilotları ilə görüşdəki çıxışından: 1992.
[41] Böyük Rəhbərin Quruculuq Cihadının əməkdaşları, şəhid ailələri, əşirətlər və zəlzələdən zərər çəkənlərlə görüşdəki çıxışından: 1991.
[42] Böyük Rəhbərin İran İslam Respublikası radiosunun Elm şöbəsinin üzvləri ilə görüşdəki çıxışından: 1992.
[43] Böyük Rəhbərin ruhanilər, universitet və hövzə tələbələri ilə görüşdəki çıxışından: 1989.
[44] Böyük Rəhbərin din alimləri, ruhanilər və cümə imamları ilə görüşdəki çıxışından: 1990.
[45] Böyük Rəhbərin İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışından: 1991.

[46] Böyük Rəhbərin Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[47] Böyük Rəhbərin fiqh ali-ixtisas (xaric) dərsinin əvvəlindəki söhbətlərindən: 1992.
[48] Böyük Rəhbərin Çahar-Mahal və Bəxtiyari vilayətinin din alimləri və ruhanilərinin toplantısında çıxışından: 1992.
[49] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[50] Böyük Rəhbərin hövzə alimlərinin beyət mərasimində çıxışından: 1989.
[51] Böyük Rəhbərin əsirlikdən azad olan döyüşçülərin bir qrupu və xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1990.
[52] Böyük Rəhbərin Mazandaran vilayətinin din alimləri, ruhaniləri və cümə imamları ilə görüşdəki çıxışından: 1990.
[53] Böyük Rəhbərin Xürrəmabad şəhərinin şəhid ailələri ilə görüşdəki çıxışından: 1991.
[54] Böyük Rəhbərin Çahar-Mahal və Bəxtiyari vilayətinin din alimləri və ruhanilərinin toplantısında çıxışından: 1992.
[55] Böyük Rəhbərin Kürd şəhərinin idman stadionunda Çahar-Mahal və Bəxtiyari vilayəti əhalisinin toplantısında çıxışından: 1992.
[56] Yenə orada.
[57] Böyük Rəhbərin hövzə və universitet tələbələri ilə görüşdəki çıxışından: 1990.
[58] Böyük Rəhbərin Məşhəd şəhərinin bir qrup əhalisinin, həmkarlar ittifaqlarının və Xuzistan əşirətlərinin beyət mərasimində çıxışından: 1989.
[59] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[60] Böyük Rəhbərin Tehranın din alimləri, ruhaniləri və məscid imamları ilə görüşdəki çıxışından: 1992.
[61] Böyük Rəhbərin şəhid ailələri ilə görüşdəki çıxışından: 1989.
[62] Bəqərə/120.
[63] Ali-İmran/110.
[64] Böyük Rəhbərin Tehranın din alimləri, ruhaniləri və məscid imamları ilə görüşdəki çıxışından: 1992.
[65] Böyük Rəhbərin İslam Birliyi Konfransının qonaqları ilə görüşdəki çıxışından: 1996.
[66] Yenə orada.
[67] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1991.
[68] Böyük Rəhbərin hövzə və universitet tələbələri ilə görüşdəki çıxışından: 1991.
[69] Böyük Rəhbərin maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[70] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1991.
[71] Böyük Rəhbərin Xürrəmabad şəhərinin şəhid ailələri ilə görüşdəki çıxışından: 1991.

[72] Böyük Rəhbərin müxtəlif şəhərlərdən olan şəhid ailələri ilə görüşdəki çıxışından: 1989.
[73] Böyük Rəhbərin maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[74] Böyük Rəhbərin əsirlikdən azad olan döyüşçülərin bir qrupu ilə görüşdəki çıxışından: 1990.
[75] Böyük Rəhbərin İran İslam Respublikasının səfirləri və səfirlik əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[76] Böyük Rəhbərin hövzənin Ali Şurasının yaradılması münasibəti ilə Qum Elm Hövzəsinin Müdərrislər cəmiyyətinə müraciətindən: 1992.
[77] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[78] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1989.
[79] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1992.
[80] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1989.
[81] Nisa/141.
[82] Münafiqun/8.
[83] Nisa/75.
[84] Ənam/57.
[85] Bəqərə/120.
[86] Maidə/59.
[87] Hud/12.
[88] Büruc/8.
[89] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1991.
[90] Böyük Rəhbərin Tehran şəhərinin bir qrup əhalisi, ruhaniləri və Bəsic üzvləri ilə görüşündəki çıxışından: 1989.
[91] Büruc/8
[92] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[93]Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1992.
[94] Böyük Rəhbərin İslam inqilabının ildönümü tədbirlərinin xarici qonaqları ilə görüşündəki çıxışından: 1991.
[95] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[96] Böyük Rəhbərin Xürrəmabad şəhərinin şəhid ailələri ilə görüşdəki çıxışından: 1991.
[97] Böyük Rəhbərin İslam inqilabının dəyərli şəhidlərinin anım mərasiminə müraciətindən: 1992.
[98] Bəqərə/155.
[99] Böyük Rəhbərin Zahidan şəhərində keçirilən İslam düşüncəsi konfransına müraciətindən: 1992.

[100] Böyük Rəhbərin əsirlikdən azad olan döyüşçülərin bir qrupu ilə görüşdəki çıxışından: 1992.
[101] Böyük Rəhbərin Qüds günü münasibəti ilə müraciətindən: 1990.
[102] Böyük Rəhbərin İran İslam Respublikasının səfirləri və səfirlik əməkdaşları ilə görüşdəki çıxışından: 1990.
[103] Ali-İmran/103.
[104] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1991.
[105] Böyük Rəhbərin həcc mərasimi və qanlı Məkkə faciəsinin ildönümü münasibəti ilə müraciətindən: 1990.
[106] Böyük Rəhbərin İslam birliyi konfransının iştirakçıları ilə görüşdəki çıxışından: 1990.
[107] Yenə orada.
[108] Yenə orada.
[109] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsənin İncəsənət şöbəsinin sənət adamları ilə görüşdəki çıxışından: 1989.
[110] Böyük Rəhbərin həcc mərasimi və qanlı Məkkə faciəsinin ildönümü münasibəti ilə müraciətindən: 1990.
[111] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1989.
[112] Böyük Rəhbərin xalqın bir qrupunun beyət mərasimində çıxışından: 1989.
[113] Böyük Rəhbərin İmam Xomeyninin vəfatının ikinci ildönümü mərasimində iştirak edən xarici qonaqlarla görüşdəki çıxışından: 1991.
[114] Böyük Rəhbərin hövzə alimlərinin beyət mərasimində çıxışından: 1989.
[115] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşündəki çıxışından: 1989.
[116] Böyük Rəhbərin xalqın bir qrupunun beyət mərasimində çıxışından: 1989.
[117] Böyük Rəhbərin Tehrandan şəhərindən olan bir qrup ruhani və Bəsic üzvləri ilə görüşündəki çıxışından: 1989.
[118] Böyük Rəhbərin İslam Konfransı Təşkilatının nümayəndələri ilə görüşdəki çıxışından: 1989.
[119] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1991.
[120]Böyük Rəhbərin Zahidan şəhərində keçirilən İslam düşüncəsi konfransına müraciətindən: 1992.
[121] Böyük Rəhbərin İslam Konfransı Təşkilatının nümayəndələri ilə görüşdəki çıxışından: 1989.
[122] Böyük Rəhbərin Ümumdünya İslam Məzhəblərinin Yaxınlaşdırılması Assambleyasının üzvləri ilə görüşündəki çıxışından: 1991.
[123] Böyük Rəhbərin Mazandaran vilayətinin ruhaniləri, cümə və məscid imamları ilə görüşdəki çıxışından: 1990.
[124] Yasin/13-14.
[125] Yasin/15.
[126] Yasin/16-17.
[127] Yasin/18.

[128] Yasin/19.
[129] Böyük Rəhbərin İslam İnqilabının Mühafizəçiləri Korpusunun komandirləri ilə görüşündəki çıxışından: 1991.
[130] Böyük Rəhbərin hövzə alimlərinin beyət mərasimində çıxışından: 1989.
[131] Böyük Rəhbərin əsirlikdən azad olan döyüşçülərin bir qrupu və Təlim və tərbiyə nazirliyinin məsul işçiləri ilə görüşdəki çıxışından: 1990.
[132] Böyük Rəhbərin Qum və Rəfsəncan əhalisinin bir qrupunun beyət mərasimində çıxışından: 1989.
[133] Böyük Rəhbərin ölkə üzrə Bəsic komandirləri ilə görüşdəki çıxışından: 1992.
[134] Böyük Rəhbərin Ticarət və Əkinçilik nazirliklərinin əməkdaşları ilə görüşündəki çıxışından: 1990.
[135] Böyük Rəhbərin Qum və Rəfsəncan əhalisinin bir qrupunun beyət mərasimində çıxışından: 1989.
[136] Böyük Rəhbərin xalqın bir qrupunun beyət mərasimində çıxışından: 1990.
[137] Böyük Rəhbərin universitet və hövzə tələbələri ilə görüşdəki çıxışından: 1989.
[138] Böyük Rəhbərin Kürd şəhərində Çahar-Mahal və Bəxtiyari vilayətinin vəzifəli şəxsləri ilə görüşündəki çıxışından: 1992.
[139] Böyük Rəhbərin media nümayəndələri ilə görüşündəki çıxışından.
[140] Böyük Rəhbərin Təbriz şəhərinin şair, ədib və incəsənət xadimlərinin toplantısında çıxışından: 1993.
[141] Böyük Rəhbərin Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[142] Yenə orada.
[143] Böyük Rəhbərin Təbriz şəhərinin şair, ədib və incəsənət xadimlərinin toplantısında çıxışından: 1993.
[144] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin Ədəbiyyat və incəsənət şöbəsinin üzvləri ilə görüşdəki çıxışından: 1993.
[145] Böyük Rəhbərin Təbriz şəhərinin şair, ədib və incəsənət xadimlərinin toplantısında çıxışından: 1993.
[146] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[147] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvlərilə görüşündəki çıxışından: 1989.
[148] Böyük Rəhbərin Beynəlxalq Əmək və Müəllim günləri münasibəti ilə bir qrup adamla görüşdəki çıxışından: 1992.
[149] Böyük Rəhbərin hövzə və universitet tələbələri ilə görüşdəki çıxışından: 1990.
[150] Yenə orada.
[151] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvlərilə görüşündəki çıxışından: 1989.
[152] Böyük Rəhbərin hövzə və universitet tələbələri ilə görüşdəki çıxışından: 1990.
[153] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvlərilə görüşündəki çıxışından: 1989.

[154] Böyük Rəhbərin Şiraz, Bəndər-Abbas və Sari şəhərlərinin bir qrup əhalisinin beyət mərasmində çıxışından: 1989.
[155] Böyük Rəhbərin İslam düşüncəsi konfransının qonaqları ilə görüşdəki çıxışından: 1990.
[156] Böyük Rəhbərin "İyirmimilyonluq ordu" komandirlərinin toplantısına müraciətindən: 1989.
[157] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[158] Böyük Rəhbərin Şiraz, Bəndər-Abbas və Sari şəhərlərinin bir qrup əhalisinin beyət mərasmində çıxışından: 1989.
[159] Münafiqun/8.
[160] Böyük Rəhbərin Tehranın cümə namazı komitəsinin üzvləri ilə görüşdəki çıxışından: 1989.
[161] Böyük Rəhbərin Təlim və tərbiyə naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[162] Böyük Rəhbərin İmam Xomeyninin vəfatının ikinci ildönümündə iştirak edən xarici qonaqlarla görüşdəki çıxışından: 1991.
[163] Böyük Rəhbərin Təlim və tərbiyə nazirinin və nazir müavinlərinin və müəllimlərin beyət mərasimində çıxışından: 1989.
[164] Böyük Rəhbərin müəllimlərlə görüşdəki çıxışından: 1990.
[165] Böyük Rəhbərin Baxtəran, Ərak, Rəşt və digər şəhərlərin bir qrup əhalisinin beyət mərasimində çıxışından: 1989.
[166] Bəqərə/120.
[167] Böyük Rəhbərin İran İslam Respublikasının səfirləri və səfirlik əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[168] Bəqərə/120.
[169] Böyük Rəhbərin Zəncan vilayətinin və müxtəlif şəhərlərin bir qrup əhalisinin beyət mərasimində çıxışından: 1989.
[170] Böyük Rəhbərin İslam Respublikasının xarici ölkələrdəki mədəniyyət nümayəndələri ilə görüşdəki çıxışından: 1991.
[171] Böyük Rəhbərin bir qrup adamla görüşdəki çıxışından: 1989.
[172] Böyük Rəhbərin inqilabın ildönümü tədbirlərinin qonaqları ilə görüşdəki çıxışından: 1991.
[173] Böyük Rəhbərin xalqın bir qisminin beyət mərasimində çıxışından: 1989.
[174] Böyük Rəhbərin Ticarət və Əkinçilik nazirliklərinin əməkdaşları ilə görüşündəki çıxışından: 1990.
[175] Böyük Rəhbərin Qlobal Hegemonizmə qarşı Milli Mübarizə Günü münasibəti ilə müraciətindən: 1990.
[176] Böyük Rəhbərin müxtəlif şəhərlərin bir qisim əhalisi ilə görüşdəki çıxışından: 1989.
[177] Böyük Rəhbərin Məşhəd Elm Hövzəsinin alim və tələbələrinin beyət mərasimində çıxışından: 1989.

[178] Böyük Rəhbərin mübarək ramazan ayı ərəfəsində ruhani və vaizlərlə görüşdəki çıxışından: 1991.
[179] Böyük Rəhbərin tələbələr və şəhid ailələri ilə görüşdəki çıxışından: 1990.
[180] Nisa/76.
[181] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən: 1989.
[182] Böyük Rəhbərin İslam düşüncəsi konfransının qonaqları ilə görüşdəki çıxışından: 1990.
[183] Böyük Rəhbərin Dövlət şurası üzvləri ilə görüşdəki çıxışından: 1990.
[184] Böyük Rəhbərin müxtəlif şəhərlərin bir qisim əhalisi ilə görüşdəki çıxışından: 1989.
[185] Yunus/14.
[186] Böyük Rəhbərin din alimləri, ruhanilər və məscid imamları ilə görüşdəki çıxışından: 1990.
[187] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü tədbirində çıxışından: 1990.
[188] Böyük Rəhbərin yeni seçilmiş Dini Ekspertlər Məclisinin fəaliyyətə başlaması münasibəti ilə müraciətindən: 1991.
[189] Böyük Rəhbərin onuncu siniflərin Quran müəllimlərinin toplantısına müraciətindən: 1989.
[190] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[191] Böyük Rəhbərin Nəzarət şurası üzvlərinin beyət mərasimində çıxışından: 1989.
[192] Böyük Rəhbərin Məşhəd şəhərinin həmkarlar ittifaqlarının, 15 Xordad fondunun və Savadlandırma hərəkatının üzvlərinin beyət mərasimində çıxışından: 1989.
[193] Böyük Rəhbərin Dövlət şurası üzvlərinin beyət mərasimində çıxışından: 1989.
[194] Böyük Rəhbərin əsirlikdən azad olan döyüşçülərin bir qrupu ilə görüşdəki çıxışından: 1990.
[195] Hucurat/13.
[196] Böyük Rəhbərin Bəsic Müqavimət Qüvvəsinin batalyon komandirləri ilə görüşdəki çıxışından: 1992.
[197] Böyük Rəhbərin "Baqir əl-ülum" adına mədəniyyət mərkəzinin üzvlərinin beyəti yeniləmə mərasimində çıxışından: 1990.
[198] Rəd/31.
[199] Büruc/8.
[200] Böyük Rəhbərin hörmətli Allah evinin ziyarətçilərinə müraciətindən:1989.
[201] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[202] Böyük Rəhbərin tələbələr və şəhid ailələri ilə görüşdəki çıxışından: 1990.
[203] Yenə orada.
[204] Böyük Rəhbərin Hərbi Hava Qüvvələri günü münasibəti ilə Hərbi Hava Qüvvələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1992.
[205] Böyük Rəhbərin İslam düşüncəsi konfransının qonaqları ilə görüşdəki çıxışından: 1990.

[206] Böyük Rəhbərin Mühafizəçi Günü münasibətilə Mühafizəçilər korpusunun zabit və komandirləri ilə görüşdəki çıxışından: 1990.
[207] Bəqərə/120.
[208] Böyük Rəhbərin "7 Tir şəhidləri" bölüyünün döyüşçüləri, əsir və itkin düşənlərin yaxınları və müharibə əlilləri ilə görüşdəki çıxışından: 1990.
[209] Böyük Rəhbərin Mühafizəçilər korpusunun Quru qoşunlarının komandirləri ilə görüşdəki çıxışından: 1991.
[210] Böyük Rəhbərin İsfahanın Şəhid Babai adına hərbi mərkəzində təyyarəçilərlə görüşdəki çıxışından: 1991.
[211] Böyük Rəhbərin din alimləri, ruhanilər və cümə imamları ilə görüşdəki çıxışından: 1990.
[212] Yenə orada.
[213] Böyük Rəhbərin Təhlükəsizlik nazirliyinin əməkdaşlarının beyət mərasimində çıxışından: 1989.
[214] Böyük Rəhbərinin Kürd şəhərinin idman stadionunda Çahar-Mahal və Bəxtiyari vilayətinin əhalisi ilə görüşdəki çıxışından: 1992.
[215] Böyük Rəhbərin müxtəlif şəhərlərin bir qrup əhalisinin beyət mərasimində çıxışından: 1989.
[216] Böyük Rəhbərin Bəsic Müqavimət Qüvvəsinin batalyon komandirləri ilə görüşdəki çıxışından: 1992.
[217] Böyük Rəhbərin din alimləri, ruhanilər və məscid imamları ilə görüşdəki çıxışından: 1992.
[218] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1992.
[219] Böyük Rəhbərin Xürrəmabad şəhərinin Təxti adına idman stadionundakı çıxışından: 1991.
[220] Böyük Rəhbərin Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[221] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvlərilə görüşündəki çıxışından: 1992.
[222] Böyük Rəhbərin Qum Elm Hövzəsinin müəllim və tələbələri ilə görüşdəki çıxışından: 1991.
[223] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvlərilə görüşündəki çıxışından: 1992.
[224] Böyük Rəhbərin məhərrəm ayı ərəfəsində ruhani və din təbliğatçıları ilə görüşdəki çıxışından: 1991.
[225] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[226] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvlərilə görüşündəki çıxışından: 1991.
[227] Böyük Rəhbərin Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.

[228] Yenə orada.
[229] Yenə orada.
[230] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[231] Böyük Rəhbərin Mədəniyyət Naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[232] Böyük Rəhbərin Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[233] Böyük Rəhbərin müqəddəs Məşhəddə keçirilən namaz seminarına müraciətindən: 1991.
[234] Böyük Rəhbərin tələbələrlə və şəhid ailələri ilə görüşdəki çıxışından: 1990.
[235] Müzzəmmil/1-5.
[236] Böyük Rəhbərin həzrət Peyğəmbərin (s) miladı münasibəti ilə vəzifəli şəxslər və xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1989.
[237] Yunus/62.
[238] Böyük Rəhbərin Həcc komitəsinin məsul işçiləri ilə görüşdəki çıxışından: 1992.
[239] Böyük Rəhbərin yeni il münasibəti ilə müraciətindən: 1991.
[240] Böyük Rəhbərin həzrət Peyğəmbərin (s) miladı münasibəti ilə vəzifəli şəxslər və xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1989.
[241] Böyük Rəhbərin Beynəlxalq Əmək və Müəllim günləri münasibəti ilə fəhlə və müəllimlərlə görüşdəki çıxışından: 1991.
[242] Böyük Rəhbərin Xürrəmabad şəhərinin şəhid ailələri ilə görüşdəki çıxışından: 1991.
[243] Böyük Rəhbərin İslam İnqilabının Mühafizəçiləri Korpusunun komandirləri ilə görüşdəki çıxışından: 1992.
[244] Böyük Rəhbərin korpusun Quru qoşunlarının komandirləri ilə görüşdəki çıxışından: 1991.
[245] Böyük Rəhbərin Baxtəran, Ərak, Rəşt və digər şəhərlərin bir qisim əhalisinin beyət mərasimində çıxışından: 1989.
[246] "Bihar əl-ənvar", c. 70, səh: 73.
[247] Kəhf/49.
[248] Böyük Rəhbərin İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışından: 1991.
[249] Böyük Rəhbərin yeni seçilmiş Dini Ekspertlər Məclisinin fəaliyyətə başlaması münasibəti ilə müraciətindən: 1991.
[250] Böyük Rəhbərin Baxtəran, Ərak, Rəşt və digər şəhərlərin bir qisim əhalisinin beyət mərasimində çıxışından: 1989.
[251] Böyük Rəhbərin Bəsic Müqavimət Qüvvəsinin batalyon komandirləri ilə görüşdəki çıxışından: 1992.
[252] Yenə orada.
[253] Bəqərə/249.

[254] Böyük Rəhbərin İslam İnqilabının Mühafizəçiləri Korpusunun komandirləri ilə görüşdəki çıxışından: 1991.
[255] Böyük Rəhbərin ordu nümayəndələrinin beyət mərasimində çıxışından: 1989.
[256] Böyük Rəhbərin Baxtəran, Ərak, Rəşt və digər şəhərlərin bir qisim əhalisinin beyət mərasimində çıxışından: 1989.
[257] "Bihar əl-Ənvar", c. 85, səh: 319.
[258] Ali-İmran/139.
[259] Böyük Rəhbərin Qum, Rəfsəncan və Kəhnuc şəhərlərinin bir qisim əhalisinin beyət mərasimində çıxışından: 1989.
[260] Böyük Rəhbərin Bəsic komandirləri ilə görüşdəki çıxışından: 1992.
[261] Böyük Rəhbərin müxtəlif şəhərlərin əhalisi və Cümə namazı komitəsinin üzvləri ilə görüşdəki çıxışından: 1989.
[262] Böyük Rəhbərin 15 şəban – İmam Mehdinin (ə) doğum günü münasibəti ilə xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışından: 1991.
[263] Böyük Rəhbərin Çahar-Mahal və Bəxtiyari vilayətinin bir qrup əhalisi ilə görüşdəki çıxışından: 1989.
[264] Böyük Rəhbərin şəhid ailələri və xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1992.
[265] Böyük Rəhbərin Amul, Nişapur, Həmədan şəhərlərinin bir qisim əhalisinin beyət mərasimində çıxışından: 1989.
[266] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[267] Böyük Rəhbərin Xuzistan vilayətinin döyüşçülərinin və bir qisim əhalisinin beyət mərasimində çıxışından: 1989.
[268] Əraf/188.
[269] Böyük Rəhbərin Mühafizəçi günündə korpus komandirləri və polislərlə görüşdəki çıxışından: 1990.
[270] Böyük Rəhbərin əsirlikdən azad olan döyüşçülərin bir qrupu və xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1990.
[271] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[272] Böyük Rəhbərin 19 dey günü münasibəti ilə Qum əhalisinin müxtəlif təbəqələri ilə görüşdəki çıxışından: 1992.
[273] Böyük Rəhbərin əşirət nümayəndələri və şəhid ailələri ilə görüşdəki çıxışından: 1991.
[274] Müttəffifin/26.
[275] Böyük Rəhbərin İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışından: 1990.
[276] Böyük Rəhbərin Təbriz, Firuzabad, İlam və digər şəhərlərin bir qisim əhalisinin beyət mərasimində çıxışından: 1989.
[277] Böyük Rəhbərin Qədir-Xum bayramında İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışından: 1992.

[278] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[279] Buruc/8.
[280] Böyük Rəhbərin Yəzd, Kohgiluyə və Buyer Əhməd vilayətlərinin bir qisim əhalisinin beyət mərasimində çıxışından: 1989.
[281] Böyük Rəhbərin Ali Baş Komandanlıq aparatının müdirləri ilə görüşdəki çıxışından: 1990.
[282] Böyük Rəhbərin İsfahan əhalisinin bir qisminin beyət mərasimində çıxışından: 1989.
[283] İsra/20.
[284] Böyük Rəhbərin Cəhrum, Kaşan, Buşəhr, Günabad və digər şəhərlərin bir qisim əhalisinin beyət mərasimində çıxışından: 1989.
[285] Böyük Rəhbərin tələbələrlə və şəhid ailələri ilə görüşdəki çıxışından: 1990.
[286] Böyük Rəhbərin Xuzistan vilayətinin döyüşçülərinin və bir qrup əhalisinin beyət mərasimində çıxışından: 1989.
[287] Böyük Rəhbərin Ölkə naziri və valilərin beyət mərasimində çıxışından: 1989.
[288] Böyük Rəhbərin Cəhrum, Kaşan, Buşəhr, Günabad və digər şəhərlərin bir qisim əhalisinin beyət mərasimində çıxışından: 1989.
[289] Böyük Rəhbərin prezident və Dövlət şurasının üzvləri ilə görüşdəki çıxışından: 1989.
[290] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1992.
[291] Böyük Rəhbərin korpus komandirləri ilə görüşdəki çıxışından: 1992.
[292] Böyük Rəhbərin Bəsic Müqavimət Qüvvəsinin batalyon komandirləri ilə görüşdəki çıxışından: 1992.
[293] Böyük Rəhbərin Qum Elm Hövzəsinin alim və tələbələrinin beyət mərasimində çıxışından: 1989.
[294] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[295] Ənfal/24.
[296] Böyük Rəhbərin İmam Rzanın (ə) məqbərəsində Məşhəd əhalisi ilə görüşdəki çıxışından: 1991.
[297] İsra/18.
[298] İsra/19-20.
[299] Bəqərə/47.
[300] Bəqərə/61.
[301] Cümə/5.
[302] Böyük Rəhbərin İslam İnqilabının Mühafizəçiləri Korpusunun komandirləri ilə görüşdəki çıxışından: 1992.
[303] Böyük Rəhbərin tələbələrlə və şəhid ailələri ilə görüşdəki çıxışından: 1990.
[304] Böyük Rəhbərin İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışından: 1991.

[305] Böyük Rəhbərin Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[306] Böyük Rəhbərin əsirlikdən azad olan döyüşçülərin bir qrupu ilə görüşdəki çıxışından: 1990.
[307] Cümə/5.
[308] Böyük Rəhbərin ölkə üzrə vəzifəli şəxslərlə və üç hakimiyyət orqanının başçıları ilə görüşdəki çıxışından: 1990.
[309] Böyük Rəhbərin korpus komandirləri ilə görüşdəki çıxışından: 1992.
[310] Böyük Rəhbərin müxtəlif şəhərlərdən olan şəhid ailələri ilə görüşdəki çıxışından: 1989.
[311] Böyük Rəhbərin Rəfsəncan əhalisinin ruhaniləri və bir qrup əhalisi ilə görüşdəki çıxışından: 1989.
[312] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[313] Böyük Rəhbərin Kürd şəhərində şəhid ailələri, müharibə əlilləri və əsirlikdən azad olanlarla görüşdəki çıxışından: 1992.
[314] Böyük Rəhbərin korpus komandirləri ilə görüşdəki çıxışından: 1992.
[315] Böyük Rəhbərin İslam Respublikasının səfirləri və səfirlik əməkdaşları ilə görüşdəki çıxışından: 1990.
[316] Böyük Rəhbərin Tibb işçiləri günü münasibəti ilə həkim və feldşerlərlə görüşdəki çıxışından: 1989.
[317] Böyük Rəhbərin ölkə üzrə nümunəvi müəllimlərlə görüşdəki çıxışından: 1991.
[318] Böyük Rəhbərin deputatlarla görüşdəki çıxışından: 1992.
[319] Böyük Rəhbərinin Kürd şəhərinin idman stadionunda Çahar-Mahal və Bəxtiyari vilayətinin əhalisi ilə görüşdəki çıxışından: 1992.
[320] Ali-İmran/139.
[321] Böyük Rəhbərinin Kürd şəhərinin idman stadionunda Çahar-Mahal və Bəxtiyari vilayətinin əhalisi ilə görüşdəki çıxışından: 1992.
[322] Nəhcül-bəlağə, xütbə: 98.
[323] Böyük Rəhbərin Beynəlxalq Əmək və Müəllim günləri münasibəti ilə fəhlə və müəllimlərlə görüşdəki çıxışından: 1992.
[324] Böyük Rəhbərin tələbə və şagirdlərlə görüşdəki çıxışından: 1989.
[325] Böyük Rəhbərin Mühafizəçilər korpusunda fəqih rəhbər nümayəndəliklərinin məsul işçilərinin və korpus komandirlərinin ümumrespublika toplantısına müraciətindən: 1991.
[326] Məryəm/59.
[327] Böyük Rəhbərin Bəsic Müqavimət Qüvvəsinin batalyon komandirləri ilə görüşdəki çıxışından: 1992.
[328] Yenə orada.
[329] Böyük Rəhbərin din alimləri, ruhanilər və məscid imamları ilə görüşdəki çıxışından: 1992.
[330] Böyük Rəhbərin tələbələrlə və şəhid ailələri ilə görüşdəki çıxışından: 1990.

[331] "Bihar əl-ənvar", c. 78, səh: 269.
[332] Böyük Rəhbərin Kürdüstan vilayətinin müxtəlif əşirətlərinin beyət mərasimində çıxışından: 1989.
[333] "Nəhcül-bəlağə", məktub: 62.
[334] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının üzvlərilə görüşündəki çıxışından: 1991.
[335] Böyük Rəhbərin Nəcəfabad şəhərinin bir qrup əhalisinin və Xuzistan əşirətlərinin beyət mərasimində çıxışından: 1989.
[336] Böyük Rəhbərin Mühafizəçilər korpusunun Quru qoşunlarının komandirləri ilə görüşdəki çıxışından: 1991.
[337] Böyük Rəhbərin Tehran vilayətinin din alimləri, ruhaniləri, məscid imamları və vaizləri ilə görüşdəki çıxışından: 1992.
[338] Böyük Rəhbərin Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[339] Böyük Rəhbərin ölkə üzrə Bəsic komandirləri ilə görüşdəki çıxışından: 1992.
[340] Böyük Rəhbərin din alimləri, ruhanilər və məscid imamları ilə görüşdəki çıxışından: 1992.
[341] Böyük Rəhbərin Bəsic üzvləri, xalqın müxtəlif təbəqələri və ruhanilərlə görüşdəki çıxışından: 1989.
[342] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[343] "Bihar əl-ənvar", c. 93, səh: 378.
[344] Böyük Rəhbərin din alimləri, ruhanilər və məscid imamları ilə görüşdəki çıxışından: 1992.
[345] Nəhcül-bəlağə, kəlam 374.
[346] Böyük Rəhbərin Bəsic Müqavimət Qüvvəsinin batalyon komandirləri ilə görüşdəki çıxışından: 1992.
[347] Böyük Rəhbərin bir qrup adamla görüşdəki çıxışından: 1992.
[348] Yenə orada.
[349] Böyük Rəhbərin Bəsic Müqavimət Qüvvəsinin batalyon komandirləri ilə görüşdəki çıxışından: 1992.
[350] Yenə orada.
[351] Böyük Rəhbərin Qadınların Mədəni-İctimai Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1991.
[352] Böyük Rəhbərin ölkə qadınları ilə görüşdəki çıxışından: 1992.
[353] Böyük Rəhbərin Qadınların Mədəni-İctimai Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1991.
[354] Böyük Rəhbərin Qadın cəmiyyətinin Mərkəzi Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1992.
[355] Yenə orada.
[356] Böyük Rəhbərin həzrət Fatimənin (ə) doğum günü münasibəti ilə müxtəlif şəhərlərdən olan qadınlarla görüşdəki çıxışından: 1990.

[357] Böyük Rəhbərin ölkənin qadın həkimləri ilə görüşdəki çıxışından: 1990.
[358] Böyük Rəhbərin Qadınların Mədəni-İctimai Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1991.
[359] Böyük Rəhbərin həzrət Fatimənin (ə) doğum günü münasibəti ilə müxtəlif şəhərlərdən olan qadınlarla görüşdəki çıxışından: 1990.
[360] Böyük Rəhbərin Tibb işçiləri günü münasibəti ilə həkim və feldşerlərlə görüşdəki çıxışından: 1989.
[361] Böyük Rəhbərin həzrət Fatimənin (ə) doğum günü münasibəti ilə müxtəlif şəhərlərdən olan qadınlarla görüşdəki çıxışından: 1990.
[362] Böyük Rəhbərin ölkənin qadın həkimləri ilə görüşdəki çıxışından: 1990.
[363] Böyük Rəhbərin "Qadın şəxsiyyətinin araşdırılması" seminarına müraciətindən: 1989.
[364] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının qırxıncı günü münasibəti ilə müraciətindən: 1989.
[365] Böyük Rəhbərin Qadınların Mədəni-İctimai Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1991.
[366] Böyük Rəhbərin Tibb işçiləri günü münasibəti ilə həkim və feldşerlərlə görüşdəki çıxışından: 1989.
[367] Böyük Rəhbərin həzrət Fatimənin (ə) doğum günü münasibəti ilə müxtəlif şəhərlərdən olan qadınlarla görüşdəki çıxışından: 1990.
[368] Əhzab/32.
[369] Böyük Rəhbərin Qadın cəmiyyətinin Mərkəzi Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1992.
[370] Böyük Rəhbərin Qadın Günü münasibəti ilə ölkə qadınları ilə görüşdəki çıxışından: 1992.
[371] Böyük Rəhbərin həzrət Fatimənin (ə) doğum günü münasibəti ilə müxtəlif şəhərlərdən olan qadınlarla görüşdəki çıxışından: 1990.
[372] Böyük Rəhbərin ölkənin qadın həkimləri ilə görüşdəki çıxışından: 1990.
[373] Böyük Rəhbərin həzrət Fatimənin (ə) doğum günü münasibəti ilə müxtəlif şəhərlərdən olan qadınlarla görüşdəki çıxışından: 1990.
[374] Böyük Rəhbərin Qadınların Mədəni-İctimai Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1991.
[375] Əhzab/33.
[376] Böyük Rəhbərin Qadın Günü münasibəti ilə ölkə qadınları ilə görüşdəki çıxışından: 1992.
[377] Yenə orada.
[378] Böyük Rəhbərin Qadınların Mədəni-İctimai Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1991.
[379] Böyük Rəhbərin ölkənin qadın həkimləri ilə görüşdəki çıxışından: 1990.
[380] Böyük Rəhbərin Qadın Günü münasibəti ilə ölkə qadınları ilə görüşdəki çıxışından: 1992.
[381] Yenə orada.

[382] Böyük Rəhbərin Qadınların Mədəni-İctimai Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1991.
[383] Böyük Rəhbərin Qadın cəmiyyətinin Mərkəzi Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1992.
[384] Nur/31.
[385] Böyük Rəhbərin Qadınların Mədəni-İctimai Şurasının üzvləri ilə görüşdəki çıxışından: 1991.
[386] Yenə orada.
[387] Yenə orada.
[388] Böyük Rəhbərin Qum Elm Hövzəsinin müəllim və tələbələri ilə görüşdəki çıxışından: 1989.
[389] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[390] Böyük Rəhbərin "Baqir əl-ülum" adına Elmi-Mədəni Fondun əməkdaşlarının beyəti yeniləmə mərasimində çıxışından: 1990.
[391] Böyük Rəhbərin Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin alim və müəllimləri ilə görüşdəki çıxışından: 1992.
[392] Böyük Rəhbərin Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin tələbələri ilə görüşdəki çıxışından: 1992.
[393] Böyük Rəhbərin hövzənin Ali Şurasının yaradılması münasibəti ilə Qum Elm Hövzəsinin Müdərrislər cəmiyyətinə müraciətindən: 1992.
[394] Böyük Rəhbərin Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin tələbələri ilə görüşdəki çıxışından: 1992.
[395] Yenə orada.
[396] Böyük Rəhbərin Qum Elm Hövzəsinin müəllim və tələbələri ilə görüşdəki çıxışından: 1991.
[397] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[398] Böyük Rəhbərin Qum Elm Hövzəsinin müəllim və tələbələri ilə görüşdəki çıxışından: 1991.
[399] Böyük Rəhbərin Məşhəd Elm Hövzəsinin alim, müəllim və tələbələrinin beyət mərasimində çıxışından: 1989.
[400] Böyük Rəhbərin fiqh ali-ixtisas (xaric) dərsinin yeni mərhələsinin başlanğıcındakı söhbətlərindən: 1992.
[401] Böyük Rəhbərin Qum Elm Hövzəsinin müəllim və tələbələri ilə görüşdəki çıxışından: 1991.
[402] Böyük Rəhbərin Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin tələbələri ilə görüşdəki çıxışından: 1992.
[403] Böyük Rəhbərin Qum Elm Hövzəsinin müəllim və tələbələri ilə görüşdəki çıxışından: 1989.
[404] Yenə orada.

[405] Böyük Rəhbərin hövzənin Ali Şurasının yaradılması münasibəti ilə Qum Elm Hövzəsinin Müdərrislər cəmiyyətinə müraciətindən: 1992.
[406] Yenə orada.
[407] Böyük Rəhbərin Tehran və Qum şəhərlərinin bir qrup ruhanisi, Qum Elm Hövzəsinin İdarə heyətinin üzvləri və müəllimləri ilə görüşdəki çıxışından: 1990.
[408] Böyük Rəhbərin fiqh ali-ixtisas (xaric) dərsinin yeni mərhələsinin başlanğıcındakı söhbətlərindən: 1992.
[409] Yenə orada.
[410] Böyük Rəhbərin Məşhəd Elm Hövzəsinin alim, müəllim və tələbələrinin beyət mərasimində çıxışından: 1989.
[411] Böyük Rəhbərin fiqh ali-ixtisas (xaric) dərsinin yeni mərhələsinin başlanğıcındakı söhbətlərindən: 1992.
[412] Yenə orada.
[413] Böyük Rəhbərin hövzə alimlərinin beyət mərasimində çıxışından: 1989.
[414] Böyük Rəhbərin fiqh ali-ixtisas (xaric) dərsinin yeni mərhələsinin başlanğıcındakı söhbətlərindən: 1992.
[415] Böyük Rəhbərin məhərrəm ayı ərəfəsində ruhani və din təbliğatçıları ilə görüşdəki çıxışından: 1991.
[416] Furqan/1.
[417] Nuh/1.
[418] Məryəm/39.
[419] Yasin/70.
[420] Ənfal/24.
[421] Böyük Rəhbərin mübarək ramazan ayı ərəfəsində ruhanilərlə görüşdəki çıxışından: 1991.
[422] Yenə orada.
[423] Böyük Rəhbərin din alimləri, ruhanilər və məscid imamları ilə görüşdəki çıxışından: 1992.
[424] Böyük Rəhbərin Çahar-Mahal və Bəxtiyari vilayətinin din alimləri və ruhanilərinin toplantısında çıxışından: 1992.
[425] Yenə orada.
[426] Böyük Rəhbərin mübarək ramazan ayı ərəfəsində ruhanilərlə görüşdəki çıxışından: 1991.
[427] Böyük Rəhbərin cümə imamlarının ümumrespublika toplantısında çıxışından: 1991.
[428] Böyük Rəhbərin fiqh ali-ixtisas (xaric) dərsinin yeni mərhələsinin başlanğıcındakı söhbətlərindən: 1992.
[429] Böyük Rəhbərin məhərrəm ayı ərəfəsində ruhani və din təbliğatçıları ilə görüşdəki çıxışından: 1991.
[430] Qələm/51.
[431] Bəqərə/2.

[432] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin məsul işçiləri ilə görüşdəki çıxışından: 1992.
[433] Böyük Rəhbərin fiqh ali-ixtisas (xaric) dərsinin yeni mərhələsinin başlanğıcındakı söhbətlərindən: 1992.
[434] Böyük Rəhbərin Ümumdünya Əhli-beyt Cəmiyyətinin əməkdaşları ilə görüşdəki çıxışından: 1991.
[435] "Bihar əl-ənvar", c. 78, səh: 269.
[436] Böyük Rəhbərin Çahar-Mahal və Bəxtiyari vilayətinin din alimləri və ruhanilərinin toplantısında çıxışından: 1992.
[437] Böyük Rəhbərin fiqh ali-ixtisas (xaric) dərsinin yeni mərhələsinin başlanğıcındakı söhbətlərindən: 1992.
[438] Böyük Rəhbərin Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin alim və müəllimləri ilə görüşdəki çıxışından: 1992.
[439] Böyük Rəhbərin cümə imamlarının ümumrespublika toplantısında çıxışından: 1991.
[440] Böyük Rəhbərin məhərrəm ayı ərəfəsində ruhani və din təbliğatçıları ilə görüşdəki çıxışından: 1991.
[441] Böyük Rəhbərin Məşhəd şəhərinin din alimləri, ruhaniləri və hövzə tələbələri ilə görüşdəki çıxışından: 1990.
[442] Böyük Rəhbərin Çahar-Mahal və Bəxtiyari vilayətinin din alimləri və ruhanilərinin toplantısında çıxışından: 1992.
[443] Böyük Rəhbərin məhərrəm ayı ərəfəsində ruhani və din təbliğatçıları ilə görüşdəki çıxışından: 1991.
[444] Böyük Rəhbərin mübarək ramazan ayı ərəfəsində ruhanilərlə görüşdəki çıxışından: 1991.
[445] Böyük Rəhbərin Məşhəd Elm Hövzəsinin alim, müəllim və tələbələrinin beyət mərasimində çıxışından: 1989.
[446] Yunus/32.
[447] Böyük Rəhbərin Məşhəd Elm Hövzəsinin alim, müəllim və tələbələrinin beyət mərasimində çıxışından: 1989.
[448] Böyük Rəhbərin Feyziyyə mədrəsəsində Qum Elm Hövzəsinin alim və müəllimləri ilə görüşdəki çıxışından: 1992.
[449] Yenə orada.
[450] Böyük Rəhbərin ruhanilər və din təbliğatçıları ilə görüşdəki çıxışından: 1989.
[451] Böyük Rəhbərin İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışından: 1991.
[452] Böyük Rəhbərin hövzə alimlərinin beyət mərasimində çıxışından: 1989.
[453] Böyük Rəhbərin ölkə üzrə cümə imamlarının toplantısında çıxışından: 1989.
[454] Böyük Rəhbərin cümə imamlarının ümumrespublika toplantısında çıxışından: 1991.
[455] Yenə orada.

[456] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin şair, yazıçı və sənət adamları ilə görüşdəki çıxışından: 1989.
[457] Yenə orada.
[458] Böyük Rəhbərin "Hövzə şeiri" konfransının iştirakçıları ilə görüşdəki çıxışından: 1991.
[459] Yenə orada.
[460] Böyük Rəhbərin Şahid televiziya şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[461] Yenə orada.
[462] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin Müharibə incəsənəti və ədəbiyyatı şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1991.
[463] Böyük Rəhbərin radionun Uşaq və yeniyetmə şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[464] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[465] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının qırxıncı günü münasibəti ilə müraciətindən: 1989.
[466] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin şair, yazıçı və sənət adamları ilə görüşdəki çıxışından: 1989.
[467] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin sənət adamları ilə görüşdəki çıxışından: 1989.
[468] Yenə orada.
[469] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin ədəbiyyatçıları ilə görüşdəki çıxışından: 1993.
[470] Böyük Rəhbərin Şahid televiziya şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[471] Böyük Rəhbərin Uşaq və Yeniyetmələrin Düşüncə İnkişafı Mərkəzinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[472] Böyük Rəhbərin Mədəniyyət Naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[473] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin şair, yazıçı və sənət adamları ilə görüşdəki çıxışından: 1989.
[474] Yenə orada.
[475] Böyük Rəhbərin Müsəlman Yazıçılar Birliyinin üzvləri ilə görüşdəki çıxışından: 1992.
[476] Böyük Rəhbərin Uşaq və Yeniyetmələrin Düşüncə İnkişafı Mərkəzinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[477] Böyük Rəhbərin Müsəlman Yazıçılar Birliyinin üzvləri ilə görüşdəki çıxışından: 1992.
[478] Böyük Rəhbərin Uşaq və Yeniyetmələrin Düşüncə İnkişafı Mərkəzinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.

[479] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin Müharibə incəsənəti və ədəbiyyatı şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1991.
[480] İbrahim/24-25.
[481] Böyük Rəhbərin Müsəlman Yazıçılar Birliyinin üzvləri ilə görüşdəki çıxışından: 1992.
[482] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin ədəbiyyatçı və sənətkarları ilə görüşdəki çıxışından: 1992.
[483] Böyük Rəhbərin Müharibə Əlilləri Fondunun Ədəbiyyat şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1993.
[484] Yenə orada.
[485] Böyük Rəhbərin Təbriz şəhərinin şair, ədib və incəsənət xadimlərinin toplantısında çıxışından: 1993.
[486] Böyük Rəhbərin Uşaq və Yeniyetmələrin Düşüncə İnkişafı Mərkəzinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[487] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin ədəbiyyatçı və sənətkarları ilə görüşdəki çıxışından: 1992.
[488] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin şairləri ilə görüşdəki çıxışından: 1990.
[489] Böyük Rəhbərin Şahid televiziya şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[490] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin ədəbiyyatçı və sənətkarları ilə görüşdəki çıxışından: 1992.
[491] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin Müharibə incəsənəti və ədəbiyyatı şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1991.
[492] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin ədəbiyyatçı və sənətkarları ilə görüşdəki çıxışından: 1992.
[493] Böyük Rəhbərin Müharibə Əlilləri Fondunun Ədəbiyyat şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1993.
[494] Böyük Rəhbərin Təlim və tərbiyə naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[495] Böyük Rəhbərin Mədəniyyət və Ali Təhsil Nazirliyinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[496] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1991.
[497] Böyük Rəhbərin fəhlə və müəllimlərlə görüşdəki çıxışından: 1991.
[498] Böyük Rəhbərin Mədəniyyət və Ali Təhsil Nazirliyinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[499] Böyük Rəhbərin hövzə və universitet tələbələri və xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1990.
[500] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1989.
[501] Böyük Rəhbərin tələbələrin beyət mərasimində çıxışından: 1989.

[502] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1989.
[503] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[504] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1993.
[505] Böyük Rəhbərin tələbələrin beyət mərasimində çıxışından: 1989.
[506] Yenə orada.
[507] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1991.
[508] Böyük Rəhbərin Tibb universitetlərinin rektorları ilə görüşdəki çıxışından: 1990.
[509] Böyük Rəhbərin 4 noyabr münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışından: 1992.
[510] Böyük Rəhbərin Qlobal Hegemonizmə qarşı Milli Mübarizə Günü münasibəti ilə müraciətindən: .1990
[511] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının qırxıncı günü münasibəti ilə müraciətindən: 1989.
[512] Böyük Rəhbərin hövzə və universitet tələbələri ilə görüşdəki çıxışından: 1990.
[513] Böyük Rəhbərin Tibb universitetlərinin rektorları ilə görüşdəki çıxışından: 1990.
[514] Böyük Rəhbərin hövzə və universitet tələbələri ilə görüşdəki çıxışından: 1990.
[515] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[516] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının qırxıncı günü münasibəti ilə müraciətindən: 1989.
[517] Böyük Rəhbərin ölkə universitetlərindəki nümayəndələrinə dair sərəncamından: 1989.
[518] Böyük Rəhbərin Mədəniyyət və Ali Təhsil Nazirliyinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[519] Yenə orada.
[520] Böyük Rəhbərin Tibb universitetlərinin rektorları ilə görüşdəki çıxışından: 1990.
[521] Böyük Rəhbərin Mədəniyyət və Ali Təhsil Nazirliyinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[522] Yenə orada.
[523] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1991.
[524] Yenə orada.
[525] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1989.
[526] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1991.
[527] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1989.

[528] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1991.
[529] Böyük Rəhbərin Mədəniyyət və Ali Təhsil Nazirliyinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[530] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1989.
[531] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətindən: 1990.
[532] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1989.
[533] Yenə orada.
[534] Yenə orada.
[535] Böyük Rəhbərin Mədəniyyət və Ali Təhsil Nazirliyinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[536] Böyük Rəhbərin tələbələrin beyət mərasimində çıxışından: 1989.
[537] Böyük Rəhbərin Mədəniyyət və Ali Təhsil Nazirliyinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[538] Böyük Rəhbərin prezident və Dövlət şurasının üzvləri ilə görüşdəki çıxışından: 1989.
[539] Böyük Rəhbərin Şahid (şəhid övladları üçün nəzərdə tutulmuş) orta məktəblərin nümunəvi şagirdləri ilə görüşdəki çıxışından: 1989.
[540] Böyük Rəhbərin Mədəniyyət və Ali Təhsil Nazirliyinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[541] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1993.
[542] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1989.
[543] Böyük Rəhbərin fəhlə və müəllimlərlə görüşdəki çıxışından: 1990.
[544] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[545] Böyük Rəhbərin radionun Uşaq və yeniyetmə şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[546] Böyük Rəhbərin Müsəlman Yazıçılar Birliyinin üzvləri ilə görüşdəki çıxışından: 1991.
[547] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[548] Böyük Rəhbərin Mədəniyyət Naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[549] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1993.
[550] Yenə orada.
[551] Yenə orada.

[552] Yenə orada.
[553] Böyük Rəhbərin Mədəni İnqilab Ali Şurasının əməkdaşları ilə görüşdəki çıxışından: 1989.
[554] Böyük Rəhbərin İslam Respublikası radiosunun Xüsusi şöbəsinin üzvləri ilə görüşdəki çıxışından: 1989.
[555] Böyük Rəhbərin Mədəniyyət Naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[556] Böyük Rəhbərin Uşaq və Yeniyetmələrin Düşüncə Tərbiyəsi Mərkəzinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[557] Böyük Rəhbərin Mədəniyyət Naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[558] Böyük Rəhbərin radio və televiziyanın Ali Şurasının üzvləri və icraçı məmurları ilə görüşdəki çıxışından: 1991.
[559] Böyük Rəhbərin Mədəniyyət Naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[560] Yenə orada.
[561] Böyük Rəhbərin Müsəlman Yazıçılar Birliyinin üzvləri ilə görüşdəki çıxışından: 1992.
[562] Böyük Rəhbərin Mədəniyyət Naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[563] Böyük Rəhbərin İslam Təbliğatı Komitəsinin İncəsənət şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1993.
[564] Böyük Rəhbərin Mədəniyyət Naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[565] Böyük Rəhbərin Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[566] Böyük Rəhbərin Mədəniyyət Naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[567] Yenə orada.
[568] Böyük Rəhbərin Təlim və tərbiyə naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[569] Yenə orada.
[570] Böyük Rəhbərin radionun Uşaq və yeniyetmə şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[571] Yenə orada.
[572] Böyük Rəhbərin Təlim və tərbiyə naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[573] Yenə orada.
[574] Böyük Rəhbərin fəhlə və müəllimlərlə görüşdəki çıxışından: 1990.
[575] Böyük Rəhbərin Təlim və tərbiyə naziri və nazirliyin əməkdaşları ilə görüşdəki çıxışından: 1989.

[576] Böyük Rəhbərin Keyhan müəssisəsindəki nümayəndəsi haqda sərəncamından: 1991.
[577] Yenə orada.
[578] Yenə orada.
[579] Böyük Rəhbərin həzrət İmam Xomeyninin vəfatının qırxıncı günü münasibəti ilə müraciətindən: 1989.
[580] Böyük Rəhbərin Mədəniyyət Naziri və nazir müavinləri ilə görüşdəki çıxışından: 1992.
[581] Böyük Rəhbərin İran İslam Respublikası teleradiosunun vilayət mərkəzlərinin başçıları ilə görüşdəki çıxışından: 1992.
[582] Böyük Rəhbərin İran İslam Respublikası teleradiosunun məsul şəxsləri ilə görüşdəki çıxışından: 1990.
[583] Böyük Rəhbərin İran İslam Respublikası televiziyasının ikinci kanalının əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[584] Böyük Rəhbərin radionun Uşaq və yeniyetmə şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[585] Böyük Rəhbərin İran İslam Respublikası teleradiosunun məsul şəxsləri ilə görüşdəki çıxışından: 1990.
[586] Böyük Rəhbərin radio və televiziyanın Ali Şurasının üzvləri və icraçı məmurları ilə görüşdəki çıxışından: 1991.
[587] Böyük Rəhbərin İran İslam Respublikası teleradiosunun məsul şəxsləri ilə görüşdəki çıxışından: 1989.
[588] Höccətülislam Duaqunun radio və televiziyanın Ali Şurasının sədri vəzifəsinə təyin olunmasına dair sərəncamdan: 1989.
[589] Böyük Rəhbərin İran İslam Respublikası teleradiosunun məsul şəxsləri ilə görüşdəki çıxışından: 1990.
[590] Yenə orada.
[591] Yenə orada.
[592] Yenə orada.
[593] Böyük Rəhbərin İran İslam Respublikası televiziyasının ikinci kanalının əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[594] Böyük Rəhbərin İran İslam Respublikası radiosunun Mədəniyyət, ədəbiyyat və incəsənət şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[595] Böyük Rəhbərin İran İslam Respublikası teleradiosunun İctimai şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[596] Böyük Rəhbərin radio və televiziyanın Ali Şurasının üzvləri və icraçı məmurları ilə görüşdəki çıxışından: 1991.
[597] Yenə orada.
[598] Yenə orada.
[599] Böyük Rəhbərin fəhlə və müəllimlərlə görüşdəki çıxışından: 1991.
[600] Böyük Rəhbərin radio və televiziyanın Ali Şurasının üzvləri və icraçı məmurları ilə görüşdəki çıxışından: 1991.

[601] Böyük Rəhbərin İran İslam Respublikası radiosunun Tarix şöbəsinin əməkdaşları ilə görüşdəki çıxışından: 1992.
[602] Böyük Rəhbərin həkim və feldşerlərlə görüşdəki çıxışından: 1989.
[603] Kafirun/3-4.
[604] Böyük Rəhbərin 7 Tir şəhidlərinin ailələrinin və məhkəmə orqanlarının əməkdaşlarının beyət mərasimində çıxışından: 1989.
[605] Böyük Rəhbərin Məşhəd şəhərinin din alimləri, ruhaniləri və hövzə tələbələri ilə görüşdəki çıxışından: 1990.
[606] Böyük Rəhbərin Tehranın din alimləri, ruhaniləri və məscid imamları ilə görüşdəki çıxışından: 1992.
[607] Böyük Rəhbərin korpus komandirləri ilə görüşdəki çıxışından: 1992.
[608] Böyük Rəhbərin Tehranın din alimləri, ruhaniləri və məscid imamları ilə görüşdəki çıxışından: 1992.
[609] Yenə orada.
[610] Böyük Rəhbərin Bəsic üzvlərinin beyət mərasimində çıxışından: 1989.
[611] Böyük Rəhbərin Çahar-Mahal və Bəxtiyari vilayətinin məsul şəxsləri ilə görüşdəki çıxışından: 1992.
[612] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1992.
[613] Böyük Rəhbərin Bəsic Müqavimət Qüvvəsinin batalyon komandirləri ilə görüşdəki çıxışından: 1992.
[614] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışından: 1992.